- 24193 -

HEYDƏR ƏLİYEV ADINA
BAKI-TBİLİSİ-CEYHAN
NEFT KƏMƏRİ

# ƏFSANƏDƏN GERÇƏKLİYƏ

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI-2007

Heydər Əliyev adına

btc neft kəməri

ƏFSANƏDƏN GERÇƏKLİYƏ

Çətin və mürəkkəb danışıqlar prosesindən sonra, 1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Bakıda, "Gülüstan" sarayında Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının işlənməsi haqqında xarici neft şirkətləri ilə bağlanmış müqavilə Azərbaycanın qədim neft tarixində yeni dövr açdı.

Miqyasına və əhəmiyyətinə görə sonradan bütün dünyada "Əsrin müqaviləsi" adlandırılan bu müqavilə Azərbaycanın müstəqilliyi və rifahı naminə Prezident Heydər Əliyev tərəfindən hazırlanmış və Xəzər regionunu dünyanın yeni neft mərkəzlərindən birinə çevirmiş neft strategiyasının reallaşdırılmasının başlanğıcını qoydu.

Azərbaycanın uzunmüddətli strateji maraqlarının, siyasi, iqtisadi mənafelərinin, genişmiqyaslı beynəlxalq əməkdaşlığının təmin edilməsi, eyni zamanda regionda sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar edilməsi üçün Prezident Heydər Əliyev tərəfindən həyata keçirilən neft stategiyasında növbəti mühüm addım isə çoxvariantlı ixrac modelinin müəyyənləşdirilməsi oldu ki, bunun da ana xəttini və əsas məqsədini Bakı-Tbilisi-Ceyhan layihəsi təşkil edirdi.

Xəzər dənizindən hasil edilən neftin dünya bazarlarına ixracı yollarını müəyyənləşdirən Prezident Heydər Əliyevin qəti və sarsılmaz mövqeyi məhz əsas ixrac boru kəmərinin Azərbaycandan Gürcüstan ərazisi ilə Türkiyənin Aralıq dənizində yerləşən Ceyhan limanına çəkilməsi idi.

Lakin bu ideya ortaya çıxandan, sonralar layihə ilə əlaqədar ilk sənədlər qəbul olunanda və hətta inşaat işlərinə başlananda da çoxları onu qeyri-real, mümkün olmayan, kommersiya baxımından səmərəsiz, baş tutmayacaq layihə kimi qəbul edirdi.

Layihənin böyük təhlükələrə məruz qalacağını və hər cür təzyiqlərə davam gətirməli olacağını çox yaxşı bilən Heydər Əliyev tutduğu yoldan dönmədi, yüksək nüfuzu, ardıcıl, inadlı və qətiyyətli siyasəti ilə bütün çətinlikləri, əngəlləri və maneələri dəf edərək məqsədinə doğru böyük inamla irəlilədi.

Prezident Heydər Əliyev özünə xas uzaqgörənlik, müdriklik və cəsarətlə miqyasına görə dünyada analoqu olmayan çox nəhəng bir layihəni yaratdı və onun həyata keçirilməsinə bilavasitə başçılıq etdi.

Qara dəniz boğazlarından yan keçərək, Xəzərlə Aralıq dənizini birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşası yalnız Prezident Heydər Əliyevin gərgin siyasi mübarizəsi nəticəsində mümkün oldu. Buna görə də Bakı-Tbilisi-Ceyhan neft kəməri və Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan terminalı bu gün haqlı olaraq Heydər Əliyevin adını daşıyır.

Bu layihənin təməlini qoyan Prezident Heydər Əliyevin və onu uğurla davam etdirib başa çatdıran Prezident İlham Əliyevin əvəzsiz xidmətləri və səyləri sayəsində dünyanın ən böyük enerji layihəsi sayılan, Şərq-Qərb enerji-nəqliyyat dəhlizinin əsasını təşkil edən Bakı-Tbilisi-Ceyhan neft kəməri artıq Xəzərin enerji ehtiyatlarını dünya bazarlarına çıxarmağa qadir olan nadir nəqliyyat infrastukturu kimi fəaliyyət göstərir.

Müəllifi, memarı və banisi Heydər Əliyev olan Bakı-Tbilisi-Ceyhan neft kəməri bir vaxtlar çoxlarına əlçatmaz arzu, əfsanə və xülya kimi görünən layihədən bu gün artıq Heydər Əliyev zəkası, dühası və qüdrəti ilə reallığa, həqiqətə və gerçəkliyə çevrilmişdir. Bu, Heydər Əliyevin neft strategiyasının zəfəri və təntənəsidir.





# Tarixi müqavilələr imzalanır

**BAKI, 20 SENTYABR 1994-CÜ İL**



# "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi haqqında müqavilənin - "Əsrin müqaviləsi"nin imzalanması

1994-cü il sentyabrın 20-də Bakıda, "Gülüstan" sarayında Xəzər şelfində neft yataqlarının birgə işlənməsi haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə bir qrup xarici şirkət arasında müqavilə imzalanması münasibətilə təntənəli mərasim keçirildi.

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev böyük nitq söylədi.

**Azərbaycan Prezidenti
Heydər Əliyevin nitqi**

- Xanımlar və cənablar, hörmətli qonaqlar!

Bu gün Azərbaycan Respublikasının həyatında tarixi bir hadisə baş verir. Xəzərin Azərbaycan Respublikasına aid sektorunda "Azəri", "Çıraq" neft yataqlarının və "Günəşli" neft yatağının bir hissəsinin müştərək işlənməsi haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında üç il davam edən danışıqlar sona çatmış və müştərək işlər aparılması üçün müqavilənin layihəsi hazırlanıb təqdim edilmişdir.

Bu gün biz Azərbaycanın paytaxtında, Bakıda, bu gözəl "Gülüstan" sarayında müqavilənin imzalanması mərasiminə toplaşmışıq. Müqavilənin imzalanması ilə əlaqədar olaraq Bakıya xarici ölkələrdən dövlət nümayəndələri, qonaqlar gəlmişlər. Bakıya, bu mərasimdə iştirak etməyə gələn qonaqlarımızın hamısını ürəkdən salamlayır, onlara "Xoş gəlmisiniz!" deyirəm.

Azərbaycan Dövlət Neft Şirkətinin xarici ölkələrin neft şirkətləri ilə apardığı danışıqlar bu ölkələrin dövlət və hökumətlərinin himayəsi altında olmuş və onlar tərəfindən dəstəklənmişdir. Müqavilənin imzalanması mərasiminə xarici ölkələrin nümayəndə heyətləri gəlmişlər. Bu mərasimdə iştirak edən Amerika Birləşmiş Ştatlarının, Rusiya Federasiyasının, Böyük Britaniya Krallığının, Türkiyə Cümhuriyyətinin, Norveçin nümayəndə heyətlərini ürəkdən salamlayır, onlara "Xoş gəlmisiniz!" deyirəm.

Bu tarixi mərasimdə iştirak edən Türkiyə Cümhuriyyətinin dövlət naziri hörmətli Nəcməddin Cövhərini salamlayıram. Böyük Britaniya Krallığının energetika naziri hörmətli cənab Tim Eqqarı salamlayıram. ABŞ energetika nazirinin müavini hörmətli cənab Uilyam Uaytı salamlayıram. Norveç dövləti sənaye və energetika nazirinin birinci müavini hörmətli cənab Qunnar Murvanqı salamlayıram. Rusiya Federasiyasının Yanacaq və Energetika Nazirliyi Baş İdarəsinin rəisi hörmətli cənab Stanislav Puqaçı salamlayıram. Bu mərasimdə iştirak etmək üçün zəhmət çəkib Bakıya gələn və bizim sıralarımızda olan Böyük Britaniya parlamentinin üzvlərini, İngiltərə-Azərbaycan Dostluğu Cəmiyyətinin nümayəndə heyətini salamlayıram. Bizim mərasimdə iştirak edən İslam İnkişaf Bankının prezidenti hörmətli cənab Osam Cəfər Fakihi salamlayıram. Aərbaycandakı diplomatik korpusun nümayəndələrini, hörmətli səfirləri, beynəlxalq təşkilatların nümayəndələrini və rəhbərlərini salamlayıram.

Azərbaycan Dövlət Neft Şirkəti xarici ölkələrin neft şirkətləri və onların sonradan birləşdikləri konsorsium ilə üç il müddətində danışıqlar aparmış, müqavilənin layihəsini birlikdə hazırlamışlar. Bu böyük neft şirkətlərinin nümayəndə heyətləri bizim bugünkü mərasimdə iştirak edirlər. Mən onları ürəkdən salamlayıram. "Amoko" şirkətinin prezidenti cənab Uilyam Laurini salamlayıram. "bp" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Con Braunu salamlayıram. "Statoyl" şirkətinin nümayəndə heyətini, onun başçısı cənab Yotan Nikvoldu salamlayıram. "LUKoyl" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Vahid Ələkbərovu salam-






layıram. "MakDermott" şirkətinin nümayəndə heyətini, onun başçısı cənab Uilyam Vitnisi salamlayıram. "Pennzoyl" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Tomas Hamiltonu salamlayıram. "Remko" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti Stiv Rempi salamlayıram. "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətinin nümayəndə heyətini, onun başçısı cənab Sidqi Səncəri salamlayıram. "Yunokal" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Con Aymlı salamlayıram. "Delta" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Bədr əl-Əybanı salamlayıram.

Hörmətli xanımlar və cənablar!

Neft Azərbaycan Respublikasının və Azərbaycan xalqının ən böyük milli sərvətidir. Azərbaycan qədim dövrlərdən neft diyarıdır, neft və qaz kimi təbii sərvətlərə malikdir. Buna görə də Azərbaycanı "Odlar diyarı" adlandırırlar. Azərbaycanda neft çıxarılması, ondan istifadə edilməsi, neftin emal olunması böyük tarixə malikdir. 1847-ci ildə Azərbaycanda - Bakıda, Bibiheybətdə ilk dəfə olaraq neft fontan vurmuşdur. Azərbaycanda neftin sənaye üsulu ilə çıxarılması prosesi də o vaxtdan başlanmışdır. 1872-ci ildə Nobel qardaşları Bakıda ilk neft şirkəti yaratmışlar və bununla da Azərbaycan neftindən istifadə etmək üçün xarici ölkələrin şirkətləri, xarici kapital ölkəmizə gəlməyə başlamışdır.

Beləliklə, XIX əsrin ikinci yarısında bir sıra dünya ölkələri, inkişaf etmiş dövlətlərin şirkətləri Azərbaycanda, Bakıda neft çıxarılmasına böyük maraq göstərmişlər. Həmin əsrin sonundan etibarən Bakı neftinin çıxarılması üçün bir çox xarici ölkələrin şirkətləri fəaliyyətə başlamışlar. 1872-ci ildə Azərbaycanda 26 min ton neft çıxarılmışdır. Cari əsrin əvvəlində, 1900-cü ildə Azərbaycanda artıq 10 milyon ton neft hasil olmuşdur ki, bu da Rusiyada çıxarılan neftin 95 faizini, dünyada çıxarılan neftin isə 50 faizini təşkil etmişdir. XX əsrin birinci 20 ilində də Azərbaycanda xarici ölkələrin neft şirkətləri və yerli sahibkarlar Bakı neftinin çıxarılması, emalı üçün çox böyük fəaliyyət göstərmişlər və Azərbaycanda neft sənayesi inkişaf etmişdir.

Bu dövrü şərti olaraq Azərbaycanda neft sənayesi tarixinin birinci mərhələsi adlandırmaq olar. Həmin dövrdə Bakı neftindən bütün dünyada istifadə edilmişdir. Azərbaycan nefti xarici ölkələrin şirkətlərinə böyük mənfəət gətirmişdir. Azərbaycanda böyük sahibkarlar meydana çıxmış, onlar külli miqdarda mənfəət əldə etmişlər. Həmin dövrdə Azərbaycan neft sənayesinin inkişafı Bakının, ümumiyyətlə Azərbaycanın inkişafına böyük təkan vermişdir. Azərbaycanın paytaxtı Bakı böyük sənaye şəhərinə çevrilmiş və o vaxtlar Rusiya imperiyası ərazisində ən iri sənaye mərkəzlərindən biri olmuşdur. Qədim tarixə malik olan Bakımız həmin dövrdə yeni sima kəsb etmiş, genişlənmiş, gözəlləşmişdir və burada o vaxtın tələblərinə uyğun müasir binalar, istehsal müəssisələri, zavodlar, digər sənaye obyektləri tikilmişdir. Bu gün biz həmin mərhələdə görülmüş işləri layiqincə qiymətləndirməli və Azərbaycanın, Bakının inkişafında neftimizin böyük rol oynadığını xüsusi qeyd etməliyik.

1918-ci ildə ölkəmizdə demokratik dövlət yaradılmış, Azərbaycan öz müstəqilliyini əldə etmiş və iki ilə yaxın müddətdə müstəqil dövlət kimi yaşamışdır. Bu dövlət xalqımıza mənsub olan sərvətlərdən onun rifahı naminə istifadə edilməsi üçün səylər göstərmişdir. Lakin təəssüflər olsun ki, bu səylər istənilən nəticəni verməmişdir. Çünki 1920-ci ildə Azərbaycan Demokratik Cümhuriyyəti süquta uğramışdır.

Həmin il Azərbaycanda sovet sosialist hakimiyyəti qurulmuşdur. Bundan sonra 70 il ərzində Azərbaycan həmin quruluş şəraitində, Sovet İttifaqının tərkibində olmuşdur. Azərbaycan xalqının ən böyük sərvəti olan neftdən Sovet İttifaqının mənafeyi naminə istifadə edilmişdir. Həmin dövrü Azərbaycanın neft sənayesinin həyatında ikinci dövr adlandırmaq olar. Bu dövrdə



Azərbaycanın neft sənayesi sürətlə inkişaf etmişdir. Sovet İttifaqının sənayesinin və iqtisadi qüdrətinin, sənaye potensialının inkişafı üçün Azərbaycanın neft sənayesi çox lazımlı olduğuna görə buraya böyük səylər yönəldilmişdir. Odur ki, Azərbaycanda neft sənayesinin inkişafında mühüm nailiyyətlər qazanılmışdır.

O dövrdə Azərbaycan neftçilərinin böyük ordusu yaranmışdır. Azərbaycanın neft və qaz sənayesi sürətlə inkişaf etmiş, böyük müəssisələr inşa olunmuşdur. Neft sahəsində böyük təhsil ocaqları, elmi-tədqiqat institutları yaradılmışdır. Neft sənayesi üçün yüksək səviyyəli mütəxəssislər hazırlamaq məqsədilə institut, indi Neft Akademiyası adlandırılan institut açılmışdır. Azərbaycan neftçiləri, mütəxəssisləri, alimləri, bir sözlə, neft sahəsində çalışan bütün adamlar respublikanın neft sənayesinin inkişafı üçün fədakarcasına işləmiş, Azərbaycanın tarixinə şanlı səhifələr yazmışlar.

Dediyim kimi, Azərbaycan neftindən onun özünün deyil, bütün Sovet İttifaqının inkişaf etməsi üçün istifadə olunmuşdur. 1941-1945-ci illərin müharibəsi dövründə Azərbaycan nefti bütün ölkədə çıxarılan neftin 75 faizini təşkil etmişdir. Həm də Azərbaycanın neft sənayesi, bizim neftçilərimiz bütün dünya üçün təhlükəli olan alman faşizminin məğlubiyyətə uğradılmasında, məhv edilməsində böyük xidmət göstərmişlər.

Sovet İttifaqının hər yerində yeni neft yataqlarının aşkara çıxarılmasında, onların istismar edilməsində Azərbaycanın neft sahəsində çalışan alimlərinin, mütəxəssislərinin, neftçilərimizin güclü fəaliyyəti olmuşdur. Təsadüfi deyildir ki, onların səyləri və əməyi sayəsində Sovet İttifaqı ərazisində aşkara çıxarılan yeni neft yataqları "İkinci Bakı", "Üçüncü Bakı" və "Dördüncü Bakı" adlandırılmışdır. Rusiyanın ən böyük neft yataqları olan Sibir, Tümen yataqlarının kəşf və istismar olunmasında, orada böyük neft və qaz komplekslərinin yaradılmasında Azərbaycan neftçilərinin əvəzsiz xidmətləri var və indiyədək də onlar həmin bölgələrdə çalışan neftçilərin əksəriyyətini təşkil edirlər.

Bu gün mən bütün bu məlumatları qonaqlarımıza çatdırmağı, Azərbaycan xalqına bir daha xatırlatmağı lazım bilirəm. Çünki bunların hamısı Azərbaycan xalqının fəxridir, şöhrətidir, xalqımızın, neftçilərimizin dünya iqtisadiyyatına göstərdikləri böyük xidmətlərdən xəbər verir.

Azərbaycan neftçilərinin böyük nailiyyətlərindən biri də ondan ibarətdir ki, onlar Xəzərdə neft çıxarılması üçün çox çalışmışlar. Bu sahədə istər 20-ci illərin əvvələrində, istərsə də 30-cu illərdə bir çox addımlar atılmış, Xəzər dənizində bol neft çıxarılmasına isə 1949-cu il noyabrın 7-dən başlanmışdır. Həmin gün Xəzərin indi Neft daşları adlandırdığımız sahəsində neft quyusu ilk dəfə fontan vurmuşdur.

Azərbaycanın dəniz neftçilərinin təcrübəsi ötən 45 il ərzində istər keçmiş Sovet İttifaqında, istərsə də dünyanın bir çox ölkələrində dənizin dərin qatlarından neft çıxarılması üçün örnək olmuşdur. Azərbaycan alimlərinin, neftçilərinin bu sahədə xidmətləri böyükdür.







Bildiyiniz kimi, üç il bundan qabaq xalqımız öz azadlığını əldə etmiş, Azərbaycan müstəqil respublika olmuşdur. Azərbaycan xalqı öz taleyinin sahibinə çevrilmişdir. Xalqımız təbii sərvətlərindən özü istədiyi kimi istifadə etmək imkanları qazanmışdır. Beləliklə, Azərbaycanın həyatında yeni dövr başlanmışdır. Neft sənayemizin tarixində də şərti olaraq üçüncü mərhələnin bünövrəsi qoyulmuşdur. İndi biz yeni mərhələdə müstəqil Azərbaycan Respublikasının iradəsini ifadə edərək, onun öz təbii sərvətlərindən istifadə etməsi üçün lazımi tədbirlər görürük. Son üç il ərzində xarici ölkələrin neft şirkətləri ilə danışıqlar aparılmış və sazişlər əldə edilmişdir.

Bu gün bu tarixi gündə, Azərbaycanda neftin sənaye üsulu ilə hasil və emal edilməsinə başlandığı dövrdən təxminən 150 il sonra mən Azərbaycan neftçilərinin bütün nəsillərinə, respublikamızın neft sahəsində çalışan alimlərinin, mütəxəssislərinin və fəhlələrinin hamısına bu dövrdə təbii sərvətlərimizi çıxarıb xalqımızın rifahının müəyyən qədər yaxşılaşmasına səy göstərdiklərinə görə, fədakar əməllərinə görə, böyük elmi kəşflərinə görə təşəkkürümü bildirirəm və onları indiyədək qazandıqları nailiyyətlər münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycanda neftin sənaye üsulu ilə istehsalına başlandığı vaxtdan indiyədək ölkəmizin ərazisində yerin təkindən - quruda və suda 1 milyard 325 milyon ton neft çıxarılmışdır. Xəzərin Azərbaycana aid hissəsində 45 ildə 400 milyon ton neft hasil edilmişdir. Bu müddətdə eyni zamanda 400 milyard kubmetrədək qaz çıxarılmışdır. Bütün bunlar böyük nailiyyətlərdir və gələcəkdə Azərbaycan Respublikasının iqtisadiyyatının, neft sənayesinin inkişafı üçün böyük əsas və təməldir.

Biz ötən dövrdə nə qədər çox neft çıxarsaq da, nə qədər böyük nailiyyətlər əldə etsək də, bir həqiqəti nəzərə çarpdırmalıyıq ki, son vaxtlaradək, yəni Azərbaycanın müstəqilliyi əldə olunan dövrədək xalqımız heç vaxt öz təbii sərvətlərinin sahibi olmamışdır. 1920-ci ilə qədər neftimiz həm xarici neft şirkətləri tərəfindən, həm də Azərbaycanın öz sahibkarları tərəfindən hasil edilsə də, Azərbaycanın, xüsusən Bakının inkişafı üçün böyük işlər görülsə də, xalq bu sərvətin sahibi deyildi.

1920-ci ildən başlayaraq, Azərbaycanın həyatında çox böyük dəyişikliklər baş vermişdir. Azərbaycan iqtisadiyyatı inkişaf etdirilmiş, respublikada nəhəng sənaye potensialı, elmi potensial yaradılmış, neft sənayemiz böyük tarixi yol keçmişdir. Ancaq yenə də Azərbaycan öz neftinin yeganə və tam sahibi olmamışdır. Bütün bu sərvətlərimiz özümüzə yox, sovet dövlətinə məxsus olmuşdur. İndi isə biz yeni bir mərhələdə yaşayırıq. Azərbaycan Respublikası müstəqil dövlətdir. Azərbaycan xalqı öz təbii sərvətlərinin sahibidir. Bu sərvətlərdən necə istifadə edilməsini xalqımızın özü sərbəst surətdə müəyyənləşdirir.



Neft yataqlarımızın müştərək işlənməsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin aparıcı neft şirkətləri arasında danışıqlar üç il ərzində məhz bu prinsiplər əsasında aparılmışdır. Şübhəsiz, danışıqlar hamar yolla getməmişdir. Burada çətinliklər də, eniş və yoxuşlar da olmuşdur. Lakin danışıqlar, nəhayət, başa çatdırılmışdır. Xarici ölkələrin zəngin təcrübəli böyük neft şirkətlərinin Azərbaycan neftinə marağı təbii haldır və biz bunu məmnuniyyətlə qəbul etmişik. Elə özümüz də buna böyük maraq göstərmişik və göstəririk.

Keçmiş dövrdən fərqli olaraq, indi bu məsələlər barədə Azərbaycan Respublikası hər bir ölkə ilə, o cümlədən bu neft şirkətlərinin mənsub olduqları ölkələrlə, xarici dövlətlərin neft şirkətləri ilə müstəqil surətdə danışıqlar aparır və bu danışıqlarda öz prinsiplərinin qəbul edilməsinə çalışır. Xəzərin Azərbaycana aid sektorundakı "Azəri" və "Çıraq" neft yataqlarının, "Günəşli" neft yatağının bir hissəsinin müştərək işlənməsi haqqında müqavilə Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında aparılan danışıqlar nəticəsində, nəhayət, hazırlanıb başa çatdırılmışdır. Bu müqavilə mənə, Azərbaycan Prezidentinə təqdim edilmişdir. Sizə məlum olduğu kimi, sentyabrın 14-də müqavilənin layihəsi təhlil edildikdən sonra mən onun Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən imzalanması haqqında fərman vermişəm. Xarici ölkələrin neft şirkətləri də layihənin imzalanması haqqında qərar qəbul etmişlər. Bu şirkətlərin mənsub olduqları ölkələrin dövlət rəhbərləri də xeyir-dua vermişlər. Bütün bunların məntiqi yekunu kimi indi biz buraya, müqavilənin imzalanması mərasiminə toplaşmışıq.

Açıq demək istəyirəm, müqavilədə Azərbaycan tərəfinin istək və arzularının heç də hamısı öz əksini tapmamışdır. Lakin biz başa düşürük ki, hər hansı bir müqavilə hər iki tərəfin mənafelərini təmin etməlidir. Qərb neft şirkətlərinin konsorsiumu öz mənafelərini təmin etməyə çalışmış, Azərbaycan Dövlət Neft Şirkəti isə Azərbaycan Respublikasının milli mənafelərini təmin etməyə səy göstərmişdir. Deyə bilərəm ki, görülən böyük və gərgin işin nəticəsində, tərəflərin məsələyə yüksək məsuliyyətlə yanaşması nəticəsində, nəhayət, hər iki tərəfin mənafelərinə cavab verən layihə hazırlanmışdır. Ona görə də mən bu gün imzalanacaq müqaviləni Azərbaycan Respublikasının indisi və gələcəyi üçün iqtisadi baxımdan mənfəətli hesab edirəm və onun imzalanmasına qərar vermişəm.

Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir. Azərbaycanda demokratik prinsiplərin bərqərar olması və inkişaf etməsi üçün geniş meydan açılmışdır. Azərbaycan Respublikası bazar iqtisadiyyatı yolu ilə getmək əzmindədir. Bu müqavilənin imzalanması bazar iqtisadiyyatının Azərbaycanda həyata keçirilməsi üçün ilk böyük addımdır. Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq, digər sahələrdə çalışan şirkətlərin də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dünyaya bir daha nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla müqavilədə iştirak edən şirkətlərin mənsub olduqları böyük ölkələrlə - Amerika Birləşmiş Ştatları, Rusiya, İngiltərə, Türkiyə, Norveç kimi dövlətlərlə dostluq əlaqələrinin, iqtisadi əməkdaşlığın və ümumiyyətlə, bütün sahələrdə əlaqələrin möhkəmlənəcəyinə ümid bəsləyirik.

Beləliklə, müqavilənin imzalanması üçün gözəl şərait yaranmışdır və biz bu gün böyük bir hadisənin şahidiyik. Müqavilənin imzalanması Azərbaycan Respublikasının həyatında, iqtisadiyyatında və xüsusən neft sənayesində yeni bir mərhələ açır. Müqavilə 30 il müddətinə bağlanır. Deməli, qarşımızda uzun bir yol var və böyük işlər, böyük vəzifələr durur. Müqaviləni hazırlayanlar yaxşı bilirlər, lakin mən buraya toplaşanlara, bütün Azərbaycan xalqına bəyan etmək istəyirəm ki, bu müqavilənin bağlanması nə qədər çətin idisə, onun həyata keçirilməsi ondan da çətin olacaqdır. Müqavilənin hər iki tərəf üçün, o cümlədən Azərbaycan xalqı üçün, müstəqil Azərbaycan Respublikası üçün mənfəəti və müsbət nəticələri onun ardıcıl surətdə icrasından asılıdır. Müqavilə ikitərəfli hərəkət olan yola bənzəyir: gərək hər iki tərəf eyni sürətlə hərəkət etsin. Şübhəsiz ki, burada xarici neft şirkətlərinin üzərinə çox böyük vəzifələr düşür. Ümidvar olduğumu bildirmək istəyirəm ki, həmin şirkətlər və onların mənsub olduqları ölkələrin dövlət orqanları bu müqavilənin həyata keçirilməsi üçün vaxtında lazımi tədbirlər görəcəklər.

Azərbaycan Respublikasının üzərinə düşən vəzifələr daha çətin, daha ağırdır. Bilirsiniz ki, Azərbaycan iqtisadiyyatı ağır böhran içərisindədir. Neft sənayesində də böyük çətinliklər yaranmışdır. Məhz bu böhrandan çıxmaq, Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək, xalqımızın rifahını qısa müddətdə lazımi səviyyəyə qaldırmaq üçün hamı əl-ələ verib müqavilənin həyata keçirilməsinə çalışmalıdır. Ümidvaram ki, Azərbaycanın

qəhrəman və təcrübəli neftçiləri, alimləri, mütəxəssisləri, iqtisadiyyatımızda bu sahə ilə məşğul olan şəxslər, bir sözlə, hamı bu vəzifəni ən böyük, ən şərəfli vəzifə kimi qəbul edib, onun həyata keçirilməsinə çalışacaqdır. Mən Azərbaycan Prezidenti kimi, bu müqavilənin imzalanmasına qərar verərək öz məsuliyyətimi hiss edirəm, sizə söz verirəm ki, onun həyata keçirilməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Bu gün bu təntənəli və möhtəşəm mərasimdə mən Azərbaycan neftçilərini, Azərbaycan xalqını, bütün Azərbaycan vətəndaşlarını bu əlamətdar, tarixi hadisə münasibətilə təbrik edirəm. Azərbaycan Dövlət Neft Şirkətinin bu sahədə çalışan nümayəndə heyətinin əməyini, ümumiyyətlə, şirkətin bu sahədə gördüyü işləri yüksək qiymətləndirir və onları nail olduqları müvəffəqiyyətlər münasibətilə təbrik edirəm. Bu müqavilənin hazırlanıb başa çatdırılması üçün böyük işlər görmüş olan xarici ölkələrin neft şirkətləri konsorsiumunun rəhbərlərini, həmin şirkətlərin işçilərinin hamısını ürəkdən təbrik edir, onlara xoş arzularımı yetirir və əmin olduğumu bildirmək istəyirəm ki, əməkdaşlığımız uğurlu olacaqdır.

Xarici neft şirkətlərinin mənsub olduqları ölkələrin - ABŞ-ın, Rusiyanın, Böyük Britaniyanın, Türkiyənin, Norveçin dövlət və hökumət başçılarını bu hadisə münasibətilə ürəkdən təbrik edirəm.

Biz bu müqavilə əsasında sıx birləşir, böyük əməkdaşlığa başlayırıq və mən şübhə etmirəm ki, əməkdaşlığımız uğurlu olacaq, buna maneçilik törədən bütün qüvvələr dəf ediləcək, müstəqil Azərbaycan Respublikası öz taleyinin, öz sərvətlərinin sahibi kimi, bu əməkdaşlıq sayəsində dünya birliyində, dünya iqtisadi birliyində layiqli yerini tutacaqdır.

Sizi, bu mərasimə toplaşanları, bütün bu məsələlərə müsbət maraq göstərənlərin hamısını bir daha ürəkdən təbrik edir, müqavilənin imzalanması üçün xeyir-dua verirəm. Xeyirli olsun, uğurlu olsun. Azərbaycan xalqının xoşbəxt gələcəyi naminə bu müqavilənin bu gün burada imzalanmasını ürəkdən təbrik edirəm. Sağ olun.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bildirdi ki, indi müqavilənin imzalanmasına başlanır. "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında saziş"i Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev və konsorsiuma daxil olan xarici neft şirkətlərinin prezidentləri imzaladılar.

Müqavilə imzalandıqdan sonra Heydər Əliyev dedi:

- Hörmətli xanımlar, cənablar, qonaqlar!

Müqaviləyə imza atıldı, müqavilə imzalandı. Müqaviləni bütün şirkətlərin - həm xarici ölkələrin şirkətlərinin rəhbərləri, həm də Azərbaycan Dövlət Neft Şirkətinin rəhbərləri imzaladılar. Eyni zamanda, müqaviləyə bizim mərasimdə iştirak edən xarici ölkələrin dövlət nümayəndə heyətlərinin başçıları da imza atdılar.

Artıq yolun çox hissəsini keçdik, bu yolun son nöqtəsinə çatdıq. Müqavilə imzalandı. Bu münasibətlə mən sizi, Azərbaycan Respublikasının bütün vətəndaşlarını təbrik edirəm.

Sonra müqavilənin imzalanması mərasimində xarici qonaqlar çıxış etdilər.

**"bp" şirkətinin prezidenti Con Braunun çıxışı**

Cənab Prezident, Zati-aliləri, nazirlər, xanımlar və cənablar! Bu müqavilənin imzalanması mərasimində iştirak etmək mənim üçün böyük şərəf və sevincdir. Bu gün bütün dünyanın nəzərləri Bakıya dikilmişdir. Çünki bu müqavilə yeni mərhələnin, yeni beynəlxalq münasibətlərin rəmzidir. Elə münasibətlər ki, onlar XXI əsrdə yeni dünya qurmağa kömək edə bilər.

Bu gün biz yeni yüzilliyin ən iri layihələrindən birinin əsasını qoyuruq. Elə bir layihə ki, enerji təchizatı sahəsində işgüzar münasibətlərin formaları və məzmununun dəyişdirilməsinə və ümumən, Azərbaycan xalqının uzun müddət ərzində tərəqqisinin təmin olunmasına kömək edəcəkdir. Uzun sürən və səylə aparılan danışıqlardan sonra biz sazişə gəldik. Bütün tərəflərin fikrincə, bu müqaviləni ədalətli hesab etmək olar. Burada hamının - peşəkarlığı və xoş məramı bu gün imzalanan sənədin hazırlanmasına imkan vermiş hər bir şəxsin xidməti olduqca böyükdür. Bu adamların çoxu buradadır. Məni yeganə bir hal kədərləndirir ki, bu anlarda Qurban Abasov aramızda yoxdur. O, elə bir insan idi ki, bütün həyatı neft sənayesinə həsr edilmişdi və onun peşəkarlığı, xidmətləri bütün dünyada yüksək qiymətləndirilir.

İndi, danışıqlar prosesinin sona yetdiyi vaxtda biz dərhal işə başlamalıyıq. İnvestisiyalar Azərbaycana yeni imkanlar açacaq və onun xalqı üçün minlərlə yeni iş yeri təmin edəcəkdir. Bu layihə Azərbaycanın tarixində ən böyük layihələrdən biri olacaqdır. Prezident Əliyev ötən həftə çox doğru qeyd etdi ki, bu hadisə son 75 ildə ilk dəfə olaraq beynəlxalq neft şirkətlərinin Azərbaycana qayıtması deməkdir. Neft hasilatına 18 aydan sonra başlanacaq və hasilat daim artaraq, 1997-ci ilin axırına yaxın gündə 80 min barrel səviyyəsinə çatacaqdır. Zaman çərçivələri məhduddur. Lakin biz əminik ki, müqavilənin bütün iştirakçıları qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün var qüvvə ilə səy göstərəcəklər.

Neft hasilatının artırılması neftə yerli ehtiyacları ödəyəcək və Azərbaycan üçün yeni mənfəət mənbəyi olacaqdır. Bütün bunlar vacibdir, lakin bu müqavilə, şübhəsiz, daha geniş əhəmiyyətə malikdir. O, Azərbaycanla qonşular və Qərb ölkələri arasında əlaqələr yaratmağa kömək edəcəkdir. Elə əlaqələr ki, onlar nəinki investisiyalara və işgüzar münasibətlərə, həm də dostluğa və qarşılıqlı mənafelərə əsaslanacaqdır. Bir çox ölkələrin nazirlərinin bu gün burada olması sübut edir ki, həmin ölkələr Azərbaycanı xalqlar ailəsinə - öz münasibətlərini qarşılıqlı etimada və xoş mərama əsaslanan açıq və namuslu əməkdaşlıq üzərində quran xalqlar ailəsinə qəbul etməyə hazırdırlar.

Beləliklə, bu, tarixi məqam və böyük xarüqələrin başlanğıcıdır. İndi onun əhəmiyyətini müəyyənləşdirmək çətindir. Biz səfərin harada sona yetəcəyini indi söyləyə bilmərik. Əmin olduğumuz bir şey varsa, o da budur ki, ilk addım atılmışdır. İndi gördüklərimizin hamısı, obrazlı desək, üfüqə doğru gedən uzun bir yolun göstəriciləridir. Müqaviləmiz otuz illik bir müddəti əhatə edir. Hər bir yeni il əvvəlki ilin nailiyyətlərinə əsaslanacaqdır. Hər bir yeni addım daha yaxşı qarşılıqlı anlaşmanı təmin edəcək və hər bir yeni müvəffəqiyyət yeni imkanlar açacaqdır.

Əminəm ki, hər bir növbəti mərhələdən sonra - 5, 10 və ya 20 ildən sonra biz öz qarşılıqlı münasibətlərimizdə yeni-yeni imkanlar açacağıq və 20 sentyabr 1994-cü il tarixi yaddaşımızda böyük bir səfərə yola düşdüyümüz gün kimi qalacaqdır. Cənab Prezident, bu günü qeyd etmək üçün, icazə verin, xarici neft şirkətləri adından Sizə hədiyyə təqdim edim. Sizə vermək istədiyim sənəd - söz mülahizənizə görə, yerli





xəstəxanalardan birinin təmiri üçün 5 milyon dollar bağışlamaq niyyətimizə dəlalət edir. Bu əlamətdar gündən yadigar olaraq Sizə üstündə xatirə sözləri yazılmış büllur vaza da təqdim etmək istəyirəm.

**"Amoko" şirkətinin prezidenti Uilyam Laurinin çıxışı**

- Çox hörmətli cənab Prezident, çox hörmətli qonaqlar! Amerika şirkəti adından mən burada iştirak edənlərin hamısına, bugünkü mərasimi reallığa çevirmək üçün son bir neçə ildə olduqca böyük səylər göstərən şəxslərin hamısma öz təşəkkür və minnətdarlığımı bildirmək istərdim.

Mən bu müddət ərzində bizə göstərilmiş təmkinə və səmimi qonaqpərvərliyə görə Azərbaycan xalqına da təşəkkürümü bildirmək istərdim. Bu, olduqca həyəcanlı andır və bizimlə Azərbaycan xalqı arasında əməkdaşlığın başlanğıcı deməkdir. Zənnimcə, əməkdaşlığımız qarşıdakı illər ərzində inkişaf edəcək və möhkəmlənəcəkdir. Bununla bərabər, bu gün bizim üçün kədərlidir, çünki Qurban Abasov burada bizimlə deyildir. Mən ürəkdən ümid edirəm ki, biz cənab Abasovun bu prosesin bünövrəsini qoyarkən nümayiş etdirdiyi kamillik və məqsədyönlülük səviyyəsini belə nəhəng neft yataqlarının işlənməsi mərhələsinə başladığımız dövrdə də qoruyub saxlaya biləcəyik.

Azərbaycan öz xalqının sayəsində, neft sənayesinin tarixinə, öz mütəxəssislərinə görə, habelə Xəzər dənizinin təbii və ekoloji xüsusiyyətlərinə görə nadir ölkədir. Azərbaycan mütəxəssisləri ilə aparılmış diskussiya və tədqiqatların gedişində biz çox böyük təcrübə və bilik əldə etdik.

Belə bir fakt bizə ümid verir ki, Dağlıq Qarabağda atəşin dayandırılması rejimi uzun müddətdir ki, davam edir. Biz inanırıq ki, bu, həmin münaqişənin müvəffəqiyyətlə həlli əlamətidir.

Bir neçə il ərzində biz danışıqlar stolu arxasında müxtəlif tərəflərdə əyləşmişdik. İndi bu müqaviləni imzalamaqla biz hamıya göstəririk ki, yataqların işlənməsinə başlayırıq. Sıx birləşmək və vahid komanda olmaq vaxtı çatır. Ümid və niyyətləri gələcəyə yönəltmək lazımdır. Tarix göstərir ki, zənginlik və tərəqqi birdən-birə deyil, uzun illər ərzində yalnız səmərəli və möhkəm təməlli əməkdaşlıq yolu ilə əldə edilir. Bu layihədə bilavasitə iştirak edən adamlar çalışacaqlar ki, yataqların işlənməsi uğurla getsin. Hələ çox problem həll edilməlidir. Buna baxmayaraq, mən əminəm ki, yaratmağa başladığımız əməkdaşlıq qarşıya qoyulmuş bütün vəzifələri yerinə yetirməyə kömək edəcəkdir.

Amerika şirkəti adından mən bu gün buraya toplaşanları bir daha təbrik etmək və Prezident Heydər Əliyevə onun layiqli xidmətinə görə minnətdarlığımı bildirmək, habelə Azərbaycan xalqını ölkənin gələcəyi üçün çox mühüm mərhələnin başlanması münasibətilə təbrik etmək istərdim. Sağ olun.



-24193-

**"Pennzoyl" şirkətinin prezidenti Tom Hamiltonun çıxışı**

- Cənab Prezident, cənab nazirlər, hörmətli qonaqlar!

Mən bu gün burada olmağımdan çox məmnunam. Dalbadal neçə ildir ki, Azərbaycana gəlirəm. Axırıncı səfərim zamanı yolum şəhərin cənub hissəsinə, ətraf qəsəbələrə, Qobustana düşdü. Bu, mənim üçün unudulmaz gün oldu. Özü də bir sıra səbəblərə görə. Orada olmayanlara deyə bilərəm ki, Qobustan dağlar, qayalar və mağaralar olan bir yerdir. Qaya və mağaralarda həkk olunmuş qədim rəsmlər, yazılar qədim tarixi və sivilizasiyanın inkişafını əks etdirir, insanların necə keşməkeşli yollar keçdiyinə, onların həyatının necə tədricən yaxşılaşdığına dəlalət edir.

"Pennzoyl" da Azərbaycana bir sıra səbəblərə görə, həm də əks mövqe tutan quvvələrin olmasına baxmayaraq gəlmişdir. Biz buraya Azərbaycan xalqına böyük məhəbbətlə, Azərbaycan neftçilərinin məharətinə, ustalığına, dühasına və yaradıcılığına böyük heyranlıqla və ehtiramla gəlmişik. Biz Azərbaycanın ən görkəmli neftçilərindən biri olan Qurban Abasovun xatirəsi qarşısında baş əyirik. Biz buraya Azərbaycanın və onun xalqının rifahı naminə işləmək üçün, birgə uzaq gələcək barədə düşüncələrlə gəlmişik. Fəlsəfəmiz bundan ibarətdir ki, biz Azərbaycan xalqına onun yeni təşəbbüslərində kömək etmək üçün gəlmişik. Bizim bu fəlsəfəmiz əməli işlə - qazın yığılmasına dair "Pennzoyl" şirkəti və ortağımız olan "Remko" şirkəti tərəfindən hazırlanmış layihənin həyata keçirilməsi ilə təsdiq edilir.

Qazın yığılmasına dair bu layihə əslində Azərbaycan Dövlət Neft Şirkəti ilə Qərb şirkətlərinin əlbir əməyinin bəhrəsidir. Həmin layihənin hazırlanması gedişində biz bir-birimizə dərindən hörmət bəsləməyi və bunu başa düşməyi öyrəndik ki, qarşılıqlı səylər və anlaşma olarsa, hər şeyin öhdəsindən gəlmək mümkündür. Bu layihəni hazırlayarkən biz birlikdə işləməyi öyrəndik. Elə bu da özlüyündə böyük nailiyyətdir.

Bu layihədə ən son vəzifəmiz zədələnmiş qaz kəmərini təmir etməkdən ibarət idi. 9 qaz kompressorundan 7-si tamamilə istismara verilmiş və qaz vurmağa hazırdır. Mən razılıq hissi ilə qeyd edirəm ki, dünən axşamdan sahilə qaz vurulmağa başlanmışdır. Biz qaz kəmərinin sınaqdan çıxarılmasını sona çatdırmışıq. Qazın yığılması layihəsi indi Azərbaycan üçün yeni bir işdir. Biz bu layihədə məmnuniyyətlə iştirak edirik. Çox fəxr edirik ki, mavi yanacaq Azərbaycanın ehtiyacları üçündür və qışda evləri qızdıracaqdır. Bu layihə bizə imkan verdi ki, təbii ehtiyatları milli ehtiyatlara çevirək.

Sənədin imzalanma prosesi hələ həyata keçirəcəyimiz vəzifələrlə müqayisədə çox asan addım olmuşdur. Layihəni birlikdə hazırlayıb başa çatdırmaq üçün hər iki tərəf böyük səy göstərmişdir. Biz bunu da başa düşməyi öyrəndik ki, müvəffəqiyyət heç də asan dayanacaq deyildir. Müvəffəqiyyət uzunmüddətli birgə səfərdir. Odur ki, bu gün müqavilənin imzalanması qarşılıqlı müvəffəqiyyətimizə doğru yolda ilk addımdır.

Bizim üçün indi ən başlıca vəzifə ümumi nailiyyət naminə birgə işləməyi öyrənməkdir. Müqavilə özözlüyündə belə təminatlar verə bilməz. Bizim görüşməyimiz yalnız başlanğıcdır. Birlikdə işləməyimiz prosesdir. Son nəticəyə nail olmaq isə artıq müvəffəqiyyət, birgə nailiyyətdir. Çox fəxr edirik ki, bizə Azərbaycan üçün yeni bir işdə iştirak etmək səadəti nəsib olmuşdur. Demək istərdim ki, bu müqavilə əslində ədalətli müqavilədir, çünki nə bu, nə də digər tərəf ondan tamamilə narazı deyildir. Mən Azərbaycan Neft Şirkəti tərəfindən danışıqları aparmış olan qrupun danışıqlar aparmaqda xüsusi mərhəmət və bacarığını qeyd etmək istərdim. Həmin qrupa cənab Natiq Əliyev başçılıq edirdi.

Mən cənab Prezident Əliyevin və Azərbaycan hökumətinin uzaqgörənliyini də qeyd etmək istərdim. Böyük yolumuzun başlanğıcında hamımıza uğurlar arzulayıram. Tam əminəm ki, bu müqavilənin müvəffəqiyyəti Azərbaycanın gələcəyinə və onun xalqının tərəqqisinə olduqca böyük töhfə verəcəkdir. Sağ olun.

**Türkiyənin dövlət naziri Nəcməddin Cövhərinin çıxışı**

- Hörmətli Cümhurbaşqanı, möhtərəm qonaqlar! Hamınızı Türkiyə Cümhuriyyəti adından və onun dost, qardaş xalqı adından saygı ilə salamlayıram.

Bu gün burada Azərbaycan Dövlət Neft Şirkəti ilə Qərb konsorsiumu arasında imzalanan və Azərbaycana böyük mənfəət gətirəcək bir müqavilənin bağlanması mərasimində iştirak edirik. Müqavilənin imzalanması Azərbaycan tarixində önəmli hadisədir və mühüm bir dönüş mərhələsinə çevriləcəkdir. Mən bu mərasimə ölkəmin xalqı və hökuməti adından gəlmişəm və müqavilənin imzalanmasına sadəcə iqtisadi bir hadisə kimi baxmıram. Müqavilə yalnız dənizdəki neftin çıxarılması demək deyildir, həm də dost və qardaş Azərbaycan Cümhuriyyətinin Qərb dünyası tərəfindən alqışlanması deməkdir. Mən xalqım adından bu hadisəni Qərbin Azərbaycan və onun bayrağı qarşısında baş əyməsi kimi qiymətləndirirəm. Xalqın ümumi sərvətindən onun rifahı naminə istifadə edilməlidir. Hörmətli Cümhurbaşqanı Heydər Əliyevin söylədiyi

Azərbaycan Respublikası Prezidentinin
İşlər idarəsi
PREZİDENT KİTABXANASI



kimi, bəşəriyyət neftdən müharibə üçün yox, insanların xoşbəxtliyi, rifahı, inkişafı üçün istifadə etməlidir.

Mənim bu mərasimdə gördüyüm diqqətəlayiq cəhətlərdən biri Xəzər dənizində və onun incisi olan Bakıda Şərq ilə Qərbin qovuşmasıdır. San-Fransisko bəyannaməsində deyilir ki, istiqlal hər bir insanın, hər bir ölkənin, hər bir millətin təbii hüququdur. Azad və müstəqil Azərbaycanın bu müqaviləni imzalaması münasibətilə türk xalqının keçirdiyi qüruru ifadə edirəm.

Bəşəriyyət bu mərhələyə gəlib çıxmaq üçün 50 il gözləməlidir. Mən bu mərasimə sadəcə dəvət olunmuş və müqaviləni imzalayan şəxs deyiləm, eyni zamanda bu müqavilə üçün qürur hissi keçirən adamam, öz hökumətimin burada təmsilçisiyəm. Müqaviləni hazırlayıb ortaya çıxaran Qərb ölkələrinə və onların konsorsiumuna, hörmətli Cümhurbaşqanımız kimi, mən də bu bölgədə yaşayan xalqlardan birinin nümayəndəsi kimi təşəkkürümü və təbriklərimi bildirmək istəyirəm. Dost və qardaş Azərbaycana və onun hörmətə layiq xalqına burada təbriklərimlə birlikdə, bütün türk millətinin, türk hökumətinin, onun Baş naziri professor Tansu Çillərin və dövlət başçısı hörmətli Süleyman Dəmirəlin təbriklərini və xoş arzularını yetirirəm.

### Böyük Britaniyanın energetika və sənaye naziri Tim Eqqarın çıxışı

- Cənab Prezident, nazirlər, dostlar. Mən olduqca şadam ki, Siz, cənab Prezident, bu əlamətdar hadisədə iştirak etmək üçün məni dəvət etməyi lazım bildiniz. Həmçinin şadam ki, İngiltərə parlamentinin üzvlərindən, həmkarlarımdan, üstəlik də Azərbaycanın digər dostlarından bu qədər adam bu salondadır. Cənab Prezident, doğru qeyd etdiniz ki, bu gün həqiqətən tarixi gündür. Bu gün uzun illər ərzində müxtəlif tərəflərin gərgin səylərindən sonra ən yüksək məqamdır. Lakin, bu gün bəlkə də ən başlıca məqamdır. Bu, yalnız başlanğıcdır. Mən qarşıdakı əməkdaşlığı nəzərdə tuturam. Əminəm ki, əməkdaşlığımız qarşıdakı otuz il ərzində, ola bilsin, ondan sonra da inkişaf edəcək və genişlənəcəkdir. Müqavilənin hər iki tərəf üçün bütün əhəmiyyətini lazımınca qiymətləndirmək sadəcə olaraq qeyri-mümkündür. Neft şirkətləri üçün bu müqavilə dünyanın uzun illər ərzində onlardan ötrü bağlı qalmış belə bir bölgəsində həm imtahandır, həm də bu mühüm işdir. Hərçənd "bp" kimi firma üçün bu müqavilə Azərbaycanla cari əsrin lap əvvəlindən başlanmış əlaqələri bərpa edir.

Azərbaycan üçün bu müqavilə iqtisadi tərəqqiyə doğru yolda çox iri addımdır. Cənab Prezident, mən həmçinin ümidvaram ki, müqavilə bütün Zaqafqaziya bölgəsində sülh istiqamətində də iri addım olacaqdır. Başa düşürəm ki, indi birinci dərəcəli vəzifə parlamentinizin müqaviləni təsdiqləməsini xahiş etməkdən ibarətdir. Axı aydın nəzərə çarpır ki, bu, əsas mərhələdir. Buna görə də ümidvaram ki, cənab Mirzəyev başda olmaqla parlament komissiyasını ölkəmizdə qəbul edərək mən də öz tərəfimdən az da olsa kömək göstərə biləcəyəm. Bu komissiya ölkəmizə yaxın vaxtlarda, növbəti ayın əvvəlində gələcəkdir. Əlbəttə, müqavilə təsdiqləndikdən sonra yerin təkindən neftin çıxarılması və onun sabit valyutalı bazarlara çatdırılmasının təmin edilməsi üstün istiqamət olacaqdır. Şübhə yoxdur ki, bu prosesin gedişində qarşıya çoxlu problem çıxacaqdır. Lakin mən əminəm ki, dənizin dərin hissələrində aparılan işlərdə yerli biliklərin, Azərbaycan Dövlət Neft Şirkətinin təcrübəsinin xarici neft şirkətlərinin bilikləri ilə əlaqələndirilməsi hesabına hər cür çətinlikləri dəf etmək mümkün olacaqdır.

Cənab Prezident, mən Sizi, hər şeydən əvəl, belə müqaviləyə razılıq vermək barədə uzaqgörənliklə qərar qəbul etməyiniz münasibətilə təbrik etmək istərdim. Mən əminəm ki, həmvətənlərimiz Sizə yalnız minnətdar olacaqlar. Üzü də uzun illər üçün bəri başdan minnətdar olacaqlar. Şəxsən mən Sizi əmin edirəm ki, İngiltərə hökuməti bu müqaviləni alqışlayır, həm də çox səmimiyyətlə. Bununla əlaqədar Sizə bildirməyə şadam ki, Böyük Britaniyanın Baş naziri Con Meycorun, bizim Ticarət Nazirliyi idarə heyətinin prezidenti Maykl Hezltaynın Sizə şəxsi məktublarını gətirmişəm. Onların məktublarında bugünkü tarixi nailiyyətlə əlaqədar Sizin ünvanınıza təbriklər ifadə edilmişdir.

Dostlar, iş əla görülmüşdür. Əhsən! Belə düşünürəm ki, perspektivlər də həqiqətən olduqca parlaqdır. Sizə təşəkkür edirəm.

### ABŞ energetika nazirinin müavini Uilyam Uaytın çıxışı

- Cənab Prezident, mən Amerika Birləşmiş Ştatları Prezidentinin və energetika nazirinin səmimi salamlarını Sizə yetirirəm. Onlar da Sizin fikrinizə şərik çıxaraq bildirirlər ki, bu hadisə ölkəniz üçün böyük tarixi əhəmiyyət kəsb edir. Mən Azərbaycan Respublikasının tarixində yeni dövrün başlandığı barədə rəyinizə şərikəm və bildirirəm ki, Amerikanın güclü neft şirkətləri Sizinlə ortaq olmaqdan çox məmnundurlar. Bilirik ki, bu birgə işimizin yalnız başlanğıcıdır. Bizə bəllidir ki, bir sıra manеələr var, lakin biz əlbir işləyib, onları aradan qaldırmalıyıq.

Cənab Prezident, biz Sizinlə birgə işləmək niyyətindəyik. Biz Sizinlə və hökumətinizin üzvləri ilə birlikdə işləyərək bu layihənin müvəffəqiyyətlə həyata keçirilməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik. Müsaidənizlə, Sizə verdiyimiz vədin nədən ibarət olduğunu açıqlayım. Biz inanırıq ki, bu layihə dünyanın bu bölgəsində yeni bir dövrün əsasını qoyacaqdır. Biz






tam əminik ki, bu layihənin həyata keçirilməsi nəticəsində on minlərlə azərbaycanlı üçün yeni iş yerləri təmin ediləcək, onlar öz ailələrinin rifahını yüksəldə biləcəklər.

Azərbaycan Respublikası neftçilərinin şöhrəti bütün dünyaya yayılmışdır. Azərbaycanda fəaliyyət göstərməyə gələn, bu layihənin iştirakçısı olan neft şirkətləri də bütün dünyada məşhurdurlar. Beləliklə, layihədə hər iki tərəf üçün faydalı olan əməkdaşlığın bünövrəsi qoyulacaqdır. Həm də Azərbaycan neftçilərinin iştirakı olmadan bu əməkdaşlıq uğurlu ola bilməz. Sağ olun.

### Norveçin sənaye və energetika nazirinin birinci müavini Qunnar Murvanqın çıxışı

- Cənab Prezident, hörmətli nazirlər, hörmətli qonaqlar, xanımlar və cənablar! Bu gün bu mərasimdə olmağımı özümə böyük şərəf bilirəm. Norveç hökuməti adından Azərbaycan Respublikasının hökumətini, Dövlət Neft Şirkətini və buraya toplaşanların hamısını müqavilənin imzalanması münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Bu çox böyük hadisədir. Mən qəti əminəm ki, bu müqavilə hər iki tərəfin mənafeyinə uyğun olacaqdır. Prezident Heydər Əliyev cənablarının qeyd etdiyi kimi, Azərbaycanın neft sənayesi çox qədim tarixə malikdir. Bugünkü hadisə ölkəmizin dünya neft sənayesinin önündə getmək əzmini bir daha nümayiş etdirir. Azərbaycan kimi, Norveç də neft ehtiyatları ilə zəngin olan bir ölkədir. Son 20 il ərzində Norveç hökuməti neft hasilatı və ixracı ilə məşğul olan ən böyük dövlətlər sırasına çıxmışdır. Norveçin dənizdəki neft yataqlarında yüksək texnologiyadan istifadə edilir və burada görülən işlərin təhlükəsizliyi tamamilə təmin olunur. Ətraf mühitin çirklənməsinin qarşısı da alınır.

Əminəm ki, Norveçin neft sənayesi öz texnologiyasını və öz təcrübəsini Azərbaycanda tətbiq etmək imkanına malik olacaqdır. Mən çox məmnunam ki, Norveçin Dövlət Neft Şirkəti - "Statoyl" konsorsiumda iştirak edir. Əminəm ki, onun mütəxəssisləri ölkənizin inkişafına təkan verəcəklər. Norveçin Dövlət Neft Şirkəti bir sıra dəniz yataqlarında ən böyük təchizatçı rolunda çıxış etməklə bərabər, öz təcrübəsini Azərbaycandan da əsirgəməyəcəkdir. Mən buna əminəm. "Statoyl"un strategiyası Norveç dövləti tərəfindən tamamilə dəstəklənir.

Mən Sizi bu hadisə münasibətilə bir daha təbrik edir və bildirmək istəyirəm ki, toplaşdığımız mərasim heç də bununla başa çatmır. Bu mərasim Qərb şirkətlərinin iştirakı ilə ölkənizdə çox çətin və zəhmətli bir işin bünövrəsini qoyur. Sizə uğurlar arzulayır və öz minnətdarlığımı bildirirəm.

### Rusiya Federasiyasının Yanacaq və Energetika Nazirliyi Baş İdarəsinin rəisi Stanislav Puqaçın çıxışı

- Hörmətli cənab Prezident, hörmətli xanımlar və cənablar, hörmətli həmkarlar!

Ötən ilin oktyabrında burada, gözəl Bakı şəhərində

Azərbaycan Resublikasının Nazirlər Kabineti ilə Rusiya Federasiyasının hökuməti arasında əməkdaşlıq haqqında sazişlər, habelə Rusiyanın Yanacaq və Energetika Nazirliyi və "LUKoyl" neft şirkəti ilə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti arasında əməkdaşlığa dair bir sıra sazişlər imzalanmışdır.

Cari il ərzində mütəxəssislər, diplomatlar, neft sahəsinin inkişafı üçün cavabdeh olan və bu çox ciddi müqavilənin həyata keçirilməsində iştirak edən adamlar böyük iş görmüşlər. Həmin müqavilə barəsində bu gün olduqca çox danışıldı. İstanbulda, Bakıda, Moskvada, Hyustonda gərgin görüşlər keçirilmişdir. Xəzərdə bu çox ciddi işə başlayan qüvvələr həmin görüşlər zamanı bir-biri ilə tanış olmuş, hətta deyərdim ki, birləşmişlər.

Bu gün biz bu işin nəticəsinin - "Azəri və "Çıraq" kimi çox iri yataqların işlənməsinə dair beynəlxalq müqavilənin imzalanmasının şahidiyik. Cənab Prezident bu müqavilənin əhəmiyyətini öz dəyərli nitqində çox parlaq şəkildə qeyd etdi. Cənab Prezident, belə bir xəbəri Sizə çatdırmaq mənim üçün xoşdur ki, Rusiyanın ən iri neft şirkəti "LUKoyl" hökumət tərəfindən onun üzərinə qoyulmuş vəzifələri yerinə yetirmiş və əməli işin həyata keçirilməsinə başlamağa hazırdır.

Biz bu fikirdəyik ki, beynəlxalq müqavilə çox mühüm iqtisadi vəzifənin qarşılıqlı fayda əsasında həlli üçün konsorsiumun iştirakçısı olan ölkələrin səylərini birləşdirməyə xidmət edəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bu işdə sanballı töhfəsini və iştirakını, xeyirduasını qeyd etmək xoşdur. Əgər desəm ki, bu layihənin həyata keçirilməsi dost Azərbaycan xalqının gələcək tərəqqisi üçün təminata çevriləcək, zənnimcə, hamımızın inamını ifadə etmiş olaram. Ürəkdən inanıram ki, bu tərəqqi yaxın vaxtlarda baş verəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

**İslam İnkişaf Bankının prezidenti Osam Cəfər Fakihin çıxışı**

- Bismillahir-Rəhmanir-Rəhim. Zati-aliləri, cənab Prezident, hörmətli qonaqlar, xanımlar və cənablar, salaməleyküm!

Cənab Prezident, bu tarixi məqamda iştirak etmək üçün göndərdiyiniz xoş dəvətə görə, icazə verin, Sizə öz dərin təşəkkür və minnətdarlığımı bildirim. Bu mühüm hadisə münasibətilə Sizin və Azərbaycan xalqının sevinc və fərəhinə şərik çıxıram. Bir daha istərdim ki, İslam İnkişaf Bankı və onun üzvü olan 47 dövlət adından Sizə və Sizin simanızda Azərbaycan xalqına ən səmimi təbrik və ehtiramımı çatdırım.

Azərbaycan Respublikasının iqtisadi inkişafında və onun həyatının bütün sahələrinin tərəqqisində mühüm rol oynayacaq bu hadisə münasibətilə Sizi təbrik edirəm. İnkişaf sahəsində çalışan və öz səylərini əsirgəməyən bir şəxs kimi, mən Sizi əmin edirəm ki, bu hadisənin son dərəcə böyük əhəmiyyəti var. Bunu da bildirmək istərdim ki, bu hadisə uzun yolun yalnız başlanğıcıdır. Mən qəti əminəm ki, Sizin rəhbərliyiniz altında əməksevər Azərbaycan xalqı yüksək məqsədlərə nail olmaq üçün əlindən gələni əsirgəməyəcəkdir.

Cənab Prezident, icazə verin, bu səfərim zamanı mənə göstərilən yüksək diqqət və qayğıya, çox səmimi qonaqpərvərliyə görə Sizə öz minnətdarlığımı bildirim və Azərbaycan xalqına uğurlar, tərəqqi arzulayım. Sağ olun.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mərasimdə yekun nitqi söylədi.

**Azərbaycan Prezidenti Heydər Əliyevin yekun nitqi**

- Hörmətli xanımlar, cənablar!

Hörmətli qonaqlar!

Üç il müddətində hazırlanan müqavilənin imzalanma mərasimi sona çatır. Müqavilə artıq imzalanıbdır. Mən müqavilə imzalanmamışdan əvvəl çıxış etmişəm. Ona görə də müqavilənin imzalanması münasibətilə sizi, Azərbaycan xalqını, bu müqavilənin digər tərəfi olan xarici ölkələrin şirkətlərini, bu müqaviləyə qoşulan xarici ölkələrin dövlət başçılarını, nümayəndə heyətlərini, hamınızı səmimi qəlbdən təbrik edirəm. Xarici ölkələrdən gəlmiş nümayəndə heyətlərinin başçıları, şirkətlərin rəhbərləri müqavilə imzalanandan sonra çıxış etdilər, müqavilənin məzmunu, mahiyyəti və gələcək əhəmiyyəti haqqında gözəl fikirlər söylədilər. Bütün çıxışlarda eyni fikir bəyan edildi ki, müqavilə həm Azərbaycan Respublikası üçün, həm də sənədə imza atmış xarici ölkələrin şirkətləri üçün mənfəətlidir.

Çıxışlarda Azərbaycan xalqının, müstəqil Azərbaycan Respublikasının ünvanına xoş sözlər deyildi, xoş arzular bildirildi. Mən bu sözlərə görə minnətdaram və mərasimin sona çatdığı anda bir daha demək istəyirəm ki, bu müqavilə Azərbaycan Respublikasının dünya birliyində layiqli yer tutmasına kömək edəcək, ölkəmizin iqtisadiyyatını sərbəst bazar iqtisadiyyatı ilə sıx bağlayacaqdır. Ən ümdəsi isə ondan ibarətdir ki, bu müqavilə Azərbaycan xalqının bu gününə, gələcəyinə böyük mənfəətlər verəcək, onun rifah halının yüksəlməsi üçün zəmin yaradacaqdır.

Mən bu müqavilənin hazırlanmasında, imzalanmasında iştirak etdiyimə görə özümü çox xoşbəxt hiss edirəm. Üzərimə götürdüyüm məsuliyyəti dərk edirəm və ümidvaram ki, gələcək nəsillər bu gün burada baş



verən tarixi hadisəni layiqincə qiymətləndirəcəklər.

Sizi bir daha təbrik edirəm. Bununla da müqavilənin imzalanma mərasiminin birinci hissəsini bitmiş hesab edirəm. Sizin hamınıza, bütün Azərbaycan xalqına xoşbəxtlik, səadət, bütün işlərinizdə uğurlar arzulayıram. Sağ olun. Xeyirli, uğurlu olsun.

Müqavilənin imzalanması mərasimi başa çatdıqdan sonra Prezident Heydər Əliyev mətbuat konfransı keçirdi.

Mətbuat konfransında ABŞ-ın energetika nazirinin müavini Uilyam Uayt, Böyük Britaniyanın energetika və sənaye naziri Tim Eqqar, Türkiyənin dövlət naziri Nəcməddin Cövhəri, İslam İnkişaf Bankının prezidenti Osam Cəfər Fakih də iştirak edirdilər.

Azərbaycan Prezidenti **Heydər Əliyev** mətbuat konfransını açaraq dedi:

- Hörmətli qonaqlar, mətbuat işçiləri!

Bu gün biz sizinlə birlikdə tarixi bir hadisənin şahidiyik, Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətlərinin uzun müddət birlikdə hazırladıqları müqavilə imzalandı. Bu müqavilənin məzmunu, mahiyyəti və onun imzalanması üçün əsaslar haqqında bir neçə gün öncə mən mətbuat nümayəndələri qarşısında məlumat verdim və bu barədə ətraflı danışdım. Müqavilənin imzalanması üçün sentyabrın 14-də fərman vermişəm. Bu fərmanda da müqavilənin əsas məzmun və mənasını, istər Azərbaycan üçün, istərsə də xarici neft şirkətləri üçün əhəmiyyətini qeyd etmişəm. Fərman qəzetdə dərc olunmuş və onun rus və ingilis dillərində mətni bu gün burada paylanmışdır. Mən bu barədə bu gün müqavilənin imzalanması mərasimində də müəyyən fikirlər söylədim. Buna görə də təkrar etməyə ehtiyac yoxdur.

Xarici ölkələrin nümayəndə heyətlərinin başçıları da buradadırlar. Onlar da mərasimdə çıxış edərək öz fikirlərini söyləmişlər. Zənnimcə, bütün bunları nəzərə alaraq, yenidən məlumat verməyə ehtiyac yoxdur. Mətbuat konfransı üçün yarım saat vaxt ayrılmışdır. Bu müddət ərzində mən və mənim qonaqlarım sizin suallarınıza cavab verməyə hazırıq.

**Sual:** Bu müqavilənin imzalanması Azərbaycana nə kimi siyasi fayda verəcək?

**Heydər Əliyev:** Bilirsinizmi, müqavilə iqtisadi xarakter daşıyır. Mən onun iqtisadi cəhətdən səmərəliliyi barədə bir neçə dəfə danışmışam. Bunu 14 sentyabr tarixli fərmanımda da qeyd etmişəm. Müqavilədə nəzərdə tutulan iqtisadi göstəricilər də məlumdur. Mən bugünkü çıxışımda da qeyd etdim ki, müqavilə Azərbaycan Respublikası ilə xarici şirkətlərin mənsub olduqları dövlətlər arasında əlaqələrin inkişafına, şübhəsiz, xeyli təkan verəcəkdir. Elə bunun özü böyük bir nailiyyətdir. Lakin bir halda ki, 30 il müddətində müştərək fəaliyyət göstəriləcək, ölkələrimiz inkişaf edəcəksə, şübhəsiz, bunun siyasi nəticələri də olacaqdır. Hər bir iqtisadi müqavilə eyni zamanda siyasi nəticələr verir.

**Sual:** Məlum olduğu kimi, Rusiyanın istər xarici işlər naziri, istərsə də yanacaq və energetika naziri dəfələrlə bildirmişlər ki, Xəzərin statusu müəyyənləşdirilməyincə, buradakı neft yataqlarının birgə işlənməsi sahəsində xarici şirkətlərin fəaliyyətini Rusiya tanımayacaqdır. Lakin bu gün müqavilə artıq imzalanmışdır. İndi Rusiyanın müqavilə ilə əlaqədar mövqeyi necə olacaq?

**Heydər Əliyev:** Əvvəla, Rusiyanın "LUKoyl" şirkəti konsorsiumun iştirakçısıdır. İkincisi, Rusiya Yanacaq və Energetika Nazirliinin nümayəndəsi, bu nazirliyin Baş İdarəsinin rəisi Stanislav Puqaç bizim mərasimdə iştirak edir. O, sənədin imzalanması mərasimində çıxış etmişdir. Əgər Siz cənab Stanislav Puqaçın çıxışına diqqətlə qulaq assaydınız, öz sualınıza cavab almış olardınız. O bildirdi ki, keçən ilin oktyabrında Azərbaycan ilə Rusiya arasında bu barədə müqavilə imzalanmışdır. Mən jurnalistlərdən xahiş edirəm ki, məlum olan məsələlər barəsində sual verib vaxtımızı almasınlar. Axı dedim ki, yarım saat vaxtınız var.

**Sual:** Hörmətli Prezident, bir neçə gündən sonra Sizin ABŞ-a səfəriniz gözlənilir. Siz bugünkü tarixi müqavilənin imzalanmasından sonra Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması məsələsində Qərb ölkələrinin, ən əvvəl, ABŞ və İngiltərənin daha fəal mövqe tutacağına ümid bəsləyirsinizmi? Ümumiyyətlə, Amerikaya Sizin səfərinizdən nə gözləmək olar?

**Heydər Əliyev:** Azərbaycanla Ermənistan arasında münaqişənin, Ermənistanın Azərbaycana etdiyi təcavüzün qarşısının alınmasında Qərb dövlətlərinin, ən əvvəl beynəlxalq təşkilatlarda böyük nüfuzu olan ölkələrin səy göstərəcəklərinə mən həmişə ümid bəsləyirəm. Mən indi də bu ümidlə yaşayıram. Bu ümidlər məndə qarşıdakı səfər ərəfəsində də qalır.

**Sual:** Heydər bəy, Siz sentyabrın 16-da keçirdiyiniz brifinqdə verdiyiniz bəyanatda bildirdiniz ki, bağlanan müqavilə Azərbaycanı heç də tam qane edən şəkildə deyildir. Buna baxmayaraq, Siz bu addımı atır və müqaviləni imzalayırsınız. Lütfən, bu fikrinizi açıqlayın və eyni müqavilənin Elçibəy dövründə hazırlanmış müqavilədən nə kimi üstün cəhətləri olduğunu göstərin. Heydər bəy, ikinci sualım belədir: Müxalif qüvvələr bu müqavilənin imzalanmasını prinsipcə müsbət qiymətləndirirlər. Sizin bu xəbərlərə münasibətiniz necədir?

**Heydər Əliyev:** Əvvəla, deməliyəm ki, hər bir müqavilə, saziş bağlandıqda tərəflərdən hər biri çalışır ki, daha çox mənfəət götürsün. Dəfələrlə demişəm ki, neft Azərbaycanın ən böyük milli sərvətidir. Mən də, Azərbaycanın Prezidenti kimi, bu sərvətdən istifadə edərək daha çox mənfəət götürülməsinə çalışmışam. Danışıqların İstanbulda və Hyustonda aparılmış son

mərhələlərində bunun üçün göstərdiyimiz səylər müsbət nəticə vermişdir. Amma müqavilə hər iki tərəfin razılığı əsasında olmalıdır. Odur ki, hər bir şərtimizi əks tərəf qəbul etməsə, onda müqavilə də baş tutmaz. Hər halda istədiklərimizin çoxuna nail olmuşuq. Amma hər iki tərəf üçün bunun da bir həddi var. O həddi keçdikdə müqavilə də pozula bilər. Buna görə də biz bu həddə razılığa gəlmişik.

O ki qaldı ikinci sualınıza, əvvəlki layihə ilə indiki layihənin fərqi çoxdur. Mənim bu il 4 fevral tarixli fərmanımdan sonra Bakıda, İstanbulda və Hyustonda aparılan danışıqlar nəticəsində əvvəlki layihədən fərqli olaraq Azərbaycan üçün çox mənfəətli göstəricilər əldə edilmişdir. Keçən il müqaviləyə dair danışıqlar dayandırıldıqdan sonra aparılan danışıqlar, zənnimcə, çox uğurlu olmuşdur. Bunu xarici ölkələrin neft şirkətlərinin nümayəndələri də etiraf edirlər. Əgər konkret məlumat almaq istəyirsinizsə, layihəni götürüb nəzərdən keçirə bilərsiniz.

Mən belə başa düşdüm ki, Siz müxalifətin adından çıxış eləyir və deyirsiniz ki, müxalifət müqaviləni bəyənir. Mən Azərbaycan xalqının milli mənafeləri mövqeyində duran adamam. Buna görə də Azərbaycan Respublikası vətəndaşlarının hər bir qrupu, hər bir təbəqəsi mənim üçün Azərbaycan vətəndaşları kimi qiymətlidir. Əgər Sizin dediyiniz müxalifət bunu bəyənirsə, bu, şübhəsiz, onu göstərir ki, bu məsələlərə onlar da dövlətçilik mövqeyindən yanaşırlar. Bu, müsbət haldır.

**Sual:** Cənab Prezident, çıxışınızda qeyd etdiniz ki, neft müqaviləsinin imzalanması xarici dövlətlərə Azərbaycanda ictimai siyasi vəziyyətin sabit olduğunu nümayiş etdirir. Bilmək istərdim, bu gün cəbhədə atəşin dayandırılması ilə neft müqaviləsinin imzalanması arasında nə kimi bağlılıq var? İkinci sualım xarici şirkətlərin nümayəndələrinədir: Əgər gələcəkdə bu müqavilənin taleyi üçün hər hansı təhlükə yaranarsa, onların mənsub olduqları dövlətlər buna necə münasibət göstərəcəklər?

**Heydər Əliyev:** Atəşin dayandırılması ilə bu müqavilənin imzalanması arasında elə bir əlaqə yoxdur. Atəş bundan dörd ay əvvəl dayandırılmışdır. Atəşkəs indi də davam edir. Bu, Ermənistanla Azərbaycan arasında gedən müharibəyə son qoymaq, münaqişəni sülh yolu ilə aradan qaldırmaq üçün atdığımız addımdır.

Bildiyiniz kimi, müqavilə ilə əlaqədar üç ildir danışıqlar aparılır. Qeyd etdim ki, mən bu işin daha da sürətlənməsi üçün fevralın 4-də fərman vermişəm. Son 45 gündə Hyustonda danışıqlar getmişdir. Hər iki tərəfi qane edən bu razılaşma sadəcə olaraq indi əldə edilmişdir və buna görə də müqavilə indi bağlanır. Əgər razılıq altı ay bundan əvvəl əldə edilsəydi, müqavilə də onda imzalanardı.

İkinci sualınıza qonaqlardan birisi cavab verəcəkdir.

**Uilyam Uayt** (ABŞ energetika nazirinin müavini): Bu müqavilənin həyata keçirilməsini təmin etmək üçün ABŞ hökuməti ilə Azərbaycan hökuməti birgə çalışacaqlar. Müqavilənin həyata keçirilməsi sayəsində neft hasilatının artırılması hər iki tərəfin mənafeyinə uyğundur. Təhlükəsizlik və ətraf mühitin çirklənməsi məsələlərinə də xüsusi diqqət yetiriləcəkdir.

**Sual:** Müqavilə artıq imzalandı, çox güman ki, hasil ediləcək neftin xarici bazara çıxarılması məsələsi də tezliklə qarşıda duracaqdır. Bununla əlaqədar olaraq





təklif edilən marşrutlardan hansına üstünlük veriləcəkdir?

**Heydər Əliyev:** Bilirsinizmi, müqavilədə üç məsələ qeyd edilmişdir. İlk 18 ayda neft hasilatına başlanacaq. 48 ay müddətində neftin çıxarılması tam şəkildə təmin ediləcək. Çıxarılan neftin xarici şirkətlər tərəfindən ixrac edilməsi üçün boru kəməri 54 aydan gec olmayaraq çəkiləcəkdir. Boru kəmərinin çəkilişi haqqında əlavə danışıqlar aparılacaq. Şübhəsiz ki, bütün mövcud variantlar təhlil ediləcək və hansı daha əlverişli olsa, biz də onun barəsində razılığa gələcəyik.

Nəcməddin bəy, Siz nə deyə bilərsiniz?

**Nəcməddin Cövhəri** (Türkiyənin dövlət naziri): Mən onu əlavə edə bilərəm ki, Anadoludan keçəcək boru kəməri yalnız Azərbaycan nefti üçün deyildir. Bu kəmər Qazaxıstan neftinin də Aralıq dənizi sahilinə, Qərbə nəql edilməsi üçün nəzərdə tutulmuşdur. Çünki 1936-cı il Montrö müqaviləsinə görə boğazlardan keçmək hüququna malik gəmilər boğazların mənsub olduğu ölkənin təhlükəsizlik və gömrük qaydalarına riayət etməlidir. Montrö müqaviləsinin imzalandığı dövrdə dünyanın ən böyük tankerlərinin subasımı 20-30 min ton idi. Bu gün 200-300 min tonluq tankerlərin İstanbuldan keçməsi mümkün deyildir. Çünki boğazların sahilində 12 milyon əhalisi olan bir şəhər yerləşir. Buna görə də Anadoludan keçəcək neft kəmərlərinə ehtiyac var. İstər Azərbaycandan olsun, istərsə də Qazaxıstandan - fərqi yoxdur.

Hörmətli Cümhurbaşqanının bəyanatına əlavə olaraq demək istədiklərim bunlardır.

**Sual:** Cənab Prezident, çıxışlarda bildirildi ki, həll edilməli olan hələ bir sıra məsələlər, problemlər, bəzi maneələr aradan qaldırılmalıdır. Xahiş edirəm, bu fikri açıqlayasınız. Maneələri hansı müddətlərdə aradan qaldırmaq niyyətindəsiniz?

**Heydər Əliyev:** Zənnimcə, müqavilənin həyata keçirilməsi üçün elə bir maneə yoxdur. Qarşıya çıxan xırda və cari məsələləri həll edəcəyik. Qoy heç kəs elə güman etməsin ki, Azərbaycan parlamenti müqavilənin nəzərdən keçirilməsini uzadacaqdır. Ümidvaram ki, parlament onu təsdiqləyəcək və burada göstərildiyi kimi, müqavilə elə həmin gündən də qüvvəyə minəcəkdir.

**Tim Eqqar** (Böyük Britaniyanın energetika və sənaye naziri): Mənə elə gəlir ki, neft şirkətləri nümayəndələrinin də çıxışlarında qeyd edildiyi kimi, ən mühüm məsələ odur ki, müqavilə Azərbaycanın neft yataqlarının birgə işlənməsinə, Azərbaycanda neft hasilatının daha da artırılmasına doğru aparan yolun başlanğıcıdır. İngiltərənin Şimal dənizindəki təcrübəsinə əsaslanaraq deyə bilərəm ki, burada qarşıya çıxacaq bir sıra problemləri aradan qaldırmaq mümkün olacaqdır. Azərbaycan Respublikası ilə konsorsiumdakı neft şirkətlərinin mənsub olduqları ölkələr arasında yüksək səviyyəli əlaqələr, habelə Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumu arasında yaranmış qarşılıqlı anlaşma məndə heç bir şübhə yeri qoymur ki, ortaya çıxan bütün problemlər tezliklə və asanlıqla həll ediləcəkdir.

**Heydər Əliyev:** Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.



## BAKI, 24 YANVAR 1995-Cİ İL



# "Əsrin müqaviləsi" üzrə Rəhbər Komitənin ilk iclası

1995-ci il yanvarın 24-də Bakının ən yaraşıqlı binalarından birində - Azərbaycan Tarixi Muzeyinin möhtəşəm salonunda neft müqaviləsini həyata keçirən Rəhbər Komitənin ilk iclası keçirildi.

İclasda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iştirak edirdi.

Konsorsiuma daxil olan şirkətlərin nümayəndələrinin iştirak etdiyi iclası giriş sözü ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev açdı.

Qeyd olundu ki, üç il davam edən danışıqlardan sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük zəhməti və fəal köməyi ilə 1994-cü il sentyabrın 20-də Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölünməsi barədə dünyanın ən məşhur neft şirkətləri ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında "Əsrin müqaviləsi" bağlanmışdır. Milli Məclis tərəfindən bəyənilərək təsdiq olunan bu müqavilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzaladığı qanun əsasında qüvvəyə minmişdir. Bu sənəd Azərbaycan xalqının tarixinə yeni bir səhifə kimi daxil olmuş, müstəqil respublikamızın iqtisadi və sosial tərəqqisində mühüm rol oynayacaqdır.

Müqavilə bağlandıqdan sonra danışıqlar davam etdirilərək texniki, maliyyə və təşkilati işlər görülmüşdür. Neft müqaviləsini həyata keçirinə Rəhbər Komitə, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti və Məsləhət Şurası yaradılmışdır. Hazırda bir sıra məsələlərlə əlaqədar ekspert qrupları da fəaliyyətə başlamışdır. Neft müqaviləsini həyata keçirən Rəhbər Komitənin ilk iclasında 1995-ci ildə görüləcək işlərin proqramı müəyyənləşdirilməli və büdcəsi təsdiq edilməlidir.

Natiq Əliyev Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə iclasın açılışında iştirak etdiyi üçün komitənin üzvləri adından dərin minnətdarlığını və təşəkkürünü bildirdi.

Azərbaycan Prezidenti Heydər Əliyev iclası açaraq nitq söylədi.

**Azərbaycan Prezidenti
Heydər Əliyevin nitqi**

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bir neçə il müddətində hazırlanmış və artıq imzalanmış neft müqaviləsinin - əsrin böyük müqaviləsinin həyata keçirilməsi üçün bu gün əməli iş başlanır. Bu müqavilənin bağlanması üçün aparılan danışıqlar, görülən hazırlıq işləri və nəhayət, onun imzalanması ərəfəsindəki proseslərin hamısı, bir daha qətiyyətlə deyə bilərik ki, hamar, asan olmamışdır. Bu tarixi hadisə böyük zəhmətin, əməyin və eyni zamanda inadla həyata keçirilən işin nəticəsi olmuşdur.

Azərbaycan neft ölkəsidir. Qədim zamanlarda bizim ölkəmizə, Vətənimizə "Odlar diyarı" deyərdilər və biz bu adla fəxr edirik. Məlumdur ki, XIX əsrin ikinci yarısından başlayaraq bizdə ola bilər ki, dünyada ilk dəfə olaraq neft istehsalına başlanıb. Azərbaycanın neft sənayesi böyük tarixə malikdir. O, bir çox mühüm mərhələlərdən keçibdir. Neft sənaye üsulu ilə çıxarılmağa başlananda Qərb ölkələrinin neft şirkətləri Azərbaycanda fəaliyyət göstərib, burada neft hasilatı və emalı sahəsində müştərək işlər aparıblar. Sonra bu şirkətlərin Azərbaycanda fəaliyyəti dayandırılıb, neft sənayesi sovet dövləti tərəfindən milliləşdirilibdir. İstehsal edilən neft uzun illər Sovetlər İttifaqının ehtiyaclarını təmin etmək üçün istifadə olunubdur.

Xalqımız üç il bundan əvvəl öz müstəqilliyini, milli azadlığını əldə edib. Azərbaycan xalqı, Azərbaycan dövləti öz sərvətlərinin sahibi olub. Bütün bunlar müstəqil Azərbaycan dövlətinin neft yataqlarından müstəqil, özü istədiyi kimi istifadə etməsi üçün imkanlar yaradıb. Məlumdur ki, Azərbaycan neftçilərinin neftçıxarma sahəsində həm elmi, həm texniki, həm də əməli iş aparılmasında böyük təcrübəsi, potensialı vardır. Azərbaycan alimlərinin, mühəndislərinin, geoloqlarının, neftçilərinin, neft ustalarının gərgin əməyi və böyük fəaliyyəti nəticəsində 45 ildən artıqdır ki, Xəzər dənizində neft hasil olunur.

Bunlar hamısı müstəqil Azərbaycan dövlətinin öz sərvətlərindən, o cümlədən onun zəngin sərvəti olan neft yataqlarından istifadə etməsi üçün çox gözəl əsas yaratmışdır. Ancaq eyni zamanda, indiki mərhələdə biz bu neft yataqlarından səmərəli istifadə etmək üçün dünyanın böyük təcrübəyə, böyük potensiala malik olan neft şirkətləri ilə əməkdaşlıq etməyi də lüzumlu və zəruri hesab edirik. Məhz bunların nəticəsində Xəzər dənizinin Azərbaycan bölməsindəki neft yataqlarından xarici ölkələrin böyük neft şirkətləri ilə müştərək istifadə olunması barədə üç ildən çox müddətdə danışıqlar aparılıb. Böyük məmnuniyyət hissi ilə qeyd etməliyəm ki, bu danışıqlar nə qədər çətin də olsa, müvəffəqiyyətlə başa çatıb və neft yataqlarından birlikdə istifadə olunması üçün böyük neft müqaviləsi imzalanıbdır.

Neft yataqlarından istifadə olunması üçün dünyanın iri neft şirkətləri ilə üç ildən artıq bir dövrdə aparılan danışıqlar Azərbaycan və demək olar ki, dünya ictimaiyyətinin daim diqqət mərkəzində olub. Bu müqavilənin hazırlanmasına və danışıqların aparılmasına çox



böyük maraq göstərilibdir. Azərbaycan xalqı, ictimaiyyəti bu danışıqlara, nəhayət, müqavilənin hazırlanıb imzalanmasına böyük ümidlə baxıblar. Bu işə dünya ictimaiyyətinin bəzi dairələrində çox qısqanclıqla yanaşan və mənfi münasibət bəsləyən qüvvələr də olub, bu müqavilənin hazırlanmasına və imzalanmasına cürbəcür istiqamətlərdən maneçilik törədən çox güclü qüvvələr də olubdur. Ancaq müstəqil Azərbaycan Respublikası dövlətinin iradəsi və xarici ölkələrin neft şirkətləri ilə bizim sağlam əsasda olan əməkdaşlığımız bütün bu maneçiliklərin aradan götürülməsinə imkan verib. Nəhayət, 1994-cü il sentyabrın 20-də neft müqaviləsi imzalanıbdır. Müqavilə imzalanan kimi xarici ölkələrin ayrı-ayrı dairələrindən bu sənədi pozmağa cəhdlər də göstərilib, hücumlar da olub. Bunlar artıq məlumdur. Biz bunların hamısının qarşısını almışıq. Müqavilə hazırlanarkən mən əmin idim ki, bütün bu maneələrin, hücumların, təzyiqlərin qarşısını biz öz iradəmizlə alıb, onlara layiqli cavab verə biləcəyik və biz bunu etdik. Müqavilə artıq işləyir, "Əsrin müqaviləsi" kimi dillərə, tarixə düşüb.

İmzalanmış müqavilə Azərbaycan parlamentində müzakirə edilib, Milli Məclis tərəfindən qəbul olunub. 1994-cü il dekabrın 2-də mən bu müqavilənin təsdiq olunması haqqında xüsusi qanun imzalamışam. Beləliklə, müqavilənin əməli surətdə həyata keçirilməsi üçün siyasi, iqtisadi və hüquqi əsaslar yaranıbdır. İndi əməli iş getməlidir. Əvvəllər görülmüş işlərin hamısını yüksək qiymətləndirərək, mən bu gün əmin olduğumu bildirmək istəyirəm ki, artıq bu müqavilə sürətlə həyata keçirilməlidir. Bunun üçün xüsusi işçi qrupları, müqavilənin Rəhbər Komitəsi yaradılıb, əməli işlər aparılması üçün başqa təşkilati tədbirlər görülüb. Mən bunların hamısını bəyənirəm və əməli işə başlamağınız münasibətilə sizi və bu müqavilədə indən sonra işləyəcək adamların hamısını təbrik edirəm.

Qeyd etmək lazımdır ki, müqavilənin hazırlanması prosesi nə qədər ağır, çətin yollardan keçmiş olsa da, onun həyata keçirilməsi bundan da çətin olacaqdır. Qarşıda çox gərgin, çox mühüm işlər durur. Mən əminəm ki, müqavilədə iştirak edən konsorsiumun, şirkətlərin nümayəndələri və rəhbərləri Azərbaycan Dövlət Neft Şirkəti ilə bərabər bu məsələlərin ardıcıl surətdə, davamlı olaraq, gecikmədən həll olunmasını təmin edəcəklər.

Müqavilə 30 il müddətinə nəzərdə tutulmuşdur. Şübhəsiz ki, birinci illər çətin, ağır olacaq. Bizi - Azərbaycan tərəfini, Prezident kimi şəxsən məni ilk illərin işi xüsusi maraqlandırır. Hesab edirəm ki, birinci illər üçün nəzərdə tutulan proqram vaxtından əvvəl yerinə yetirilməlidir. Siz bu gün burada 1995-ci ilin proqramını, büdcəsini müəyyənləşdirəcək, görüləcək işlər haqqında müzakirələr aparıb qərarlar qəbul edəcəksiniz. Mən arzu edərdim ki, birinci il - 1995-ci il üçün nəzərdə tutulan işlər yüksək səviyyədə olsun və onların ardıcıl olaraq günbəgün, aybaay həyata keçirilməsi üçün



lazımi tədbirlər görülsün. Bilirsiniz ki, bu müqavilə haqqında, onun ətrafında indi də müxtəlif dairələrdə, mətbuatda, ayrı-ayrı ölkələrdə danışıqlar davam edir. Haradasa belə fikirlər yayırlar ki, müqavilə bağlanıbsa da, ancaq guya Qərb şirkətləri onun həyata keçirilməsinə tələsməyəcəklər. Bəziləri deyirlər ki, müqavilənin həyata keçirilməsi birinci illərdə - 1995-1998-ci illərdə Azərbaycan iqtisadiyyatı üçün o qədər də xeyirli olmayacaqdır. Bu qüvvələr müqavilənin imzalanmasına mane ola bilmədilərsə də, onun həyata keçirilməsinə cürbəcür zərbələr vurmaq istəyirlər. Güman edirəm ki, Qərb neft şirkətləri, konsorsiuma daxil olan neft şirkətlərinin rəhbərləri bütün iftiralara, yalanlara, bu müqavilənin əleyhinə çıxan qüvvələrin hamısına cavab vermək üçün öz səylərini əsirgəməyəcəklər. Bunları nəzərə alaraq, sizdən rica edirəm ki, müqavilənin həyata keçirilməsi sahəsində birinci illərin, 3-4 ilin proqramı çox dəqiq olsun və onun əvvəllər nəzərdə tutulandan da tez yerinə yetirilməsi üçün lazımi tədbirlər görülsün.

Bu müqavilənin həyata keçirilməsi üçün Azərbaycan Dövlət Neft Şirkətinin, neftçilərimizin, alimlərimizin üzərinə çox böyük və şərəfli vəzifələr düşür. Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan neftçiləri, Dövlət Neft Şirkətində çalışan məsul şəxslər, alimlərimiz, bu sənədin yerinə yetirilməsinə qoşulmuş bütün adamlar Azərbaycanın bu günü və gələcəyi üçün müqavilənin nə qədər böyük əhəmiyyətə malik olduğunu bir daha dərk edəcək və onun həyata keçirilməsinə çalışacaqlar.

Mən bu gün bir daha qeyd etmək istəyirəm ki, biz bu müqaviləni hazırlayarkən, onu imzalayarkən və mən bir Prezident kimi müqavilənin hüquqi qüvvə alması üçün qanun imzalayarkən Azərbaycanın bu günü və gələcəyi haqqında düşünmüşük. Hamı da bilməlidir ki, biz bu arzularla, niyyətlərlə müqavilənin işə başlanmasını istəyirik. Müqavilənin həyata keçirilməsi respublikamızın böhran vəziyyətində olan iqtisadiyyatında qarşıdakı illərdə böyük dəyişikliklər etmək üçün mühüm əhəmiyyət kəsb edir. Müqavilənin həyata keçirilməsi eyni zamanda Azərbaycanın gələcək inkişaf perspektivi üçün çox əhəmiyyətlidir. Bu müqaviləni imzalayanda da biz Azərbaycanın gələcək nəsillərinin həyatı barədə düşünürdük. Müqavilənin həyata keçirilməsi üçün aparılan işlər Azərbaycan Respublikası neft sənayesinin başqa sahələrinə də təsir edəcəkdir.

Azərbaycan torpaqlarında yerin təkində hələ istifadə olunmamış çox böyük neft və qaz sərvətlərimiz var. Alimlərimiz, geoloqlarımız tərəfindən Xəzər dənizinin Azərbaycan bölməsində kəşf olunmuş başqa zəngin neft və qaz yataqları da var. Biz bu müqaviləni həyata keçirərək, təcrübə toplayaraq o yataqların da - həm dənizdə, həm də quruda olan neft yataqlarının istifadə edilməsi üçün lazımi tədbirlər görəcəyik. Bu məsələlərin həll olunması üçün xarici ölkələrin neft şirkətləri ilə də əməkdaşlıq etməyə hazırıq. Bu baxımdan, müqavilənin həyata keçirilməsi təcrübəsi gələcək işlərimiz üçün daha əhəmiyyətli olacaqdır. Hesab edirəm ki, konsorsiuma daxil olan neft şirkətləri, Azərbaycan Dövlət Neft Şirkəti bütün bu perspektivləri nəzərə alaraq işlərini yaxşı təşkil edəcəklər.

Konsorsiumun iştirakçısı olan xarici ölkələrin neft şirkətlərinin burada iştirak edən nümayəndələrini bu müqavilənin həyata keçirilməsinə başlanması münasibətilə ürəkdən təbrik edirəm. Onları əmin edirəm ki, dövlət tərəfindən, Azərbaycan Prezidenti kimi mənim tərəfimdən bu müqavilənin həyata keçirilməsi həm daxili nəzarət altında olacaqdır, həm də bu işlərin vaxtlı-vaxtında aparılması üçün lazımi tədbirlərin görülməsi təmin olunacaqdır.

Azərbaycan Dövlət Neft Şirkətini, onun rəhbərliyini, neftçiləri, xalqımızı bu müqavilənin əməli surətdə həyata keçirilməsinə başlanması münasibətilə təbrik edirəm.

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bu mühüm işdə sizin hamınıza uğurlar arzulayıram! Xeyirli olsun! Uğurlu olsun!





Heydər Əliyev adına
btc neft kəməri
ƏFSANƏDƏN GERÇƏKLİYƏ

BAKI, 19 APREL 1995-Cİ İL




# "Eksson" şirkətinin pay bölgüsünün artırılması haqqında sazişin imzalanması

1995-ci il aprelin 19-da Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin beynəlxalq neft konsorsiumundakı payının 5 faizinin ABŞ-ın "Eksson" şirkətinə verilməsi haqqında sazişin imzalanması mərasimi oldu.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, ABŞ energetika nazirinin birinci müavini Uilyam Uayt, ABŞ Konqresinin üzvü Qreq Laflin və onları müşayiət edən digər rəsmi şəxslər sənədlərin imzalanması mərasimində iştirak edirdilər.

Azərbaycan dövlətinin başçısı Heydər Əliyev mərasimi giriş sözü ilə açdı.

**Azərbaycan Prezidenti Heydər Əliyevin giriş sözü**

-Hörmətli cənab Uilyam Uayt!

Hörmətli cənab Qreq Laflin!

Hörmətli qonaqlar, hörmətli xanımlar və cənablar!

Bu gün biz buraya mühüm bir hadisə münasibətilə toplaşmışıq. Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənilməsi ilə əlaqədar yaranmış beynəlxalq neft konsorsiumuna, ötən ilin sentyabrında imzalanmış neft müqaviləsinə ABŞ-ın yeni böyük bir neft şirkəti - "Eksson" şirkəti də daxil olur. "Eksson" şirkətinin bu konsorsiuma, 1994-cü il sentyabrın 20-də imzalanmış neft müqaviləsinə daxil olması üçün geniş danışıqlar aparılmışdır. Həmin danışıqlar nəticəsində "Eksson"un digər şirkətlərlə müqayisədə neft yataqlarının işlənilməsində iştirakı lüzumlu sayıldığına görə, bu şirkətlə Azərbaycan Dövlət Neft Şirkəti arasında müqavilənin imzalanmasına dair qərar qəbul olunmuşdur.

"Eksson"un payı konsorsiumda Azərbaycan Dövlət Neft Şirkətinə məxsus olan hissənin 5 faizindən ibarətdir. 1994-cü il sentyabrın 20-də imzalanmış neft müqaviləsində Azərbaycanın payı 20 faiz idi. Həmin hissədən 5 faizi Türkiyənin neft şirkətinə verilmiş, bu barədə müqavilə artıq imzalanmışdır. Yerdə qalan hissədən 5 faizi də ABŞ-ın "Eksson" şirkətinə ayrılıb və biz buraya həmin müqavilənin imzalanması üçün yığışmışıq. Bu barədə danışıqlar aparılıb, şərtlər müəyyənləşdirilibdir. Bunlar həm Azərbaycan Dövlət Neft Şirkəti, həm də "Eksson" şirkəti üçün əlverişli şərtlərdir. Bunun əsasında sənədlər hazırlanıbdır. Mən təklif edirəm ki, ARDNŞ prezidenti Natiq Əliyev, "Eksson Vençers Si-Ay-Es" şirkətinin prezidenti Terri Kunts və digər rəsmi şəxslər bu sənədləri imzalasınlar.

Azərbaycanın beynəlxalq neft şirkətləri konsorsiumundakı payından 5 faizini ABŞ-ın "Eksson" şirkətinə verməsi haqqında müqaviləni ARDNŞ-nin prezidenti Natiq Əliyev və "Eksson Vençers Si-Ay-Es" şirkətinin prezidenti Terri Kunts imzaladılar. Həmin sənədlərə Azərbaycan tərəfindən Baş nazirin vəzifəsini icra edən Fuad Quliyev, ABŞ tərəfdən isə energetika nazirinin birinci müavini Uilyam Uayt da qol çəkdilər.

Respublika Prezidenti Heydər Əliyev sənədlərin imzalanması münasibətilə hər iki şirkətin rəhbərlərini təbrik etdi.

"Eksson" şirkətinin prezidenti Terri Kunts mərasimdə çıxış edərək bildirdi ki, həqiqətən bu gün bizim üçün çox əlamətdardır. Biz dünyanın bir çox ölkələrində illərdən bəri çiyin-çiyinə çalışdığımız, tərəfdaşlıq etdiyimiz şirkətlərlə bir müqaviləyə qoşuluruq. Azərbaycana gəlməklə biz ARDNŞ-nin və sizin respublikanız ilə əməkdaşlıq etmək niyyətindəyik və ümid edirik ki, əlaqələrimiz geniş səpkidə inkişaf edəcəkdir.

ABŞ energetika nazirinin birinci müavini Uilyam Uayt öz çıxışında dedi:

- Bu mühüm tarixi gündə mən bildirmək istəyirəm ki, yaxın gələcəkdə xalqlarımız əhəmiyyətli bir hadisəni - İkinci Dünya müharibəsinin başa çatmasının 50 illiyini bayram edəcəklər. Həmin qələbənin əldə olunmasında Azərbaycan və ABŞ neftçilərinin istehsal etdikləri yanacağın da böyük əhəmiyyəti olmuşdur. Əgər Azərbaycan neftçilərinin, həmçinin ABŞ-ın neft şirkətlərinin bu sahədə fəaliyyəti olmasaydı, müharibənin taleyi də başqa cür olardı.

Bununla yanaşı, qeyd etmək istəyirəm ki, yeni dövrdə Azərbaycan və ABŞ neftçiləri geniş əməkdaşlıq edəcəklər. İkinci Dünya müharibəsi dövründə ABŞ-ın ən çox neft istehsal edən şirkəti bu gün Azərbaycanla əməkdaşlığa qədəm qoyan "Eksson" şirkətidir. Bu, indi də ABŞ-ın ən çox neft hasil edən şirkətidir.

Azərbaycan və ABŞ neft sənayesinin inkişafında eyni problemlərlə qarşılaşırlar. Son illərdə Azərbaycanda olduğu kimi, ABŞ-da da neft hasilatı aşağı düşmüşdür. Biz öz ölkəmizdə "Eksson"un, habelə digər ABŞ şirkətlərinin geniş sərmayə qoymaqla neft hasilatını artırmaq siyasətini aparırıq. Azərbaycan rəhbərliyinin də belə bir məqsədi vardır. Nə qədər çox neft hasil olunsa, neftçilərimiz və xalqlarımız bir o qədər varlı olar və digər sənaye sahələri də inkişaf edər.

Qeyd etmək istəyirəm ki, Azərbaycan rəhbərliyi bu danışıqlar zamanı onun nəticələrinin Azərbaycan üçün maksimum səmərəli olması və ölkədə neft hasilatının tez bir zamanda artırılması yolunu tutmuşdur. "Eksson" şirkətinin bu müqavilədə qazanmasının yalnız bir yolu



vardır, o da neft istehsalını artırmaqdan ibarətdir. Bunun nəticəsində Azərbaycan da böyük fayda götürəcəkdir. Biz "Eksson" kimi şirkətlərimizin imkanlarından istifadə etməklə ABŞ-da da öz neft yataqlarımızdan çıxarılan neftin həcmini artırmaq niyyətindəyik. Mən bu layihəyə uğurlar arzulayıram və Azərbaycan xalqına bəyan etmək istəyirəm ki, ABŞ xalqı və onun Prezidenti Azərbaycanın Amerika şirkətləri ilə əməkdaşlığını yüksək qiymətləndirir. Eyni zamanda biz dərk edirik ki, bu, ABŞ-a verilmiş sadəcə bir hədiyyə deyil. "Eksson"un Azərbaycandakı fəaliyyətindən Azərbaycan xalqı da faydalanmalıdır.

Sonra ABŞ Konqresinin üzvü **Qreq Laflin** çıxış edərək dedi:

- Mən bu tarixi gündə Azərbaycana gəlməyimdən çox məmnunam. Bütün Azərbaycan xalqına və bu mərasimdə iştirak edənlərə bildirmək istəyirəm ki, "Eksson" sizin yaxşı qonşunuz və dostunuz olacaqdır.

"Eksson" şirkəti Texas ştatında mənim doğulub böyüdüyüm balaca bir şəhərdə neft yataqlarının işlənməsində iştirak etmiş və şəhərimizin inkişafına böyük kömək etmişdir. Çox şadam ki, mənim doğma şəhərimin çiçəklənməsində rolu olan bu şirkət indi Azərbaycanda da fəaliyyət göstərmək, sizin ölkənin tərəqqisində iştirak etmək niyyətindədir. "Eksson" kimi böyük hörmətə və nüfuza malik şirkətin Azərbaycanda fəaliyyət göstərməsi mühüm hadisədir. Cənab Prezident, mənə bu mərasimdə iştirak etmək imkanı verdiyiniz üçün Sizə təşəkkür edirəm.

Sonra Azərbaycan dövlətinin başçısı Heydər Əliyev nitq söylədi.

**Azərbaycan Prezidenti**
**Heydər Əliyevin nitqi**

- Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən "Eksson" neft şirkətini, Azərbaycan Dövlət Neft Şirkətini, Amerikadan gəlmiş qonaqları və respublikamızın ictimaiyyətini bu mühüm hadisə - "Eksson" şirkətinin Azərbaycan neft yataqlarının birgə işlənməsində iştirak etməsi haqqında sazişin imzalanması münasibətilə təbrik edirəm.

"Eksson" şirkəti 1994-cü ilin sentyabrında Bakıda imzalanmış müqaviləyə qoşulduqdan sonra Xəzər dənizinin Azərbaycan sektorunda üç neft yatağının - "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənməsində iştirak edən Amerika şirkətlərinin sayı beşə çatmışdır.

ABŞ-ın beş böyük neft şirkətinin Azərbaycanla əməkdaşlığa başlaması və bu əlaqələrin uzunmüddətli olması, şübhəsiz ki, ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafına çox kömək edəcəkdir.

Burada deyildiyi kimi, "Eksson" ABŞ-ın ən böyük neft şirkətidir. O, böyüklüyünə görə, dünya neft şirkətləri arasında ikinci yerdə durur. Belə bir nüfuzlu



şirkətin Azərbaycan neft yataqlarının işlənməsində iştirakı həm iqtisadi cəhətdən, həm də Azərbaycanın neft sənayesinin inkişafında, ona müasir texnika və texnologiyanın tətbiq olunmasında mühüm rol oynayacaqdır. Ayrı-ayrı neft şirkətləri ilə danışıqlar zamanı məhz bu səbəbdən "Eksson" şirkətinə üstünlük verilmiş və onun təklifləri qəbul olunmuşdur.

Ötən ilin sentyabrında Bakıda imzalanmış neft müqaviləsini "Əsrin müqaviləsi" adlandırırlar. ABŞ Prezidenti, hörmətli cənab Bill Klinton mənə yazdığı məktubunda da həmin müqaviləni "Əsrin müqaviləsi" adlandırmışdır. "Eksson" kimi məşhur şirkətin "Əsrin müqaviləsi"nə qoşulması bu müqavilənin nüfuzunu daha da artırır. Ancaq əsas cəhətlər ondan ibarətdir ki, biz bu addımımızla Azərbaycanın dünya iqtisadiyyatı üçün açıq olduğunu və respublikamızın iqtisadiyyatının dünya iqtisadiyyatına qovuşması üçün bizim qəti mövqedə olduğumuzu bir daha sübut edirik.

Mən bir daha qeyd etmək istəyirəm ki, ABŞ-ın beş böyük neft şirkətinin Azərbaycanda fəaliyyət göstərməsi Amerika Birləşmiş Ştatları ilə respublikamız arasında olan iqtisadi, ümumiyyətlə, bütün əlaqələrin bundan sonra daha da sürətlə inkişaf etməsi üçün çox böyük şərait yaradır.

Suveren Azərbaycan Respublikası öz dövlət müstəqilliyini qoruyub saxlayaraq, eyni zamanda öz sərvətlərindən səmərəli istifadə etmək üçün dünyanın inkişaf etmiş ölkələri ilə əlaqələri genişləndirməyə çalışır. Bu baxımdan biz respublikamızın ABŞ ilə əlaqələrinə xüsusi fikir veririk. 1994-cü il sentyabrın 20-də burada, "Gülüstan" sarayında deyildiyi kimi, mən bir daha bəyan etmək istəyirəm ki, biz bu müqavilədən Azərbaycanın bu günü və gələcəyi üçün böyük iqtisadi nəticələr gözləyirik. Əminəm ki, Azərbaycan xalqı bunun bəhrəsini görəcəkdir.

Cənab Uilyam Uayt İkinci Dünya müharibəsi dövründə Amerika Birləşmiş Ştatları və Azərbaycan neftçilərinin fəaliyyətindən danışdı, həmin dəhşətli müharibənin başa çatması və Hitler faşizmi üzərində qələbə çalınması üçün Azərbaycan və ABŞ neftçilərinin əməyinin nə qədər əhəmiyyətli olduğunu qeyd etdi. Bu, tam həqiqətdir ki, İkinci Dünya müharibəsi zamanı Sovet İttifaqı Hitler faşizminə qarşı mübarizə apararkən Azərbaycan neftçilərinin xidməti həddindən artıq yüksək olubdur. O illərdə Sovet İttifaqında istehsal olunan neftin 70 faizindən çoxu respublikamızda, Azərbaycan neftçiləri tərəfindən çıxarılırdı. Cənab Uayt qeyd etdi ki, "Eksson" şirkəti də İkinci Dünya müharibəsi zamanı ABŞ-da ən çox neft çıxaran şirkət olmuşdur. Mən bu fikirlə tamamilə razıyam ki, əgər "Eksson" şirkətinin çıxardığı neft olmasaydı, Azərbaycan neftçilərinin, respublikamızın həmin illərdə hasil etdiyi neft olmasaydı, o müharibə bəlkə başqa cür qurtara bilərdi.



Çox səciyyəvidir ki, İkinci Dünya müharibəsinin qurtarmasının 50 illik yubileyi ərəfəsində Azərbaycan neftçiləri ilə "Eksson" neft şirkəti arasında müqavilə bağlanır. Azərbaycan və "Eksson" neftçiləri birgə fəaliyyətə başlayırlar. Şübhə etmirəm ki, bu fəaliyyət sülh və əmin-amanlıq yaradılmasına, Azərbaycanın və ABŞ-ın xeyrinə, eyni zamanda Qafqazda, bizim regionda gedən müharibəyə son qoyulmasına yönəldiləcəkdir, Azərbaycan xalqının öz müstəqil dövlətində, öz Vətənində, öz torpağında əmin-amanlıq və sülh şəraitində rahat yaşaması üçün imkan yaradacaqdır.

Bu istək və arzu ilə mən bu müqavilənin imzalanması mərasiminə toplaşanları bir daha təbrik edirəm, "Eksson" neft şirkətinə və Azərbaycan Dövlət Neft Şirkətinə bu müqavilənin həyata keçirilməsində uğurlar arzulayıram.

Sağ olun, xeyirli və uğurlu olsun!

Sazişin imzalanması mərasimində ABŞ-ın Azərbaycandakı səfiri Riçard Kozlariç, digər ölkələrin səfirləri, diplomatik nümayəndəliklərin başçıları və başqa rəsmi şəxslər iştirak edirdilər.

BAKI, 11 İYUL 1995-Cİ İL




# "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətinin pay bölgüsünün artırılması haqqında sazişin imzalanması

1995-ci il iyulun 11-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin beynəlxalq neft konsorsiumundakı payının 5 faizinin "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətinə verilməsi haqqında sazişin imzalanması mərasimi oldu.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Respublikasının Baş naziri Tansu Çillər mərasimidə iştirak edirdilər.

Azərbaycan dövlətinin başçısı Heydər Əliyev mərasimi giriş sözü ilə açdı.

**Azərbaycan Prezidenti**
**Heydər Əliyevin giriş sözü**

- Türkiyə Cümhuriyyətinin hörmətli Baş naziri, bacımız xanım Tansu Çillər!

Türkiyə Cümhuriyyətinin nazirləri, hörmətli qonaqlar, xanımlar və cənablar!

Türkiyənin Baş naziri hörmətli xanım Tansu Çillər bu gün Azərbaycana qısamüddətli işgüzar səfərə gəlibdir. Bu səfərin məqsədi həm qısa görüşlər keçirib danışıqlar aparmaq, həm də, xüsusən, Azərbaycan Dövlət Neft Şirkəti ilə "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı yataqların istifadə olunması üçün bir sazişin imzalanması ilə əlaqədardır. Mən sizin adınızdan və öz adımdan Türkiyə Cümhuriyyətinin Azərbaycana ilk dəfə gəlmiş Baş naziri, qardaş ölkənin tanınmış dövlət xadimi, respublikamızın hörmətli və əziz dostu, bacımız xanım Tansu Çilləri səmimi qəlbdən salamlayıram və Azərbaycana gəlişi münasibətilə ona təşəkkürümü bildirirəm.

Məlumunuzdur ki, 1994-cü il sentyabrın 20-də burada, "Gülüstan" sarayında "Əsrin müqaviləsi" adlanan bir müqavilə imzalanmışdır. Həmin müqavilə Xəzər dənizinin Azərbaycan sektorunda üç neft yatağının - "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dünyanın böyük şirkətləri ilə müştərək istifadə olunması ilə əlaqədardır. Bu müqavilədə Türkiyənin şirkəti də iştirak edir. O vaxt həmin sənəd imzalanarkən Türkiyə şirkəti bu müqavilənin layihəsinin 1,75 faizinin sahibi olmuşdur. Yəni Türkiyə bu müqavilədə əvvəldən var. Sonradan isə Azərbaycan Respublikasının öhdəsində qalmış 20 faiz haqqında fikirləşdik. Türkiyənin bu barədə bizə müraciəti olmuşdur. Türkiyə Prezidenti, əziz dostumuz və qardaşımız hörmətli Süleyman Dəmirəl mənə məktub və xüsusi müraciət etmişdir. Baş nazir, hörmətli xanım Tansu Çillərin də mənə bu barədə müraciəti olmuşdur. Bunları və Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələrini nəzərə alaraq, onların daha da inkişaf



etdirilməsini istəyərək, respublikamız həmin müqavilədə öz payından 5 faizin əlavə olaraq Türkiyə Cümhuriyyətinə, bu ölkənin şirkətinin sərəncamına keçməsinə razılıq vermişdir. Artıq bu barədə danışıqlar aparılıb, müəyyən sənədlər hazırlanıb və bu gün bura həmin sənədlərin imzalanması üçün toplaşmışıq. İndi mən istərdim ki, Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev və "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətinin prezidenti Sidqi Səncər bu sənədləri imzalasınlar.

ARDNŞ-nin prezidenti Natiq Əliyev və "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətinin prezidenti Sidqi Səncər sazişi imzaladılar. Sənədi Azərbaycan Respublikasının Baş naziri vəzifəsini icra edən Fuad Quliyev və Türkiyə Respublikasının Baş naziri Tansu Çillər də imzaladılar.

Sonra Türkiyə hökumətinin başçısı xanım Tansu Çillər cavab nitqi söylədi.

**Türkiyənin Baş naziri
Tansu Çillərin nitqi**

- Möhtərəm Prezident, nazirlərimiz və ölkələrimizin dəyərli televiziya və mətbuat nümayəndələri!

Bu gün burada sizinlə birlikdə olmağımdan çox məmnunam. Bu, qardaş Azərbaycana mənim ilk səfərimdir. Etiraf edim ki, Azərbaycandakı qardaş və bacılarımın mənə göstərdikləri münasibətdən çox razı qaldım. İkinci vətənim olan Azərbaycana gəldiyim andan buranın doğrudan da qardaş ölkə olmasını bir daha hiss etdim.

Bu gün buraya bir məqsədlə - qardaş Azərbaycanın neft yataqlarının işlənməsi üçün Türkiyənin 1,75 faiz payının 6,75 faizə çatdırılması münasibətilə toplaşmışıq. Ancaq biz bu gün burada təkcə Azərbaycanın neftinə deyil, onun gələcəyinə investisiya qoyulmasına qərar veririk. Çünki Azərbaycanın gələcəyi həqiqətən çox parlaq olacaqdır. Mən buna inanıram. Mən Azərbaycanın gələcəyi üçün Türkiyənin investisiya qoymasının gərəkli olmasına inanıram. Mən burada bütün dostlarıma və bütün dünyaya müraciət etmək istəyirəm. Azərbaycanın gələcəyi çox parlaq olacaqdır. Bizim ölkəmizin, habelə dünyanın bütün iş adamları Türkiyə ilə birlikdə və ya müstəqil şəkildə Azərbaycana gəlməlidir. Onların burada qoyacaqları sərmayə öz gələcəklərinə qoyduqları sərmayə olacaqdır.

Bu münasibətlə mən möhtərəm Prezident Heydər Əliyevi bir daha təbrik etmək istəyirəm. Çünki o, müstəqillik əldə etmiş bir ölkənin Prezidenti kimi, Azərbaycanın bütün məsələləri ilə məşğul olaraq onun parlaq gələcəyi naminə neftin istifadəsindən əldə edilən faydanın öz xalqına verilməsi üçün çox gərəkli bir layihəyə imza atmışdır.

Azərbaycan və Türkiyə qardaş ölkələrdir. Biz 70 il bir-birimizdən ayrı olmuşuq. Lakin bu ayrılıq bizi bir-birimizdən uzaqlaşdırmamışdır. Azərbaycanın çətinliklərini mənim xalqım öz problemləri hesab edir. Mənim ölkəmin qadınları buradakı bacılarının dərdlərini özününkü hiss edirlər.

Azərbaycanda on bir aydır ki, atəş dayanıbdır. Ermәni təcavüzkarları Azərbaycanın sərhədlərinin zor gücünə bu və ya digər şəkildə dəyişdirilməsinin mümkün olduğunu düşünürlərsə, onlar yanılırlar. Bunu Türkiyə dünya birliyinə həmişə anlatmaq əzmində olmuş və bu əzmi də davam etdirəcəkdir. Azərbaycanın haqq mübarizəsi apardığını onun təmsilçilərinin olmadığı yerlərdə, ölkələrarası münasibətlərdə, beynəlxalq təşkilatlarda - ATƏT, NATO və digər qurumlarda onun qardaşı Türkiyə izah etməkdə davam edəcək və dünya birliyi tərəfindən Azərbaycanın haqlı mübarizəsi müdafiə olunana qədər öz köməyini əsirgəməyəcəkdir. Bu münasibətlə mən belə bir fikir də ifadə etmək istəyirəm ki, öz ölkəmizdə biz Azərbaycana təkcə dost kimi baxmırıq. Biz bir ananın uşaqları olan iki ölkənin vətəndaşlarıyıq. 70 il öncə ayrılmış, amma qovuşmasının qədrini bilmiş, tarixinin, mədəniyyətinin, dininin birliyini daim qorumuş iki ölkəyik. Dövlətlərimiz ayrı ola bilər, ancaq biz eyni ananın uşaqlarıyıq. Allah bir daha bizi bir-birimizdən ayırmasın!

İmzaladığımız sənədlərin iki ölkə arasında istər siyasi, istərsə də iqtisadi sahədə bundan sonra da genişlənəcək iş birliyinin yalnız kiçik bir addımı olmasını diləyirəm və bu işimizə "Xeyirli olsun!" deyirəm.

Sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev nitq söylədi.

**Azərbaycan Prezidenti
Heydər Əliyevin nitqi**

- Hörmətli Baş nazir xanım Tansu Çillər!

Hörmətli nazirlər, qonaqlar, xanımlar və cənablar!

Bu gün burada - Bakının "Gülüstan" sarayında yeni, həm də tam cəsarətlə deyə bilərəm ki, tarixi bir hadisə baş verir. Xəzər dənizinin Azərbaycan sektorundakı yataqların işlənməsi haqqında imzalanmış müqavilə daha da genişlənir, onun dairəsi böyüyür. Dost və qardaş Türkiyənin neft şirkətləri, bütün Türkiyə Cümhuriyyəti bizim bu böyük işimizə, 30 il müddətinə bağlanmış müqaviləmizə qoşulur. Bu məsələ indi imzalanmış sazişlərlə həll olundu. Mən sizin hamınızı, xüsusən də Türkiyədən gəlmiş qonaqlarımızı, Baş nazir xanım Tansu Çilləri bu hadisə münasibətilə təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, bu, Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin daha da inkişaf etməsi üçün böyük bir addım olacaqdır.

Dostluq və qardaşlıq əlaqələrimizin çoxəsrlik tarixi vardır. Bizim köklərimiz, adət-ənənələrimiz, tarixi keçmişimiz birdir. Bunların hamısı keçmiş zamanlarda da bizi bərabər yaşamağa, torpaqlarımızı qorumağa gətirib çıxarmışdır. Son illərdə bu, öz yeni bəhrələrini verir. Doğrudan da, əsrlər boyu bir yerdə, bir kökdən olmuş xalqlarımız, xanım Tansu Çillərin ifadəsi ilə desək, bir ananın uşaqları 70 ildən sonra qovuşub, əl-ələ verib birlikdə irəliyə gedirlər. Ayrılıq bizi nə qədər incitmiş, əziyyətlər vermiş, çətinliklər yaratmış olsa da bizi tamamilə bir-birimizdən ayıra bilməmişdir. Bütün tarixi əlaqələrimiz qısa müddət ərzində bərpa olunmuş, dostluğumuz, qardaşlığımız göz qabağında, bütün dünyada nümayiş etdirilmiş və etdirilir.

Bu gün bir daha deyə bilərəm ki, Azərbaycan üçün Türkiyə ən yaxın dost, qardaş ölkədir. Eyni kökdən olmağımız, eyni dinə və mədəniyyətə mənsubluğumuz bizim bu günümüz və gələcəyimiz üçün böyük əsas və







təməldir. Ötən il və bu il biz bütün Şərqin, bütün türk xalqlarının böyük şairi Məhəmməd Füzulinin 500 illik yubileyini qeyd edirik. Təsadüfi deyildir ki, bu yubiley həm Azərbaycanda, həm Türkiyədə, həm də digər türkdilli ölkələrdə təntənəli şəkildə keçirilir. Bu faktın özü onu göstərir ki, 500 il əvvəl də bir yerdə olmuşuq. Füzuli kimi böyük şairimiz var. O, böyük mədəni irs qoyub gedib. Həmin mədəni irsdən bugünkü nəsillər həm Türkiyədə, həm də Azərbaycanda istifadə edərək mədəniyyətimizi, elmimizi, bütün həyatımızı inkişaf etdirməyə çalışırlar.

Azərbaycan müstəqil dövlət kimi gənc bir ölkədir. Üç ildən bir az artıqdır ki, biz müstəqil dövlət kimi yaşayırıq. Ancaq bu gün böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, respublikamız müstəqillik uğrunda çalışarkən Türkiyə həmişə onu dəstəkləmiş, bizə dayaq olmuş və Azərbaycan öz müstəqilliyini elan edən kimi dünya ölkələri içərisində Türkiyə birinci olaraq Azərbaycanın müstəqilliyini tanımış, bununla da respublikamızın dünya dövlətləri tərəfindən tanınmasına yol açmışdır.

Hörmətli xanım Tansu Çillər tamamilə doğru buyurdu ki, Azərbaycanın hələ bir çox ölkələrdə səfirlikləri, nümayəndəlikləri olmadığına görə biz Türkiyə nümayəndələrinin və səfirlərinin xidmətlərindən istifadə edirik. Mən minnətdarlıq hissi ilə deyə bilərəm ki, hər yerdə və həmişə Türkiyə Cümhuriyyətinin nümayəndələri, elçiləri, səfirləri Azərbaycan nümayəndələrinə kömək edirlər və beynəlxalq təşkilatlarda respublikamıza aid bütün məsələlərin həll olunmasında Türkiyə çox prinsipial mövqe tutur, bizi dəstəkləyir və bizə kömək edir.

Azərbaycan yeddi ildən artıq bir müddətdir ki, Ermənistanın təcavüzünə məruz qalmışdır. Ermənistan torpaqlarımızı işğal etmək, Azərbaycanın Dağlıq Qarabağ bölgəsini ələ keçirmək üçün respublikamıza hərbi təcavüz etmişdir. Ermənistan silahlı qüvvələri bəzi səbəblərdən Azərbaycan torpağının bir qismini işğal edə bilibdir. Hazırda respublikamızın ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu torpaqlardan bir milyondan çox vətəndaşımız qaçqın düşübdür. Həmin illərdə Azərbaycanın öz haqq səsini dünyaya yaymaq, Ermənistanın hərbi təcavüzünü dünyanın bütün ölkələrinə, xalqlarına, beynəlxalq təşkilatlara çatdırmaq üçün çox böyük köməyə, yardıma ehtiyacı olmuşdur. Bu məsələlərdə də və ümumiyyətlə, Azərbaycana Ermənistanın təcavüzü barədə Türkiyə həmişə çox prinsipial, çox ardıcıl mövqe tutub, respublikamızı həmişə dəstəkləyib, Ermənistanın təcavüzünü daim pisləyib, Ermənistana bir təcavüzkar ölkə kimi öz münasibətini bildirib.

Bunların hamısı təbiidir, ona görə ki, biz, bir daha deyirəm, yaxın dost, qardaş ölkələrik, keçmiş və bugünkü əlaqələrimiz bizi bu cür münasibətlərlə yaşamağa dəvət edir. Türkiyədə də yaxşı bilirlər ki, Azərbaycanda bu ölkəyə və onun xalqına böyük hörmət və ehtiram var. Bizim bu münasibətlərimiz gündən-günə artır, iqtisadi, təhsil və elmi, mədəni və digər sahələrdə olan əlaqələrimiz daim inkişaf edir. Bu həm Azərbaycan xalqının, həm də Türkiyə xalqının bu günü və gələcəyi üçün çox gərəklidir.

Bu gün biz bu sazişi imzaladıq. Güman edirəm ki, burada Türkiyə vəsaitinin Azərbaycan neftinin çıxarılmasına qoyulması və Türkiyənin bu müqavilədə fəal iştirak etməsi iqtisadi cəhətdən həm Azərbaycan, həm də Türkiyə üçün böyük əhəmiyyətə malikdir. Ancaq bunun mənəvi əhəmiyyəti, ölkələrimizin bu günü və gələcəyi üçün, dostluq və qardaşlıq əlaqələrimizin möhkəmlənməsi və inkişafı üçün qiyməti əvəzsizdir. Güman edirəm ki, bu da indi imzaladığımız sazişin əsasını təşkil edir.

Bu saziş əsasında 30 il müddətində Xəzər dənizində "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından neft çıxarılacaq, ixrac və istifadə olunacaq və Azərbaycanın iqtisadiyyatı üçün çox fayda gətirəcəkdir. Şübhəsiz ki, bu neftin ixrac olunması məsələsi də var. Bu barədə də müəyyən danışıqlar aparırıq. Bizim fikrimiz belədir ki, neftin ixracı üçün boru xəttinin Türkiyədən keçməsi hər şeydən üstün və bizim üçün hər şeydən əlverişli ola bilərdi. Biz bu sahədə də öz fikrimizi demişik və bundan sonra da deyəcəyik.

Beləliklə, ölkələrimiz və xalqlarımız arasında olan əlaqələrin gələcək inkişafı üçün yeni bir addım atılıbdır. Bu münasibətlə sizin hamınızı bir daha təbrik edirəm.

Hörmətli Tansu xanım, Sizi təbrik edirəm və Azərbaycan xalqına göstərdiyiniz hörmət və ehtirama, köməyə və səmimi münasibətinizə görə Sizə öz təşəkkürümü bildirirəm. Əmin ola bilərsiniz ki, Türkiyənin Baş naziri, böyük bir alim, ictimai-siyasi xadim kimi Sizi Azərbaycanda çox sevirlər və Sizin respublikamıza gəlişinizdən çox məmnundurlar. Güman edirəm ki, Siz Azərbaycanda daim böyük hörmət və ehtirama layiq olacaqsınız.

Bu səfəriniz çox qısamüddətlidir. Mən Sizi Azərbaycana rəsmi səfərə dəvət etmişəm və səbirsizliklə Sizin respublikamıza böyük rəsmi səfərinizi gözləyəcəyik. Bir daha Sizi təbrik edirəm, Sizə cansağlığı, xoşbəxtlik arzu edirəm. Türkiyə xalqına öz hörmət və ehtiramımı bildirirəm. Buradan, Xəzər dənizinin sahilindən, "Gülüstan" sarayından Ankaraya, İstanbula və bütün Türkiyəyə Azərbaycan xalqının salamlarını çatdırıram.

Sazişin imzalanması mərasimində Türkiyənin Baş nazirinin müavinləri, xarici ölkələrin Azərbaycandakı səfirləri, diplomatik nümayəndəliklərin başçıları və digər rəsmi şəxslər iştirak edirdilər.

BAKI, 10 NOYABR 1995-Cİ İL



# "Qarabağ" strukturunun birgə işlənməsi haqqında sazişin imzalanması

1995-ci il noyabrın 10-da Bakıda, "Gülüstan" sarayında Xəzər dənizinin Azərbaycan sektorundakı perspektivli "Qarabağ" strukturunda və ona bitişik ərazidə kəşfiyyat aparılması, yatağın işlənməsi və çıxarılacaq neftin bölüşdürülməsi haqqında Azərbaycan Respublikası nın Dövlət Neft Şirkəti ilə bir qrup xarici neft şirkəti - "LUKoyl" (Rusiya), "Acip" (İtaliya), "Pennzoyl Kaspian Development Korporeyşn" (ABŞ) şirkətləri və "LUKAcip" (Rusiya-İtaliya) birgə müəssisəsi arasında sazişin təntənəli imzalanma mərasimi keçirildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Rusiya, ABŞ və İtaliya hökumətlərinin üzvləri, habelə "Qarabağ" strukturu üzrə layihədə təmsil olunan şirkətlərin rəhbərləri imzalanma mərasimində iştirak edirdilər.

Sahəsi 427 kvadrat kilometr olan "Qarabağ" strukturu Bakıdan şərq tərəfdə, çox böyük potensial ehtiyatlara malik neft hövzəsində yerləşir. Bu zəngin strukturun işlənməsinə başlamaq üçün cəlb edilən kapital hesabına 1,7 milyard dollardan artıq ümumi investisiya qoymaq nəzərdə tutulur. İstismar xərcləri isə 1,3 milyard dollar təşkil edir. Çıxarılacaq neft saziş iştirakçıları arasında bu qaydada bölüşdürülmüşdür. "LUKAcip" - 50 faiz, "Pennzoyl Kaspian Development Korporeyşn"- 30 faiz, ARDNŞ - 7,5 faiz, "LUKoyl" - 7,5 faiz, "Acip" - 5 faiz.

Mərasimin iştirakçıları Azərbaycan Prezidenti Heydər Əliyevi səmimi salamladılar. Prezident Heydər Əliyev toplaşanlar qarşısında nitq söylədi.

### Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi

- Hörmətli xanımlar və cənablar, hörmətli qonaqlar!

Bu gün Azərbaycanda, Bakıda, bu möhtəşəm "Gülüstan" sarayında yeni bir əlamətdar hadisə baş verir. Azərbaycan Respublikasının Xəzər dənizindəki sektorunda yerləşən neft yataqlarından birinin - "Qarabağ" neft yatağının bir neçə xarici ölkənin neft şirkətləri ilə müştərək istifadə olunması üçün müqavilənin imzalanması mərasiminə toplaşmışıq. Bu münasibətlə Azərbaycana qonaqlar gəlibdir. Xarici şirkətlərin mənsub olduğu ölkələrin yüksək səviyyəli hökumət nümayəndə heyətləri, xarici şirkətlərin nümayəndə heyətləri və digər qonaqlar bura toplaşıblar. Bu təntənəli mərasimdə hazırda Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərin rəhbərləri, səfirlər də iştirak edirlər. Mən bu mərasimdə iştirak edən qonaqları və bura toplaşanların hamısını ürəkdən salamlayıram və deyirəm: "Siz Azərbaycan Respublikasına xoş gəlmisiniz!"

Bu müqaviləni hazırlayıb imzalanmağa təqdim edən şirkətlər Rusiyanın "LUKoyl", ABŞ-ın "Pennzoyl", İtaliyanın "Acip" və Azərbaycan Dövlət Neft Şirkətidir. Bu müqavilənin imzalanması üçün təşkil olunmuş təntənəli mərasimdə iştirak etmək üçün respublikamıza gəlmiş Rusiya Federasiyası Hökumətinin nümayəndə heyətini və nümayəndə heyətinin başçısı, Rusiyanın energetika naziri Yuri Şafraniki ürəkdən salamlayıram.

Amerika Birləşmiş Ştatlarının hökumət nümayəndə heyətini və nümayəndə heyətinin başçısı, ABŞ-ın energetika nazirinin müavini Çarlz Körtisi ürəkdən salamlayıram.

İtaliyanın hökumət nümayəndə heyətini və nümayəndə heyətinin başçısı, İtaliyanın sənaye naziri Alberto Klonu ürəkdən salamlayıram.

Bu müqavilənin hazırlanmasında xüsusi fəaliyyət göstərmiş Rusiyanın "LUKoyl" şirkətini və onun prezidenti Vahid Ələkbərovu salamlayıram.

İtaliyanın "Acip" şirkətini və onun prezidenti Qulyelmo Moskatonu salamlayıram. Azərbaycanda bir neçə ildir ki, fəaliyyət göstərən və hazırda öz işinin nəticələrini nümayiş etdirən ABŞ-ın "Pennzoyl" şirkətinin prezidenti Tom Hamiltonu salamlayıram.





Sizin hamınızı, Azərbaycana gəlmiş bütün qonaqları bir daha salamlayıram və əmin olduğumu bildirmək istəyirəm ki, bugünkü mərasimimiz - çox tarixi əhəmiyyət kəsb edən bir müqavilənin imzalanması mərasimi müvəffəqiyyətlə başa çatacaqdır.

Bu gün burada görülən iş müstəqil Azərbaycan Respublikasında həyata keçirdiyimiz tədbirlərin davamıdır. Müstəqil Azərbaycan Respublikası öz təbii sərvətlərinin sahibidir və bu sərvətlərdən istədiyi kimi istifadə etmək imkanına malik olaraq, onlardan Azərbaycan xalqının iqtisadi inkişafı və xalqımızın rifahı naminə xarici ölkələrin şirkətləri ilə müştərək istifadə etməyi lazımlı yol hesab edir və bu yol ilə də gedir. Bu yol Azərbaycan Respublikasının iqtisadiyyatının dünyaya açıq olduğunu göstərir, eyni zamanda respublikamızın demokratiya, bazar iqtisadiyyatı yolu ilə getdiyini göstərir.

Müstəqil Azərbaycan Respublikası həyatının bütün sahələrində demokratiyanın inkişaf etdirilməsinə çalışır. Biz dövlət quruculuğunda, ölkənin ictimai-siyasi həyatında, həm də iqtisadi sahədə demokratiyanın inkişaf etdirilməsi istiqamətində fəaliyyət göstəririk. Biz bu prinsiplərə söykənərək respublikamızın iqtisadiyyatını dünya iqtisadiyyatı ilə daha sıx əlaqələndirməyə və müştərək işlər görməyə çalışırıq. Biz bunu Azərbaycan Respublikası iqtisadiyyatının inkişaf etdirilməsi üçün ən səmərəli yol hesab edirik.

Bu sahədə görülən işlər artıq öz nəticəsini verir. Bir il bundan öncə respublikamızda, Bakıda Azərbaycanın Xəzər dənizindəki sektorunda üç neft yatağının - "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dünyanın böyük neft şirkətləri ilə müştərək istifadə edilməsi üçün böyük müqavilə imzalanıbdır. Həmin müqaviləni imzalamış 11 şirkət dünyanın altı ölkəsinə mənsubdur. Bu, müqavilənin beynəlxalq xarakter daşımasının əyani sübutudur.



Məlumdur ki, bu müqavilənin imzalanması yolu asan olmamışdır. Biz çox böyük maneələrlə rastlaşmışdıq, çoxlu çətinliklərlə üzləşmişdik. Ancaq bütün bunlar bizim tutduğumuz yolla irəli getməyimizin qarşısını ala bilmədi. Biz bu maneələrin hamısının öhdəsindən gələrək, nəhayət, keçən ilin sentyabrında indi "Əsrin müqaviləsi" adlandırılan müqaviləni imzalamağa nail olduq. Bu müqavilənin imzalanmasından sonra keçən bir il Azərbaycan Respublikasının həyatında o qədər də asan bir mərhələ olmayıbdır. Biz böyük sınaqlardan keçdik. İşimizi pozmağa cəhd edən daxili və xarici qüvvələrin qarşısını ala bildik.

Bu bir il müddətində Azərbaycanın həyatında çox faciəli, qorxulu, təhlükəli hadisələr baş vermişdir. Biz dövlət çevrilişi cəhdləri ilə rastlaşdıq - onların qarşısı alındı, terror aktları ilə rastlaşdıq - onların qarşısı alındı, təxribat aktları ilə rastlaşdıq - onların qarşısı alındı, xaricdən bizim ölkəmizə təzyiq göstərən qüvvələrin güclü hərəkətləri ilə rastlaşdıq - onların qarşısı alındı. Bu gün Azərbaycan öz müstəqil siyasətini müvəffəqiyyətlə həyata keçirir.

Müqavilə imzalandıqdan sonra bunun həyata keçirilməsinə şübhə edənlər də vardı, ona bədbin əhval-ruhiyyə ilə yanaşanlar da vardı və bu müqavilənin yerinə yetirilməsinə birbaşa maneçilik edənlər də vardı. Ancaq bunlar da müqavilənin həyata keçirilməsinə mane ola bilmədilər. Mən bu gün məmnuniyyət hissi ilə deyə bilərəm ki, bu il oktyabrın 9-da konsorsiumun Beynəlxalq Əməliyyat Komitəsinin iclasında aparılan müzakirə və qəbul edilmiş qərar sübut edir ki, ötən il bağladığımız müqavilə əməli surətdə həyata keçirilir və öz nəticələrini verir. Müqavilənin həyata keçirilməsi üçün bu il 100 milyon ABŞ dollarına qədər vəsaitdən istifadə edilib və gələn il üçün 600 milyon dollar həcmində büdcə təsdiq olunubdur. Müqavilədə nəzərdə tutulmuş iş qrafiki də vaxtında yerinə yetirilir. 1996-cı ilin sonunda layihəyə əsasən "Çıraq" neft yatağından ilkin neft hasil olunacaqdır. Bu neftin ixracı üçün neft kəmərlərinin çəkilib başa çatdırılması haqqında da qərarlar qəbul edilibdir.

Konsorsium ilkin neftin ixracı üçün iki neft kəmərinin çəkilməsini lüzumlu hesab edibdir. Onlardan biri Rusiyanın ərazisindən Qara dənizə - Novorossiysk limanına, digəri isə Gürcüstan ərazisindən Qara dənizə - Supsa limanına çəkiləcəkdir. Qeyd etmək istəyirəm ki, bu qərar respublikamızda və digər ölkələrdə - Rusiyada, Gürcüstanda, Amerika Birləşmiş Ştatlarında, bu şirkətlərin mənsub olduğu Qərb ölkələrində çox bəyənilibdir və ən müvafiq qərar kimi yüksək qiymətləndirilibdir.

Ötən bir il müddətində görülən işlər və onların nəticələri əyani surətdə nümayiş etdirir ki, biz doğrudan da bu işləri görməyə qadirik və xarici ölkələrin neft şirkətləri ilə birlikdə, onları təmsil edən dövlətlərlə birlikdə biz Azərbaycanın təbii sərvətlərindən səmərəli istifadə edə bilərik. Şübhəsiz ki, bütün bunlar həm bu müqavilədə, konsorsiumda iştirak edən şirkətlərin, həm də onların mənsub olduğu ölkələrin respublikamızla, Azərbaycan Dövlət Neft Şirkəti ilə razılaşdırdığı qarşılıqlı fayda prinsipləri əsasında qurulubdur. Bütün bunlar, nəhayət, bu gün yeni bir yatağın - "Qarabağ" neft yatağının müştərək istifadə olunması üçün imzalanacaq müqavilənin həyata keçirilməsinə əlverişli şərait yaradır. Qeyd etdiyim kimi, "Qarabağ" neft yatağının müştərək istifadə olunmasında Rusiyanın "LUKoyl", İtaliyanın "Acip", Amerika Birləşmiş Ştatlarının "Pennzoyl" şirkətləri müştərək surətdə iştirak edirlər. Dünyanın bu böyük ölkələrinin tanınmış neft şirkətlərinin burada, Azərbaycanda müştərək iş görmək üçün bir araya gəlməsi, bir müqavilə ətrafında toplaşması iqtisadi əhəmiyyətdən əlavə, çox böyük siyasi



əhəmiyyət də daşıyır. Bu onu göstərir ki, Rusiya, Amerika Birləşmiş Ştatları, İtaliya və Azərbaycan doğrudan da iqtisadi sahədə səmərəli əməkdaşlıq edə bilərlər və bu gün bu sahədə böyük bir addım atırlar.

"Qarabağ" neft yatağı zəngin yataqdır. Onun gözəl gələcəyi var. Müqavilənin əsas prinsipləri ondan ibarətdir ki, bu neft yatağından müştərək istifadə olunmasından müqavilədə iştirak edən şirkətlərin hamısı istənilən səviyyədə fayda götürəcəkdir.

Proqnozlara görə, "Qarabağ" neft yatağından 85 milyon tondan 150 milyon tona qədər neft hasil olunması gözlənilir. Bu müqavilənin iqtisadi səmərəliliyi 18 faizdir və hətta ondan da yüksəkdir.

Qeyd etdiyim kimi, hər bir şirkət bu müqavilədən fayda götürəcəkdir. Nəzərdə tutulmuş proqnozlar həyata keçərsə, müqavilədən əldə olunan daxili gəlirin təxminən 65 faizdən 80 faizə qədər hissəsi Azərbaycan Dövlət Neft Şirkətinə çatacaqdır.

Bu müqavilə "Qarabağ" neft yatağının 25 il müddətində işlənməsini nəzərdə tutur. Bu yataqdan ilkin neft 2003-cü ildə hasil edilməyə başlanacaqdır.

Beləliklə, bu müqavilə gələcəyə yönəldilibdir. Biz bu gün Azərbaycanın cari məsələlərini, respublikamızın ağır böhran vəziyyətindən çıxarılması məsələlərini həll edərkən üzümüzü irəliyə tuturuq, gələcəyə baxırıq, ölkəmizin gələcəyi haqqında düşünürük. Müstəqil Azərbaycanın gələcəkdə daha qüdrətli, böyük iqtisadi potensiala malik dövlət olması haqqında fikirləşirik. Eyni zamanda bu müqavilənin imzalanması və onun 25 il müddətində həyata keçirilməsi Azərbaycan Respublikasını, ölkəmizin iqtisadiyyatını Amerika Birləşmiş Ştatlarının, Rusiyanın, İtaliyanın iqtisadiyyatı ilə sıx bağlayır, bu böyük ölkələrlə Azərbaycan arasında olan əməkdaşlıq və dostluq əlaqələrinin inkişaf etdirilməsi üçün yaxşı zəmin yaradır.

Bu müqavilənin layihəsi bir neçə aydır ki, mütəxəssislər, alimlər və ekspertlər tərəfindən işlənib hazırlanır. Həmin məsələ mənim şəxsi nəzarətim altında olubdur. Bu ilin avqustunda mən təqdim olunan materiallar əsasında, nəhayət, bu müqavilənin imzalanması üçün sərəncam vermişəm. Mən çox məmnunam ki, görülən işlər artıq öz nəticəsini veribdir və bu gün biz bu müqavilənin imzalanması mərasiminə toplaşmışıq.

Hörmətli xanımlar və cənablar, mən sizin hamınızı bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Bu müqavilənin uğurlu, xeyirli olmasına əmin olduğumu bildirmək istəyirəm. Müqaviləni imzalamaq üçün hazırlamış şəxsləri öz qələmlərini götürüb onu imzalamağa dəvət edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı böyük diqqətlə dinlənildi və gurultulu alqışlarla qarşılandı.

Sonra sazişin təntənəli imzalanma mərasimi oldu. Sənədi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev, "LUKoyl" şirkətinin prezidenti Vahid Ələkbərov, "Pennzoyl" şirkətinin prezidenti Tom Hamilton, "Acip" şirkətinin prezidenti Qulyelmo Moskato, "LUKAcip" birgə müəssisəsinin prezidenti Oleq Vasilyev imzaladılar. Azərbaycanın Baş naziri Fuad Quliyev, Rusiyanın yanacaq və energetika naziri Yuri Şafrannik, İtaliyanın sənaye naziri Alberto Klo, ABŞ-ın energetika nazirinin müavini Çarlz Körtis sənədi öz imzaları ilə təsdiqlədilər.

Prezident Heydər Əliyev müqavilənin imzalanması münasibətilə xarici qonaqları və mərasimin digər iştirakçılarını təbrik etdi.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev öz həmkarları adından Prezident Heydər Əliyevə müqaviləyə verdiyi xeyir-duaya görə təşəkkür etdi.

Sonra xarici qonaqlar Azərbaycan Prezidenti Heydər Əliyevə, mərasimin iştirakçılarına təbrik və minnətdarlıq sözləri ilə müraciət etdilər.



Əvvəlcə Rusiyanın yanacaq və energetika naziri Yuri Şafranikə söz verildi.

**Rusiyanın yanacaq və energetika naziri Yuri Şafranikin çıxışı**

- Hörmətli cənab Prezident, xanımlar və cənablar!

Belə sazişlər illərlə hazırlanır. Qısa müddətdə bu cür böyük iş görülməsi belə bir başlıca cəhəti göstərir ki, Azərbaycan düzgün yoldadır, onun rəhbərliyi, mütəxəssisləri məqsədlərini dəqiq müəyyənləşdirmişlər. Bu məqsədlərə çatmaq üçün iradə var, ən əsası budur ki, qonşuların və tərəfdaşların etimadı var. Yalnız bütün bu amillərin birləşməsi belə bir qısa müddət ərzində həm birinci, həm də ikinci müqaviləyə gəlib çıxmağa imkan vermişdir. Zənnimcə, burada iştirak edən mütəxəssislər mənim bu sözlərimi dəstəkləyər və təsdiqləyərlər ki, belə işin bu cür sürətlə, böyük hazırlıqla görülməsi və sənədlərin imzalanması ilə başa çatması halları dünya təcrübəsində o qədər də çox deyildir.

Rusiya Federasiyası, bizim nazirlik ilk gündən başlayaraq və indiyədək bu işi dəstəkləmiş və onda hərtərəfli iştirak etmişdir. Biz başlıca cəhəti əsas tuturduq, yəni məhz belə layihələr Azərbaycan xalqı üçün, indiki halda həm də Rusiya üçün faydalıdır. Bir mütəxəssis və nazir kimi mən Azərbaycan rəhbərliyinə ürəkdən təşəkkür edirəm ki, işimizə, bu işdə bizim iştirakımıza böyük diqqətlə yanaşmışdır və bu, sazişə əsasən şirkətimizə ayrılmış payda öz əksini tapmışdır. Mən həmçinin əminəm ki, Azərbaycan xalqı baş verən irəliləyişi görür və bilir ki, bu layihə onun firavanlığına xidmət edəcəkdir. Hörmətli cənab Prezident, buraya toplaşmış dostlar, Azərbaycan xalqının rifahına yönəldilmiş bütün layihələri biz həmişə dəstəkləmişik və gələcəkdə də dəstəkləyəcəyik.

Rusiyanın mövqeyi haqqında danışmalı olsam, deməliyəm ki, məhz belə mövqe həm MDB çərçivəsində, inteqrasiyaya, həm də ümumiyyətlə inteqrasiyaya sözdə deyil, işdə xidmət edir. Belə layihələr ölkələrimizin rəhbərliyinin yeritdiyi siyasətin real təcəssümüdür. Mən yüksək səviyyədə əldə olunmuş razılaşmalarm, MDB çərçivəsində imzalanmış sənəd-




lərin, bir çox başqa aktların reallaşmasına Rusiya şirkətinin, bizim nazirliyin kömək etməsindən razıyam. Biz onu da qeyd edirik ki, həm birinci müqavilədə, həm də indiki sazişdə tərəfdaşlarımızla qarşılıqlı əlaqəmizdən razıyıq. Biz bu şirkətləri tanıyırıq, başqa layihələrdə də onlarla işləyirik. Tərəfdaşların bu cür seçilməsi gələcək müvəffəqiyyətə kömək edəcəkdir. Mən həmçinin əminəm ki, bu layihələrdə, ələlxüsus sonrakı layihələrdə Rusiyanın digər şirkətləri də təmsil olunacaq və yanacaq-energetika kompleksində əməkdaşlıq da bu illərdə olduğu kimi dinamik inkişaf edəcəkdir.

Dünənki İttifaqın, bugünkü Rusiyanın hər bir neftçisi Azərbaycanı özünün vətəni sayır. Bu neft diyarının, Azərbaycan dövlətinin inkişafının yeni mərhələsi xalqın rifahına yönəldilmişdir və həmin mərhələnin, bu dəfə olduğu kimi, Rusiyanın iştirakı ilə keçəcək mərhələ olmasından ötrü neftçilərimiz səylərini əsirgəməyəcəklər.

Mən Azərbaycan rəhbərliyinə, Heydər Əliyeviç, şəxsən Sizə təşəkkür edirəm. Zənnimcə, belə dinamika xalqın gələcək firavanlığının göstəricisidir. Həm tərəfdaşlara, həm də ümumən sazişə ürəkdən uğurlar arzulayıram. Allah eləsin ki, biz bu salonda hər il belə sazişlər imzalayaq. Dostlar, hamınıza uğurlar diləyirəm.

Yuri Şafranikin çıxışından sonra Azərbaycan Prezidenti **Heydər Əliyev** ona müraciətlə dedi:

- Mən bizim qonağımız, böyük dostumuz Yuri Konstantinoviç Şafranikə - Rusiya Federasiyasının nazirinə Azərbaycanla mehriban əməkdaşlığa görə, bu regionda baş verən bütün prosesləri realistcəsinə başa düşdüyünə görə, Azərbaycanla Rusiya arasında əməkdaşlığın təşkilində və həyata keçirilməsində fəal iştirakına görə, bugünkü xeyirxah, açıq, səmimi çıxışına görə ürəkdən təşəkkür etmək istəyirəm. Biz məhz belə əməkdaşlıq etməliyik. Rusiya Federasiyası ilə müstəqil Azərbaycan arasında dostluq və əməkdaşlığı məhz belə möhkəmləndirməliyik. Sağ olun.

Daha sonra söz ABŞ-ın energetika nazirinin müavini Çarlz Körtisə verildi.

**ABŞ-ın energetika nazirinin müavini**
**Çarlz Körtisin çıxışı**

- Cənab Prezident Əliyev, cənab Şafranik, cənab nazir Klo, xanımlar və cənablar!

Bu gün mühüm mərasimə dəvət olunmağımdan məmnunam. Bu saziş bayaq cənab Prezidentin qeyd etdiyi kimi, gələcəyə doğru yönəlibdir. Şübhəsiz ki, bu sazişin əldə edilməsi və irəliyə getmək üçün böyük səylər tələb olunubdur.

Amerika Birləşmiş Ştatları Azərbaycan hökuməti ilə dostluq və əməkdaşlıq əlaqələrinin nəticəsini çox yüksək qiymətləndirir. Bizim xalqlarımızın və hökumət-

lərimizin maraqları eynidir - sülh şəraitində yaşamaq, azad və müstəqil xalqlar olmaq, övladlarımız və onların uşaqları üçün daha yaxşı həyat şəraiti yaratmaq.

Amerika Birləşmiş Ştatları hökuməti, sözsüz ki, bu bölgədə daimi sülhün bərqərar olmasına, xalqların tərəqqisinə və inkişafına çalışır. Bu bölgədə Azərbaycanın və digər ölkələrin bu mühüm vəzifəyə çatması üçün aydındır ki, buranın təbii sərvətlərindən istifadə olunması sahəsində əməkdaşlıq mühüm amillərdən biridir. Biz başa düşürük ki, buna nail olmaq üçün bütün tərəflərə bərabər şərait yaradılmalıdır ki, onlar bu işdə iştirak edə bilsinlər. Çoxşaxəli boru kəmərinin çəkilməsi təklifini ABŞ hökumətinin dəstəkləməsi də bu mövqedən irəli gəlir.

Biz həqiqətən səmimi şəkildə inanırıq ki, ilkin neftin iki boru kəməri vasitəsilə həm Rusiya, həm də Gürcüstan ərazisindən nəql olunması bu bölgənin xalqları üçün mühüm rol oynayacaqdır.

Azərbaycan xalqı üçün gələcəkdə təminatlı sülh şəraiti yaratmaqdan ötrü "Qarabağ" yatağına dair müqavilənin imzalanması əsas təminatlardan biridir.

ABŞ hökuməti Xəzər dənizinin təbii sərvətlərindən istifadə olunmasında özünün böyük şirkətlərinin iştirak etməsindən məmnundur.

Cənab Prezident, bu müqavilə üzrə sizin Dövlət Neft Şirkətinin tərəfdaşları olan İtaliyanın "Acip", Amerikanın "Pennzoyl", Rusiyanın "LUKoyl" şirkətləri bura sərmayə qoymaqla Azərbaycanın gələcəyinə öz inamlarını bildirdilər.

İki gündən sonra Azərbaycan daha mühüm bir addım atacaq və gələcəyini, suverenliyini, sabitliyini təmin etmək üçün daha bir tarixi hadisənin şahidi olacaqdır. Şübhəsiz ki, həqiqətən demokratik bir dövlət yaratmaq üçün azad və demokratik seçkilər keçirilməlidir. Siyasi islahatların həyata keçirilməsi, demokratikləşdirmə prosesinin başa çatdırılması Azərbaycanın irəliyə doğru müvəffəqiyyətli addımlarına şərait yaradacaqdır. Sözsüz ki, Azərbaycan bunlara nail olduqdan sonra dünya xalqları arasında öz layiqli yerini tutacaqdır.

Amerika Birləşmiş Ştatlarının hökuməti cənab Prezident Heydər Əliyevin bu işlərin həyata keçirilməsi üçün yeritdiyi siyasəti yüksək qiymətləndirir və bu yolda ona müvəffəqiyyətlər arzu edir.

Cənab Prezident və hörmətli nümayəndələr, bizə bu mərasimdə iştirak etmək imkanı yaratdığınıza görə təşəkkür edirəm.

Diqqətinizə görə çox sağ olun.

Azərbaycan Prezidenti **Heydər Əliyev** ABŞ-ın energetika nazirinin müavini Çarlz Körtisə müraciətlə dedi:

- Hörmətli cənab Körtis, çox əhəmiyyətli və səmimi çıxışınıza görə Sizə təşəkkür edirəm.

Amerika Birləşmiş Ştatlarının beş şirkəti bu müqavilələrin iştirakçısıdır. Bəzi şirkətlər də bizimlə əməkdaşlıq etməyə təşəbbüs göstərirlər. Biz onlarla da əməkdaşlıq etməyə hazırıq.

Nyu-Yorkda olarkən ABŞ Prezidenti cənab Bill Klintonla danışıqlarda, o cümlədən Sizinlə söhbətimdə mən bildirmişəm və bu gün bir daha demək istəyirəm ki, Azərbaycanda demokratiyanın və bütün sahələrdə insan azadlığının təmin olunması üçün Azərbaycan dövləti mümkün olan bütün tədbirləri həyata keçirir. Əmin ola bilərsiniz ki, noyabrın 12-də - iki gün bundan sonra müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasının qəbul olunması üçün keçirilən referendumda və müstəqil respublikamızın ilk demokratik parlamentinin seçilməsi üçün keçirilən seçkilərdə bütün vətəndaşlar üçün azad, müstəqil səsvermə hüququ təmin ediləcəkdir. Demokratik prinsiplərin qorunması və həyata keçirilməsi üçün bütün tədbirlər görüləcəkdir.

Amerikadan uzaq bir məsafə qət edərək bu müqavilənin imzalanması mərasimində iştirak etmək üçün buraya gəldiyinizə görə minnətdarlığımı bildirirəm və Sizi əmin edirəm ki, bu müqavilə, eləcə də gələcək sazişlərimiz Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişaf etməsi üçün yaxşı zəmin yaradacaqdır. Bir daha təşəkkür edirəm.

Sonra İtaliyanın sənaye naziri Alberto Kloya söz verildi.

**İtaliyanın sənaye naziri**
**Alberto Klonun çıxışı**

- Hörmətli cənab Prezident, möhtərəm xanımlar və cənablar!

Mən Azərbaycan Respublikasına İtaliya hökumətinin ən yaxşı arzularını yetirirəm. Mühüm neft sazişinin təntənəli surətdə imzalanması münasibətilə bu arzular heç də diplomatik və ya formal xarakter daşımır. Mən sizinlə cəmi bir neçə saat birlikdə oldum. Lakin mənə belə bir amil xüsusi təsir bağışladı ki, hər birinin dərin kökləri olan müxtəlif mədəniyyətlər və ənənələr sahibkarlığın və əməkdaşlığın inkişafı üçün yeni layihələr hazırlanmasında sintez və yüksəliş tapa bilər. Bu gün əsası qoyulan layihə məhz bu qəbildəndir.

İtaliyanın dünyada ən məşhur ehtiyatları, onun tarix, mədəniyyət və incəsənətinin ehtiyatları bizim üçün bir növ neftdir. Məhz bunu əsas tutaraq mən iftixar hissi ilə xatırlada bilərəm ki, böyük səyyahlarımızdan biri - Marko Polo Qərb adamının Çinə ilk heyranedici səfəri haqqında öz kitabında Bakı şəhərinə gəlişini də təsvir etmiş və Xəzər dənizi sahillərində inkişaf edən və genişlənən neft ticarətindən danışmışdır. İtaliya hökumətinin getdikcə artan maraqla və rəğbətlə



yanaşdığı gənc Azərbaycan Respublikası həmin ənənəvi fəaliyyətə əsaslanaraq, bu gün öz gələcəyini eyni ruh yüksəkliyi ilə yenidən qurur və öz ərazisini beynəlxalq şirkətlərin üzünə açır. Onlar birgə səylərlə Azərbaycanın inkişafına və iqtisadi yüksəlişinə kömək edəcəklər.

İstehsalçı ölkələr arasında Azərbaycan ən qədim neft diyarıdır. Burada olan çox böyük neft ehtiyatları bu gün də beynəlxalq əməkdaşlıq üçün yeni və heyrətamiz perspektiv açır. Marko Polo kimi, "Acip" şirkəti də Azərbaycana eyni maraq və hörmətlə, sahibkarlıq cəsarəti ilə, qarşılıqlı surətdə faydalı məqsədlərə çatmaq üçün işləmək ümidi ilə gəlir. Bu münasibət "Eni" şirkətinin ənənə və mədəniyyətinin xüsusiyyətidir. "Eni" tərəfdaş ölkələrin iqtisadi və sosial inkişafına kömək göstərməyi, yerli mədəniyyəti və yerli hüquqi əsasları qoruyub saxlamağı özünə borc bilir.

İcazə verin, neft şirkətlərinin bütün nümayəndələri qarşısında baş əyim. Müasir səyyahlar kimi, onlar özləri ilə nəinki texniki biliklər və işləmək arzusu gətirir, həm də müxtəlif mədəniyyətlərin, ənənələrin, dinlərin qovuşması vəzifəsini yerinə yetirir, gələcəyə ümid yaradırlar. Dövlətin idarə olunmasına görə və ölkələrimizin, xalqlarımızın rifahı üçün sahibkarlıq fəaliyyətinə görə məsuliyyət daşıyanların perspektivləri də xarici şirkətlərin nümayəndələrinin bacarığından, uzaqgörənliyindən, aça biləcəkləri perspektivlərdən çox asılıdır. İtaliya hökuməti bu prinsipi beynəlxalq əməkdaşlığını başlıca əsası sayır və ona əməl edir. "Eni" şirkətinin bağladığı sazişlər dəfələrlə İtaliyanın yeni beynəlxalq hüdudlara yaxınlaşmasına kömək etmişdir. Əminəm ki, bu dəfə də belə olacaq və altıayaqlı it təsvir edilmiş bayraq Azərbaycan ilə İtaliya arasında uzunmüddətli iqtisadi əməkdaşlığın inkişafı və ölkələrimiz arasında dostluğun möhkəmlənməsi üçün zəmin yaradacaqdır. Sağ olun.

İtaliya naziri çıxış etdikdən sonra Azərbaycan Prezidenti **Heydər Əliyev** ona müraciətlə dedi:

- Hörmətli cənab Alberto Klo, gözəl çıxış etdiyinizə görə və Azərbaycan ilə İtaliya arasında ilk dəfə belə böyük iqtisadi əlaqələr yaratdığınıza görə Sizə təşəkkür etmək istəyirəm. İtaliya dünyada gözəl ölkə kimi tanınmışdır. İtalyanlar özlərinin həyatsevər olmaları və temperamenti ilə məşhurdurlar. Bir çox əsrlərdir ki, bütün bəşəriyyət italyan xalqının son dərəcə gözəl incəsənətinə və mədəniyyətinə məftun olur. İtaliyanın Mikelancelo və Rafael kimi görkəmli övladlarının yaratdıqları əsərlər bütün





insanları heyran qoyur. Bənzərsiz memarlıq və sənət abidələri - müqəddəs Pyotr kilsəsi, Kolizey, Pompey həmişə hər bir insanda italyanların əcdadlarına dərin hörmət hissi doğurur. Buna görə də italyanların yüksək istedadını bildiyimiz üçün, ərazisində neft yataqları olmayan İtaliyanın "Acip" kimi belə böyük neft şirkətinin olması bizi əsla təəccübləndirmir.

Biz şadıq ki, İtaliya Azərbaycana gəlmişdir və "Acip" kimi çox böyük bir şirkət, özü də dövlət şirkəti Azərbaycanla əməkdaşlığa başlayır, Amerikanın "Pennzoyl" və Rusiyanın "LUKoyl" kimi ən iri neft şirkətləri ilə bu sazişdə əməkdaşlığa daxil olur. Bu, çox əlamətdar haldır. Biz sizi Azərbaycan, Rusiya və Amerika neftçilərinin ailəsinə məmnuniyyətlə qəbul edirik. Ümidvaram ki, əməkdaşlığımız uğurlu oalcaqdır. Yeri gəlmişkən deyim ki, bütün bunlar barədə mayın 9-da Moskvadakı görüş zamanı İtaliya Prezidenti ilə söhbətdə danışmaq imkanım olmuşdur.

Maraqlı çıxışınıza görə və Azərbaycan xalqının tarixi, ölkəmizin ənənələri haqqında dediyiniz xoş sözlərə görə Sizə təşəkkür edir və Sizi əmin edirəm ki, neft sənayesi sahəsindəki əməkdaşlığımız İtaliya ilə Azərbaycan arasında dostluq münasibətlərini və əməkdaşlığı möhkəmləndirəcək, inkişaf etdirəcəkdir. Sağ olun.

Sonra "LUKoyl" şirkətinin prezidenti Vahid Ələkbərova söz verildi.

**"LUKoyl" şirkətinin prezidenti**
**Vahid Ələkbərovun çıxışı**

- Zati-aliləri, cənab Azərbaycan Prezidenti!

Cənab nazirlər, hörmətli xanımlar və cənablar!

Mən bu gün Azərbaycanın "Qarabağ" yatağında neft hasilatı işlərini inkişaf etdirmək üçün beynəlxalq konsorsium yaratmış neft şirkətlərinin tapşırığı ilə böyük məmnuniyyətlə və dərin məsuliyyət hissi ilə çıxış edirəm.

Amerikanın "Pennzoyl" şirkətinin, İtaliyanın "Acip" şirkətinin, Rusiyanın "LUKoyl" şirkətinin Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə danışıqları bu gün imzalanmaq üçün təqdim olunmuş sazişin hazırlanması ilə başa çatmışdır. Şirkətlərin rəhbərləri hazırlanmış sənəddən razı qaldıqlarını və bu sazişlə öz üzərlərinə götürdükləri bütün öhdəlikləri yerinə yetirmək arzusunda olduqlarını bildirirlər.

"Pennzoyl" neft şirkətini Azərbaycan Respublikasında yaxşı tanıyırlar. Bu şirkət "Neft daşları" yatağından neftlə birlikdə çıxarılan qazdan istifadə olunmasına dair böyük bir layihəni yerinə yetirmişdir və beynəlxalq konsorsiumun tərkibində "Azəri", "Çıraq" yataqlarının, "Günəşli" yatağının dənizin dərin yerindəki hissəsinin işlənməsinin fəal iştirakçısıdır. "Acip" şirkəti Azərbaycan Respublikasında hələ işləməmişdir. Lakin İtaliyanın bu böyük şirkətinin dəniz şelfində işləmək sahəsində zəngin təcrübəsi var, məsələn, Adriatik dənizində neft çıxarılmasında istifadə olunan nadir texnologiyası var. "LUKoyl" neft şirkətini Azərbaycan Respublikasında yaxşı tanıyırlar. Özü də təkcə ona görə yox ki, bu şirkət və Azərbaycan Dövlət Neft Şirkəti bir-birinə yaxşı bələddirlər, texniki və texnoloji problemlərin həllinə yanaşmaqda oxşar cəhətləri çoxdur, ümumi istehsal mədəniyyəti və maraqları var. Həm də ona görə ki, "LUKoyl" Azərbaycan Respublikasında özünün niyyətlərinin ciddi olduğunu göstərmişdir. Biz Azərbaycanın maşınqayırma kompleksi ilə əlaqələri qoruyub saxlamışıq. Bakıda yanacaqdoldurma stansiyaları şəbəkəsi tikilir. "Azəri" və "Çıraq" yataqlarının işlənməsi sahəsində beynəlxalq konsorsiumda iştirak edirik.

Biz Xəzərdə işləyərkən unutmuruq ki, o, təkcə neft və qaz ehtiyatlarına görə nadir sututar deyildir, həm də sahillərində yaşayan xalqlar üçün həyati əhəmiyyətə malik sututardır. O, nadir flora və faunaya malikdir. Xəzərin nərə balığı və ağ balığı bütün dünyada məşhurdur. Xəzər dənizi quşların yuva saldığı, qışladığı bir məkandır. Buna görə də Xəzərin misilsiz flora və faunasını, ekoloji cəhətdən təmizliyini qoruyub saxlamaq olduqca vacibdir. Burada bütün Xəzəryanı dövlətlər və bu regionda işləyən şirkətlər əlbir fəaliyyət göstərməlidirlər. Biz inanırıq ki, indiki konsorsiumda iştirak edən neftçilərin bilik və təcrübəsinin vəhdəti, ən yeni texnika və texnologiyaların tətbiqi layihəni Xəzərin ekologiyasına cüzi təsirlə uğurlu surətdə həyata keçirməyə imkan verəcəkdir.

Biz yaxşı başa düşürük ki, fəaliyyətə Xəzərin hələ bir çox siyasi problemlərinin həll edilmədiyi vaxtda başlayırıq. Lakin belə düşünürük ki, bu, siyasətçilərin işidir. Yalnız onu qeyd edim ki, mövcud qarşılıqlı anlaşmaya görə, bu problemlər Xəzər sahillərində yaşayan xalqların mənafeyi xeyrinə həll olunmalıdır. Biz bu fikirdəyik ki, bir il əvvəl bağlanmış müqavilə və indi imzalanmış saziş uzrə uğurlu iqtisadi iş siyasi problemlərin də həllini sürətləndirməyə kömək edəcəkdir.

Hörmətli cənab Prezident, konsorsiumun iştirakçısı olan şirkətlər adından qeyd etməyə bilmərəm ki, neft şirkətləri arasında bu gün yeni bir sazişin imzalanması Azərbaycanda siyasi və iqtisadi şəraitin sabitləşməsi sayəsində mümkün olmuşdur. Biz inanırıq ki, Azərbaycanda və Rusiyada qarşıdakı seçkilər sülhü möhkəmlətmək xəttinin düzgün seçildiyinin bir daha təsdiqi olacaqdır. Biz, bu gün imzalanmış sazişin iştirakçıları əminik ki, layihə müvəffəqiyyətlə həyata keçiriləcək və ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmlənməsinə və inkişafına xidmət edəcəkdir. Cənab Prezident, Sizi və bu salonda olanların hamısını, özümü yeni, böyük və maraqlı bir işin başlanması münasibətilə təbrik edirəm.

Hörmətli Heydər Əliyeviç, şirkətlərin prezidentləri adından Sizə kiçik bir töhfə təqdim etmək istəyirəm. Bu töhfə şirkətlərimizlə Azərbaycan Respublikası arasında yaranmış münasibətlərin möhkəmlənməsinin rəmzinə çevriləcəkdir. Çox sağ olun.

Salondakıların gurultulu alqışları altında Azərbaycan Prezidenti Heydər Əliyevə xatirə töhfəsi təqdim olundu.

Axırda ARDNŞ-in prezidenti Natiq Əliyev səmimi sözlərə və sazişin imzalanması mərasimində iştiraka görə çıxış edənlərə və salondakılara bir daha təşəkkürünü bildirdi.

Sazişin imzalanması mərasimi başa çatdıqdan sonra "Gülüstan" sarayında mətbuat konfransı keçirildi.

Mərasim iştirakçıları suallara cavab verdilər.

**Sual:** Bu gün imzalanmış saziş Dağlıq Qarabağ məsələsinin həllini yaxınlaşdıra bilərmi?

**Heydər Əliyev:** Birincisi, mən arzu edirəm ki, sizin arzularınız çin olsun, doğrulsun. İkincisi, onu bildirmək istəyirəm ki, bizim atdığımız hər addım, o cümlədən belə çox dəyərli addımlar Azərbaycan iqtisadiyyatının inkişafına, bölgədə sülhün və əmin-amanlığın təmin olunmasına, Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmlənməsinə və respublikamızla başqa dövlətlər arasında iqtisadi əməkdaşlığın, eləcə də digər əlaqələrin dostluq şəraitində inkişaf etdirilməsinə yönəldilibdir.

Rusiyanın yanacaq və energetika naziri Yuri Şafranik jurnalistlərin suallarına cavab verərkən, Rusiyanın ilkin neftin ixracı üçün öz ərazisindən keçəcək boru kəmərinə dair sənədin imzalanmasını gecikdirməsi fikri ilə razılaşmadı. O dedi ki, hökumət səviyyəsində imzalanmaq üçün indi əsas sənədlər konsorsiumda razılaşdırılır.

Yuri Şafranikin fikrincə, Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın inkişafı yanacaq-energetika sahəsində iki ölkənin əməkdaşlığından xeyli dərəcədə asılı olacaqdır. Bu sahədəki hər hansı irəliləyiş digər sahələrdə, o cümlədən də siyasi sahədə qarşılıqlı əlaqələrin yaxşılaşmasına kömək göstərəcəkdir. Bir daha əminlik ifadə edildi ki, "Qarabağ" strukturuna dair layihə Azərbaycanın, həmçinin Rusiyanın rifahına xidmət edəcəkdir.

Çeçenistanda gedən bərpa işlərindən danışarkən Rusiya naziri bildirdi ki, orada artıq neft çıxarılmasına yenidən başlanmışdır və hasilatın səviyyəsi həmin regiondakı hərbi hadisələrə qədər olan səviyyəni ötmüşdür. Neftayırma sahəsi də işləyir. Ən başlıcası isə, burada çıxarılan neft Novorossiysk vasitəsilə birbaşa ixrac olunur.

İtaliyanın Azərbaycandakı maraqlarının perspektivləri haqqında sualla bağlı bu ölkənin sənaye naziri Alberto Klo dedi ki, İtaliyanın "Acip" şirkətinin respublikaya gəlməsi göstərir ki, onun ölkəsi Azərbaycanla əməkdaşlığı genişləndirmək istəyir.

Sazişin imzalanmasından və mətbuat konfransından sonra Azərbaycan Prezidenti Heydər Əliyev və qonaqlar "LUKoyl"un Bakı şəhərində açdığı yanacaqdoldurma stansiyasına baxdılar və bu şirkətin Azərbaycan paytaxtında inşa edəcəyi ticarət mərkəzinin, otelin təməlinin qoyulması mərasimində iştirak etdilər.

STAVANGER, 25 APREL 1996-CI İL



# ARDNŞ ilə "Statoyl" arasında əməkdaşlıq haqqında sazişin imzalanması

1996-cı il aprelin 25-də Norveçin Stavanger şəhərində Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Statoyl" şirkəti arasında neft sazişinin imzalanması mərasimi keçirildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mərasimdə iştirak edirdi.

Prezident Heydər Əliyevi və onu müşayiət edən şəxsləri səmimiyyətlə salamlayan Norveçin "Statoyl" şirkətinin vitse-prezidenti dedi:

- Hörmətli Prezident, Siz Stavangerə səfərinizlə iki neft şəhərini bir-biri ilə bağladınız.

Daha sonra ARDNŞ ilə "Statoyl" arasında 1994-cü ildə imzalanmış əməkdaşlıq haqqında sazişdən bəhs edən natiq dedi ki, o vaxtdan biz bu əlaqələrin daha da inkişaf etdirilməsinə xüsusi diqqət yetirmişik. Bu gün imzalayacağımız saziş isə bu istiqamətdə daha böyük bir addımdır və Azərbaycanın neft ehtiyatlarının birgə işlənməsində "Statoyl"un iştirakını bir daha reallaşdırır.

Bu işlərin aparılmasında Böyük Britaniyanın "bp" şirkəti ilə birgə iştirak etmələrindən məmnun qaldığını bildirən natiq dedi ki, yeni sazişdə Azərbaycanda neft laylarının fiziki xüsusiyyətlərinin öyrənilməsi ilə məşğul olacaq laboratoriyanın quraşdırılması barədə müddəalar da vardır. "Statoyl" və "bp" şirkətləri belə bir laboratoriyanı Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə hədiyyə edirlər. Ümidvarıq ki, biz gələcək fəaliyyətimizdə bu laboratoriyanın xidmətindən istifadə edəcəyik.

Mərasimdə Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev və "Statoyl" şirkətinin prezidenti Harl Norvinq "Xəzər dənizinin Azərbaycan sektorunun kəşfiyyatı və işlənməsi üzrə tərəflər arasında texnologiya və təcrübə mübadiləsinə dair əməkdaşlıq haqqında saziş"i imzaladılar.





## BAKI, 4 İYUN 1996-CI İL



# "Şahdəniz" yatağının birgə işlənməsi haqqında sazişin imzalanması

1996-cı il iyunun 4-də Bakıda, "Gülüstan" sarayında Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının birgə işlənməsi haqqında ARDNŞ ilə xarici neft şirkətləri arasında müqavilənin imzalanması mərasimi keçirildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mərasimdə iştirak edirdi.

Prezident Heydər Əliyev mərasimi giriş nitqi ilə açdı.

**Azərbaycan Prezidenti**
**Heydər Əliyevin nitqi**

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bu gün 1996-cı il iyunun 4-ü Azərbaycan Respublikasının həyatında neft və qaz istehsalına, neft və qaz sənayesinə həsr olunmuşdur. Azərbaycanda, Bakıda biz bu gün səhər böyük beynəlxalq neft-qaz sərgisi açdıq. Ardıcıl olaraq, dalbadal üç ildir ki, Azərbaycanda belə böyük neft-qaz sərgisi təşkil olunur, açılır və bu sərginin iştirakçılarının sayı ilbəil artır, sərginin miqyası genişlənir.

Biz hamımız bu gün eyni fikrə gəldik ki, beynəlxalq neft-qaz sərgisi bundan sonra Azərbaycanda hər il açılacaq, fəaliyyət göstərəcək və bu, bir ənənəyə çevriləcəkdir. Bu, Azərbaycan Respublikasında zəngin neft-qaz yataqlarının bundan sonra da işlənməsi üçün respublikamıza göstərilən maraqdır, eyni zamanda neft ölkəsi kimi Azərbaycana verilən yüksək qiymətdir. Eyni zamanda bu, müstəqil Azərbaycan Respublikasının dünya ölkələri, şirkətləri ilə müstəqil əlaqə qurmasını nümayiş etdirən əlamətdar bir hadisədir.

Azərbaycanda neft qədim zamanlardan hasil olunur. Azərbaycan hələ ötən əsrdən dünyada neft ölkəsi kimi məşhurlaşıbdır. Ancaq son illərə qədər ölkəmizin həyatında belə sərgi heç vaxt olmamışdır.

Bu gün bu möhtəşəm "Gülüstan" sarayına biz eyni zamanda yeni bir əlamətdar hadisə münasibətilə yığışmışıq. Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" neft-qaz yatağının müştərək işlənməsi barədə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın bir neçə böyük neft şirkəti arasında müqavilənin imzalanması mərasiminə toplaşmışıq.

Son iki il ərzində üçüncü dəfədir ki, biz böyük neft müqaviləsi imzalayırıq. Üçüncü dəfədir ki, bu əlamətdar hadisə münasibətilə buraya - "Gülüstan" sarayına toplaşırıq. 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış böyük neft müqaviləsi - Azərbaycan Respublikası ilə dünyanın nüfuzlu neft şirkətləri arasında müqavilə artıq yaşayır, işləyir və öz nəticələrini verir. "Əsrin müqaviləsi" adlandırılan bu müqavilə Xəzər dənizinin Azərbaycana məxsus olan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının müştərək işlənməsi ilə əlaqədardır.

Xəzər dənizinin Azərbaycana aid sektorundakı "Qarabağ" neft yatağının müştərək işlənməsi və istifadə olunması üçün keçən ilin noyabrında ARDNŞ dünyanın bir neçə böyük neft şirkəti ilə ikinci neft müqaviləsini imzalamışdır. Bu müqavilə də işləyir, yaşayır və ümidvaram ki, öz nəticələrini verəcəkdir.

Bu gün imzalanmaq üçün hazırlanmış müqavilə Xəzər dənizinin Azərbaycana məxsus sektorundakı "Şahdəniz" neft-qaz yatağının müştərək işlənməsinə, istifadə edilməsinə həsr olunubdur. "Şahdəniz" yatağı Azərbaycanın geoloqları, alimləri, neftçiləri tərəfindən açılmış, kəşf edilmiş çox zəngin yataqlardan biridir. Bu yataq geoloqlarımıza, alimlərimizə hələ on illər bundan əvvəl məlum olmuş, 80-ci illərdə açılmışdır. Nəhayət, biz bu yataqdan əməli surətdə istifadə edilməsi üçün böyük bir addım atırıq.

Deyilənlərə görə, təxminən 1990-cı ildə Dövlət Neft Şirkəti tərəfindən Azərbaycanın qaz ilə təchizatını təmin etmək üçün "Şahdəniz" yatağında bir quyunun qazılmasına başlanmış, verilən məlumata görə, təxminən 2 min metr dərinliyə qədər qazılmış, ancaq vəsaitin, imkanların olmamasından bu iş davam etdirilməmiş və



başlı-başına buraxılmışdır. 1992-ci ilin sentyabrında Azərbaycan hökuməti "Şahdəniz" yatağının işlənməsi ilə əlaqədar Böyük Britaniya Krallığının "Britiş Petroleum" və Norveçin "Statoyl" şirkətləri ilə müqavilə imzalamışdır. Bu müqavilədə həmin yatağın birgə işlənməsi üçün danışıqlar aparılması və yatağın işlənməyə hazırlanması barədə "Britiş Petroleum" və "Statoyl" şirkətlərinə xüsusi səlahiyyətlər verilmişdir. Bu iki şirkət alyans yaradaraq işə başlamış, sonra həmin alyansa Türkiyənin "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkəti də qoşulmuş, onlar bu işləri öz imkanları çərçivəsində aparmışlar.

Son illərdə ARDNŞ ölkəmizin iqtisadiyyatını inkişaf etdirmək məqsədi ilə Azərbaycan Respublikasının neft-qaz ehtiyatlarından, mövcud yataqlardan səmərəli istifadə edilməsi üçün lazımi işlər görmüşdür. Azərbaycan Dövlət Neft Şirkəti, alimlərimiz, geoloqlarımız, neftçilərimiz "Şahdəniz" yatağında son illər müəyyən tədqiqatlar aparmış, işlər görmüşlər. Bunların nəticəsində 1995-ci ilin oktyabrında ARDNŞ "Şahdəniz" yatağının dünyanın böyük neft şirkətləri ilə birlikdə, müştərək işlənməsini zəruri hesab etmiş və bu barədə təklif irəliyə sürmüşdür. Həmin təklif əsasında bu



sahədə iş görülməsi üçün mən onlara həm səlahiyyət, həm də lazımi tapşırıqlar vermişəm. Aparılan işlər nəticəsində Azərbaycan Dövlət Neft Şirkəti "Şahdəniz" yatağının dünyanın bir sıra neft şirkətləri ilə birgə işlənməsi, istifadə olunması haqqında müqavilə layihəsi hazırlayıb mənə təqdim etmişdir.

Bu müqavilə layihəsini hazırlayarkən, "Şahdəniz" yatağından əməli surətdə istifadə edilməsi üçün tədbirlər görərkən ARDNŞ "Britiş Petroleum", "Statoyl", "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətləri ilə bərabər, dünyanın başqa neft şirkətlərinin bu neft yatağının işlənməsinə cəlb edilməsi haqqında təkliflər irəli sürmüş və bu təkliflərin həyata keçirilməsinə nail olmuşdur. Beləliklə, bu neft-qaz yatağının işlənməsinə Rusiya Federasiyasının "LUKoyl", Fransanın "Elf Akiten" şirkətləri və İran İslam Respublikasının neft şirkəti də qoşulmuşdur. Hazırlanmış müqavilə Azərbaycan Dövlət Neft Şirkəti ilə Böyük Britaniyanın "Britiş Petroleum", Norveçin "Statoyl", Türkiyənin "Türkiyə Petrolları Anonim Ortaqlığı", Rusiyanın "LUKoyl", Fransanın "Elf Akiten" şirkətləri və İranın neft şirkəti arasında müştərək iş görmək barədə müqavilədir.

Mən bu neft-qaz yatağının və eyni zamanda bu müqavilənin bir neçə göstəriciləri haqqında da söhbət açmaq istəyirəm. Verilən məlumatlara görə, "Şahdəniz" yatağından 400 milyard kubmetr qaz çıxarılması, 200 milyon ton qaz-kondensat əldə olunması və 100 milyon ton neft hasil edilməsi gözlənilir. Beləliklə, bu, çox böyük bir sərvətə malik olan neft-qaz yatağıdır və belə bir yatağın işlənməsi və istifadə edilməsi, şübhəsiz ki, həm Azərbaycan Respublikasına, həm də bu müqavilənin iştirakçısı olan şirkətlərə, həmin şirkətlərin mənsub olduğu ölkələrə çox böyük faydalar verəcəkdir.

Müqavilədə nəzərdə tutulmuş layihəni həyata keçirmək üçün 4 milyard ABŞ dolları məbləğində vəsait qoyulması planlaşdırılmışdır və müqavilə 30 il müddətinə yerinə yetiriləcəkdir. Beləliklə, bu müqavilə həm Azərbaycan Respublikası üçün, həm də müqavilənin həyata keçirilməsində iştirak edəcək şirkətlər və onların mənsub olduğu ölkələr üçün iqtisadi cəhətdən çox səmərəlidir.

Bütün bu göstəriciləri nəzərə alaraq mən bu müqaviləni bəyənmişəm və həmin layihə əsasında müqavilənin imzalanması haqqında fərman vermişəm. Məhz bunların da nəticəsində biz bu gün buraya bu müqavilənin imzalanması mərasiminə toplaşmışıq.

Mən məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycanın yeni neft-qaz yatağının istifadə olunmasında bizimlə artıq bir neçə il əməkdaşlıq edən Böyük Britaniya Krallığının hökuməti və bu ölkənin "Britiş Petroleum" şirkəti yenə də bizimlə bir yerdədir. Bu baxımdan mən Böyük Britaniya Krallığının energetika və sənaye naziri cənab Tim Eqqarı xüsusi salamlayıram və



onun bu işlərdə xidmətlərini qeyd edirəm. Mən bunu xüsusi qeyd edirəm ki, biz bu işlərə başlayarkən - ilk müqaviləni imzaladıqdan indiyədək cənab Tim Eqqar bizimlə birlikdədir və bu gün də bu tədbirdə iştirak edir.

Azərbaycan ilə Norveç arasında əməkdaşlıq da çox sabit xarakter daşıyır. Norveçin "Statoyl" şirkəti bizim birinci böyük müqavilənin iştirakçısıdır və bu gün də yenidən bu müqavilənin fəal iştirakçısıdır. Bu münasibətlə mən Norveç hökumətinin Azərbaycana olan diqqətini, marağını və Norveç dövlətinin, hökumətinin sənaye və energetika naziri cənab Stoltenberqin burada olmasını xüsusi qeyd edirəm. O, sərgidə iştirak etdi və vacib məsələ olduğu üçün indi öz ölkəsinə qayıtmalı oldu. Ancaq o, bizimlə bərabərdir. "Statoyl" şirkətinin rəhbərləri və Norveçin Sənaye və Energetika Nazirliyinin nümayəndələri də indi burada bizimlə birlikdədirlər, bu müqavilənin imzalanmasında iştirak edirlər. Mən onları salamlayıram.

Xəzər dənizinin Azərbaycana məxsus neft-qaz yataqlarının dünya şirkətləri ilə müştərək işlənməsi prosesinə başlayarkən biz ilk əvvəldən indiyədək Rusiya Federasiyası ilə əməkdaşlıq edirik. 1993-cü ilin oktyabrında Rusiya Federasiyasının yanacaq və energetika naziri cənab Yuri Şafranik böyük nümayəndə heyəti ilə Azərbaycanda olmuşdur. Xəzər dənizinin Azərbaycana məxsus olan sektorundakı neft yataqlarının müştərək işlənməsi haqqında o vaxt biz Azərbaycan Respublikasının hökuməti ilə Rusiya Federasiyasının hökuməti arasında saziş imzalamışıq. Rusiya Federasiyası və onun böyük neft şirkəti "LUKoyl" bizim indiyədək imzaladığımız müqavilələrin hamısının - 1994-cü ilin sentyabrında imzalanmış müqavilənin, 1995-ci ilin noyabrında "Qarabağ" neft yatağının birgə işlənməsi ilə əlaqədar imzalanmış müqavilənin üzvüdür. Rusiya Federasiyasının "LUKoyl" şirkəti bu gün "Şahdəniz" yatağının müştərək işlənməsi barədə hazırlanmış müqavilənin də üzvüdür. Mən bunu çox müsbət hal hesab edirəm. Mən bunu Azərbaycan ilə Rusiya arasında olan iqtisadi əməkdaşlığın nümayişi kimi qeyd edirəm. Bu münasibətlə Azərbaycana gəlmiş nümayəndə heyətini və xüsusən Rusiyanın yanacaq və energetika nazirinin birinci müavini cənab Vladimir Kostyunini xüsusi salamlayıram.

Bu gün imzalanan müqavilənin xüsusiyyətlərindən biri də odur ki, neft-qaz sənayesi sahəsində biz yeni ölkələrlə əməkdaşlığa başlayırıq. Həmin ölkələrdən biri Fransadır, bu ölkənin məşhur "Elf Akiten" şirkətidir. Mən Fransa ilə bu sahədəki əməkdaşlığımızı müsbət qiymətləndirirəm və bundan məmnun olduğumu bildirmək istəyirəm. Bu münasibətlə Fransadan Azərbaycana gəlmiş nümayəndə heyətinin başçısı, Fransa Respublikasının sənaye və energetika nazirinin müavini cənab Gi Arleti və "Elf Akiten" şirkətinin prezidenti cənab Filip Jofreni xüsusi salamlayıram.



Mən qeyd etdim və bir daha bildirmək istəyirəm ki, Türkiyə Cümhuriyyətinin "Türkiyə Petrolları" şirkəti neft-qaz sənayesi sahəsində bizimlə sıx əməkdaşlıq edir. Onlar "Şahdəniz" yatağı barədə müqavilənin işlənib hazırlanmasında "Britiş Petroleum" və "Statoyl" şirkətləri ilə birgə bir neçə ildir ki, məşğuldurlar. Məhz bunların nəticəsində "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkəti indi imzalanan müqavilənin fəal iştirakçısıdır. Türkiyədən bizə daim yüksək səviyyəli nümayəndələr gəlir. Hörmətli səfir bu gün bildirdi ki, Türkiyənin daxili vəziyyəti ilə əlaqədar enerji naziri bu gün buraya gələ bilməyibdir. Ancaq biz onu da burada hesab edirik. Bu gün mən Türkiyə Cümhuriyyətinin və onun "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətinin müqavilədə iştirak etməsini xüsusi qeyd edirəm. Türkiyə Cümhuriyyətindən Azərbaycana gəlmiş nümayəndə heyətini, "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətinin prezidenti cənab Sidqi Sencəri və Türkiyədən gəlmiş qonaqlarımızın hamısını salamlayıram.

İran Azərbaycanın yaxın qonşusu, dostudur, Azərbaycan ilə İran arasında əməkdaşlıq gündən-günə inkişaf edir. İndi biz İran ilə neft-qaz sənayesi sahəsində də

əməkdaşlığımızı genişləndiririk. Qeyd etmək istəyirəm ki, bizim bu əməkdaşlığımız var. Xəzər dənizinin İran sektorunda Azərbaycan neftçiləri iki quyu qazmaq barədə sifariş alıblar və orada işləyirlər. Biz bunu İran ilə əməkdaşlığımızın bir nümunəsi hesab edirik. Xəzər dənizində İranın öz sektoru var. Amma eyni zamanda, Xəzər dənizinin Azərbaycan sektorunda olan "Şahdəniz" yatağının işlənməsinə İranın da cəlb edilməsini mən müsbət hadisə kimi qeyd edirəm. Güman edirəm ki, bu, əməkdaşlığımızı daha da inkişaf etdirəcəkdir. Bu gün imzalanan müqavilədə İran İslam Cümhuriyyətinin "OİEK" şirkəti də iştirak edir. Mən İran İslam Cümhuriyyətindən gələn qonaqlarımızı salamlayıram, milli neft şirkətinin birinci vitse-prezidenti cənab Seyid Mehdi Hüseyn və "OİEK" şirkətinin prezidenti cənab Seyid Əli Əkbər Haşimini salamlayıram.

İmzalanmaq üçün təqdim olunan müqavilə Azərbaycanın neft yatağında yeddi ölkənin şirkətlərinin müştərək işi üzərində qurulubdur: Azərbaycan Respublikası, Böyük Britaniya Krallığı, Norveç, Rusiya, Türkiyə, Fransa, İran. Bu, çox əlamətdar bir haldır.

Mən sizi, bütün Azərbaycan xalqını bu əlamətdar hadisə münasibətilə, yeni neft müqaviləsinin imzalanması münasibətilə ürəkdən təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, iqtisadi əməkdaşlıq, iqtisadiyyatın inkişaf etdirilməsi sahəsində atdığımız bu böyük addım Azərbaycan xalqının rifahı naminə yeni uğurlar gətirəcəkdir.

Bu müqavilənin imzalanması münasibətilə bu salona toplaşanları - xarici ölkələrdən gəlmiş qonaqlarımızı, xarici ölkələrin Azərbaycandakı səfirlərini, beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələrini, bütün qonaqlarımızı ürəkdən salamlayıram. Ümidvar olduğumu bildirmək istəyirəm ki, biz gələcəkdə belə böyük hadisələrin yenə də şahidi olacağıq.

Hamınızı bir daha təbrik edirəm. Hesab edirəm ki, müqavilənin imzalanmasına başlamaq olar. Buyurun.

Sonra Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının birgə işlənməsi haqqında müqavilə imzalandı. Sənədi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev, şirkətləri yeni konsorsiuma daxil olan xarici ölkələrin hökumət nümayəndələri və "bp", "Statoyl", "Türkiyə Petrolları Anonim Ortaqlığı", "LUKoyl", "Elf Akiten", "OİEK" neft şirkətlərinin rəhbərləri imzaladılar.

İmzalanma mərasimindən sonra Böyük Britaniyanın energetika və sənaye naziri Tim Eqqar çıxış etdi.

**Böyük Britaniyanın energetika və sənaye naziri Tim Eqqarın çıxışı**

- Cənab Prezident, nazirlər, xanımlar və cənablar! Mən bu çox mühüm mərasimdə iştirak etməyimə həqiqətən şadam. Fürsətdən istifadə edib keçilmiş yola nəzər salmaq və indi harada olduğumuzu demək, habelə imkan olarsa, irəliyə bir qədər nəzər salmaq istərdim.

Cənab Prezident, dediyiniz kimi, Britaniya şirkətləri Azərbaycanda iri neft müqaviləsinin imzalanmasında iştirak edərkən mən özüm də Bakıda idim. Mən burada 1994-cü ilin sentyabrında olmuşam və budur, yenidən Bakıdayam. Lakin, cənab Prezident, bu müddətdə nə Siz, nə də mən boş durmamışıq. Cənab Prezident, ötən müddətdə Siz üç dəfə Böyük Britaniyada oldunuz, mən isə buraya artıq dördüncü dəfədir ki, gəlirəm. Buna görə də belə düşünürəm ki, cənab Prezident, Siz mənim qarşımda borclusunuz.

Həmin dövrdə biz bunun şahidi olduq ki, səfirliklərimiz tamamilə təşkil edildi və bu, ən əvvəl, bizim səfirlərin - cənab Məmmədquliyevin və cənab Tomas Yanqın səyləri və bacarığı sayəsində mümkün oldu.

Bütün bu müddətdə şirkətlərimiz də çalışaraq, Azərbaycan Dövlət Neft Şirkəti ilə sövdələşmələri konkretləşdiriblər. İndi artıq 45 Britaniya şirkəti Bakıda öz nümayəndəliyinə malikdir. Biz Sizinlə birlikdə ticarət və sənaye üzrə Azərbaycan-Britaniya Şurası yaratdıq. O, ikitərəfli kommersiya münasibətlərimizin gələcək inkişafının daha da konkretləşməsinə xidmət edəcəkdir.

Əlbəttə, bu deyilənlər keçmişə aiddir. Bəs indi biz haradayıq? Bizim ticarət münasibətlərimiz keçmişdəkindən daha yaxşı inkişaf edir. Bu o dərəcədə doğrudur ki, mən bu gün bildirdim: Böyük Britaniya hökuməti ixrac kreditlərini və təminat verən dövlət idarəsi xətti ilə kredit təminatlarını Azərbaycana da şamil edir.

Lakin, cənab Prezident, bu gün mən Bakıya bir daha ona görə gəlməmişəm ki, Bakı mənim üçün ikinci doğma şəhər olmuşdur. Ona görə gəlmişəm ki, Britaniya hökumətinin fikrincə, bu gün imzalanan saziş şirkətlər üçün, habelə ölkələrimiz üçün yaxşı sövdələşmədir. Qeyd etmək lazımdır ki, konsorsiumun tərkibinə üç Xəzəryanı dövlət və dörd qonşu ölkə daxildir. Azərbaycan hökuməti ətraflı düşünüb-daşındıqdan sonra İran da konsorsiumun iştirakçısı kimi dəvət olundu. Cənab Prezident, biz Sizin mülahizənizə və müdrik zəkanıza inanırıq və konsorsiuma başçılıq edən "bp" şirkətinə, əvvəllər olduğu kimi, yenə də etimad və dəstək göstəririk.

Bundan əvvəl mən öz çıxışımda mehriban qonşuluğun böyük əhəmiyyəti olduğunu qeyd etdim. Britaniya hökuməti yəqin etmişdir ki, kommersiya və siyasət sahəsində möhkəm qarşılıqlı münasibətlərin olması müvəffəqiyyətlərə doğru, bu bölgənin tərəqqisinə doğru yol açacaqdır.





Cənab Prezident, Siz daha da irəliləmək üçün artıq möhkəm bünövrə qoymusunuz. Layihələr, ARDNŞ ilə müqavilələr, habelə "Şahdəniz" haqqında saziş çox böyük kommersiya imkanları açır. Odur ki, biz dövlət xadimləri bunu hər vasitə ilə dəstəkləməliyik. Siyasətçilər və biznesmenlər milli sərhədlərə məhəl qoymayaraq, birgə işləməyi artıq çoxdan öyrənmişlər. Buna bu gün çox mühüm sövdələşmənin imzalanması da sübutdur. İndi şirkətlər əldə olunmuş nailiyyətdən maksimum istifadə etməli və biz, hökumətlər, əvvəllər olduğu kimi, yenə də elə tarazlı siyasi imkanlar və kommersiya imkanları yaratmalıyıq ki, biznesmenlərimiz, şirkətlərimiz daha çox inkişaf edə bilsinlər.

Cənab Prezident, mən Sizi, Azərbaycan hökumətini, ARDNŞ-nin himayəsi altında işləyənlərin hamısını, Azərbaycanda neft şirkətlərinin fəaliyyətində iştirak edənlərin hamısını böyük bir nailiyyət münasibətilə, habelə bugünkü müqavilənin imzalanması münasibətilə təbrik edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

Sonra söz Rusiyanın yanacaq və energetika nazirinin birinci müavini Vladimir Kostyuninə verildi.

**Rusiyanın yanacaq və energetika nazirinin birinci müavini Vladimir Kostyuninin çıxışı**

- Hörmətli cənab Prezident, xanımlar və cənablar, müqavilənin imzalanması mərasiminin iştirakçıları, firmaların nümayəndələri və prezidentlər, bu mərasimdə iştirak edən dövlətlərin səfirləri!

Sizə bildirməliyəm ki, dövlətin başçısı olmasaydı, o, neftin Azərbaycan üçün nə demək olduğunu başa düşməsəydi, biz belə uğurlar əldə edə bilməzdik. Qarşıya qoyulan vəzifələrə nail olmaqda heyrətamiz məqsədyönlülük, hamını buraya toplamaq bacarığı - bunlar bütün ciddi sənədlərin imzalanmasında kömək edən keyfiyyətlərdir. Bunlar əla keyfiyyətlərdir.

Neftçilər kimi, biz hamımız yaxşı başa düşürük ki, neft yataqlarının işlənməsi çox baha başa gələn və mürəkkəb işdir. Biz yaxşı başa düşürük ki, olduqca böyük miqdarda maddi ehtiyatlar və maliyyə ehtiyatları toplanmalıdır. Əgər biz hamımız bu vəzifələrin yerinə yetirilməsinə indiki kimi əlbir və mehribanlıqla girişməsək, onda belə düşünürəm ki, bunu heç kəs etməyəcəkdir.

Bu gün "LUKoyl" şirkəti yüksək əqli potensiala və maliyyə potensialına malikdir. Tümen, Sibir və Bakı məktəbini keçmiş olan bizim ən yaxşı Rusiya neftçiləri "LUKoyl" şirkətinə toplaşmışlar. İndi bizim baş şirkətin nümayəndələrinin əslində hamısı Bakıda işləyir. Zənnimcə, yaxşı olardı ki, cənab Prezidentin icazəsi ilə biz Rusiyanın digər şirkətlərini də bu işə cəlb edək.

Rusiyanın burada təmsil etdiyim bütün neftçiləri, qaz sənayesi işçiləri adından konsorsiumda iştirak edən şirkətlərin hamısına uğurlar və firavanlıq arzulamaq istəyirəm. İstərdim ki, bundan sonra da bütün sənədlər Heydər Əliyeviçin rəhbərliyi ilə imzalansın. Diqqətinizə görə sağ olun.

Sonra "bp" şirkətinin vitse-prezidenti Bayron Qrodi söz aldı.

**"bp" şirkətinin vitse-prezidenti Bayron Qrodinin çıxışı**

- Cənab Prezident, Zati-aliləri!

Cənab nazirlər, xanımlar və cənablar!

Böyük Britaniyanın bütün tərəf-müqabilləri adından bildirirəm ki, bu gün bu müqaviləni imzalamaq üçün burada olmaq bizim üçün böyük şərəfdir.

Bütün dünya ictimaiyyətinin gözü bu gün Bakıdadır. Çünki bu müqavilə irəliyə doğru yeni bir addım, yeni beynəlxalq əlaqələr deməkdir. Bu müqavilə XXI əsrdə dünyada yeni əlaqələrin formalaşmasına kömək edəcəkdir.

Biz buraya üçüncü "Xəzərneftqaz" konfransının açılışında iştirak etməyə gəlmişik. Biz son üç il ərzində burada üçüncü böyük müqavilənin imzalanmasında iştirak edirik. Bu işin əsası "Azəri", "Çıraq", "Günəşli" yataqları barədə imzalanmış müqavilə ilə qoyulmuşdur. Son dərəcə haqlı olaraq bu müqaviləni "Əsrin müqaviləsi" adlandırırlar. "Şahdəniz" yatağı ilə əlaqədar bu gün imzalanan bu müqavilə belə möhkəm bünövrə üzərində qurulmuşdur və o, çox möhkəm tikinti materialıdır.

Yeni layihənin imzalanması bir neçə cəhətdən əhəmiyyətlidir. Birincisi odur ki, bu müqavilə "Azəri", "Çıraq", "Günəşli" müqaviləsini daha da təkmilləşdirir, onu tamamlayır. Biz o müqavilədən çox şey öyrənmişik. "Şahdəniz" layihəsini təkmilləşdirməkdə biz həmin müqavilədən istifadə etmişik. Bütün bu işlər gələcəkdə enerji təchizatını yaxşılaşdıracaq, həmçinin Azərbaycanda təhlükəsizliyin və tərəqqinin əsasını qoyacaqdır. İkincisi budur ki, yeni layihənin tətbiqi Azərbaycana olan etimadı daha da artıracaq, Azərbaycanı beynəlxalq aləmdə daha da yüksəldəcəkdir. Ən əsas səbəb də bundan ibarətdir ki, bu, bizim birlikdə işləməyimizə olan etimadı doğruldacaqdır.

Biz "Şahdəniz"i son dərəcə yaxşı bir biznes hesab edirik. Bu, işə ehtiyat və diqqətlə yanaşmanın nəticəsidir. Layihə ilə əlaqədar aparılan danışıqlara 1992-ci ildən başlanmışdır. Digər müqavilələr barədə aparılan danışıqlara nisbətən bu ən uzun sürən danışıqlar olmuş-



dur. Bu danışıqlar ona görə uzun sürmüşdür ki, biz bu müqavilənin bütün tərəflər üçün ədalətli və qənaətbəxş olmasını arzulamışıq. Bu müqavilə bu işlə məşğul olanların yüksək peşəkarlığı və xoş məramı sayəsində meydana çıxmışdır və biz də bu gün onu imzalayırıq.

Azərbaycan Dövlət Neft Şirkəti ilə yanaşı, bütün tərəflər bu son dərəcə perspektivli sahəni hərtərəfli öyrənmiş, onu Xəzər dənizinin digər yataqları ilə müqayisə etmişlər. Biz bu yatağı daha yaxşı öyrənmək üçün bütün qüvvə və bacarığımızı sərf etmişik. İndi isə danışıqlar prosesi artıq başa çatıb, biz işə başlamağa can atırıq və Azərbaycam yenidən neft mərkəzi kimi yaşatmağa çalışırıq. Biz dənizdə geniş miqyasda seysmik tədqiqatlar aparmalı, sonra isə kəşfiyyat quyuları qazmalıyıq ki, bu da "Şahdəniz" yatağının strukturunu öyrənməyimizə kömək edəcəkdir. Yatağın kəşfi geniş miqyaslı iş aparılmasına gətirib çıxaracaqdır ki, bu da bütün tərəflərin səyi ilə ilk məhsulu gələn əsrin ilk illərində almağa imkan verəcəkdir.

Bu potensial respublikanın ehtiyaclarını ödəməyə yeni imkanlar yaradacaq və Azərbaycan üçün yeni gəlir mənbəyinə çevriləcəkdir. Bu, son dərəcə vacibdir. Lakin məsələnin daha vacib tərəfi də vardır. Bu müqavilə Azərbaycan ilə onun tərəfdaşları arasında əlaqələri daha da gücləndirəcəkdir, həm də bu münasibətlər təkcə sərmayə qoyuluşu və ticarətlə məhdudlaşmayacaq, mədəni təmasların, dostluğun və ümumi maraqların daha da artmasına səbəb olacaqdır. Hələ bu yatağın potensialı tam məlum deyil. Lakin biz kəşfiyyat yolunu birlikdə gedəcəyik. Qarşımızda yeni imkanlar açacaq hər yeni müvəffəqiyyəti qiymətləndirməliyik. Bu gün yeni bir əlamətdar gündür və gələcəyə doğru yeni bir addımdır.

Mən və həmkarlarım bu işə olan inamımızı və etimadımızı bildirir və hörmətli Prezident, xatirə olaraq Sizə bir hədiyyə təqdim edirik.

Söz "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətinin prezidenti Sidqi Səncərə verildi.

**"Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətinin prezidenti Sidqi Səncərin çıxışı**

- Zati-aliləri hörmətli Prezident, hörmətli nazirlər, xanımlar və cənablar!

İcazə verin, hörmətli Prezident Heydər Əliyevə öz böyük minnətdarlığımı bildirim. Çünki onun köməyi olmasaydı, biz bu gün buraya toplaşa bilməyəcəkdik və bu böyük mərasimin şahidləri olmayacaqdıq. Mən həm də bu mərasimin iştirakçılarına və tərəf-müqabillərimizə minnətdarlığımı bildirirəm.

Bu, Türkiyə şirkətinin iştirak etdiyi ikinci müqavilədir və onu göstərir ki, biz Azərbaycanda böyük işlər görmək niyyətindəyik, daha yeni layihələrdə iştirak etmək üçün yollar axtarırıq. Mən hamınıza çox böyük müvəffəqiyyətlər arzulayıram.

Bölgədə müstəqillik qazanmış dövlətlər arasında Azərbaycanın bu gün daha məşhur olduğunu hər kəs bilir. Azərbaycamn zəngin neft-qaz yataqlarına malik olduğu hamıya məlumdur. Mövcud müqavilələr və bu gün imzalanan müqavilə, bir çox xarici dövlətlərlə qarşılıqlı əlaqələr Azərbaycan dövləti rəhbərlərinin düşünülmüş surətdə həyata keçirdikləri siyasətin nəticəsidir ki, bu da qardaş ölkədə nə qədər çox iş görüldüyünü və bu qərarları qəbul edərkən nə qədər mətin iradə göstərildiyini sübut edir. Mən bunu yaxşı anlayıram və alqışlayıram.

1994-cü ilin sentyabrında burada imzalanan "Əsrin müqaviləsi"nin Azərbaycan üçün, eləcə də bizim üçün nə qədər böyük əhəmiyyəti olduğu barədə fikirlərimi o vaxt sizinlə bölüşmüşdüm. Biz bu böyük layihələrin həyata keçirilməsinin Azərbaycanın sosial və iqtisadi həyatında mühüm rol oynadığını məmnunluqla izləyirik. Biz bugünkü müqaviləyə imza atmaqdan şərəf duyuruq.

"Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkəti xarici ölkələrin digər şirkətləri ilə bərabər bu müqavilənin həyata keçirilməsində əlindən gələni əsirgəməyəcəkdir. Ölkələrimiz arasındakı tarixi dostluq, qardaşlıq əlaqələri Azərbaycanda imzaladığımız bu layihənin müvəffəqiyyətlə yerinə yetirilməsinə daha ciddi yanaşmağı bizdən tələb edir. Digər tərəfdən, Azərbaycanda istehsal ediləcək ilkin neftin ixrac kəmərinin Türkiyədən keçməsi bu sahədə görülən işlərdə bizim məsuliyyətimizi daha da artırır.

Bir çox ölkələri bir araya gətirən bu yeni konsorsiuma uğurlar diləyir və bu müqavilənin Azərbaycan üçün, bütün tərəflər üçün xeyirli olmasını arzulayıram.

Sonra Fransanın "Elf Akiten" şirkətinin prezidenti Filip Jofre çıxış etdi.

**Fransanın "Elf Akiten" şirkətinin prezidenti Filip Jofrenin çıxışı**

- Zati-aliləri cənab Prezident, xanımlar və cənablar! Bu gün "Şahdəniz" yatağı haqqında Fransanın aparıcı sənaye şirkəti olan "Elf Akiten" ilə müqavilə imzalanması "Elf Akiten" şirkətinə Xəzər dənizinin Azərbaycan akvatoriyasındakı bu yatağın işlənməsində tərəfdaşlıq münasibətlərinə qoşulmağa imkan verir.

Bu neft epopeyasında 10 ölkənin 14 iri neft şirkəti iştirak edir. Bu qədər iştirakçının olması bütün dünya neftçilərinin sizin regiona maraq göstərməsinə inandırıcı sübutdur. Lakin bununla yanaşı, bu qədər iştirakçının olması bizim necə böyük imtahan qarşısında olduğumuza da sübutdur. Odur ki, belə iri layihə yalnız birinci dərəcəli tərəfdaşlar arasında etibarlı əməkdaşlıq sayəsində uğurla başa çatdırıla bilər.

Amma Azərbaycanda hələ çox iş görülməlidir. "Azəri", "Çıraq", "Qarabağ", indi də "Şahdəniz" kəşfiyyat və işlənmə üçün ilk növbədə seçilmişdir. Bununla bərabər, sizin ölkənizdə, Xəzər dənizinin cənub hissəsində hələ kəşf edilməmiş zonalar var və deməli, onlar daha böyük risk tələb edir. "Elf Akiten" şirkəti bir operator kimi, bu yataqların işlənməsinə öz töhfəsini vermək üçün texniki biliklər və maliyyə ehtiyatları təqdim etməyə hazırdır.

Cənab Prezident, icazə verin, bu deyilənləri nəzərə alaraq Sizə təşəkkür edim ki, Siz "Elf Akiten" şirkətinə öz ölkənizdə işləməyə imkan yaratmısınız. Deməliyəm ki, bugunkü gün "Elf Akiten"in yaddaşında əlamətdar bir hadisə kimi qalacaqdır, çünki bugünkü gün Sizin ölkənizdə çoxillik fəaliyyətimizin bünövrəsini qoyur. Deməliyəm ki, bizi burada təkcə iqtisadi məsələ deyil, Azərbaycan xalqının rifahı da maraqlandırır. Bu niyyətlərimizi nəzərə çarpdırmaq üçün biz malyariya ilə mübarizəyə dair dövlət layihəsinə qoşulmağı qərara almışıq. Bu xəstəliyin diaqnostikası və müalicəsi üçün bu axşam Bakıya təyyarə ilə dava-dərman və mikroskoplar gətiriləcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

İran İslam Respublikasının "OİEK" neft şirkətinin prezidenti Seyid Əli Əkbər Haşimiyə söz verildi.

**İran İslam Respublikasının "OİEK" neft şirkətinin prezidenti Seyid Əli Əkbər Haşiminin çıxışı**

- Allahın adı ilə.

Hörmətli cənab Prezident, icazə verin, göstərdiyiniz uzaqgörənliyə və səylərinizə görə Sizə təşəkkürümü bildirim. Prezident Heydər Əliyevin bu mərasimdə iştirak etməsi "Şahdəniz" yatağının nə qədər mühüm bir







layihə olduğunu bir daha sübut edir. Fürsətdən istifadə edərək yeni tərəf-müqabillərimizə də öz təşəkkürümü bildirirəm. Bu layihənin həyata keçirilməsində iştirakımız dünyanın yeddi ölkəsini, mədəniyyətini təmsil edən nümayəndələrin birgə əməyi, əməkdaşlığı kimi çox böyük əhəmiyyətə malikdir.

"OİEK" İranın aparıcı neft mühəndisləri və tikinti şirkətidir. Biz öz təcrübəmizdən və imkanlarımızdan istifadə edərək Azərbaycanın neft və qaz sənayesinin inkişaf etdirilməsinə öz töhfəmizi verəcəyik. Düşünürəm ki, yeni müqavilənin imzalanması ölkələrimiz arasındakı münasibətləri daha da yaxınlaşdıracaqdır.

Fürsətdən istifadə edərək, bu konsorsiumun yaradılmasının baş tutmasına və bu layihədə bizim iştirakımızın təmin edilməsinə şərait yaratdıqlarına görə Azərbaycan hökumətinə, səfirliyinə və Dövlət Neft Şirkətinə təşəkkürümü bildirirəm. Bu qəbildən olan konsorsiumlarda iştirak etmək bizim üçün də yeni bir təcrübədir. Biz böyük bir əməkdaşlığın başlanğıcındayıq. Ümid edirəm ki, biz əməkdaşlıqdan üzüağ çıxacağıq.

Təşəkkür edirəm, Allah köməyiniz olsun.

Sonra Rusiyanın "LUKoyl" neft şirkətinin vitse-prezidenti Ravil Maqanov çıxış etdi.

**Rusiyanın "LUKoyl" neft şirkətinin vitse-prezidenti Ravil Maqanovun çıxışı**

- Zati-aliləri cənab Prezident, xanımlar və cənablar! Bu gün Azərbaycan Respublikasının həyatında iki əlamətdar hadisə baş verdi - "Xəzərneftqaz" üçüncü beynəlxalq sərgisi və konfransı açıldı və "Şahdəniz" yatağının kəşfiyyatına və işlənməsinə dair mühüm müqavilə imzalandı. Belə düşünürəm ki, üç rəqəmi sərgidə 20 ölkənin şirkətlərini qəbul edən Azərbaycan Respublikası üçün də, "Şahdəniz" yatağının işlənməsi üzrə üçüncü konsorsiumun iştirakçıları üçün də xoş əlamət oldu. Fəxr edirəm ki, mənə Rusiyanın "LUKoyl" şirkəti adından "Şahdəniz"ə dair müqavilə imzalamaq şərəfi nəsib oldu.

Rusiya və Azərbaycan neftçilərini çoxdan dostluq və qarşılıqlı anlaşma telləri bağlayır. Rusiyanın və sonralar Sovet İttifaqının neft sənayesi üçün Azərbaycan həmişə kadrlar yetişdirən mərkəz olmuşdur. Azərbaycanın neft məktəbini keçən bir çox mütəxəssislər Uralın və Volqaboyu regionun, Rusiyanın Avropa hissəsindəki, Şimalın və Qərbi Sibirin neft yataqlarını istifadəyə vermişlər. Onlar Rusiya ərazisində indi də işləyirlər. Məmnunluqla qeyd etmək istəyirəm ki, bizim şirkətin prezidenti cənab Ələkbərov Bakıda doğulmuş, institutu burada bitirmiş və əmək fəaliyyətinə Azərbaycanın neft mədənlərində başlamışdır.

Zati-aliləri cənab Prezident, biz müstəqil suveren Azərbaycan dövlətinin təşəkkül tapmasında Sizin gərgin işinizin bütün vacibliyini və mürəkkəbliyini çox yaxşı başa düşürük. Bir neftçi kimi bizə məlumdur ki, Siz Azərbaycanın neft şöhrətinin dirçəlməsinə çox diqqət yetirirsiniz. Başa düşürük ki, Siz Rusiya və Azərbaycan neftçiləri arasında ənənəvi əlaqələri də nəzərə alırsınız. İndi bu əlaqələr yeni inkişaf mərhələsindədir. Nəzərə çarpdırmaq istəyirəm ki, Azərbaycan Respublikasında neft layihələrində iştirak edən bütün şirkətlərdən yalnız ikisi - Azərbaycan Dövlət Neft Şirkəti və Rusiyanın "LUKoyl" şirkəti hər üç layihənin iştirakçısıdırlar.

Zati-aliləri cənab Prezident, neftçilərin səciyyəvi xüsusiyyətlərindən biri bundan ibarətdir ki, onların ayağı dəyən yerlər canlanır, yeni həyat alır. Orada yeni şəhərlər və qəsəbələr salınır, yeni müəssisələr yaradılır, adamların dolanışığı yaxşılaşır və rifahı yüksəlir. "LUKoyl" Azərbaycan Respublikasına nəinki mənfəət götürməyə, həm də ölkənin neft sənayesinin inkişafına, respublika sakinlərinin həyatının, sosial şəraitinin yaxşılaşmasına öz töhfəsini vermək üçün gəlmişdir. Buna misal olaraq Bakının tarixi mərkəzinin bərpa edilməsini, yanacaqdoldurma məntəqəsinin tikilib istifadəyə verilməsini, 92 nömrəli ATS-in yenidən qurulmasını, 97 nömrəli ATS-in modernləşdirməyə hazırlanmasını, "Göy göl" mehmanxanasının yenidən qurulmağa hazırlanmasını, "LUKoyl"un Azərbaycandakı xeyriyyəçilik fəaliyyətini göstərə bilərik. Zənnimcə, bu misallar şirkətimizin niyyətlərinin ciddiliyini kifayət dərəcədə səciyyələndirir və onun əməkdaşlığımızı genişləndirmək və dərinləşdirmək arzusunu izah edir.

Cənab Prezident, icazə verin, "LUKoyl" neft şirkətinin yüz min nəfərdən artıq üzvü olan kollektivi adından Sizə şirkətimizə göstərdiyiniz etimada görə, üçüncü neft müqaviləsində iştirak etmək üçün yaradılmış imkana görə dərin minnətdarlığımızı bildirim və Azərbaycan xalqının rifahı və tərəqqisi naminə çətin və nəcib əməyinizdə möhkəm cansağlığı arzulayım. Diqqətinizə görə sağ olun.

Azərbaycan Prezidenti Heydər Əliyev mərasimdə yekun nitqi söylədi.

**Azərbaycan Prezidenti Heydər Əliyevin yekun nitqi**

- Hörmətli xanımlar və cənablar!

Azərbaycanda, Bakıda üçüncü böyük neft müqaviləsi imzalandı. Bugünkü mərasimin iştirakçıları bu müqavilə haqqında, əvvəllər imzalanmış müqavilələr haqqında dəyərli sözlər dedilər. Heç şübhə yoxdur ki, bu müqavilələr əməli surətdə həyata keçiriləcək, öz bəhrəsini, nəticələrini verəcək və Azərbaycan xalqının rifah halının yüksəlməsi üçün böyük xidmətlər göstərəcəkdir.



Mən bir daha qeyd etmək istəyirəm ki, biz bu gün dünyanın məşhur və çox güclü neft şirkətləri ilə bu neft müqaviləsini imzalayarkən Azərbaycan Respublikasının iqtisadiyyatını inkişaf etdirmək, xalqımızın, vətəndaşlarımızın rifah halını yaxşılaşdırmaq məqsədi daşıyırıq.

Allah Azərbaycan xalqına zəngin sərvətlər bəxş etmişdir. Bizim borcumuz, vəzifəmiz bu sərvətlərdən ehtiyatla istifadə etmək, eyni zamanda bu yataqları ardıcıl olaraq aşkara çıxarıb hərəkətə gətirmək, onlardan müstəqil respublikamızın inkişafı, xalqımızın rifahı naminə istifadə etməkdən ibarətdir. Hamı bilməlidir ki, belə müqavilələrin hazırlanması və onları imzalamaq haqqında qərarlar qəbul edilməsi çox böyük əmək, eyni zamanda böyük iradə tələb edir.

Mən bu gün bildirmək istəyirəm ki, biz bu müqavilələri hazırlayarkən bütün məsələlərə çox diqqətlə, məsuliyyətlə yanaşırıq. Həm bugünkü, həm də gələcək nəsillər qarşısında məsuliyyətimizi dərk edirik. Yalnız dərin və geniş təhlildən, tədqiqatdan, müzakirədən, onların birinci növbədə Azərbaycan üçün gərəkli, faydalı olduğunu hiss edəndən sonra biz bu müqavilələrin imzalanması haqqında qərar qəbul edirik. Bu müqavilələrin imzalanması haqqında qərar qəbul edərkən Azərbaycan Respublikasının Prezidenti kimi mən üzərimə böyük məsuliyyət götürürəm, bu məsuliyyəti dərk edirəm. Əmin ola bilərsiniz ki, bu müqavilələr yalnız və yalnız Azərbaycan üçün çox zəruri olduğuna, ölkəmizin gələcəyi üçün çox xeyirli olduğuna, gələcək nəsillərimiz üçün lazımlı olduğuna görə mən bu məsuliyyətli qərarları qəbul edirəm.

Bu müqavilələr, onların imzalanması Azərbaycan Respublikasının dövlət müstəqilliyini və suverenliyini dünyaya bir daha nümayiş etdirir. Azərbaycan qədim və böyük neft ölkəsidir. Azərbaycanın təbii sərvətlərindən on illərlə, əsrlərlə istifadə olunubdur. Ancaq Azərbaycan xalqı heç vaxt indiki kimi öz sərvətlərinin sahibi olmayıb və heç vaxt da özü, yalnız özü belə iri, cəsarətli, iradəli addımlar atmaq imkanına malik olmayıbdır. Bunlar hamısı dövlət müstəqilliyimizin, suverenliyimizin bəhrəsidir və bizim də borcumuz bu müstəqilliyi, suverenliyi göz bəbəyi kimi qoruyub saxlamaqdan ibarətdir.

Bu müqavilələrin imzalanması Azərbaycanda hüquqi, demokratik dövlətin mövcud olmasını, ölkəmizdə demokratik proseslərin bərqərar olub inkişaf etməsini, respublikamızda siyasi, iqtisadi islahatların həyata keçirilməsini nümayiş etdirir, Azərbaycanın sərbəst bazar iqtisadiyyatı yolu ilə getməsini və dünya iqtisadiyyatına sıx bağlanmasını nümayiş etdirir. Mən bu gün bir daha bəyan edirəm ki, Azərbaycan Respublikasının Konstitusiyasında əks edilmiş bu prinsiplər bu gün də, gələcəkdə də həyatımızın qanunu, bütün sahələrdə işlərimizin əsası olacaqdır.

Təsəvvür edin, Azərbaycan bu müqavilələr üzrə 13 ölkə ilə əməkdaşlıq edir. Bunlar hələ işin başlanğıcıdır. Bizim təbii sərvətlərimiz zəngindir, imkanlarımız böyükdür. Biz gələcəkdə də bu yolla gedəcəyik və Azərbaycan Respublikasının təbii sərvətlərindən xalqımızın rifah halını yaxşılaşdırmaq, ölkəmizin iqtisadi potensialını yüksəltmək üçün səmərəli istifadə edəcəyik.

Bu gün iyunun 4-dür. Düz üç il bundan əvvəl, məhz iyunun 4-də Azərbaycan xalqı, respublikamız böyük təhlükə qarşısında idi. Azərbaycanda qardaş qanı tökülmüşdü, vətəndaş müharibəsi başlanmışdı. Üç il bundan əvvəli xatirinizə salın, o vaxt Azərbaycan necə ağır vəziyyətdə idi. Azərbaycan qarmaqarışıq vəziyyətdə idi, insanlar gələcəyə ümidini itirmişdilər. Azərbaycan xalqı, dövlətimiz bu üç il müddətində çox ağır, böyük, uğurlu bir yol keçib. Azərbaycanda demokratiya bərqərar olub, ilk konstitusiya qəbul edilib, ölkəmizdə demokratik prinsiplər əsasında Azərbaycanın ilk parlamenti seçilibdir. Bu ağır, çətin illərdə xalqımız yenə də öz müdrikliyini göstərdi. Məhz Azərbaycan xalqının müdrikliyinə, mənəviyyatına görə biz ölkəmizi, xalqımızı bu fəlakətlərdən xilas edə bildik, vətəndaş müharibəsinin qarşısını aldıq. Azərbaycanın daxilində olan qarmaqarışıqlığı aradan götürdük, cinayətkar qüvvələri zərərsizləşdirdik və respublikamızda daxili ictimai-siyasi sabitlik yaratdıq.

İndi Azərbaycanın daxili həyatı sabitdir. İnsanlar rahat yaşayır və məhz ictimai-siyasi sabitliyin bərqərar olunması nəticəsində xarici ölkələr Azərbaycana sərmayə qoymaq səylərini günü-gündən artırırlar. Məhz bunların nəticəsində 1994-cü ildə birinci neft müqaviləsini imzaladıq və bu gün üçüncü böyük neft müqaviləsini imzalayırıq.

Təsəvvür edin, üç il bundan əvvəl, iyunun 4-də respublikamız, xalqımız çabalayırdı, təhlükə qarşısında, qan içində, vətəndaş müharibəsi içində idi. Amma üç ildən sonra biz məhz bu gün - iyunun 4-də artıq üçüncü böyük neft müqaviləsini imzalayırıq.

Qonaqlarımız əmin ola bilərlər ki, Azərbaycanda ictimai-siyasi sabitlik möhkəmdir və günü-gündən möhkəmlənəcəkdir. Azərbaycanda demokratik proseslər gedir və bundan sonra daha da sürətlə gedəcəkdir. Azərbaycan demokratik, hüquqi, sivilizasiyalı dövlət kimi dünya birliyində öz yerini bundan sonra da tutacaqdır.

Hörmətli dostlar, qonaqlar!

Sizi və bütün Azərbaycan xalqını, vətəndaşlarını bu gün, yəni 1996-cı il 4 iyun günü münasibətilə, üçüncü neft müqaviləsinin imzalanması münasibətilə təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

Müqavilə uğurlu olsun! Gələn görüşlərə, müqavilələrə qədər.


NEFT DAŞLARIN
İLKİNLƏ

BAKI, 14 DEKABR 1996-CI İL



# "Dan ulduzu" və "Əşrəfi" strukturlarının birgə işlənməsi haqqında sazişin imzalanması

1996-cı il dekabrın 14-də Bakıda, "Gülüstan" sarayında Xəzərin Azərbaycan sektorundakı "Dan ulduzu" və "Əşrəfi" neft strukturlarının birgə işlənməsi haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə ABŞ-ın "Amoko", "Yunokal", Yaponiyanın "İtoçu" və Səudiyyə Ərəbistanının "Delta" şirkətləri arasında müqavilənin imzalanması mərasimi oldu.

Mərasim iştirakçıları Azərbaycan Prezidenti Heydər Əliyevi hərarətlə qarşıladılar.

Dövlət başçısı mərasimdə nitq söylədi.

**Azərbaycan Prezidenti**
**Heydər Əliyevin nitqi**

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bu gün Azərbaycan Respublikasının həyatında yeni əlamətdar bir hadisə baş verir. Azərbaycanın neft yataqlarının xarici ölkələrin neft şirkətləri ilə müştərək işlənməsi və istifadə olunması ilə əlaqədar yeni bir neft müqaviləsi imzalanır.

Bu hadisə Azərbaycan Respublikasının neft yataqlarının, təbii sərvətlərinin birgə işlənməsi və ölkəmizin iqtisadiyyatını inkişaf etdirmək, xalqımızın rifah halını yüksəltmək üçün atılan daha bir dəyərli addımdır. Bu hadisə Azərbaycan Respublikasının iqtisadiyyatını inkişaf etdirmək üçün aparılan kompleks tədbirlərin, ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərinin həyata keçirilməsinin yeni bir təzahürüdür. Bu hadisə Azərbaycan Respublikasının dünya iqtisadiyyatı üçün açıq olduğunu və dünya iqtisadiyyatı ilə bağlılığa daim cəhd göstərdiyini bir daha nümayiş etdirir. Bunlar hamısı birlikdə Azərbaycan Respublikasım inkişaf etdirmək, xalqımızın rifah halını yaxşılaşdırmaq üçün atılan addımlardır. Eyni zamanda bu, Azərbaycan Respublikasının iqtisadi siyasət sahəsində tutduğu strateji yolun davamıdır və ölkəmizin təbii sərvətlərindən, dünyanın qabaqcıl texnologiyasından səmərəli istifadə olunması üçün dünyanın böyük şirkətləri ilə sıx əməkdaşlıq etməyimizin yeni bir təzahürüdür.

Biz bu sahədə tutduğumuz yola sadiqik. 1994-cü ilin sentyabrında Xəzərin Azərbaycan sektorundakı neft və qaz yataqlarının müştərək istifadə olunması barədə dünyanın çox iri və ən nüfuzlu neft şirkətləri ilə böyük bir müqavilə imzalanmışdır. Bu gün məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, iki il bunlan əvvəl imzalanmış müqavilə həyata keçirilir, artıq o öz müsbət nəticələrini verir. Həmin müqavilənin həyata keçirilməsi üçün yaradılmış Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti bu müddətdə xeyli iş görübdür və yaxşı nəticələr əldə edibdir.

Bu ilin sentyabrında Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin hesabatını dinləyərkən məlum oldu ki, nəzərdə tutulan proqram vaxtlı-vaxtında və ardıcıl surətdə həyata keçirilir. Beynəlxalq Əməliyyat Şirkəti tərəfindən hazırlanmış, modernləşdirilmiş, bərpa edilmiş "Dədə Qorqud" yarımdalma qazma qurğusu bu ilin avqust ayında istifadəyə verilmiş və bu qurğu vasitəsilə "Çıraq" neft yatağında qısa müddətdə - 69 gün ərzində böyük bir quyu qazılmış, yaxşı nəticələr əldə olunmuşdur. Verilən məlumatlar onu göstərir ki, qazılan quyudan alınan nəticələr bizim nəzərdə tutduğumuz, gözlədiyimiz proqnozlardan da da yüksəkdir. İndi orada ikinci quyunun qazılmasına başlanır və bu gün daha qətiyyətlə demək olar ki, o da öz müsbət nəticəsini verəcəkdir. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti qazma işləri ilə bərabər, hasil olunan neftin ixracı ilə bağlı tədbirlər də həyata keçirir.

Bildiyiniz kimi, ilkin neftin ixracı üçün iki neft kəmərinin tikilməsi barədə qərar qəbul olunmuşdur. Bu kəmərlərin biri şimal istiqaməti ilə Rusiya ərazisindən Qara dənizdəki Novorossiysk limanına, ikincisi isə Qərb istiqamətində - Gürcüstan ərazisindən Qara dənizin Supsa limanma gedən kəmərdir.



Bu ilin sonunda - 1997-ci ilin ilk günlərində birinci neft kəməri, yeni Rusiya ərazisindən şimala, Novorossiysk limanına gedən neft kəməri tamamilə hazır olacaqdır və Azərbaycandan bu kəmər vasitəsilə neft nəql etmək mümkün olacaqdır. Qərb istiqamətində neft kəmərinin inşasına 1997-ci ilin əvvəlində başlanacaq və Beynəlxalq Əməliyyat Şirkətinin verdiyi məlumata görə, bu iş 1998-ci ilin sonunda başa çatacaqdır. Beləliklə, 1994-cü ildə imzalanmış neft müqaviləsi əsasında hasil olan ilkin neftin ixracı məsələləri tamamilə həll edilibdir.

Bu ilin sentyabrında biz Beynəlxalq Əməliyyat Şirkətinin məlumatı əsasında geniş müzakirə aparmışıq, mən onların hesabatını dinləmişəm. Beynəlxalq Əməliyyat Şirkəti məlumat veribdir ki, "Əsrin müqaviləsi"nin proqramı əsasında 1997-ci ilin avqustunda "Çıraq" yatağından neft hasil ediləcək və bu məhsul ixrac üçün hazır olacaqdır.

Beləliklə, 1994-cü ildə imzaladığımız neft müqaviləsinin son iki il müddətində yüksək səmərəli olduğunun şahidiyik və bunlar indən sonra da bu istiqamətlə hərəkət etməyə bizdə daha da çox inam yaradır.

Bildiyiniz kimi, 1995-ci ilin noyabrında Azərbaycan Respublikasının Xəzər dənizindəki sektorunda olan "Qarabağ" neft yatağının müştərək istifadə edilməsi üçün ikinci bir müqavilə imzalanmışdır. İndi bu müqavilə də işləyir, həyata keçirilir. Xəzərin Azərbaycan sektorunda olan "Şahdəniz" neft və qaz yatağının müştərək işlənməsi üçün bu il iyunun 4-də üçüncü müqavilə imzalanıbdır.

Bu gün isə biz bu istiqamətdə hərəkətimizi davam etdirərək dördüncü neft müqaviləsinin imzalanmasına toplaşmışıq. Bu müqavilə Xəzərin Azərbaycan sektorundakı "Dan ulduzu" və "Əşrəfi" yataqlarının müştərək istifadə edilməsinə həsr olunubdur. Bu zəngin neft yataqları Azərbaycan Respublikasının alimləri, geoloqları, neftçiləri, mütəxəssisləri tərəfindən hələ 1970-ci illərdə kəşf olunmuş, açılmışdır. Bundan sonra həmin yataqların istifadə olunması üçün bəzi cəhdlər göstərilmişdir. 1982-1985-ci illərdə bu yataqlardan istifadə etmək üçün müəyyən addımlar atılmış, ancaq bu məsələ o vaxt başa çatdırıla bilməmişdir.

"Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının istifadə olunması üçün 1992-ci ildə Amerika Birləşmiş Ştatlarının "Amoko" və "Yunokal" şirkətləri ilə danışıqlar başlanmışdır. O vaxtdan indiyədək həm danışıqlar, həm də bu yataqların istifadə olunmasına hazırlıq aparılmışdır. 1996-cı ildə bu işlər son mərhələyə çatmışdır. Bu yataqlardan müştərək istifadə olunması, bu məsələnin konkret həll edilməsi üçün 1996-cı ildə həm Azərbaycan Dövlət Neft Şirkəti, həm də Amerika Birləşmiş Ştatlarının "Amoko" və "Yunokal" neft şirkətləri tərəfindən təkliflər irəli sürülmüşdür. Bu təkliflərin səmərəliliyi, Azərbaycan Respublikası üçün faydası,əhəmiyyəti və bütün iqtisadi, texniki göstəriciləri bir neçə dəfə müzakirə edilmiş, təhlil olunmuşdur.

Bütün bunlardan sonra mən bu təklifləri bəyənmişəm, "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarında bundan sonra iş görmək, bu yataqların istifadəsinə əməli surətdə başlamaq barədə Azərbaycan Dövlət Neft Şirkətinin verdiyi təklif əsasında müvafiq sərəncam imzalamışam, danışıqların son mərhələsinin həyata keçirilməsi üçün respublika Dövlət Neft Şirkətinə səlahiyyətlər vermişəm.

Bütün bunların nəticəsində Azərbaycan Dövlət Neft Şirkəti Amerika Birləşmiş Ştatlarının "Amoko" və



"Yunokal" şirkətləri ilə birlikdə "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının istifadə olunması üçün müqavilənin layihəsini hazırlayıb təqdim etmişdir. Bu layihəyə baxıldıqdan sonra, yenə də deyirəm, bütün göstəricilərinə görə onun respublikamız üçün səmərəli olduğunu nəzərə alaraq mən bu müqavilənin imzalanması barədə lazımi qərar qəbul etmişəm.

Qeyd etdiyim kimi, 1992-ci ildən indiyə qədər "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının istifadə olunması üçün Amerika Birləşmiş Ştatlarının "Amoko" və "Yunokal" şirkətləri ilə birgə iş, danışıqlar aparılıbdır. Son mərhələdə bu yataqlara başqa neft şirkətləri də maraq göstəriblər.

Mən məmnuniyyətlə qeyd edirəm ki, Yaponiya Azərbaycan iqtisadiyyatına son illər günü-gündən daha çox maraq göstərir. Yaponiyanın şirkətləri Azərbaycana gəlib respublikamızın imkanlarını öyrənirlər və ölkəmizlə müştərək iş görmək haqqında bir neçə təklif irəli sürüblər, o cümlədən Yaponiyanın böyük "İtoçu" şirkəti Azərbaycan Respublikasının neft və qaz yataqlarına maraq göstərmiş və bu barədə ciddi addımlar atmışlar.

Yaponiyanın "İtoçu" şirkətinin ABŞ-ın "Pennzoyl" və "MakDermott" şirkətləri ilə apardığı danışıqlar nəticəsində o, 1996-cı ildə bizim əvvəl imzaladığımız neft müqavilələrinə daxil olmuşdur. Biz bunu bəyənmişik və buna razılıq vermişik. İndi "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının işlənməsi ilə əlaqədar aparılan danışıqlar prosesində Yaponiyanın "İtoçu" şirkəti bu neft yataqlarında müəyyən hissə almaq və bu müqavilənin iştirakçısı olmaq barədə bizə müraciət etmişdir. Biz bu müraciəti qəbul etmişik və Yaponiyanın "İtoçu" şirkəti də indi bu müqavilənin üzvüdür.

Bildiyiniz kimi, Səudiyyə Ərəbistanının "Delta" şirkəti Amerika Birləşmiş Ştatlarının "Yunokal" şirkəti ilə daim əməkdaşlıq edir. 1994-cü ildə imzalanmış neft müqaviləsində "Delta" şirkətinin də özünün müvafiq hissəsi var. Səudiyyə Ərəbistanının "Delta" şirkəti "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının istifadə olunması üçün hazırlanan neft müqaviləsində də iştirak edir və onun da burada özünəməxsus hissəsi var. Beləliklə, "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının müştərək işlənməsi, istifadə olunması və neft hasil edilməsi üçün hazırlanmış müqavilə Azərbaycan Dövlət Neft Şirkəti ilə Amerika Birləşmiş Ştatlarının "Amoko", "Yunokal", Yaponiyanın "İtoçu" və Səudiyyə Ərəbistanının "Delta" şirkətləri tərəfindən yaradılmış konsorsium arasında bağlanır.

Xəzərin Azərbaycan sektorunda olan "Dan ulduzu" və "Əşrəfi" neft yataqları bizim neft yataqlarımızdandır. Proqnozlara görə, bu yataqlardan 150 milyon ton neft hasil etmək mümkün olacaqdır. Bu müqaviləni həyata keçirmək üçün hazırlanmış layihənin yerinə yetirilməsi üçün təxminən iki milyard Amerika dolları sərmayə qoyulması nəzərdə tutulur. Bütün bu sərmayə Azərbaycan ilə neft müqaviləsi imzalayan şirkətlər tərəfindən qoyulacaqdır. Müqavilənin müddəti 25 ildir.

Şübhəsiz ki, bu göstəricilərin hamısı ilkin xarakter daşıyır, bunlar müəyyən qədər dəyişilə bilər. Amma mən hesab edirəm ki, onların dəyişilməsi bu göstəricilərin artması istiqamətində olacaqdır. Beləliklə, mən qeyd etdiyim kimi, bu müqavilə hər cəhətdən səmərəli bir müqavilədir. Azərbaycan Respublikasının milli mənafelərinə, ölkəmizin iqtisadiyyatına çox faydalı olan bir müqavilədir. Eyni zamanda o, Azərbaycan Respublikası ilə müştərək iş görmək istəyən və bu müqaviləni imzalayan xarici ölkələrin neft şirkətləri üçün faydalı və səmərəli olan bir müqavilədir.

Bu müqavilə bir daha onu nümayiş etdirir ki, Azərbaycan dünyanın bütün ölkələri, respublikamıza maraq göstərən şirkətləri, korporasiyaları ilə əməkdaşlıq etmək yolu ilə gedir. Bu gün mən qeyd etmək istəyirəm ki, biz bundan sonra da bu yolla gedəcəyik.

Mən əməkdaşlıq sayəsində Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında yaranmış dostluq əlaqələrinin xüsusi əhəmiyyətini qeyd edirəm.

Bilirsiniz ki, Amerika Birləşmiş Ştatlarının neft şirkətləri Azərbaycan Respublikasının təbii sərvətlərinə, o cümlədən neft və qaz yataqlarına maraq göstərən ilk şirkətlərdir. Amerika Birləşmiş Ştatlarının xüsusən "Amoko" şirkəti hələ 1990-cı illərin əvvəllərində Azərbaycana gələn ilk şirkətdir. Bu gün məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Amerika Birləşmiş Ştatlarının "Amoko" və digər şirkətləri Azərbaycanın bu sahədə gördüyü işlərin təşəbbüskarlarındandır. Artıq bu əməkdaşlıq geniş miqyas alıbdır. Bu əməkdaşlığı nəinki Amerika Birləşmiş Ştatlarının özəl şirkətləri, həm də bu ölkənin hökuməti, Prezident cənab Bill Klinton və digər yüksək vəzifəli şəxslər daim dəstəkləyirlər və bu əməkdaşlığın indən sonra da daim inkişaf etməsi üçün səylər göstərirlər.

Bildirmək istəyirəm ki, Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klinton ilə, vitse-prezident cənab Albert Qor ilə mənim görüşlərimdə və danışıqlarımda bütün başqa məsələlərlə yanaşı, Amerika-Azərbaycan iqtisadi əməkdaşlığının inkişaf etdirilməsi və xüsusən Xəzərin Azərbaycan sektorunun enerji ehtiyatlarından müştərək istifadə edilməsi məsələsi həmişə diqqət mərkəzində olmuşdur. Məhz bunların nəticəsidir ki, Amerika Birləşmiş Ştatlarında Azərbaycan Ticarət Palatası və Azərbaycanda Amerika Birləşmiş Ştatlarının Ticarət Palatası yaradılmışdır. Dünən biz Amerika Birləşmiş Ştatlarının Azərbaycanda Ticarət Palatasının işə başlaması mərasimində birlikdə iştirak etdik.

Mən bu əməkdaşlığı yüksək qiymətləndirirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, bizim əmək-







daşlığımız bundan sonra günü-gündən genişlənəcək və inkişaf edəcəkdir. Mən bununla yanaşı, bütün başqa ölkələrlə də iqtisadi əməkdaşlığın Azərbaycan üçün çox əhəmiyyətli olduğunu qeyd etmək istəyirəm. Azərbaycandan çox uzaqda yerləşən, iqtisadi cəhətdən inkişaf etmiş və böyük imkanlara malik olan Yaponiyanın və onun iri şirkətlərinin Azərbaycana marağını mən bir daha xüsusi qeyd edirəm. Hesab edirəm ki, bizim bu sahədə əməkdaşlığımız səmərəli ola bilər və mən onun çox müsbət gələcəyinə inanıram.

Mən qeyd etmək istəyirəm ki, özəl şirkətlərlə birbaşa əməkdaşlığımız eyni zamanda dövlətlərin bu əməkdaşlığa böyük maraq göstərməsi, yardım etməsi beləliklə bizim dövlətlərarası əməkdaşlığımızın inkişaf etməsinin əsasını yaradır. Məhz buna görə də həmişə - artıq dördüncü dəfədir ki, bu müqavilələrin imzalanması mərasimində şirkətlərin rəhbərləri ilə yanaşı, ölkələrin hökumət nümayəndələri də iştirak edirlər.

Bu gün bu müqavilənin imzalanması mərasimi münasibətilə Azərbaycana Amerika Birləşmiş Ştatlarından, Yaponiyadan, başqa ölkələrdən qonaqlar gəliblər. Mən bütün qonaqları səmimi qəlbdən salamlayıram və onların hamısına "Xoş gəlmisiniz!" deyirəm.

Mən Amerika Birləşmiş Ştatlarının hökumət nümayəndə heyətinin rəhbəri cənab Yan Kalitskini salamlayıram. Amerika Birləşmiş Ştatlarının böyük neft şirkətlərinin başçıları - "Amoko" nun prezidenti cənab Don Steysini, "Yunokal"ın vitse-prezidenti cənab Marti Milleri salamlayıram.

Mən Yaponiya hökuməti nümayəndə heyətinin rəhbəri cənab Toşiro Tzunozakini və "İtoçu" korporasiyasının "Enerci kemikl" qrupunun prezidenti cənab Koçu Nocimanı salamlayıram.

Mən Səudiyyə Ərəbistanının "Delta" şirkətinin prezidenti, yaxın dostumuz cənab Bədr əl-Əybanı salamlayıram.

Böyük bir neft müqaviləsinin imzalanması Azərbaycan ictimaiyyətində, respublikamızda fəaliyyət göstərən xarici ölkələrin nümayəndəliklərində geniş maraq doğurur. Bu, xarici ölkələrdən Azərbaycana gəlmiş qonaqlarda da böyük maraq doğurur. Onların bir çoxu bizim bu mərasimdə, bu gün "Gülüstan" sarayında iştirak edir.

Bu mərasimdə iştirak edən xarici ölkələrin Azərbaycandakı səfirlərini, beynəlxalq təşkilatların respublikamızdakı nümayəndəliklərinin başçılarını, Azərbaycana gəlmiş bütün xarici qonaqları və Azərbaycan ictimaiyyətinin bu mərasimdə iştirak edən nümayəndələrinin hamısını ürəkdən salamlayıram.

Azərbaycanda dördüncü neft müqaviləsinin imzalanması çox sevindirici haldır, əlamətdar bir hadisədir. Bu hadisə münasibətilə "Gülüstan" sarayına toplaşanları və Azərbaycan Respublikasının vətəndaşlarını, xalqımızı ürəkdən təbrik edirəm.

Hörmətli dostlar, beləliklə, "Əşrəfi" və "Dan ulduzu" neft yataqlarının istifadə olunması üçün son illər aparılan böyük və gərgin iş başa çatıb, bu yataqların istifadə olunması üçün hazırlanmış neft müqaviləsi bizə təqdim edilibdir. Hesab edirəm ki, onu bu təntənəli mərasimdə imzalamaq artıq mümkündür. Mən şirkət rəhbərlərini və müqaviləni imzalayacaq şəxsləri bu mərasimə başlamağa dəvət edirəm.

İmzalama mərasimi başlanmazdan əvvəl bir məlumatı da sizə çatdırmaq istəyirəm. Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti cənab Albert Qor ilə mənim dünən telefon danışığım olmuşdur. Bizim telefon danışığımızda Amerika Birləşmiş Ştatları ilə Azərbaycanın əlaqələri haqqında bir çox məsələlər müzakirə edilmişdir. Vitse-prezident cənab Albert Qor dünən Azərbaycanda Amerika Birləşmiş Ştatlarının Ticarət Palatasının açılmasından məmnun olduğunu bildirmişdir.

Cənab Albert Qor bu gün Amerika Birləşmiş Ştatlarının "Amoko" və "Yunokal" şirkətləri ilə və başqa şirkətlərlə Azərbaycan Dövlət Neft Şirkəti arasında imzalanacaq müqavilə haqqında xoş arzularını bildirmiş və bu münasibətlə öz təbrikini çatdırmışdır. Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti cənab Albert Qorun bu müqavilənin imzalanması münasibətilə bu mərasimə göndərdiyi təbriki və salamları məmnuniyyətlə sizə çatdırıram.



Bir daha təbrik edirəm və sizi müqaviləni imzalamağa dəvət edirəm. Sağ olun.

Sonra Xəzər dənizinin Azərbaycan sektorundakı "Dan ulduzu" və "Əşrəfi" yataqlarının birgə işlənməsi haqqında müqavilə imzalandı. Sənədi Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev, şirkətləri yeni konsorsiuma daxil olan ölkələrin hökumət nümayəndələri və "Amoko", "Yunokal", "İtoçu", "Delta" neft şirkətlərinin rəhbərləri imzaladılar.

Sonra Amerika Birləşmiş Ştatları hökuməti nümayəndə heyətinin başçısı, Prezident Bill Klintonun xüsusi nümayəndəsi Yan Kalitski çıxış etdi.

**ABŞ nümayəndə heyətinin başçısı, ABŞ Prezidentinin xüsusi nümayəndəsi Yan Kalitskinin çıxışı**

- Cənab Prezident, Sizə minnətdarlığımı bildirirəm, Amerika Birləşmiş Ştatlarının nümayəndəsi kimi bu gün belə xüsusi mərasimdə iştirak etməyimdən çox məmnunam.

Cənab Prezident!

Cənab nazirlər!

"Amoko", "Yunokal", "Delta", "İtoçu" şirkətlərinin və Azərbaycan Dövlət Neft Şirkətinin adından mən Sizi indicə imzaladığımız müqavilə münasibətilə təbrik edirəm.

Bu mərasim Azərbaycanın irəliyə doğru inamlı hərəkətidir. Cənab Prezident, icazə verin, təbriklərimə əlavə olaraq, bizə göstərilən qonaqpərvərliyə görə nümayəndə heyətimizin adından Sizə təşəkkürümüzü bildirim. Bu mərasim Sizinlə keçirdiyimiz görüşlərdə və bu gün müzakirə etdiyimiz, ümumi maraq doğuran iqtisadi məsələlərin həllinin parlaq təzahürüdür.

Bu yaxınlarda Amerikada seçkilər zamanı Prezident Bill Klinton belə bir fikri təsdiqləmişdir ki, XXI əsrə yeni bir körpü salınmışdır. Bu gün biz Azərbaycanı XXI əsrə aparan körpünün yaradıldığının şahidi olduq. Cənab Prezident, Siz bu gün burada iştirak edən beş şirkətin əməkdaşlığı ilə bu körpünün təməl daşını qoyursunuz və bu, indicə sənədin imzalanması ilə təsdiqləndi.

Azərbaycan ilə Amerika arasında mövcud olan dostluq, hörmət və ehtiram hissləri həmin təməl daşlarını bir-birinə bərkidən zəmindir. "Amoko" və "Yunokal" şirkətlərinin bu müqavilənin həyata keçirilməsi üçün gətirdikləri mütərəqqi texnologiyalar, idarəetmə üsulları, qoyulan sərmayələr və istifadə ediləcək işçi qüvvəsi bu körpüyə dayaq olacaqdır. Həmin körpünün dayaqları Azərbaycan neftini dünya bazarına aparan çoxşaxəli boru kəmərləri ilə bərkidilir. Bu körpünün yaradılması yalnız beş şirkətin deyil, "Əşrəfi", "Dan ulduzu" layihəsində və Azərbaycan neftinin hasilatı üzrə digər layihələrdə iştirak edən ABŞ şirkətlərinin və Azərbaycan iqtisadiyyatının dünya birliyi ilə bağlanmasını təmin edən neftçilərin zəhmətinin bəhrəsi olacaqdır.

Mən bizi XXI əsrə aparan bu körpünü ölkələrimiz arasında mövcud hörmətin təzahürü kimi təsvir etdim. Bu hörmət ölkələrimizin Prezidentləri arasındakı dostluqdan irəli gəlir. Cənab Prezident Heydər Əliyev, Prezident Bill Klinton Sizə göndərdiyi axırıncı məktubda iki ölkə arasında inkişaf etmiş möhkəm əməkdaşlığı xüsusi vurğulamışdır. Həmin məktubunda o, Azərbaycanın Xəzər dənizindəki enerji ehtiyatlarının sürətli istehsalını təşviq etmək məqsədi ilə Azərbaycanla birlikdə işləmək niyyətini bəyan etmişdir. Bugünkü müqavilənin imzalanması bu sürətli inkişafın reallığa çevrilməsi deməkdir. Mən daha bir sitat gətirmək istəyirəm: "Biz bütün Xəzəryanı dövlətlər arasında sualtı ehtiyatların bölünməsi əsasında mülkiyyət hüquqlarını aydın şəkildə təsdiq edən və Xəzər neftinin məhdudlaşdırılmamış nəqlini təmin edən, gələcək sürətli inkişafa imkan verən müqaviləni dəstəkləyirik".

Xəzər regionu enerji ehtiyatlarının inkişafı üçün yeni bir sahədir. Demək olar ki, dünyanın hər bir neft şirkəti bu regionun inkişafında iştirak etməyə maraq göstərir. Amerika şirkətləri malik olduqları mütərəqqi texnologiya, idarəetmə, yüksək işgüzarlıq ruhu ilə Azərbaycan üçün səmərəli tərəfdaş ola bilərlər.

Cənab Prezident, dünən mən Sizinlə birlikdə Azərbaycanda Amerika Ticarət Palatasının açılış mərasi-





mində iştirak etmək şərəfinə nail olmuşam. Siz indiki nitqinizdə çox doğru olaraq qeyd etdiniz ki, Amerika Ticarət Palatasının açılışı mərasimində Bakıda nümayəndəlikləri olan xarici şirkətlərin təmsilçilərini bir daha dəstəklədiyinizi bildirmisiniz. Neftlə məşğul olan şirkətlər başda olmaqla onlar Azərbaycana milyardlarla dollar sərmayə qoyacaqlar.

Şirkətlərin burada əyləşən nümayəndələri Azərbaycanın yaratdığı körpünün təməl daşları ilə müqayisə edilə bilərlər. Onların hər biri Azərbaycanın birinci neft müqaviləsinin müəyyən payının sahibkarıdır. Onlar bu gün burada olmaqla Azərbaycanın iqtisadi inkişafında oynadıqları rolu daha da fəallaşdırmaq niyyətlərini qabarıq nümayiş etdirirlər.

Biz Xəzər enerji regionunun inkişafında Amerika Birləşmiş Ştatları şirkətlərinin səyləri nəticəsində görülmüş işlərdən olduqca fərəhlənirik. Amerika şirkətləri Azərbaycanda birinci neft konsorsiumunun təşkilinə dəstək vermişdilər. İki il bundan əvvəl imzalanan "Əsrin müqaviləsi"ndə 44 faiz payı olan "Amoko" və "Yunokal" şirkətləri bu gün də bizimlədirlər. İkinci müqavilədə Amerika şirkətləri 30 faiz payın sahibi olmuşlar. Bu gün isə biz Amerikanın payı çoxluq təşkil edən ilk müqavilənin şahidiyik. Belə ki, müqavilə üzrə sərmayələrin ümumi dəyərinin 55,5 faizi Amerikanın "Amoko" və "Yunokal" şirkətlərinə aid olacaqdır. Bizim şirkətlərimiz Azərbaycana öz texnoloji imkanlarını da təklif etmək niyyətindədirlər. Bununla onlar Azərbaycanın enerji ehtiyatlarını dünya bazarı ilə daha sıx bağlamaq arzusundadırlar. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan Dövlət Neft Şirkəti bu müqaviləyə 20 faiz sərmayə qoyacaq, nəzərdə tutulan gəlirin 80 faizinin sahibi Azərbaycan olacaqdır.

Amerika şirkətlərinin fəaliyyəti yalnız texnoloji kapitalla məhdudlaşmır, onlar özlərini kara gələn qurumlar kimi tanıtmağa çalışırlar. Hər bir şirkət hazırda Azərbaycan xalqının mədəni irsinin daha geniş yayılıb təbliğ olunmasında, adamların rifahının yüksəlməsində, tədris sahəsindəki problemlərin həllində köməkçi olmaq niyyətindədir.

İcazə versəniz, yalnız iki misalı nəzərinizə çatdırardım: "Amoko" şirkəti Amerikanın Milli İqtisadi Tədris Şurası ilə birlikdə Azərbaycanda iqtisadi fənlər üzrə müəllim heyətinin təhsil proqramına sponsorluq edir. "Yunokal" şirkətinin köməyi ilə isə Azərbaycanda uşaq evi tikilir.

Azərbaycan xalqı dünya neft sənayesinin inkişafına göstərdiyi təsirlə haqlı olaraq fəxr edir. Vaxt var idi ki, Azərbaycan neft ixracı üzrə dünya lideri sayılırdı. Azərbaycan açıq dənizdə yerləşən və bir müddət istifadə edilməyən ehtiyatlarından öz xarici tərəfdaşlarının köməyi ilə əldə etdiyi texnologiyalarla istifadə etməyə nail ola biləcəkdir.



Neft sənayesinin ətrafında yaranan infrastruktur XX əsrin əvvəlindəki kimi, XXI əsrdə də Azərbaycanın tərəqqisini təmin edə bilər. Amma o dövrdən fərqli olaraq, təbiəti mühafizə nöqteyi-nəzərindən bu struktur sağlam olacaqdır. Sahilyanı ekoloji tədqiqatlar aparılması yeni yaranmış konsorsiumun həyata keçirəcəyi ilk layihələrdən biridir. Bu şirkətlər Xəzəri ən azı olduğu kimi qoruyub saxlamaq niyyətindədirlər. "Amoko" və "Yunokal" şirkətləri ekoloji cəhətdən olduqca tələbkar ölkələrdə əməliyyatlar aparırlar. Onlar Xəzərdə də bu standart tələbləri yerinə yetirmək imkanları qazandıqları üçün fəxr edirlər.

Bayaq söhbət açdığım rəmzi körpünün möhkəmləndirilməsində böyük rolu olan amillərdən biri də Azərbaycan tərəfindən nəzərdən keçirilib qəbul edilən və Amerika hökuməti tərəfindən dəstəklənən çoxşaxəli kəmərlərdən ibarətdir. Prezident Bill Klintondan daha bir sitat gətirmək istəyirəm: "Xəzərin enerji sərvətlərinin sürətli inkişafını və onun çoxşaxəli borularla dünya bazarına nəqlini Azərbaycanda sağlam iqtisadi islahatlar ilə birləşdirmək Azərbaycan üçün ən çox arzulanan uzunmüddətli yüksəlişin və regionda iqtisadi əməkdaşlığın zəruri amilidir".

Bu gün söhbət açdığım körpü Xəzərin zəngin ehtiyatlarından yaranır və bir çox ölkələri keçib gedəcəkdir. O, Azərbaycanı, Rusiyanı və Gürcüstanı, Mərkəzi Asiya ölkələrini birləşdirəcəkdir. XXI əsrdə bu körpünün hissələri beynəlxalq aləmin daha böyük ərazisini əhatə edəcək, Azərbaycanı dünya enerjisinin liderinə və ayrılmaz tərkib hissəsinə çevirəcəkdir. Bu körpü elə bir neft çayının üzərindən keçəcəkdir ki, onun gündəlik axını təqribən 2-3 milyon barrelə bərabər olacaqdır. Amma daha vacib nəticə o olacaqdır ki, bu körpü dünyanı Azərbaycana və Azərbaycanı dünyaya tanıdacaqdır.

Cənab Prezident Heydər Əliyev, çıxışımın sonunda mən Prezident cənab Bill Klintonun sözlərini Sizə çatdırmaq istəyirəm. O, ən əvvəl bu müqavilənin imzalanması mərasimi münasibətilə Sizi ürəkdən təbrik edir və əmin olduğunu bildirir ki, bu layihənin həyata keçirilməsi yalnız Sizin başçılıq etdiyiniz fəaliyyətin sayəsində müvəfəqiyyətli olacaqdır. O, çox ümidvardır ki, bu layihənin bütün iştirakçıları bundan bəhrələnib öz xalqlarına xoşbəxtlik və uğurlar gətirəcəklər.

Söz Yaponiya hökumət nümayəndə heyətinin başçısı Toşiro Tzunozakiyə verildi.

**Yaponiya nümayəndə heyətinin başçısı Toşiro Tzunozakinin çıxışı**

- Cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

"Dan ulduzu" və "Əşrəfi" yataqlarının işlənilməsində iştirak edən bütün tərəflərə Yaponiya hökuməti adından və öz adımdan minnətdarlığımı bildirirəm. Eyni zamanda bu iş üçün göstərdikləri səylərə görə müqavilədə iştirak edən bütün tərəflərə ürəkdən gələn "Çox sağ olun!" deyirəm.

1995-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fondu ilə birlikdə geniş makroiqtisadi proqramlar hazırladı və bunlar indi həyata keçirilməkdədir. Biz inanırıq ki, bu gün imzaladığımız müqavilə həmin makroiqtisadi proqramlar sırasında özünəməxsus yer tutacaqdır. Biz inanırıq ki, bu gün imzaladığımız müqavilə son nəticədə Azərbaycanın iqtisadiyyatında özünəməxsus bəhrə verəcəkdir.

Yaponiya hökuməti Azərbaycan öz müstəqilliyini elan etdiyi gündən ölkənizə dəstək verir və iqtisadi sahədə onu dəstəkləməyə daim səy göstərir. Məsələn, Yaponiya hökuməti Azərbaycanda idarəetmə, maliyyə proqramları hazırlayıbdır. Hökumətimiz dərindən inanır ki, son nəticədə bunun Azərbaycana böyük xeyri olacaqdır. Biz sizin ölkəyə texniki sahədə dəstəyi gələcəkdə də davam etdirmək niyyətindəyik. Eyni zamanda, Azərbaycanın keçid dövründə yaşadığını nəzərə alaraq, Yaponiya hökuməti ona 2,3 milyon ABŞ dolları dəyərində humanitar yardım göstərmişdir.

Yaponiya hökuməti Azərbaycandakı makroiqtisadi inkişafı nəzərə alaraq ölkənizə hansı cəhətdən dəstək vermək barədə planlar işləyib hazırlamaqdadır. Hökumətimiz Azərbaycana ticarət sahəsində də kömək göstərməkdədir.

Çıxışımın sonunda qeyd etmək istəyirəm ki, "Dan ulduzu" və "Əşrəfi" yataqlarının birgə işlənməsində biz öz rolumuzu dərindən başa düşürük və eyni zamanda ümid edirəm ki, bu yataqlardan neft hasilatının təşkil olunması Azərbaycan iqtisadiyyatına böyük uğurlar gətirəcəkdir. Çox sağ olun.

Çıxış üçün söz Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevə verildi.

**ARDNŞ-nin prezidenti Natiq Əliyevin çıxışı**

- Möhtərəm cənab Prezident, Zati-aliləri Heydər Əliyev!

Əziz və hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərindəki bu gözəl və möhtəşəm sarayda dördüncü dəfədir ki, Xəzər dənizinin Azərbaycan sektorundakı neft-qaz ehtiyatlarının birgə işlənməsi barədə müqavilənin imzalanma mərasimi şərəfinə Azərbaycan Respublikasının, Dövlət Neft Şirkətinin və xarici ölkələrin, onların neft şirkətlərinin bayraqları qaldırılır.

Bu gün Azərbaycan neftçiləri üçün şərəfli bir

gündür. Fürsətdən istifadə edərək, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarına bu mərasimdə şəxsən iştirak etdiyinə, neftçilərin əməyini yüksək qiymətləndirdiyinə, onlara daim qayğı və diqqət göstərdiyinə görə öz təşəkkürümü bildirirəm.

Azərbaycan Respublikası Prezidentinin müdrik və uzaqgörən xarici siyasəti, qətiyyəti və şəxsi cəsurluğu nəticəsində iki il bundan əvvəl biz həyəcanla, lakin xalqımız qarşısında məsuliyyətimizi anlamaqla "Əsrin müqaviləsi" adı almış birinci müqaviləni imzaladıq. Bu gün biz tam əminliklə bəyan edə bilərik ki, həmin müqavilə Azərbaycanın həyatında taleyüklü bir hadisə idi, respublikanın xarici və daxili siyasətinin bütün sahələrinə öz müsbət təsirini göstərib və göstərməkdədir.

İndi biz Azərbaycan Respublikası Prezidentinin və xarici ölkələrdən olan yüksək səviyyəli qonaqların iştirakı ilə dördüncü müqaviləni imzaladıq. İnanıram ki, o da öz əhəmiyyətli rolunu oynayacaqdır. Bununla da biz dövlətimizin azadlığını və müstəqilliyini təsdiq edirik, xarici ölkələrlə iqtisadi əlaqələrimizi yeni, daha yüksək inkişaf pillələrinə qaldırırıq, qarşılıqlı səmərəli əməkdaşlığın genişlənməsinə yeni təkan veririk, milli iqtisadiyyatımızın inkişafı üçün əsas yaradırıq.

Xüsusən qeyd etmək istəyirəm ki, yeni müqavilənin iştirakçıları sınaqdan çıxmış, sadiq tərəfdaşlarımızdır. Bu şirkətlər özlərini Azərbaycanda yaxşı cəhətdən tanıdıblar. Bu onu göstərir ki, Azərbaycan bu tərəfdaşlığı qiymətləndirir, genişləndirir və gələcək uzunmüddətli əməkdaşlıq üçün zəmin yaradır.

Perspektivli strukturların və neft yataqlarının birgə kəşfiyyatı və işlənməsi Azərbaycan iqtisadiyyatının inkişafı üçün böyük əhəmiyyət kəsb edir. "Azəri", "Çıraq" yataqları və "Günəşli" yatağının dərin hissəsi üzrə birinci və "Qarabağ" perspektivli strukturu üzrə ikinci müqavilə Azərbaycana imkan verir ki, respublikamızın iqtisadiyyatına yaxın illərdə on milyard dollardan artıq sərmayə qoyulsun, neft sənayesinin yenidən qurulmasına və texniki cəhətdən təkmilləşdirilməsinə imkan yaransın, Azərbaycanda neft hasilatını kəskin surətdə artıraraq ildə 35 milyon tona çatdırmaq mümkün olsun, yeni magistral neft kəmərləri çəkməklə xam nefti ilk dəfə dünya bazarına ixrac etməyə imkan yaransın, Azərbaycan neft ixrac edən əsas ölkələr sırasına çıxa bilsin.

"Şahdəniz" perspektivli strukturu üzrə bağlanmış üçüncü müqavilə Azərbaycana imkan verəcəkdir ki, mühüm təsərrüfat problemlərindən və sosial problemlərdən birini - sənayenin və əhalinin təbii qaza olan tələbatını ödəyə bilsin, onun hasilatını ildə 15 milyard kubmetrə çatdırsın və gələcəkdə təbii qazın idxalı məsələsini tamamilə aradan götürsün. Bununla yanaşı, neft və qaz çıxaran hər bir ölkənin borcu yüksək hasilatın həcmini sabit saxlamaqdan ibarətdir. Bu da neft və qaz ehtiyatlarının aşkar edilib hasilatın artırılması ilə bağlıdır. Ona görə də axtarış və kəşfiyyat işlərinin genişləndirilməsi, kəşfiyyata, işlənməyə yeni-yeni perspektivli strukturların cəlb edilməsi mühüm və birinci növbəli vəzifə kimi qarşıya qoyulur.

"Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının birgə kəşfiyyatı və işlənməsi barədə bu gün imzalanan müqavilə də məhz bu məsələlərin həllinə xidmət edir. Göstərilən strukturların öyrənilməsi sahəsində xarici şirkətlərlə əməkdaşlığa hələ 1992-ci ildə başlanmışdı və müqavilənin əsas şərtləri danışıqlar əsasında işlənib hazırlanmışdır. Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 9 noyabr tarixli sərəncamı ilə danışıqların başa çatdırılması və müqavilənin mətninin hazırlanması səlahiyyəti Dövlət Neft Şirkətinə verilmişdir.

Bu müqavilə həmin strukturlarda üç il ərzində kəşfiyyat aparılmasını və işlər uğurlu olarsa, yatağın 25 il müddətində birgə istismar edilməsini nəzərdə tutur. Hesablamalara görə, layihənin gerçəkləşməsi üçün 2 milyard dollara yaxın xərclər tələb olunur.

Neft hasilatına 2003-cü ildə başlamaq, 2008-ci ildə hasilatı 7 milyon tona çatdırmaq nəzərdə tutulur. Neft ehtiyatının miqdarından, həmçinin kapital qoyuluşundan və istismar xərclərindən, digər amillərdən asılı olaraq Azərbaycanın gəlir payı 65-70 faizdən 80 faizədək və daha çox ola bilər.

Bu müqavilə öz xüsusiyyətinə görə xarici tərəfdaşlarla əməkdaşlıqda irəliyə doğru yeni bir addımdır. O, bütün beynəlxalq normalara və neft-qaz yataqlarının birgə işlənməsi təcrübəsinə uyğundur. Şübhəsiz ki, o, ölkəmizdə neft sənayesinin və iqtisadiyyatın gələcək inkişafına kömək edəcəkdir.

Çıxışımın sonunda mən sizin hamınızı, o cümlədən xarici həmkarlarımı yeni müqavilənin imzalanması münasibətilə təbrik edir, tərəfdaşlığa və əməkdaşlığa görə təşəkkürümü bildirirəm. Yeni birgə fəaliyytimizdə hamınıza uğurlar arzulayıram.

Hörmətli cənab Prezident, icazə verin, Azərbaycan Dövlət Neft Şirkəti və xarici tərəfdaşlarımız adından Sizi əmin edim ki, biz qarşımıza qoyulan vəzifələrin yerinə yetirilməsi üçün bütün qüvvəmizi və biliyimizi əsirgəməyəcəyik.

Sonra ABŞ-ın "Amoko" şirkətinin prezidenti Don Steysiyə söz verildi.

**"Amoko" şirkətinin prezidenti**
**Don Steysinin çıxışı**

- Zati-aliləri möhtərəm Prezident Heydər Əliyev!

Hörmətli səfirlər, Amerika Birləşmiş Ştatlarının və Yaponiyanın hökumət nümayəndələri, Azərbaycan Dövlət Neft Şirkətinin, "Yunokal", "İtoçu" və "Delta"



şirkətlərinin hörmətli rəhbərləri, kütləvi informasiya vasitələrinin nümayəndələri, xanımlar və cənablar, günortanız xeyir!

Azərbaycanda daha bir müqavilənin imzalanması üçün bu gün burada keçirilən mərasimdə iştirak etməyimdən çox məmnunam. Həyəcan və sevinc dolu belə bir günə qovuşmaqdan ötrü hamımız uzun müddət çox gərgin işləmişik. Mənə deyiblər ki, "Dan ulduzu" ifadəsinin azərbaycanca mənası "Səhər, sübh ulduzu" deməkdir. Bu gün bu müqaviləni imzalamaqla biz kəşfiyyat qazması işində yeni bir mərhələnin sübhünü bayram edirik. Biz gələcəyin də sübh səmasında dan yerinin sökülməsini göstərən yeni doğulmuş bir ulduz kimi parlaq olacağına inanırıq.

Cənab Prezident!

Bizi bugünkü böyük mərasimə Sizin uzaqgörənliyiniz, dönməzliyiniz və Azərbaycanın gələcəyinə inamınız gətirib çıxarmışdır. Cənab Prezident, biz bilirik ki, Azərbaycanda siyasi vəziyyətin sabitləşdirilməsində Sizin həyat təcrübənizin böyük köməyi olmuşdur. Biz onu da bilirik ki, Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək üçün Siz olduqca gərgin iş aparırsınız. Sizə və bütün Azərbaycan xalqına uğurlar arzulayırıq. Qoy bu müqavilənin bağlanması Azərbaycan üçün əsaslı iqtisadi irəliləyiş və onun infrastrukturunun inkişafı yolunda növbəti addım olsun.

"Amoko"nun Azərbaycana ilk gəlişi altı il bundan əvvəl olmuşdur. Biz buraya ölkənin ehtiyaclarını öyrənmək və qarşılıqlı əməkdaşlıq üçün imkanlar yaratmaq məqsədi ilə gəlmişdik. İlk ofisimizi köhnə "İnturist" mehmanxanasında açıb işə başladıq. Respublikanızın problemləri, xalqınız və mədəniyyətiniz haqqında çox şeylər öyrənməli olduq. Gəlişimizdən çox razı qalmışıq və Sizin kimi nəcib ev sahibləri ilə dostluq əlaqələrimiz möhkəmləndikcə unudulmaz olub.

Bu illər ərzində biz Azərbaycan Dövlət Neft Şirkətinin əməkdaşları, onun prezidenti Natiq Əliyev, vitse-prezidenti İlham Əliyev və Xarici İnvestisiyalar İdarəsinin rəisi Valeh Ələsgərovla möhkəm əlaqələr yaratmışıq. Bu əlaqələr hər iki tərəf üçün faydalı olan müqavilələr bağlamaqda həlledici rol oynamışdır. Çünki biz danışıqlarımızı bir-birimizə inam və hörmət mövqeyindən aparmağa müvəffəq ola bilmişik.

Eyni zamanda biz Azərbaycandakı işgüzar fəaliyyətimizin ABŞ hökuməti tərəfindən dəstəklənməsinə nail olmuşuq. Buna görə də səfir Riçard Kozlariçə, Ticarət Departamentinin müşaviri Yan Kalitskiyə və hökumətin digər nümayəndələrinə öz təşəkkürümüzü bildiririk.

Bizim buradakı fəaliyyətimiz Amerikanın işgüzar dairələrinin Azərbaycandakı maraqlarının inkişafına ABŞ hökumətinin bundan sonra daha çox yardım göstərməsinə imkan yaradacaqdır. Biz Azərbaycanda olduğumuz müddətdə çox şey öyrəndik. Bizim üçün ən mühüm hadisə "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi barədə "Əsrin müqaviləsi"nin imzalanması oldu. Biz yəqin etdik ki, "Amoko" və Azərbaycan çox gözəl tərəfdaşlar ola bilərlər.

Azərbaycanda işlənib hazırlanmış layihələrin həyata keçirilməsinə ən yaxşı və istedadlı mütəxəssislərimizi cəlb etməklə biz öz öhdəliklərimizə məsuliyyətlə yanaşdığımızı bir daha nümayiş etdirdik. "bp" şirkəti ilə birgə rəhbərlik etdiyimiz Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətində bizim 40 nəfərədək əməkdaşımız çalışır. Bundan başqa, Bakıda 19 və Hyustonda 20 nəfər işçimiz vardır. Azərbaycan üzrə işləyən əməkdaşlarımızın sayı bu adamların "Amoko"nun Azərbaycanda gələcək uğurlarına zəmin yaratmaq üçün göstərdikləri fədakarlıqla heç bir müqayisəyə girmir. Azərbaycana sidq ürəklə yanaşmağımız bir daha bunda özünü göstərir ki, "Amoko" Xəzər hövzəsini bütün dünyada çox vacib hesab etdiyi beşərazidən biri kimi seçib. Belə münasibət o deməkdir ki, "Amoko" Azərbaycanda uzun müddət qalmaq və öz fəaliyyət dairəsini getdikcə genişləndirmək niyyətindədir. Bu özünü belə bir faktda da büruzə verir ki, "Əşrəfi" və "Dan ulduzu" yataqları və gələcəkdə başa çatdırmağa ümid bəslədiyimiz digər layihələr də daxil olmaqla bizim Azərbaycanda görəcəyimiz işlər üçün ayrılmış maliyyə təxsisatları hazırda 2,5 milyard dollar təşkil edir.

Bakıdakı və Hyustondakı səriştəli menecerlərin rəhbərliyi altında biz öz səylərimizi və fəaliyyətimizi yalnız geoloji və texniki işlərlə məhdudlaşdırmaq qərarına gəlmişik. Mən "Amerikares" humanitar təşkilatı və onun fəxri sədri Zbiqnev Bjezinski ilə "Amoko" şirkətinin birgə gördüyü işlərdən çox razıyam. Biz "Amerikares" təşkilatı vasitəsilə respublikanın xəstəxanalarına və qaçqın düşərgələrinə tibbi ləvazimat çatdırmışıq. Keçən üç il ərzində Naxçıvanda 90 mindən çox uşağa difteriya, qızılca, poliomielit, göy öskürək və başqa xəstəliklər əleyhinə peyvənd edilib.

Öz diqqətini əhalinin maddi ehtiyaclarının ödənilməsi üzərində cəmləmiş "Amerikares" proqramından başqa, ölkənizin tələbə və müəllimlərinin istedad və bacarıqlarını Azərbaycanın daha parlaq gələcəyi naminə inkişaf etdirmək məqsədi ilə birgə işlər görmüşük. Biz Amerikada təhsil alan 12 nəfər əlaçı tələbənizə təqaüd ayırmışıq. Azərbaycanda müəllimlər üçün üçillik iqtisadi təhsil proqramını, ölkənizin alimlərinin Texas Kənd Təsərrüfatı və Mexanikləşdirmə Universitetinin professorları ilə əməkdaşlığını və Mirzə Fətəli Axundov adına kitabxanada oxu salonunun təmirini maliyyələşdirmişik. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun üçüncü ilinin də maliyyələşdirilməsini nəzərdə tutmuşuq. Eyni zamanda "Azərbaycan intenəşnl" jurnalına hamilik etmişik və yenə də edirik. Çünki bu jurnal "Amoko" kimi Azərbaycana gəlmək istəyən korporasiyalar, şirkətlər, ayrı-ayrı şəxslər üçün çox gözəl informasiya mənbəyidir.







Azərbaycanda çalışdığımız müddətdə bizim burada atdığımız növbəti böyük addım bu gün bu müqaviləni imzalamağımızdır. "Əşrəfi" və "Dan ulduzu" strukturlarının geoloji kəşfiyyat işlərində üzərimizə düşən vəzifələr bizi razı salır. Ümidvarıq ki, kəşfiyyat işləri proqramı dəyərli bir layihə ilə nəticələnəcəkdir. Yeni yaradılmış konsorsium "Nord Abşeron" əməliyyat şirkəti adlanacaqdır. Milli Məclisin təsdiqini gözləyən bu müqavilədə üçölçülü seysmik çəkiliş proqramının yerinə yetirilməsi və ilk üç il ərzində üç quyunun qazılması nəzərdə tutulur. Yataqlar Abşeron yarımadasından şərqdə yerləşən 453 kvadratkilometrlik bir ərazini əhatə edir. Bu sahədə Xəzər dənizinin dərinliyi 75-200 metr arasındadır. Biz və tərəfdaşlarımız işə dərhal başlamaq üçün müqavilənin Azərbaycan Milli Məclisində təsdiq olunmasını səbirsizliklə gözləyirik.

Müqavilənin şərtlərinə görə, layihənin müxtəlif mərhələlərinin müvəffəqiyyətlə başa çatması ilə əlaqədar olaraq Azərbaycan hökumətinə ümumi məbləği 75 milyon dollar olan bonus veriləcəkdir. Bu məbləğ neft hasilatına başlandıqdan sonra Azərbaycanın əldə edəcəyi mənfəətə bir əlavədir.

"Əşrəfi" və "Dan ulduzu" yataqlarına dair müqavilə imzalandıqdan sonra "Amoko"nun Azərbaycandakı növbəti addımı nədən ibarət olacaqdır? Götürdüyümüz istiqamət aydındır. Bizə göstərilən köməyi yüksək qiymətləndirməklə yanaşı, "Azəri", "Çıraq", "Günəşli" yataqlarında və Abşeronun şimalında gördüyümüz işlərdən razı qalsaq da, Azərbaycan hökuməti və ARDNŞ ilə bundan sonra da sıx əlaqələr yaratmaq fikrindəyik.

Bir az bundan əvvəl dediyim kimi, Xəzərin Azərbaycan sektoru "Amoko"nun iqtisadi inkişaf strategiyası üçün həyati əhəmiyyətə malikdir. "Amoko" şirkəti Azərbaycan Dövlət Neft Şirkəti ilə Xəzərin cənubunda bir sıra perspektivli strukturların qiymətləndirilməsində birgə işləmişdir və ümid edirik ki, həmin strukturlar üzrə hasilatın pay bölgüsü müqavilələrinə biz də daxil ediləcəyik.

Möhtərəm Prezident Heydər Əliyevin əməkdaşlıq üçün bizə göstərdiyi etimada, köməyə və dostluq münasibətinə görə ona bir daha təşəkkür etmək istərdim. Bunlar olmasaydı, bu gün biz belə çox mühüm sənədi imzalaya bilməzdik. Sağ olun.

ABŞ-ın "Yunokal" şirkətinin vitse-prezidenti Marti Millerə söz verildi.

### "Yunokal" şirkətinin vitse-prezidenti Marti Millerin çıxışı

- Zati-aliləri, cənab Prezident Heydər Əliyev! Hörmətli qonaqlar!

Azərbaycanın neft və qaz sənayesinin inkişafında daha bir mühüm mərhələ olan bugünkü müqavilənin imzalanması mərasimində "Yunokal" şirkəti adından iştirak etmək mənim üçün böyük şərəfdir.

Biz çox fəxr edirik ki, "Yunokal" şirkəti Azərbaycan hökuməti tərəfindən "Əşrəfi" və "Dan ulduzu" yataqlarının birgə işlənməsi ilə əlaqədar yaradılan konsorsiumun üzvlüyünə qəbul edilmişdir. Ölkənin nəhəng neft və qaz ehtiyatlarının birgə işlənməsində Azərbaycan Dövlət Neft Şirkəti ilə birlikdə iştirak etməyimiz bizə olan inam və etibarın nümayişidir. Üzərimizə düşən məsuliyyəti dərindən dərk edirik. Görüləsi işlər hələ çoxdur. Biz qarşıya çıxan hər bir çətinliyə dözməyə hazırıq və müvəffəqiyyət qazanacağımıza əminik.

Azərbaycan Neft Şirkətinin prezidenti cənab Natiq Əliyevə, vitse-prezidenti cənab İlham Əliyevə, danışıqlarda ARDNŞ-nin baş təmsilçisi cənab Valeh Ələsgərova və bu şirkətin bütün əməkdaşlarına "Əşrəfi" və "Dan ulduzu" yataqlarının birgə işlənməsi ilə əlaqədar müqavilənin hazırlanmasında göstərdikləri iradəyə və çəkdikləri zəhmətə görə xüsusi təşəkkürümü bildirirəm.

Bu müqavilə gözəl müqavilədir. Bu müqavilədə bütün tərəflərin mənafeyi nəzərə alınır və o, ədalətlidir, o, zamanın sınağından keçəcəkdir.

"Amoko" kimi, "Yunokal" da Qərbin Azərbaycana gələn ilk neft şirkətlərindən biridir. Bunun nəticəsidir



ki, biz yaxın aylarda ilkin neftin ixracına başlayacaq Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin təsisçi üzvüyük. Azərbaycan hökuməti "Əsrin müqaviləsi"ndən başqa daha iki müqavilənin imzalanmasını təşkil etdi və konsorsiumlar yaratdı. "Əşrəfi" və "Dan ulduzu" yataqlarının birgə işlənməsi haqqında müqavilə sayca dördüncüdür və o, Azərbaycan üçün böyük nailiyyətdir.

Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan xalqı təqdirəlayiq uzaqgörənlik və qətiyyət nümayiş etdiribdir. Bu uzaqgörənlik dünyanın ən mühüm enerji istehsalçısı kimi Azərbaycanın tarixi ənənələrini özünə qaytaracaqdır. Azərbaycan neft sənayesi haqqında xəbərlər bütün dünyada diqqətlə izlənilir.

Cənab Prezident Heydər Əliyev, bütün bu işlərin reallığa çevrilməsində Sizin rəhbərliyiniz xüsusilə təqdirəlayiqdir. Bu yolda qarşımızda çoxlu maneələr durdu. Buna baxmayaraq, Siz qətiyyətlə irəlilədiniz, öz bacarıq və imkanlarınızı hamıya sübut etdiniz. Müdrik atalar sözü bu gün bir daha təsdiq olunur: Niyyətin hara, mənzilin də ora. Azərbaycan xalqı həqiqətən bəxtəverdir ki, Sizin kimi lideri vardır. Azərbaycan Sizin rəhbərliyinizlə, dünya hadisələrini görmək bacarığımızla fəxr edir və edəcəkdir. "Yunokal" fəxr edir ki, Azərbaycan tarixinin bu mərhələsində iştirak etmək ona nəsib olmuşdur. Çox sağ olun.

Sonra "İtoçu" korporasiyasının "Enerci kemikl" qrupunun prezidenti Koçu Nocimaya söz verildi.

### "İtoçu" korporasiyasının "Enerci Kemikl" qrupunun prezidenti Koçu Nocimanın çıxışı

- Möhtərəm cənab Prezident Əliyev, hörmətli xanımlar və cənablar!

Prezident cənab Əliyev indicə məni təqdim etdi. Mən "İtoçu" korporasiyasının böyük müdiri, habelə bu korporasiyanın "Enerci kemikl" qrupunun prezidentiyəm.

İcazə verin bir neçə kəlmə deyim. Əvvəlcə burada iştirak edənlərin hamısından üzr istəyirəm ki, bugünkü çıxışımın ingilis dilində mətnini və onun Azərbaycan dilinə tərcüməsini hazırlamamışam. Gələn dəfə bunu hökmən nəzərə alacağam. Bu gün isə icazə verin rus dilinə tərcümə olunmaqla yapon dilində çıxış edim.

Bu gün mən Azərbaycan Dövlət Neft Şirkəti və ABŞ-ın "Amoko" və "Yunokal" kimi əla şirkətləri, habelə Səudiyyə Ərəbistanının "Delta " şirkəti ilə məhsul bölgüsü haqqında müqaviləni ciddi niyyət hissi ilə imzaladım. İndi "İtoçu"nun onlarla birlikdə yataqlarda kəşfiyyat işləri aparmaq imkanı var. Biz "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənməsinin də iştirakçısıyıq, burada Qərbin mötəbər neft şirkətləri də iştirak edirlər, belə ki, Azərbaycan Respublikası Xəzər regionu ölkələri arasında özünü enerji sahəsində etibarlı, böyük və potensial tərəfdaş kimi göstərmişdir.

Üzümüzə gələn XXI əsrdə Azərbaycan iri neft ixracatçısı olacaqdır. Yaponiyanın özündə neft ehtiyatları yoxdur və neftin təxminən 99 faizini idxal edir. Beləliklə, neft ixracı mənbəyinin bölüşdürülməsi bizim ölkə üçün çox mühüm istiqamətdir. Bundan əlavə, indiyədək Yaponiyanın neft sənayesi neft emalı sahəsində ixtisaslaşmışdır və neft kəşfiyyatı və hasilatı sahəsində təcili təminatın olmasını tələb edir. Mən əminəm ki, enerji sahəsində əməkdaşlığın möhkəmləndirilməsi və genişləndirilməsi, bizim şirkətin Azərbaycanın layihələrinə investisiya qoyması Yaponiya hökumətinin enerji strategiyasına, habelə şirkətimizin strateji fəaliyyətinə uyğundur. Enerji mənbələrinin artırılması Yaponiya üçün çox vacibdir. İnamla deyə bilərəm ki, məhsulun bölgüsü haqqında bu gün imzalanmış müqavilə Yaponiyaya, habelə ölkələrimizin iqtisadiyyatının inkişafına fayda gətirəcəkdir.

Çıxışımın sonunda demək istəyirəm ki, "İtoçu" korporasiyasının qrupu təkcə neft hasilatı sahəsində işlərin inkişafına kömək etməyəcək, həm də Azərbaycan sənayesi və iqtisadiyyatının inkişafına maksimum səy göstərəcəkdir. Bu, bütünlükdə Yaponiya ilə Azərbaycan arasında əməkdaşlığın inkişafına kömək edəcəkdir. Sizə yaxşı məlum olduğu kimi, Yaponiya ABŞ-la çox sıx, həm iqtisadi, həm də siyasi münasibətlər saxlayır. Bizə

çox xoşdur ki, indiki layihədə ABŞ-ın "Yunokal" və "Amoko" kimi iri neft şirkətləri ilə birgə iştirak etmək imkanımız var. Şəxsən mən ümidvaram ki, Azərbaycan, ABŞ və Yaponiya arasında münasibətlər möhkəmlənəcək və inkişaf edəcəkdir. Diqqətinizə görə sağ olun.

Çıxış üçün söz Səudiyyə Ərəbistanının "Delta" şirkətinin prezidenti Bədr əl-Əybana verildi.

**"Delta" şirkətinin prezidenti**
**Bədr əl-Əybanın çıxışı**

- Böyük və mərhəmətli Allahın adı ilə!

Zati-aliləri cənab Prezident Heydər Əliyev!

Cənab Milli Məclisin Sədri, cənab Baş nazir!

ARDNŞ-nin prezidenti cənab Natiq Əliyev!

Çox hörmətli qonaqlar!

Azərbaycan Respublikasının və xalqının həyatında əlamətdar olan bu tarixi gündə sizə müraciət etmək mənim üçün böyük şərəfdir. Biz bu gün Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında bağlanan dördüncü neft müqaviləsinin imzalanma mərasiminə toplaşmışıq.

Zati-aliləri, Sizin müdrik siyasətiniz və rəhbərliyiniz altında imzalanmış həmin tarixi müqavilələr keçmiş Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycanın siyasi və hüquqi baxımdan ən sabit ölkələrdən biri olduğunu bütün dünayaya nümayiş etdirdi.

1994-cü ilin sentyabrında imzalanan və dünyada "Əsrin müqaviləsi" kimi tanınan müqavilənin həyata keçirilməsinə başlandığı gündən Azərbaycanın qanunlara əməl edilən, maliyyə cəhətdən sabit, investisiyalar qoyulması üçün etibarlı bir ölkə olduğuna inam gündən-günə artmaqdadır.

"Delta" şirkəti Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin təsisçi üzvüdür. Müqavilə 1994-cü ilin sentyabrında imzalandıqdan sonra iki beynəlxalq neft korporasiyası Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin yeni üzvləri oldu və təsisçilərin bəziləri öz paylarını artırdılar.

Zati-aliləri Heydər Əliyev, Azərbaycanda siyasi, maliyyə və hüquqi sahədə mövcud olan möhkəm sabitlik Sizin öz xalqınıza göstərdiyiniz ən böyük xidmətdir. Bu gün istər neft sahəsində işləyən, istərsə də başqa yönlü bir çox xarici şirkətlər Azərbaycana sərmayə qoyuluşunu öz ölkələrindəki kimi eyni dərəcədə təhlükəsiz hesab edirlər. Siz bütün xalqınızı bolluğa və firavan həyata apara bilən cəlbedici iqtisadi şərait yaratmısınız. Məhz buna görə də gələcək nəsillər Sizin misilsiz xidmətlərinizi heç vaxt unutmayacaqlar.

Cənab Prezident, bir bacarığınıza görə də Sizi təbrik etmək istəyirəm. Bu da o bacarıqdır ki, Siz Dövlət Neft Şirkətinin rəhbərliyini düzgün seçmisiniz. Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti cənab Natiq Əliyev, vitse-prezident cənab İlham Əliyev, danışıqlar üzrə baş nümayəndə cənab Valeh Ələsgərov neft müqavilələri layihələrinin hazırlanması üzrə çox ağır keçən danışıqlar zamanı Azərbaycan Respublikasının, xalqının uzunmüddətli maraqlarını heç vaxt unutmurdular.

"Əşrəfi" və "Dan ulduzu" yataqlarının birgə işlənməsi ilə əlaqədar yaradılan konsorsiuma daxil edildiyimizə, bizə göstərilən etimada görə "Delta" şirkəti adından Sizə və hökumətinizə minnətdarlığımızı bildirirəm. Eyni zamanda bildirmək istəyirəm ki, Səudiyyə Ərəbistanını təmsil edən bir şirkət kimi biz qardaş müsəlman ölkəsi ilə əməkdaşlıq etməyimizdən şərəf duyuruq. Ümidvarıq ki, gələcəkdə Səudiyyə Ərəbistanının digər şirkətlərinin də Azərbaycan iqtisadiyyatının inkişafında iştirak etmək imkanları olacaqdır.

Cənab Prezident, çox sağ olun, Allah Sizə yardımçı olsun və bizi haqq yola yönəltsin.

Azərbaycan Prezidenti Heydər Əliyevə konsorsium adından hədiyyə təqdim etmək üçün Don Steysi söz alaraq dedi:

- Cənab Prezident, bugünkü hadisəni qeyd etmək məqsədi ilə biz Sizə hansı hədiyyə vermək barədə çox götür-qoy etdik. Əsas məsələ hədiyyənin seçilməsi idi. Axı heç bir şeyə ehtiyacı olmayan, xalqının qayğıları ilə yaşayan bir adama nə hədiyyə etmək yaxşı olardı? "Amoko", "Yunokal", "İtoçu" və "Delta" şirkətləri adından biz Sizə, qaçqınların ehtiyacını nəzərə alaraq hədiyyə vermək istəyirik. Biz bu hədiyyəni də Sizin göstərdiyiniz təşəbbüsün davamı hesab edirik və bu təşəbbüsün həyata keçirilməsində iştirak etdiyimiz üçün fəxr edirik. Biz azərbaycanlı qaçqınlar üçün 12 ev tikməyi qərara almışıq. Tikinti materialları Amerika Birləşmiş Ştatlarının "Ey-May-Si" şirkəti tərəfindən təmin ediləcəkdir. Bu layihə bir qədər sonra dəqiqləşdiriləcək, tikinti işlərinə yaxın vaxtlarda başlayacağıq.

Azərbaycan Prezidenti **Heydər Əliyev** dedi:

- Hörmətli dostlar!

Sizin təqdim etdiyiniz hədiyyə həqiqətən çox yerinə düşən bir hədiyyədir. Yəni Azərbaycan xalqının bu illərdə çətin şəraitdə yaşayan hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlardan didərgin düşmüş vətəndaşlarımızdır. Onlar çadırlarda yaşayırlar, çox qeyri-münasib ərazilərdə yerləşiblər. Ona görə də onlara göstərilən hər bir yardım, hər bir maraq həm xalq, həm bütün cəmiyyət tərəfindən alqışlanacaqdır, həm də Allah bunu qəbul edəcəkdir. Təşəkkür edirəm.

Sonra Prezident Heydər Əliyev mərasimdə yekun nitqi söylədi.

**Azərbaycan Prezidenti**
**Heydər Əliyevin yekun nitqi**

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar, dostlar!

Bu gün biz böyük və tarixi əhəmiyyət kəsb edən bir hadisənin iştirakçısıyıq. Bakıda dünyanın böyük neft şirkətləri ilə Azərbaycan arasında dördüncü neft müqaviləsi imzalandı. Müqavilə imzalanarkən biz bu işdə çox səylər qoymuşuq, onun lazım olub-olmadığını çox müzakirə etmişik. Bu gün müqavilənin imzalanması mərasimində bu konsorsiumun üzvü olan ölkələrin nümayəndələrinin çıxışları, onların fikirləri, mülahizələri və gətirilən konkret rəqəmlər, dəlillər onu göstərir ki, bu müqavilə həqiqətən çox xeyirlidir, faydalıdır.

Amerika Birləşmiş Ştatları, Yaponiya nümayəndə heyətlərinin başçıları, "Amoko", "Yunokal", "İtoçu", "Delta" şirkətlərinin rəhbərləri öz çıxışlarında bu müqavilənin mənası, əhəmiyyəti haqqında çox faydalı sözlər söylədilər. Bizim qonaqlarımız eyni zamanda Azərbaycan Respublikasının bu günü, gələcəyi haqqında, dövlətimizin gördüyü işlər barədə və Azərbaycanda hazırkı vəziyyət haqqında çox xoş sözlər dedilər.

Hörmətli qonaqlar, bu fikirlərinizə və xoş münasibətinizə görə mən sizə təşəkkür edirəm. Eyni zamanda, sizin fikirləriniz, mülahizələriniz bir daha inandırır ki, tutduğumuz yolla biz bundan sonra da inamla gedə bilərik.

Azərbaycanın enerji ehtiyatlarından istifadə edilməsi üçün bu gün dünyanın böyük neft şirkətləri, bir çox ölkələri ilə əməkdaşlığa həsr olunmuş dördüncü müqavilə imzalandı. İki il müddətində biz dörd müqaviləni hazırlayıb imzalamışıq. Hesab edirəm ki, bu, böyük nailiyyətdir.

Məlumdur ki, bu müqavilələr Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmlənməsi və xalqımızın rifah halının yaxşılaşdırılması üçün çox dəyərli sənədlərdir. Bu müqavilələr sosial-iqtisadi sahədə bizim gələcək illər üçün uzunmüddətli proqramımızın böyük bir hissəsidir. Son iki il müddətində, birinci müqavilə imzalanandan indiyədək Azərbaycanın iqtisadi vəziyyətində xeyli dəyişikliklər baş vermişdir. Mən əminəm ki, gələcək illərdə bu müqavilələrin əməli surətdə həyata keçirilməsi nəticəsində müsbət dəyişikliklər gündən-günə artacaq və bu müqavilələr Azərbaycanın iqtisadiyyatına ilbeil, ardıcıl surətdə öz müsbət təsirini göstərəcəkdir.

Həmin müqavilələr bu gün də bizim üçün həm iqtisadi, həm də mənəvi əhəmiyyət kəsb edir. Ancaq onlar Azərbaycanın gələcəyi üçün daha çox əhəmiyyətlidir. Bu müqavilələrin müddətləri 25-30-40 ildir. Demək, biz nəinki bu günümüz üçün , həm də Azərbaycanın gələcək nəsillərinin rifahı üçün çalışırıq, bundan ötrü yaxşı əsas yaradırıq. Eyni zamanda bu müqavilələr







Azərbaycanda gedən böyük iqtisadi islahatların tərkib hissəsidir, respublikamızın iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə aparmaq, dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatı səviyyəsinə qaldırmaq işində çox dəyərli addımlardır.

Bu müqavilələr Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğunun, iqtisadi strategiyamızın böyük bir hissəsidir. Bu müqavilələr Azərbaycanı dünya iqtisadiyyatı ilə daha sıx bağlamağa kömək edir və hesab edirəm ki, onların həyata keçirilməsi bu əlaqələri daha da genişləndirəcəkdir.

Bilirsiniz ki, bu müqavilələrin hazırlanması və imzalanması çox gərgin bir vəziyyətdə həyata keçirilmişdir. Bu müqavilələr Azərbaycanın bütün ictimaiyyəti tərəfindən böyük məmnuniyyətlə, iftixar hissi ilə qəbul olunduğu halda, ölkəmiz onların həyata keçirilməsində bəzi qüvvələrin maneçilikləri ilə rastlaşır. Bizim bu cəsarətli addımlarımız Azərbaycandan kənarda da bəzən qısqanclıqla, ayrı-ayrı mənfi münasibətlərlə qarşılaşır. Ancaq bunların heç biri bizim iradəmizi pozmayıbdır. Biz tutduğumuz yolun düzgünlüyünə inanırıq. Ona görə də tutduğumuz bu yolla cəsarətlə, inamla gedirik.

Mən məmnuniyyət hissi ilə qeyd edirəm ki, qonaqlarımız bugünkü çıxışlarında Azərbaycan Respublikasının daxilində yaranmış ictimai-siyasi sabitliyi xüsusi qeyd etdilər. Bu həqiqətdir. Eyni zamanda bu, belə böyük iqtisadi addımların atılması, xarici şirkətlərin Azərbaycanla müştərək iş görməsi üçün əsas şərtdir. Azərbaycanda ictimai-siyasi sabitliyə nail olmaq, ölkəmizin iqtisadiyyatında çox dəyərli dəyişikliklər aparmaq, iqtisadi islahatlar keçirmək respublikamızın simasını tamamilə dəyişdirmiş və Azərbaycana xarici ölkələr tərəfindən marağı, müştərək iş görmək istəyini artırmışdır.

Məhz bunların nəticəsində biz Azərbaycanda iqtisadi sahədə xeyli nailiyyətlər, belə müqavilələrin imzalanmasına imkan əldə etmişik və bundan sonra da bu cür addımların atılması üçün yaxşı zəmin yaratmışıq.

Azərbaycanın enerji ehtiyatları çox zəngindir və bunlardan gələcəkdə də müştərək istifadə etmək üçün bizim imkanlarımız böyükdür. Bizim bu sahədə bir çox əhəmiyyətli, maraqlı planlarımız vardır. Ümidvaram ki, biz gələcək illərdə bu planları da həyata keçirəcəyik. Azərbaycan iqtisadiyyatının başqa sahələrində də xarici ölkələrin şirkətləri ilə əməkdaşlıq etmək üçün böyük imkanlar vardır. Güman edirəm ki, qarşıdakı illərdə biz bu imkanlardan da səmərəli istifadə etməyə nail olacağıq.

Bir sözlə, bu gün biz Azərbaycanın gələcək inkişafının yeni bir mərhələsindəyik. İmzaladığımız müqavilənin, yəni neft yatağının adı "Dan ulduzu"dur. Dan ulduzu böyük işıq verən bir ulduzdur. Güman edirəm ki, "Dan ulduzu" neft yatağı üzrə müqavilə Azərbaycanın gələcək işlərinə çox böyük və nurlu işıq verəcəkdir.

Mən sizi bir daha təbrik edirəm. Ümidvaram ki, bu gün imzaladığımız müqavilə əməli surətdə dərhal həyata keçiriləcək və biz onun müsbət nəticələrini görəcəyik. Gələcək nəsillər üçün isə biz daha müsbət nəticələr hazırlayırıq.

Bugünkü mərasimdə iştirak etdiyinizə görə mən sizin hamınıza təşəkkür edirəm. Müqavilə uğurlu olsun! Əminəm ki, uğurlu olacaqdır. Ümidvaram ki, biz gələn illərdə yeni müqavilələrin imzalanmasına bir də toplaşacağıq.

Sazişin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti Heydər Əliyevin və neft müqaviləsinin iştirakçıları olan şirkətlərin rəhbərlərinin mətbuat konfransı keçirildi.

**Sual:** Cənab Prezident, bir sıra mütəxəssislər imzalanmış ikinci müqavilənin şərtlərini birinci müqavilənin şərtlərindən, üçüncü müqavilənin şərtlərini isə ikinci müqavilənin şərtlərindən daha əlverişli hesab edirlər. Bu məntiqi inkişaf etdirsək, deyə bilərik ki, bu gün imzalanan müqavilənin şərtləri əvvəlkilərdən daha əlverişlidir?

**Heydər Əliyev:** Bəli, hesab edirəm ki, daha əlverişlidir.

**Sual:** Bu əlverişliliyin komponentləri barədə bir neçə kəlmə demək istəməzdinizmi?

**Heydər Əliyev:** Bunların haqqında Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev öz çıxışında dedi. Əgər onun gətirdiyi rəqəmlər Sizi qane etmirsə, ona müraciət edin və o Sizə daha geniş məlumat verər.

**Sual:** Azərbaycanın neftlə bağlı siyasətinin strateji xətti necə olacaq? Yenə "Prodakşn Şerinq" tipli xəttə üstünlük veriləcək, yoxsa yeni bir xətt olacaq?

**Heydər Əliyev:** Bilirsinizmi, bu barədə qəti bir fikir söyləmək mümkün deyildir. Hər bir konkret məsələ konkret vaxtda həll edilir. Gələcəkdə hansı üsuldan istifadə edəcəyimizi gələcək göstərəcəkdir.

**Sual:** Cənab Prezident, Xəzərin sektorlara bölünməsi prinsipinin dəstəkləndiyi barədə ABŞ-ın açıq bəyan olunmuş mövqeyi Xəzərin hüquqi statusunun müəyyən edilməsinə müsbət təsir göstərəcəkmi və bu, Sizcə, Rusiya ilə İranın mövqelərinin sərtləşməsinə gətirib çıxarmayacaqmı?

**Heydər Əliyev:** Sualınızı tam anlamadım, amma belə başa düşdüm ki, söhbət Xəzər dənizinin statusundan gedir və bununla əlaqədar Rusiya, digər ölkələr öz mövqelərini sərtləşdirməyəcəkmi? Bilirsiniz, Xəzər dənizinin statusu məsələsi çox vaxt tələb edən, olduqca böyük məsələdir. Biz status barədə lazım olan yerlərdə müvafiq danışıqlar aparır, öz mülahizələrimizi, öz mövqeyimizi bildiririk. Lakin bu müqavilənin imzalanması Xəzər dənizinin statusu ilə qətiyyən bağlı deyildir. Biz artıq dördüncü müqaviləni imzalayırıq, Xəzər dənizinin status məsələsini isə hələ çox müzakirə etmək lazımdır.

**Sual:** Cənab Heydər Əliyev, neft layihələrində Amerikanın sanballı firmalarının iştirakının fəallaşdığını nəzərə alaraq, Azərbaycan neft diplomatiyasından nə kimi dividendlər əldə etmək ümidindədir? Daha bir sual: Müqavilənin təsdiqlənməsi müddətini bu gün bildirmək mümkündürmü?

**Heydər Əliyev:** Mən dərhal cavab verəcəyəm - texniki məsələlər qurtardıqdan, yeni müqavilə texniki cəhətdən hazırlanıb bizim parlamentə təqdim edildikdən sonra, zənnimcə, parlament müzakirəyə dərhal başlayacaq və əminəm ki, onu təsdiq edəcəkdir. O ki qaldı dividendlərə, Sizi başa düşdüyüm kimi, ABŞ-dan gözlənilən dividendlərə, Siz hansı dividendlərdən danışırsınız?

**Sual:** Mənim sualım Don Steysiyədir. Əgər mümkünsə, yeni yaradılmış konsorsiumun gələcək üçün yaxın planlarından danışın. Konsorsiumun ilkin proqramına nələr daxildir?

**Don Steysi:** Biz ən əvvəl təşkilati məsələləri həll etmək istərdik. Biz işçilər götürülməsi məsələsinə baxacaq, özümüz üçün ofis axtaracağıq. Biz konsorsiuma daxil olan bütün şirkətlərin nümayəndələrindən ibarət kollegial bir orqan yaratmalıyıq. Təbii ki, bütün bunlar Milli Məclis tərəfindən bəyənilməyincə edilməyəcəkdir.

**Sual:** Mənim sualım Yaponiya hökumətinin nümayəndəsinədir. Yaponiya hökuməti Xəzərin statusu məsələsinin həllində hansı prinsiplərə üstünlük verir?

**Toşiro Tzunozaki:** Cənab Prezident Heydər Əliyevin dediyi kimi, bu barədə danışıqlar davam edir və biz də öz tərəfimizdən bu prosesi diqqətlə izləyirik.

**Sual:** Cənab Kalitski, Xəzərin statusu ilə əlaqədar ABŞ-ın mövqeyi bəllidir, ABŞ Xəzərin sektorlara bölünməsi prinsipini müdafiə edir. Bu prinsipin reallaşması üçün Amerika dövləti öz tərəfindən Azərbaycana, eləcə də bu mövqedə dayanan ölkələrə nə kimi əməli dəstək verə bilər?

**Yan Kalitski:** Bu məsələdə Amerikanın mövqeyi tam aydın şəkildə bəyan edilmişdir. Bu məsələ məhz Xəzəryanı dövlətlərin maraqları ilə bağlıdır. Prezident Bill Klinton həmin məsələ barəsində bəyanatlarla dəfələrlə çıxış etmişdir, mən də öz bəyanatlarımda bu barədə dəfələrlə danışmışam.

**Sual:** Cənab Kalitski, Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının istismarı ilə bağlı Amerika hökumətinin siyasəti müəyyənləşibmi? Əgər müəyyənləşibsə, bu siyasət nədən ibarətdir? Azərbaycan neftinin ixracı sahəsində təhlükəsizliyin təmin edilməsində Amerika Azərbaycana necə yardımçı ola bilər?

**Yan Kalitski:** Mənə elə gəlir ki, cənab Prezident Heydər Əliyev bir az öncə çox aydın şəkildə bildirdi ki, bu mətbuat konfransı dördüncü konsorsiumun yaradılması haqqında müqavilə imzalanmasına həsr edilmişdir. Ona görə də, icazənizlə, bu məsələlər barəsində qısaca olaraq cavab verim ki, biz konsorsiumun yaradılmasını çox güclü şəkildə dəstəkləyirik.

**Sual:** Cənab Prezident, ABŞ vitse-prezidentinin Sizə yazdığı məktubda xahiş olunur ki, Lissabon sammitindən sonra Azərbaycanın dövlət başçısı Ermənistan Prezidentinə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı öz təkliflərini göndərsin. Bu münaqişənin həlli üçün Azərbaycanın təklifləri məlumdur. Ola bilərmi ki, yeni təkliflər meydana çıxsın? Yəni Albert Qor "təkliflər" dedikdə nəyi nəzərdə tutur?

**Heydər Əliyev:** Bilirsinizmi, cənab vitse-prezident Albert Qorun məktubundakı "təkliflər" ifadəsi, mən belə hesab edirəm ki, ümumi xarakter daşıyır. Yəni bu o deməkdir ki, danışıqlar davam etməlidir və o üç prinsip - Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Azərbaycanın tərkibində Dağlıq Qarabağa status verilməsi və Dağlıq Qarabağın bütün əhalisi üçün təhlükəsizliyin təmin olunması prinsipləri əsasında konkret işlər görülməlidir. Bu işləri görmək üçün də lazımi addımlar atmaq gərəkdir. Təkliflər bundan ibarət olmalıdır.

**Sual:** Cənab Prezident, neft yataqlarının işlənməsində Azərbaycanın gələcək strategiyası necə olacaq? Əgər belə bir strategiya yoxdursa, onu işləyib hazırlamaq planlaşdırılırmı?

**Heydər Əliyev:** Azərbaycanın neft yataqlarından istifadə olunması üçün Azərbaycan dövlətinin, Azərbaycan hökumətinin çox açıq-aydın strategiyası var. Məhz bu strategiyanın nəticəsidir ki, biz 1994-cü ildən indiyə qədər ardıcıl surətdə dörd böyük neft müqaviləsi imzalamışıq. Bu strategiya məlum və aydındır. Gələcək işlərimizi də bu strategiya əsasında davam etdirəcəyik.

Bugünkü mərasimdə iştirak etmiş bütün mətbuat işçilərinə, kütləvi informasiya vasitələrinin nümayəndələrinə təşəkkür edirəm. Sağ olun.

Mərasimdə xarici neft şirkətlərinin rəhbərləri, xarici ölkələrin Azərbaycandakı səfirləri və digər rəsmi şəxslər iştirak edirdilər.

PARİS, 13 YANVAR 1997-Cİ İL






# "Lənkəran-dəniz" və "Talış-dəniz" strukturlarının birgə işlənməsi haqqında sazişin imzalanması

1997-ci il yanvarın 13-də Parisdə, Yelisey sarayında Xəzərin Azərbaycan sektorundakı "Lənkəran-dəniz" və "Talış-dəniz" strukturlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Fransanın "Elf Akiten" və "Total" şirkətləri arasında sazişin təntənəli şəraitdə imzalanması mərasimi oldu.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Fransa Respublikasının Prezidenti Jak Şirak mərasimdə iştirak edirdilər.

Müqaviləni ARDNŞ-nin prezidenti Natiq Əliyev, "Elf Akiten"nin prezidenti Filip Jofre və "Total"ın prezidenti Tyeri de More imzaladılar.

İmzalanma mərasimində Fransa Prezidenti Jak Şirak və Azərbaycan Prezidenti Heydər Əliyev bəyanatlarla çıxış etdilər.

### Fransa Prezidenti Jak Şirakın bəyanatı

- Əvvəla, mən Azərbaycan Prezidentinin Parisə rəsmi səfərə gəlməsinə sevindiyimi bildirmək istərdim. O, üç il bundan əvvəl də burada olmuşdur.

Demək istəyirəm ki, bizim söhbətimiz oldu, özü də uzun çəkdi, ona görə də sizi gözlətməli olduq. Söhbətimiz əsasən Dağlıq Qarabağda və onun ətrafında olan ərazilərdəki vəziyyətə həsr edilmişdi. Tamamilə aydındır ki, biz münaqişə haqqında danışmışıq. Hərbi əməliyyatlar dayandırılmışdır, lakin Azərbaycan ilə Ermənistan arasında Dağlıq Qarabağ barəsində münaqişə davam edir. Mən Fransanın sülhə necə sadiq olduğunu və bizim dostluq münasibətləri saxladığımız iki ölkəni qarşı-qarşıya qoyan bu problemin ədalətlə və tarazlı şəkildə həllinə nail olmağa kömək etmək üçün Fransanın fəaliyyət göstərməyi qərara aldığını Prezidentə dedim.

Nəhayət, demək istəyirəm ki, bu müqavilənin Parisdə imzalanmasına Azərbaycan Prezidentinin razılıq verməsi faktını mən yüksək qiymətləndirirəm, halbuki tamamilə aydındır ki, ənənəyə görə həmin müqavilə Bakıda imzalanmalı idi. Demək istəyirəm ki, Prezidentin bu addımında ölkəmizə dostluq münasibətinin əlamətini görürəm. Əziz Prezident, ümidvaram ki, bu, ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni əlaqələrin möhkəmləndirilməsi istiqamətində atılmış addımdır. Mən bu əlaqələrin möhkəmlənməsinə çalışıram. Sizə təşəkkür edirəm.

### Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident! Hörmətli xanımlar və cənablar!

Mən Fransa Prezidentinin dəvəti ilə Fransada, Parisdə rəsmi səfərdə olmağımdan böyük məmnunluq hissi keçirirəm.

Mənim burada olmağımdan, elə bu salonda mərhum Prezident Fransua Mitteranla Fransa ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında saziş imzalamağımızdan ötən üç il ərzində ölkələrimizin münasibətlərində müəyyən uğurlar əldə edilmişdir. Lakin hesab edirəm ki, bu, azdır. Bu imkandan, cənab Prezident Jak Şirak ilə olan söhbətimizdən istifadə edərək mən Fransa ilə Azərbaycan arasında əlaqələrin daha da yaxşılaşdırılmasına və genişləndirilməsinə səy göstərdiyimizi şərh etdim. Sevinirəm ki, bu barədə rəyimiz yekdildir və ümidvaram ki, bu görüş, söhbətlərimiz və danışıqlarımız Fransa-Azərbaycan münasibətlərinin sürətlə inkişafı üçün dönüş nöqtəsi olacaqdır.

Dağlıq Qarabağ üstündə Ermənistan-Azərbaycan münaqişəsi probleminə dair Fransa Prezidenti ilə mənim fikir mübadiləmiz çox faydalı və hesab edirəm ki, gərəkli oldu. Biz regionumuzda sülhün bərqərar olmasını, Ermənistan ilə Azərbaycan arasında sülh yaranmasını, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, Ermənistan silahlı birləşmələrinin işğal etdikləri Azərbaycan ərazilərinin azad olunması və Ermənistan silahlı birləşmələri tərəfindən öz yerlərindən zorla qovulmuş bir milyondan artıq Azərbaycan vətəndaşının yurdlarına qayıtması şərti ilə münaqişənin tamamilə aradan qaldırılmasını istəyirik. Biz ümid edirik ki, bu baxımdan ATƏT-in üzvü olan ölkələrlə, Minsk qrupuna, Minsk konfransına daxil olan ölkələrlə əməkdaşlıq, Fransa ilə əməkdaşlıq həmin silahlı münaqişəyə tamamilə son qoyulması üçün mühüm amildir.

Azərbaycanın "Lənkəran-dəniz" və "Talış-dəniz" neft yataqlarının birgə işlənməsi və istifadəsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə Fransanın ən iri "Elf Akiten" və "Total" şirkətləri arasında bu gün 25 il müddətinə imzalanmış müqavilə Azərbaycanın Fransa ilə öz əlaqələrini dərinləşdirmək və genişləndirmək səyini sübut edir. Yeri gəlmişkən deyim ki, "Elf Akiten" şirkəti 1996-cı ilin iyununda beynəlxalq neft şirkətlərinin imzaladıqları bir müqavilədə də iştirak edir. İndiki müqavilə Fransanın "Elf Akiten" şirkətinin iştirak etdiyi ikinci müqavilədir.

Mən sevinirəm ki, bu müqavilə Parisdə, Yelisey sarayında, Prezidentin, mənim dostum cənab Jak Şirakın iştirakı ilə imzalanmışdır və əminəm ki, bu müqavilə həm Fransanın, həm də Azərbaycanın iqtisadiyyatına böyük fayda gətirəcəkdir.

Bu müqavilənin imzalanması münasibətilə sizi təbrik edirəm. Fransa xalqına, Fransa Respublikasına, onun Prezidentinə səadət və xoşbəxtlik diləyirəm! Mersi Boku.

Fransa Prezidenti Jak Şirakın və Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatları böyük diqqətlə dinlənildi və alqışlarla qarşılandı.

İmzalanma mərasimində Fransanın xarici işlər naziri Erve de Şarett və digər rəsmi şəxslər iştirak edirdilər.

## MOSKVA, 3 İYUL 1997-Cİ İL



# "Yalama" və "Samur" strukturlarının birgə işlənməsi haqqında sazişin imzalanması

1997-ci il iyulun 3-də Moskvada, Kremlin Vladimir salonunda ikitərəfli sənədlərin imzalanmasının rəsmi mərasimi oldu.

Mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyev və Rusiya Prezidenti Boris Yeltsin iştirak edirdilər.

Xəzər dənizindəki perspektivli "Yalama" və "Samur" strukturlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay şəklində bölüşdürülməsi haqqında saziş imzalandı.

Bundan əlavə əsas kommersiya prinsipləri və Xəzər dənizindəki "Kəpəz" yatağını əhatə edən Azərbaycanın dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay şəklində bölüşdürülməsi barədə sazişin müddəaları haqqında müqavilə də imzalandı.

Mərasimdə Rusiya Hökumətinin üzvləri iştirak edirdilər.



VAŞİNQTON, 1 AVQUST 1997-Cİ İL



## “Abşeron”, “Naxçıvan”, “Oğuz” strukturlarının birgə işlənməsi haqqında sazişlərin imzalanması

1997-ci il avqustun 1-də Vaşinqtonda, Ağ evin Ruzvelt otağında Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişlərin imzalanması mərasimi oldu.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Albert Qor mərsimdə iştirak edirdilər.

Mərasimi vitse-prezident Albert Qor açdı.

**ABŞ-ın vitse-prezidenti Albert Qorun çıxışı**

- Bu tarixi hadisədə iştirak etməyimdən məmnunluq duyuram. Fürsətdən istifadə edib, Prezident Əliyevi və onu müşayiət edən bütün nümayəndə heyətini Ağ evdə bir daha salamlayıram. Prezident Əliyev Prezident Klinton ilə elə indicə əvvəl Dairəvi ofisdə, sonra isə Kabinet otağında çox məhsuldar müzakirələr apardılar. Bu mərasimdən dərhal sonra müzakirələr Prezident Klintonun Prezident Əliyevin şərəfinə verdiyi ziyafət zamanı davam etdiriləcəkdir.

Bundan sonra hər iki Prezident başqa bir imzalanma mərasimində iştirak edəcəklər.

Bu gün burada, Ağ evin Ruzvelt otağında biz hökumətlərimiz arasında rəsmi enerji dialoqunu yaradacağıq. Biz həmçinin dörd böyük neft müqaviləsinin imzalanmasının da şahidləri olacağıq. Enerji dialoqu Xəzərin sərvətlərindən istifadə olunması barədə ümumi ümidlərimizə nə qədər ciddiliklə yanaşdığımızı əks etdirir. Bu kommersiya layihələri “Amoko”, “Şevron”, “Eksson” və “Mobil” şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında uzun sürən və intensiv danışıqların nəticəsidir. Heç ağlıma da gəlməzdi ki, mən özüm bu müqavilələr barədə bu qədər çox məlumata malik olacağam. Mən bilirəm ki, bu təşəbbüslərin hamısı dövlətlərimizin vətəndaşları üçün qarşılıqlı surətdə faydalı nəticələr əldə etmək ideyası əsasında qurulub. Elə nəticələr ki, bunları Amerika Birləşmiş Ştatlarında hər iki tərəfin qələbəsi adlandırırlar. Bu müqavilələri bağlamaqla bizim şirkətlərimiz Azərbaycanın iqtisadi dirçəlişinə öz töhfələrini vermək üçün imkanlar qazanırlar.

Cənab Prezident, ümidvar olduğumuzu bildiririk ki, bu müqavilələr Azərbaycanın artmaqda olan tərəqqisinə, müstəqilliyinə, habelə bütün regionun inkişafına kömək edəcəkdir. Ümid edirik ki, Sizin regionunuzda təhlükəsizliyə və əməkdaşlığa söykənən ədalətli sülh dövrü başlanacaqdır. Beləliklə, Sizin və mənim şahidliyimizlə indicə imzalanacaq müqavilələr Azərbaycan və bütün Xəzər regionu üçün yeni bir mərhələnin başlanğıcından xəbər verir. Bu gün sizin regionun dövlətlərinin bir-biri ilə və bütövlükdə dünya ilə kommersiya və ticarət əlaqələri yaradaraq münasibətlər saxlamaq istiqamətində göstərdikləri davamlı səylərin tarixi bir hissəsi, əlamətdar gün kimi yadda qalacaqdır. Azərbaycan və Sizin qonşularınız keçmişdən qurtularaq öz xalqının ədalət içində, sülh şəraitində yaşadığı hüquqi dövlət quruculuğu istiqamətində səylərini davam etdirməli və bunu qalibiyyətlə başa vurmalıdırlar.

Cənab Prezident, çıxış üçün sözü Sizə verirəm və sözümün sonunda Sizə öz təbriklərimi çatdırıram.

Sonra Azərbaycan Prezidenti Heydər Əliyev nitq söylədi.

**Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi**

- Hörmətli cənab vitse-prezident!

Hörmətli nazirlər, hörmətli dostlar!

Bu gün Amerika-Azərbaycan əlaqələrində tarixi hadisə baş verir. Azərbaycan Prezidenti ilk dəfə Amerika Birləşmiş Ştatlarına rəsmi səfərə gəlibdir. Bizim çox səmərəli danışıqlarımız olubdur və bu gün səhərdən Prezident cənab Bill Klinton ilə və onun





ətrafında olan şəxslərlə mehriban şəraitdə çox səmərəli danışıqlar aparmışıq. Bu danışıqlarımızda eyni zamanda Amerika-Azərbaycan iqtisadi əlaqələrinin daha da genişləndirilməsini müzakirə etmişik. Bu sahədə böyük imkanlar var və bunlardan daha da səmərəli istifadə etmək lazımdır. Biz indiyə qədər bu imkanları yaratmışıq, çünki 1994-cü ilin sentyabrında ilk böyük müqavilə, "Əsrin müqaviləsi" adlanan müqavilə imzalamışıq və bu müqavilədə Amerika Birləşmiş Ştatlarının beş böyük şirkəti iştirak edir. Məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu müqavilə əməli surətdə həyata keçirilir və konsorsiumun fəaliyyəti nəticəsində bu ilin sentyabrında ilkin neft əldə olunacaqdır.

Nefti xaricə - Qərbə, dünya bazarına çıxarmaq üçün iki neft kəməri tikilir. Üçüncü böyük neft kəmərinin tikilməsinə də bu yaxınlarda başlanacaqdır.

Mən bu gün burada, Vaşinqtonda, Ağ evdə iftixar hissi ilə deyirəm ki, Azərbaycan neftçiləri əlli il bundan öncə Xəzər dənizində ilk neft yataqlarını açıb istismar etməyə başlayıblar. XX əsrin sonunda Azərbaycan Xəzər dənizinin böyük, zəngin neft yataqlarını bütün dünyaya təqdim edibdir. Çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu işlərdə Amerika Birləşmiş Ştatlarının böyük şirkətləri fəal iştirak edirlər. Biz dərk edirik ki, xarici investisiyanın Azərbaycana gəlməsi, iqtisadiyyatımızın dünya iqtisadiyyatı ilə bağlanması və xüsusən Amerika Birləşmiş Ştatları ilə güclü iqtisadi əlaqələr qurulması Azərbaycan xalqının gözəl gələcəyinə xidmət edir.

Eyni zamanda bu iqtisadi əlaqələr, Amerikanın böyük neft şirkətlərinin və digər şirkətlərinin Azərbaycanda indi geniş fəaliyyət göstərməsi Amerika-Azərbaycan əlaqələrinin bütün sahələrdə genişlənməsinə, inkişafına kömək edir. Məmnuniyyət hissi ilə qeyd edirəm ki, ABŞ Prezidenti cənab Bill Klinton bu problemlərə xüsusi əhəmiyyət verir və bu məsələlərin həlli üçün çox ciddi tədbirlər görür. Biz bu məsələlərdə vitse-prezident cənab Albert Qor ilə də çox sıx əməkdaşlıq edirik və bu işlərin həyata keçirilməsində onun da çox böyük xidmətləri var.

ABŞ-ın Energetika Nazirliyi ilə bizim əlaqələrimiz yaxşıdır və bunların inkişaf etdirilməsi üçün müqavilə imzalanacağından məmnunam. Amerika Birləşmiş Ştatlarının Dövlət katibi xanım Olbrayt bu əlaqələrin inkişafında xüsusi xidmətlər göstərmişdir. Ümidvaram ki, Amerikanın Ticarət Nazirliyi ilə də yaranan əlaqələr bütün iqtisadiyyatımızın inkişafına xidmət edəcəkdir.

Çox böyük neft müqavilələrinin burada, Ağ evdə, Amerikanın rəhbərlərinin iştirakı ilə imzalanması tarixi hadisədir. Biz bunu yüksək qiymətləndirir və hesab edirik ki, Ağ evdə imzalanan müqavilələr uğurlu olacaqdır. Mən sizi bu münasibətlə təbrik edirəm və imzalanan müqavilələrin uğurlu olmasını arzulayıram. Sağ olun.

Vitse-prezident Albert Qorun və Prezident Heydər Əliyevin çıxışları diqqətlə dinlənildi və sürəkli alqışlarla qarşılandı.

Sonra sənədlərin imzalanması başlandı.

ABŞ-ın energetika naziri Federiko Penya və Azərbaycanın xarici işlər naziri Azərbaycan Respublikası ilə ABŞ arasında energetikanın inkişafı üzrə ikitərəfli dialoq yaradılması niyyətləri haqqında bəyanat imzaladılar.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Abşeron" perspektivli sahəsinin kəşfiyyatı, birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Amerikanın "Şevron" şirkəti arasında müqaviləni ARDNŞ-nin birinci vitse-prezidenti İlham Əliyev və "Şevron"un birinci vitse-prezidenti Riçard Matske imzaladılar.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyev və Amerikanın "Ekson" şirkətinin prezidenti Terri Kunts Xəzərin Azərbaycan sektorundakı "Naxçıvan" perspektivli sahəsinin kəşfiyyatı, müştərək işlənməsi və hasilatın pay bölgüsü haqqında müqavilə imzaladılar.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Oğuz" perspektivli sahəsinin kəşfiyyatı, birgə işlənməsi və hasilatın pay bölgüsü barədə ARDNŞ ilə Amerikanın "Mobil" şirkəti arasında müqaviləni Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev və "Mobil" şirkətinin prezidenti Bill Skoginz imzaladılar.

Xəzərin Azərbaycan sektorundakı "İnam" perspektivli strukturu ilə bağlı danışıqlar aparmaq üçün "Amoko"ya müstəsna hüquqlar verən dördüncü müqavilə isə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Birləşmiş Ştatların "Amoko" şirkəti arasında bağlandı. Əməkdaşlıq haqqında bu müqaviləni ARDNŞ-nin prezidenti Natiq Əliyev və "Amoko" şirkətinin prezidenti Çarlz Pitman imzaladılar.

BAKI, 2 İYUN 1998-Cİ İL



# "Kürdaşı", "Cənub-Qərbi Qobustan", "Kürsəngi" və "Qarabağlı" strukturlarının birgə işlənməsi haqqında sazişlərin imzalanması

1998-ci il iyunun 2-də Bakıda, "Gülüstan" sarayında Xəzərin Azərbaycan sektorundakı "Kürdaşı" dəniz blokunun və qurudakı "Cənub-Qərbi Qobustan", "Kürsəngi" və "Qarabağlı" strukturlarının birgə işlənməsi haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliyanın "Acip", Yaponiyanın "Mitsui", Türkiyənin "Türkiyə Petrolları Anonim Ortaqlığı", ABŞ-ın "Yunion Teksas", Böyük Britaniya və Kanadanın "Komonvels Oyl ənd Qaz", ABŞ-ın "Frontera Resorses", "Amerada Hess", Səudiyyə Ərəbistanının "Delta" şirkətləri arasında sazişlərin imzalanması mərasimi oldu.

Mərasim iştirakçıları Azərbaycan Prezidenti Heydər Əliyevi hərarətlə qarşıladılar.

Prezident Heydər Əliyev mərasimdə nitq söylədi.

**Azərbaycan Prezidenti**
**Heydər Əliyevin nitqi**

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bu gün Azərbaycanda böyük bir gündür. Azərbaycanda, Bakıda dalbadal beşinci ildir ki, beynəlxalq "Xəzərneftqaz" sərgisi keçirilir. Bu gün biz bu sərginin








açılışında sizinlə birlikdə iştirak etmişik. Ötən beş il müddətində sərginin nə qədər inkişaf etməsinin şahidi olmuşuq. Beş il müddətində sərginin iştirakçıları 1994-cü ildəki 120 şirkətdən 1998-ci ildə 400 şirkətə çatmışdır. Bu gün açılan sərgidə 29 ölkənin şirkətləri təmsil olunur. Ancaq məsələ təkcə şirkətlərin sayının artması ilə əlaqədar deyildir. Bu gün biz sərginin eksponatları ilə tanışlıq zamanı gördük ki, ötən bu illər ərzində dünyanın neft şirkətləri, xüsusən bu sərgidə təmsil olunan və neft, qaz sənayesi ilə əlaqədar şirkətlər texnika, texnologiya sahəsində nə qədər inkişaf ediblər.

Bu işlərin əsası 1994-cü ilin mayında qoyulubdur. Həmin o il - 1994-cü il dörd il bundan əvvəl Azərbaycan öz təbii sərvətlərindən səmərəli istifadə etmək, dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələri ilə əlaqələr qurmaq üçün, respublikamıza məxsus neft və qaz yataqlarından dünyanın böyük neft şirkətləri ilə birlikdə səmərəli istifadə etmək məqsədi ilə çox böyük və cəsarətli addım atmışdır.

Dörd il bundan əvvəl sentyabrın 20-də Azərbaycanda, Bakıda, bu möhtəşəm "Gülüstan" sarayında Azərbaycan Dövlət Neft Şirkəti dünyanın 11 neft şirkətinin yaratdığı konsorsiumla böyük bir müqavilə imzalamışdır. O vaxt bu müqaviləyə "Əsrin müqaviləsi" adı verilmişdir.

Bu müqavilə əsasında Xəzərin Azərbaycan sektorunda "Azəri", "Çıraq" neft yataqlarında və "Günəşli" yatağının dərin hissəsində müştərək iş görülməyə başlandı. Ötən illərdə müştərək işlər sayəsində yaxşı nəticələr əldə olunmuşdur. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti çox səmərəli fəaliyyət göstərir və bunun nəticəsində "Çıraq" neft yatağında müasir texnikaya və texnologiyaya əsaslanan çox gözəl bir platforma yaranıbdır. Aparılan qazma işləri nəticəsində keçən ilin noyabr ayında ilkin neft hasil olunubdur. Ancaq bu platformanı qurmaq, quyular qazmaq və neft əldə etməklə bərabər, hasil ediləcək neftin istifadə olunması üçün neft və qaz kəmərləri çəkilibdir. Səngəçalda böyük bir neft terminalı tikilibdir, böyük infrastruktur yaranıbdır. "Çıraq" yatağından hasil olunan neft borular vasitəsilə Səngəçal terminalına çatdırılır, oradan isə tikilmiş və istifadəyə verilmiş Bakı-Novorossiysk neft kəməri vasitəsilə dünya bazarlarına ixrac olunur.

Bizim gördüyümüz işlər əvvəlcədən nəzərdə tutulduğundan da çox yaxşı nəticələr veribdir. "Çıraq" neft yatağında bu günədək beş quyu qazılıbdır. Həmin beş quyudan gündə 9 min ton neft hasil olunur.

Bu gün səhər sərginin açılışı zamanı mən bəyan etdim ki, dörd quyu qazılıbdır və gündə 7 min ton neft hasil olunur. Amma indi deyirəm ki, beş quyu qazılıbdır və gündə 9 min ton neft hasil edilir. Mən səhv etmirəm. Səhər də düz demişəm, indi də düz deyirəm. Səhər dediyim sözlər məndə olan dünənki məlumatlara əsaslanırdı. Bu gün isə sərgini gəzərkən, Beynəlxalq Əməliyyat Şirkətinin rəhbərləri ilə görüşərkən onlar böyük sevinclə bildirdilər ki, beşinci quyu da qazılıb istismara verilibdir və həmin quyudan gündə 2 min ton neft alınır. Mən ona görə deyirəm ki, gündə 9 min ton neft hasil edilir. Görürsünüz, quyular nə qədər sürətlə qazılır ki, hətta mən onların qazılıb istifadəyə verilməsi haqqında vaxtında məlumat ala bilmirəm. Bu, sevindirici haldır.

Xatirinizdədir, 1994-cü ildə biz müqaviləni imzalayanda ayrı-ayrı ölkələrdən, yerlərdən bu işin əleyhinə çıxanlar çox oldu. Bəziləri də hesab edirdilər ki, bu müqavilə imzalanıbsa da işləməyəcək, nəticə verməyəcəkdir. Çünki hansı ölkələrsə, kimsə bu müqavilələrin mövcud olmasını istəmirdi. Bəziləri isə bizə deyirdilər ki, siz bu yolla nahaq gedirsiniz, çünki Qərb şirkətlərinin, o cümlədən Amerika şirkətlərinin xasiyyəti belədir ki, onlar gəlib müqaviləni bağlayırlar, yatağı ələ keçirirlər, amma ondan sonra işləmirlər. Onlar onu saxlayırlar, nə vaxt lazım olsa onda da işlədirlər.

Ancaq bu gün sevinc hissi ilə demək olar ki, bütün bu bədxah fikirlərin hamısı bədxah fikirlər kimi də qaldı.



Biz müqaviləni cəsarətlə imzaladıq və onun həyata keçirilməsinə səmərəli işlə nail olduq. Biz bu gün bunun nəticələrini gördük. Müqavilə imzalanarkən həmin neft yataqlarından 510 milyon ton neft gözlənilirdi. Bu, müqavilədə də öz əksini tapıbdır. İndi isə məlumat verirlər ki, həmin yataqlardan 630 milyon ton neft gözlənilir. Güman edirəm ki, bir ildən sonra bu rəqəm dəyişiləcək və daha da artacaqdır.

Ancaq biz bu müqaviləni yerinə yetirərək, eyni zamanda bu təcrübədən istifadə edərək Xəzərin Azərbaycan sektorunda olan başqa neft yataqlarında da dünyanın böyük neft şirkətləri ilə müştərək iş görmək üçün lazımi tədbirlər həyata keçiririk. Bunların nəticəsində biz ötən illər ərzində - birinci müqavilədən sonra əlavə 8 böyük müqavilə imzaladıq. Bu müqavilələrin hər birinin çox böyük perspektivi vardır. Onların əksəriyyəti üzrə artıq əməli iş aparılır. Məsələn, bu gün sərgidəki görüşlərim zamanı "Şahdəniz", "Qarabağ", "Lənkəran-dəniz", "Talış-dəniz" yataqlarında görülən işlər barədə mənə məlumat verdilər.

Xəzərin Azərbaycan sektorundakı yataqlardan gözlənilən neftin miqdarı daha da artır. Məhz buna görə də biz Qərb istiqamətində Bakı-Supsa marşrutunun, ikinci neft kəmərinin tikilməsi ilə məşğuluq. Əminəm ki, 1999-cu ilin əvvəlində bu neft kəməri hazır olacaqdır. Bu müddətdə biz əsas neft kəmərinin - böyük neft borusunun tikilməsi məsələləri ilə ciddi məşğuluq. Hesab edirəm ki, bu ilin sentyabr ayında bu barədə son qərar qəbul olunacaqdır. Azərbaycan dövləti, hökuməti bütün mümkün marşrutların hamısını təhlil edərək hesab edir ki, Bakı-Ceyhan ən əlverişli marşrutdur. Güman edirəm ki, biz bu ilin sonunadək bu sahədə də əməli işə başlayacağıq.

Ancaq Xəzərin Azərbaycan sektorundakı yataqların çoxu hələ işlənilməyibdir. Bu neft yataqlarında Azərbaycan Dövlət Neft Şirkəti ilə müştərək iş görmək üçün dünyanın bir çox ölkələrindən xeyli neft şirkətləri respublikamıza fəal surətdə müraciət edirlər. Yenə də bildirmək istəyirəm ki, belə müraciətlər çoxdur. Ona görə də Azərbaycan Dövlət Neft Şirkəti indi tender keçirmək, müsabiqə aparmaq imkanına malikdir. Nəticədə ən yüksək iqtisadi göstəricilər təklif edən şirkətlər Xəzərin Azərbaycan sektorunda və ölkəmizin quruda olan yataqlarında müştərək iş görmək hüququ qazanırlar.

Mən tam əsasla deyə bilərəm ki, Azərbaycan Respublikasının son illər bu sahədə apardığı işlər Xəzər dənizinin dünya iqtisadiyyatı üçün nə qədər əhəmiyyətli, Xəzər dənizi hövzəsinin neft və qaz yataqları ilə nə qədər zəngin olduğunu açıq göstərmişdir. Mən hesab edirəm ki, bu, müstəqil Azərbaycan Respublikasının ən böyük nailiyyətidir.

Azərbaycan qədim neft diyarıdır və dünyada ilk dəfə neft fontanı bizim ölkəmizdə olubdur. Dənizdə, suyun dibində olan neft yataqlarının istifadə edilməsində, neft hasilatında da Azərbaycan birinci yerdədir. 50 il bundan əvvəl - 1949-cu ildə Xəzərdə, Neft daşları adlanan yerdə böyük neft yataqları açılıb istifadəyə verilmişdir və bununla da bütün dünyaya bəyan edilmişdir ki, dənizdə, suyun dibindən neft və qaz hasil etmək mümkündür. Bir daha qeyd edirəm ki, indi - XX əsrin sonunda Azərbaycan Xəzər dənizinin böyük potensialını, yeni mineral ehtiyatlar, neft və qaz potensialını aşkara çıxararaq dünyaya bəyan edibdir.

Bizə yaxşı məlumdur ki, Xəzərin digər sektorlarında da zəngin neft və qaz yataqları vardır. Xəzəryanı hər bir ölkə özünə məxsus olan sektorlarda bu neft və qaz yataqlarını istifadə edib işlədə bilər. Məmnuniyyətlə qeyd edirəm ki, artıq bu işlərə başlanıbdır. Azərbaycan isə Xəzərin ona məxsus olan sektorunda öz iş dairəsini genişləndirir və vaxtilə kəşf olunmuş yataqlarından indi müştərək istifadə edilməsi üçün əməli tədbirlər görür.

Bununla bərabər, Azərbaycanın ərazisinin quru yerlərində də ölkəmizin hələ çox zəngin neft yataqları vardır. Hesab edirik ki, Azərbaycanın yer altında olan neft və qaz məhsulunun hələ tam əksəriyyəti çıxarılmayıbdır. Ona görə də Azərbaycanın quru yerlərində olan yataqlarından da dünyanın neft şirkətləri ilə müştərək istifadə edilməsi indi böyük əhəmiyyətə malikdir. Biz bu sahədə də təkliflər alırıq və onların əsasında da müəyyən işlər görürük.

Bütün bu işlərin nəticəsində bu gün biz buraya, üç neft yatağı ilə əlaqədar müqavilələrin, sənədlərin imzalanması mərasiminə toplaşmışıq. Onlardan biri Xəzərin Azərbaycan sektorunda olan "Kürdaşı" neft yatağıdır. Bu, çox zəngin neft yatağıdır. İlkin məlumatlara görə, buradan 100 milyon tondan artıq neft çıxarılması proqnozlaşdırılır. Şübhəsiz ki, orada qaz da vardır. Azərbaycan neftçiləri, alimləri, geoloqları tərəfindən bu neft yatağı təxminən 1940-1950-ci illərdə kəşf olunubdur. Vaxtilə orada müəyyən işlər aparılıbdır. Sonra həmin işləri davam etdirməyə imkan olmayıbdır. Bu yatağa dünyanın bir çox böyük neft şirkətləri maraq göstəriblər. Verilən təkliflərin təhlili nəticəsində Azərbaycan Dövlət Neft Şirkəti bu yataq üzrə müqavilənin layihəsini hazırlayıbdır. Bu yataqda işlər Azərbaycan Dövlət Neft Şirkəti ilə bərabər İtaliyanın "Acip", Yaponiyanın "Mitsui" və Türkiyənin "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətləri ilə yaranan konsorsium vasitəsilə aparılacaqdır. Bunun üçün müəyyən müqavilə layihəsi hazırlanıbdır və bu gün burada bu müqavilə imzalanacaqdır.

Mən qeyd etdim ki, Azərbaycanın quru ərazisində olan neft yataqlarına da çox böyük maraq vardır. Bunlardan biri Cənub-Qərbi Qobustan ərazisində yerləşən yataqlardır. Verilən təkliflər əsasında "Cənub-Qərbi Qobustan" yatağının müştərək işlənilməsi üçün də müqavilə layihəsi hazırlanıbdır. Burada Azərbaycan Dövlət Neft



Şirkəti ilə Amerika Birləşmiş Ştatlarının "Yunion Teksas", Böyük Britaniyanın və Kanadanın "Komonvels Oyl ənd Qaz" şirkətləri birlikdə iş görmək haqqında qərar qəbul ediblər.

Azərbaycanın quruda yerləşən çox zəngin yataqlarından biri də "Kürsəngi-Qarabağlı"dır. Bu yataqda da Azərbaycan Dövlət Neft Şirkəti Amerika Birləşmiş Ştatlarının "Frontera Resorses", "Amerada Hess" və Səudiyyə Ərəbistanının "Delta" şirkətləri ilə birlikdə konsorsium yaradıb müştərək iş görmək üçün lazımi sənəd hazırlamışlar.

Məlumdur ki, ölkəmizin bütün neft yataqları Azərbaycan xalqına, dövlətinə mənsubdur. Ona görə də bunlar hamısı Azərbaycan Dövlət Neft Şirkətinin sərəncamındadır. Xarici şirkətlərlə hər bir belə müştərək iş görmək üçün şübhəsiz ki, Azərbaycan dövlətinin xüsusi sərəncamı, qərarı olmalıdır. Mən bu təkliflərə baxmışam, onları Azərbaycan üçün səmərəli hesab edirəm. Ona görə də bu təkliflər əsasında dediyim yataqlarda müştərək iş görülməsi üçün lazımi qərarlar qəbul etmişəm.

Mən bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanın öz təbii sərvətlərindən istifadə etməsi ilə əlaqədar apardığı strateji siyasət Azərbaycanın milli mənafeyinə tamamilə cavab verən siyasətdir.

Biz müxtəlif ölkələrin neft şirkətlərinin Azərbaycan Dövlət Neft Şirkəti ilə respublikamızda müştərək iş görməsini səmərəli hesab edirik. Şübhəsiz ki, bu, hər iki tərəf üçün - həm ayrı-ayrı ölkələrdən gəlib respublikamızda iş görmək istəyən şirkətlər və onların təmsil



etdiyi ölkələr üçün, həm də Azərbaycan üçün eyni dərəcədə faydalıdır. Biz bunların nəticəsində Azərbaycana xarici ölkələrdən böyük miqyasda investisiya gəlməsinə, dövlətimizə məxsus təbii sərvətlərdən səmərəli istifadə etməyə, respublikamızın neft və qaz sənayesinə müasir texnikanın və texnologiyanın gəlməsinə nail oluruq. Bunlar hamısı ali məqsədə - Azərbaycan xalqının, respublikamızın vətəndaşlarının rifahının yaxşılaşmasına xidmət edir.

Mən bu prinsipləri rəhbər tutaraq bu barədə qərarlar qəbul edirəm. Bu gün burada təqdim olunan müqavilələr haqqında da qərar qəbul etmişəm və onların bu gün imzalanmasını məqsədəuyğun hesab edirəm.

Beləliklə, biz dünyanın böyük neft şirkətləri ilə, bir çox ölkələrlə iqtisadi əlaqələrin inkişaf etməsi sahəsində yeni addımlar atırıq. Mən ümidvaram ki, bu addımlar uğurlu olacaqdır. Mən bu münasibətlə sizi təbrik edirəm. Sağ olun.

Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi diqqətlə dinlənildi və gurultulu, sürəkli alqışlarla qarşılandı.

Sonra müqavilələrin imzalanması başlandı. Xəzərin Azərbaycan sektorundakı "Kürdaşı" dəniz blokunun birgə işlənilməsi barədə müqaviləni ARDNŞ-nin prezidenti Natiq Əliyev, İtaliyanın "Acip" şirkətinin prezidenti Qulyelmo Moskato, Yaponiyanın "Mitsui" şirkətinin prezidenti Takenosuke Yamasaki, Türkiyənin "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətinin prezidenti Sidqi Səncər imzaladılar.

Qurudakı "Cənub-Qərbi Qobustan" blokunun birgə işlənilməsi barədə müqaviləyə ARDNŞ-nin prezidenti Natiq Əliyev, Amerika Birləşmiş Ştatlarının "Yunion Teksas" şirkətinin prezidenti Riçard Makduqall, Böyük Britaniya və Kanadının "Komonvels Oyl ənd Qaz" şirkətinin prezidenti Nikolas Bakster imza qoydular.

"Kürsəngi-Qarabağlı" blokunun birgə işlənilməsi haqqında müqaviləni ARDNŞ-nin prezidenti Natiq Əliyev, ABŞ-ın "Frontera Resorses" şirkətinin prezidenti Stiv Nikandros, Səudiyyə Ərəbistanının "Delta" şirkətinin prezidenti Bədr əl-Əyban, ABŞ-ın "Amerada Hess" şirkətinin prezidenti Sem Leydlou imzaladılar.

Azərbaycan Prezidenti Heydər Əliyev müqavilələri imzalayan şirkətlərin rəhbərlərini səmimi qəlbdən təbrik etdi və onlara qarşıdakı işlərində uğurlar dilədi.

Müqavilələr imzalandıqdan sonra xarici qonaqlar çıxış etməyə başladılar. İlk söz ABŞ ticarət nazirinin beynəlxalq ticarət üzrə müavini David Aarona verildi.

**ABŞ ticarət nazirinin beynəlxalq ticarət üzrə müavini David Aaronun çıxışı**

- Cənab Prezident, bu gün burada olmaq və neft şirkətlərinin uğurlarının şahidi olmaq mənim üçün doğrudan böyük şərəfdir. Hazırda bu şirkətlər dünya neft enerjisi inkişafının həlledici mərhələsindədirlər. Amerika Birləşmiş Ştatları bu şirkətlərin Azərbaycandakı fəaliyyətini yüksək qiymətləndirir. Bilirik ki, bu mərhələyə gəlib çatmaq üçün çox çətin yol keçilmişdir. Ona görə də bu münasibətlə şirkətləri və Azərbaycan Dövlət Neft Şirkətini təbrik edirik.

Bildiyiniz kimi, Xəzərdə neft və qaz sənayesinin inkişafı yalnız kommersiya imkanı demək deyildir. Bunun həm də bizim enerji təhlükəsizliyimiz və dünyanın bu mühüm bölgəsində siyasi-strateji mövqeyimiz üçün çox böyük əhəmiyyəti var. Xəzərin enerji ehtiyatlarının Şimal dənizindəki qədər olacağı gözlənilir. Bundan əlavə, onun dünyada enerji təminatına və qiymətlərinə sabitlik gətirəcəyi də bizə yaxşı məlumdur.

Xəzər dənizinin gələcək onilliklər boyu dünyanın əlavə neft hasilatının üçdə birini təmin edəcəyi gözlənilir və biz bu nefti istehsal edən şirkətləri çox yüksək qiymətləndiririk.

Biz Bakıdakı neft-qaz sərgisi kimi mühüm beynəlxalq toplantılarda belə müqavilələr imzalanması tədbirlərinə qoşula bildiyimiz üçün özümüzü çox xoşbəxt hiss edirik. Mən inamram ki, bu hadisə danışıqlar aparan tərəflərə öz işlərini yekunlaşdırıb irəliləmək üçün yollar axtarmağa stimul verəcəkdir. Bu gün burada bunun şahidi oldum. Ümid edirəm ki, tərəflər öz maraqlarını bir yerə gətirib qarşılıqlı məqsəd daşıyan müqavilə bağladıqdan sonra bu mərhələlərin həyata keçməsi üçün fəal işləməyə hazır olacaqlar. Azərbaycanın qonaqpərvərliyi sayəsində bu toplantıda çox səmimi və yoldaşcasına ünsiyyətdə olmaq üçün şərait vardır.

Sözümün sonunda Amerika şirkətlərinin - "Yunion Teksas" və "Frontera Resorses"in fəaliyyətini qeyd etmək istərdim. Onların iştirakı Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı fəaliyyətini genişləndirəcəkdir ki, bu da Azərbaycana rəqabətə daha davamlı və müxtəlif tərəfdaşlar seçmək imkanı verəcəkdir. Azərbaycan özünün həm qurudakı, həm də dənizdəki neft-qaz yataqlarının xarici şirkətlərin iştirakı ilə işlənilməsi niyyətini göstərir. Biz bu addımı uzun müddət dəstəkləmişik və bu, Azərbaycan neft sənayesinin inkişafının sürətlənməsinə xidmət edəcəkdir. Mən sizə müvəffəqiyyət arzulayıram. İşləriniz uğurlu olsun!

Sonra Böyük Britaniyanın elm, energetika və sənaye üzrə dövlət naziri, parlamentin üzvü Con Batl çıxış etdi.

**Böyük Britaniyanın elm, energetika və sənaye üzrə dövlət naziri, parlamentin üzvü Con Batlın çıxışı**

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar, bütün qonaqlar!

Bu gün müqavilələrin imzalanması ilə əlaqədar bu həyəcanlı hadisədə iştirak etmək mənim üçün xüsusilə fərəhlidir. Müqavilələrdə Azərbaycanın quru hissəsindəki yataqların işlənilməsi nəzərdə tutulur ki, bu da böyük təcrübə tələb edir.

Hər hansı bir müqaviləni hazırlamaq üçün böyük təmkin, böyük təcrübə və böyük praktika gərəkdir. İcazə verin, bununla əlaqədar hamını bu müqavilələrin imzalanması üçün göstərdikləri səbrə və çəkdikləri gərgin əməyə görə təbrik edim.

Müqavilənin imzalanması gələcəkdə müəyyən həcmdə işlərin yerinə yetirilməsi barədə öhdəlik deməkdir. Hər hansı müqavilənin əhəmiyyəti onun bütün iştirakçıları üçün qarşılıqlı surətdə faydalı tərəfdaşlıqdan ibarətdir. Əminəm ki, "Komonvels" və "Yunion Teksas" şirkətləri Azərbaycana yeni texnologiyalar







gətirəcək, onun iqtisadiyyatının və sənayesinin inkişafına öz töhfəsini verəcəkdir.

Cənab Prezident, Sizin kimi, mən də demək istəyirəm ki, hər hansı müqavilənin imzalanması yeni, naməlum bir sahəni Azərbaycanda olan qüvvənin köməyi ilə açmaq üçün açardır.

Cənab Prezident, icazə verin, Sizi bir daha təbrik edim və bu gözəl dəqiqələrə görə, müqavilələrin imzalanması ilə əlaqədar bu təntənəli hadisəyə görə Sizə öz təşəkkürümü bildirim.

Sonra İtaliyanın sənaye və ticarət naziri Luici Bersani çıxış etdi.

**İtaliyanın sənaye və ticarət naziri Luici Bersaninin çıxışı**

- Cənab Prezident!

Xanımlar və cənablar!

"Kürdaşı" yatağına dair müqavilənin imzalanması ilə əlaqədar İtaliya hökumətinin minnətdarlığını və böyük məmnunluğunu ifadə etmək istərdim. Bu müqavilə



Azərbaycanda artıq fəaliyyət göstərən İtaliyanın "EniAcip" neft-qaz şirkətinə Cənubi Xəzərdə ən maraqlı sektorlardan biri olacaq sektorun istismarı üçün ARDNŞ ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq yaratmağa imkan verəcəkdir.

"Acip" bölməsi vasitəsilə "Eni" şirkətinin neft kəşfiyyatı və hasilatı sahəsində çoxillik təcrübəsi buna maksimum təminatdır ki, ARDNŞ və digər neft şirkətləri ilə əməkdaşlıq bizim hamımızın ümid bəslədiyi səmərəli nəticələri verəcəkdir. Müqavilənin imzalanması İtaliya ilə Azərbaycan arasında münasibətlərin daha da genişlənməsinə kömək edəcəkdir. Bu münasibətlər isə Bakıda İtaliya səfirliyi açılması sayəsində son illər xüsusi əhəmiyyət kəsb etmişdir. Bu, İtaliya hökumətinin Zaqafqaziya bölgəsinə, o cümlədən Azərbaycana göstərdiyi diqqətə daha bir subutdur.

İtaliyada Prezident Heydər Əliyevin ötən ilin sentyabrındakı səfərini hələ də xatırlayırlar. Bu səfər iki ölkə arasında münasibətlərdə əsas mərhələ oldu, mühüm komponenti, şübhəsiz, hazırkı müqavilə olan möhkəm tərəfdaşlığın təməlini qoydu.

Biz bu gün İtaliya Respublikasının elan olunmasının 52-ci ildönümünü qeyd edirik. Azərbaycan isə bu günlərdə istiqlaliyyət elan olunmasının 80-ci ildönümünü qeyd etmişdir. Bu xoşbəxt təsadüf iqtisadi məna kəsb edən hazırkı müqaviləyə rəmzi məna verir.

"Kürdaşı"ya dair müqavilə Azərbaycanın beynəlxalq aləmdə mövqeyini möhkəmləndirir və onun öz enerji ehtiyatlarından həm Azərbaycan xalqının, həm də bütün regionun gələcək firavanlığı və tərəqqisi naminə istifadə etməyə hazır olduğunu təsdiqləyir.

Cənab Prezident, sağ olun.

Sonra söz Yaponiyanın Beynəlxalq Ticarət və Sənaye Nazirliyi Neft Departamentinin direktoru Yasuo Tanabeyə verildi.

**Yaponiyanın Beynəlxalq Ticarət və Sənaye Nazirliyi Neft Departamentinin direktoru Yasuo Tanabenin çıxışı**

- Zati-aliləri hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar, hörmətli rəsmi şəxslər!

Yaponiya hökuməti adından dərin səmimi təbriklərimi və bizə verilən imkana görə burada əyləşənlərin hamısına dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün "Kürdaşı" yatağının işlənilməsinə dair layihəni "Mitsui" şirkəti də imzalamışdır. Yaponiya hökuməti Yaponiya şirkətlərinin bu layihə üzrə dünyanın aparıcı beynəlxalq şirkətləri ilə Azərbaycanda sıx əməkdaşlıq edəcəyi faktını məmnunluqla qeyd edir. İqtisadi əlaqələr Azərbaycan və Yaponiyanı daha sıx birləşdirəcəkdir.

Bu layihəni bütünlüklə dəstəklədiyimizə və onun rəvan və səmərəli şəkildə həyata keçiriləcəyinə dair öz fikrimi və Yaponiya hökumətinin fikrini bildirmək istərdim. Mən həm də ümidvar olmaq istəyirəm ki, Yaponiya şirkətləri yalnız neft sənayesi sahəsinin deyil, Azərbaycan iqtisadiyyatının başqa sahələrinin də inkişafı üçün layihələrin işlənib hazırlanmasına daha çox cəlb ediləcəkdir. Müqavilənin uğurla həyata keçiriləcəyinə, səmərəli əməkdaşlığa və Azərbaycanda münasibətlərimizin inkişafına ümid edirəm. Çox sağ olun.

Sonra Türkiyənin enerji və təbii ehtiyatlar naziri Cümhur Ərsümər çıxış etdi.

**Türkiyənin enerji və təbii ehtiyatlar naziri Cümhur Ərsümərin çıxışı**

- Hörmətli Cümhurbaşqanım!

Hörmətli nazirlər, xanımlar və cənablar!

Sizləri öncə sevgi ilə salamlayıram. Bu gün səhər tezdən birlikdə həqiqətən tarixi hadisələrin şahidiyik. Səhər açılmış sərgi və konfransda iştirakçıların sayını görəndə və firmaları təkrar-təkrar araşdırdıqda doğrudan da nə qədər böyük bir hadisənin iştirakçısı olduğumuzu bir daha başa düşdük. Ümidvaram ki, qarşıdakı ildə və sonrakı illərdə davam edəcək bu sərgi və konfrans daha da genişlənəcəkdir.

Başqa bir tarixi hadisə isə bu gün müqavilələrin imzalanmasıdır. Daha öncə imzalanmış müqavilələr, istifadəyə verilmiş quyular Azərbaycanın neft ehtiyatlarının nə səviyyədə olmasına, onun həqiqətən qədim bir neft diyarı olmasına ən gözəl nümunədir.

Biz də "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkəti vasitəsilə "Kürdaşı" sahəsində birlikdə çalışacağımızdan həqiqətən böyük məmnunluq duyuruq. Bu gün imzalanmış və gələcəkdə də imzalanacaq müqavilələrin əhatə etdiyi yataqların bərəkətli olmasını arzulayıram. Türkiyənin bundan sonrakı sahələrdə də yenə müqavilə imzalamaq arzusunda olduğunu təkrarən dilə gətirirəm. Bir daha "Müqavilələr xeyirli olsun" deyir, Azərbaycana dost və qardaş ölkə kimi Türkiyənin bu gün də və gələcəkdə də daim Azərbaycanın yanında olduğunu bildirirəm. Sağ olun.

Daha sonra Kanadanın Türkiyədəki və Azərbaycandakı səfirliyinin nümayəndəsi Cim Radneyə söz verildi.

**Kanadanın Türkiyədəki və Azərbaycandakı səfirliyinin nümayəndəsi Cim Radneyin çıxışı**

- Zati-aliləri möhtərəm Prezident Əliyev!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bugünkü əlamətdar mərasimdə mənə Kanada hökuməti və səfirlik adından Sizə və hörmətli qonaqlara bir neçə kəlmə demək şərəfi nəsib olubdur.

Azərbaycan və Kanada arasında əməkdaşlıq son illərdə özünün ən yüksək səviyyəsinə çatmışdır və bunun üçün belə imkanlar tez-tez baş verir. Azərbaycan dövləti və bizim səfirlik arasında olan müzakirələr, xüsusilə bu ilin yanvarında səfir Maykl Meysin Bakıya səfəri zamanı öz etimadnaməsini təqdim edərkən azərbaycanlı həmkarları tərəfindən ona göstərilən hörmət və qayğı bir daha sübut edir ki, ölkələrimizin əlaqələri böyük əhəmiyyətə malikdir.

Kanadanın Azərbaycanla iqtisadi əlaqələri inkişaf etməkdədir və gələcəkdə bunun potensialı daha çox olacaqdır. Bu gün Azərbaycan Dövlət Neft Şirkəti ilə Kanadanın "Komonvels Oyl ənd Qaz" şirkəti arasında pay bölgüsü haqqında imzalanmış müqavilə ölkəmizin şirkətlərinin Azərbaycanın neft və qaz sənayesi sahəsinə cəlb edilməsi yolunda atılmış böyük addımdır.

Bugünkü imzalanma mərasimi Azərbaycanın böyük, işıqlı gələcəyində öz imkanlarından daha səmərəli istifadə etməsi üçün Kanadanın iri neft və qaz şirkətlərinin buraya gəlməsinə müsbət bir siqnal hesab oluna bilər. Təbii ki, belə bir əməkdaşlığın daha da genişlənməsi üçün biz əlbir işləməliyik. Təsadüfi deyildir ki, Kanadanın bir neçə digər şirkəti də Azərbaycanda fəaliyyət göstərir. Məsələn, ABƏŞ ilə "Helikopter Servis" şirkəti arasında müqavilə bağlanıb və dəniz mədənlərinə vertolyotlarla xüsusi çarter reysləri yerinə yetirilir. "Stonbaey" şirkəti Bakının ətraf yerlərində yaşayış komplekslərinin tikilməsində fəaliyyət göstərir. "Romez Qaz" şirkəti isə "Azəriqaz" ilə əməkdaşlıq edir, qaz sayğaclarının satışı barədə müqavilə bağlanıb və sizin nümayəndə heyəti bu yaxınlarda Kanadada olmuşdur. "Kaneydian Bank Neut" şirkəti Azərbaycan Ticarət Nazirliyi ilə iki böyük müqavilə imzalamışdır. Bunlara əsasən Azərbaycan üçün 2 milyon ədəd milli pasport hazırlanacaqdır. Cənab Prezident, 00001 nömrəli ilk pasport bu yaxınlarda şəxsən Sizin adınıza göndərilmişdir.

Kanada bu əlaqələrlə kifayətlənmək istəmir, Azərbaycan iqtisadiyyatının bir çox sahələri ilə əməkdaşlığı genişləndirmək istəyir. Kanada hökuməti bu baxımdan Azərbaycana investisiyanın artımı ilə bağlı bir fond yaratmaq istəyir. Bu baxımdan Kanada hökuməti xarici investisiyanın qorunmasına dair öz layihəsini Azərbaycan Xarici İşlər Nazirliyinə təqdim etmişdir və indi biz onların fikrini gözləyirik. Bundan əlavə, Kanada hökuməti ikiqat vergiqoyma və iqtisadi əməkdaşlıq üzrə digər müqavilələr üzərində işləyir. Bütün bunlar öz həllini tapandan sonra Kanadadan Azərbaycana investisiya axını əhəmiyyətli dərəcədə artacaqdır.

Bu gün Azərbaycan Dövlət Neft Şirkəti ilə "Komonvels Oyl ənd Qaz" şirkəti arasında imzalanmış müqavilə Kanada ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın əhəmiyyətini bir daha göstərir. Mərasimin bütün iştirakçılarını, o cümlədən Azərbaycan Dövlət Neft Şirkətini, "Komonvels Oyl ənd Qaz" və "Yunion Teksas" şirkətlərini bu əlamətdar hadisə münasibətilə Kanada hökuməti və səfirliyimiz adından səmimi qəlbdən təbrik edirəm.

Mənə elə gəlir ki, bugünkü imzalanma mərasimi gələcəkdə Kanadadan Azərbaycana investisiya axını üçün zəmin yaradır. Cənab Prezident, icazə verin, Azərbaycan-Kanada əməkdaşlığının rəmzi olaraq iki ölkənin bayraqları həkk edilmiş döş nişanını Sizə təqdim edim.

Sonra İtaliyanın "Acip" şirkətinin prezidenti Qulyelmo Moskatoya söz verildi.



**"Acip" şirkətinin prezidenti Qulyelmo Moskatonun çıxışı**

- Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Bizim nazir cənab Bersani "Kürdaşı" yatağının işlənməsinə dair müqavilənin imzalanmasına görə artıq öz məmnunluğunu və təşəkkürünü bildirdi. Bu müqavilənin imzalanmasına görə mən də şəxsən öz adımdan və həmkarlarım adından təşəkkürümü və xoş arzularımı bildirmək istərdim.

Bizim üçün çox həyəcanlı bir məqamdır ki, bu müqavilədə iştirak payımız 25 faiz təşkil edir. Biz bu müqavilənin uğurla həyata keçməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Biz və bir geoloq kimi şəxsən mən, geoloqlarımız, mühəndislərimiz və bütün texniki heyət bu yataqların böyük potensiallı olduğuna inanırıq. Mən bu sahədə 15-16 ildən çoxdur çalışıram. "Acip"in adından deyim ki, biz bu müqavilənin uğurla həyata keçirilməsinə öz töhfəmizi verə bilərək. Biz tamamilə əminik ki, bütün Xəzər bölgəsi çox perspektivli və çox ümidverici bölgədir. Buna görə də biz bütün Xəzər bölgəsində, o cümlədən burada, Azərbaycanda axtarış-kəşfiyyat işlərinin müvəffəqiyyətlə aparılması üçün mümkün olan hər şeyi edəcəyik.

Biz bu bölgədən neftin dünya bazarlarına nəql olunması kimi çox mühüm işdə də iştirak edirik. Beləliklə, bir daha vurğulamaq istəyirəm ki, biz bu diyarın daha da inkişaf edib çiçəklənməsi üçün müasir texnologiyaların buraya gətirilməsindən ötrü mümkün olan bütün işləri görəcəyik.

Cənab Prezident, sağ olun. Hamınız sağ olun.

Yaponiyanın "Mitsui" şirkətinin prezidenti Takenosuke Yamasaki çıxış üçün söz aldı.

**"Mitsui" şirkətinin prezidenti Takenosuke Yamasakinin çıxışı**

- Zati-aliləri cənab Prezident Heydər Əliyev!

Baş nazir cənab Artur Rasizadə!

Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti cənab Natiq Əliyev!

Digər hökumət nümayəndələri, xanımlar və cənablar!

"Mitsui" şirkəti və "Mitsui Oyl Eksploreyşn" şirkəti adından burada iştirak etmək çox böyük şərəfdir. Bizə "Kürdaşı" layihəsində iştirak etmək imkanı verildiyi üçün dərin minnətdarlığımızı bildiririk. Cəmi üç ay öncə Zati-alilərinizin və Yaponiya Baş nazirinin şahidliyi ilə biz bu layihədə iştiraka dair Azərbaycan Dövlət Neft Şirkəti ilə memorandum və ya sazişin əsas prinsiplərini imzaladıq.

Zati-aliləri, çox rəmzi haldır ki, Siz "Xəzərneftqaz-98" sərgisi və konfransı açılan günü imzalanma tarixi seçmisiniz. Bildirmək istəyirəm ki, Zati-alilərinizin və Azərbaycan hökumətinin dəstəyi olmasaydı, bugünkü gün mümkün olmazdı.

Biz habelə müqavilənin bütün iştirakçılarının işinin əlaqələndirilməsində aparıcı roluna görə "Acip" şirkətinə minnətdarlığımızı bildiririk. Biz - "Mitsui" və "Mitsui Oyl Eksploreyşn" şirkətləri layihənin uğurla həyata keçirilməsində əməyimizi əsirgəməyəcəyik. Ümid edək ki, bu, Azərbaycanın iqtisadi və sosial inkişafına "Mitsui" qrupunun verdiyi faydalardan birincisidir. Sağ olun.

Sonra "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətinin prezidenti Sidqi Səncər çıxış etdi.

**"Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətinin prezidenti Sidqi Səncərin çıxışı**

- Zati-aliləri!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

"Türkiyə Petrolları Anonim Ortaqlığı" tam dövlət şirkətidir və 1985-ci ildən fəaliyyət göstərir. Nəzərə alsaq ki, Türkiyənin neft və qaz ehtiyatları məhduddur, bizim şirkətimiz dünya ölkələrindən enerji daşıyıcılarını cəlb etməklə məşğuldur. Bu məqsədlə 1992-ci ildən beynəlxalq fəaliyyətimizə başlamışıq. Azərbaycan birinci ölkədir ki, Türkiyənin dövlət neft şirkəti layihədə iştirak edir. Bu gün imzaladığımız müqavilə Azərbaycanda iştirakçısı olduğumuz üçüncü müqavilədir. Bu müqavilələrdəki hissələrimizi nəzərə alsaq, çox fəal işləməyə çalışacağıq ki, bütün tərəflər üçün faydalı olsun.

Təbii ki, biz gələcək müqavilələrdə də iştirak etmək niyyətindəyik. Hörmətli cənab Prezident Heydər Əliyevə minnətdarlığımızı bildirmək istəyirik. Müqavilədə iştirak edən tərəfdaşlarımıza uğurlar arzulayırıq. Sağ olun.

Sonra Amerikanın "Frontera Resorses" şirkətinin prezidenti Stiv Nikandrosa söz verildi.

**"Frontera Resorses" şirkətinin prezidenti Stiv Nikandrosun çıxışı**

- Cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Korporasiyamızın sədri adından, şirkətimizin bütün əməkdaşları və bütün səhmdarlar adından Azərbaycanın quru hissəsindəki köhnə yataqların bərpasına, dirçəldilməsinə görə dərin minnətdarlığımı bildirmək istərdim.

Bir neçə il bundan əvvəl mənim kompanyonlarım Azərbaycanın quru hissəsinin tədqiqinə başladılar. Cənab Prezident, Sizin müdrik rəhbərliyiniz altında, Azərbaycan Dövlət Neft Şirkəti əməkdaşlarının köməyi ilə biz bu köhnə yataqların bərpasına, dirçəldilməsinə öz töhfəmizi vermək istəyirik.




Qurudakı neft yataqları həqiqətən çox böyük neft və qaz potensialına malikdir. Bundan başqa Azərbaycanda işçi qüvvəsi kimi amillər və yeni ehtiyatların kəşfi üçün imkanlar var. Buna görə də bu köhnə yataqların həyata qaytarılmasında "Yunion Teksas", "Komonvels", "Delta", "Amerada Hess" kimi şirkətlərlə və əlbəttə, ARDNŞ ilə birlikdə iştirak etmək bizim üçün böyük şərəf və iftixardır.

Bu gün doğru qeyd etdiniz ki, bir neçə il əvvəl Azərbaycanda ilk müqavilə imzalandı və siz onu "Əsrin müqaviləsi" adlandırırsınız. İndi keçmişə nəzər saldıqda düşünürsən ki, görünür, qurudakı neft və qaz yataqlarının işlənilməsinə dair də bu cür müqavilələr imzalanması vaxtı gəlib çatmışdır. Biz bu müqavilənin həyata keçirilməsini, yataqlarm işlənilməsində uğurları və yeni nailiyyətləri səbirsizliklə gözləyirik. Biz şadıq ki, ümumi bir ailənin üzvüyük. Sağ olun.

Sonra Səudiyyə Ərəbistanının "Delta Oyl" şirkətinin prezidenti Bədr əl-Əyban çıxış etdi.

**"Delta Oyl" şirkətinin prezidenti Bədr əl-Əybanın çıxışı**

- Zati-aliləri Prezident Heydər Əliyev!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

90-cı illərin əvvəllərində "Delta" Azərbaycana sərmayə qoyulması haqqında strateji cəhətdən mühüm bir qərara ilk dəfə olaraq gəldikdə, Səudiyyə Ərəbistanının şirkəti kimi əsas marağımız qardaş müsəlman ölkəsinin neft sektorunun inkişafında iştirak etməkdən ibarət idi.

1994-cü ilin sentyabrında "Delta Oyl" həmçinin Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin bünövrəsini qoydu. Beynəlxalq mətbuat bu ilk müqaviləsini "Əsrin müqaviləsi" adlandırdı. 1994-cü ildə ilk neft müqaviləsinin imzalandığı vaxtdan bəri daha səkkiz mühüm neft müqaviləsi bağlandı. Bu müqavilələr arasında "Əşrəfi" və "Dan ulduzu" yataqlarına dair sazişi qeyd etmək olar. Həmin saziş 1996-cı il dekabrın 14-də imzalandı və bunun da bünövrəsini "Delta" şirkəti qoydu.

Bu gün bu müqavilələrin həyata keçirilməsi açıq-aydın sübut edir ki, Azərbaycan Prezident Heydər Əliyevin rəhbərliyi altında istər daxili, istərsə də beynəlxalq qanunlara hörmət edən ölkədir. İnkişafına Prezident Heydər Əliyevin çox böyük töhfə verdiyi bu imic beynəlxalq sərmayədarların Azərbaycana, onun iqtisadiyyatının bütün sahələrinə marağını artırmışdır.

Beləliklə, bu imic və Azərbaycanda yaranmış bütün şərait beynəlxalq sərmayədarları yeni iqtisadiyyat sahələrini yaratmağa, ərzaq məhsulları istehsalını, kənd təsərrüfatı sahəsini və bir çox digər sahələri sərmayələşdirməyə həvəsləndirir. Bütün bunlar əlavə iş yerləri və Azərbaycan əhalisi üçün böyük imkanlar yaradır.

Əsrin əvvəlində türk xalqını siyasi və iqtisadi

müstəmləkəçilikdən xilas etmiş Mustafa Kamal Atatürk kimi, Prezident Heydər Əliyev də Azərbaycan xalqını daha böyük iqtisadi və siyasi tərəqqiyə aparır. Buna görə də tarix Prezident Heydər Əliyevin adını XXI əsrin əvvəlində güclü və tərəqqi edən Azərbaycanın təməlini qoymuş adam kimi yaddaşında saxlamalıdır.

Qeyd etməliyəm ki, altı il bundan əvvəl olduğum Bakını çətinliklə tanıyıram. Bakı bu gün istənilən məhsulu tapmaq mümkün olan minlərlə irili-xırdalı mağazalarla dolu iqtisadi möcüzədir. Bu mağazalar və yollarda avtomobillərin aramsız hərəkəti Azərbaycan iqtisadiyyatının inkişaf etməkdə olduğunu açıq-aydın göstərir.

Heç kəsə sirr deyildir ki, xarici şirkətlər Azərbaycan sənayesinin hansısa sahəsini sərmayələşdirməyi qərara aldıqda, bunu Azərbaycan xalqına minnət və ya hədiyyə kimi etmirlər. Çünki dünyada onların sərmayələşdirə biləcəyi başqa ölkələr çoxdur. Aydındır ki, onlar Azərbaycana ona görə sərmayə qoyurlar ki, burada dünyanın hər hansı digər nöqtəsindən daha çox gəlir götürəcəklərinə inanırlar. Bu inamın səbəbi təkcə Azərbaycanın bütün dünya tərəfindən iqtisadi və siyasi cəhətdən sabit ölkə kimi tanınmasında deyildir. Öz iş bacarığını, əməksevərliyini və yüksək təhsil səviyyəsini sübut etmiş Azərbaycan xalqının mentaliteti də nəzərə alınır.

Azərbaycana sərmayə qoyuluşunun bütün bu üstünlüklərini nəzərə alan xarici şirkətlər onun layihələrinin sərmayələşdirilməsinə öz töhfələrini verəcəklər. Hər iki tərəf - həm xarici şirkətlər, həm də Azərbaycan bundan fayda götürəcəkdir. "Delta Oyl" "Amerada Hess" şirkəti ilə birgə Azərbaycana sərmayə qoyulmasını davam etdirmək imkanını səbirsizliklə gözləyir və gələcəkdə həm Azərbaycan xalqı, həm də bizim sərmayədarlar üçün məqbul olan çoxlu sazişlərin bağlanacağına ümid edir.

Zati-aliləri, Sizi təbrik etmək və Azərbaycan Dövlət Neft Şirkətinin rəhbər kadrlarının seçilməsindəki müdrikliyinizə görə minnətdarlığımı bildirmək istərdim. Bu gün ARDNŞ-yə başçılıq edən adamlar məhsulun bölgüsü haqqında saziş imzalanarkən Azərbaycan üçün ən yaxşı şərtləri təsbit etməklə Azərbaycan dövlətinə, onun xalqına sədaqətlərini sübut etdilər.

Cənab Prezident, Sizi, müqavilələri imzalamış bütün tərəfləri təbrik edirəm. Hamınıza uğurlar arzulayıram. Sağ olun.

Sonra söz Amerikanın "Amerada Hess" şirkətinin prezidenti Sem Leydlouya verildi.

**"Amerada Hess" şirkətinin prezidenti Sem Leydlounun çıxışı**

- Zati-aliləri Prezident Heydər Əliyev!

Nazirlər, xanımlar və cənablar!

Mənim üçün belə mühüm müqaviləni "Amerada Hess" korporasiyası adından imzalamaq üçün burada iştirak etmək böyük şərəfdir. Bundan əlavə, yenidən Bakıda olmağımdan çox məmnunam. Azərbaycanın rəhbərliyini və 5-ci beynəlxalq neft sərgisinin bütün təşkilatçılarını onun uğurla keçirilməsi münasibətilə təbrik etmək istərdim.

Bu gün mənim "Amerada Hess" şirkətim üçün də çox əhəmiyyətlidir. "Amerada Hess" artıq 80 ildən çoxdur ki, əsasən Şimali Amerikada, son zamanlardan isə Şimal dənizində neft sektorunun inkişafı ilə məşğuldur. Biz yalnız bu yaxınlarda Azərbaycanda geoloji imkanları öyrənməyə başlamışıq və investisiya mərhələsinə nisbətən gec qədəm qoymuşuq. Zənnimcə, bu gün sübut edir ki, biz çox da gecikməmişik.

Azərbaycan bizim üçün təkcə geoloji potensial baxımından böyük maraq doğurmur. Əsas cəlbedici amil Azərbaycandakı sabitlik və yerli kadrların yüksək təhsil səviyyəsidir.

"Amerada Hess" orta həcmli şirkət olmaqla, bir çox ölkələrlə möhkəm, dostcasına və işgüzar əlaqələr yaratmağa çox böyük maraq göstərir. Ümidvaram ki, bu gün Azərbaycanla belə münasibətlərin yaranmasının başlanğıcıdır.

Quruda yataqların işlənilməsində iştirak etmək sahəsində bizə üstünlük verilmişdir. Zənnimcə, şirkətimiz bu işə öz töhfəsini verəcəkdir. Biz əməliyyat və texniki imkanlarımızın Azərbaycana cəlb edilməsini, yataqların müəyyənləşdirilməsi, ətraf mühitin qorunması və bir çox digər sahələrdə beynəlxalq standartlar səviyyəsində iş görməyi səbirsizliklə gözləyirik.

Bu layihə "Delta Oyl" alyansında bizim ilk və ən iri layihəmizdir və "Amerada Hess" onunla birlikdə böyük maliyyə ehtiyatları cəlb etməyə, layihənin yaxşı texniki və əməliyyat bazasını yaratmağa ümid edir.

Burada olmaq imkanından çox məmnun olduğumu bir daha təsdiq etmək istərdim. Təsdiq etmək istərdim ki, biz Azərbaycanın iqtisadiyyatının tərəqqisinə öz töhfəmizi verəcəyik. Ümid edirik ki, bu mümkün olan bir çox müqavilə və sazişlərdən birincisidir. Bizə belə imkanı verdiyinizə görə Sizə təşəkkür edirik. Çox sağ olun.

Daha sonra ABŞ-ın "Yunion Teksas" şirkətinin prezidenti Riçard Makduqall çıxış etdi.

**"Yunion Teksas" şirkətinin prezidenti Riçard Makduqallın çıxışı**

- Zati-aliləri Prezident Heydər Əliyev!

"Yunion Teksas" şirkəti şəxsən Sizə və xalqınıza minnətdarlığını bildirmək istəyir ki, Azərbaycanın quruda yerləşən neft yatağında iş görmək üçün bizə belə bir imkan yaratmısınız.

Mən həm də Azərbaycan Dövlət Neft Şirkətinə və onun rəhbərliyinə minnətdarlıq edirəm ki, onlar bu müqavilə layihəsinin bugünkü səviyyəyə gəlib çatması işində bizə böyük dəstək veriblər və kömək göstəriblər.

Məhsulun pay bölgüsü üzrə müqavilələr böyük əhəmiyyət daşıyır. Bu gün imzaladığımız müqavilə qurudakı yatağın birgə işlənilməsi barədə ilk müqavilələrdən biridir. Onun əhəmiyyətli cəhəti həm də ondan ibarətdir ki, bu müqavilə "Yunion Teksas" kimi şirkətlərdə qurudakı yataqlarm birgə işlənilməsi layihələrinin perspektivlərinə inamı daha da artırır. Mən inanıram ki, bu müqavilə xarici sərmayədarların Azərbaycana cəlb edilməsində və onlarda bu işə daha böyük inam yaradılmasında xüsusi əhəmiyyət daşıyacaqdır.

Yəqin bu fakt Sizin üçün maraqlıdır ki, biz "Qərbi Abşeron" blokunda iki quyu qazmaqla məşğuluq. Bu da çox əhəmiyyətli faktdır ki, oradakı qazma qurğusunda işləyən mütəxəssislərin hamısı azərbaycanlılardır. Biz yerli mütəxəssislərə ona görə üstünlük vermişik ki, Azərbaycanın neft və qaz sənayesinin gələcək inkişafı məhz yerli kadrlardan asılı olacaqdır. Həmin quyuların qazılmasında istifadə etdiyimiz qurğularda müəyyən dəyişikliklər aparmışıq.

Biz "Qərbi Abşeron" blokundakı yenilikləri "Cənub-Qərbi Qobustan" yatağında da tətbiq edəcəyik. "Yunion Teksas" şirkəti azərbaycanlı neft mütəxəssislərinin zəngin təcrübəsinə böyük ümid bəsləyir.

Çox sağ olun. Çıxış üçün mənə imkan yaratdığınıza görə təşəkkür edirəm.

Böyük Britaniyanın və Kanadanın "Komonvels Oyl ənd Qaz" şirkətinin prezidenti Nikolas Bakstera söz verildi.

**"Komonvels Oyl ənd Qaz" şirkətinin prezidenti Nikolas Baksterin çıxışı**

- Zati-aliləri cənab Prezident!

Xanımlar və cənablar!

Bugünkü imzalanma mərasimində iştirak etməyi özüm üçün böyük şərəf hesab edirəm.

Cənab Prezident, bizə - "Komonvels Oyl ənd Qaz" şirkətinə Azərbaycanın neft sənayesinin inkişafında yaxından iştirak etmək üçün yaratdığınız imkana görə Sizə dərindən təşəkkür edirəm. Biz əminik ki, gələcəkdə Azərbaycan Xəzər hövzəsində öz liderliyini daha da möhkəmləndirəcəkdir. Cənab Prezident, Sizin böyük rəhbərliyiniz və uzaqgörənliyiniz buna tam zəmanət verir.

Bu müqavilə layihəsinin hazırlanmasında bizə göstərilən köməyə görə minnətdarlığımı bildirirəm. Mən bizim tərəfdaşımız "Yunion Teksas" şirkətinə də təşəkkür edirəm.

İcazə verin, Azərbaycanın, Kanadanın və Böyük Britaniyanın dövlət və hökumət rəhbərlərinə, nümayəndələrinə bu müqavilədə bizə verdikləri dəstəyə görə öz təşəkkürümü bildirim.

"Komonvels Oyl ənd Qaz" Böyük Britaniyanın və Kanadanın şirkətidir. Mən çox şadam ki, "Komonvels Oyl ənd Qaz" Böyük Britaniyanın Azərbaycanda fəaliyyət göstərən şirkətlərinin cərgəsinə qoşulmuşdur. Bizim şirkətimiz Kanadanın maraqlarını burada əks etdirən ilk neft şirkətidir.

Mənə elə gəlir ki, bu müqavilənin imzalanması bir məhək daşıdır. Ona görə ki, bu, Azərbaycanın qurudakı yataqlarının birgə işlənilməsi barədə imzalanmış ilk müqavilədir. Bu müqavilənin şərtləri Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi üzrə imzalanmış müqavilələrin şərtləri ilə eynidir.

"Cənub-Qərbi Qobustan" yatağının birgə işlənilməsi barədə müqavilənin iqtisadi göstəriciləri həm Azərbaycan, həm Kanada, həm Böyük Britaniya, həm də "Yunion Teksas" şirkəti üçün böyük əhəmiyyət daşıyır. Qurudakı yataq üzrə bağlanan bu müqavilə xarici ölkələrin böyüklüyündən-kiçikliyindən asılı olmadan bir çox şirkətlərinin məhz bu sahəyə cəlb edilməsinə böyük kömək göstərəcəkdir.

Hörmətli cənab Prezident, icazə verin, bizə Azərbaycanda işləmək üçün belə imkan yaratdığımıza görə "Komonvels Oyl ənd Qaz" şirkəti adından Sizə bir daha dərin minnətdarlığımı bildirim. Çox sağ olun.

Azərbaycan Prezidenti Heydər Əliyev mərasimdə yekun sözü söylədi.

**Azərbaycan Prezidenti Heydər Əliyevin yekun sözü**

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Əziz həmvətənlər!

Bugünkü tarixi, əlamətdar hadisələr münasibətilə sizi ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqını, vətəndaşlarını təbrik edirəm.

Azərbaycana gəlmiş və bugünkü mərasimlərdə iştirak etmiş, müqavilələri imzalamış qonaqlarımızın hamısına təşəkkür edirəm. Sizin hamınıza cansağlığı, əmin-amanlıq, sülh və səadət arzulayıram.

Gələn müqavilələrə, görüşlərə qədər. Sağ olun.

Prezident Heydər Əliyevin yekun sözü gurultulu, sürəkli alqışlarla qarşılandı.

Müqavilələrin imzalanması mərasimində xarici neft şirkətlərinin nümayəndələri, xarici ölkələrin Azərbaycandakı səfirləri və digər rəsmi şəxslər iştirak edirdilər.

## LONDON, 21 İYUL 1998-Cİ İL



# "Araz", "Alov", "Şərq", "İnam", "Muradxanlı", "Cəfərli" və "Zərdab" strukturlarının birgə işlənməsi haqqında sazişlərin imzalanması

1998-ci il iyulun 21-də Londonda Xəzər dənizinin Azərbaycan sektorundakı "Araz", "Alov" və "Şərq" strukturlarının, "İnam" strukturunun, quruda yerləşən "Muradxanlı" və "Cəfərli" neft yataqlarının, "Zərdab" strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişlərin imzalanması mərasimi oldu.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Böyük Britaniyanın Baş naziri Toni Bleyer mərasimdə iştirak edirdilər.

Xəzər dənizinin Azərbaycan sektorunda "Araz", "Alov" və "Şərq" perspektivli strukturlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişi Böyük Britaniyanın "bp" şirkətinin prezidenti Con Braun, Norveçin "Statoyl" şirkətinin prezidenti Harl Norvinq və ARDNŞ-nin prezidenti Natiq Əliyev imzaladılar.

"İnam" perspektivli strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişi ABŞ-ın "Amoko" şirkətinin prezidenti Çarlz Pitman, Böyük Britaniyanın "Monument Oyl ənd Qaz" şirkətinin icraçı direktoru Tim Eqqar, Rusiyanın Mərkəzi Yanacaq Şirkətinin Direktorlar Şurasının sədri Yuri Şafranik və ARDNŞ-nin prezidenti Natiq Əliyev imzaladılar.

Quruda yerləşən "Muradxanlı" və "Cəfərli" neft yataqlarının, "Zərdab" perspektivli strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişi Böyük Britaniyanın "Remko" şirkətinin prezidenti Stiv Remp və ARDNŞ-nin prezidenti Natiq Əliyev imzaladılar.

Sənədlər imzalandıqdan sonra Böyük Britaniyanın Baş naziri Toni Bleyer və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mərasimdə nitq söylədilər.

### Böyük Britaniyanın Baş naziri Toni Bleyerin nitqi

- İcazə verin, bir neçə kəlmə söz deyim.

Prezident Əliyevi burada salamlamaq bizim üçün böyük şərəf və başucalığıdır. Bu, ölkələrimiz arasındakı əlaqələrdə dönüş yaranmasını və onların dərinləşməsini göstərir.

Cənab Prezident, bu, Azərbaycan və xalqınız üçün o deməkdir ki, burada, Birləşmiş Krallıqda sizin yaxşı dostlarınız var. Əlaqələrimiz bu gün də, sabah da möhkəmlənəcəkdir. Kommersiyanın özlüyündə çox vacib sahə olmasına baxmayaraq, yalnız bu sahədə deyil, siyasi sahədə də əlaqələr möhkəmlənəcəkdir.

Biz inanırıq ki, Azərbaycan müasir dünyada həlledici siyasi və iqtisadi rol oynayır. Həmin rolu inkişaf etdirməkdən ötrü biz sizinlə birlikdə işləmək istəyirik. Bu gün çox vacib olan kommersiya sazişləri ilə yanaşı, siyasi bəyannaməni imzalamağımız faktı gələcək əməkdaşlığımızın möhkəm əsasını təşkil edir.

İcazə verin, ölkənizdə əldə olunmuş tərəqqi, bunun naminə gördüyünüz iş münasibətilə Sizi şəxsən təbrik edim. Şəxsən mənim üçün böyük şərəfdir ki, Sizi burada salamlayıram. Qoy bugünkü gün ölkələrimiz arasında dərin dostluğun, gələcəkdə birgə görəcəyimiz işlərin başlanması rəmzi olsun.

Cənab Prezident, çox sağ olun.

### Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi

- Hörmətli Baş nazir!

Sizə, birinci növbədə, məni Böyük Britaniyaya rəsmi səfərə dəvət etdiyinizə görə minnətdarlığımı bildirirəm. Ölkənizdə apardığım və bu gün Sizinlə apardığımız çoxsahəli, ətraflı və dərin məzmunlu danışıqlar ölkələrimiz arasındakı əlaqələrin inkişaf etməsi üçün çox yaxşı əsas yaratdı.

Biz Birləşmiş Krallıqla Azərbaycan arasında bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsi istiqamətində son dörd ildə yaxşı nailiyyətlər əldə etmişik. Bütün bunlar ölkələrimizin əməkdaşlığı üçün böyük perspektivlər açır.





Cənab Baş nazir, biz Sizinlə birlikdə gələcəyin əsasını qoyuruq. Bizim indicə imzaladığımız siyasi bəyannamə çox böyük əhəmiyyət daşıyır və mən bunu yüksək qiymətləndirirəm. Dünyanın ən böyük dövlətlərindən biri olan Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə Azərbaycan arasında belə əlaqələrin yaranması və belə bir siyasi bəyannamənin imzalanması Azərbaycan üçün çox böyük siyasi əhəmiyyət kəsb edir.

Bu gün Sizin və mənim iştirakımızla imzalanmış iqtisadi sazişlər, sənədlər Azərbaycan ilə Birləşmiş Krallığın əlaqələrinin gələcək inkişafı üçün çox yaxşı əsas yaradır. Eyni zamanda, bunlar hamısı yeni müstəqillik əldə etmiş, demokratiya, tərəqqi, bazar iqtisadiyyatı yolu ilə gedən Azərbaycan üçün çox əhəmiyyətlidir.

Sizin ölkənizin, xalqınızın böyük tarixi nailiyyətləri vardır. XX əsrin ikinci yarısında, İkinci Dünya müharibəsi başa çatdıqdan sonra sizin ölkəniz bütün sahələrdə böyük tərəqqi əldə etmişdir. Biz sizin bütün sahələrdəki təcrübənizdən istifadə edirik. Biz Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi apararaq, bazar iqtisadiyyatını yaradıb inkişaf etdirərək sizin təcrübənizdən istifadə etməyə çalışırıq.

Xəzərin Azərbaycan sektorundakı zəngin yataqların və ümumiyyətlə Azərbaycanın ərazisində olan neft yataqlarının Birləşmiş Krallığın böyük neft şirkətləri ilə birgə işlənilməsi bizim üçün çox əhəmiyyətlidir. Birləşmiş Krallığın yüksək texnikaya, texnologiyaya, zəngin təcrübəyə malik şirkətləri və Azərbaycanın təbii sərvətləri, bizim yüksək səviyyəli kadrlarımız bu işləri gələcəkdə birlikdə görəcəklər.

Mən bəyan edirəm ki, bu gün imzaladığımız siyasi bəyannamədə - Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya arasında dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannamədə əks olunmuş bütün müddəaların hamısının həyata keçirilməsinə çalışacaq, Birləşmiş Krallıq-Azərbaycan dostluğunu, əməkdaşlığını daim irəliyə doğru aparacağıq.

Mən Sizi təbrik edirəm, Azərbaycan haqqında və mənim haqqımda söylədiyiniz xoş sözlərə görə Sizə minnətdarlığımı bildirirəm. Sağ olun.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Toni Bleyerin və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqləri böyük diqqətlə dinlənildi və alqışlarla qarşılandı.

## BAKI, 25 DEKABR 1998-Cİ İL




# "Yanan tava", "Atəşgah" və "Muğan-dəniz" strukturlarının birgə işlənməsi haqqında sazişin imzalanması

1998-ci il dekabrın 25-də Bakıda, "Gülüstan" sarayında Xəzərin Azərbaycan sektorundakı "Yanan tava", "Atəşgah" və "Muğan-dəniz" strukturlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Yaponiyanın "Capan Petroleum", "İndoneziya Petroleum", "İtoçu Oyl Eksploreyşn" və "Teykoku Oyl" neft şirkətləri arasında sazişin imzalanması mərasimi oldu.

Mərasim iştirakçıları Azərbaycan Prezidenti Heydər Əliyevi hərarətli alqışlarla qarşıladılar.

Dövlət başçısı Heydər Əliyev mərasimdə nitq söylədi.

**Azərbaycan Prezidenti**
**Heydər Əliyevin nitqi**

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Biz bu gün Azərbaycanda, Bakıda yeni bir neft müqaviləsinin imzalanması mərasiminə toplaşmışıq. Bugünkü mərasim, imzalanacaq müqavilə Azərbaycan dövlətinin, Prezidentinin neft siyasətinin həyata keçirilməsində növbəti bir addımdır.

Məlumdur ki, Azərbaycan dövləti 1994-cü ildən başlayaraq özünün neft siyasətini həyata keçirir. Bu siyasətin əsas məzmunu və prinsipləri Azərbaycanın zəngin neft və qaz yataqlarının intensiv işlənilməsindən ibarətdir. Müstəqil Azərbaycan dövləti bunun üçün, xarici sərmayənin cəlb olunması üçün dünyanın böyük neft şirkətləri ilə müştərək iş görməyi ən münasib yol kimi seçmişdir.

Qeyd etdiyim kimi, biz beləliklə bir tərəfdən Azərbaycanın neft və qaz yataqlarının istifadə olunması üçün xarici investisiyanı cəlb edirik və bununla bərabər, dünyanın böyük neft şirkətləri ilə müştərək iş görərək onların təcrübəsindən və onlarda olan müasir texnikadan, texnologiyadan istifadə edilməsini nəzərdə tuturuq.

Biz neft siyasətini planlaşdıraraq, həyata keçirməyə başlayaraq bilirdik və bildiyimizə görə də bunu etmişik ki, o, Azərbaycanın bu günü və gələcəyi üçün çox faydalıdır. Ötən dörd il ərzində görülən işlər və əldə edilən nəticələr bizim neft siyasətimizin Azərbaycan xalqının milli mənafeləri üçün nə qədər faydalı olduğunu indi əyani sübut edir.

Ötən dörd il ərzində 15 müqavilə imzalanıbdır. Bu 15 müqavilədə 14 ölkədən dünyanın 27 böyük neft şirkəti iştirak edir. Bu müqavilələr əməli surətdə həyata keçirilir, böyük işlər görülür. Bunlar hamısı Azərbaycanın iqtisadi inkişafına artıq öz təsirini göstərir.

Biz "Əsrin müqaviləsi" adlanan ilk müqavilənin - 1994-cü il sentyabrın 20-də imzalanmış müqavilənin artıq praktiki nəticələrini görürük. Bir il bundan öncə, 1997-ci il noyabr ayının 12-də "Çıraq" yatağından neft hasil olunmağa başladı. İndi Azərbaycan nefti Bakı-Novorossiysk boru kəməri vasitəsilə dünya bazarına çıxarılır.

Məlumdur ki, birinci müqavilə - "Əsrin müqaviləsi" gözləniləndən də artıq nəticələr verir. "Çıraq" yatağındakı hər quyudan nəzərdə tutulduğundan 3-4 dəfə çox neft alınır. Bu müqavilənin layihəsində 510 milyon ton neft əldə etmək nəzərdə tutulmuşdu. İndi artıq 630 milyon ton neft gözlənilir. Güman edirəm ki, bundan da artıq neft olacaqdır. Digər müqavilələrin də hamısı əməli surətdə həyata keçirilir. Qeyd etdiyim kimi, bunlar Azərbaycan iqtisadiyyatına, ölkəmizin həyatına yeni amillər gətirir.

Xəzərin Azərbaycan sektorundakı neft yataqlarına dünyanın böyük neft şirkətlərinin və iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin marağı günü-gündən artır. Bu ölkələrin içərisində Yaponiya artıq bir neçə il bundan əvvəl Azərbaycanın təbii sərvətlərinin, neft və qaz yataqlarının istifadə edilməsinə maraq göstərmişdir. Yaponiyanın "İtoçu" şirkəti ilk dəfə olaraq birinci konsorsiumda özünə müəyyən bir hissə almışdı. "İtoçu" sonra "Dan Ulduzu", "Əşrəfi" neft yataqlarından istifadə





olunması üçün yaranmış konsorsiumda iştirak etmiş və orada bu layihənin 20 faizini alınışdır.

Yaponiyanın "Mitsui" şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Kürdaşı" yatağının işlənməsi üçün yaranmış konsorsiumun iştirakçısıdır, orada onun 15 faiz payı vardır. Yaponiyanın digər neft şirkətləri də Azərbaycana və Azərbaycanın neft, qaz yataqlarına maraq göstərməyə başlayıblar.

Beləliklə, Yaponiya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq son illərdə genişlənibdir və çox böyük səmərə kəsb edibdir. Bu ilin fevralında mənim Yaponiyaya rəsmi səfərim zamanı biz çoxsaylı danışıqlar aparmışıq, Yaponiya-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün bir çox sənədlər imzalamışıq. Bunların içərisində Yaponiya ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında bəyanatı Yaponiyanın Baş naziri cənab Haşimoto və Azərbaycan Prezidenti imzalamışlar. Bunlarla bərabər, Yaponiyanın hökuməti, işgüzar dairələri, "Eksimbank"ı ilə aparılan danışıqlar nəticəsində Yaponiya hökuməti tərəfindən Azərbaycana böyük kreditlərin verilməsi və ölkəmizin sənayesinin bəzi sahələrinin inkişaf etdirilməsi üçün yardım göstərilməsi haqqında da razılıq əldə olunmuşdur.

Fevral ayında Tokioda respublikamızın "Şimal" elektrik stansiyasının yenidən qurulması və bərpası üçün Yaponiya hökuməti tərəfindən 160 milyon dollar dəyərində güzəştli kredit ayrılması haqqında saziş imzalanmışdır. Azərbaycanın kimya kompleksində etilen istehsal qurğusunun yenidən qurulmasına, modernləşdirilməsinə "Eksimbank"ın 90 milyon dollar həcmində kredit ayırması barədə də saziş imzalanmışdır.

Yaponiya hökuməti ilə bizim apardığımız danışıqlar onu göstərir ki, Azərbaycanın iqtisadiyyatının bir neçə sahəsinin inkişafı ilə əlaqədar da əlavə kreditlərin alınması mümkündür. Biz Yaponiya ilə əlaqələrimizi və xüsusən iqtisadi əlaqələrimizi yüksək qiymətləndiririk, müstəqil Azərbaycana göstərdiyi marağa və maliyyə yardımına görə Yaponiya hökumətinə təşəkkür edirik. Biz bu istiqamətdə əməkdaşlıq edərək Yaponiyanın bir neçə neft şirkətinin Xəzər dənizinin Azərbaycan sektorundakı bir yataqda müştərək iş görməsi barədə təkliflərini qəbul etmişik.

Bu təkliflər bir il bundan əvvəl verilmişdir. Mən fevral ayında Tokioda rəsmi səfərdə olarkən biz bu barədə həm Yaponiya hökuməti ilə, həm də bu şirkətlərin rəhbərləri ilə çox ətraflı danışıqlar aparmışdıq. Azərbaycan Dövlət Neft Şirkəti ilə Yaponiyanın dörd şirkəti - "Capeks", "İnpeks", "İtoçu" və "Teykoku" şirkətləri arasında danışıqlar aparılmış və bunların nəticəsində Xəzərin Azərbaycan sektorundakı "Yanan tava", "Atəşgah" və "Muğan-dəniz" blokunun müştərək işlənilməsi haqqında razılıq əldə olunmuşdur.

Azərbaycan Dövlət Neft Şirkəti uzun sürən danışıqlardan sonra bu barədə təklifini təqdim etmişdir. Mən bu təklifə baxmışam və onu məqbul hesab etmişəm. Ona görə də bu təklif əsasında Yaponiyanın dörd şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında "Yanan tava", "Atəşgah" və "Muğan-dəniz" neft yatağında müştərək iş görülməsi üçün müqavilənin imzalanması haqqında qərar qəbul etmişəm.

Bu neft yatağı Azərbaycan alimləri, neftçiləri, geoloqları tərəfindən hələ 1950-ci illərdə kəşf olunmuşdur. Sonra Azərbaycan Dövlət Neft Şirkəti 1970-ci illərdə bu yataqda müəyyən işlər görmüş, quyular qazmışdır və həmin yatağın çox perspektivli olması haqqında əsaslı məlumatlar toplanmışdır.

Müqavilə imzalanacaq bu yatağın əhatə etdiyi sahə 510 kvadrat kilometrdir. Həmin yataqdan təxminən 75-90 milyon ton neft alınması gözlənilir. Buraya təxminən 2,3 milyard dollar həcmində sərmayə, kapital qoyulması nəzərdə tutulmuşdur. Bu layihənin 50 faizi Yaponiyanın neft şirkətlərinə, 50 faizi isə Azərbaycan Dövlət Neft Şirkətinə məxsus olacaqdır. Qoyulan xərclərin hamısı Yaponiya şirkətləri tərəfindən həyata keçiriləcəkdir. Bütün göstəricilərinə görə bu müqavilə həm Azərbaycan Dövlət Neft Şirkəti, həm də Yaponiyanın böyük neft şirkətləri üçün faydalıdır.

Yaponiya neft şirkətlərinin nümayəndə heyətləri və Yaponiya hökumətinin nümayəndə heyəti bu müqavi-



ləni imzalamaq üçün Azərbaycana gəlmişlər. Beləliklə, bütün hazırlıq işləri görülübdür, müqavilənin layihəsi hər iki tərəfdən yoxlanılıbdır və imzalanmaq üçün bu mərasimə təqdim olunubdur.

Müqavilənin imzalanması ilə Yaponiya-Azərbaycan iqtisadi əlaqələri daha da genişlənir. Azərbaycan üçün bu, xarici ölkələrin neft şirkətləri ilə imzalanmış sayca 16-cı müqavilə olacaqdır. Dörd Yaponiya şirkəti isə Azərbaycana daxil olacaqdır.

Mən Tokioda apardığım danışıqlar zamanı da bəyan etmişdim, bu gün də bəyan edirəm ki, Yaponiya dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkəsidir. Yaponiyanın şirkətləri dünyada elmi-texniki tərəqqinin inkişafında böyük xidmətlər göstərmişlər. Yaponiya bütünlüklə öz iqtisadi siyasəti və iqtisadi göstəriciləri ilə, elmdə, texnikada, sənayedə əldə etdiyi nailiyyətlərlə dünya iqtisadiyyatının inkişafına da çox böyük təsir göstərmişdir. Buna görə də biz Yaponiya ilə əməkdaşlığın genişləndirilməsinin tərəfdarıyıq. Biz Yaponiyanın xüsusən neft və qaz sənayesi sahəsindəki şirkətlərinin Azərbaycana gəlməsini alqışlayırıq.

Mən inanıram ki, bugünkü bu müqavilə Yaponiya-Azərbaycan iqtisadi əlaqələrinin inkişaf etməsinə çox böyük kömək göstərəcəkdir. Bu müqavilənin bir xüsusiyyəti də odur ki, burada konsorsium yalnız Yaponiya şirkətlərindən ibarətdir.

İndiyə qədər imzalanmış bütün müqavilələr ayrı-ayrı ölkələrə məxsus olan şirkətlər tərəfindən təşkil edilmiş konsorsiumla Azərbaycan Dövlət Neft Şirkəti arasında imzalanmışdır. Bu müqavilə daha uğurlu ola bilər, çünki konsorsiumun üzvlərinin hamısı Yaponiya şirkətləridir. Onlar bir-birini çox yaxşı tanıyır, bir-biri ilə daha da səmərəli əməkdaşlıq edə bilərlər.

Mən Yaponiyanın şirkətlərini və Yaponiya hökumətinin nümayəndəsini, Azərbaycan Dövlət Neft Şirkətini bu münasibətlə təbrik edirəm və sizi müqavilənin imzalanmasına dəvət edirəm. Buyurun.

Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi diqqətlə dinlənildi və gurultulu, sürəkli alqışlarla qarşılandı.

Sonra müqavilənin imzalanması başlandı. Xəzərin Azərbaycan sektorundakı "Yanan tava", "Atəşgah" və "Muğan-dəniz" blokunun kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında müqaviləni Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev, "Capan Petroleum" şirkətinin prezidenti Katsuo Vakasugi, "İndoneziya Petroleum" şirkətinin icraçı direktoru Minora Naqata, "İtoçu" şirkətinin prezidenti Harumiçi Umeda, "Teykoku" şirkətinin icraedici direktoru Tosio Simada imzaladılar.

Prezident Heydər Əliyev müqavilənin imzalanması mərasimindən sonra Yaponiya hökumətinin nümayəndə heyətinin başçısı, Yaponiyanın Rusiya və Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Takehiro Toqoya söz verdi.

**Yaponiya nümayəndə heyətinin başçısı, Yaponiyanın Rusiya və Azərbaycandakı səfiri Takehiro Toqonun çıxışı**

- Zati-aliləri Azərbaycan Respublikasının çox hörmətli Prezidenti cənab Heydər Əliyev!

Hörmətli xanımlar və cənablar!

İcazə verin, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Yaponiya konsorsiumu arasında "D" blokunun 1-ci sahəsinə dair müqavilə imzalanması münasibətilə Sizi Yaponiya hökuməti adından təbrik edim. Zati-aliləri cənab Prezident Heydər Əliyevə, Azərbaycan Respublikası hökumətinin rəhbərliyinə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətindən və Yaponiya konsorsiumundan olan hörmətli cənablara bugünkü müqavilənin imzalanması işində göstərdikləri səylərinə görə ən dərin minnətdarlığımı bildirmək istərdim.

Sizə məlum olduğu kimi, ölkəmiz Zaqafqaziya regionunu, o cümlədən Azərbaycanı və Mərkəzi Asiya regionunu əhatə edən Böyük İpək yolu regionunun coğrafi-siyasi, siyasi, iqtisadi əhəmiyyətini təsdiqləyir, bu regionlarda öz diplomatiyasını fəal aparır, onu Böyük İpək yolu regionu üçün diplomatiya adlandırır.

Böyük İpək yolu regionunda Azərbaycan Asiyanı və Avropanı birləşdirən qovşaqdır, regionun sabitləşməsində və inkişafında son dərəcə mühüm rol oynayır. Xəzər dənizinin zəngin enerji ehtiyatları XXI əsrdə enerji ehtiyatlarının yeni mənbəyidir və ölkəmiz buna böyük maraq göstərir.

Son vaxtlar ölkələrimiz - Yaponiya ilə Azərbaycan arasında münasibətlər xüsusən Zati-aliləri Prezident



Heydər Əliyevin ölkəmizə bu ilin fevral ayındakı rəsmi səfəri zəminində daha sıx şəkil alır. Konkret desək, "Şimal" kompleks istilik-elektrik stansiyasının layihəsi üçün kredit verilməsi, inkişafa rəsmi yardım çərçivəsində digər əməkdaşlıq həyata keçirilir. Son illər bir neçə Yaponiya müəssisəsi Bakıda öz fəaliyyətini sabit surətdə genişləndirir, bu ayın əvvəllərində isə Tokioda Yaponiya-Azərbaycan iqtisadi əməkdaşlıq komitəsi yaradılmışdır. Hökumət səviyyəsində və özəl səviyyədə ticarətin genişləndirilməsi və iqtisadi əməkdaşlığın inkişafına sərmayələr qoyulması üçün zəmin təkmilləşdirilir.

Bütün bunları nəzərə alaraq hesab edirəm ki, Xəzər dənizindəki ehtiyatların istifadə olunmasında Yaponiyanın bir qrup müəssisəsinin iştirakı Böyük İpək yolu regionu üçün diplomatiyanın ruhuna uyğundur və Azərbaycanla Yaponiya arasında münasibətləri inkişaf etdirir.

İcazə verin, sözümün sonunda müqavilənin - karbohidrogen ehtiyatlarından istifadə olunmasına dair dövlət əhəmiyyətli layihənin bugünkü imzalanma mərasiminə dəvətə görə dərin təşəkkürümüzü bildirim. Bu layihəyə böyük uğurlar və Yaponiya ilə Azərbaycan arasında münasibətlərin daha da inkişaf etməsini arzulamaq istərdim.

Sonra Azərbaycan Prezidenti Yaponiyanın Xarici Ticarət və Sənaye Nazirliyinin departament rəisi Takeo Hirataya söz verdi.

**Yaponiyanın Xarici Ticarət və Sənaye Nazirliyinin departament rəisi Takeo Hiratanın çıxışı**

- Zati-aliləri hörmətli Azərbaycan Prezidenti cənab Heydər Əliyev!

Yaponiyanın Azərbaycandakı hörmətli səfiri cənab Toqo!

Xammlar və cənablar!

Mənim familyam Hiratadır, Yaponiya Xarici Ticarət və Sənaye Nazirliyinin İqtisadi Əməkdaşlıq Departamentinin rəisiyəm.

İcazə verin, bu layihə üzrə müqavilənin bağlanması münasibətilə Yaponiyanın Xarici Ticarət və Sənaye Nazirliyi adından Sizi təbrik edim.

Etiraf etməliyəm ki, bu ilin fevralından sonra yapon xalqının Azərbaycan haqqında fikri olduqca dəyişmişdir. Bu fikir yaxşılaşmış və çox yüksək olmuşdur. Ölkəniz haqqında fikrimizi, yapon xalqının Azərbaycan haqqında fikrini məhz Prezident Heydər Əliyev dəyişdirmişdir. Əminəm ki, bütün Yaponiya xalqı Azərbaycanla strateji əməkdaşlığın genişləndirilməsini istəyir. Əlbəttə, biz cənab Heydər Əliyevin təkrarən Prezident vəzifəsinə




seçilməsi xəbərini alanda çox sevindik və özümüzü xoşbəxt hiss etdik. Belə düşünürəm ki, bu, ölkələrimiz arasında dostluq münasibətlərini yalnız möhkəmləndirəcəkdir.

Mənə yaxşı məlumdur ki, hörmətli cənab Prezidentin rəhbərliyi ilə ölkənizin həyat səviyyəsi, iqtisadi vəziyyəti yüksəlir. Əlbəttə, Zati-alinizin təkrarən Prezident seçilməsi bu imkanları genişləndirəcəkdir.

Mənə həm də məlumdur ki, sizin hörmətli cənab Prezidentinizin dəstəyi və yardımı olmasaydı, indiki tarixi imzalanma günü də olmazdı. Əminəm ki, bu neft müqaviləsinin əhəmiyyəti ölkələrimiz arasında təkcə neft yataqlarının işlənilməsi sahəsində münasibətlərin inkişafı ilə bitmir. Yaponiya Azərbaycanla ticarət münasibətlərini, iqtisadi əməkdaşlığı genişləndirmək və möhkəmləndirmək istəyir. Zənnimcə, məhz bu mənada bugünkü müqavilənin imzalanması həm ticarət münasibətlərinin, həm də iqtisadi əməkdaşlıq üçün investisiyaların genişlənməsi üçün əsas olacaq, dostluq münasibətlərimizi dərinləşdirəcəkdir. Bu müqavilə Yaponiya ilə Azərbaycan arasında strateji əməkdaşlığa doğru atılmış yeni addım olacaqdır.

Biz, Yaponiya hökumətində çalışan əməli iş adamları kimi, mümkün qədər daha çox layihələri, o cümlədən "Şimal" istilik-elektrik stansiyası üçün vəd olunmuş kreditin verilməsini reallaşdırmaq üçün maksimum səy göstərməyə hazırıq. Biz çox ümid edirik ki, təkcə neft sahəsində deyil, mədəniyyət və idman sahəsində də əlaqələrimizi genişləndirəcəyik.

Mən bu gün sizi yapon gəncləri adından da təbrik edirəm. Biz hamımız bütün sahələrdə, o cümlədən iqtisadiyyat, mədəniyyət və idman sahəsində əlaqələrimizi genişləndirməyə ümid bəsləyirik.

Müqavilənin imzalanması münasibətilə sizi bir daha təbrik edirəm. Çox sağ olun.





Sonra Yaponiya Milli Neft Korporasiyasının vitse-prezidenti Akira Handa çıxış etdi.

**Yaponiya Milli Neft Korporasiyasının vitse-prezidenti Akira Handanın çıxışı**

- Zati-aliləri Azərbaycan Respublikasının hörmətli Prezidenti!

Azərbaycan Respublikası hökumətinin möhtərəm rəhbərliyi və əlaqədar şəxsləri!

Yaponiyanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri hörmətli cənab Toqo, Yaponiya Xarici Ticarət və Sənaye Nazirliyi İqtisadi Əməkdaşlıq Departamentinin rəisi hörmətli cənab Hirata!

İcazə verin, "Atəşgah", "Yanan tava" və "Muğan-dəniz" perspektivli strukturlarının daxil olduğu kəşfiyyat blokunun kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında müqavilənin imzalanması münasibətilə Sizi Yaponiya Milli Neft Korporasiyası adından təbrik edim. Bunu təkrar etməyə yeqin ehtiyac yoxdur ki, neftin ilk və ən böyük hasilatçılarından biri olan Azərbaycan dünya iqtisadiyyatının və dünyada neft sənayesinin inkişafına böyük töhfə vermişdir. Fürsətdən istifadə edərək, Azərbaycana bu roluna və töhfəsinə görə səmimi qəlbdən dərin hörmətimizi bildirmək istərdim.

Sizi həm də ona görə təbrik etmək istərdim ki, Xəzər dənizinin zəngin neft ehtiyatlarına malik olaraq başlıca qəhrəman kimi yenidən dünya meydanına qayıtmağa hazırsınız.

Yaponiya hökumətinin siyasəti çərçivəsində Yaponiya Milli Neft Korporasiyası müəssisələrimizin ölkəmizin hüdudlarından kənarda neftin kəşfiyyatı və işlənilməsi işinə maliyyə və texniki yardım göstərir. Hazırda dünyanın təxminən 30 ölkəsində həyata keçirilən 130-dan çox bu cür layihə var. Bu layihələrə Yaponiya müəssisələrinin Azərbaycanda həyata keçirdikləri üç layihə, o cümlədən "İtoçu" qrupunun da iştirak etdiyi ABƏŞ-in layihələri də daxildir. Bugünkü imzalanma mərasimi isə onlara dördüncü layihəni əlavə edir.

Yaponiya Milli Neft Korporasiyası Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının işlənilməsində fəal iştirak edən, iki ölkə arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığı inkişaf etdirməyə çalışan Yaponiya müəssisələrinə bundan sonra da maksimum kömək göstərməyə hazırdır. Bu, qarşılıqlı münasibətlərin inkişafını sürətləndirməyə təkan verir və həmin münasibətlərin dərinləşdiyini dərk etmək bizə çox xoşdur.

İcazə verin, mən Zati-aliləri cənab Prezident Heydər Əliyevin göstərdiyi hərtərəfli köməyə görə bir daha təşəkkürümü bildirim. Bu gün imzalanmış müqavilənin həyata keçirilməsi işində Azərbaycan hökumətinə, Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin əlaqədar şəxslərinə də ən səmimi təbriklərimi bildirmək istərdim. Çox sağ olun.

Sonra "Capan Petroleum Eksploreyşn" şirkətinin prezidenti Katsuo Vakasugi çıxış etdi.

**"Capan Petroleum Eksploreyşn" şirkətinin prezidenti Katsuo Vakasuginin çıxışı**

- Zati-aliləri hörmətli Prezident cənab Heydər Əliyev!

Möhtərəm qonaqlar!

Yaponiya hökumət nümayəndə heyətinin başçısı, Yaponiyanın Azərbaycandakı səfiri cənab Takehiro Toqo!



Yaponiya Xarici Ticarət və Sənaye Nazirliyinin, Yaponiya Milli Neft Şirkətinin nümayəndələri!

Bu gün burada Azərbaycan Dövlət Neft Şirkəti ilə Yaponiyanın "Capan Petroleum Eksploreyşn", "İndoneziya Petroleum", "İtoçu" və "Teykoku" şirkətlərindən ibarət konsorsium arasında Xəzərin Azərbaycan sektorundakı "Yanan tava", "Atəşgah" və "Muğan-dəniz" strukturlarının daxil olduğu blokun kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsünə dair müqavilənin imzalanmasını Yaponiya konsorsiumu üçün böyük şərəf sayıram.

Bilirsinizmi, belə bir məsəl var ki, ərazicə bir-birinə çox yaxın ölkələr əslində çox uzaq, ərazicə çox uzaq ölkələr isə əslində bir-birinə çox yaxın ola bilərlər. Hörmətli Prezident Heydər Əliyevin təşəbbüsü də məhz Yaponiya ilə Azərbaycanı bir-birinə yaxın ölkələrə çevirməkdən ibarətdir. Prezident Heydər Əliyevin bu ilin fevralında Yaponiyaya rəsmi səfəri ilə başlanan bu yol bu il bugünkü müqavilənin imzalanması ilə tamamlanır. Biz hörmətli cənab Prezident Heydər Əliyevin bu təşəbbüsünü yüksək qiymətləndiririk.

Sizin ölkəniz böyük neft təchizatçısı kimi qədim tarixə malik olmaqla yanaşı, son illərdə həmçinin Xəzər dənizində və sahildə neft-qaz yataqlarının kəşfiyyatında, birgə işlənilməsində və qonşu dövlətlərdə hasil edilən karbohidrogen ehtiyatlarının daşınmasında aparıcı rol oynayır. Yaponiya, Amerika və Avropa ölkələri Azərbaycana neftin təchizatçısı kimi böyük ümidlər bəsləyirlər.

Biz başa düşürük ki, Sizin ölkənizin, həmçinin Zaqafqaziya və Mərkəzi Asiyanın iqtisadi inkişafı dünyanın hər bir regionunda sülhün bərqərar edilməsində və beynəlxalq bazarda neftə olan tələb və təklifin sabitləşməsində mühüm əhəmiyyətə malikdir. Yaponiya hökuməti Azərbaycanla əməkdaşlıq etməyə xüsusi diqqət yetirir və Sizin ölkənizə öz imkanları çərçivəsində kömək göstərməyə hazırdır.

Hazırda Yaponiya istehlak edilən neftin demək olar ki, 80 faizini yaxın Şərqdən alır. Azərbaycandakı neft yataqlarının birgə işlənilməsində Yaponiya şirkətlərinin yaxından iştirakı sizin ölkənin iqtisadiyyatının gələcək inkişafına müəyyən kömək edəcəkdir. Biz ümid edirik ki, bu gün imzaladığımız müqavilə neft təchizatı mənbələrinin sayını artırmaqda Yaponiyaya kömək göstərəcəkdir. Əminik ki, Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənilməsində Yaponiyanın iştirakı ölkələrimizin çiçəklənməsində yaddaqalan tarixi hadisə olacaqdır.

Biz bu gün cəsarətlə deyə bilərik ki, Bakıda təşkil edilmiş konsorsium texnologiya, maliyyə və gəlir baxımından Yaponiyanın ən güclü komandalarından biri olacaqdır. Bu konsorsium Yaponiya hökuməti və Yaponiya Milli Neft Korporasiyası tərəfindən tam dəstəklənir. Sizi inandırırıq ki, biz yataqların birgə




işlənilməsi və neftin istismarı sahəsində Azərbaycanın ümidlərini tamamilə doğruldacağıq.

Zati-aliləri hörmətli Prezident cənab Heydər Əliyev, icazə verin, Yaponiya konsorsiumu adından Sizə, Azərbaycan hökumətinə, ARDNŞ-nin rəhbərlərinə bu müqavilənin imzalanmasında bizə göstərdiyiniz hərtərəfli yardıma görə dərin minnətdarlığımızı bildirim.

Sonra "İndoneziya Petroleum LTD" şirkətinin icraçı direktoru Minora Naqataya söz verildi.

**"İndoneziya Petroleum LTD" şirkətinin icraçı direktoru Minora Naqatanın çıxışı**

- Zati-aliləri Azərbaycan Respublikasının çox hörmətli Prezidenti cənab Heydər Əliyev!

Möhtərəm xanımlar və cənablar!

Elə indicə "Capan Petroleum Eksploreyşn" şirkətinin prezidenti Vakasugi Yaponiya konsorsiumu adından təbrik nitqi söylədi. Mən də Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə, Azərbaycan Respublikasının digər yüksək vəzifəli şəxslərinə, bugünkü müqavilənin müvəffəqiyyətlə imzalanması üçün səy göstərmiş bütün əlaqədar şəxslərə "İndoneziya Petroleum LTD" şirkəti adından dərin təşəkkürümü bildirmək istərdim.

Fürsətdən istifadə edərək, müqavilənin imzalanması mərasimində iştirak etdiklərinə görə Yaponiyanın fövqəladə və səlahiyyətli səfiri cənab Toqoya, Yaponiya Xarici Ticarət və Sənaye Nazirliyinin, Yaponiya Milli Neft Korporasiyasının nümayəndələrinə təşəkkürümü bildirmək istəyirəm.

Bizim müəssisə "İndoneziya Petroleum LTD" adlansa da, Yaponiya müəssisəsidir. Şirkətimizin adı





göstərir ki, onun əsas fəaliyyət yeri İndoneziyadır. Lakin buna baxmayaraq, biz Cənub-Şərqi Asiyada, Okeaniyada, Yaxın Şərqdə, son vaxtlar isə Qazaxıstanda da fəaliyyətimizi genişləndiririk.

Azərbaycan Respublikasında neft yataqlarının işlənilməsində ilk dəfə olaraq iştirak etdiyimiz bugünkü gün bizim üçün unudulmaz tarixdir. Yaponiya konsorsiumunun üzvü olaraq sizi əmin etmək istərdim ki, ölkənizin rəhbərliyi altında və əməkdaşlığı ilə bu layihənin uğurla həyata keçirilməsi üçün şirkətimiz maksimum səy göstərəcəkdir.

Sözümün sonunda ümidvar olduğumu bildirmək istərdim ki, bu müqavilə sizin ölkənizlə münasibətlərin daha da dərinləşməsinə kömək edəcəkdir. Diqqətinizə görə sağ olun.

Sonra "İtoçu" şirkətinin prezidenti Harumiçi Umeda çıxış etdi.

**"İtoçu" şirkətinin prezidenti Harumiçi Umedanın çıxışı**

- Zati-aliləri hörmətli cənab Prezident Heydər Əliyev!

İcazə verin, bu gün Azərbaycan Dövlət Neft Şirkəti ilə Yaponiya konsorsiumu arasında Xəzərin Azərbaycan sektorundakı "Yanan tava", "Atəşgah" və "Muğan-dəniz" blokunun kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsünə dair müqavilənin imzalanmasına göstərdiyiniz köməyə və dəstəyə görə Sizə dərin hörmət hissi ilə öz minnətdarlığımı bildirim. Mən həmçinin bu müqavilənin imzalanmasında əməyi olan Azərbaycan Respublikasının digər əlaqədar şəxslərinə də ürəkdən təşəkkür edirəm.

Mən qeyd etmək istərdim ki, bu gün Yaponiyanın dörd ən sanballı neft şirkətinin birgə iştirak etdiyi bu müqavilə Yaponiya hökumətinin himayəsi altında reallaşır. Buna görə də mən bu müqavilənin ölkələrimiz arasında gələcək uğurlu dostluq münasibətlərinin inkişafında rəmzi hadisəyə çevrilməsini ürəkdən arzulayıram.

Yaponiyanın digər şirkətləri arasında "İtoçu" Azərbaycanda birinci olaraq fəaliyyətə başlamışdır. Sizə məlum olduğu kimi, biz hazırda "Əsrin müqaviləsi"ni və digər müqavilələri həyata keçirən beynəlxalq konsorsiumlarda investor kimi iştirak edirik. Biz 1996-cı ilin avqustunda burada öz nümayəndəliyimizi açmışıq və Yaponiya ilə Azərbaycan arasında iqtisadi münasibətlərin genişləndirilməsi sahəsində pioner rolunu oynamaqla əlimizdən gələni etməyə çalışmışıq.

Hörmətli Prezident, mən qəti əminəm ki, Yaponiya ilə Azərbaycan arasında qarşılıqlı anlaşma və etimad Sizin mətin rəhbərliyiniz altında daha sürətlə inkişaf edəcəkdir. Bu gün böyük sevinc hissi ilə qeyd edə bilərəm ki, Yaponiya təşkilatları Sizin ölkə ilə əməkdaşlığa böyük diqqət yetirirlər və bunun nəticəsi olaraq müxtəlif layihələr üzrə fəal danışıqlar gedir.

İcazə verin, Zati-alinizə möhkəm cansağlığı və Azərbaycan Respublikasına böyük müvəffəqiyyətlər arzulayım.

Azərbaycan Prezidenti "Teykoku" şirkətinin icraçı direktoru Tosio Simadaya söz verdi.

**"Teykoku" şirkətinin icraçı direktoru Tosio Simadanın çıxışı**

- Zati-aliləri Azərbaycan Respublikasının çox hörmətli Prezidenti cənab Heydər Əliyev!

Mənə Zati-alinizin və Azərbaycan Respublikasının



digər yüksək vəzifəli şəxslərinin iştirakı ilə burada, hasilatın bölgüsü haqqında müqavilənin imzalanması mərasimində iştirak etmək kimi böyük şərəf nəsib olmuşdur.

Bizim "Teykoku Oyl Kompani LTD" şirkətinin əsası 1941-ci ildə qoyulmuşdur və həmin vaxtdan bəri o, nəinki Yaponiyada, həm də xarici ölkələrdə neft və təbii qaz yataqlarının kəşfiyyatı və işlənilməsi ilə məşğul olur.

Bütün dünyanın müasir neft sənayesinin meydana gəldiyi yer olan Azərbaycan məhz indi bizim də kəşfiyyat fəaliyyəti apardığımız ölkəyə çevrilmişdir. Bu, məni bir neftçi mühəndis kimi çox mütəəssir edir. Bizim şirkət topladığımız texnologiyalar və nou-haular əsasında bu layihənin uğurla həyata keçirilməsi işinə əlindən gələn töhfəni verməyə hazır olduğunu bildirir.

İcazə verin, fürsətdən istifadə edərək, "Teykoku Oyl Kompani"nin prezidenti cənab Okatanın adından Zati-aliləri Prezident Heydər Əliyevə və Azərbaycan Respublikasının yüksək vəzifəli şəxslərinə, habelə Azərbaycan Dövlət Neft Şirkətinin əlaqədar şəxslərinə dərin ehtiramımı və təşəkkürümü bildirim.

Zati-aliləri cənab Prezident, icazə verin, qısa çıxışımın sonunda bu lahiyənin həyata keçirilməsi işinə bundan sonra da kömək göstərməyinizi bir daha xahiş edim. Diqqətinizə görə sağ olun.

Prezident Heydər Əliyev mərasimdə yekun nitqi söylədi.

**Azərbaycan Prezidenti**
**Heydər Əliyevin yekun nitqi**

- Hörmətli yaponiyalı qonaqlar!

Çıxışlarınızda Azərbaycan haqqında, Azərbaycan dövləti haqqında, Azərbaycan xalqı haqqında ifadə etdiyiniz xoş sözlərə görə sizə təşəkkür edirəm.

Sizin çıxışlarınız bu gün burada imzalanmış böyük neft müqaviləsinin həm Yaponiya şirkətləri üçün, həm də Azərbaycan üçün çox mənfəətli olduğunu bir daha sübut etdi. Biz hiss etdik ki, siz həqiqətən çox böyük həvəslə Azərbaycanla əməkdaşlıq etmək istəyirsiniz və Azərbaycanın neft və qaz yataqlarında Azərbaycan Dövlət Neft Şirkəti ilə səmərəli iş görmək istəyirsiniz. Sizin istəkləriniz, arzularınız bizim istək və arzularımızla üst-üstə düşür. Ona görə də ümid edirəm ki, bizim əməkdaşlığımız çox uğurlu olacaqdır.

Siz tamamilə doğru dediniz ki, bizim neft sənayesi sahəsində əməkdaşlığımız Yaponiya-Azərbaycan iqtisadi əməkdaşlığına çox böyük yollar açır və imkanlar yaradır. Yaponiya ilə Azərbaycan arasında məsafə çox böyükdür. Ancaq bizim hər iki tərəfdən bir-birimizə yaxınlaşmaq əzmimiz güclü olduğuna görə biz bu məsafəni qısaltmışıq, bir yerdəyik.

Cənab səfir qədim Böyük İpək yolunun bərpası ilə əlaqədar layihəyə Yaponiyanın münasibətini bir daha bildirdi. Məlumdur ki, son illər qədim Tarixi İpək yolunun bərpa olunması və yenidən istifadə edilməsi barəsində dünyanın bir çox ölkələrində fikirlər meydana gəlmişdi, təkliflər irəli sürülmüşdü. Ancaq bunların içərisində Yaponiya hökumətinin və Yaponiyanın keçmiş Baş naziri cənab Haşimotonun təşəbbüsü xüsusi yer tutur.



Bu il sentyabr ayının 7-8-də Azərbaycanda, Bakıda, burada - "Gülüstan" sarayında qədim Tarixi İpək yolunun bərpası ilə əlaqədar beynəlxalq konfrans oldu və bu beynəlxalq konfransda Yaponiyanın da nümayəndə heyəti iştirak edirdi. Beynəlxalq konfransda qədim Tarixi İpək yolunun bərpası, TRASEKA proqramının inkişaf etdirilməsi ilə əlaqədar çox mühüm əhəmiyyət kəsb edən sazişlər, müqavilələr imzalandı və beləliklə, həm Yaponiyada, həm Avropada, həm Qafqazda qədim Tarixi İpək yolunun bərpası ilə əlaqədar olan fikirlər və təkliflər reallaşmağa başladı. İndiyə qədər Yaponiya-Azərbaycan əməkdaşlığı sahəsində görülən işlərə əlavə olaraq qədim Tarixi İpək yolunun bərpa edilməsi Yaponiya-Azərbaycan əməkdaşlığını daha da genişləndirəcəkdir.



1998-ci il sona çatır. Biz 1998-ci ilin əvvəlində Tokioda Yaponiya ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq əlaqələrini inkişaf etdirmək üçün çox səmərəli iş gördük və hökumətlərarası mühüm sənədlər imzaladıq. İlin sonunda Bakıda, Azərbaycanda Yaponiya-Azərbaycan əməkdaşlığını inkişaf etdirmək üçün böyük müqavilə imzalandı. Ümid edirəm ki, qarşıdan gələn 1999-cu ildə Yaponiya-Azərbaycan əməkdaşlığı daha da sürətlə inkişaf edəcəkdir.

Sizi, hörmətli qonaqları və bütün mərasim iştirakçılarını qarşıdan gələn 1999-cu il münasibətilə təbrik edirəm. Yeni ildə Yaponiya xalqına sülh, əmin-amanlıq və tərəqqi arzulayıram. Azərbaycan xalqına, bütün xalqlara sülh, əmin-amanlıq və tərəqqi arzulayıram. Sağ olun.

Prezident Heydər Əliyevin yekun nitqi böyük diqqətlə dinlənildi və gurultulu, sürəkli alqışlarla qarşılandı.

Sazişin imzalanması mərasimində Azərbaycandakı diplomatik nümayəndəliklərin başçıları və digər rəsmi şəxslər iştirak edirdilər.

VAŞİNQTON, 27 APREL 1999-CU İL



# "Zəfər", "Məşəl", "Savalan", "Dalğa", "Lerik-dəniz", "Cənub" və "Padar" strukturlarının birgə işlənməsi haqqında sazişlərin imzalanması

1999-cu il aprelin 27-də Vaşinqtonda, ABŞ Senatının binasında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə ABŞ-ın "Monkrif Oyl", "Eksson" və "Mobil" şirkətləri arasında üç neft sazişinin imzalanması mərasimi oldu.

Mərasim iştirakçıları Azərbaycan Prezidenti Heydər Əliyevi hərarətli alqışlarla qarşıladılar.

Amerika Birləşmiş Ştatlarının nüfuzlu konqresmenlərinin, senatorlarının, ABŞ hökumətinin yüksək vəzifəli şəxslərinin, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin və Amerikanın iri neft şirkətlərinin, işgüzar dairələrin nümayəndələrinin, xarici ölkələrin kütləvi informasiya vasitələri, televiziya və radio kanalları təmsilçilərinin iştirak etdiyi mərasimi giriş sözü ilə senator xanım **Key Beyli Hatçinson** açaraq dedi:

- Hörmətli xanımlar və cənablar, xoş gəlmisiniz!

Bu gün burada Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi və bizim ölkənin ticarət naziri Uilyam Deylini görməkdən çox məmnunluq duyuruq. Çox önəmli, çox mühüm bir hadisə münasibətilə bu mərasimə toplaşmağınızdan böyük şərəf duyduğumuzu izhar edirik. Çox məmnunam ki, bu gün burada mənimlə bərabər Vayominq ştatından olan senator Tomson, konqresmenlər cənab Dits və Viper də iştirak edirlər. Konqresin digər üzvləri də bu prosesdə bizə qoşulacaqlar. Bizim əksəriyyətimiz Azərbaycanı ziyarət etmişik və orada gedən prosesləri yaxından izləyirik.

Keçən il Azərbaycana etdiyim səfər zamanı mənim gözlərim qarşısında Amerika biznesinin bu ölkədə görə biləcəyi işlər barədə təsəvvür yarandı. Mən bir daha qəti surətdə əmin oldum ki, biz həm amerikalılar üçün, həm də azərbaycanlılar üçün yeni iş yerlərinin açılması ilə nəticələnəcək müştərək, birgə fəaliyyət göstərə bilərik.

Bu gün daha üç böyük saziş imzalanacaq ki, bu müqavilələr də dövlətlərimiz arasında olan müttəfiqliyi daha da gücləndirəcəkdir. Biz həmçinin bu gün burada Amerika Birləşmiş Ştatlarının Ticarət və İnkişaf Agentliyinin, eləcə də doktor Debeyki və onun həmkarlarının yardımı sayəsində Azərbaycanda, Bakıda ürək-damar xəstəliklərinin müalicəsi mərkəzinin açılması üçün texniki-iqtisadi əsaslandırmanın işlənib hazırlanmasını nəzərdə tutan müqavilənin də imzalanması mərasiminin şahidi olacağıq.

Biz çox məmnunuq ki, Azərbaycanda yaşayan, Azərbaycanda çalışan insanlara tibbi xidmətlər göstərilməsi üçün yeni bir mərkəzin yaradılmasına başlayacağıq. Bu mərkəz "Maykl Debeyki-Heydər Əliyev ürək-damar xəstəliklərinin müalicəsi mərkəzi" adlandırılacaqdır. İcazənizlə, bəyan edim ki, bu gün burada üç neft müqaviləsinin, həmçinin Bakıda açılacaq ürək-damar xəstəliklərinin müalicəsi mərkəzi haqqında müqavilənin imzalanması məhz Prezident Heydər Əliyevin və Azərbaycan xalqının qəhrəmanlıq nümayiş etdirərək göstərdiyi səylər nəticəsində mümkün olmuşdur. Bu işdə nazir cənab Deylinin rəhbərlik etdiyi Amerika Birləşmiş Ştatları Ticarət Nazirliyinin xidmətlərini də biz yüksək qiymətləndiririk.

Bu gün bu əlamətdar hadisədə bizimlə bərabər öz xidmətlərini göstərmiş Amerika Birləşmiş Ştatları Energetika Nazirliyinin nümayəndələri də iştirak edirlər. İndi mən sözü Amerikanın energetika nazirinin müavini cənab T.C.Qlatyeyə verirəm.

ABŞ-ın energetika nazirinin müavini cənab **T.C. Qlatye** mərasimdə çıxış edərək dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli nazir!

Hörmətli xanım Hatçinson, Konqresin üzvləri!





Bu gün burada, əlamətdar hadisə münasibətilə toplaşdığımız bu mərasimdə Amerika Birləşmiş Ştatlarının Energetika Nazirliyini təmsil etməkdən məmnunluq duyuram.

Cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının energetika naziri cənab Bill Riçardson Sizə ən səmimi salamlarını göndərib və çox təəssüfləndiyini bildirir ki, bu gün bizimlə bərabər bu mərasimdə iştirak edə bilmir.

Hörmətli Prezident Əliyev, Natiq Əliyev, İlham Əliyev, "Mobil", "Eksson" və "Monkrif Oyl" şirkətlərinin nümayəndələri, biz sizin hamınızı Azərbaycanda iqtisadi fəaliyyəti genişləndirməyiniz, bu gün imzalayacağınız yeni müqavilələr münasibətilə təbrik edirik. Çox məmnunam ki, Amerika şirkətləri Azərbaycandakı fəaliyyətlərini genişləndirirlər. Bu şirkətlər Azərbaycanın neft sektorunda, eləcə də qeyri-neft sektorunda layihələrdə iştirak etməklə Azərbaycanın inkişafına öz töhfələrini vermək məqsədinə sadiqdirlər. Biz Azərbaycan ilə bu tərəfdaşlığımızla fəxr edirik və ümidvarıq ki, bu tərəfdaşlıq bundan sonra da inkişaf edəcəkdir.

Cənab Prezident!

Biz Sizin rəhbərliyiniz altında Azərbaycanın enerji sahəsində əldə etdiyi böyük nailiyyətlərin şahidiyik. Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasına, Azərbaycanda və bütün regionda sülhün və sabitliyin bərqərar olmasına, region xalqlarının çiçəklənməsinin təmin edilməsinə Sizin göstərdiyiniz rəhbərliyi, liderliyi alqışlayırıq. Bu məqsədlərə nail olunmasında enerji, neft, qaz boru kəmərlərinin həlledici amil rolu oynaması barədə fikirlərinizi tamamilə bölüşürük.

İki həftə bundan öncə biz çox böyük məmnuniyyət hissi ilə cənab Morninqstarın və Enerji Departamentinin nümayəndəsi xanım Triza Bimanın iştirakı ilə Gürcüstanda Bakı-Supsa boru kəmərinin açılması mərasimində iştirak etdik. Bununla Azərbaycan özünün enerji ehtiyatlarının inkişaf etdirilməsi və ən iri neft ixracatçılarından birinə çevrilməsi, o cümlədən bütün Xəzər regionunun enerji ehtiyatlarının Qərb bazarlarına ixracının mərkəzinə çevrilməsi istiqamətində daha mühüm bir addım atmış oldu. Biz Türkiyənin Aralıq dənizində yerləşən Ceyhan limanına daha uyğun və ən böyük neft boru kəmərinin çəkilməsi istiqamətində də Sizinlə birgə fəaliyyətimizi davam etdirəcəyik.

Cənab Prezident, cənab Terri Kunts, cənab Uilyam Skoginz, cənab Riçard Monkrif, enerji sahəsindəki münasibətlərimizin, ölkələrimiz arasındakı əlaqələrin daha da gücləndirilməsinə xidmət edəcək bu əlamətdar hadisə münasibətilə sizi bir daha təbrik edirik və bu mərasimdə iştirak etməkdən zövq duyuruq. Sizə bir daha ən səmimi təbriklərimizi yetiririk və Azərbaycan xalqına səmimi təbriklərimizi göndəririk.

**Key Beyli Hatçinson:** Çox sağ olun. Mənim nəzərimi indi cəlb etdi, - konqresmen Teşşinz da indicə bizə qoşuldu. Mən onu salamlayıram.

İndi isə məmnuniyyətlə, Amerika Birləşmiş Ştatları üçün çox mühüm xidmətlər göstərən ticarət naziri cənab Uilyam Deylini kürsüyə dəvət edirəm.

### ABŞ-ın ticarət naziri Uilyam Deylinin çıxışı

- Hörmətli Prezident Heydər Əliyev!

Hörmətli xanımlar və cənablar!

Bilmirəm siz necə hiss edirsiniz, amma mənim üçün günü belə xoş bir hadisə ilə başlamaq çox əlamətdardır. İki milyard dollar həcmində yeni çox mühüm enerji layihələrinin həyata keçirilməsinə başlanmasına, "Eksson", "Mobil", "Monkrif Oyl" şirkətləri tərəfindən Xəzər regionuna investisiya qoyulmasına həsr olunmuş bu mərasimə toplaşmaqdan məmnunluq duyuruq.





**Heydər Əliyev:** Ola bilər, Sizin katibiniz orada rəqəmi düz yazmayıbdır. Bu, 10 milyard dollardır.

**Uilyam Deyli:** Cənab Prezident, mən heç vaxt Prezidentlərlə mübahisə etmirəm. Mən aydınlaşdıraram, görüm rəqəmlərə cavabdeh olan bizim şəxslər rəqəmləri nə üçün belə aşağı səviyyədə saxlayıblar.

**Heydər Əliyev:** Hesab edirəm ki, onu kompüter düz yazmayıbdır.

**Uilyam Deyli:** Mən də ümidvaram ki, bu, insan tərəfindən buraxılmış səhv deyil. Əgər bu, insan tərəfindən buraxılmış səhv olsa, onda gərək biz həmin şəxsi kompüterlə əvəz edək.

Baxmayaraq ki, imzalanacaq bu cür layihələrdə "Eksson" və "Mobil" şirkətləri ayrıca tərəfdaşlar kimi çıxış edirlər, lakin gələcəkdə bu şirkətlərin birləşərək bir şirkət halında çıxış etməsi, şübhəsiz ki, regionun çox böyük potensialından daha səmərəli istifadə olunmasına öz töhfəsini verəcəkdir.

Bu layihələrin həyata keçirilməsi həm bizdən uzaq məsafədə, dünyanın başqa bölgəsində yerləşən Azərbaycanda və həmçinin Amerika Birləşmiş Ştatlarında yeni iş yerlərinin açılmasına gətirib çıxaracaqdır. Şübhəsiz ki, bu layihələrin həyata keçirilməsi nəticəsində neft müqavilələrində yardımçı müqavilələrlə iştirak edəcək digər şirkətlər, həmçinin neft avadanlığı, qazma qurğuları istehsal edən və başqa xidmətlər göstərən bir çox digər şirkətlər üçün də yeni işlər meydana çıxacaqdır. Bu şirkətlərin hamısı dünyada ən müasir texnologiyaya, yüksək təcrübəyə malikdir və zəngin enerji ehtiyatlarının istismarında səmərəli fəaliyyət göstərmək iqtidarındadırlar.

Cənab Prezident, bu şirkətlər ətraf mühitin qorunması standartlarını Azərbaycanda ən yüksək zirvələrə qaldırmaq barədə öz üzərinə götürdükləri böyük öhdəliklərə də sadiq olacaqlar. Heç şübhəsiz ki, əgər bu şirkətlər müvəffəq olarlarsa, onda bizim iqtisadiyyatımız inkişaf edəcəkdir və daha böyük tərəqqinin şahidi olacağıq.

Cənab Prezident!

Siz bilirsiniz ki, bu, "Eksson" şirkətinin Azərbaycan ilə imzaladığı üçüncü müqavilədir. Şəxsən mənim üçün isə ikinci dəfə belə bir imkan yaranıbdır ki, Amerika şirkətləri ilə Azərbaycan arasında neft müqavilələrinin imzalanmasında şahid kimi iştirak edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, belə müqavilələrin imzalanması bundan sonra da olacaqdır.

Cənab Prezident!

Bu gün imzalanacaq dördüncü müqavilənin də çox böyük əhəmiyyəti vardır. Bu müqavilə Amerika Birləşmiş Ştatlarının Ticarət və İnkişaf Agentliyinin dəstəyi ilə Azərbaycanda, Bakıda ürək-damar xəstəliklərinin müalicəsi mərkəzinin tikilməsini nəzərdə tutur. Ümid edirik ki, həmin mərkəz azərbaycanlıların ürəklərinin qüdrətlənməsi, qüvvətlənməsi işinə yardımçı olacaq və beləliklə də biz xalqlarımızın, insanlarımızın bir-birinə daha ürəkdən, daha yaxından bağlanmasının təməlini qoyacağıq. Bu müqavilələrin imzalanması ölkələrimiz arasında iqtisadi, kommersiya münasibətlərinin daha da gücləndirilməsinə xidmət edir və ümumilikdə götürdükdə isə dövlətlərimiz arasındakı münasibətlərin daha da möhkəmlənməsinə öz töhfəsini verəcəkdir.

Mən burada Sizinlə bərabər olmağımdan şərəf duyduğumu bir daha izhar edirəm. Çox sağ olun.

**Key Beyli Hatçinson:** Bu gün çox mühüm və əlamətdar mərasimdə iştirak etmək üçün öz iş cədvəlində dəyişiklik edərək bizimlə bərabər olduğuna görə nazir cənab Deyliyə minnətdarlığımı bildirirəm. Amerika şirkətlərinin və xarici şirkətlərin dünyanın müxtəlif bölgələrində öz sərmayə qoyuluşlarını daha da artırması istiqamətində cənab nazir Deylinin və rəh-

bərlik etdiyi nazirliyin göstərdiyi fəaliyyətə görə də ona təşəkkürümü bildirirəm.

Nazir Deylinin çıxışı zamanı Prezident Heydər Əliyev rəqəmi 2 milyarddan 10 milyarda qaldırarkən mən cənab Monkrifə baxdım və onun gözlərindən oxudum ki, o, ümidvar olduğunu büruzə verərək düşünürdü ki, qalan 8 milyard xərc təkcə onun üzərinə düşməsin.

İndi isə çox böyük şərəf hissi ilə mən vaxtilə onu öz ölkəsində ziyarət etdiyim, öz xalqı, dövləti üçün çox böyük xidmətlər göstərən, ölkəsinin iqtisadi əlaqələrini və dövlət quruluşunu möhkəmləndirmək üçün böyük işlər görən və Amerika Birləşmiş Ştatlarının ən böyük dostuna çevrilən Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə söz vermək istəyirəm.

Azərbaycan Prezident Heydər Əliyev mərasimdə nitq söylədi.

**Azərbaycan Prezidenti**
**Heydər Əliyevin nitqi**

- Hörmətli senator Hatçinson!

Hörmətli nazir Deyli!

Hörmətli nazir müavini, senatorlar, konqresmenlər, xammlar və cənablar!

Mən sizin hamınızı səmimi qəlbdən salamlayıram və bu gün Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda, Konqresin binasında belə bir mərasim keçirilməsindən hədsiz məmnun olduğumu bildirirəm.

Hörmətli senator Hatçinson, mənim haqqımda və Azərbaycan haqqında dediyiniz xoş sözlərə görə Sizə təşəkkür edirəm və bildirmək istəyirəm ki, Siz doğru buyurdunuz ki, mən Amerika Birləşmiş Ştatlarının çox sadiq dostuyam.

Bu mərasimdə nazir Deylinin, senatorların, konqresmenlərin, nazir müavininin və Amerika hökumətinin yüksək səviyyəli nümayəndələrinin iştirak etməsi müqavilələrin imzalanmasına xüsusi qiymət verir. Mən bu gün böyük xoşbəxtlik, iftixar hissləri keçirirəm, ona görə ki, Azərbaycanın 1994-cü ildə dünyaya bəyan etdiyi neft strategiyası ardıcıl surətdə həyata keçirilir və böyük uğurlar qazanır.

1994-cü ilin sentyabr ayında Azərbaycanda böyük bir müqavilə imzalandı. Bu müqaviləyə Amerika Birləşmiş Ştatlarında və dünyada "Əsrin müqaviləsi" adı verildi. Biz bu müqavilə ilə Azərbaycanın Xəzər dənizindəki enerji ehtiyatlarının müştərək istifadə olunması üçün ilk böyük addım atdıq və gələcək üçün böyük perspektivlər açdıq. Böyük sevinc hissi ilə bildirirəm ki, bizim imzaladığımız müqavilə nəzərdə tutulmuş plan, qrafik əsasında həyata keçirilibdir. 1997-ci ilin noyabrında ilkin neft almışıq, onu Bakı-Novorossiysk, Şimal marşrutu ilə ixrac edirik. Bu ilin aprel ayının 17-də isə ikinci - Qərb neft kəmərini istismara verdik. Bakı-Supsa neft kəməri vasitəsilə də nefti dünya bazarlarına ixrac edirik.

Ötən illər ərzində Azərbaycanın neft strategiyası yeni-yeni mərhələlərinə çatıbdır. Biz artıq 16 müqavilə imzalamışıq və onların da əməli surətdə həyata keçirilməsi ilə məşğuluq. Məmnuniyyətlə qeyd edirəm ki, bütün bu müqavilələrdə Amerika Birləşmiş Ştatlarının neft şirkətləri görkəmli yer tuturlar. Ötən dövrdə onlar Azərbaycana külli miqdarda investisiya qoyublar və Amerika Birləşmiş Ştatlarının neft şirkətləri demək olar ki, Azərbaycanın Xəzər dənizində, Azərbaycanda neft strategiyasının həyata keçirilməsində aparıcı rol oynayırlar.

Neft strategiyamız dünyada böyük əks-səda yaratmış, dünyanın bir çox ölkələrində maraq və müsbət münasibət doğurmuşdur.

Amma eyni zamanda bizə qarşı əks münasibət də, bizim neft strategiyamıza mane olmaq cəhdləri də müşahidə edilmişdir. Biz bu yolda böyük sınaqlardan keçmişik, böyük çətinliklərin öhdəsindən gəlmişik, böyük maneçiliklərin qarşısını almışıq və bu işlərdə Amerika Birləşmiş Ştatları, onun hökuməti, Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klinton, ABŞ-ın Energetika Nazirliyi, Ticarət Nazirliyi, digər nazirliklər, Amerika Birləşmiş Ştatlarının Senatı və Konqresi bizə həmişə dəstək vermiş, yardım etmişlər.

Bütün bunlara görə mən bu gün sizə, Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klintona, bizə dəstək verən bütün nazirliklərə, Konqresə, Senata öz təşəkkürümü, minnətdarlığımı bildirirəm.

1994-cü ildən sonra bizim neft müqavilələrinin həyata keçirilməsi sahəsində Azərbaycana qoyulan investisiyaların əksəriyyətini Amerika Birləşmiş Ştatlarının neft şirkətləri qoyublar. Azərbaycana bir milyard dollardan artıq Amerika kapitalı gəlibdir və bu müqavilələrlə, onların həyata keçirilməsi üçün nəzərdə tutulmuş investisiyaların ümumi həcmi 50 milyard dollara qədərdir.

Bu gün "Eksson" şirkətinin Azərbaycan Dövlət Neft Şirkəti ilə imzalayacağı müqavilədə Xəzər dənizinin Azərbaycan sektorunda "Zəfər" və "Məşəl" neft yataqlarında iş görmək üçün 5 milyard dollar həcmində investisiya nəzərdə tutulubdur. "Mobil" şirkətinin Azərbaycan Dövlət Neft Şirkəti ilə imzalayacağı müqavilədə Xəzər dənizinin Azərbaycan sektorunda "Savalan", "Dalğa", "Lerik-dəniz" və "Cənub" neft yataqlarında investisiyanın həcmi 4,5 milyard dollar olacaqdır. "Monkrif Oyl" şirkəti isə "Padar" sahəsində quruda olan neft yataqlarında Azərbaycan Dövlət Neft Şirkəti ilə müqavilə imzalayacaqdır. Senator xanım Hatçinson narahat olmasın, onların üzərinə investisiyanın qalmış hissəsi düşür.



Hörmətli dostlar!

Biz 1997-ci ilin avqust ayının 1-də Vaşinqtonda, Ağ evdə Amerika Birləşmiş Ştatlarının şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında dörd müqavilə imzaladıq. Bizim üçün çox əhəmiyyətlidir ki, ikinci dəfə Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda, bu dəfə Konqresin binasında biz yeni üç neft müqaviləsi imzalayırıq.

Bügünkü hadisənin ən maraqlı cəhəti bir də ondan ibarətdir ki, biz neft sahəsindən kənara çıxıb insanlar üçün çox vacib, əhəmiyyətli olan səhiyyə sahəsində də əməkdaşlığa başlayırıq və burada bu gün bir müqavilə imzalanacaqdır ki, Debeyki mərkəzinin Azərbaycanda ürək-damar xəstəliklərinin müalicə edilməsi üçün yeni bir tibb mərkəzinin yaradılması ilə əlaqədar biz işə başlayırıq. Bunlar hamısı Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələrin ardıcıl surətdə inkişaf etməsini, möhkəmlənməsini və genişlənməsini sübut edir.

Biz Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaşlıq əlaqələri yaratmışıq və bu əlaqələr çərçivəsində öz işimizi aparır, bu əlaqələri inkişaf etdirməyə çalışırıq. Neft sahəsində imzaladığımız müqavilələr və artıq əldə etdiyimiz nailiyyətlər ölkələrimiz arasında siyasi, iqtisadi, elmi, mədəni sahələrdə də əlaqələrin inkişaf etməsinə böyük imkanlar yaradır. Biz bunlara yüksək qiymət veririk və sizi əmin edirəm ki, biz bu əlaqələrin gələcəkdə də inkişaf etməsi üçün əlimizdən gələni edəcəyik.

Senator Hatçinson Azərbaycan Prezidentini - məni Amerikanın böyük dostu kimi təqdim etdi. Mən həqiqətən dostam və dostluğumdan da şərəf, qürur hissi duyuram. Biz Amerika Birləşmiş Ştatlarını, hörmətli dostlar, sizi özümüzün böyük dostumuz hesab edirik, bu dostluğa sadiqik və sadiq də olacağıq.

Bizim apardığımız siyasət Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsini təmin edibdir. Amerika Birləşmiş Ştatları ilə indi mövcud olan əlaqələrimiz Azərbaycanın müstəqil siyasət aparmasını dünyaya nümayiş etdirib və Azərbaycanın müstəqilliyinin daimi, əbədi olduğunu sübut edir. Əmin ola bilərsiniz ki, Azərbaycan Amerika Birləşmiş Ştatlarının dostu, sədaqətli tərəfdaşı kimi öz öhdəliklərinə həmişə sadiq olacaqdır.

Mən sizin hamınızı bugünkü əlamətdar tarixi hadisə münasibətilə təbrik edirəm. Hamınıza cansağlığı və səadət arzulayıram. Amerika xalqına sülh, əmin-amanlıq, onun hökumətinə və dövlətinə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi, dəfələrlə gurultulu, sürəkli alqışlarla qarşılandı.

Senator **Key Beyli Hatçinson** dedi:

- Cənab Prezident, çox sağ olun. İndi isə birinci müqavilənin imzalanmasına başlayırıq. Mən məmnuniyyətlə bildirirəm ki, birinci müqavilə Amerika işgüzarlığının bariz nümunəsi olacaqdır.

"Monkrif Oyl" şirkətini burada təmsil edəcək və onun adından imza atacaq şəxs - cənab Riçard Monkrif mənimlə bərabər Texas universitetində təhsil alıbdır. "Monkrif Oyl" şirkəti bir ailə tərəfindən idarə olunan şirkətdir və bu gün burada cənab Riçard Monkriflə bərabər, onun qardaşı öz xanımı ilə bərabər iştirak edir.

Sonra müqavilələrin imzalanması mərasimi oldu.

Azərbaycan Dövlət Neft Şirkəti ilə "Monkrif Oyl" və "Eksson" şirkətləri arasında müqavilələri ARDNŞ-nin prezidenti Natiq Əliyev, bu şirkətlərin rəhbərləri Riçard Monkrif, Terri Kunts imzaladılar.

ARDNŞ ilə "Mobil" şirkəti arasında müqaviləni Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezident İlham Əliyev və "Mobil" şirkətinin prezidenti Uilyam Skoginz imzaladılar.

Xanım **Key Beyli Hatçinson** dedi:

- Bununla da neft müqavilələrinin imzalanması başa çatır. Bu, Amerika və Azərbaycan üçün yeni iş yerlərinin açılması deməkdir. Mərasimdə iştirak etdiklərinə görə ABŞ-ın ticarət naziri cənab Uilyam Deyliyə və energetika nazirinin müavini cənab T.C.Qlatyeyə təşəkkürümü bildirirəm.

Xanım **Key Beyli Hatçinson** axırda dedi:

- Cənab Prezident!

Hörmətli qonaqlar!

İndi isə daha bir şəxsi - Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı səfiri cənab Hafiz Paşayevi sizə təqdim etmək istəyirəm. Onun xidmətləri olmasaydı, biz bu gün bu mərasimə toplaşa bilməzdik. Cənab Prezident, Sizə bildirmək istəyirəm ki, o, Sizin ölkənizi - Azərbaycanı burada çox gözəl təmsil edir.

Əziz dostlar, bununla da mərasim başa çatır və beləliklə, biz Azərbaycan ilə Amerika arasında uzunmüddətli münasibətlərin gücləndirilməsi işinə yeni bir töhfə vermiş olduq. Sağ olun.

VAŞİNQTON, 12 SENTYABR 2000-Cİ İL



# "Mişovdağ" və "Kələməddin" yataqlarının birgə işlənməsi haqqında sazişin imzalanması

2000-ci il sentyabrın 12-də Vaşinqtonda, ABŞ Konqresinin binasında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Amerikanın "Monkrif Oyl" və Türkiyənin "Petoyl" şirkətləri arasında "Mişovdağ" və "Kələməddin" yataqlarında hasilatın pay bölgüsünə dair sazişin imzalanması mərasimi keçirildi.

İmzalanma mərasimində Azşrbaycan Prezidenti Heydər Əliyev iştirak edirdi.

Mərasimi xanım Key Beyli Hatçinson açdı.

**Senator Key Beyli Hatçinsonun çıxışı**

- Cənab Prezident!

Sizi Amerika Birləşmiş Ştatlarında bir daha salamlayırıq və "Amerika Konqresinin binasına, "Mənsfild" otağına xoş gəlmisiniz!" deyirik.

Bu gün bu əlamətdar hadisə ölkələrimizə fayda gətirəcəkdir. Bugünkü hadisədən sonra Azərbaycana çox böyük investisiya qoyulacaq və Azərbaycanla uzunmüddətli tərəfdaşlıq yaradılacaqdır.

Cənab Prezident, bu günlər biz Amerikada yanacaq qıtlığı hiss edirik. Onu da deyim ki, tarixdə neftin ən yüksək qiyməti məhz indiki dövrə təsadüf edir. Dünya iqtisadiyyatı inkişaf etdikcə, yeni-yeni iş yerləri yaradıldıqca energetika sənayesinə daha böyük ağırlıq düşməkdədir. Ona görə də Xəzər dənizi regionunun indiki zamanda dünyaya açılması həm bizim ölkəmiz üçün, həm də bütün dünya üçün böyük faydalar gətirəcəkdir. Biz artıq Xəzər dənizinə dünya iqtisadiyyatına böyük töhfə verə biləcək yeni mənbə kimi baxırıq.

Hesab edirik ki, Xəzər dənizinin ehtiyatları sayəsində dünya iqtisadiyyatı, o cümlədən enerji sektoru da inkişaf edəcəkdir. Biz gələcəkdə də belə müqavilələrin daha çox imzalanmasını gözləyəcəyik və Xəzər neftini dünya bazarlarına ixrac edəcək iri boru kəmərinin çəkilməsi münasibətilə keçiriləcək bayram şənliklərində birlikdə böyük ümidlə iştirak edəcəyik.

İndi isə mən sözü cənab Yan Kalitskiyə verirəm. Cənab Yan Kalitski Amerika Birləşmiş Ştatları ticarət nazirinin xüsusi müşaviridir. Eyni zamanda o, bizim dövlətimizin Xəzər dənizi regionunda enerji məsələlərinə dair əməkdaşlığı ilə məşğuldur. Əslində, cənab Kalitskinin belə bir vəzifəyə təyin olunması Amerika Birləşmiş Ştatlarının Xəzər dənizinə və Xəzər regionunda yerləşən ölkələrlə əməkdaşlığa verdiyi böyük əhəmiyyətin nümayişidir.

Amerika Birləşmiş Ştatlarının ticarət nazirinin xüsusi müşaviri Yan Kalitskiyə söz verildi.

**ABŞ ticarət nazirinin xüsusi müşaviri Yan Kalitskinin çıxışı**

- Mən xanım Hatçinsona təşəkkür edirəm. Hər şeydən öncə bu gözəl təqdimat üçün Sizə təşəkkürümü bildirirəm. Xanım Hatçinsonun bu əla təqdimatı bir daha onu göstərir ki, Amerika Birləşmiş Ştatlarının həm Senatında, həm Konqresində, həm də icra orqanlarında, hökumətində, hər iki partiyasında Xəzər regionu ilə əməkdaşlığa dair qəti rəy və fikir vardır. Eyni zamanda biz bir məsələdə də yekdil fikirdəyik. O da Azərbaycanın müstəqilliyi, iqtisadi cəhətdən inkişaf etməsi və Amerika ilə Azərbaycan arasında daha sıx təmaslarm yayadılmasına nail olmaq məsələsidir.

Mən bu gün burada Amerika Birləşmiş Ştatlarının ticarət nazirini təmsil etməkdən qürur duyuram. Xatırlayırsınızsa, mən keçən il burada, mötəbər bir tədbirdə də Ticarət Nazirliyimizi təmsil etmişdim. O vaxt bu şirkət ilə buna bənzər bir müqavilə imzalanırdı.

Bu gün çox mühüm şirkət olan "Monkrif Oyl" şirkəti ilə Azərbaycan arasında ikinci müqavilənin bağlanması Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında enerji sahəsindəki əməkdaşlığın çox böyük təcəssümüdür. Biz Prezident Əliyevi və cənab Riçard Monkrifi təbrik edirik və ümidvar olduğumuzu bildiririk ki, Azərbaycanda Amerika şirkətlərinə bundan sonra da daha yaxşı, səmərəli şərait yaradılacaqdır.



Çox sağ olun.

Sonra Birləşmiş Ştatların energetika nazirinin müavini Devid Qoldman çıxış etdi.

**ABŞ-ın energetika nazirinin müavini Devid Qoldmanın çıxışı**

- Çox sağ olun. Mən bu mühüm, əlamətdar hadisədə nazir Bill Riçardsonu təmsil etməyimdən qürur duyuram. Hasilatın pay bölgüsü üzrə bu müqavilənin imzalanması münasibətilə nazir Riçardsonun ən xoş salamlarını və arzularını Prezident Heydər Əliyevə, Azərbaycan hökumətinin nümayəndələrinə, Dövlət Neft Şirkətinə və "Monkrif Oyl" şirkətinə çatdırmaq istəyirəm. İndi imzalanacaq bu saziş Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında mövcud olan tərəfdaşlığa bariz nümunədir. Eyni zamanda biz bu müqaviləyə Şərq-Qərb enerji dəhlizinə əlavə bir töhfə kimi baxırıq. Ümidvar olduğumuzu bildiririk ki, Şərq-Qərb enerji dəhlizi həm Azərbaycanın, həm də regionun digər dövlətlərinin iqtisadi inkişafına xidmət edəcək və xalqların maddi rifah halının yüksəlməsinə kömək göstərəcəkdir. Mən Şərq-Qərb enerji dəhlizinə verdiyi önəmə, göstərdiyi diqqətə görə bu mühüm imzalanma mərasimində Prezident Əliyevə bir daha təşəkkür etmək və bu münasibətlə onu təbrik etmək istəyirəm.

İndi isə icazə verin, nazir Riçardsonun Prezident Əliyevə və "Monkrif Oyl" şirkətinə ünvanladığı təbrik məktubunu oxuyum:

*"Cənab Prezident, "Monkrif Oyl İntənəşnl" şirkəti ilə hasilatın pay bölgüsü üzrə müqavilənin imzalanması münasibətilə Sizi təbrik edirəm. Bu müqavilə ölkələrimiz arasında qarşılıqlı faydalı iqtisadi əlaqələri daha da gücləndirməyə və Azərbaycan ilə Amerika biznesi arasında daha sıx təmaslar yaradılmasına xidmət edir. Qurudakı yataqlara dair imzalanmış birinci müqavilənin hasilatın pay bölgüsü üzrə sazişə çevrilməsini göstərən bu imzalanma mərasimi Azərbaycanda yeni böyük imkanların olmasını sübut edir. Əminəm ki, bu müqavilə Şərq-Qərb nəqliyyat dəhlizinin güclənməsinə öz töhfəsini verəcəkdir və bu dəhliz region dövlətlərinin tərəqqisinə xidmət etməklə bərabər, həm də Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında əlaqələrin daha da möhkəmlənməsinə kömək edəcəkdir.*

*Mən Azərbaycanın müstəqilliyinin daha da gücləndirilməsi, regional əməkdaşlığın inkişaf etdirilməsi və Amerika şirkətlərinin Azərbaycana geniş sərmayə qoyması istiqamətində Sizinlə əməkdaşlığımı bundan sonra da davam etdirəcəyəm.*

*Səmimiyyətlə,*

*Bill Riçardson".*

Amerika Birləşmiş Ştatlarının Prezidenti və Dövlət katibinin Xəzər hövzəsinin enerji məsələləri üzrə xüsusi müşaviri, səfir Con Vulfa söz verildi.

**ABŞ Prezidentinin və Dövlət katibinin Xəzər hövzəsinin enerji məsələləri üzrə xüsusi müşaviri, səfir Con Vulfun çıxışı**

- Cənab Prezident!

Hörmətli senatorlar Hatçinson, Qrem!

"Monkrif Oyl" şirkətinin, Azərbaycan Dövlət Neft Şirkətinin rəhbərləri!

Bu əlamətdar hadisənin baş tutmasına imkan yaratdığınız üçün sizin hamınıza təşəkkür edirəm.

Hesab edirəm ki, bugünkü əlamətdar hadisə bir neçə mesaj verir. Bunlardan birincisi, Prezident Əliyevin dəfələrlə bəyan etdiyi kimi, Amerika Birləşmiş Ştatlarının daha çoxsaylı şirkətlərinin Azərbaycana cəlb olunması və Azərbaycana investisiya qoyulmasına nail olmasıdır. Onu da deyim ki, bu dəstəyə, Azərbaycanda fəaliyyət göstərən investorlar qrupuna növbəti, yeni bir töhfə ilə Texası təmsil edən "Monkrif Oyl" şirkəti də qoşulur.

İkincisi, dünən Amerika-Azərbaycan Ticarət Palatasının konfransında deyildiyi kimi, bu, ona görə baş verir ki, Azərbaycan öz enerji sektoruna sərmayələrin cəlb olunması üçün əlverişli, qabaqcadan proqnozlaşdırıla bilən və etibarlı şərait yaradıb, müvafiq qanunvericilik bazası formalaşdırıbdır. Ümidvar olduğumuzu bildiririk ki, enerji sektoruna aid olan bu ənənə Azərbaycan iqtisadiyyatının digər sahələrinə də yayılacaqdır. Beləliklə, Azərbaycanın iqtisadiyyatının bütün sahələri inkişaf edərək ölkənin ümumi iqtisadi inkişafına təkan verəcəkdir.

Üçüncüsü isə, demək istəyirəm ki, Azərbaycan barədə yazarkən elə bilirlər ki, Azərbaycanın nefti ancaq "Çıraq" yatağındadır. Mən əminəm, bu müqaviləni imzalamaqla Siz sübut edəcəksiniz ki, Azərbaycanın enerji sərvətləri təkcə "Çıraq" yatağı ilə məhdudlaşmır. Quruda da çox böyük, zəngin neft yataqları vardır.

Məni burada tanıyanlar bilirlər ki, əgər Bakı-Tbilisi-Ceyhan layihəsinə toxunmasam, yaxşı olmaz. Ona görə mən bu məsələ ilə əlaqədar fikrimi söyləyəcəyəm. "Monkrif Oyl" şirkətinin istismar edəcəyi yataq bilavasitə Bakı-Tbilisi-Ceyhan kəmərinin keçəcəyi yolun üzərində yerləşir. Cənab Riçard Monkrif, ona görə ümidvaram ki, Siz o yataqda neft tapan kimi, başqa yerdə kəmər axtarmayacaqsınız. Nefti elə öz qapınızın kandarında olan bu boru kəmərinə dolduracaqsınız. Beləliklə, bu boru kəmərinin çəkilməsinə və inkişaf etdirilməsinə töhfənizi verəcəksiniz.





Mən bir mühüm məsələni də bildirmək istəyirəm. Bu mötəbər tədbirin məhz senatorlar Hatçinsonun, Qremin iştirakı və təşəbbüsləri ilə Kapitolidə, Amerika Birləşmiş Ştatları Konqresinin binasında keçirilməsi əyani surətdə göstərir ki, Birləşmiş Ştatların Azərbaycana və Xəzər regionuna doğru istiqamətlənmiş yekdil siyasəti vardır. Gördüyünüz kimi, bu siyasətə hər iki partiyanın dəstəyi vardır. Ümidvaram ki, bizim bu siyasətimiz gələcəkdə də davam edəcəkdir.

Konqresdə baş verənlər bizim regiona yönəlmiş siyasətimizin formalaşmasında, həyata keçirilməsində mühüm rol oynayır və buna böyük təsir göstərir. Ona görə də bildirirəm ki, biz Konqresin üzvləri ilə əməkdaşlığımızı bundan sonra da davam etdirəcəyik ki, regiona yönəlmiş siyasətimizin birgə müəyyən olunmasında səylər qoyaq, regionda ABŞ-ın maraqlarına maneələrin aradan qaldırılmasına və bu maraqların daha dərin kök atmasına nail olaq.

Mən Amerika Birləşmiş Ştatlarının hökuməti adından Azərbaycanı və "Monkrif Oyl" şirkətini təbrik edirəm. Onlara gələcək işlərində, əməkdaşlığında uğurlar arzulayıram.

**Key Beyli Hatçinson:** Mən möhtərəm Prezidentə söz verməmişdən öncə istərdim, bu gün mərasimdə çıxış etməyəcək, lakin bu tarixi müqavilənin hazırlanmasında rolu, payı olmuş şəxsləri sizə təqdim edim.

Bildirmək istəyirəm ki, möhtərəm Prezident ilə bərabər, mərasimimizdə Azərbaycanın xarici işlər naziri Vilayət Quliyev də iştirak edir. Burada iki mötəbər səfir də iştirak edir. Onlardan biri Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı səfiri Hafiz Paşayevdir. Biz səfir Paşayev ilə əməkdaşlıq etməkdən böyük məmnunluq duymuşuq. Həm Azərbaycana səfərimiz çərçivəsində, həm də buradakı işlərimiz zamanı onunla birgə işləməkdən xüsusi zövq almışıq. Digər səfir isə Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Stenli Eskuderodur.

Cənab Prezident, indi isə çox böyük məmnuniyyətlə sözü Sizə verirəm. Hər ikimiz - həm senator Qrem, həm də mən Sizin ölkənizi ziyarət etmişik. Sizinlə keçirdiyimiz söhbətləri yaxşı xatırlayırıq. Ümidvarıq ki, ölkənizlə Amerika Birləşmiş Ştatları arasında və bizim təmsil etdiyimiz Texas ştatı arasında münasibətlər, əlaqələr bundan sonra daha da inkişaf edəcəkdir.

Cənab Prezident, onu da nəzərinizə çatdırıram ki, Alyaskanı təmsil edən çox hörmətli senator Ted Stivens də bizim mərasimimizdə iştirak edir. Bildiyiniz kimi, o, Maliyyə Komitəsinin rəhbəridir və Amerikanın Azərbaycanda fəaliyyət göstərən neft şirkətlərinə ən böyük dəstək verən senatorlardan biridir.

İndi isə böyük qürur hissi ilə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə söz verirəm.

**Azərbaycan Prezidenti**
**Heydər Əliyevin nitqi**

- Hörmətli senator xanım Hatçinson!
Hörmətli senator cənab Qrem!
Hörmətli senator cənab Stivens!
Hörmətli dostlar!
Hörmətli xanımlar və cənablar!

Mən Sizin hamınızı burada, Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda, Kapitolidə, bu tarixi binada, tarixi bir təşkilatın yerləşdiyi yerdə səmimi qəlbdən salamlayıram. Sizə həm öz salamımı, həm də bütün müstəqil Azərbaycanın salamını çatdırıram və hamınıza ən xoş arzularımı bildirirəm.

Biz bu gün Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf etməsi və irəliyə getməsində yeni bir əlamətdar hadisənin şahidiyik. Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra, 1994-cü ildən etibarən ölkəmizin enerji ehtiyatlarının - həm Xəzər dənizinin Azərbaycan sektorunda olan neft və qaz yataqlarının, həm də quruda olan neft və qaz yataqlarının dünyanın böyük neft şirkətləri ilə, birinci növbədə Amerika Birləşmiş Ştatlarının böyük neft şirkətləri ilə müştərək işlənilməsi prosesinə başlamışıq. İlk addımlarımız çox çətin, ağır olubdur, böyük müqavimətlərlə, böyük təzyiqlərlə rastlaşıbdır.

Ancaq bunlara baxmayaraq, biz öz iradəmizdən dönməmişik və bu sahədə tutduğumuz yolun doğru olduğunu dərk edərək bu yol ilə getmişik və bu gün də gedirik.

1994-cü il sentyabr ayının 20-də biz ilk böyük müqavilə imzaladıq. Dünyanın 11 böyük neft şirkəti, - onların əksəriyyətini Amerika Birləşmiş Ştatlarının şirkətləri təşkil edirdilər, - bir yerə toplaşıb konsorsium təşkil etdilər və Azərbaycan dövləti ilə, Azərbaycan Dövlət Neft Şirkəti ilə ilk müqavilə imzaladılar. Bu müqavilə dünyada böyük əks-səda doğurdu, hay-küyə səbəb oldu və heç bilmirəm, kimsə bu müqavilənin adını "Əsrin müqaviləsi" qoydu. Hər halda bu ifadəni mən ilk dəfə Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klintonun bu müqavilə münasibətilə mənə yazdığı məktubda gördüm. Ondan sonra "Əsrin müqaviləsi" adı, demək olar ki, dünyada "vətəndaşlıq" qazandı.

Çətin bir dövr idi. Biz cəmi üç il idi müstəqil dövlət idik. Ermənistan ilə Azərbaycan arasında müharibə gedirdi. Bilirsiniz ki, müharibə Ermənistanın Azərbaycana qarşı torpaq iddiası ilə əlaqədardır və təəssüflər olsun ki, müxtəlif səbəblərdən bu müharibə nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal etməyə nail oldular. İşğal olunmuş ərazilərdən bir milyondan artıq azərbaycanlı zorla yerindən-yurdundan çıxarıldı. Onlar indiyə qədər çadırlarda yaşayırlar.

Mən xatırlayıram. 1994-cü il sentyabr ayının 20-də biz bu müqaviləni Bakıda, "Gülüstan" sarayında təntənə ilə imzalayanda o vaxt Azərbaycanda baş nazir olan, amma həqiqətən çox mənfi bir şəxs söyləmişdi ki, biz bunu bir-iki günə cırıb atacağıq. Müqaviləni cırıb ata bilmədilər. Ancaq həmin qüvvələr bu müqavilənin qarşısını almaq üçün, Amerika Birləşmiş Ştatları ilə bizim əlaqələrimizin yaranmasının qarşısını almaq üçün bir həftədən sonra Azərbaycanda silahlı dövlət çevrilişi cəhdi göstərdilər. Ancaq bizim xalqımız müstəqil Azərbaycan dövlətini, onun Prezidentini müdafiə etdi. Silahsız bir milyon vətəndaş Prezident sarayının ətrafına toplaşdı. Ona görə silahlı adamlar bizə heç bir şey edə bilmədilər.

Sonrakı dövrlər də bizim üçün çox çətin idi. Çünki həm Azərbaycanın daxilində olan bəzi qüvvələr, həm də Azərbaycanı öz təsir dairəsində saxlamaq istəyən ölkələr Azərbaycanın Amerika Birləşmiş Ştatları ilə yaranmış və sürətlə inkişaf edən əlaqələrini istəmirdilər, bunun qarşısını almaq istəyirdilər.

Ötən altı il müddətində biz bu yol ilə gedərək çox böyük müqavimətlərlə rastlaşdıq. Əgər bu tarixi sizə danışsam, gərək məni beş-altı saat dinləyəsiniz. Amma mən bunu etmərəm. Sadəcə onu demək istəyirəm ki, biz bu işləri nə qədər ağır vəziyyətdə başlamışıq. İndi isə biz qalibik. Tutduğumuz yolda çox böyük nailiyyətlər əldə etmişik.

Bu gün 20-ci müqavilə imzalanır. Onlardan bir qismi Azərbaycanda imzalanıbdır. Mən 1997-ci ildə Vaşinqtonda olarkən Ağ evdə dörd müqavilə imzalandı. "Monkrif Oyl" ilə müqavilə keçən il bu binada imzalandı. İndiyədək bunların sayı 19 idi. 20-cisi bu gün imzalanır. Bunların böyük gələcəyi vardır. XXI əsrdə bizim övladlarımız, bizdən sonra gələn nəsil bunlardan çox səmərəli istifadə edəcəkdir. Ancaq indi də biz bunun müsbət nəticələrini görürük.







Bəli, "Çıraq" yatağından ilk neftin alınmasını biz qarşımıza məqsəd qoyduq və 1997-ci ildə oradan ilk neft aldıq. Çox gözəl, müasir bir platforma yaratdıq. Artıq indi orada 10 milyon tondan çox neft hasil olunub və iki boru kəməri ilə - Bakı-Novorosiysk, Bakı-Supsa boru kəmərləri ilə bu nefti birlikdə ixrac edirik.

Əsas ixrac boru kəməri isə Bakı-Tbilisi-Ceyhandır. Bunun üzərində biz bir neçə il işlədik və Amerika Birləşmiş Ştatlarının hökuməti, Prezidenti və nazirləri bu sahədə çox çalışdılar. Nəhayət, biz keçən ilin noyabr ayında İstanbulda, ATƏT-in zirvə görüşü zamanı bu müqaviləni imzaladıq. Dörd respublikanın Prezidenti ilə bərabər, Amerikanın Prezidenti cənab Bill Klinton da imzaladı.

Bizim parlamentdə artıq bu müqaviləni ratifikasiya ediblər. İndi biz Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə başlayırıq. Bu proqramın da qarşısını almaq istəyirlər. Ancaq bizim iradəmiz möhkəmdir. Xüsusən Amerika Birləşmiş Ştatları, onun hökuməti, Konqresi bu proqrama çox böyük əhəmiyyət verir. İndi artıq bizim üçün çətinliklərin qarşısını almaq əvvəlkilərə nisbətən asandır. O vaxt tək idik. Amma indi dünyanın 14 ölkəsini təmsil edən 30 böyük neft şirkəti Azərbaycanda iş görür.

İmzalanmış müqavilələr üzrə Azərbaycana bu sahədə 60 milyard dollara qədər investisiya qoyulacaqdır. Bu işlərin təxminən 30 faizi Amerika Birləşmiş Ştatlarının şirkətlərinə aiddir. Siz bəzi şirkətlərinizi əlinizdə saxlaya bilmədiniz. Çünki "Əsrin müqaviləsi"nin əsasını qoyanlardan biri olan "Amoko" şirkəti "bp" ilə birləşdi. "Arko"da "bp" ilə birləşdi. Amma bu, sizin işinizdir. Biz buna qarışmırıq. Əsas odur ki, biz bu şirkətlərlə əməkdaşlıq edirik. Amma hansı şirkət daha çox başqa şirkəti əlinə alırsa, təbiidir ki, o, hər şeyə nəzarət edir. Dünən öyrəndim ki, "Şevron" şirkəti hələ ki, öz müstəqilliyini qoruyubdur.

Müstəqillik bizim üçün çox müqəddəs anlayışdır. Biz dövlət müstəqilliyini göz bəbəyimiz kimi qoruyuruq və qoruyacağıq. Əgər Azərbaycan öz dövlət müstəqilliyini əldə etməsəydi, indi biz bu cür böyük işlər görə bilməzdik. Mən də Vaşinqtonda, Kapitolidə sizinlə bərabər otura bilməzdim. Azərbaycanın dövlət müstəqilliyi, Azərbaycan-Amerika dostluq, əməkdaşlıq əlaqələri bütün bu müqavilələrin həyata keçirilməsinin əsas təminatıdır.

Son beş ildə Amerika Birləşmiş Ştatlarının şirkətləri Azərbaycana 1 milyard 600 milyon dollar investisiya qoyublar. Bunun 1 milyard 400 milyon dolları neft sektoruna aiddir. Ümumiyyətlə, beş ildə Azərbaycana 5,2 milyard dollar xarici investisiya gəlibdir. Yəni inkişafımız üçün çox gözəl əsas yaratmışıq. Bu işlərimizdə biz Amerika Birləşmiş Ştatlarına arxalanırıq, güvənirik. Hesab edirik ki, Amerika Birləşmiş Ştatlarının dövləti, hökuməti bizi heç vaxt çətinlikdə qoymayacaqlar.

Keçən il biz burada "Monkrif Oyl" şirkəti ilə bir müqavilə imzaladıq. Bu şirkəti mənə təqdim edəndə bir çox mötəbər insanlar şirkət haqqında, onun tarixi barədə çox gözəl fikirlər söylədilər. Bu şirkət bir ailəyə məxsus olan şirkətdir və bu ailə də Amerika Birləşmiş Ştatlarında çox böyük hörmətə malikdir. Bu, bizim üçün çox əhəmiyyətlidir. Müqaviləni imzalamaq haqqında təklif gələndə, təbiidir ki, bizim müəyyən suallarımız var idi. Amma onları da həll etdik və bu gün böyük məmnuniyyətlə ikinci müqavilənin imzalanmasında sizinlə bərabər iştirak edirəm.

"Monkrif Oyl"un həm birinci, həm də ikinci müqaviləsi Azərbaycanın quru sektorunda olan neft yataqlarına aiddir. Bizim mütəxəssislər, geoloqlar hesab edirlər ki, 1848-ci ildən Azərbaycanda sənaye üsulu ilə neft hasil olur. İndiyə qədər Azərbaycanın quru hissəsində neftin 70 faizi hələ çıxarılmayıbdır. Ona görə "Monkrif Oyl" şirkətinin məhz bu yataqlara maraq göstərməsi bizim üçün həm konkret bu fakta görə, həm də gələcək işlərimiz üçün çox əhəmiyyətlidir. Əmin ola bilərsiniz ki, başqa müqavilələrdən fərqli olaraq, mən bu müqavilənin həyata keçirilməsinə xüsusi diqqət verəcəyəm və lazım olan bütün yardımları edəcəyəm.

Mən bu hadisə münasibətilə sizi təbrik edirəm. "Monkrif Oyl" şirkətinə Azərbaycanda böyük uğurlar arzulayıram. Şübhə etmirəm ki, bu gün imzalanmış müqavilənin əməli nəticələrini yaxın vaxtlarda görəcəyik.

Sağ olun. Təşəkkür edirəm.

Prezident Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və alqışlarla qarşılandı.

Daha sonra ARDNŞ, "Monkrif Oyl" və "Petoyl" şirkətlərinin rəhbərləri "Mişovdağ" və "Kələməddin" yataqlarında hasilatın pay bölgüsünə dair saziş imzaladılar. Amerika Birləşmiş Ştatları Senatının Maliyyə Komitəsinin sədri, senator **Ted Stivens** Azərbaycan Prezidenti Heydər Əliyevi sazişin imzalanması münasibətilə təbrik edərək dedi:

- Cənab Prezident, mən bu mötəbər hadisə münasibətilə Sizinlə görüşməyimdən və Sizi müşayiət edən nümayəndə heyətini burada görməyimdən məmnun olduğumu bildirirəm.

Cənab Prezident, Siz çıxışınızda çox haqlı olaraq qeyd etdiniz ki, bu müqavilənin imzalanması ölkəniz üçün əldə etdiyiniz nailiyyətlərin, qələbələrin simvollarından biridir. Bu qələbə - ölkənizə gətirdiyiniz azadlıq, müstəqillik qələbəsi respublikanızın digər dövlətlərlə, onları təmsil edən şirkətlərlə açıq müqavilələr imzalamaq hüquqlarını həyata keçirə bilməyin təntənəsidir. Mənim təmsil etdiyim ştatda bu müqaviləyə çox böyük önəm verirlər. Çünki bizdə müqaviləyə qarşılıqlı fəaliyyət göstərərək nailiyyət əldə etmək üçün öhdəliklərə imza atmaq kimi baxırlar. Bizdə belə deyirlər ki, əgər vəd verdinsə, o, ödənilməmiş borc deməkdir.

Cənab Prezident, ölkənizdə azadlığın mərhələlərindən istifadə etdiyiniz bir zamanda biz Sizinlə tərəfdaş olmaqdan və Sizinlə birgə əməkdaşlıq etməkdən qürur duyuruq. Bu gün geniş nitqinizdə söylədiyiniz yeni hadisələrlə daha yaxından tanış olmaq üçün bizim Senatın Maliyyə Komitəsinin bir qrup üzvü gələn ilin yazında Azərbaycanı ziyarət etməyi planlaşdırır. Sizə bir daha təşəkkür edirəm.

Sonra senator **Bill Qrem** əlamətdar hadisə ilə əlaqədar mərasim iştirakçılarını təbrik edərək dedi:

- Cənab Prezident, Sizi yenidən burada görməkdən məmnunluq duyuruq. Biz bu gün bura toplaşmışıq ki, iki azad xalqın qələbəsini bayram edək. Biz bu müqavilələrə iki azad xalqın öz azadlığından istifadə edərək bir-biri ilə əlaqə yaratması kimi baxırıq. Əminik ki, bu münasibətlərdən hər iki tərəf, xalq faydalanacaqdır. Müqavilənin ən əsas məğzi, əhəmiyyəti ondan ibarətdir ki, bu, həm Azərbaycanda, həm də Amerika Birləşmiş Ştatlarında yeni iş yerləri açacaq və enerji sektorunun daha dinamik inkişafına kömək etməklə bərabər, iqtisadiyyatın digər sahələrinin də inkişafına kömək göstərəcəkdir.

Bu gün mərasimdə senator xanım Hatçinson ilə bərabər iştirak etməyimizdən xüsusilə məmnunuq. Ona görə ki, bu müqavilə bizim təmsil etdiyimiz ştatın ən dəyərli ailələrinin birinin sahibi olduğu şirkət ilə imzalanır. Bu ailənin çox böyük tarixi vardır. Bu ailə ilə bizim qədim əlaqələrimiz mövcuddur.

İcazə verin, bir daha sizin hamınızı təbrik edim, mənim bu mötəbər mərasimdə iştirak etməyimə imkan yaratdığınıza görə hamınıza təşəkkürümü bildirim.

Key Beyli Hatçinson: Cənab Prezident, bu mötəbər hadisənin yaddaşınızdan silinməməsi üçün, icazə verin, senator Qremin adından və öz adımdan bu hədiyyəni Sizə təqdim edim.

Senator xanım Key Beyli Hatçinson Prezident Heydər Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

BAKI, 9 YANVAR 2001-Cİ İL



# "Zığ" və "Hövsan" yataqlarının birgə işlənməsi haqqında sazişin imzalanması

2001-ci il yanvarın 9-da Bakıda, Prezident sarayında Rusiya ilə Azərbaycan arasında neft sazişinin imzalanması mərasimi oldu.

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin iştirak edirdilər.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, "LUKoyl Oversiz Abşeron LTD" ilə ARDNŞ-nin Ortaq Neft Şirkətinin arasında Azərbaycan Respublikasındakı "Zığ" və "Hövsan" neft yataqlarını əhatə edən blok üzrə bərpa, kəşfiyyat, işlənilmə və hasilatın pay bölgüsü haqqında saziş imzalandı.

Sazişi Azərbaycan tərəfindən ARDNŞ-nin prezidenti Natiq Əliyev, Rusiya tərəfindən Rusiya Federasiyasının "LUKoyl" neft şirkətinin prezidenti Vahid Ələkbərov imzaladılar.

Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında Rusiya Federasiyasının və Azərbaycan Respublikasının birgə bəyanatını və Bakı bəyannaməsini Azərbaycan tərəfindən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Rusiya tərəfindən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin imzaladılar.








# Xəzərdə neft hasilatının yeni dövrü başlanır

BAKI, 24 AVQUST 1996-CI İL




# "Dədə Qorqud" qazma qurğusunun işə salınması

1996-cı il avqustun 24-də "Dədə Qorqud" yarımdalma qazma qurğusunda bərpa işlərinin başa çatması və qurğunun işə salınması münasibətilə Bakı dərin dəniz özülləri zavodunda təntənəli mərasim keçirildi.

Qazma qurğusunun mühəndisləri, fəhlələri Prezident Heydər Əliyevi gül-çiçək dəstələri ilə, hərarətlə qarşıladılar. Dövlət başçısı qurğunun xarici ölkə vətəndaşlarından və azərbaycanlılardan ibarət kollektivinin üzvlərini salamladı, qurğuda bərpa işlərinin başa çatması münasibətilə onları təbrik etdi. Prezident yüzdən çox pilləsi olan pilləkənlə bu nəhəng qurğunun göyərtəsinə qalxdı, onun demək olar ki, bütün sahəsini gəzdi, iş şəraiti ilə tanış oldu, kayutalara baxdı. Prezident Heydər Əliyev yüksəkliyi yüz metrə yaxın olan bu qurğunun ən hündür sahəsinə də baş çəkdi.

Qurğuda aparılmış əsaslı təmir və yenidənqurma işləri barədə ölkə rəhbərinə ətraflı məlumat verildi. Dövlət başçısı bu qurğunun əvvəlki və indiki vəziyyətini əks etdirən fotoşəkillərə maraqla tamaşa etdi.

Nəhəng qazma qurğusu ilə tanışlıqdan sonra Prezident Heydər Əliyev fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

***"Bu gün Azərbaycan neft sənayesinin həyatında əlamətdar hadisə baş verir. "Əsrin müqaviləsi"nin həyata keçirilməsinin nəticəsi olaraq birinci yarımdalma qazma qurğusu fəaliyyətə başlayır. Bu qurğuya bu gün xalqımız üçün əziz və müqəddəs olan "Dədə Qorqud" adı verilir. Qurğuya uzun ömür, uğurlu yol arzulayıram. Bu qurğunu bərpa edib müasir səviyyəyə çatdıranlara təşəkkür edirəm. Böyük neft müqaviləsini icra edən beynəlxalq konsorsiuma müvəffəqiyyətlər arzulayıram. Təbrik edirəm.***

***Heydər Əliyev***

***24 avqust 1996-cı il".***

Sonra Azərbaycan Prezidenti Heydər Əliyev qazma qurğusunun açılışına həsr olunmuş mitinqdə iştirak etdi. Mitinq iştirakçıları ölkə rəhbərini sürəkli alqışlarla qarşıladılar.

Mitinqdə çıxış edən ARDNŞ-nin prezidenti **Natiq Əliyev** dedi:

- Möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İcazənizlə, "Dədə Qorqud" yarımdalma üzən qazma qurğusunun açılışına həsr edilmiş mərasimi açıq elan edirəm.

Möhtərəm cənab Prezident, hörmətli qonaqlar! Yaş yarımdan azacıq çox ömrü olan "Əsrin müqaviləsi"nin həyatında bu gün mühüm və əlamətdar hadisə baş verir. Sizi buraya dəvət etmişik ki, yaxın vaxtlaradək "Xəzərdənizneft" adlandırdığımız yarımdalma qazma qurğusunun təmirinin, modernləşdirilməsinin və yenidən qurulmasının başa çatdırılmasına həsr olunmuş mərasimi təntənəli şəkildə keçirək.

Bu mərasim bizim üçün, Azərbaycan Dövlət Neft Şirkəti, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti, xarici tərəfdaşlarımız üçün həm də ona görə əhəmiyyətlidir ki, Azərbaycan Respublikasının hörmətli Prezidenti Heydər Əliyev cənabları burada şəxsən iştirak edir. Bu gün həm də ona görə əlamətdardır ki, düz 17 il bundan öncə, həmin bu gün SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Heydər Əliyevə ilk dəfə Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir. İcazə verin, bizə şərəf göstərib təşrif gətirdiyinə, işlərimizə daim diqqət və qayğı göstərdiyinə görə, ən mühüm məsələlərin həllinə şəxsən kömək etdiyinə, əlimizdən tutduğuna və qiymətli məsləhətlər verdiyinə görə neftçilər adından, çoxsaylı tərəfdaşlarımız olan xarici şirkətlər və onların mütəxəssisləri adından cənab Prezidentə dərin minnətdarlığımızı bildirək.

Hörmətli qonaqlar, sizə yaxşı məlumdur ki, məcburi işlərin minimum proqramına əməl edilməsi "Əsrin müqaviləsi"nin həyata keçirilməsində çox mühüm mərhələ olacaqdır. Bu proqrama uyğun olaraq "Azəri", "Çıraq" yataqlarında və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsində 30 ay ərzində seysmik kəşfiyyat işləri aparmaq və minimum üç kəşfiyyat quyusu qazmaq yolu ilə neftin sənaye ehtiyatları müəyyən edilməlidir. Proqramla nəzərdə tutulan bir çox mühüm tədbirlər görülmüş, o cümlədən ABƏŞ tikinti və qazma fəaliyyətinə başlayanadək seysmik kəşfiyyat işləri tikiləcək platformaların, sualtı boru kəmərlərinin, eləcə də quyuların yerlərini müəyyən etmək üçün tədqiqatlar aparılmış, ətraf mühitin vəziyyəti, ekoloji şərait və sair öyrənilmişdir. Lakin minimum proqramın həyata keçirilməsində əsas məqam, əlbəttə, indi "Dədə Qorqud" adlandırılan "Xəzərdənizneft" yarımdalma qazma qurğusunun modernləşdirilməsidir. Bunun nəinki ancaq "Azəri", "Çıraq" yataqlarına dair müqavilələrin, eləcə də sonrakı müqavilə və sazişlərin yerinə yetirilməsi üçün böyük əhəmiyyəti vardır.

"Xəzərdənizneft" qurğusu keçmiş SSRİ-nin "Sudoimport" Birliyi ilə ABŞ-ın "Armko intənəşnl" şirkəti arasında bağlanmış müqaviləyə əsasən 1976-cı il iyulun 1-də tikilib başa çatmışdır. Amerikanın "Fridn və Qoldman", Finlandiyanın "Rauma Repala" şirkətlərinin layihəsində dənizin dərinliyi 200 metrədək olan sahələrdə, altı min metrədək dərinlikdə quyular qazmaq üçün qazma qurğusu yaratmaq nəzərdə tutulurdu. Bu qurğunun ayrı-ayrı blokları və qovşaqları Həştərxana gətirilib

oradakı gəmi təmiri zavodunda quraşdırılmışdı. Avadanlığa xidmət etməkdən ötrü Azərbaycanın beş nəfər neftçisi ABŞ-da iki aylıq kursda təcrübə öyrənmişdi.

Keçmiş "Xəzərdənizneft" qurğusu 1981-ci ildə Xəzər dənizinin Azərbaycan sektorunda işə salınanda onun texniki göstəriciləri belə idi: uzunluğu 79,3 metr, eni 61 metr, iş göyərtəsinədək hündürlüyü 24,4 metr. Qazma zamanı qurğudakı əlverişli iş şəraitində 80 nəfər çalışırdı.

Qurğunun tikintisi 46 milyon ABŞ dollarına başa gəlmişdir. Bu məbləğin 13 milyon dolları əlavə işlərə sərf olunmuşdur. Qurğuda quraşdırılmış avadanlıq əsasən Amerikada və Qərbi Avropada istehsal edilmişdir. Bu qurğunun köməyi ilə 1981-ci ildən başlayaraq bir sıra quyular qazılmışdır: "Günəşli" yatağında 1982-ci ildə 5 nömrəli, 1984-cü ildə 14 nömrəli, 1985-1986-cı illərdə 15 və 16 nömrəli quyular qazılmışdır. 1991-ci ildə "Çıraq" yatağında 6 nömrəli quyuda 12 neftli-qazlı horizont açılmışdır. Ümumiyyətlə, bu müddət ərzində "Xəzərdənizneft" vasitəsilə neft ehtiyatı 36,4 milyon ton, qaz-kondensat ehtiyatı 13 milyon ton, qaz ehtiyatı 15,8 milyard kubmetr artmışdır.

Bu qurğu ARDNŞ ilə ABƏŞ arasında müqaviləyə uyğun olaraq "Əsrin müqaviləsi"nin həyata keçirilməsi ilə bağlı vəzifələri yerinə yetirmək, yenidənqurma və modernləşdirmə işləri aparmaq üçün 1995-ci il iyunun 15-dən icarəyə verilmişdir. Həmin vaxtadək qurğunun texniki vəziyyəti bərbad halda idi. Maliyyə vəsaiti çatışmadığına görə o, əsaslı təmir olunmamışdı. Qurğunun etibarlı şəkildə üzməsini, energetika, qazma və sair avadanlığın saz işləməsini təmin etmək üçün ehtiyat hissələr və valyuta lazım idi. Məhz buna görə də qurğu 1993-cü ildə "Şahdəniz" yatağından çıxarıldı. İndi, bərpa edilib modernləşdiriləndən sonra qurğunun texniki göstəriciləri yaxşılaşmışdır və o, dənizin 475 metr dərinliyində yerin 7600 metr dərinliyinə quyular qazmağa qadirdir. Üstəlik, o, ABŞ bürosunun müvafiq tələblər baxımından yoxlanılmış sertifikatını alacaqdır. Beləliklə, "Dədə Qorqud" Azərbaycan dəniz registrinin bütün tələblərinə uyğundur.





Qurğunun təmirinə 1995-ci il sentyabrın 1-də başlanmışdı. Lakin dənizin səviyyəsi qalxdığına görə "Şelflayihətikinti" İstehsalat Birliyində xeyli hazırlıq işləri görmək lazım gəldi. "Xəzərdənizneft" qazma qurğusunun modernləşdirilməsinin və təmirinin podratçısı ABŞ-ın "Sante-Fe" şirkətidir. Bu tipli qurğularda qazma işləri aparmaq sahəsində zəngin biliyə və təcrübəyə malik olan həmin şirkət keçirdiyimiz xüsusi tenderdə qalib gəlmişdir.

Təmir və modernləşdirmə işlərində 356 nəfər iştirak etmişdir. Onlardan 50 nəfəri əcnəbi mütəxəssis, qalanları isə Azərbaycan mütəxəssisləri və fəhlələridir. Yerli mütəxəssislər iş prosesində qabaqcıl metodlar təlimi və ingilis dili kurslarını da bitirmişlər. Onların bir qismi Böyük Britaniyada, ABŞ-da, Omanda, Küveytdə, Qvineyada və digər ölkələrdə təcrübə keçmişdir.

Görülmüş işlər müqavilənin uğurla həyata keçirildiyinə canlı sübutdur, Azərbaycan neftçilərinin öz əcnəbi tərəfdaşları ilə faydalı əməkdaşlığına parlaq misaldır. Digər tərəfdən, bu qurğu Azərbaycan neft sənayesinin inkişafında yeni mərhələnin rəmzinə, ölkəmizin dirçəlişinin rəmzinə çevrilmiş və onların həmişəlik rəmzi kimi qalacaqdır. Məhz buna görə də biz keçmiş "Xəzərdənizneft" qurğusunun adını dəyişdirməyi qərara aldıq. Respublika Prezidenti hörmətli Heydər Əliyev cənabları bizim xahişimizlə qurğunun yeni adını özü seçdi - ona "Dədə Qorqud" adı verdi. Bu ad azərbaycanlıların, ümumən oğuz türklərinin köklərinin, tarixinin rəmzidir, dastanın özü kimi bütün türkdilli xalqların milli iftixarıdır.

Bütün bunlarla əlaqədar olaraq bu əlamətdar mərasimin iştirakçılarını ürəkdən təbrik edirəm, qurğunun modernləşdirilməsində bilavasitə çalışanların hamısına dərin minnətdarlığımızı bildirirəm.

Sonra ABƏŞ-in prezidenti **Terri Adamsa** söz verildi. O dedi:

- Cənab Prezident, Zati-aliləri!

Xanımlar və cənablar!

Bu gün ABƏŞ üçün çox mühüm bir gündür və Prezident Heydər Əliyevi bugünkü hadisədə bizimlə bir yerdə görmək bizim üçün çox böyük şərəfdir. Artıq 20 aya yaxındır ki, ABƏŞ Bakıda fəaliyyət göstərir. Bu qurğuya yeni ad qoyulması bizim nə qədər nailiyyət əldə etdiyimizə bir sübutdur. Cənab Prezident, Sizin bu mərasimdə iştirakınız "Əsrin müqaviləsi"nin Azərbaycan xalqı və xarici neft şirkətləri üçün nə qədər böyük əhəmiyyətə malik olduğunu bir daha sübut edir.

Bu qurğunun sahibi Azərbaycan Dövlət Neft Şirkətidir. ABƏŞ bu sahədəki əməkdaşlığa və göstərdikləri dəstəyə görə ARDNŞ-nin rəhbər işçilərinə, bütün fəhlələrinə öz minnətdarlığını bildirir. Biz həmçinin bu la-



yihənin üzərində işləmiş bütün insanlara minnətdarlığımızı bildiririk. Biz bu layihə üzrə fəaliyyət göstərən icraçı şirkət "Sante-Fe"nin rəhbərliyinə xüsusi minnətdarlığımızı bildiririk.

Bu işə bir sıra digər şirkətlər də cəlb olunmuşdular. "Riqblast", "Konseyf" və "Sieyen qrup" şirkətlərini buna misal göstərmək olar. Biz onlara da öz minnətdarlığımızı bildiririk.

Cənab Prezident, indi isə böyük məmnuniyyət hissi ilə Sizdən xahiş edərdim ki, bu qurğuya yeni ad qoyulması mərasiminə başlayasınız.

Biz fəxr edirik ki, bu qurğu Azərbaycan dəniz neft sənayesinin inkişafında çox mühüm rol oynayacaqdır.

Cənab Prezident, bu qurğunun təzə adı "Dədə Qorqud"dur. Həmin adı Siz özünüz seçmisiniz və bu ad qurğunun gələcək taleyinə çox uyğundur. Cənab Prezident, icazə verin, mən qədim və böyük Azərbaycan eposundan bir misal çəkim: "Nə baş verdiyinə baxmayaraq, Dədə Qorqudun icazəsi olmadan və onun göstərişini almadan, heç bir tədbir görülməmişdir".

Cənab Prezident, "Əsrin müqaviləsi" bağlanandan sonra, yəni 1994-cü ilin sentyabrından bəri Siz bizim Dədə Qorqudumuz olmusunuz. Sizin müdrik rəhbərliyiniz altında bugünkü hadisəni müvəffəqiyyətlə qeyd edirik. Sağ olun.

"Sante-Fe" şirkətinin baş direktoru **Sted Qaber** mərasimdə çıxış edərək dedi:

- Cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Mən sizi "Dədə Qorqud" qazma qurğusunun təmirinin müvəffəqiyyətlə başa çatdırılması münasibətilə səmimi qəlbdən təbrik edirəm. Azərbaycan dilini bilmədiyim üçün mən sizdən çox-çox üzr istəyirəm, odur ki, ingilis dilində danışacağam.

Bu gün "Dədə Qorqud" qurğusunun açılışında böyük məmnuniyyətlə "Sante-Fe" şirkətini təmsil edirəm. Biz - "Sante-Fe" şirkəti bu layihənin həyata keçirilməsində həm Azərbaycanı, həm də beynəlxalq ictimaiyyəti, müxtəlif millətləri təmsil edən nümayəndələrlə birgə çalışmışıq. Artıq burada qeyd edildiyi kimi, bu qazma qurğusunun modernləşdirilməsi və təmir olunması prosesində 300-dən çox adam işləmiş və bunların 70 faizindən çoxu azərbaycanlılar olmuşdur.

Cənab Natiq Əliyevin qeyd etdiyi kimi, "Sante-Fe" şirkəti Azərbaycan qazmaçılarının, mexaniklərinin, neftçilərinin "Sante-Fe"nin dünyanın müxtəlif bölgələrində yerləşən qazma qurğularında təlim keçməsini də böyük məmnuniyyətlə təşkil edibdir. Doğrudur, siz bu qurğunu gəzərkən aparılan işin nəticəsini öz gözlərinizlə görmək imkanına maliksiniz. Lakin burada gözə görünməyən, ancaq həyata keçirilmiş başqa bir tədbir də var ki, o da bu qurğunun təhlükəsizlik tədbirlərinə, standartlarına tamamilə cavab verən hala gətirilib çıxarılmasıdır. Bu qurğunun təmir olunmasında iştirak edənlərin hamısını qurğuda təhlükəsizlik qaydalarının tamamilə gözlənilməsinə, bütün təhlükəsizlik qaydalarına əməl olunmasına və buna xüsusi diqqət yetirilməsinə görə təbrik etmək istəyirəm.

Cənab Prezident, bu qurğunun "Dədə Qorqud" adlandırılması münasibətilə bugünkü tədbir yaddaşınızda daimi qalsın deyə, icazə verin, "Sante-Fe" şirkəti adından Sizə kiçik bir hədiyyə verim.

Diqqətinizə görə təşəkkür edirəm.

Prezident Heydər Əliyev mərasimdə nitq söylədi.

**Azərbaycan Prezidenti**
**Heydər Əliyevin nitqi**

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar, əziz neftçilər!

Hörmətli dostlar!

Sizi, Azərbaycanın bütün vətəndaşlarını, xalqımızı bugünkü əlamətdar hadisə - "Dədə Qorqud" qazma qurğusunun işə başlaması münasibətilə ürəkdən təbrik edirəm. Bu gün biz tarixi hadisənin şahidiyik. 1994-cü ilin sentyabrında Azərbaycan Dövlət Neft Şirkəti ilə bir çox xarici ölkələrin böyük neft şirkətləri arasında imzalanmış müqavilənin - "Əsrin müqaviləsi"nin əməli surətdə həyata keçirilməsinin yeni və çox mühüm bir mərhələsini qeyd edirik. Bu gün "Dədə Qorqud" adı verilmiş yarımdalma qazma qurğusu müqavilənin əsasında qazma, gələcəkdə isə Azərbaycanda suyun çox böyük dərinliyində və yerin dərinliyində olan yataqlardan neft çıxarılması işinin başlanmasını təmin edəcəkdir.

Gördüyünüz kimi, "Dədə Qorqud" qazma qurğusu nəhəng, həddindən artıq mürəkkəb və çox müasir texnologiyaya malik olan, Azərbaycan neft sənayesində görkəmli yer tutan böyük bir istehsal müəssisəsidir.

Azərbaycan neftçiləri Xəzər dənizindən neft çıxarmaqla, hasil etməklə 1949-cu ildən məşğuldurlar. Onlar dəniz neftçiləri kimi, dünyada dənizin dərinliyindən neft çıxarmaq sahəsində yüksək nailiyyətlər əldə etmiş neftçilər kimi böyük şöhrət qazanmışlar. Azərbaycan neftçilərinin, alimlərinin, geoloqlarının, mühəndislərinin, texniklərinin, mütəxəssislərinin 1949-cu ildən indiyədək gördükləri iş, əldə etdikləri nailiyyətlər Azərbaycan xalqına xidmət etmiş, respublikamızın sərvətlərini zənginləşdirmiş və ölkəmizin neftçilərinə, xalqımıza dünyada böyük şöhrət gətirmişdir.

Azərbaycanın dəniz neftçilərinin fəaliyyəti tarixinə nəzər salsanız görəcəksiniz ki, onlar 1949-cu ildən başlayaraq ilbəil öz təcrübələrini artırmış, ilbəil sahildən dənizin ortalarına getmişlər. Əvvəl suyun



dərinliyi 20-30 metr olan yerlərindən neft çıxarılırdısa, 1970-ci illərdə artıq suyun 150 metr dərinliyindən neft çıxarmağa nail ola bilmişlər. Azərbaycan neftçilərinin keçmiş illərdə əldə etdiyi nailiyyətlər, iş təcrübəsi, elmi ixtiraları dünyanın bir çox ölkələrində tətbiq edilmiş, onlardan istifadə olunmuşdur. Beləliklə, Azərbaycan neftçiləri, alimləri dənizin dərinliyindən neft hasil etmək sahəsində dünya təcrübəsinə öz böyük töhfələrini vermişlər. Məhz Azərbaycan neftçilərinin gərgin fəaliyyəti, elmi axtarışları nəticəsində Xəzər dənizində böyük neft yataqları kəşf edilmiş, onların neft potensialı ilbəil öyrənilmiş, dəqiqləşdirilmişdir. İndi biz onlardan geniş miqyasda istifadə etmək imkanı əldə etmişik.

1994-cü ilin sentyabrında imzalanmış böyük neft müqaviləsində Xəzər dənizinin Azərbaycan sektorunda olan "Azəri", "Çıraq" yataqlarından və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsindən 30 il müddətində neft hasil edilməsi nəzərdə tutulubdur. Xatırlatmaq istəyirəm ki, bu yataqlar Azərbaycan neftçiləri, geoloqları tərəfindən 1970-ci illərdə kəşf olunmuşdur. Neft potensialı müəyyən edilmiş və həmin neft yataqları bundan sonra daha da dərindən öyrənilmiş və Azərbaycan xalqının böyük sərvətinə çevrilmişdir. Məhz bunlar mövcud olduğuna görə də 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanmışdır.

İndi biz ətrafına toplaşdığımız və bu gün təntənə ilə yeni həyat verəcəyimiz qazma qurğusu da məhz 1970-ci illərdə görülən işlərin nəticəsində 1981-ci ildə fəaliyyətə başlamış, Xəzər dənizinin bir çox yerlərində qazma işi aparmış, neft çıxarmış, Azərbaycanda neft hasilatını artırmışdır.

Bu gün biz Azərbaycanın, Bakının gözəl bir guşəsində toplaşmışıq. Xəzər dənizinin sahilindəki bu gözəl mənzərə Azərbaycanın təbiətinin nə qədər gözəl olduğunu əyani surətdə nümayiş etdirir. Bu gün bu mərasimə gələn qonaqlar və Azərbaycan Respublikasının dövlət orqanlarının, neft sənayesinin nümayəndələri görürlər ki, bu yerlər cəmi 15-20 il içərisində nə qədər dəyişilibdir. Burada Azərbaycanın sənayesini, neft sənayesini nümayiş etdirən nəhəng bir şəhərcik yaranıbdır.

Respublikamızın neft sənayesini inkişaf etdirmək, Xəzərin Azərbaycan sektorundakı neft yataqlarından səmərəli istifadə etmək üçün 1970-ci illərdə burda, durduğumuz bu yerdə dərin özüllər zavodunun, yəni belə böyük, nəhəng qurğular qurub yaratmaq üçün iri bir zavodun tikilməsi haqqında qərar qəbul etdik. Belə bir zavodun tikilməsi üçün biz çox axtarışlar apardıq, çox layihələrə baxdıq. Nəhayət, 70-ci illərin sonunda Amerika Birləşmiş Ştatlarının bir şirkətindən bu zavodun texnologiyasını, qurğularını almaq üçün 400 milyon ABŞ dolları məbləğində vəsaitdən istifadə edərək məhz



burada, Xəzərin sahilində belə bir zavodu tikməyə başladıq. İndi biz bu nəhəng zavodun binalarını, burada yaranmış istehsal sahələrini böyük iftixar hissi ilə görürük.

Mən bu gün buraya gələrkən, Xəzərin sahilində, vaxtilə tamamilə boş olan bir yerdə böyük zavod korpuslarını və nəhəng qurğuları, sahilin və sahənin ətrafında artıq yüksəklərə qalxmış yaşıl ağacları görüb bir daha iftixar hissi keçirdim. Mən bu gün çox xoşbəxtəm, çox sevinirəm. Xoşbəxtəm, sevinirəm ona görə ki, bütün burada gördüklərinizin əsasını qoyanlardan biriyəm, onun təməlini qoyanlardan biriyəm, onun təşəbbüskarıyam. Vaxtilə bu işlərin görülməsi üçün illərlə zəhmət çəkmişəm, illərlə fəaliyyət göstərmişəm, bunların reallığa çevrilməsi üçün illərlə çox çətin yollardan keçmişəm. Azərbaycan neftçiləri ilə, öz həmkarlarımla birlikdə xalqımız, millətimiz üçün, respublikamızın böyük sənayesini qurmaq üçün, neft sənayesini gələcəkdə inkişaf etdirmək üçün bunları yaratmağa çalışmışam. Nəhayət, bunlar yaranıb. Mən bunları görməkdən, buraları seyr etməkdən özümü həddindən artıq xoşbəxt hiss edirəm.

Beləliklə, 1994-cü ilin sentyabrında böyük neft müqaviləsini imzalayarkən biz böyük təmələ əsaslanırdıq. Yəni biz bu müqaviləni boş yerdə imzalamamışdıq. Bizim əlimizdə böyük sərvətlər var. Həm Xəzər dənizində olan böyük neft yataqları, həm də burada yaranmış bu böyük sənaye kompleksi, həm də bu gün üzərində durduğumuz, ətrafına toplaşdığımız bu qazma qurğusu Azərbaycan xalqının sərvətidir. Məhz bu sərvətlərimizi hiss edərək, bu sərvətlərimizin sahibi olaraq biz xarici ölkələrin neft şirkətləri ilə danışığa getmişik və onlarla neft müqaviləsi imzalamışıq. Bu müqaviləni imzalayarkən həmişə onu dərk etmişik ki, bizim sərvətimiz var, bu sərvətimizin sahibiyik və bu sərvətimizdən xarici ölkələrin neft şirkətləri ilə müştərək istifadə etmək üçün bu addımları atmağa bizim haqqımız var.

Xarici ölkələrin neft şirkətləri də Azərbaycan ilə böyük neft müqaviləsini bağlamaq istəyərkən və bu müqaviləni imzalayarkən çox yaxşı bilirdilər ki, Azərbaycanın böyük imkanları var. Əgər onlar xalqımızın, Azərbaycan Respublikasının bu imkanlarının mövcud olduğunu dərk etməsəydilər, tək bir yataqlara görə gəlib bizimlə bu böyük müqaviləni bağlamazdılar, yaxud buna çox ehtiyat edərdilər. Məhz Azərbaycanın belə təbii sərvətləri olduğuna görə, respublikamızın bu böyüklükdə sənaye potensialı, ölkəmizin yüksək seviyyəli mütəxəssisləri, neftçiləri olduğuna görə və burada sərbəst şərait yarandığına görə xarici ölkələrin neft şirkətləri Azərbaycan ilə bu böyük və tarixi əhəmiyyətə malik müqaviləni imzaladılar.

Hörmətli dostlar, bu gün bu cəsarətli addımları atmaq üçün, görürsünüz, keçmiş illərdə nə qədər böyük işlər aparılıbdır. Eyni zamanda o işlər həmin vaxtlarda görülməsəydi, biz bu gün bu addımları da ata bilməzdik, şübhəsiz ki, böyük işləri də başlaya bilməzdik. Bu da onu göstərir ki, 1970-ci illərdə görülən işlər, yaranan bu böyük iqtisadi, sənaye potensialı və neft sənayesi sahəsində görülən işlər, yaranmış potensial Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əsasıdır. Əgər onlar olmasaydı, biz bu gün dövlət müstəqilliyini əlimizdə bu qədər möhkəm saxlaya bilməzdik. Əgər onlar olmasaydı, biz bu gün dövlət müstəqilliyimizə nail ola bilməzdik. Demək, o illərdə görülən işlər həmin bu illər üçün, Azərbaycanın müstəqil yaşaması üçün yaranan əsasdır. Bu gün sizə bəyan etmək istəyirəm ki, o illərdə bu işləri görərkən mən məhz Azərbaycanın gələcəyini, bugünkü müstəqilliyini düşünürdüm. O işləri görərkən mən əmin idim ki, onlar Azərbaycanın sərbəst, müstəqil yaşaması üçün əsas yaradır.

Məmnuniyyət hissi ilə qeyd edirəm ki, konsorsiumun yaratdığı əməliyyat şirkəti qəbul olunmuş proqramı ardıcıl surətdə həyata keçirir. Müqavilə yaşayır, öz bəhrələrini verir və əməli surətdə yerinə yetirilir. Bugünkü gün bu mərasim müqaviləyə görə opponentlərimizə, xarici ölkələrdə və respublikamızın daxilində bizə müxalif olan qüvvələrə, hesab edirəm ki, çox kəsərli cavabdır. Məlumdur ki, bu müqaviləni imzalamaq üçün biz nə qədər çətin yollardan keçdik. Məlumdur ki, bu müqaviləni imzalamaq üçün bizə çox maneçiliklər oldu. Müqavilə imzalanandan sonra bir cürbəcür təzyiqlər aldıq. Bəyanatlar verildi ki, bu müqavilənin işləməsinə yol verilməyəcəkdir. Ayrı-ayrı qüvvələr müxtəlif ölkələrdə indiyədək də bu müqavilənin həyata keçirilməsinə mane olurlar. Məlumdur ki, respublikamızın daxilində də bəziləri - o bədxah insanlar, qüvvələr bu müqavilənin kağız üzərində qalacağı haqqında sözlər deyirdilər və çox çalışırdılar ki, onların fikirləri doğru olsun. Bu gün onların hamısına cavab verilir. Müqavilə işləyir, öz proqramını yerinə yetirir. Bir daha deyirəm, müxalif olan bütün qüvvələrin hamısına bugünkü mərasim çox əyani cavab verir.

Konsorsiuma daxil olan şirkətlərin nümayəndələri Beynəlxalq Əməliyyat Şirkətində təmsil olunublar. Hesab edirəm ki, onlar cənab Terri Adamsın başçılığı ilə çox işlər görüblər və onların qarşısında çox böyük vəzifələr durubdur. Azərbaycan Dövlət Neft Şirkəti Beynəlxalq Əməliyyat Şirkəti ilə birlikdə çox ahəngdar çalışır. Onların hamısının birlikdə gördükləri işlərin nəticəsində biz bu gün bu mərasimə toplaşmışıq. Əmin olduğumu bildirmək istəyirəm ki, nəzərdə tutulmuş proqram bundan sonra da vaxtında, ardıcıl surətdə həyata keçiriləcəkdir.




"Dədə Qorqud" qazma qurğusu bu gün işə başlayır. Biz bu gün onun ayrı-ayrı bölmələri, cihazları ilə tanış olduq və ondan sonra buraya sizinlə görüşə gəlmişik. Tanış olduğumuz bu qurğunun müasir vəziyyəti onu göstərir ki, əvvəlki qurğunun üzərində çox işlər görülübdür. Doğrudan da qurğu müasir texnologiya prinsiplərinə əsasən modernləşdirilibdir, müasir səviyyəyə çatdırılıbdır. Verilən məlumatdan mən belə görürəm ki, bu qurğu bu gündən sonra sahili tərk edib, sahildən uzaq neft yataqlarımıza yola düşəcək və nəzərdə tutulmuş proqram əsasında orada qazma işlərinə başlayacaqdır.

Bu qurğunu modernləşdirib "Dədə Qorqud" adına layiq səviyyəyə çatdırdıqlarına görə konsorsiumun Beynəlxalq Əməliyyat Şirkətinə, onun modernləşdirilməsi ilə məşğul olan "Sante-Fe" şirkətinə və Azərbaycan Dövlət Neft Şirkətinə, bu qurğunun müasir vəziyyətə gətirilməsi üçün çalışmış bütün mütəxəssislərə, fəhlələrə və bu sahədə fəaliyyət göstərən insanların hamısına mən səmimi təşəkkürümü bildirirəm.

"Sante-Fe" şirkətinə və onun başçısına xüsusi təşəkkür edirəm. Onlar çox işlər görüblər. Bu işin bir nəticəsi də ondan ibarətdir ki, burada xarici ölkələrdən dəvət olunmuş mütəxəssislərlə yanaşı, yerli, azərbaycanlı mütəxəssislər də çalışıb, hazırlaşıblar və burada birgə işləyirlər. Mən bu gün bu qurğunu gəzərkən, seyr edərkən, onun ayrı-ayrı hissələrinə baxarkən hər yerdə iki nəfəri gördüm. Onlardan biri xarici ölkədən gəlmiş mütəxəssisdir, şübhəsiz ki, o, xarici dildə danışır; o biri isə bizim yerli mütəxəssisdir, Azərbaycan dilində danışır. Bunun özü də gözəl bir haldır.

Bu qurğudakı işlər bir də onu göstərir ki, Azərbaycan Respublikasının mütəxəssisləri - neftçiləri, mühəndisləri, fəhlələri xarici neft şirkətlərinin mütəxəssisləri ilə yanbayan, bərabər işləməyə qadirdirlər və müştərək iş görməyə hazırdırlar. Bizim bundan sonra da görəcəyimiz müştərək işlərimiz çox müvəffəqiyyətli olacaqdır. Müsbət hal bir də ondan ibarətdir ki, bu müştərək işlərin nəticəsində xaricdən gələn mütəxəssislər Azərbaycan dilini, dövlət dilimizi öyrəniblər, mənimsəyiblər.

Cənab Terri Adamsın tərcüməçisi bir il bundan əvvəl tərcümə zamanı ancaq ingilis dilindən rus dilinə tərcümə edirdi və rus dilində danışırdı. Amma bu gün o, Azərbaycan dilində danışır və cənab Terri Adamsın nitqini Azərbaycan dilinə çox gözəl tərcümə edib bizə çatdırdı.

"Sante-Fe" şirkətinin başçısının da öz çıxışının ilk cümlələrini Azərbaycan dilində söyləməsi məni çox sevindirdi. Bunlar hamısı onu göstərir ki, dövlət dilimiz, ana dilimiz - Azərbaycan dili ölkəmizdə hakim dildir. Nəinki azərbaycanlılar, respublikamıza xaricdən gələn qonaqlarımız, dostlarımız, həmkarlarımız da bu dilə hörmət edirlər, bu dili öyrənmək, bu dildə danışmaq istəyirlər. Bu, çox sevindirici haldır. Bu, eyni zamanda, müstəqil respublikamızın əsas atributlarından biri olan Azərbaycan dilinin inkişaf etməsini göstərir.

Bu qazma qurğusuna "Dədə Qorqud" adı verildi. Bu adın verilməsi haqqında da biz müzakirə aparmışdıq. Bu mərasimə hazırlaşarkən cənab Terri Adams və Natiq Əliyev bu tədbir və görülən işlər haqqında mənə ətraflı məruzə etdilər. Biz bir çox məsələləri müzakirə etdik. Xüsusən bundan sonra görüləcək işlər haqqında, nəhayət, bu qurğunun adı haqqında da geniş müzakirə apardıq. Bilirsiniz ki, bu qurğunun adı indiyədək "Kaspmorneft" olubdur. Şübhəsiz ki, bu da bizim bugünkü həyatımıza uyğun olmayan bir addır. Eyni zamanda bu qurğu yenidən doğulubdur. Ona görə də onun yeni adı olmalıdır. Deyə bilərəm ki, mənə Azərbaycan xalqının tarixinə, ənənələrinə və ayrı-ayrı tarixi yerlərə məxsus 10-a qədər cürbəcür adlar təqdim olundu. Təqdim olunan adların hamısı doğrudan da dəyərli idi. Ancaq mən bu qurğuya "Dədə Qorqud" adı verilməsi barədə qərar qəbul etdim. Hesab edirəm ki, hər bir azərbaycanlı üçün bu müqəddəs və əziz ad bu qurğu üçün ən dəyərli, görkəmli addır.

"Dədə Qorqud" qurğusuna böyük uğurlu yol arzulayıram!

"Dədə Qorqud" qurğusunun əmək kollektivinə, bu qurğuda çalışanlara - Azərbaycan vətəndaşlarına, xaricdən gəlmiş mütəxəssislərə müştərək müvəffəqiyyətli iş arzu edirəm!

Bu qurğuda çalışanların hamısına cansağlığı və yeni-yeni uğurlar arzulayıram!

Yaşasın "Dədə Qorqud" qurğusu!

"Dədə Qorqud" qurğusunun açılması, işə başlaması münasibətilə sizi təbrik edirəm.

Sonra Azərbaycan Prezidenti Heydər Əliyev yeni qurğunun fəaliyyətə başladığını bildirən mərasimi icra etdi. Yeni yarımdalma üzən qazma qurğusunun adının - "Dədə Qorqud" sözlərinin üzərindən örtük götürüldü. Orkestr Azərbaycanın dövlət himnini ifa etdi.

Ölkə rəhbəri "Dədə Qorqud"a bir daha uğurlu yol arzuladı.

Mərasimdə ABŞ-ın, Böyük Britaniyanın, Almaniyanın, Türkiyənin Azərbaycandakı səfirləri və digər rəsmi şəxslər iştirak edirdilər.

BAKI, 12 NOYABR 1997-Cİ İL



# İlkin neftin çıxarılması

1997-ci il noyabrın 12-də "Çıraq-1" platformasında "Əsrin müqaviləsi" üzrə ilkin neftin hasilatına başlanması münasibətilə təntənəli mərasim keçirildi.

Həmin gün səhər Azərbaycan Prezidenti Heydər Əliyev vertolyotla Xəzər dənizindəki "Çıraq-1" platformasına gəldi.

Platformada dövlət başçısını Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Terri Adams, ARDNŞ-nin prezidenti Natiq Əliyev, ARDNŞ-nin birinci vitse-prezidenti İlham Əliyev və platformanın meneceri, "Amoko" şirkətinin mütəxəssisi Hyu Oliver qarşıladılar.

Respublikamızın rəhbəri ilə birlikdə Rusiya Baş nazirinin birinci müavini Boris Nemtsov, Böyük Britaniyanın dövlət xarici işlər naziri Derik Façett, ABŞ-ın energetika naziri Federiko Penya da "Çıraq-1" platformasına gəldilər. Xarici ölkələrin nümayəndə heyətlərinin başçıları və neft şirkətlərinin prezidentləri də buraya gəldilər.

Azərbaycan Prezidenti Heydər Əliyev və qonaqlar platformanın quruluşu ilə tanış oldular. Onlara bu barədə Hyu Oliver məlumat verdi.

"Çıraq-1" platforması sahilin 120 kilometrliyində yerləşir və suyun dərinliyi 120 metrə çatan sahədə quraşdırılmışdır.





Bütün texnoloji avadanlıq və yaşayış modulu aşağı və yuxarı göyərtələrdə yerləşir. Göyərtələr üzərində ən müasir tələblərə uyğun olan qazma qurğusu ucalır. Hyu Oliver bildirdi ki, bu qurğunun istehsal gücü 6 min metrədək dərinlikdə qazma işləri görməyə imkan verir. Bu günlərdə ikinci istismar quyusunun qazılmasına başlanmışdır. Ümumiyyətlə, platformada 24 quyu qazılacaqdır.

Dövlət başçısına neft-mədən avadanlığı qoyulmuş birinci quyunu da göstərdilər, neftin çıxma sürətini qeydə alan cihazı da nümayiş etdirdilər. Çıxarılan xammal texnoloji bölmədə yerləşən separatora göndərilir və burada neft onunla yanaşı çıxan qazdan, su və qumdan təmizlənir. Təmizlənmiş neft platformadan Səngəçal terminalınadək çəkilmiş 176 kilometr uzunluğunda sualtı neft kəmərinə vurulur. ARDNŞ-nin prezidenti Natiq Əliyev dedi ki, indi hasil edilən neft suyu bu boru kəmərindən sıxışdırıb çıxarır, sahilə isə neft təxminən bir aydan sonra gələcəkdir. Neftdən ayrılan səmt qazı sualtı boru kəməri ilə Neft daşlarındakı qaz kompressoru stansiyasına nəql olunacaq və burada yığılacaqdır.

Prezident Heydər Əliyevi aşağı göyərtədə yerləşən nəzarət bölməsində neft hasilatının texnoloji proseslərinə nəzarət üçün kompüter sistemləri ilə, habelə qəza və yanğın təhlükəsinə qarşı avtomat sistemlərlə tanış etdilər.

Göyərtəyə baxış qurtardıqdan sonra Hyu Oliver Azərbaycan dövlətinin başçısına kranın açılışının rəmzi mərasimini keçirməyi təklif etdi. Prezident Heydər Əliyev bunu etməzdən əvvəl platformaya toplaşanlara nitqlə müraciət etdi.





**Azərbaycan Prezidenti**
**Heydər Əliyevin nitqi**

- Bu gün burada gördüyüm "Çıraq" platforması mənə və güman edirəm, burada toplaşanların hamısına çox böyük təsir bağışlayıbdır. Biz üç il müddətində görülən gərgin işin gözəl nəticələrini müşahidə edirik. Azərbaycan neftçiləri hələ 50 il bundan öncə Xəzər dənizində platformalar yaradıb və neft çıxarmağa başlayıblar. "Çıraq" neft yatağında olan platformanı da vaxtilə Azərbaycan neftçiləri yaratmışlar. Ancaq üç il bundan öncə, "Əsrin müqaviləsi" imzalanandan sonra biz konsorsiumun iştirakçısı olan şirkətlərlə birlikdə bu platformanı yenidən qurmuşuq və o, bugünkü müasir vəziyyətə gəlib çatıbdır.

Mən bu gün böyük iftixar hissi keçirirəm. Xəzərin ortasında, açıq dənizdə belə gözəl platforma yaranıb və o, dünyada dənizdən neft çıxarılması sahəsində ən yüksək standartlara uyğun olan platformadır. Bu platformanı tikən, quran və yaradanların hamısına, burada işləyənlərin hamısına, burada toplaşmış, bir çox ölkələrdən olan mütəxəssislərə - mühəndislərə, texniklərə, fəhlələrə, hamıya təşəkkür edirəm və "Çıraq-1" platformasının işə başlaması, neftin alınması münasibətilə hamınızı ürəkdən təbrik edirəm.



Biz böyük bir işin əsasını qoymuşuq. Heç şübhə yoxdur ki, Xəzər dənizində həm "Əsrin müqaviləsi" ətrafında toplaşmış şirkətlərin yaratdığı konsorsiumun fəaliyyəti nəticəsində, həm də imzalanmış başqa müqavilələrin həyata keçirilməsi nəticəsində bir çox belə gözəl platformalar yaranacaq, Xəzərin neft və qaz ehtiyatları dünya iqtisadiyyatına böyük kömək edəcəkdir.

Bu gün bizim ölkəmizdə bayram günüdür, - müstəqil Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyasının qəbul olunmasının ikinci ildönümüdür. Bu gün eyni zamanda qədim neft diyarı olan Azərbaycanda neft sənayesinin inkişafında yeni bir mərhələnin açılması günüdür. Bu iki bayram bir-birinə qarışmışdır. Ancaq bunlar bir-biri ilə sıx əlaqədə olan bayramlardır. Sizi bu bayramlar münasibətilə təbrik edir və zəhmət çəkib "Çıraq-1" platformasına gəlmiş xarici ölkələrdən olan qonaqlarımıza təşəkkür edirəm. Hamınıza səadət, xoşbəxtlik, əmin-amanlıq arzulayıram.

Xeyirli olsun, uğurlu olsun! Yeni-yeni uğurlar arzulayıram! Sağ olun.

Prezident Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və alqışlarla qarşılandı.

Sonra Prezident Heydər Əliyev bu hadisə üçün xüsusi olaraq hazırlanmış və neftlə doldurulmuş qurğudakı rəmzi sürgünü açdı. Azərbaycan neftçilərinin köhnə və xoş bir ənənəsinə uyğun olaraq, dövlət başçısı bu neftdən üzünə sürtdü. Mərasimin digər iştirakçıları da böyük məmnunluq hissi ilə ondan nümunə götürdülər.

Bundan sonra yaşayış modulunun qonaq salonunda qoyulmuş xatirə lövhəsinin açılış mərasimi oldu.

Mərasim başlanmazdan əvvəl ABƏŞ-in prezidenti **Terri Adams** dedi:

- Cənab Prezident, Sizi bu gün burada, aramızda görməkdən böyük şərəf duyuruq. Bu gün işlərimizin zirvə nöqtəsidir. Yəqin xatırlayırsınız, mən ictimai yerlərdə çıxış edərkən həmişə cənab Çörçilldən sitatlar gətirirəm. Cənab Çörçillin məhz bu günə uyğun olan çox gözəl bir kəlamı var. Çörçill İkinci Dünya müharibəsi zamanı döyüşdə ilk qələbədən sonra demişdir: "Bu, bizim işlərimizin sonu deyil, hətta sonun başlanğıcı da deyildir, başlanğıcın sonudur".

Cənab Prezident, xahiş edirik bu xatirə lövhəsini açasınız.

**Heydər Əliyev:** Mən Sizin sözlərinizi və cənab Çörçillin sözlərini təsdiq edirəm.

Sonra Azərbaycan Prezidenti xatirə lövhəsini açdı. Xatirə lövhəsində bu sözlər yazılmışdı:

*"Zati-aliləri Prezident Heydər Əliyevin ilk neftin çıxarılması münasibətilə "Çıraq-1" platformasına rəsmi səfərindən xatirə. 12 noyabr 1997-ci il".*

Mərasim başa çatdıqdan sonra Prezident Heydər Əliyev vertolyotla Bakıya qayıtdı.

## Respublika sarayında

1997-ci il noyabrın 12-də Respublika sarayında Xəzər dənizinin Azərbaycan sektorunda xarici şirkətlərlə birgə işlənilən neft yataqlarından ilkin neftin çıxarılması münasibətilə təntənəli mərasim keçirildi.

Salona toplaşanlar Azərbaycan Prezidenti Heydər Əliyevi və hörmətli qonaqları - Gürcüstan Respublikasının Prezidenti Eduard Şevardnadzeni, Türkiyənin Baş naziri Məsud Yılmazı, Rusiya Baş nazirinin birinci müavini Boris Nemtsovu, ABŞ-ın energetika naziri Federiko Penyanı, Böyük Britaniyanın dövlət xarici işlər naziri Derik Façetti, Ukrayna Baş nazirinin birinci müavini Anatoli Qolubçenkonu, Özbəkistan Baş nazirinin müavini Kayum Xakulovu, Norveçin energetika və sənaye nazirinin müavini Hokon Gili, Almaniya, Yaponiya və Qazaxıstanın, Avropa Birliyi Komissiyasının, Avropa Birliyinin energetika xartiyasının nümayəndələrini və başqa rəsmi şəxsləri sürəkli alqışlarla qarşıladılar.

Təntənəli mərasimi açan Prezident Heydər Əliyev geniş nitq söylədi.

## Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar, əziz dostlar!

1994-cü il sentyabrın 20-də Azərbaycanda tarixi bir hadisə baş vermişdir. Dünyanın 7 ölkəsinə mənsub olan 11 böyük neft şirkəti bir araya gələrək konsorsium yaratmış və Azərbaycan Respublikası, Azərbaycan Dövlət Neft Şirkəti ilə Xəzər dənizinin Azərbaycan sektorunda olan "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin müştərək işlənməsi haqqında müqavilə imzalamışlar. Bu müqavilə "Əsrin müqaviləsi" adlandırılmış, dünyaya geniş səs yaymış və böyük əks-səda vermişdir. Bu müqavilənin həyata keçirilməsi üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradılmışdır.

Bu müqaviləyə, konsorsiuma daxil olan şirkətlər və ölkələr məlumdur. Həmin ölkələrin bayraqları burada asılıbdır və o şirkətlərin də bayraqları burada nümayiş etdirilir. Bunlar Amerika Birləşmiş Ştatlarının "Amoko", "Yunokal", "Pennzoyl", "Eksson", Böyük Britaniyanın "Britiş Petroleum", "Remko", Rusiyanın "LUKoyl", Norveçin "Statoyl", Türkiyənin "Türkiyə Petrolları Anonim Ortaqlığı", Səudiyyə Ərəbistanının "Delta", Yaponiyanın "İtoçu" şirkətləridir. Onlar Azərbaycan Dövlət Neft Şirkəti ilə birlikdə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaratmışlar. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti müqavilədə nəzərdə tutulmuş layihəni həyata keçirməyə başlamış, üç il müddətində proqram







əsasında nəzərdə tutulmuş işlərin hamısı yerinə yetirilmişdir. Bütün icbari işlər görülmüş və onların nəticəsində "Çıraq" neft yatağında yaradılmış nəhəng platforma vasitəsilə ilkin neft hasil olunmuşdur.

"Əsrin müqaviləsi"nin üç il müddətində həyata keçirilməsinin nəticələrini və bu müqavilə üzrə ilkin neft hasilatı böyük hadisə olduğuna görə onu qeyd etmək üçün biz bu təntənəli mərasimə toplaşmışıq. Mən sizi, Azərbaycan xalqını, bütün Azərbaycan vətəndaşlarını bu tarixi və əlamətdar hadisə münasibətilə ürəkdən təbrik edirəm. Müstəqil Azərbaycan Respublikasının çiçəklənməsi naminə hamınıza səadət və xoşbəxtlik arzulayıram.

Bu əlamətdar hadisəni qeyd etmək üçün Azərbaycana hörmətli qonaqlar gəlmişlər. Bizim qonaqlarımız həm ilk müqaviləyə - "Əsrin müqaviləsi"nə daxil olmuş ölkələri və şirkətləri təmsil edən qonaqlardır, eyni zamanda həmin müqavilədən sonra Xəzərin Azərbaycan sektorundakı yataqlarda müştərək iş görmək üçün yaranmış yeni müqavilələrdə, konsorsiumlarda iştirak edən şirkətlərin və bu şirkətlərin mənsub olduğu ölkələrin yüksək səviyyəli nümayəndələridir. Mən Azərbaycana diqqət və hörmət göstərmiş, bu hadisə münasibətilə Azərbaycana gəlmiş və bu mərasimdə iştirak edən bütün qonaqlarımızı bu gün səmimi qəlbdən salamlayıram, onlara "Xoş gəlmisiniz!" deyirəm.

Azərbaycan qədim neft diyarıdır və dünyada neft ölkəsi kimi məşhur olmuşdur. Mən bir neçə tarixi rəqəmləri sizin xatirinizə salmaq istəyirəm. Dünyada ilk dəfə 1847-ci ildə məhz Azərbaycanda, Bakıda, Bibiheybətdə neft fontan vurmuş və dünyada ilk dəfə bizdə sənaye üsulu ilə neft hasilatma başlanmışdır.

XIX əsrin sonunda, XX əsrin əvvəlində Azərbaycan dünyanın neft hasil edən ən böyük ölkəsi olubdur. XX əsrin əvvəlində dünyada hasil edilən neftin 50 faizindən çoxu Azərbaycanda, Bakıda çıxarılmışdır. Azərbaycan XX əsrdə neft ölkəsi kimi çox inkişaf etmişdir. Azərbaycanın neft sənayesi mənsub olduğu Sovetlər İttifaqının, xüsusən Rusiyanın ərazisində yerləşən neft yataqlarının kəşf olunmasında böyük xidmətlər göstərmişdir. Təsadüfi deyil ki, Rusiyanm ərazisində olan böyük neft yataqlarına sonralar "İkinci Bakı", "Üçüncü Bakı", "Dördüncü Bakı" adları verilmişdir.

İkinci Dünya müharibəsi zamanı alman faşizmi ilə mübarizədə Sovetlər İttifaqınm istifadə etdiyi neftin 75 faizi Azərbaycanda hasil olunmuşdur. Bu gün biz böyük iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan, Azərbaycanın xalqı, neftçiləri alman faşizmi üzərində çalınmış qələbədə öz layiqli xidmətlərini göstərmişlər.

Azərbaycan dünyada neftin sənaye üsulu ilə hasil edilməsində irəlidə gedən ölkə olduğu kimi, suda, dənizdə də, suyun dərinliklərində də neft yataqlarının kəşf olunması və onlardan istifadə edilməsində də ilk



addımlar atan bir ölkə olmuşdur. Xəzər dənizində, "Neft daşları" adlandırılan əfsanəvi bir yerdə məhz 1949-cu ilin noyabrında - bu ayda, 48 il bundan əvvəl ilk neft quyusu fontan vurmuş və bununla da Xəzər dənizində neft istehsalı sənayesi yaranmış və inkişaf etmişdir.

Azərbaycanın alimləri, neftçiləri, mütəxəssisləri Xəzər dənizinin mineral ehtiyatlarının öyrənilməsində və neft-qaz yataqlarının kəşf edilməsində böyük xidmətlər göstərmiş və həmişə irəlidə getmişlər. Mən bu gün cəsarətlə deyə bilərəm ki, Xəzər dənizində neft yataqlarının tam əksəriyyəti Azərbaycan neftçiləri, alimləri tərəfindən kəşf olunubdur.

Azərbaycan neftçiləri Xəzər dənizində neft çıxarmaq sahəsində böyük nailiyyətlər əldə etmişlər. 1949-cu ildən indiyə qədər Azərbaycanda Xəzər dənizindən 420 milyon ton neft çıxarılmışdır. 320 milyard kubmetr qaz hasil olunmuşdur. "Neft daşları" adlanan yerdə on kilometrlərlə uzanan estakadalar qurulmuş, ayrı-ayrı neft yataqlarında neft çıxarmaq üçün platformalar yaradılmışdır. Çox sərt və çətin şəraiti olan Xəzər dənizində Azərbaycan neftçiləri qəhrəmanlıq nümunələri göstərmişlər və Xəzər dənizindən daim neft hasil etmək üçün çox görkəmli işlər görmüşlər. Bunlar hamısı - ötən illərdə Azərbaycanda neft sənayesi sahəsində yaranmış elmi-texniki, maddi-texniki baza və




böyük texniki qurğular müstəqil Azərbaycanın neft sənayesində yeni mərhələdə böyük işlər görülməsi üçün yaxşı əsas yaratmışdır.

Məhz bunlara - əlimizdə olan böyük təcrübəyə, sərəncamımızda olan böyük maddi-texniki bazaya görə Xəzər dənizində, suyun dərinliyində yerləşən yataqlardan neft istehsal etmək üçün Azərbaycan yeni addımlar atmağa başlamışdır. İndi Azərbaycan bu mərhələdə bu işləri dünyanın bir çox ölkələrinin böyük neft şirkətləri ilə birlikdə görür. Məhz bunun nəticəsində 1994-cü ilin sentyabr ayında ilk neft müqaviləsi imzalandı. Məhz bunun nəticəsində ondan sonrakı dövrdə, ötən üç il müddətində Xəzərin Azərbaycan sektorunda yerləşən bir çox başqa neft və qaz yataqlarında dünyanın böyük neft şirkətləri ilə müştərək iş görmək üçün yeni müqavilələr imzalanıbdır. Birinci müqavilədən sonra əlavə 8 neft-qaz yatağında müştərək iş görmək üçün müqavilələr imzalanıb. İndi Xəzər dənizinin Azərbaycan sektorunda imzalanmış müqavilələrdə 12 ölkəyə mənsub olan 20 böyük neft şirkəti iştirak edir.

Beləliklə, Azərbaycan Xəzər dənizində neft yataqlarının kəşfində və istismar olunmasında ilk addımlarını atan bir ölkə kimi indi - XX əsrin sonunda, XXI əsrin astanasında Xəzər dənizinin böyük enerji ehtiyatlarından həm Azərbaycan, həm bütün Xəzəryanı ölkələr, həm də dünya iqtisadiyyatı üçün istifadə olunması sahəsində görkəmli təşəbbüslər göstərmişdir və bunların nəticəsində də son üç ildə böyük işlər görülmüşdür.

Mən məmnuniyyətlə deyə bilərəm ki, artıq Xəzər dənizinə dünyanın hər yerində böyük maraq bəslənir. Xəzər dənizinin Azərbaycan sektorunda olan neft-qaz yataqlarında müştərək işləmək üçün bizə çoxsaylı şirkətlər müraciət edirlər. Böyük məmnuniyyət hissi ilə demək istəyirəm ki, Xəzəryanı digər ölkələr də - Rusiya, Qazaxıstan, Türkmənistan, İran da Xəzər dənizinin onlara mənsub olan sektorlarında artıq iş görməyə başlayıblar. Ümidvaram ki, bu işlər də uğurlu olacaqdır. Xəzər dənizinin enerji ehtiyatları bəşəriyyət üçün çox əhəmiyyətli olduğu üçün, bəşəriyyətin də inkişafına sərf ediləcəkdir.

Bu gün bizi buraya toplayan hadisə ilkin neftin alınması ilə əlaqədardır. Ancaq bu gün eyni zamanda Azərbaycan Respublikası üçün böyük bayram günüdür - müstəqil Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyasının qəbul olunmasının ikinci ildönümüdür.

Mən bu bayram münasibətilə, Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunması günü bayramı münasibətilə sizi, bütün Azərbaycan vətəndaşlarını təbrik edirəm və Konstitusiyanın əsasında Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunda hamınıza uğurlar arzulayıram.

Bu gün - Azərbaycan üçün əziz olan Konstitusiya günü, eyni zamanda Xəzər dənizindəki yataqlarda üç il görülən işlər nəticəsində ilkin neftin hasilatının qeyd olunması mərasimi bir-biri ilə üzvi surətdə bağlıdır. Çünki məhz Azərbaycan dövlət müstəqilliyi əldə edəndən, xalqımız öz sərvətlərinin sahibi olandan, öz sərvətlərindən istədiyi kimi istifadə etmək imkanı əldə edəndən sonra Azərbaycan müstəqil olaraq dünyanın bir çox ölkələri, şirkətləri ilə "Əsrin müqaviləsi" kimi müqavilə imzalamağa nail ola bildi. Məhz müstəqil Azərbaycan özünün ilk demokratik Konstitusiyasını qəbul edibdir. Azərbaycanda demokratik dövlət quruculuğu prosesi gedir. Bunlar bir-biri ilə bağlı, bir-birini tamamlayan hadisələrdir.



Bu gün bizi buraya toplayan "Çıraq" neft yatağından ilkin neftin alınması bayramıdır. Biz "Çıraq" yatağında qurulmuş platformaya bu gün səhər erkən vertolyotla getdik, onun işləri ilə tanış olduq və platformanı seyr etdik. Dənizin ortasında həqiqətən bir möcüzə yaranıbdır.

Azərbaycanlıları dənizdə olan estakadalarla, platformalarla təəccübləndirmək mümkün deyil. Güman edirəm, vertolyatla "Çıraq" yatağına uçan qonaqlarımız bunu təsdiq edərlər. Çünki sahildən "Çıraq" platformasına qədər uçarkən biz vertolyotdan Xəzər dənizində saysız-hesabsız platformaları və Neft daşlarında yaradılmış, çox kilometrləri olan estakadaları və orada olan yaşayış binalarını gördük. Bunların hamısını Azərbaycan xalqı yaradıbdır. Ona görə bunlar bizi o qədər də təəccübləndirmir. Ancaq bununla yanaşı "Çıraq" neft yatağında 3 il müddətində yaradılmış platforma həqiqətən möcüzədir, insanı həqiqətən təəccübləndirir. Çünki o, Xəzər dənizində olan başqa platformalardan, estakadalardan öz müasir texnikası, texnologiyası, müasir imkanları ilə fərqlənir. O platformanı görən adam heyran olur. Çünki bu, böyük bir kombinatdır, zavoddur, demək olar ki, böyük bir şəhərdir. Orada insanlar yaşayır da, işləyir də. Orada insanlar neft istehsal etməyə, neft çıxarmağa başlayıblar.

Bu işin həm iqtisadi, həm siyasi, həm də mənəvi cəhəti var. Bunun iqtisadi cəhəti ondan ibarətdir ki, bizim başladığımız iş bu il də, gələcək illərdə də həm Azərbaycana, həm də Xəzər dənizində Azərbaycanla bərabər, müştərək iş görən şirkətlərə və ölkələrə böyük iqtisadi fayda gətirəcəkdir. Ancaq bunun mənəvi, siyasi cəhəti ondan ibarətdir ki, biz dünyada mövcud olan müasir texnikanı, texnologiyanı orada bir yerdə tətbiq edirik və dünyanın çox ölkələrindən yüksək səviyyəli mütəxəssislər, mühəndislər, fəhlələr gəlib burada Azərbaycan neftçiləri, mütəxəssisləri ilə yan-yana birgə iş görürlər. Bu, çox sevindirici haldır. Bu, bizim gələcək işlərimizin başlanğıcıdır və çox gözəl başlanğıcıdır.

Üç il müddətində görülmüş işlər yüksək qiymətə layiqdir. Çünki "Çıraq" neft yatağında böyük bir platforma yaranıbdır. Orada, suyun dərinliyi 120 metr olan yerdə 3 min metr dərinlikdə bir quyu qazılıbdır, o quyudan neft alınıbdır. Plana görə gələcəkdə həmin platformadan ikinci quyu qazılacaq, sonra daha 8 quyu qazılacaq, ümumiyyətlə isə orada 24 quyu qazılacaqdır. Bu platformadan ildə 6 milyon tona qədər neft çıxarılacaqdır.

Ancaq bu platforma ilə yanaşı, bu üç il müddətində görülən işlər çıxarılan neftin dərhal ixrac olunması üçün bütün maddi-texniki bazanı yaradıbdır. Platformadan sahilə 176 kilometr məsafədə neft borusu tikilib istismara verilibdir. Artıq "Çıraq" platformasından çıxan neft bu boru ilə sahilə gəlir. Quyulardan neft ilə bərabər səmt qazı çıxır. Həmin səmt qazından istifadə etmək üçün "Çıraq" platformasından Neft daşlarına 48 kilometr məsafədə qaz borusu çəkilibdir. Səmt qazı oraya gedəcək, oradan sahilə gətirilib istifadə ediləcəkdir. Çıxarılan neftin toplanması və xarici bazara göndərilməsi üçün Bakının yaxınlığında, dənizin sahilində - Səngəçalda böyük bir terminal, kompleks tikilibdir. Demək, çıxan neftin sahilə gəlməsi və yerləşdirilməsi təmin olunubdur. Onun dünya bazarına, xaricə ixrac edilməsi üçün də neft kəməri artıq tikilibdir.

Bilirsiniz ki, vaxtilə biz Xəzər dənizinin Azərbaycan sektorunda, ümumiyyətlə Azərbaycanda çıxan neftin ixracı üçün iki neft kəmərinin tikilməsini planlaşdırmışıq. Birinci neft boru kəməri Rusiya ərazisindən Qara dənizin Novorossiysk limanına, ikinci neft boru kəməri isə Gürcüstan ərazisindən Qara dənizin Supsa limanına çıxacaqdır.

Birinci neft kəməri böyük çətinliklərdən sonra artıq işə başlayıbdır. Azərbaycan ərazisində bu neft kəmərinin uzunluğu 230 kilometrdir, amma onun Novorossiyskə qədər uzunluğu 1400 kilometrdir. Rusiyanın ərazisində görülən işlər nəticəsində Şimali Qafqazda baş vermiş çətinliklər aradan götürülmüşdür. Həmin neft borusunda olan Azərbaycan nefti bu il oktyabrın 25-də Azərbaycan-Rusiya sərhədini keçmişdir. Bu gün səhər bizə verilən məlumata görə, bu boru xətti ilə neft artıq Qroznı şəhərini də keçmişdir. Güman edirəm ki, neft yaxın vaxtlarda Novorossiysk limanına çatacaqdır. Ancaq bu gün bizə məlumat verdilər ki, "Çıraq" yatağından çıxan neft həmin boru ilə gələn ilin fevral ayında Novorossiysk limanına çatacaqdır. Yəni bu işlər hamısı eyni səviyyədə yaranıbdır, tənzimlənibdir.

Mən keçən illərin, keçən dövrlərin təcrübəsini bilirəm. Bəzən işin bir hissəsi görüldü, o biri hissəsi görülmədiyinə görə bütün bu işlər də öz nəticəsini verə bilmirdi. Amma burada iş kompleks şəklində görülübdür.

İkinci neft boru kəməri Gürcüstan ərazisində tikilməkdədir. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin rəhbərliyi məlumat verir ki, bu neft boru kəməri gələn ilin sentyabr ayında hazır olacaqdır. Beləliklə, təkcə "Çıraq" yatağından yox, digər yataqlardan hasil olunan neft də iki müxtəlif istiqamətdə neft boru kəmərləri ilə dünya bazarlarına çıxarıla biləcəkdir.

Şübhəsiz ki, bütün bu görülən işlər konsorsiuma daxil olan şirkətlərin böyük fəaliyyəti və onların qoyduqları kapitalın nəticəsindədir. Beynəlxalq Əməliyyat Şirkətinin rəhbərliyi altında bu üç il müddətində görülən işlərə konsorsiumun səhmdarları tərəfindən hamısı birlikdə bir milyard dollar məbləğində kapital qoyulubdur. Bu özü çox əlamətdar hadisədir. Bir milyard dollar bəlkə də hansısa dövlət üçün xırda bir məbləğ hesab olunur. Ancaq bizim region üçün, Azərbaycan üçün bu üç il müddətində burada bir milyard dollar məbləğində müştərək iş görülməsi çox böyük və sevindirici bir hadisədir.



Bildirmək istəyirəm ki, görülən bu işlər dünyanın bir çox şirkətlərini Azərbaycana gətirib çıxarıbdır, onlar burada fəaliyyət göstərirlər. Məhz bu birinci müqavilənin proqramını həyata keçirmək üçün görülən işlərdə dünyanın ayrı-ayrı ölkələrindən cəlb olunmuş 400-dən artıq şirkət iştirak edir. Bu şirkətlər bir milyard dollar həcmində olan həmin sərmayədən, investisiyadan istifadə ediblər və hər biri mənfəət götürüb. Burada Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın, Avropanın bir sıra ölkələrinin şirkətləri də çoxdur. Məmnuniyyət hissi ilə deyə bilərəm ki, müştərək iş görən bu şirkətlərin içərisində 72 müəssisə Azərbaycan Respublikasının sənaye və yaxud tikinti müəssisələridir. Azərbaycan Respublikası müəssisələrinin gördükləri işin dəyəri 163 milyon dollardır.

Beləliklə, bu müqavilənin keçirilməsinə həm dünyanın bir çox ölkələri, şirkətləri, həm də Azərbaycanın neft sənayesində işləyən şirkətlər, müəssisələr, alimlər, mütəxəssislər, yüksək professional səviyyədə olan fəhlələr cəlb ediliblər. Bizi sevindirən hal odur ki, bu işlərin həyata keçirilməsində xaricdən cəlb olunan yüksək dərəcəli mütəxəssislərin sayı get-gedə azalır, Azərbaycan Respublikasının özündən olan mütəxəssislərin sayı artır. Bu da təbiidir. Çünki Azərbaycan neft sənayesi sahəsində böyük elmi-texniki potensiala malikdir. Azərbaycanın bu potensialından istifadə etmək lazımdır. Bu, iqtisadi nöqteyi-nəzərdən daha da səmərəlidir.

Bir daha qeyd etmək istəyirəm: Görülən bütün bu işlər Xəzər dənizinin enerji ehtiyatlarını dünyaya nümayiş etdiribdir. Mən sizə bildirdim ki, artıq Azərbaycan sektorunda olan yataqlar üzrə 9 müqavilə imzalanıbdır. Birinci müqavilənin sərmayəsi 8 milyard dollar həcmində nəzərdə tutulubdur. İmzalanmış bütün mugavilələrin hamısının nəzərdə tutulmuş investisiyası 30 milyard dollar həcmindədir. Bunlar hamısı Xəzərin Azərbaycan sektorunda olan yataqlar üçün nəzərdə tutulmuş investisiyalardır. Ancaq Xəzəryanı digər ölkələrə mənsub olan sektorlarda da çox zəngin neft-qaz yataqları var. Hesab edirəm ki, Azərbaycan sektorunda görülən bu işlər, əldə olunmuş təcrübə onların hərəkətə gəlməsi üçün çox əhəmiyyətli ola bilər. Biz bu təcrübəni bütün Xəzəryanı ölkələrlə bölüşdürməyə, Xəzər dənizinin enerji ehtiyatlarından istifadə edilməsində öz xidmətlərimizi göstərməyə hazırıq.

Mən bütün bu işlərin haqqında danışarkən ilk müqaviləyə daxil olan bütün şirkətlərə imzalanmış müqavilələrin həyata keçirilməsində onların göstərdiyi xidmətlərə görə təşəkkür edirəm. Beynəlxalq Əməliyyat Şirkətində çalışan bütün mütəxəssislərə, neftçilərə, həm xarici ölkələrdən gəlmiş, həm də Azərbaycandan olan bütün insanlara təşəkkürümü bildirmək istəyirəm.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin rəhbərliyinə və xüsusən onun başçısı, "Britiş Petroleum" şirkətinin nümayəndəsi olan cənab Terri Adamsa təşəkkür edirəm. Hesab edirəm ki, bizim üçün bu üç il müddətində gördüyümüz müştərək iş gələcəyə böyük, geniş bir yol açmışdır. Biz Azərbaycana gəlmiş bütün şirkətlərlə, bütün bu işlərdə iştirak edən ölkələrlə gələcəkdə də müştərək iş görməyə hazırıq.

Biz arzu edirik ki, Xəzəryanı ölkələr öz sektorlarındakı imkanlardan istədikləri qədər istifadə edə bilsinlər. Biz bu işlərdə də qonşu, dost ölkələrlə həmişə bir yerdəyik və onlarla müştərək iş görməyə, öz təcrübəmizi onlara öyrətməyə hazırıq.

Dediyim kimi, Xəzər dənizi dünyanın ən zəngin enerji ehtiyatları olan bir su hövzəsi kimi məşhurlaşıbdır. Eyni zamanda, Xəzər dənizinin digər sahilində, Mərkəzi Asiya ölkələrinin ərazisində də çox zəngin neft yataqları vardır. Bu yataqların - həm quruda, həm də dənizdə olan neft yataqlarının işlənməsi, istifadə edilməsi gələcəkdə qarşımızda duran böyük vəzifələrdir. Biz bu vəzifələrin həyata keçirilməsində öz xidmətlərimizi göstərmək istəyirik. Bu işlər XXI əsrin iqtisadi strategiyasını yaratmaq üçün çox əhəmiyyətlidir.

Bizim imzaladığımız müqavilələrin hamısı təxminən 30 il müddətinə bağlanıbdır. Ancaq mən güman edirəm ki, bu müqavilələr 30 il yox, ondan da çox illər işləyəcəkdir. Mən hesab edirəm ki, Azərbaycan Respublikasının dünyanın böyük neft şirkətləri ilə imzaladığı müqavilələr XXI əsrdə həm Azərbaycan üçün, həm də Azərbaycanla müştərək iş görən şirkətlər, ölkələr üçün çox əhəmiyyətli sənədlərdir. Biz böyük, xoşbəxt gələcəyin astanasında durmuşuq. Biz bunun təməl daşını, əsasını qoymuşuq. Bugünkü təntənəli mərasim də məhz buna həsr olunmuşdur. Ona görə də mən Azərbaycan xalqına, həm də Xəzəryanı bütün ölkələrin xalqlarına, Xəzərin ehtiyatlarından istifadə etmək istəyən bütün ölkələrə, şirkətlərə bu böyük işlərin XXI əsrdə də uğurla getməsini arzulayıram.

Bir mühüm məsələ də meydana çıxır. O da gələcəkdə hasil ediləcək neftin ixrac olunmasıdır. Mən dediyim kimi, ilk müqavilə üzrə hasil edilən neftin ixrac olunması üçün artıq iki neft boru kəmərinin tikilməsi məlumdur. Ancaq bizim ilk müqaviləmizdə nəzərdə tutulubdur ki, əsas, böyük boru kəməri də tikilsin. Bu, bir müqavilədə nəzərə tutulubdur. Ancaq nəzərə alsaq ki, bundan sonra 8 müqavilə imzalanıbdır və 9-cu müqavilə - "Kürdaşı" neft yatağının birgə işlənilməsi barədə müqavilə imzalanmaq ərəfəsindədir, demək, 9 müqavilə imzalanır və bu müqavilələrin əsasında böyük işlər görüləcək, on milyon tonlarla neft çıxarılacaqdır. Məsələn, bizim ilkin hesablamalarımıza görə, 5-6 ildən sonra bu müqavilələr üzrə Azərbaycanda təxminən 50-60 milyon ton neft hasil olunacaqdır. Bunların ixrac

olunması üçün əsas neft kəməri və bir neçə istiqamətdə gedən alternativ boru kəmərlərinin tikilməsi lazımdır. Bu, indi qarşıda duran əsas vəzifələrdən biridir.

Demək istəyirəm, - təəssüf ki, bu, indi beynəlxalq aləmdə müxtəlif fikirlər, mübahisə doğuran məsələlərdən biridir, - indi çox ölçüb-biçirlər ki, Azərbaycan, Xəzər nefti haradan, hansı istiqamətdən, hansı ölkələrin ərazisindən gedəcəkdir. Şübhəsiz ki, bu məsələlərin əsasını təşkil edən onun iqtisadi səmərəliliyidir. Məsələn, mən bu ilk müqavilənin səhmdarları ilə bir neçə dəfə danışmışam. Onlar bu məsələnin kommersiya, yəni iqtisadi tərəfinə çox ciddi fikir verirlər. Çünki bu əsas neft kəmərini şimala da, cənuba da, qərbə də aparmaq olar. Yəqin ki, şərqə aparmaq mümkün deyil. Ancaq bunların hansı iqtisadi nöqteyi-nəzərdən daha səmərəlidir, hansı etibarlıdır və hansının təhlükəsizliyi tamamilə təmin olunur? Şübhəsiz ki, bu məsələlər ölçülməlidir-biçilməlidir. Birinci növbədə neft şirkətləri, konsorsiumlar bu barədə öz sözlərini deməlidir. Şübhəsiz ki, biz də öz fikirlərimizi bildirməliyik.

İndi iki neft kəməri var. Əsas neft kəmərinin marşrutu haqqında bir çox söhbətlər gedir ki, o, cənubamı, ya qərb tərəfdən Qara dənizə getsin, yaxud Türkiyənin ərazisindən, yaxud şimal tərəfindən, Rusiya ərazisindən keçsin. Mən yenə də deyirəm, - bunların hamısı ölçülüb-biçilməlidir.

Bir məsələ də var. Qazaxıstanda böyük neft yataqları vardır, oradan neft çıxarılır. Amerikanın "Şevron" neft şirkəti "Tengiz" yatağından neft hasil edir və onu ixrac etmək üçün yollar axtarır. "Şevron" neft şirkəti bizə müraciət etdi. Biz "Şevron" neftinin Qazaxıstanın Xəzər dənizində olan Aktau limanından tankerlərlə Bakıya gətirilib, buradan isə dəmir yolu vasitəsilə Gürcüstan ərazisindən Qara dənizin Batumi limanına qədər aparılmasına razılıq vermişik. Mart ayından indiyədək bu yolla 500 min ton, yəni yarım milyon ton "Şevron"-"Tengiz" nefti nəql olunub və Batumi limanına çatdırılıbdır. Hesab edirəm ki, bu rəqəm get-gedə artacaq, gələn il bu yolla 2 milyon ton neft ixrac etmək mümkün olacaqdır. Ancaq bu yol da çox ağır yoldur. Ona görə də bu ilin yayında Qazaxıstan Prezidenti ilə Azərbaycan Prezidenti - mən Aktau limanından Xəzər dənizinin dibi ilə Bakıya qədər neft boru kəməri tikilməsi haqqında saziş imzalamışıq. Biz buna razılıq vermişik. Bu, Qazaxıstanın nefti üçün lazımdır. Bizim Azərbaycandakı terminallarımız və indi Azərbaycandan şimal, qərb istiqamətlərində gedən boru kəmərlərimiz neftin ixrac olunmasına imkan verir. Ona görə də güman edirəm ki, bu məsələnin həll edilməsi gələcəkdə çıxarılacaq neftin dünya bazarlarına çatdırılması üçün əsas məsələlərdən biri olardı.

Bundan əlavə, məsələn, Türkmənistandan Azərbaycana qaz kəmərinin çəkilməsi haqqında da danışıqlar aparılmışdır. Bu ilin may ayında Aşqabadda hətta bir saziş də imzalanmışdır. Əgər bu məsələ də həll oluna bilsə, bunlar da Qərbə çox böyük fayda verər.

Qara dəniz hövzəsində olan ölkələr, məsələn, Gürcüstandan əlavə, Ukrayna, Bolqarıstan, Rumıniya, oradan o tərəfə - Yunanıstan və ondan da o tərəfə - Avropanın digər ölkələri Xəzər dənizindən çıxan neftdən istifadə etmək istəyirlər. Beləliklə, əgər biz nefti bu kəmərlərlə Türkiyəyə, Qara dəniz sahilinə - Gürcüstanın, yaxud Türkiyənin sahilinə çıxara bilsək, bu neft Türkiyənin ərazisindən gedə bilsə, şübhəsiz ki, bu ölkələr də təmin oluna bilər. Bu ölkələr Xəzər dənizindəki yataqlardan çıxarılan neftə böyük maraq göstərirlər.

Bütün bunları ölçüb-biçmək lazımdır. Bizim ilkin layihəmizdə əsas, böyük neft kəmərinin Bakı-Ceyhan istiqamətində getməsi nəzərdə tutulubdur.

Doğrudur, investorlar, səhmdarlar bu boru xəttinin baha olduğunu deyirlər. Bunun iqtisadi tərəfini onlar aydınlaşdırmalıdırlar. Biz hesab edirik ki, bu marşrut, xətt Azərbaycan neftinin, Xəzər dənizi neftinin ixrac edilməsi üçün əsas xətlərdən biri ola bilər. Ona görə də biz bu neft kəmərinin tikilməsini əvvəl də dəstəkləmişik, bu gün də dəstəkləyirik. Amma məsələnin son həlli, şübhəsiz ki, şirkətlərdən, konsorsiumdan və səhmdarlardan asılıdır.

Bu gün Rusiya Baş nazirinin birinci müavini Boris Nemtsov şimal istiqamətində yeni bir neft kəmərinin Rusiya Federasiyasının ərazisindən keçməsi barədə məsələ qoymuşdur. Bu məsələyə də baxmaq, onu müzakirə etmək olar. Başqa istiqamətlərdə də çox işlər görülə bilər. Hər halda mən hesab edirəm ki, həm Xəzər dənizinin Azərbaycan sektorundan, başqa sektorlardan, həm də Mərkəzi Asiyadan, xüsusən Qazaxıstandan çıxan neftin ixracı, xüsusən Qərbə ixracı üçün çox işlər görülməlidir, bir çox neft kəmərləri tikilməlidir. Biz bu işlərdə fəal iştirak edəcəyik.

Bizim gördüyümüz bütün bu işlər Asiya ilə Avropa arasında yeni bir nəqliyyat xəttinin də yaranmasına gətirib çıxarıbdır. Qədim İpək yolunun bərpa olunması məsələsi artıq reallaşıbdır. Biz keçən il bir saziş imzalamışıq, bu saziş əsasında Mərkəzi Asiyadan, Xəzər dənizi üzərindən, Azərbaycandan Gürcüstana, Qara dənizdən Avropaya bir nəqliyyat dəhlizi açmışıq. Bu nəqliyyat dəhlizi artıq işləyir. Həm Mərkəzi Asiyadan Avropaya, həm də Avropadan Mərkəzi Asiyaya yüklər gedir. Bu da iqtisadi cəhətdən çox səmərəlidir. Bu yükləri Xəzər dənizi üzərindən Azərbaycana məxsus olan bərələr gətirir.

Azərbaycan, Gürcüstan ərazisindən yüklər dəmir yolu ilə gedir. Sonra bunlar Qara dənizdən gəmilərlə Avropaya çatdırılır. Bu nəqliyyat dəhlizinin çox böyük əhəmiyyəti, gələcəyi var. Biz bunu da dəstəkləmişik



və bu nəqliyyat dəhlizinə qoşulan ölkələrlə birlikdə əməkdaşlıq edirik və bu əməkdaşlığı bundan sonra da edəcəyik.

Hesab edirəm ki, həm neft boru kəmərləri, həm Asiya-Avropa, Avropa-Asiya nəqliyyat dəhlizi bu ölkələrin iqtisadiyyatını bir-birinə daha da bağlayacaq, onların əlaqələri daha da möhkəmləndiriləcəkdir.

Hörmətli xanımlar və cənablar!

Bugünkü təntənə, əldə edilən nailiyyətlər yalnız və yalnız Azərbaycanın dövlət müstəqilliyinin qazanılmasından sonra mümkün olmuşdur. Biz bu gün Azərbaycanın müstəqil dövlət olmasının bəhrələrini görürük.

1994-cü ilin sentyabr ayında biz ilk böyük neft müqaviləsini imzalayarkən dünyaya nümayiş etdirdik ki, Azərbaycan müstəqil dövlətdir və müstəqil dövlət kimi öz təbii sərvətlərinin sahibi olaraq onlardan istifadə edilməsi haqqında qərarlar qəbul edir. Üç il keçəndən sonra biz bir daha təsdiq edirik ki, Azərbaycan müstəqil dövlətdir, Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və biz artıq bu müstəqilliyimizin gözəl bəhrələrini görürük.

Bizim bu gün gördüyümüz işlər XXI əsr, gələcək nəsillər üçün görülən işlərdir. Biz bu gün ilkin neftin alınmasını bayram edirik. Gələn il "Çıraq" neft yatağından 2 milyon ton neft çıxarılacaqdır. Ancaq bir neçə ildən sonra 5-6 milyon ton, 5-6 ildən sonra 40-50 milyon ton neft hasil olunacaqdır. Ondan sonra daha da çox neft çıxarılacaqdır. Demək, XXI əsrdə Azərbaycanın iqtisadiyyatı bu neft sənayesi vasitəsilə yüksələcək və dirçələcəkdir.

Biz belə hesab edirik ki, bu, təkcə neft sənayesi üçün deyil, Azərbaycan iqtisadiyyatının bütün sahələrini, müstəqil dövlət kimi Azərbaycanı inkişaf etdirmək, ölkəmizdə bazar iqtisadiyyatını inkişaf etdirmək üçün çox gözəl bir imkandır. Biz bu imkanlardan istifadə edəcəyik.

Bugünkü mərasim, bu görüşlər bir daha onu göstərir ki, Azərbaycanın qapısı dünya iqtisadiyyatına açıqdır.




Azərbaycan dünya iqtisadiyyatı ilə gündən-günə daha da sıx bağlanır. Azərbaycan öz iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə qurur. Azərbaycan öz iqtisadiyyatını bundan sonra da bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirəcəkdir. Biz artıq bunun gözəl nəticələrini görürük.

Sizə bir neçə məlumat vermək istəyirəm. Məhz son illərdə respublikamızın iqtisadiyyatında aparılan islahatlar və demokratik dövlət quruculuğu Azərbaycanın iqtisadiyyatında 5-6 il əvvəl olmuş tənəzzülü aradan qaldırdı. İndi Azərbaycanın iqtisadiyyatında artım başlayıbdır. Ölkəmizdə keçən il ümumi daxili məhsul 1,3 faiz artıbdır, bu il isə 5 faiz artıbdır. Sənaye istehsalı hər il 20-25 faiz aşağıya düşürdü. İndi aşağıdüşmə dayanıbdır. Bu ilin 9 ayında təxminən 1 faiz artım olmuşdur. Azərbaycanda 1994-cü ildə inflyasiya il ərzində 1600 faiz idi. Keçən il bu, 6 faiz olmuşdur. Bu ilin 9 ayında inflyasiya yoxdur, sıfıra endirilibdir.

Azərbaycanda iqtisadi islahatlar gedir. Torpaq haqqında qəbul olunmuş qanun torpağın xüsusi mülkiyyətə verilməsini təmin edibdir. İndi torpaq xüsusi mülkiyyətə verilir. Mülkiyyət özəlləşdirilir və biz bu özəlləşdirmənin bəhrəsini görürük. Xarici ticarət liberallaşdırılıbdır, xarici ticarətin dövriyyəsi 9 ayda 30 faiz artıbdır. Biz bu il bütün iqtisadiyyatımıza ümumən 1 milyard 500 milyon dollar dəyərində kapital qoyuluşu nəzərdə tuturuq. Bunun 1 milyard dolları xarici investisiya olacaqdır.

Bunlar hamısı Azərbaycanda gedən demokratik proseslərin, dəyişikliklərin, bazar iqtisadiyyatı tətbiq edilməsinin nəticəsidir. Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatı ilə bağlılığının ahəngdar surətdə inkişaf etməsinin nəticəsidir.

Bunlar bizi sevindirir. Təbiidir ki, mən bu sevinc hisslərimi bu gün sizə və bizim bu mərasimdə iştirak edən qonaqlara çatdırmağı özümə borc bilirəm.

Mən bu əlamətdar tarixi hadisə münasibətilə sizi bir daha təbrik edirəm. Azərbaycan neftçilərinə və Azərbaycanda indi bizimlə müştərək iş görən bütün şirkətlərə, neftçilərə, mütəxəssislərə, iqtisadçılara - hamıya gələcək işlərində uğurlar arzulayıram. Sağ olun.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və dəfələrlə gurultulu, sürəkli alqışlarla qarşılandı.

Sonra Türkiyənin Baş naziri Məsud Yılmaza söz verildi.

**Türkiyənin Baş naziri**
**Məsud Yılmazın çıxışı**

- Hörmətli Azərbaycan Cümhurbaşqanı Heydər Əliyev həzrətləri!

Hörmətli Gürcüstan Cümhurbaşqanı Eduard Şevardnadze!

Dəyərli qonaqlar!

Sözümün əvvəlində Azərbaycan neftinin dünya bazarlarına çıxarılması yönümündə atılmış ilk addıma həsr olunmuş bu mərasim münasibətilə buraya gəlməyimdən və qardaş Azərbaycan xalqının bu əlamətdar gününü bölüşməkdən çox böyük sevinc duyduğumu ifadə etmək istəyirəm. Bunun müstəqil Azərbaycanın demokratik, qabaqcıl, hüququn üstünlüyünə əsaslanan, insan haqlarına hörmət edən çağdaş milli Konstitusiyasının ikinci ildönümü ilə bir vaxta düşməsinin çox böyük məna daşıdığını xüsusi vurğulayır, bu münasibətlə Azərbaycanın Konstitusiya bayramını təbrik edirəm.

Azərbaycanın müstəqillik qazanmasından bəri siyasi və iqtisadi sahələrdə əldə etdiyi uğurları yaxından və məmnuniyyətlə izləyirik. Hər sahədə ən mükəmməl əlaqələr içində olmaqla iftixar etdiyimiz bu qardaş ölkənin müstəqil, suveren, demokratik və çağdaş bir dövlət kimi dünya səhnəsində layiq olduğu yerini tutması Türkiyəni də çox sevindirir. Qısa bir müddətdə fəxr edilməli uğurlar qazanılmasında Azərbaycan xalqının yüksək keyfiyyətləri ilə yanaşı, dövlət adamlarının bacarıqlı rəhbərliyinin də mühüm rol oynadığı şübhəsizdir.

Bu gün bizi burada görüşdürən mərasim XXI yüzilliyə doğru gedərkən qarşılıqlı bağlılıq faktının beynəlxalq əlaqələrdə necə bir bünövrə olduğunu çox aydın göstərir. Türkiyə bütün dünyada olduğu kimi, "soyuq müharibə" zamanındakıtək, bu gün də sülh və sabitlik axtarışlarının davam etdiyi bir vaxtda Qafqazda da bu gerçəkliyin anlaşılıb dərk edilməsini və ağıllı əməkdaşlıq istiqamətində dəyərləndirilməsini sülh və sabitliklə yanaşı, rifah da vəd edən "qızıl açar" sayırıq. Qafqaz bölgəsində sülh, əməkdaşlıq və sabitliyin bərqərar olması yolunda ən böyük əngəl Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının davam etməsi və Dağlıq Qarabağ problemidir. Türkiyə bu problemin Azərbaycanın ərazi bütövlüyü təmin olunmaqla sülh yolu ilə məqbul bir şəkildə həll edilməsində Azərbaycanı hər zaman dəstəkləmişdir. İndi Ermənistan tərəfinin də məsələnin həlli istiqamətində göstərəcəyi müsbət münasibət dünyanın bu son dərəcə mühüm bölgəsinin gələcəyi baxımından həlledici olacaqdır. Bölgə ölkələri arasındakı əlaqələrdə ortaq bir gələcək perspektivi və qarşılıqlı hörmətə əsaslanan sülh məntiqi rəhbər tutulmalıdır. Qafqaz bu zəmində öz daxilində əməkdaşlıq təfəkkürü ilə, bu sivil anlayışın təmin edəcəyi əmin-amanlıqdan və çoxcəhətli faydalardan bəhrələnməlidir. Qafqaz dünyanın qayğılı bir bölgəsi deyil, problemlərlə dolu olan başqa bölgələrə sülh, sabitlik və əməkdaşlıq ilhamı verən bölgə olmalıdır.

XXI yüzillikdə beynəlxalq siyasəti formalaşdıracaq önəmli amillərdən biri yenə neft olacaqdır. Strateji xammal olan neft baxımından Xəzər hövzəsinin malik olduğu zənginlik bu bölgəni bütün dünyanın marağını cəlb edən mərkəzə çevirmişdir. Toqquşma və rəqabət əvəzinə əməkdaşlıq və sülh mühiti yaradılması baxımından bu mühitin məsuliyyət hissi ilə dəyərləndirilməsinin böyük əhəmiyyəti var. Biz hesab edirik ki, neft bölgə ölkələri arasında ayırıcı deyil, birləşdirici bir ünsür olmalıdır. Dünyanın üçüncü böyük neft ehtiyatına sahib olan Xəzər hövzəsində mövcud neftin miqdarı bir deyil, bir neçə boru kəmərinin lazım gələcəyini göstərir. Beləliklə də neft və boru kəmərləri məsələsi bölgə ölkələri və digər əlaqədar ölkələr arasında çoxtərəfli və çox geniş əməkdaşlığı zəruri edir.

Bəhs olunan neftin dünya bazarlarına çatdırılması üçün qarşıdakı illərdə çəkilməli olan boru kəmərləri arasında həm strateji və iqtisadi, həm də təhlükəsizlik baxımından ən uyğun və səmərəli variantın Bakı-Ceyhan xətti olması getdikcə daha çox aydınlaşır. Bakı-Ceyhan xəttinin Xəzər neftini dünya bazarlarına çatdırmaq üçün ana xətt olması barədə verdiyi dəstəyə görə hörmətli Cümhurbaşqanı Heydər Əliyevə Türkiyə hökuməti adından təşəkkürümü bildirirəm. Bu xəttin gerçəkləşdirilməsi istiqamətində birgə səylərimizin ardıcıl davam etdirilməsinin böyük əhəmiyyəti var. Layihənin həyata keçirilməsi baxımından Azərbaycanla əməkdaşlığa əhəmiyyət verdiyimizi burada bir daha qeyd etmək istəyirəm. Bu istiqamətdə davam edən işlərin ən qısa bir vaxtda başa çatdırılacağına tam inanırıq.

Çıxışımın sonunda salamatlığı bizim üçün göz bəbəyi qədər qiymətli olan Azərbaycanın sülh şəraitində, daha parlaq gələcək istiqamətində bu gün atdığı tarixi addımdan duyduğumuz məmnunluğu bir daha ifadə etmək istəyirəm. Beynəlxalq miqyasda haqlı olaraq gördüyü əlaqə və dəstəklə dünya səviyyəli keyfiyyət və məna qazanmış bu addımın ardınca coğrafi baxımdan əhəmiyyəti çox uzaqlara yayılmış Qafqazın nümunəvi sülh, əməkdaşlıq və rifah bölgəsinə çevrilməsi üçün ehtiyac duyduğu digər addımların da tez bir vaxtda atılması bütün dünyanın olduğu kimi, Türkiyənin də səmimi istəyi və diləyidir.

Konstitusiya bayramınızı bir daha təbrik edir, Azərbaycanın parlaq, güclü və xoşbəxt gələcəyində ən yüksək uğurlara çatmasını arzulayıram.

Təşəkkür edirəm.

Sonra Rusiya Baş nazirinin birinci müavini Boris Nemtsov çıxış etdi.

**Rusiya Baş nazirinin birinci müavini**
**Boris Nemtsovun çıxışı**

- Hörmətli cənab Prezident!

Möhtərəm xanımlar və cənablar!

Nə qədər yaxşı danışsan da Heydər Əliyevçədən






onsuz da yaxşı danışa bilməyəcəksən. Buna görə də mən çox qısa danışacağam.

Biz hesab edirik ki, bu gün Azərbaycanda baş vermiş hadisə olduqca böyük iqtisadi və siyasi müvəffəqiyyətdir, bu, həm Azərbaycanın, həm də Rusiyanın müvəffəqiyyətidir.

Deyə bilərəm, hətta bu salonda və bu rəyasət heyətində elə adamlar var ki, onlar hələ bir neçə ay bundan əvvəl Rusiyanın öz öhdəliklərini yerinə yetirəcəyinə və ilkin Azərbaycan neftinin Novorossiyskə vaxtında nəql ediləcəyinə şübhə ilə yanaşırdılar. Buna görə də sizə məlumat verirəm ki, bu dəfə lap yaxşı oldu. Biz bütün öhdəliklərimizi yerinə yetirdik. Üstəlik onu da deyim ki, bu il biz 120 min ton, gələn il 1,5 milyon ton, daha bir ildən sonra isə azı 5 milyon ton neft vurmağa hazırıq. Belə deməyə bizim də hər cür əsasımız var. Əvvəla, bildiyiniz kimi, Şimali Qafqazın məruz qaldığı hətta ən ağır şəraitdə biz bu problemi həll edə bildik. Yeri gəlmişkən deyim ki, Heydər Əliyeviçin köməyi ilə həll etdik - yayda mən onun yanına gəldim və biz bu mövzuda danışdıq.

Sonra onu deyə bilərəm ki, neftin nəqlinin təhlükəsizliyi məsələsi bizim üçün çox böyük əhəmiyyətə malikdir. Hər cür gözlənilməz hadisənin qarşısını almaq üçün biz indi də var qüvvə ilə çalışırıq. Belə hallar olmayacaqdır. Neft, danışıldığı kimi, yüz faiz nəql ediləcəkdir. Biz heç kəsi aldatmaq fikrində deyilik və hələ indiyədək heç kəsi də aldatmamışıq.

Böyük neftin nəqli məsələsi barədə. Hesab edirəm ki, bir ayağın üstündə dayanıb qalmaq olmaz. İki ayağa söykənmək gərəkdir, əgər üç ayaq olarsa, onda hər üç ayağa söykənmək lazımdır. Buna görə də bazar rəqabəti şəraitində yaşamaq gərəkdir. Bunun mənası isə sadədir: kim ki daha ucuz qiymət təklif edəcək, neft kəmərini daha tez çəkəcək, neft mədənlərinə daha yaxşı xidməti təmin edəcək, o da qalib gələcəkdir. Məhz buna görə indi Rusiya öz variantını təklif edir. Mən belə düşünürəm ki, bu variant Türkiyənin variantı ilə rəqabət aparmağa qabildir.

Hesab edirəm ki, biz Azərbaycandan çox şey öyrənə bilərik. Həqiqətən, burada həyata keçirilən gözəl beynəlxalq layihələr digər Xəzəryanı ölkələri də Xəzərdəki yataqların necə istismar olunması barədə düşünməyə vadar edir. Zənnimcə, Xəzərin təbii ehtiyatlarından istifadə məsələsinə, nəhayət, nöqtə qoymaq vaxtı gəlib çatmışdır. Bunu çoxdan etmək lazım idi. Yeri gəlmişkən, bu məsələni Heydər Əliyeviç də dəfələrlə, o cümlədən iyulun əvvəllərində Moskvaya axırıncı səfəri zamanı da qaldırmışdır. Məncə, indi biz belə bir məqama gəlib çatmışıq ki, bu müqaviləni bağlamaq lazımdır.

Axırıncısı. Biz Boris Nikolayeviçlə birlikdə Çində olduq. O, bu əlamətdar hadisə, həm Azərbaycanın, həm də Rusiyanın bu əlamətdar müvəffəqiyyəti münasibətilə Heydər Əliyeviçə şəxsi məktubla müraciət etmişdir.

ABŞ-ın eneretika naziri Federiko Penyaya söz verildi.

**ABŞ-ın energetika naziri**
**Federiko Penyanın çıxışı**

- Cənab Prezident Heydər Əliyev, Prezident Eduard Şevardnadze, Baş nazir Məsud Yılmaz, Baş nazirin birinci müavini Boris Nemtsov, həmkar nazirlər, xanımlar və cənablar!

Cənab Heydər Əliyev! Azərbaycan xalqının və Sizin Prezidentliyinizin bu tarixi günündə ABŞ Prezidenti Bill Klintonun və Amerika xalqının adından Sizə ən səmimi təbriklərimi yetirirəm. Çox məmnunam ki, dünən Prezident Bill Klintonun təbrik məktubunu Sizə təqdim etdim və bütün layihə iştirakçılarına onun adından böyük uğurlar dilədim.

Prezident Heydər Əliyev, xatirinizdədirsə, mən Sizinlə ilk dəfə Siz Vaşinqtona Prezident Bill Klintonla



görüşməyə gələrkən tanış olmuşam. Elə həmin görüş zamanı mən ümid etdiyimi bildirmişdim ki, bu il Bakıya gələ biləcəyəm. Beləliklə, çox şadam ki, bu təntənəli gündə şairlər, musiqiçilər və neft pionerləri ölkəsində Amerika Birləşmiş Ştatlarını təmsil edirəm. Anlayıram ki, biz bu gün iki tarixi günü - Azərbaycan Konstitusiyasının ikinci ildönümünü və ilkin neftin çıxarılması təntənəsini qeyd edirik. Bu gün Azərbaycan sadəcə siyirtməni döndərməklə neft borusunu işə salmır. Bugünkü gün daha əlamətdar gündür. Azərbaycan tərəqqi, beynəlxalq əməkdaşlıq erasını açır və bu era həm Azərbaycanın, həm də bölgənin gələcəyi üçün çox vacibdir. Həm Azərbaycan, həm də bu bölgə dünyanın gələcəyi üçün çox mühümdür. İlkin neftin hasil edilməsinin qeyd olunması çox mühümdür və gələcəyin simvoludur. İlkin neft "Çıraq" yatağından Səngəçal terminalına, daha sonra Qara dənizə - Rusiyanın Novorossiysk limanına axacaqdır. Bununla da Xəzər hövzəsi enerji ehtiyatlarının inkişafının yeni erası - əməkdaşlıq və ticarət erası başlanır. Birinci təcrübə göstərdi ki, bu layihə yerinə yetirilə bilərmiş və mən əminəm ki, bu uğur digər imkanlar üçün qapı açacaqdır.

Xanımlar və cənablar! Bu layihə Prezident Heydər Əliyevin cəsur liderliyi, beynəlxalq biznes dairələri ilə əməkdaşlığı nəticəsində həmkarlıq və sərmayələr olmasaydı mümkün olmazdı. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti - bu layihəni inkişaf etdirən konsorsium valehedici beynəlxalq bir komandadır, ən yaxşıları özündə birləşdirir. Biz qürur hissi keçiririk ki, Amerika Birləşmiş Ştatlarının "Amoko", "Ekson", "Pennzoyl" və "Yunokal" şirkətləri bu uğurun bir hissəsidir.

Cənab Prezident Əliyev! Siz Azərbaycanın enerji ehtiyatlarını inkişaf etdirmək, ölkənizi və bölgənizi beynəlxalq aləmə tanıtmaq üçün yorulmadan işləyirsiniz. Tutduğunuz yol ölkənizin vətəndaşlarının həyat səviyyəsini qaldıracaq, bu nailiyyət Azərbaycanın və bütün bölgənin müstəqilliyini, demokratiyasını və tərəqqisini təmin edəcəkdir.

Prezident Bill Klinton məndən xahiş edib ki, bu Prezident missiyasına rəhbərlik edim. Çünki o, Xəzər dənizi hövzəsinin dünyanın gələcəyi üçün nə qədər vacib olduğunu yaxşı dərk edir. Mən bu bölgəyə həftənin birinci günü - bazar ertəsi gəlmişəm. Artıq Türkiyə və Ermənistan liderləri ilə və cənab Prezident Heydər Əliyev, Sizinlə görüşmüşəm. Bundan sonra Türkmənistana və Gürcüstana gedəcəyəm. Bütün görüşlərimdə qeyd edirəm və bunu daim təkrar edəcəyəm ki, alternativ və təhlükəsiz neft təchizatını təmin etmək, nefti dünya bazarına çatdırmaq, regional siyasi və iqtisadi sabitliyi təmin etmək və alternativ Şərq-Qərb neft boruları vasitəsilə neft və qazı beynəlxalq bazarlara çatdırmaq vacibdir. Amerika Birləşmiş Ştatları alternativ və təhlükəsiz neft təchizatı ideyasını və bir bölgənin neft və qazından asılı olmamaq ideyasını dəstəkləyir. Ona görə də bu gün Prezident Heydər Əliyevlə və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə birlikdə bu nailiyyətdə iştirak edə-edə biz qeyri-ixtiyari olaraq başqa bir tarixi gün - 1998-ci ilin oktyabrı haqqında düşünürük. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin planına görə məhz həmin gün əsas neft ixracı kəməri hazır olmalıdır.

Amerika Birləşmiş Ştatları Bakı-Ceyhan neft kəməri ideyasını bəyənir və dəstəkləyir. Biz inanırıq ki, Bakı-Ceyhan xətti Avrasiya nəqliyyat dəhlizinin ehtiyaclarını ödəyə bilər. Biz həm də Transxəzər və Transqafqaz boru xətləri ideyasını dəstəkləyirik.

1998-ci ilin oktyabr ayına ümidlə baxaraq mən regionun ölkələrinə və Türkiyəyə təklif edirəm ki, dövlət və şəxsi sektor idarələri səviyyəsində işçi qrupları yaratsınlar ki, bu qruplar prosesin sürətini təmin etsinlər. İndi əsas məqsəd Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti tərəfindən lazımi tenderləri keçirmək, qalibləri müəyyən etmək və Bakı-Ceyhan boru xəttinin tikintisini gələn ilin oktyabrınadək təmin etməkdir. Bu gün çəkilən boru xətləri və nəqliyyat marşrutları Xəzər dənizinin enerji ehtiyatlarını təhlükəsiz yollarla və təhlükəsiz şəkildə dünya bazarlarına çatdıracaqdır.

Tarix göstərir ki, xarici siyasət və iqtisadi maraqlar üst-üstə düşərsə, xalqlar arasında daha böyük anlaşma yaranır. Birlikdə ümumi məqsəd üçün işləyərək, biz bugünkü günə - nailiyyətimizin birgə qeyd olunması gününə çatmışıq və daha yaxşı anlaşma, əməkdaşlıq gələcəyə daha parlaq işıq saçır.

Prezident Heydər Əliyev! Mən Bir daha Prezident Bill Klintonun və Amerika xalqının adından bu tarixi gündə Sizə ən səmimi arzular və təbriklər yetirirəm. Bu layihəyə qoşulmuş hər kəs qürur hissi keçirə bilər və fəxr edə bilər. Çünki biz müasir tarixdə bu tarixi günü bölgənin dönüş nöqtəsi günü kimi yadda saxlayacağıq. Sizi bir daha təbrik edirəm.

Daha sonra Böyük Britaniya, Norveç və Yaponiyanın tədbirdə iştirak edən nümayəndələri çıxış etdilər.

Çıxış üçün söz Gürcüstan Prezidenti Eduard Şevardnadzeyə verildi.

**Gürcüstan Prezidenti**
**Eduard Şevardnadzenin çıxışı**

- Çox hörmətli Azərbaycan Prezidenti, əziz Heydər Əliyeviç!

Türkiyənin çox hörmətli Baş naziri cənab Yılmaz, cənab Nemtsov!

Xanımlar və cənablar!

Dəvətə görə və son dərəcə səmimi qarşılandığıma





görə təşəkkürümü bildirirəm. Azərbaycan xalqını böyük bir gün - Konstitusiya günü münasibətilə və onun çoxəsrilik şanlı tarixində daha bir qələbə - "Çıraq" yatağının istismara və neftin şimal istiqaməti ilə nəql olunmasına başlanması münasibətilə ürəkdən təbrik etmək istəyirəm.

"Əsrin müqaviləsi"nin imzalanması nəinki Qafqaz xalqlarının, ən əvvəl Azərbaycan xalqının, həm də "soyuq müharibə" qurtardıqdan sonra formalaşmış olan bütün bugünkü dünyanın həyatında keyfiyyətcə yeni bir mərhələnin başlanması deməkdir.

Heyrətamiz qısa bir tarixi dövrdə elə bir hadisə baş vermişdir ki, ona hələ bu yaxınlaradək az adam inanırdı. Yeni müstəqil dövlətlər öz layiqli yerini tutmağa başlamış və tədricən yeni dünya qaydasının ayrılmaz tərkib hissəsinə çevrilirlər.

Biz bu, olduqca baha başa gələn layihənin həyata keçirilməsi təşəbbüsünü irəli sürmüş və bununla da həm Azərbaycana, həm də bütövlükdə regiona çox böyük etimad göstərmiş Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətini alqışlayırıq. Elə buradaca demək istərdim ki, Qafqaz xalqları ötəri mənafelər fövqündə durmaq və regionun son dərəcə zəngin təbii ehtiyatlarını, bununla birlikdə isə öz gələcəyini kükrəyən emosiyalara qurban verməmək üçün böyük müdriklik göstərmişlər. Məhz bu müdriklik bizdə ümid və inam yaradır ki, dinc Qafqaz ideyası, "Kislovodsk bəyannaməsi"ndən irəli gələn ideyalar tədricən özünə yol açacaq və başı müsibətlər çəkən regionumuza yaxın gələcəkdə möhkəm, ədalətli sülh və tərəqqi gətirəcəkdir.

Biz bu çoxmillətli layihənin mühüm mərhələsinin həyata keçirilməsini - bayaq dediyim kimi, neftin şimal marşrutu ilə nəql olunmağa başlanmasını və bu layihədə böyük şimal qonşumuz Rusiyanın rolunu alqışlayırıq.

20 neft şirkətinin və 12 dövlətin iştirakı bir vaxtlar divanın müxtəlif tərəflərində durmuş dövlətlərin posttotalitar məkanında səmərəli əməkdaşlığına nümunədir. Biz Qafqazı, eləcə də yeni müstəqil dövlətləri yeni qlobal qarşıdurma meydanı deyil, hamı üçün məhz bu cür bərabərhüquqlu və sərfəli məkan hesab edirik.

Biz Gürcüstanı boru kəməri çəkilməsinin istiqamətlərindən biri kimi seçmiş olan Prezident Əliyevə, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə və Azərbaycan Dövlət Neft Şirkətinə təşəkkürümüzü bildiririk. Gürcüstan hökuməti hər şey edir ki, qərb marşrutu planlaşdırılmış müddətdə, yəni gələn ilin payızında fəaliyyətə başlasın. "Əsrin müqaviləsi" imzalandığı gündən bəri biz bütün öhdəliklərimizi yerinə yetirmişik və bundan sonra yerinə yetirəcəyik. Əgər ilkin neftin nəqlinin marşrutlarına alternativ olaraq böyük neftin Gürcüstan ərazisi ilə daşınması haqqında qərar qəbul edilərsə, onda bu layihə də tamamilə müdafiə olunacaq və ona hökumətimiz tərəfindən hər cür təminat veriləcəkdir. Mən bu məsələ - böyük neftin nəqli marşrutu məsələsi üstündə mübahisə etmək niyyətində deyiləm. Çünki o kəslər mübahisə edirlər ki, onlar inanmırlar. Mən isə inanıram.

Sizi əmin etmək istəyirəm, biz hər şey edəcəyik ki, böyük neft kəməri özünü istər kommersiya, istərsə də texniki cəhətdən doğrultsun. Aralıq dənizinin və Qara dənizin bir sıra ölkələri üçün təbii dəhliz olan Gürcüstan bu gün ancaq tranzit dövlətidir. Amma ümidvarıq ki, Gürcüstan iqtisadi cəhətdən dirçəldikcə, habelə indiki layihələr uğurla həyata keçirildikcə yeni yataqların işlənməsi üzrə konsorsiumun iştirakçısı olacaqdır.

Biz Azərbaycan xalqını alqışlayırıq. Onun qətiyyəti, əməksevərliyi sayəsində Azərbaycan dinamik inkişaf edən, gələcəyə inamla irəliləyən, Avropa-Cənubi Qafqaz-Asiya dəhlizinin ümdə dövlətlərindən birinə çevrilmişdir. Azərbaycan olduqca böyük təbii ehtiyatlara malikdir. Lakin onun ən böyük sərvəti sizsiniz, Azərbaycan xalqıdır. Ölkənizin gələcək tərəqqisinin ən etibarlı təminatçısı məhz Azərbaycan xalqıdır.

Sözümün sonunda böyük dostum, Azərbaycan Prezidenti Heydər Əliyevi alqışlamaq istəyirəm. Otuz ildən çoxdur ki, o, öz ölkəsinin, eləcə də başqa ölkələrin həyatına həlledici, müsbət təsir göstərir. Mən Azərbaycan müstəqillik qazandıqdan sonra onun oynadığı rolu xüsusi qeyd etmək istəyirəm. Sizə bir sirr açım, bu yaxın-

larda biz qardaş kimi bir-birimizə and içdik ki, nəyin bahasına olursa-olsun, başladığımız işi məntiqi sonluğa çatdıracaq, Gürcüstanın və Azərbaycanın müstəqilliyi üçün, bütün xalqların, o cümlədən də yaxın qonşularımızın mənafeyi naminə Qafqazda suverenliyin, əmin-amanlığın və tərəqqinin möhkəmlənməsi üçün etibarlı təminat yaradacağıq. Prezident Əliyev bu yolla öz xalqına xas təmkin və cəsarətlə gedir. "Əsrin müqaviləsi" ideyasının yaranmasından tutmuş ilkin neftin nəqlinədək bu müqavilənin əslində bütün təfərrüatına yaxşı bələd olduğuma görə Prezident Əliyevə göstərdiyi müdriklik və uzaqgörənlik üçün xüsusi minnətdarlığımı ifadə etmək istəyirəm. Bu müdriklik və uzaqgörənlik olmasaydı, belə nəhəng layihə çətin ki, reallaşardı.

Əziz dostlar, əziz qardaşlar, bütün Azərbaycan xalqını, bütün dövlətləri və Qafqaz xalqlarını, bu mühüm layihənin bütün iştirakçılarını böyük qələbə münasibətilə təbrik edirəm. Bu gün məndə belə bir ideya daha da möhkəmləndi ki, biz əl-ələ verib Qafqazı çiçəklənən bir diyara çevirə bilərik.

Daha bir məsələ barəsində, - alimlər təsdiq etməyə çalışır və mən də bu barədə, - ciddi demək istəyirəm ki, 50 ildən sonra su bu gün neftin strateji xammal olduğu kimi bir xammala çevriləcəkdir. Təəssüf ki, bizdə neft, demək olar, yoxdur. Gürcüstan özünün neft zənginliyi ilə öyünə bilməz. Lakin təəccüblü olsa da dünyanın ən zəngin su ölkəsidir. Buna görə də mən konsorsiumun iştirakçılarına, bütün hörmətli sərmayədarlara dostcasına məsləhət görərdim ki, vaxtında öz gələcəyinin qeydinə qalsın və bizimlə müqavilələr bağlasınlar.

Təşəkkür edirəm. Çox sağ olun.

Daha sonra Ukraynanın, Özbəkistanın, Almaniyanın rəsmi nümayəndələri, Fransanın, İtaliyanın Azərbaycandakı səfirləri, Avropa Birliyi Komissiyasının, Avropa Birliyinin təmsilçiləri və şirkət rəhbərləri çıxış etdilər.

Çıxış üçün söz Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Terri Adamsa verildi.

**Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Terri Adamsın çıxışı**

- Zati-aliləri cənab Prezident!

Xanımlar və cənablar!

Mən bu gün bu mühüm tədbirdə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti adından çox böyük məmnuniyyət hissi ilə çıxış edirəm. Həmçinin böyük yüngüllük hiss edirəm, çünki bütün işlərimizi düz vaxtında tamamlaya bilmişik. Xüsusilə nəzərə alsaq ki, Xəzərin




hava şəraiti son üç ay ərzində əməliyyatlarımızın səmərəli olmasına hər cəhətdən əngəl törətməyə çalışmışdır.

Bununla belə bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə birlikdə 1994-cü ildə Azərbaycana vəd etdiklərinin hamısını həyata keçirmişdir. ABƏŞ-in yarandığı gündən üç ildən də az vaxt keçir. O vaxtdan bəri biz Azərbaycanda baş verən bir çox tarixi dəyişikliklərdə yaxından iştirak etmişik. ARDNŞ ilə birlikdə biz bütün bu dəyişikliklərin katalizatoru olmuşuq. Həmçinin elə bir təməl daşı olmuşuq ki, onun üstündə Azərbaycanın yeni neft strategiyası belə müvəffəqiyyətlə qurula bilmişdir.

Məndən əvvəl çıxış edənlərin də söylədikləri kimi, biz bu gün uzaqgörən böyük bir siyasətin birinci addımının ən yüksək zirvəsini qeyd edirik. Cənab Prezident, həmin siyasəti 1994-cü il sentyabrın 20-də məhz Sizin imzaladığınız "Əsrin müqaviləsi" təmin etdi. Yəni bu gün biz Azərbaycan üçün ilkin neft layihəsinin başa çatmasını qeyd edirik. İndi həmin layihə heç gözlənilmədən bütün dünya ictimaiyyətini heyrətə gətirmişdir.

"Çıraq-1" platformasından ABƏŞ-in ilk nefti noyabrın 7-də saat 22.30-da 24 düymlük sualtı boru kəməri sisteminə daxil olmuşdur. Həmin tarixin rəmziliyi yalnız ARDNŞ və ABƏŞ işçilərinin uğurunun əhəmiyyəti ilə bitmir. Məhz 1949-cu ilin həmin tarixində Azərbaycanın qəhrəman neftçiləri Neft daşlarında ilk dəfə olaraq dənizdə neft hasilatına başlamışlar. Bu hadisə Azərbaycanın və bütün dünyanın neft sənayesində yeni eranın başlanğıcını qoydu. Bu gün tarixin dövranı təkrar olunur. Eynilə yenə də ilk dəfə olaraq Azərbaycan neftinin Rusiya ərazisi ilə Novorossiyskə ixracı ötən ayın 25-də başlandı. Bir çox çətinliklərə baxmayaraq, bütün maneələr dəf olunmuşdur. Azərbaycan nefti ilə doldu-



rulmuş ilk tankerin dekabrın 12-də Novorossiyskdən dünya bazarlarına yola salınması planlaşdırılır. Təsadüf elə gətirmişdir ki, məhz həmin gün ABƏŞ-in Bakıda fəaliyyətə başlamasının üç ili tamam olur.

Cənab Prezident, biz Sizi və bütün Azərbaycan xalqını Bakıdakı bu çox önəmli və rəmzi təntənəli hadisə münasibətilə təbrik edirik. Biz hamımız son üç il ərzində müstəqil Azərbaycanın təntənələri olan tarixi proseslərin iştirakçısı olmağımızla fəxr edirik. Bu uğurun əldə olunması üçün çox adamlar çox zəhmət sərf etmişlər. Cənab Prezident, rəhbərliyiniz və bizim şirkətə bağlılığınız üçün ABƏŞ adından Sizə minnətdarlığımızı bildiririk. Məhz bunların sayəsində bu layihə uğurla başa çatmışdır. Biz həmçinin işimizin vaxtında görülməsi üçün çox lazım olan dəstəyə görə Nazirlər Kabinetinə təşəkkür edirik. Bu böyük birgə işdə ABƏŞ-in həqiqi tərəfdaşına çevrilmiş ARDNŞ-nin rəhbərliyinə və işçilərinə xüsusi təşəkkürümüzü bildirmək istəyirik. Həmçinin ilkin neftin uğrunda əsas rol oynamış çoxsaylı yerli və xarici podratçı şirkətlərimizə minnətdarlığımızı bildirirəm.

Möhtərəm Prezident, təsadüf yenə də elə gətirmişdir ki, şirkətimizin maliyyə şöbəsinin aldığı məlumata görə, ABƏŞ Azərbaycanda fəaliyyətə başladığı vaxtdan indiyədək məhz bu gün 1 milyard dollar sərmayə qoymuş olacaqdır.

Biz həmçinin Rusiyanın və Gürcüstanın hökumətlərinə, dövlət orqanlarına həm çox lazımlı texnologiyanın və böyük miqdarda təchizat materiallarının uğurlu və səmərəli idxalı, həm də Azərbaycan neftinin Qara dənizə çox vacib ixracını asanlaşdırmaq sahəsində göstərdikləri kömək və dəstək üçün təşəkkürümüzü bildirməliyik. Biz payçı şirkətlərimizin təmsil etdikləri ölkələrin diplomatik idarələrinə həm bu gün, həm də gələcəkdə regional neft ixracı üçün marşrutlar məsələsinin həllində önəmli dəstəkləri üçün təşəkkür edirik. Bu layihəni başa çatdırmağı ABƏŞ-ə həvalə edərək bizə göstərdikləri etimad üçün payçı şirkətlərimizə təşəkkürümüzü bildiririk.

Cənab Prezident, lakin ən önəmlisi budur ki, mən ABƏŞ-in həm azərbaycanlı, həm də xaricdən gəlmiş işçilərinə təşəkkürümü bildirmək istəyirəm. Onların layihəyə bağlılığı və dözümü bu gün bayram etdiyimiz uğuru təmin etmişdir. Amma bir adama xüsusi təşəkkür etmək istəyirəm, çünki onsuz bu nailiyyətlərimizə yetə bilməzdim. O, mənim həyat yoldaşım xanım Kerolayndır.

Möhtərəm Prezident, Azərbaycan üçün bu böyük gündən xatirə olaraq ABƏŞ rəmzi mənə daşıyan bir hədiyyə hazırlamışdır. İnanırıq ki, bu hədiyyə həm Sizin, həm də Azərbaycan xalqının daimi iftixar və məmnunluq mənbəyi olacaqdır. Cənab Prezident, Beynəlxalq Qızılgül Cəmiyyətində əbədi olaraq Sizin adınızla qeydiyyatdan keçirilmiş yeni bir qızılgül növü seçilmişdir. Həmin qızılgül növü Ülyahəzrət Böyük Britaniya Kraliçasına ithaf edilmiş orijinal gül növlərindən xüsusi olaraq yetişdirilmişdir. Cənab Prezident, Sizin qızılgülünüzün bu gündən etibarən özünəməxsus adı olacaqdır: "Prezident Heydər Əliyev sülh qızılgülü".

Cənab Prezident, indi isə yeni qızılgülünüzün rəsmi botanik şəklini böyük məmnunluq hissi ilə Sizə hədiyyə edirik. Həmin qızılgülün 200 kolu Sizin seçəcəyiniz yerlərdə əkilmək üçün Bakıya gətiriləcəkdir. Bundan başqa, qızılgül kolları bizim payçı şirkətlərin hamısına hədiyyə ediləcəkdir ki, "Prezident Heydər Əliyev sülh qızılgülü" ABƏŞ-in konsorsiumunda təmsil olunmuş ölkələrin hər birinin dövlət nəbatat bağlarını bəzəsin.

Cənab Prezident, qoy bu qızılgüllər əsasını qoyduğunuz və atası olduğunuz müstəqil Azərbaycanın beynəlxalq simvoluna çevrilsin.

Möhtərəm Prezident, Azərbaycan xalqını açıq-aydın, dinc və çiçəklənən gələcəyə doğru aparan uzaqgörənliyiniz və öndərliyinizlə bir daha təbrik edirik. Bizim bu uğurumuzu bu şanlı ölkənin azadlıq və müstəqilliyini təsbit etmiş yeni demokratik Konstitusiyanın ikinci ildönümü günündə bayram etməyiniz həqiqətən çox yerinə düşür.

Diqqətinizə görə təşəkkür edirəm.

Azərbaycan Prezidenti Heydər Əliyev mərasimdə yekun sözü ilə çıxış etdi.

**Azərbaycan Prezidenti Heydər Əliyevin yekun sözü**

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar, dostlar!

Bugünkü təntənəli mərasim "Çıraq" neft yatağından ilkin neftin alınmasının nə qədər əlamətdar, qiymətli və tarixi hadisə olduğunu parlaq şəkildə nümayiş etdirdi. Bu mərasimdə iştirak edən qonaqlarımızın niqtləri, bu münasibətlə Azərbaycana gəlmiş təbrik məktubları və bu sarayda hökm sürən böyük ruh yüksəkliyi bir daha onu göstərir ki, müstəqil Azərbaycan öz iqtisadiyyatını, həyatını, öz dövlətini qurmaqda doğru yoldadır. Biz bu yolla inamla gedəcəyik, müstəqil Azərbaycanın dövlət müstəqilliyini günü-gündən möhkəmləndirəcəyik. Biz Azərbaycana məxsus olan bütün potensialımızdan xalqımızın rifah halının yaxşılaşdırılması naminə səmərəli istifadə etməyə, xalqımızın gələcəkdə firavan, xoşbəxt yaşamasına çalışacağıq.

Mən bizim hörmətli qonaqlarımıza onların çox gözəl, mənalı nitqlərinə, Azərbaycan Respublikasının ünvanına deyilən xoş sözlərinə, təbriklərinə görə təşəkkür edirəm. Bütün ölkələrə, xalqlara, millətlərə sülh, əmin-amanlıq və səadət arzulayıram.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə, onun



prezidenti cənab Terri Adamsa bu münasibətlə yaratdıqları qızılgülə görə minnətdarlığımı bildirirəm və arzu edirəm ki, bütün xalqların gələcək yolları, o cümlədən Azərbaycan xalqının gələcək yolları daim qızılgüllər olan bağların içindən keçsin.

Azərbaycanın nefti bəşər tarixində öz görkəmli yerini tutubdur. Azərbaycanın nefti bəşəriyyətə böyük xidmətlər edibdir. Azərbaycanın nefti bu gün respublikamızın iqtisadiyyatının inkişafında və dünya ölkələri ilə iqtisadi əlaqələrinin yaranmasında həm xalqımıza, həm də dünyanın bir çox ölkələrinə böyük xidmətlər göstərir.

Azərbaycanın nefti gələcəkdə də bəşəriyyətə, sülhə və əmin-amanlığa xidmət edəcəkdir.

Sizi bu tarixi hadisə münasibətilə bir daha təbrik edirəm! Hamınıza cansağlığı, xoşbəxtlik arzu edirəm. Sağ olun.

**"Gülüstan" sarayında**

1997-ci il noyabrın 12-də "Gülüstan" sarayında Xəzər dənizinin Azərbaycan sektorunda xarici şirkətlərlə birgə işlənilən neft yataqlarından ilkin neftin çıxarılması münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmək üçün Azərbaycana gəlmiş qonaqların şərəfinə Prezident Heydər Əliyevin adından ziyafət verildi.

Azərbaycan Prezidenti **Heydər Əliyev** ziyafət iştirakçılarını salamlayaraq dedi:

- Hörmətli qonaqlar!

Hörmətli xanımlar, cənablar və dostlar!

Bu gün bizim üçün çox sevincli bir gündür. Bu gün çox böyük bayram günüdür və xalqımız, millətimiz, Azərbaycanın bütün vətəndaşları bayram edirlər. Çünki bu, müstəqil Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyasının qəbul olunmasının ikinci ildönümü münasibətilə və eyni zamanda bizim çoxdan gözlədiyimiz, üç il gərgin işimizin nəticəsi kimi ilkin neftin alınması münasibətilə keçirdiyimiz bayramdır.

Artıq gün sona çatır. Güman edirəm, qətiyyətlə demək olar ki, bayram çox yaxşı keçibdir və bu bayramın yaxşı keçməsinin əsasını təşkil edən, əlbəttə ki, əldə olunan nailiyyətin çox yüksək əhəmiyyətli nəticəsidir. Eyni zamanda bayramın çox gözəl keçməsinə səbəb, yəni onun gözəlliyini təşkil edən bu bayram münasibətilə Azərbaycana yüksək səviyyəli qonaqların gəlməsidir. Mən bizim bu bayram şənliklərində iştirak edən və bu gün səhərdən axşama qədər çox gərgin iş rejimində olan qonaqlarımıza bir daha dərindən təşəkkür edirəm.

Azərbaycan ictimaiyyəti respublikamıza bayram günü yüksək səviyyəli qonaqların gəlməsini çox yüksək qiymətləndirir. Mən çox məmnunam ki, bizim bayram şənliklərində Gürcüstanın Prezidenti, bizim dostumuz Eduard Şevardnadze iştirak edir, Türkiyə Cümhuriyyətinin Baş naziri, bizim dostumuz Məsud Yılmaz iştirak edir, Rusiya Federasiyası Baş nazirinin birinci müavini, bizim dostumuz Boris Nemtsov iştirak edir, Amerika Birləşmiş Ştatlarından, okeanın o tərəfindən əziyyət çəkib Azərbaycana - bizim bölgəyə gəlmiş ABŞ-ın energetika naziri, bizim dostumuz Federiko Penya iştirak edir, Ukrayna Respublikası Baş nazirinin birinci müavini, Özbəkistan Respublikası Baş nazirinin müavini, bir çox nazirlər və yüksək səviyyəli dövlət, hökumət nümayəndələri iştirak edirlər.

Bir çox ölkələrdən yüksək səviyyəli qonaqların bu əlamətdar gündə Azərbaycanda olması bizim bayramımıza xüsusi bir əhəmiyyət veribdir və onun səviyyəsini daha da yüksəklərə qaldırıbdır. Mən bütün qonaqlara təşəkkür edirəm və badələri Azərbaycan neftçilərinin şərəfinə, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" neft yataqlarında və bütün başqa neft yataqlarında birgə işləmək üçün Azərbaycanla müştərək iş qurmuş və fəaliyyət göstərən şirkətlərin şərəfinə, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin şərəfinə, "Çıraq" neft yatağı və orada qurulmuş platformanın şərəfinə, Xəzər dənizində "Çıraq" neft yatağından alınmış ilkin neftin şərəfinə, Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyasının şərəfinə, bütün ölkələrin sülhsevər insanlarının şərəfinə, dünyada sülhün, əmin-amanlığın şərəfinə, dostluğun, əməkdaşlığın, mehribanlığın şərəfinə, əziz dostlar, sizin şərəfinizə qaldırmaq istəyirəm. Sağ olun.

Səmimilik və dostluq şəraitində keçən rəsmi qəbulda Xəzər dənizinin Azərbaycan sektorunda xarici şirkətlərlə birgə işlənilən neft yataqlarından ilkin neftin çıxarılması ilə əlaqədar keçirilən təntənəli mərasimdə iştirak etmək üçün Azərbaycana gəlmiş hörmətli qonaqlar, xarici ölkələrin Bakıdakı səfirləri, ayrı-ayrı şirkətlərin nümayəndələri Prezident Heydər Əliyevi, bütün Azərbaycan xalqını bu əlamətdar hadisə və müstəqil Azərbaycanın ilk demokratik Konstitusiyasının ikinci ildönümü münasibətilə ürəkdən təbrik etdilər.

Sonra incəsənət ustalarının iştirakı ilə bayram konserti oldu.

BAKI, 12 NOYABR 1997-Cİ İL



# Səngəçal terminalının açılışı

1997-ci il noyabrın 12-də Xəzərin sahilində yaradılmış Səngəçal terminalının təntənəli açılışı oldu.

"Çıraq" yatağından çıxarılan neft boru xətti vasitəsilə buraya verilir və şimal istiqamətindəki kəmər vasitəsilə Azərbaycandan ixrac edilir.

Mərasimə toplaşanlara bildirildi ki, "Əsrin müqaviləsi"nə əsasən Xəzər dənizinin Azərbaycan sektorundakı bütün yataqlardan hasil olunan neft buradakı qurğulara yığılacaq, müəyyən əməliyyatlardan sonra lazımi istiqamətlərə nəql ediləcəkdir. Terminalda ümumi tutumu 100 min tondan çox olan iri neft çənləri, avtomatlaşdırılmış idarəetmə qurğuları, təhlükəsizlik texnikası vasitələri quraşdırılmışdır. Peyk rabitəsi vasitəsilə müxtəlif istiqamətlərdə kəmərlərin iş rejiminə bilavasitə terminaldan nəzarət ediləcəkdir. Qeyd edildi ki, terminalda bütün texnoloji proseslər kompüter vasitəsilə idarə olunacaqdır. Tikinti layihələrində bu mühüm obyektin gələcəkdə daha da genişləndirilməsi nəzərdə tutulmuşdur.

Terminalda keçirilən mitinqdə ABƏŞ-in vitse-prezidenti Con Holis çıxış edərək bildirdi ki, terminal 220 kilometr uzunluğunda olan şimal istiqamətindəki neft kəməri ilə birləşdirilmişdir. O dedi ki, hazırda 920 kilometr uzunluğunda olan ikinci neft kəmərinin tikintisi davam etdirilir. Həmin xətt Səngəçal terminalını Qara dəniz sahilindəki Supsa terminalı ilə birləşdirəcəkdir. Bu iş növbəti il başa çatdırılacaqdır. Qeyd olundu ki, Səngəçal terminalı gələcəkdə genişləndiriləcək, ildə 40 milyon ton neft ixrac edə bilən nəhəng obyektə çevriləcəkdir. Daha sonra cənab Holis tikintidə iştirak etmiş inşaatçılara öz minnətdarlığını bildirdi, mərasimə toplaşanları terminalın açılışı münasibətilə təbrik etdi.

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Murtuz Ələsgərov mitinqdə çıxış edərək dedi ki, Səngəçal terminalının noyabrın 12-də - Azərbaycan Konstitusiyası günü istifadəyə verilməsi əlamətdar hadisədir. Parlamentin spikeri xatırlatdı ki, Azərbaycan neftçilərinin dəniz yataqlarından neft çıxarmaq sahəsində zəngin təcrübəsi vardır. Azərbaycan Prezidenti Heydər Əliyevin sərəncamına əsasən iki ildən sonra Azərbaycan dəniz neft sənayesinin 50 illiyi bayram ediləcəkdir. Bütün dünyada dəniz yataqlarından ilk dəfə neft çıxarmağa məhz Azərbaycan neftçiləri başlamışlar. Azərbaycanın dəniz neftçiləri indiyədək 420 milyon tona qədər neft və 320 milyard kubmetr qaz hasil etmişlər.

Mitinqdə çıxış edən Baş nazirin müavini Abid Şərifov dedi ki, belə müasir və nəhəng terminalın tikintisində işlərin əksər hissəsini Azərbaycan inşaatçıları görmüşlər. Söz yox ki, onlar bundan sonra həyata keçiriləcək layihələrdə də fəal iştirak edəcəklər.






BAKI, 2 SENTYABR 1998-Cİ İL



# "İstiqlal" qazma qurğusunun işə salınması

1998-ci il sentyabrın 2-də Bakıda "İstiqlal" üzən yarımdalma qazma qurğusunun işə salınması münasibətilə təntənəli mərasim keçirildi.

Mərasimə toplaşanlar Azərbaycan Prezidenti Heydər Əliyevi hərarətlə qarşıladılar. Onlar əllərində dövlət başçısının portretlərini və "Hörmətli Prezident, neftçilər Sizinlədir", "Əsrin müqaviləsi respublikanın neft sənayesində yeni mərhələdir", "Əsrin müqaviləsi Azərbaycanın gələcəyidir" sözləri yazılmış transparantlar tutmuşdular.

Prezident Heydər Əliyev təntənəli mərasim başlanmazdan əvvəl qurğu ilə tanış oldu. Qurğu barədə məlumatı "Şahdəniz" layihəsinin prezidenti Mayk Şerman və "İstiqlal" qurğusunda işləyən mütəxəssislər verirdilər.

Qurğuya baxış qonaq otağından başlandı. Burada "bp eskploreyşn" şirkətinin icraçı direktoru Devid Alen dövlət başçısına müraciət etdi. O, mərasimdə iştirak etdiyinə görə ölkə rəhbərinə təşəkkürünü bildirərək dedi ki, bu, qurğunu modernləşdirmək layihəsinə onun böyük diqqət və qayğı göstərdiyini bir daha sübut edir. Qeyd olundu ki, "İstiqlal" modernləşdirildikdən sonra Xəzərdə suyun yüksək təzyiqli dərin qatlarında quyu qaza biləcək ilk qazma qurğusudur. Belə dərinliklərdə quyuların qazılması isə Azərbaycanın neft ehtiyatlarını aşkar etmək üçün çox vacibdir. Devid Alen dedi ki, "İstiqlal" qurğusunun uğurla modernləşdirilməsi həm yerli, həm də xarici podratçıların, "Şahdəniz" layihəsi üzrə tərəfdaşların, ARDNŞ-nin, qurğu istifadəçiləri klubu üzvlərinin əməyinin nəticəsidir.

Sonra Devid Alen Prezident Heydər Əliyevdən fəxri qonaqlar üçün xatirə kitabına ilk sözləri yazmağı xahiş etdi.

Dövlət başçısı kitaba bu sözləri yazdı:

*"İstiqlal" üzən yarımdalma qurğusuna uzun ömür, uğurlar arzulayıram. İnanıram ki, "İstiqlal" qurğusu Xəzər dənizində neft və qaz yataqlarının səmərəli istifadəsində öz xidmətlərini göstərəcək, böyük amala, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə sədaqətlə xidmət edəcəkdir.*

*Heydər Əliyev*
*2 sentyabr 1998-ci il".*

Sonra respublika rəhbəri qurğu ilə, qurğunun işçiləri üçün kayutalardan, iaşə blokundan, istirahət otağından ibarət olan 120 nəfərlik yaşayış bloku ilə tanışlığı davam etdirdi. Mayk Şerman məlumat verdi ki, yaşayış bloku kondisionerlərlə, soyuq və isti su ilə təchiz edilmişdir. Qurğuda hospital və idman salonu da var.

Prezident Heydər Əliyevə naviqasiya otağında quraşdırılmış xüsusi sistem haqqında məlumat verərək bildirdilər ki, bu sistem mühərrik və lövbərlərin avtomatik surətdə işə salınması sayəsində qurğunu hətta güclü küləkdə də qazma nöqtəsində saxlamağa qadirdir.

Qazma qurğusuna baxış zamanı Prezident Heydər Əliyevə dedilər ki, modernləşdirilmədən sonra qurğunun imkanları iki dəfə artmışdır. Dövlət başçısı qazma qurğusu fonunda əvvəlcə tək, sonra isə onu müşayiət edən şəxslərlə birlikdə şəkil çəkdirdi.

Kompressor qurğusuna baxışdan sonra respublika rəhbəri burada işləyən yerli mütəxəssislərlə, habelə xarici şirkətin mütəxəssisi ilə söhbət etdi. Əcnəbi mütəxəssis dedi ki, Azərbaycanda işləmək onun çox xoşuna gəlir.

Prezident Heydər Əliyev "İstiqlal"ın bir sıra digər texniki qurğuları ilə də tanış oldu. Mayk Şerman bunlar barədə respublika rəhbərinə məlumat verdi.

Prezident Heydər Əliyev qurğuya baxışdan sonra xarici dövlətlərin Azərbaycandakı səfirləri ilə göyərtədə xatirə şəkli çəkdirdi. Oradan sahildə, təpənin üstündə yerləşən Bibiheybət məscidi yaxşı görünürdü. Dövlət başçısı bu məscid barədə diplomatlara məlumat verdi.

Sonra təntənəli mərasim başlandı.

Mərasimi giriş sözü ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti **Natiq Əliyev** açaraq dedi:

- Möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Bu gün Azərbaycan neft sənayesinin həyatında çox əlamətdar və tarixi bir gündür. Xəzər dənizinin Azərbaycan sektorunun dərin su qatlarında yerləşən zəngin neft və qaz yataqlarının kəşfi üçün çox böyük əhəmiyyətə malik yeni bir yarımdalma üzən qurğusu istismara verilir. Azərbaycan Dövlət Neft Şirkəti, "Şahdəniz" konsorsiumu və xarici tərəfdaşlarımız üçün çox fərəhləndirici haldır ki, bu möhtəşəm qurğunun



açılışında, onun bu gün istismara verilməsi mərasimində Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab Heydər Əliyev özü şəxsən iştirak edir.

İcazə verin, neft sənayesinin bütün işçiləri və çoxsaylı tərəfdaşlarımız - xarici neft şirkətləri və onların mütəxəssisləri adından hörmətli Prezidentimizə bizə göstərdiyi yüksək ehtirama, daimi qayğıya, vacib məsələlərin həllində etdiyi yardıma və verdiyi məsləhətlərə görə öz dərin minnətdarlığımı bildirim.

Bugünkü mərasimdə iştirak edən 70-dən çox xarici şirkətin 280 nümayəndəsini, o cümlədən "Şahdəniz" layihəsində iştirak edən şirkətlərin yüksək səviyyəli nümayəndələrini - "bp" şirkətinin direktoru cənab Devid Aleni, "Statoyl" şirkətinin böyük vitse-prezidenti cənab Tor İvar Pedersonu, "LUKAcip" şirkətinin prezidenti Rüstəm Tuxvatulini, İran Neft Sənayesi Mühəndislik və İnşaat Şirkətinin ("OİEK") prezidenti Əli Əkbər Haşimini, "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətinin vitse-prezidenti Erol Memioğlunu, "Elf Akiten" şirkətinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Jan Fransua Daqanonu, xarici dövlətlərin Azərbaycandakı səfirlərini və digər qonaqları, Azərbaycan neft sənayesinin nümayəndələrini səmimi qəlbdən salamlayır, onlara "Xoş gəlmisiniz!" deyirik.

Qeyd etdiyim kimi, bu gün biz Azərbaycan neft və qaz sənayesinin gələcək inkişafı üçün çox vacib olan yeni bir yarımdalma üzən qurğusunun açılış mərasiminə gəlmişik.

Möhtərəm cənab Prezident, icazə verin, bu təntənəli mərasimi açıq elan edim.

Orkestr Azərbaycanın dövlət himnini ifa etdi.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev mərasimdə çıxış etdi.

**ARDNŞ-nin prezidenti**
**Natiq Əliyevin çıxışı**

- Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Hörmətli Prezidentimiz Heydər Əliyevin beş ildən bəri gərgin və misilsiz fəaliyyəti, müdrik daxili və xarici siyasəti nəticəsində ölkəmizdə ictimai-siyasi sabitlik bərpa olunmuş, iqtisadiyyatın bütün sahələrində islahatların geniş miqyasda aparılması təmin edilmiş, xalqımızın yaxın illərdə daha firavan yaşayışı, Vətənimizin sürətli inkişafı üçün güclü, əsaslı zəmin yaradılmışdır.

Bu gün biz məmnuniyyət hissi ilə deyə bilərik ki, ölkənin neft sənayesində də mühüm işlər görülmüş, bir çox vacib sahələrdə yüksək nailiyyətlər və müsbət dəyişikliklər əldə edilmişdir. Azərbaycan neft sənayesinin işçiləri özlərinin fədakar əməyi ilə, daxili imkanlarını səfərbər etməklə, əmək intizamını möhkəmlətməklə bütün çətinlikləri aradan qaldıraraq son illər neft hasilatının sabitləşməsini, dövlət tapşırıqlarının yerinə yetirilməsini təmin etmişlər.

Respublikamızda beynəlxalq əməkdaşlıq sahəsində aparılan məqsədyönlü işlər nəticəsində "Əsrin müqaviləsi" uğurla həyata keçirilir. 1997-ci il noyabr ayının əvvəllərində "Çıraq-1" platformasında ilk neftin fontan vurması, ötən müddət ərzində yeddinci quyunun istismara verilməsi, bu platformadan gün ərzində 10 min tondan artıq neft və bir milyon kubmetr qaz hasil edilməsi, Azərbaycan neftinin dünya bazarına çıxarılması və yeni yataqların açılması xarici şirkətlərlə bizim gördüyümüz gərgin işlərin sevindirici nəticələridir.

Xəzərin Azərbaycan sektorundakı perspektivli strukturların xarici neft şirkətləri ilə birgə kəşfiyyatı və işlənilməsi barədə 1995-1998-ci illərdə dünyanın tanınmış şirkətləri ilə bağlanmış yeni müqavilələr Azərbaycan iqtisadiyyatına sərmayə qoyuluşunun xeyli artmasına imkan vermiş, bu məbləğ 35-38 milyard ABŞ dolları səviyyəsinə çatdırılmışdır. Bütün bunlar respublikamızın nəinki neft sənayesinin, onun infrastrukturunun, o cümlədən digər potensiallarının inkişafına da güclü təkan vermişdir.

Bütün çətinliklərə baxmayaraq, istər neft sənayesində, istərsə də iqtisadiyyatın digər sahələrində artıq hissediləcək irəliləyişlər vardır. Bu nailiyyətlər həm xalqımız arasında fərəh hissi doğurur, həm də beynəlxalq aləmdə Azərbaycanın nüfuzunu xeyli artırır.

Qeyd etdiyim kimi, Azərbaycan öz müstəqilliyini əldə edəndən sonra, xüsusən 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandıqdan sonra neft sənayemizin inkişafı yeni bir mərhələyə qədəm qoymuşdur. Xəzərin Azərbaycan sektorunda olan zəngin yataqların kəşfi və işlənilməsi sahəsində xarici neft şirkətləri ilə başlanmış sıx əməkdaşlıq öz bəhrələrini verməkdədir. Lakin Xəzər dənizində, onun dərin su qatlarında kəşfiyyat, qazma işlərinin aparılması xüsusi texnika, texnologiya tələb edir. Bu mənada yarımdalma üzən qazma qurğuları çox böyük əhəmiyyətə malikdir.

Möhtərəm cənab Prezident, Sizin xeyir-duanızla modernləşdirilmiş "Dədə Qorqud" yarımdalma qazma qurğusu iki il bundan əvvəl çox böyük uğurla işə başladı. "Əsrin müqaviləsi"nin həyata keçirilməsi ilə əlaqədar bu qurğunun köməyi ilə ötən müddətdə üç kəşfiyyat quyusu qazıldı, nəticədə "Azəri", "Çıraq" yataqlarında və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsində neft ehtiyatlarının 511 milyon ton yox, 630 milyon ton olduğu müəyyənləşdirildi. Sonra "Dədə Qorqud" yarımdalma qazma qurğusu vasitəsilə "Qarabağ" strukturunda iki, "Əşrəfi" strukturunda bir kəşfiyyat quyusu qazıldı və bu strukturların neftli, qazlı, kondensatlı olduğu aşkar edildi.



Bu qurğu "Şahdəniz" strukturunda ilk kəşfiyyat quyusunun qazılmasında fəaliyyətini başa vurub və hazırda ondan "Əşrəfi" strukturunda ikinci kəşfiyyat quyusunun qazılmasında istifadə olunur.

Gördüyünüz kimi, "Dədə Qorqud" yarımdalma üzən qurğusu qısa müddətdə 6 dərin kəşfiyyat quyusunun qazılması işini müvəffəqiyyətlə təmin etmişdir.

Xüsusi kurslarda təlim keçmiş, yeni texnika və texnologiyaya yiyələnmiş azərbaycanlı mütəxəssislərdən hazırda 96 nəfəri qurğuda, 21 nəfəri isə ofisdə çalışır. Onların əmək haqqı 3 milyon manatdır.

Xəzər dənizinin neft-qaz ehtiyatlarının kəşfində, Azərbaycan neft sənayesi infrastrukturunun inkişafında böyük əhəmiyyətə malik yeni bir yarımdalma üzən qazma qurğusunun - "İstiqlal"ın istismara verilməsi ilə əlaqədar keçirilən bugünkü mərasim bizim üçün tarixi bir hadisədir.

Cənab Prezident, onu xüsusilə vurğulamaq lazımdır ki, ümumiyyətlə Xəzər dənizində neft-qaz hasilatını intensivləşdirmək məqsədi ilə "Şelf" tipli yarımdalma üzən qazma qurğularının inşa edilməsinə vaxtilə məhz Sizin təşəbbüsünüzlə başlanmışdır. "İstiqlal" ("Şelf-5") yarımdalma üzən qazma qurğusu Rusiya Federasiyasının Həştərxan şəhərində inşa edilərək 1990-cı ildə istismara qəbul olunmuşdur. Bu qurğunun istismarı müddətində Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən, su qatının dərinliyi 107 metr olan "Novxanı" strukturunda 1 və 2 nömrəli axtarış quyuları qazılmış və aparılan yoxlama-sınaq işləri nəticəsində 1 nömrəli quyunun müxtəlif laylarında neft və qaz aşkar edilmişdir. 1990-cı ilin əvvəllərində Rusiya Federasiyası və MDB-nin üzvü olan digər dövlətlərlə əlaqələrin kəsilməsi, qazma, elektrik və digər avadanlığın alınmasında yaranmış çətinliklər qurğunun tam gücü ilə işləməsinə imkan verməmişdir. Bu səbəbdən yeni axtarış quyularının qazılması mümkün olmamış və qurğu 1995-ci ilin sonundan fəaliyyətsiz qalmışdır.

Respublikamızın iqtisadiyyatında son illər baş vermiş müsbət dəyişikliklər neft sənayesinin inkişafına müsbət təsir göstərdiyi kimi, "İstiqlal" yarımdalma üzən qazma qurğusuna da ikinci həyat verməyə imkan yaratmışdır.

Texniki xarakteristikasına görə "İstiqlal" qurğusu su qatının dərinliyi 200 metrə çatan yerlərində işləmək və 6 min metr dərinliyi olan quyular qazmaq qabiliyyətinə malik idisə, "Şahdəniz" yatağının birgə işlənilməsi üzrə bağlanmış müqaviləyə əsasən yenidən modernləşdirilən bu qurğu dənizin su qatının dərinliyi 700 metrə çatan yerlərində işləmək qabiliyyətinə malik, 7620 metr



dərinliyində, 1050 atmosfer lay təzyiqli kəşfiyat-axtarış quyuları qazmağa imkan verən, dünya standartları səviyyəsində nəhəng bir müəssisədir.

Bu qurğunun modernləşdirilməsinə 1997-ci il martın 31-də başlanmış və bu işlər nəzərdə tutulduğundan bir ay tez, yəni 17 ay müddətində başa çatdırılmışdır. Bu nəhəng qurğunun yeni avadanlıqla təchiz olunmasında və onların quraşdırılmasında dünyanın tanınmış 26 şirkəti iştirak etmişdir. İşlərin yüksək sürətlə aparılmasına baxmayaraq, əməyin təhlükəsizliyi sahəsində də böyük nailiyyət əldə edilmiş, bir milyon saat iş müddətində heç bir bədbəxt hadisə baş verməmişdir. Qurğunun təmiri ilə yanaşı, gəmi təmiri zavodunda yeni istehsal bazası yaradılmış, ərazidə obyektlərin və avadanlığın bərpası üçün 12 milyon ABŞ dolları dəyərində xeyli abadlaşdırma işləri görülmüşdür.

Gəmi təmiri sahəsində mövcud olan və uzun müddət texniki səbəbdən istismar edilməyən nəhəng kranlar bərpa və təmir olunmuşdur. Bu da Azərbaycan Dövlət Neft Şirkətinin balansında olan bu tipli başqa qurğuların da gələcəkdə həmin istehsal bazasında modernləşdirilərək yenidən istismara verilməsi üçün yaxşı zəmin yaradır.

İş prosesində 3500 ton köhnə avadanlıq sökülüb atılmış, onun əvəzinə əvvəlcədən nəzərdə tutulduğundan müasir, daha güclü qazma avadanlığı quraşdırılmışdır. Məsələn, qurğunun vışkasının yükqaldırma qabiliyyəti iki dəfə artırılmış, qurğunu elektrik enerjisi ilə təchiz edən generatorun gücü 1,8 dəfə artırılaraq 9,6 meqavata çatdırılmışdır. Burada 24 saatlıq iş günü təmin olunmuş, işçilərin əmək şəraitini yaxşılaşdırmaq üçün müasir səviyyəli sosial obyektlər tikilmişdir.

Qurğuda çalışan işçilərin sosial problemlərinin yüksək səviyyədə həlli üçün mövcud yaşayış kompleksində xeyli işlər görülmüşdür. İndi burada 84 nəfər əvəzinə 120 nəfərin rahat yaşaması üçün hər cür şərait vardır.

Sevindirici haldır ki, quraşdırılan avadanlığın xarici dövlətlərdən alınmasına baxmayaraq, "İstiqlal"da quraşdırma işlərini 1200 nəfər azərbaycanlı mütəxəssis həyata keçirmişdir. Qurğunun smeta dəyəri 194 milyon ABŞ dollarıdır. Hesablamalara görə, onun işləmə müddəti 20 ildir. Bir faktı da qeyd etmək lazımdır ki, əgər bu məqsədlə yeni bir qurğu sifariş edilsəydi, onun inşasına ən azı 2 il vaxt lazım gələrdi, onun dəyəri isə 300 milyon ABŞ dolları təşkil edərdi.

Hörmətli Prezident, Siz ölkəmizin iqtisadiyyatının inkişafı üçün "Şahdəniz" perspektivli strukturunun kəşfiyyatı və işlənilməsi layihəsinin həyata keçirilməsinə xüsusi əhəmiyyət verirsiniz. Biz Azərbaycan Respublikasının qaza olan tələbatını ödəmək üçün "Şahdəniz" yatağının kəşfinə və birgə işlənilməsinə çox böyük ümidlər bəsləyirik.





Azərbaycan neft-qaz sənayesinin tarixində bir çox nailiyyətlər qazanılmışdır. Lakin neft sənayesi infrastrukturunun modernləşdirilməsində öz miqyasına görə heç bir layihə "İstiqlal" yarımdalma üzən qazma qurğusu ilə müqayisə edilə bilməz. "İstiqlal" qurğusu nəinki "Şahdəniz" yatağında, eyni zamanda, Xəzərin Azərbaycan sektorunun dərin su qatlarında yerləşən və geoloji cəhətdən mürəkkəb xüsusiyyətə malik olan digər perspektivli strukturlarında kəşfiyyat-axtarış işlərinin aparılmasında mühüm rol oynayacaq və uzun illər mənfəət gətirəcəkdir.

Möhtərəm cənab Prezident, icazə verin, Sizi, "Şahdəniz" layihəsində iştirak edən xarici neft şirkətlərinin nümayəndələrini, konsorsiumun rəhbərliyini və Azərbaycan neft sənayesinin bütün işçilərini bu yeni qələbə münasibətilə bir daha təbrik edim. Sizi əmin edirik ki, qarşılıqlı surətdə faydalı əməkdaşlıq nəticəsində biz Xəzərin Azərbaycan sektorunda yerləşən zəngin neft-qaz yataqlarının kəşf olunmasında bundan sonra da çalışacaq, respublikamızın iqtisadiyyatının inkişafı və əhalinin rifah halının yaxşılaşdırılması üçün əlimizdən gələni edəcəyik. Diqqətinizə görə çox sağ olun.

Sonra "Şahdəniz" konsorsiumunun prezidenti Mayk Şermana söz verildi.

**"Şahdəniz" konsorsiumunun prezidenti Mayk Şermanın çıxışı**

- Zati-aliləri, hörmətli Prezident Heydər Əliyev!
ARDNŞ-nin prezidenti Natiq Əliyev!
Hörmətli səfirlər, qonaqlar, xanımlar və cənablar!

Hamınızı burada görməyə çox şadam. "Şahdəniz" konsorsiumunun, "Xəzər" Beynəlxalq Neft Şirkətinin və Şimali Abşeron Əməliyyat Şirkətinin rəhbərləri adından Sizə "Xoş gəlmisiniz!" deyirəm.

Bu gün Azərbaycan neft sənayesinin və "Şahdəniz" konsorsiumunun həyatında çox tarixi bir gündür.

Zati-aliləri hörmətli cənab Prezident, bu gün bu mərasimdə iştirak etdiyinizə görə Sizə təşəkkür edirəm. Mən burada olan digər hörmətli qonaqlarımıza da minnətdarlığımı bildirirəm.





Cənab Prezident, biz bu yarımdalma üzən qazma qurğusunun modernləşdirilməsi barədə 1997-ci ilin martında verdiyimiz məlumatdan sonra Sizdən aldığımız dəstəyi və bu işə göstərdiyiniz böyük marağı yüksək qiymətləndiririk. Bizim əməyimizin bəhrəsi göz qabağındadır.

Hörmətli Prezident, bu layihənin həyata keçirilməsində çalışan bütün mütəxəssisləri yeni nailiyyətlər qazanmağa ruhlandırdığınız üçün biz Sizə bir daha təşəkkür edirik.

Mən bu layihənin həyata keçirilməsində göstərdiyi köməyə görə ARDNŞ-nin prezidenti Natiq Əliyevə də təşəkkür edirəm.

Gördüyünüz kimi, bu gün burada xeyli bayraqlar dalğalanır. Bu da onu göstərir ki, bu layihənin başa çatdırılmasında çoxlu podratçı və subpodratçılar iştirak etmişdir. Mən bu layihənin başa çatdırılmasında bizə kömək edənlərin hamısına, podratçı və subpodratçılara "Şahdəniz" konsorsiumu adından bir daha təşəkkür edirəm.

Biz Azərbaycan Dövlət Neft Şirkətinə və bu layihədə iştirak edən bütün həmkarlarımıza təşəkkürümüzü bildiririk. Mən bütün işçilərə xüsusi təşəkkür edirəm, ona görə ki, onların bacarığı və qabiliyyəti olmasaydı, biz bu işi vaxtında başa çatdıra bilməzdik.

Mən həmçinin onu demək istəyirəm ki, biz təhlükəsizlik qaydalarına da ciddi əməl etmişik. Bu qurğunun modernləşdirilməsinə 2 milyondan çox iş saatı sərf olunmuşdur və həmin müddət ərzində heç bir bədbəxt hadisə baş verməmişdir. Ona görə də mən bütün bu işlərin təhlükəsiz həyata keçirilməsində öz qüvvəsini əsirgəməyənlərə minnətdarlıq edirəm.

Onu da elan etmək istəyirəm ki, "İstiqlal" yarımdalma üzən qazma qurğusu Xəzərin sularında fəaliyyət göstərməyə hazırdır. Bu qurğu oktyabr ayında birinci kəşfiyyat quyusunun, gələn ilin əvvəlində isə digər quyuların qazılmasında iştirak edəcəkdir. Bildiyiniz kimi, bu quyuların qazılması Azərbaycanın gələcək çiçəklənməsinə, neft və qaz sənayesinin daha sürətli inkişafına əməli kömək göstərəcəkdir.

Zati-aliləri hörmətli Prezident, bu qurğuya yeni ad verilməsi mərasimində iştirak etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Cənab Prezident, bizim üçün böyük şərəfdir ki, Siz bugünkü mərasimdə iştirak edirsiniz.

Cənab Prezident, biz bu mərasimdə Sizin nitqinizi səbirsizliklə gözləyirik. Çox sağ olun.

Azərbaycan Prezidenti Heydər Əliyev mərasimdə nitq söylədi.

**Azərbaycan Prezidenti**
**Heydər Əliyevin nitqi**

- Hörmətli xanımlar, cənablar!

Əziz dostlar!

Biz, buraya toplaşmış insanlar bu gün Azərbaycanın neft sənayesinin həyatında, bütün Azərbaycanın həyatında əlamətdar bir hadisənin iştirakçısıyıq: Xəzər dənizinin dərin sularının altında zəngin neft və qaz yataqlarının kəşfi, neft və qaz hasilatının təmin olunması layihəsinin həyata keçirilməsi çərçivəsində bu işlər üçün üzən yarımdalma qazma qurğusunun işə başlaması mərasimində iştirak edirik.

Bu, adi bir hadisə deyildir. Çünki önünə toplaşdığımız qazma qurğusu nəhəng, əzəmətli və eyni zamanda müasir texnikanın, texnologiyanın tələbləri ilə təchiz olunmuş böyük bir qurğu, böyük bir istehsal müəssisəsidir. Cənab Mayk Şerman rica etdi ki, bu qurğuya ad qoyulsun. Mən bir neçə gün bundan öncə bu qurğuya ad qoymuşam - onun adı "İstiqlal"dır.

Bu nəhəng istehsal müəssisəsinə, qazma qurğusuna bu ad heç də təsadüfi olaraq verilməyibdir. Bilirsiniz ki, bir neçə vaxt bundan əvvəl biz böyük qazma qurğusunun bərpa olunub modernləşdiriləndən sonra işə başlamasını təntənəli surətdə qeyd etdik və ona "Dədə Qorqud" adı verdim. Bu adı mən vermişəm. Nə üçün "Dədə Qorqud"? Çünki Qorqud bizim ulu babamız, dədəmizdir, tarixi kökümüz, soyumuzdur. İkinci qazma qurğusuna "İstiqlal" adı verərkən, bununla mən keçmişimizi bu günümüzlə daha da sıx bağlamaq arzusunda, istəyində olmuşam. Bizim tarixi keçmişimiz Dədə Qorquddur, bu günümüz, gələcəyimiz isə əbədi müstəqillikdir, istiqlaliyyətdir. Mən əminəm ki, bu üzən qazma qurğusu "İstiqlal" adını şərəflə daşıyacaq, onun ömrü uzun olacaq və daim Azərbaycan xalqının iqtisadiyyatının inkişafına, Azərbaycan vətəndaşlarının rifah halının yaxşılaşmasına, Azərbaycanın istiqlaliyyətinə sədaqətlə xidmət edəcəkdir.

Azərbaycanın neft sənayesinin qədim və zəngin tarixi var. Azərbaycan qədim odlar diyarıdır. 1848-ci ildə dünyada ilk dəfə məhz Azərbaycan torpağında neft fontan vurub və dünyada neftin sənaye üsulu ilə hasilatına başlanıbdır. XX əsrin əvvəllərində Azərbaycan neftçiləri qurudan dənizə doğru irəliləyiblər və Xəzərin sahillərində neft quyuları qazıb dənizin dibindən də neft çıxarmaqla məşğul olublar. 1922-ci ildə məhz burada, bu sahədə mühəndis, polyak vətəndaşı Pototskinin təklifləri əsasında suda, dənizdə quyular qazılmağa və dənizin dibindən neft çıxarılmağa başlanıbdır.

Əsrimizin 40-cı illərində isə Azərbaycan neftçiləri dünya miqyasında böyük nailiyyət əldə etmişlər, məşhur Neft daşlarında ilk dəfə quyu qazıb, Xəzər dənizinin, demək olar, ortasında olan sahədə neft fontanı almağa nail olmuşlar. Bu hadisə 1949-cu ilin noyabr ayında baş vermişdir. Sonrakı illərdə əfsanəvi Neft daşlarında dənizin dibindən neft hasilatı genişlənib və Azərbaycan yenə də dünyada dənizdən neft çıxarılmasının bünövrəsini, əsasını qoymuşdur.

Beləliklə, Azərbaycanda neft sənayesinin inkişafını üç mərhələyə bölmək olar: XIX əsrin ikinci yarısından, ortasından təxminən XX əsrin 20-ci ilinə qədər - bu, birinci mərhələdir. 1920-ci ildən Azərbaycan öz dövlət müstəqilliyini əldə edənə qədərki dövr neft sənayesinin ikinci mərhələsidir.

Nəhayət, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ötən illər Azərbaycan neft sənayesinin üçüncü mərhələsidir. Hər bir mərhələnin özünəməxsus xüsusiyyətləri və parlaq tarixi var.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra tarixdə ilk dəfə olaraq öz milli təbii sərvətlərinin sahibi olmuşdur və bu sərvətlərdən özü istədiyi kimi istifadə etməyə başlamışdır. Bildiyiniz kimi, biz geniş proqram tərtib etmişik, böyük işlərə başlamışıq və bu işlər qarşıdan gələn illərdə, XXI əsrdə də Azərbaycan xalqının iqtisadiyyatının və vətəndaşlarımızın rifah halının yüksəlməsinə xidmət edəcəkdir.

Müstəqil dövlət olaraq bu işləri başlayarkən Azərbaycan neftçilərinin bir neçə nəslinin əməyi nəticəsində Azərbaycanın ərazisində və Xəzər dənizinin Azərbaycan sektorunda kəşf edilmiş zəngin neft və qaz yataqlarının mövcud olması bizim bugünkü və gələcək işlərimizin əsasını təşkil edir. Keçmişdə yaşamış və bu gün bizim sıralarımızda olan Azərbaycan neftçiləri, alimləri, geoloqları öz xalqının təbii sərvətlərinin aşkar edilməsi üçün dəyərli işlər görmüş, böyük neft və qaz yataqları açmışlar və bunlar da indi müstəqil Azərbaycan dövləti üçün böyük proqramlar tərtib etməyə əsas yaradır. Bu gün, bu əlamətdar bayram günü Azərbaycan neftçilərinin bütün nəsillərini minnətdarlıq hissi ilə xatırlayır və bildirmək istəyirəm ki, Azərbaycan xalqı onların gördüyü işləri heç vaxt unutmayacaqdır. Mən bu gün onların xatirəsi qarşısında baş əyirəm.

Allah Azərbaycan xalqına zəngin təbii sərvətlər bəxş etmişdir. Azərbaycan xalqının da dəyərli insanları, böyük alimləri, fədakar neftçiləri və başqa mütəxəssisləri bu zəngin sərvətlərin Vətən, xalq naminə istifadə edilməsi üçün böyük işlər görmüşlər. Bu işlərdən biri də neft sənayesinin texniki, istehsal bazasının, infrastrukturunun yaranması olmuşdur. 70-80-ci illərdə dənizdə neft və qaz yataqlarının işlənilməsi üçün, suyun dərinliklərində olan yataqlardan neft hasil etmək məqsədi ilə yeni qurğuların, cihazların, texnikanın yaradılması zərurəti meydana çıxmışdı. Bu məqsədlə o illərdə üzən yarımdalma qazma qurğularının yaradılması və istifadə edilməsi məsələsi həll olunmuşdu. O illərdə "Şelf-1" üzən qazma qurğusunun istifadəsinə başladıq. Bundan sonra ardıcıl olaraq "Şelf-2", "Şelf-3", "Şelf-4" və "Şelf-5" qazma qurğuları yarandı.

Bildiyiniz kimi, "Şelf-2" üzən qazma qurğusu keçən illərdə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti tərəfindən, Azərbaycan Dövlət Neft Şirkəti ilə birlikdə modernləşdirildi, bərpa olundu və işə başladı. İndi o, "Dədə Qorqud" adı ilə Xəzər dənizinin "Şahdəniz" yatağında quyu qazmaqla məşğuldur.

Bu gün isə biz "Şelf-5" üzən qazma qurğusunun təmirindən, bərpa olunmasından, modernləşdirilməsindən, yeniləşdirilməsindən sonra onun işə başlamasını bayram edirik.

Biz bu gün "İstiqlal" üzən yarımdalma qazma qurğusunu, bu nəhəng qurğunu seyr etdik, onun idarə olunması ilə əlaqədar bir çox sahələrinə baxdıq, tanış olduq. Bizə geniş məlumatlar verildi. Mən Azərbaycanda belə qurğuların yaranmasının təşəbbüskarlarından olduğuma görə və bu qurğuları keçmişdə də yaxşı bildiyimə görə bu gün "İstiqlal" qurğusuna baxıb bunu görərkən böyük iftixar hissi keçirirəm. Çünki bu qurğu Xəzər dənizinin Azərbaycan sektorunda olan neft və qaz yataqlarının istifadə olunması üçün çox böyük işlər görəcək və bunun tərkibində böyük işlərin görülməsi üçün müasir tələblərə cavab verən texnika, texnologiya, cihazlar insanların səmərəli işləməsi üçün çox gözəl şərait yaratmışdır. Bu qurğunun modernləşməsi, yenidən həyata gəlməsi ilə "Şahdəniz" layihəsi üzrə konsorsium məşğul olmuşdur. Bu layihəyə rəhbərlik edən cənab Mayk Şerman burada bu barədə öz fikrini söylədi.

"Şahdəniz" müqaviləsi, layihəsi 1996-cı il iyun ayının 4-də imzalanıbdır və Azərbaycanın dünyanın böyük neft şirkətləri ilə müştərək iş görməsi proqramının həyata keçirilməsi istiqamətində imzalanan üçüncü böyük müqavilədir. Mən məmnuniyyətlə qeyd edirəm ki, 1994-cü il sentyabr ayının 20-də imzalanmış müqavilədən başlayaraq ondan sonra imzalanan müqavilələrin hamısı ardıcıl surətdə həyata keçirilir və artıq öz bəhrələrini verir. Bu proqramların həyata keçirilməsi nəzərdə tutulmuş nəticələrdən yüksək göstəricilərin əldə olunduğunu göstərir.

Mən bu gün bunu deməyi ona görə vacib bilirəm ki, biz ilk müqaviləni - "Əsrin müqaviləsi"ni imzalayanda da bunu anlamayanlar da var idi, yaxud qəsdən bu müqaviləni ləkələmək istəyənlər də var idi və bunun Azərbaycan üçün xeyir verməyəcəyini bəyan edənlər də var idi. Güman edirəm ki, əgər onlarda heç olmasa bir kiçik ədalətlilik varsa, onlar artıq öz səhvlərini, bəd fikirlərini ləğv etməlidirlər. Çünki "Əsrin müqaviləsi" əsasında "Çıraq" neft yatağından artıq neft alınır və görülən işlər onu göstərir ki, müqavilə imzalanarkən burada 510 milyon ton neft əldə olunması nəzərdə tutulurdusa, artıq indi 630 milyon ton neft alınması gerçəkləşibdir.

"Çıraq" neft yatağında qazılan quyular nəzərdə tutulduğundan dörd-beş dəfə artıq neft verir. Gündə 10 min tondan artıq neft alınır. Mənə bir neçə gün bundan öncə məlumat verdilər ki, yeddinci quyu daha da gözəl nəticələr veribdir. O quyudan gündə 500 ton neft çıxarılması nəzərdə tutulduğu halda, indi gündə üç min ton, bəlkə də dörd min ton neft alınması gözlənilir. Budur bizim gördüyümüz işlərin nəticəsi!

Xatirimdədir, "Şahdəniz" müqaviləsinin imzalanması ərəfəsində Azərbaycanda yenə də bəzi şəxslər belə bir müqavilənin respublikamız üçün əhəmiyyətli olmaması, yaxud da ki, mənfəətli olmaması haqqında cürbəcür fikirlər irəli sürürdülər. Ancaq bizim mütəxəssislər bu məsələni hərtərəfli müzakirə etmişdilər və "Şahdəniz" yatağında böyük qaz ehtiyatları, eyni zamanda böyük neft ehtiyatları olduğunu dəfələrlə sübut etmişlər. Buna baxmayaraq bəziləri heç bir əsas olmadan əksinə sübut etmək istəyirdilər.

Milli Məclisin keçmiş sədri, özünü neft sahəsində guya böyük mütəxəssis hesab edən Rəsul Quliyev 1996-cı ildə "Şahdəniz" müqaviləsinin imzalanmasının əleyhinə çıxdı. Biz bunu geniş müzakirə etdik. Şübhəsiz ki, mənə də və başqalarına da yaxşı məlum idi ki, bu əks fikir heç bir şeylə əsaslanmayıbdır. Sadəcə olaraq, Azərbaycanın gördüyü işlərə ləkə salmaq, yaxud da onlara mane olmaq, Azərbaycan iqtisadiyyatının inkişafına mane olmaq məqsədi daşıyırdı. Bu bəd niyyətlər bizə məlum idi. Amma buna baxmayaraq mən bu barədə geniş müzakirə apardım və burada iştirak edən bizim neft sahəsində çox böyük alimlərimiz, mütəxəssislərimiz, Dövlət Neft Şirkətinin rəhbərliyi bu müzakirədə iştirak etdilər. Bir daha təsdiq olundu ki,



"Şahdəniz" neft və qaz yatağı zəngin yataqdır və bunun istifadə edilməsi üçün mütləq işə başlamaq lazımdır, müqavilə imzalanmalıdır. Beləliklə, 1996-cı il iyun ayının 4-də Bakıda "Gülüstan" sarayında bu müqavilə imzalandı.

İndi o vaxtdan iki il keçibdir. Artıq biz bunun gözəl nəticələrini görürük. Məhz "Şahdəniz" müqaviləsinin imzalanması nəticəsində, "Şahdəniz" proqramı əsasında bir konsorsium yarandı. Bu konsorsiuma "bp", "Statoyl", "Türkiyə Petrolları" şirkəti, ondan sonra isə "Elf Akiten", "LUKoyl" və İranın "OİEK" şirkəti daxil oldular. Bunlar işə başladılar və biz bu gün bunun bəhrələrini görürük. Bu bəhrələr nədən ibarətdir? Biz Xəzər dənizində azı 20 il fəaliyyət göstərə biləcək belə nəhəng bir üzən qazma qurğusu əldə etmişik.

"Şelf-5" qurğusu suyun 200 metr dərinliyində quyu qazmaq qabiliyyətinə malik idi. Quyunun dərinliyi isə 6 min metrə qədər ola bilərdi. Ancaq bu, layihədə var idi. Burada məlum olduğu kimi, bu, 1990-cı illərdə işləmirdi və 1995-ci ildən bu qurğu konservasiya edilmişdi. Lakin həmin qurğu artıq yeniləşib, modernləşib, bərpa olunubdur və onun bütün göstəriciləri yüksəlibdir. Artıq bu, suyun 700 metr dərinliyində quyu qazmağa qadirdir. Quyunun dərinliyi isə 6 min metr deyil, 7,5-7,6 min metr ola bilər. Dünyada bu qəbildən olan üzən qazma qurğuları ilə müqayisədə bu, ən yüksək səviyyədə duran bir qurğudur. Bu bizim üçün böyük milli sərvətdir. Bu qurğunun hazırkı vəziyyətə gətirilməsi üçün 200 milyon dollar vəsait sərf edilibdir. Deməк, Azərbaycana 200 milyon dollar sərmayə gəlibdir. Bu qurğunun 17 ay müddətində modernləşməsində, bərpa olunmasında, burada bildirildiyi kimi, 1200 nəfər iştirak edibdir. Bunlar Azərbaycan vətəndaşlarıdır, mütəxəssisləridir, fəhlələridir. Demək, onlar üçün yeni və yüksək maaşlı iş yerləri açılıbdır.

Biz sizinlə Dövlət Neft Şirkətinin gəmi təmiri zavodunun ərazisindəyik. Bu zavod demək olar ki, dayanmışdı və bu ərazi bərbad vəziyyətdə idi. Ancaq 12 milyon dollar sərmayə qoyulub, zavod modernləşdirilib, təmir olunub, yeniləşibdir və bundan sonra böyük işlər görməyə qadirdir. Bu, "Şahdəniz" müqaviləsinin, "Şahdəniz" layihəsinin hələ ilkin bəhrəsidir, nəticəsidir. Heç şübhə yoxdur ki, tezliklə "İstiqlal" qazma qurğusu "Şahdəniz" neft yatağında, suyun dərinliyi 700 metr olan bir yerdə yeni quyular qazmağa başlayacaqdır və oradakı zəngin neft və qaz yataqlarından neft və qaz hasil edə biləcəyik.

Layihəyə görə "Şahdəniz" yatağından 500 milyard kubmetr qaz alınması gözlənilir, 200 milyon ton neft kondensatı alınması gözlənilir. Ancaq hələ bu layihədir, proqnozdur. Güman edirəm ki, "İstiqlal" qazma qurğusu bu rəqəmləri daha da artıracaqdır və biz böyük işlərin şahidi olacağıq. Bu qurğunun yüksək səviyyəyə gətirilməsi Azərbaycanda bir tərəfdən texnikanın, texnologiyanın inkişaf etməsini nümayiş etdirir və bununla bərabər Azərbaycan vətəndaşlarının, mütəxəssislərinin, bu qurğuda çalışan bütün işçilərin hamısının müasir, yüksək səviyyəyə qalxmasını təmin edir. Bu da böyük nailiyyətdir.

Mən hesab edirəm ki, biz gələcəkdə yenə belə bir qurğuların, yəni o "Şelf" adlanan qurğuların bərpasını davam etdirəcək və yenə belə bir qurğunun işə salınmasının şahidi olacağıq.

1994-cü il sentyabr ayının 20-də biz ilk böyük müqaviləni - "Əsrin müqaviləsi"ni imzalamışıq. Az bir vaxt keçibdir, hələ dörd ili də tamam deyildir. Amma ötən illər yeni-yeni müqavilələr imzalanmışdır. İndi Azərbaycan Dövlət Neft Şirkəti həm Xəzər dənizinin Azərbaycan sektorunda, həm də Azərbaycan ərazisində dünyanın böyük neft şirkətləri ilə 15 müqavilə imzalayıbdır və onların icrasına başlanıbdır. İmzalanmış müqavilələrin əsasında sərmayə qoyuluşunun həcmi təxminən 35-38 milyard dollar miqdarında nəzərdə tutulubdur. Onlar Azərbaycanın bu gün və ən çox gələcəkdə iqtisadiyyatının, həyatın bütün sahələrinin inkişafını təmin etmək üçün çox böyük vasitədir.

Görülən işlər bu gün öz bəhrəsini verir. Neft sənayesində çalışan insanlar işləyirlər, iş yerləri əldə edirlər, yüksək maaş alırlar və onların maddi vəziyyəti günü-gündən yaxşılaşır. Ancaq bu gördüyümüz işlər daha da çox Azərbaycanın gələcəyinin xoşbəxtliyini təmin edir, Azərbaycanın parlaq gələcəyini təmin edəcəkdir. Biz çalışırıq ki, gələcək nəsillər, övladlarımız, nəvələrimiz, nəticələrimiz bizim çəkdiyimiz çətinlikləri çəkməsinlər, firavan yaşasınlar. Biz bu addımlarla Azərbaycanı iqtisadi cəhətdən inkişaf etmiş bir ölkə etmək istəyirik. Biz bu addımlarla Azərbaycan vətəndaşlarını, xalqını xoşbəxt etmək istəyirik, onlara firavan yaşayış təmin etmək istəyirik. Biz bu işləri dünyanın böyük neft şirkətləri ilə və onların vasitəsilə başqa böyük şirkətlərlə birgə görürük.

Bu gün "İstiqlal" qazma qurğusunun işə başlaması Azərbaycanın dünyanın bir neçə neft şirkəti ilə 1996-cı ildə başladığı işin gözəl nəticəsidir. Mən bu münasibətlə Azərbaycanda neft sahəsində, iqtisadiyyatın bütün başqa sahələrində Azərbaycan vətəndaşları ilə yan-yana işləyən, çalışan xarici şirkətlərin nümayəndələrinə, mütəxəssislərinə, xarici ölkələrin hər bir vətəndaşına müştərək, faydalı birgə işlərimizə görə təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Ötən bir neçə ildə Azərbaycanla iş görən xarici ölkələrin şirkətləri inandılar ki, Azərbaycanda iş görmək olar, Azərbaycanda iş görmək üçün bütün imkanlar və ən əsası, əlverişli şərait yaranıbdır. Azərbaycanda yaranmış ictimai-siyasi sabitlik, respublikamızda xarici şirkətlərin səmərəli iş görməsi üçün mövcud olan qanunlar və qaydalar xarici sərmayənin Azərbaycana gəlməsi üçün böyük imkanlar yaratmışdır və bu da hər iki tərəf üçün olduqca faydalıdır.

Bugünkü mərasim - xarici şirkətlərin nümayəndələri ilə Azərbaycan neftçiləri və ictimaiyyəti nümayəndələrinin birlikdə keçirilən bu təntənəli mərasimi bizim gözəl əməkdaşlığımızın parlaq təzahürüdür. Bu bir daha sübut edir ki, Azərbaycanda görülən işlərin hamısı böyük gələcəyə malikdir və Azərbaycana sərmayə gətirən insanlar öz sərmayəsinin xeyrini görəcəklər. Azərbaycanda yaranmış şərait bundan sonra da respublikamıza xarici sərmayənin gəlməsini təmin edəcəkdir.

Görülən işlər və əldə olunmuş bəhrələr yalnız və yalnız Azərbaycanın dövlət müstəqilliyinin nəticəsidir və Azərbaycan dövlətinin bu müstəqillikdən, azadlıqdan istifadə edərək apardığı doğru, düzgün, düşünülmüş daxili və xarici siyasətin parlaq nəticəsidir.

Biz bu gün "İstiqlal" adı daşıyan üzən qazma qurğusunun işə başlaması mərasimində iştirak edərək və bu nəhəng istehsal müəssisəsinə gələcək uğurlar arzu edərək bir daha bəyan edirik ki, Azərbaycanın dövlət müstəqilliyi bundan sonra günü-gündən yüksələcək, möhkəmlənəcək və bu qurğu kimi qüdrətli, möhkəm, əyilməz, dönməz olacaqdır.

"İstiqlal" qurğusunun işləməsini təmin edən insanlar bir neçə gündən sonra sahildən ayrılıb qurğunun üzərində Xəzər dənizinin dərin yerlərinə, demək olar ki, dənizin ortasına doğru gedəcəklər. Dənizdə çalışan işçilər, mütəxəssislər adətən çox mətin, qoçaq, qəhrəman olurlar. Ümid edirəm ki, onlar yeni-yeni qəhrəmanlıq nümunələri nümayiş etdirəcəklər. Onların hamısına cansağlığı arzu edirəm və bu qurğunun səmərəli işləməsində uğurlar arzulayıram.

"İstiqlal" qurğusuna bir daha uzun ömür, xoşbəxt gələcək və yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan neftçilərinə eşq olsun!

Azərbaycanın milli azadlığına, istiqlaliyyətinə eşq olsun!

"İstiqlal" qurğusuna eşq olsun, eşq olsun, eşq olsun!

Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və dəfələrlə sürəkli alqışlarla qarşılandı.

Prezident Heydər Əliyev, özünün dediyi kimi, böyük bir şərəfli vəzifəni yerinə yetirərək düyməni basdı və "İstiqlal" qurğusunun işləməsinə öz xeyir-duasını verdi.

"Şahdəniz" konsorsiumunun prezidenti Mayk Şerman "İstiqlal" qurğusunun maketini dövlət başçısına hədiyyə etdi.



BAKI, 29 AVQUST 2000-Cİ İL



# "Qurtuluş" qazma qurğusunun işə salınması

2000-ci il avqustun 29-da Bakıda "Qurtuluş" özüqalxan qazma qurğusunun istismara buraxılmasına həsr olunmuş mərasim keçirildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mərasimdə iştirak edirdi.

Prezident Heydər Əliyev mərasimə toplaşanları səmimiyyətlə salamladı. Onların əllərində Azərbaycanın dövlət bayraqları, Prezidentin portretləri, "Xalqımızın müdrik rəhbəri Heydər Əliyevə eşq olsun!", "Azərbaycanın yeni neft strategiyası artıq öz bəhrəsini verir", "Neft müqavilələrinin həyata keçirilməsində əvəzsiz xidmətləri olan möhtərəm Prezidentimizi alqışlayırıq", "Əziz Prezident, bütün neftçilər Sizin daxili və xarici siyasətinizi dəstəkləyirlər" sözləri yazılmış şüarlar var idi.

Azərbaycan Prezidenti burada dövlət və hökumət xadimləri ilə, xarici ölkələrin səfirləri və şirkətlərin nümayəndələri ilə görüşdü.

Prezident Heydər Əliyev "Qurtuluş" qurğusu ilə yaxından tanış oldu, onun tikintisi və iş prinsipləri ilə maraqlandı.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev və "Kaspian Şipyard Kompani" müştərək müəssisəsinin prezidenti Bill Ki ölkə başçısına məlumat verdilər ki, Rusiyanın "LUKoyl Treyd Hous", Sinqapurun "Keppel Fels" şirkətlərinin və ARDNŞ-nin yaratdıqları "Kaspian Şipyard Kompani" (KŞK) müştərək müəssisəsinin qüvvəsi ilə inşa edilmiş bu qurğunun dəyəri 175 milyon ABŞ dolları, ümumi çəkisi 12 min 490 tondur. Müasir avadanlıqla təchiz olunmuş bu möhtəşəm qurğu dənizdə su qatının dərinliyi 105 metrədək olan sahələrdə işləmək, 7620 metrdən çox dərinlikdə kəşfiyyat qazma quyuları qazmaq imkanına malikdir. Üçbucaqlı gövdədən, hər biri dayaq pantonu ilə üç sütundan ibarət olan bu qurğu Xəzər dənizi hövzəsində bütün tələblərə cavab verərək işləmək üçün





uyğunlaşdırılmışdır. Göyərtənin üzərində 100 nəfərlik dördmərtəbəli yaşayış bloku və vertolyot meydançası quraşdırılmışdır.

Qurğunun tikintisinə dair müqavilə 1998-ci ilin iyun ayında imzalanmış və bütün işlər vaxtından iki ay əvvəl başa çatdırılmışdır. Bakıda ilk dəfə inşa olunmuş belə bir qurğu Azərbaycanda və Xəzər dənizində neft konsorsiumunun pay bölgüsü sazişlərində iştirak edən tərəflərlə birlikdə yataqlarda kəşfiyyat işləri aparılmasında və quyular qazılmasında böyük əhəmiyyətə malikdir.

Dövlət başçısı Heydər Əliyev qurğunun maketini və tikinti-quraşdırma işlərinin ayrı-ayrı mərhələlərini əks etdirən fotoguşə ilə tanış oldu.

Prezident Heydər Əliyev fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

*"Qurtuluş" qazma qurğusunun istismara buraxılışı münasibətilə bu qurğunu yaradanları - qurğunun hazırlanmasına böyük zəka, əmək sərf etmiş şirkətləri, təşkilatları, alimləri, mühəndisləri, mütəxəssisləri, Azərbaycan neftçilərini, bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Əminəm ki, "Qurtuluş" qazma qurğusu Azərbaycan dövlətinin yeni neft strategiyasının həyata keçirilməsində öz xidmətlərini göstərəcəkdir.*

*Uğurlar olsun!*

***Azərbaycan Respublikasının Prezidenti***
***Heydər Əliyev***
***29.VIII.2000-ci il"***

Sonra "Qurtuluş" qazma qurğusunun istismara buraxılması münasibətilə təntənəli mərasim oldu.

Müdafiə Nazirliyi hərbi orkestrinin ifasında Azərbaycanın dövlət himni əzəmətlə səsləndi.

Mərasimi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev açdı.

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevin çıxışı**

- Zati-aliləri möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

İcazə verin, Azərbaycan və bütün Xəzər regionunun neft və qaz yataqlarının kəşfi üçün çox əhəmiyyətli olan müasir səviyyəli qazma qurğusunun istismara verilməsi ilə əlaqədar təntənəli mərasimi açıq elan edim.

Möhtərəm cənab Prezident!

Bu gün biz müstəqil Azərbaycan Respublikasının iqtisadi və sosial həyatında tez-tez qeyd etdiyimiz yeni bir əlamətdar hadisənin şahidi oluruq. Bu əlamətdar hadisələrdə möhtərəm Prezidentimizin iştirak etməsi xalqımızda bayram əhval-ruhiyyəsi yaradır, xoş gələcəyə inamı daha da artırır.

Bu gün Sizin bu möhtəşəm mərasimdə iştirak etməyinizi böyük iftixar hissi ilə bütün neft sənayesi işçiləri onlara olan daimi qayğınızın təzahürü kimi qiymətləndirir və Sizə "Xoş gəlmisiniz!" deyirik.



Hörmətli Prezident, Azərbaycan neft-qaz sənayesinin tarixinin axırıncı 30 ili, xüsusilə yeni inkişaf dövrü Sizin adınızla bağlıdır. 1994-cü ildə təməli qoyulmuş və artıq gerçəkliyə çevrilən, müstəqil Azərbaycanın iqtisadiyyatının əsas tərkib hissəsi olan neft strategiyası proqramı öz bəhrələrini verməkdədir. Sizin rəhbərliyiniz altında aparılan iqtisadi islahatlar nəticəsində son illər Dövlət Neft Şirkətinin fəaliyyəti sabit xarakter daşıyır. İqtisadi, maliyyə və texniki çətinliklərə baxmayaraq, böyük təcrübəyə malik olan neft sənayesi işçilərinin gərgin zəhməti hesabına, həmçinin aparılan texniki dəyişikliklər və islahatlar nəticəsində respublikamızın neft məhsullarına olan tələbatı tam ödənilir, qaz hasilatının sabitləşdirilməsi üçün bütün tədbirlər görülür.

Sizin "Əhalinin və iqtisadiyyatın enerji daşıyıcıları ilə təminatının yaxşılaşdırılması tədbirləri haqqında" məlum fərmanınızla bağlı Dövlət Neft Şirkətində böyük tədbirlər proqramı hazırlanmış və uğurla həyata keçirilməyə başlanmışdır.

Dövlət Neft Şirkəti Sizin göstərişləriniz əsasında maliyyə imkanlarını səfərbər edərək dövlət büdcəsinə və dövlət sosial müdafiə fonduna ayırmalar barədə tapşırıqları artıqlaması ilə yerinə yetirir, neftçilərin əmək haqlarının vaxtlı-vaxtında ödənilməsini təmin edir, respublikanın sosial problemlərinin həllində fəal iştirak edir, başqa istehsal və sənaye sahələrinə texniki və maddi yardımlar göstərir və bu işləri davam etdirməkdədir.

Dövlət Neft Şirkətinin xarici neft şirkətləri ilə əməkdaşlığı sahəsində də böyük uğurlar əldə olunmuşdur. "Əsrin müqaviləsi" imzalandıqdan və "Çıraq-1" platformasından ilkin neft alındıqdan sonra xarici neft şirkətləri tərəfindən Azərbaycanın neft-qaz sənayesinə maraq daha da artmışdır. Dünyanın 14 ölkəsinin 28 neft şirkəti ilə imzalanmış, 57 milyard ABŞ dolları məbləğində sərmayə qoyuluşu tələb edən 19 saziş çərçivəsində son illər xeyli iş görülmüşdür. Bu işlərə nəhəng "Çıraq-1" platformasının, sualtı neft və qaz kəmərlərinin, Səngəçal terminalının, Bakı-Novorossiysk və Bakı-Supsa neft kəmərlərinin inşasını, özüllərin və platformaların tikinti sahələrinin bərpasını, borulara beton örtük çəkilməsi zavodunun, "İsrafil Hüseynov", "Süleyman Vəzirov" borudüzən gəmilərinin yenidən qurulmasını, "Azərbaycan" kran gəmisinin və istehsal üçün lazım olan başqa gəmi və qurğuların təmirini aid etmək olar.

Bu günədək "Azəri", "Çıraq", "Günəşli" yataqlarından 10 milyon tondan artıq neft hasil edilib ixrac olunmuş, 1,5 milyard kubmetr səmt qazı pulsuz olaraq respublikamızın istifadəsinə verilmiş, neft sənayesinin inkişafına 3,3 milyard ABŞ dolları sərmayə qoyulmuşdur. İlk gəlir neftindən respublikamıza valyuta daxil olmağa başlamış və Sizin təşəbbüsünüzlə yaradılmış Neft Fonduna 205,9 milyon dollar vəsait daxil olmuşdur. Satılmış gəlir neftindən tezliklə 29 milyon dollar vəsait gözlənilir və bu da Fonda veriləcəkdir. Nəhayət, imzaladığımız bu sazişlərin əsasında kəşfiyyat işlərinin artırılması və genişlənməsi nəticəsində Xəzərin Azərbaycan sektorunda yeni neft və qaz yataqlarının açılması bu uğurlar sırasındadır. İndi Azərbaycan nefti dünya bazarında öz adı ilə tanınır.

XXI əsrin ən əhəmiyyətli layihələrindən biri - Sizin adınızla, əvəzsiz zəhmətinizlə bağlı olan Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin inşası barədə imzalanmış sazişin Azərbaycan, Gürcüstan və Türkiyə parlamentlərində ratifikasiya olunması, dünya miqyaslı "Şahdəniz" qaz-kondensat yatağının açılması respublikamızın gələcək inkişafı üçün möhkəm təməl qoyan və geniş imkanlar açan ən böyük nailiyyətlərdir.

İndi bizim qarşımızda yaxın illər üçün daha çətin, lakin şərəfli vəzifələr qoyulur:

- "Azəri", "Çıraq", "Günəşli" yataqlarının tam həcmdə işlənilməsi proqramına başlanması;
- dünya miqyaslı "Şahdəniz" qaz-kondensat yatağının işlənilməsinin sürətləndirilməsi;
- Azərbaycan qazının Türkiyə və Avropa bazarlarına çatdırılması;
- Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasının başa çatdırılması.

Bəli, son illər müstəqil dövlətimizin neft sənayesində əldə edilmiş bütün bu uğurlar, cənab Prezident, yalnız və yalnız Sizin adınızla bağlıdır, Sizin uzaqgörən və müdrik siyasətinizin parlaq təzahürüdür.

Cənab Prezident!

Sözün əsl mənasında dövlətçiliyimizin qorunub saxlanması, iqtisadiyyatımızın yüksək sürətlə inkişafı, əhalinin rifah halının yaxşılaşdırılması üçün son illər görülmüş bu nəhəng işlər təkzibedilməzdir, necə deyərlər, göz qabağındadır. Lakin əfsuslar olsun ki, görülmüş bu qədər işlərə xor və kor baxan daxili və xarici qüvvələr hələ də vardır. Bütün ideologiyasını yalnız hakimiyyət davasına çevirmiş bəzi müxalif qüvvələr bu işlərə qısqanclıqla yanaşırlar, öz acizliklərini nümayiş etdirərək, "vəzifələrini" daxili sabitliyi pozmaqla ümumi işimizə mane olmaqda görürlər. Onların təsiri altında olan bir çox mətbuat orqanlarında isə neft sənayesinin xüsusiyyətlərini, o cümlədən axtarış-kəşfiyyat işlərinin mahiyyətini anlamadan, əldə olunan nəticələrə səriştəsiz və qeyri-obyektiv qiymətlər verilir.

Məsələn, "Kürdaşı" layihəsi üzrə qazılan ilkin quyunun nəticələrinin mahiyyətinə varmadan mətbuatda "Quyudan hava çıxdı" sərlövhəli yazılar verirlər. Bu, əlbəttə, belə deyildir və bu barədə danışmağa ehtiyac da yoxdur. Lakin elə təsəvvür yaranır ki, onlar belə hadisələrin baş verməsinə sevinirlər. Məgər onlar anlamırlar ki, Azərbaycanın bu günü də, gələcəyi də uzun illər bizim neft-qaz sənayesinin inkişafı ilə bağlıdır?

Onda məqsəd nədir? Necə deyərlər, məqsəd yalnız və yalnız "milçəyin ürək bulandırmasıdır".

Bu baxımdan "Azadlıq" radiosunun Azərbaycan dilində verilişlər redaksiyası daha çox canfəşanlıq edir. Bir həftə öncə məşhur Amerika jurnalisti cənab Tomas Qoltsun təşəbbüsü ilə Azərbaycan, Gürcüstan və Türkiyə dövlət başçılarının dəstək verdiyi Bakı-Tbilisi-Ceyhan boru kəmərinin marşrutu üzrə motosikletlərdə marafon yürüşü başlanmışdır. Təbii ki, rəmzi olaraq, Azərbaycan nefti çəlləyə qoyularaq Ceyhana aparılmışdır. Marafonun keçirilməsində əsas məqsəd dünyanın maliyyə qurumlarını, iş adamlarını, siyasi dairələrini və ictimaiyyəti bir daha bu nəhəng layihənin əhəmiyyətinə cəlb etmək, həmçinin marşrutun keçdiyi ərazilərdən reportajlar verməklə yerli əhalinin bu layihəyə münasibətini bildirmək, regionda olan vəziyyət, o cümlədən iqtisadi və sosial durum barədə obyektiv məlumatları dünya ictimaiyyətinə çatdırmaqdır.

Lakin "Azadlıq" radiosu "Azərbaycanın Ceyhana çəkiləcək boru kəmərini doldurmağa nefti yoxdur, ona görə də çəlləkdə neft göndərir" deyə böhtan xarakterli məlumat yayır. Bu isə heç bir məntiqə sığmayan bir bəyanatdır və bunu yalnız Azərbaycan xalqına düşmən mövqe tutan bir qurum edə bilər.

Cənab Prezident, bir daha qeyd etmək istərdim ki, həm Sizin rəhbərlik və qayğınız, həm də neft sənayesi işçilərinin gərgin əməyi nəticəsində əldə olunmuş uğurlar dövlətimizin daha da möhkəmlənməsi, dünya iqtisadiyyatına müvəffəqiyyətlə qovuşması, respublikamıza xarici sərmayələrin cəlb olunması, Xəzər regionunda Azərbaycanın ən aparıcı bir dövlətə çevrilməsi üçün möhkəm zəmin yaratmışdır. Bu gün fəxrlə demək olar ki, Azərbaycan, Bakı yenidən dünyanın neft mərkəzlərindən birinə çevrilməkdədir. Bu baxımdan, Xəzər dənizinin Azərbaycan sektorunda olan zəngin karbohidrogen yataqlarının kəşfi və işlənilməsi sahəsində xarici neft şirkətləri ilə bağlanmış uzunmüddətli neft-qaz sazişlərinin uğurla həyata keçirilməsi müstəsna əhəmiyyət kəsb edir. Lakin Xəzər dənizində və xüsusən onun dərin su qatlarında kəşfiyyat-qazma işlərinin aparılması xüsusi texnika və texnologiya tələb edir və onların içində ən vacibi müasir tələblərə cavab verən dəniz qazma qurğularının yaradılmasıdır.

Hörmətli cənab Prezident! Son illər Sizin xeyir-duanızla modernizə olunmuş iki üzən yarımdalma qazma qurğusu - "Dədə Qorqud" və "İstiqlal" çox uğurla işə başladılar. Ötən müddət ərzində bu qurğuların köməyi ilə ilk sazişin müqavilə sahəsində bir neçə kəşfiyyat quyusu qazıldı və "Azəri", "Çıraq", "Günəşli" yataqlarında neft ehtiyatlarının 630 milyon tondan çox olduğu müəyyənləşdirildi, "Qarabağ", "Əşrəfi" strukturlarında bir neçə kəşfiyyat quyusu qazıldı və bu strukturların neftli-qazlı-kondensatlı olduğu aşkar edildi, "Şahdəniz" strukturunda zəngin qaz-kondensat yatağı açıldı ki, bu da Azərbaycanı yaxın gələcəkdə neftlə bərabər, həm də qaz ixrac edəcək bir dövlətə çevirdi. Göründüyü kimi, müasir səviyyəli üzən yarımdalma qazma qurğuları qısa müddətdə dərin kəşfiyyat quyularının müvəffəqiyyətlə qazılıb başa çatdırılmasını və yeni yataqların kəşfini təmin etdi.

Xəzər dənizində "Alov", "Abşeron", "Naxçıvan", "Oğuz", "Kürdaşı", "İnam", "Lənkəran-dəniz", "Zəfər", "Məşəl", "Savalan", "Yanan tava" kəşfiyyat blokları üzrə qazma işlərini sürətləndirmək üçün yeni qazma qurğusuna ehtiyac vardır. Bağlanmış sazişlər üzrə öhdəliklərini vaxtında yerinə yetirmək üçün "TotalFinaElf", "EkssonMobil", "Acip" şirkətləri və sonradan onlara qoşulan "CAOK" şirkəti qazma üzrə klub yaradaraq yeni bir qazma qurğusunun inşası barədə qərar qəbul etdilər.

Beləliklə, Xəzər dənizinin neft-qaz ehtiyatlarının kəşfində, Azərbaycan neft sənayesinin infrastrukturunun inkişafında mühüm əhəmiyyət daşıyacaq yeni bir özüqalxan qazma qurğusunun bu gün istismara verilməsi mərasimi bizim üçün tarixi bir hadisədir.

Məlumdur ki, Xəzər dənizində neft-qaz hasilatını intensivləşdirmək məqsədi ilə əvvəllər "Xəzər" tipli özüqalxan, sonra isə Sizin təşəbbüsünüzlə inşa edilən "Şelf" tipli üzən yarımdalma qazma qurğuları xaricdə və əsasən keçmiş SSRİ-nin digər tərsanələrində quraşdırılıb, demək olar ki, hazır şəkildə Azərbaycana gətirilirdi. İndi isə, bunu xüsusi vurğulamaq lazımdır ki, ilk dəfə olaraq, özüqalxan qazma qurğusu bütövlükdə Azərbaycanda inşa edilmişdir. Onu da nəzərinizə çatdırıram ki, belə qurğulara tələbat ildən-ilə artacaqdır. Çox sevindirici haldır ki, "EkssonMobil" şirkəti öz vəsaiti hesabına yeni bir dəniz qazma qurğusunun inşasına başlamaq barədə rəyini bildirmişdir və təklif vermişdir.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin, Rusiyanın "LUKoyl Treyd Hous", Sinqapurun "Keppel Fels" şirkətlərinin yaratdıqları "Kaspian Şipyard Kompani" müştərək müəssisəsinin gərgin işinin nəticəsi olan və "Traydent-20" adı altında inşa edilib başa çatdırılmış, ümumi dəyəri 175 milyon dollar olan, müasir avadanlıqla təchiz edilmiş bu yeni möhtəşəm qurğu dənizin su qatı 105 metrədək çatan dərinlikdə işləməyə, 7620 metrdən çox dərinlikdə kəşfiyyat quyuları qazmağa imkan verir. Qurğunun inşasına 1998-ci il iyulun 31-də başlanmış və bu iş nəzərdə tutulduğundan iki ay qabaq başa çatdırılmışdır. Qurğunun inşasında iştirak edən mütəxəssislərin 77 faizi azərbaycanlılar olmuşlar. Bu müddət ərzində "Kaspian Şipyard Kompani" müştərək müəssisəsində 800 azərbaycanlı qaynaq işləri, metalquraşdırma, boruçəkmə, elektrik işləri, mexaniki, rəngsazlıq, iş meydançalarının quraşdırılması, mühən-







dislik, təhlükəsiz iş yeri yaradılması, beynəlxalq təcrübəyə uyğun işləmək, yüksək məhsuldarlıq və keyfiyyət standartlarına nail olmaq sahəsində təcrübə toplamışdır.

Qurğuda 100 nəfərlik dördmərtəbəli yaşayış bloku, "Sikorski S61N" və yaxud Mİ-8 tipli vertolyotlar üçün meydança quraşdırılmışdır. Qurğunun ümumi çəkisi üstündəki cihazlar və müxtəlif tipli yüklərlə bərabər 12 min 490 tondur. Qurğuda olan əsas cihazlar və avadanlıq bunlardır: özü-özünü təmin edərək 9115 kilovat elektrik enerjisi yarada bilən 4 əsas generator və bir qəza generatoru, çoxfunksiyalılığı təmin edən preventer, qazma işləri aparan 3 min at gücündə bucurqad və hər biri 2200 at gücündə olan üç ədəd buruq nasosu.

İnşa dövründə qurğunun Azərbaycan iqtisadiyyatına verdiyi mənfəət aşağıdakılardan ibarətdir:

- gəmi təmiri zavodunun istehsal sahəsinə sərmayə qoyuluşu - 31,7 milyard manat;
- azərbaycanlı işçilərə verilən əmək haqqı - 16,6 milyard manat;
- Azərbaycan podratçılarına edilən ödənişlər - 36 milyard manat;
- digər Azərbaycan təşkilatlarına edilmiş ödənişlər - 15 milyard manat;
- Azərbaycanın dövlət orqanlarına edilmiş ödənişlər - 22 milyard manat.

"Kaspian Şipyard Kompani" müştərək müəssisəsi fəaliyyətinin ən yüksək dövründə 851 azərbaycanlını işə götürmüş, 250 azərbaycanlı isə onun podratçıları sırasında olmuşdur. Ən yüksək aylıq əmək haqqı 5 milyon 61 min manat, orta aylıq əmək haqqı isə 1 milyon 638 min manat təşkil etmişdir.

Bu qurğunun quraşdırılıb başa çatması ilə Azərbaycan bütün dünyaya bu çox mürəkkəb qazma qurğusunun vaxtında, özü də smeta dəyərindən kənara çıxmayaraq tikilməsi sahəsində Bakının potensialını və azərbaycanlıların bacarığını göstərdi. Bu layihə Xəzər hövzəsində dünya standartları səviyyəsində qazma qurğularının çatışmazlığını aradan qaldırmağa kömək edəcək, həmçinin Xəzər regionunun inkişaf etməkdə olan neft-qaz sənayesinin təcəssümü olacaqdır.

Möhtərəm cənab Prezident!

İcazə verin Sizi, bu qazma qurğusunun sifarişçisi olan "TotalFinaElf", "EkssonMobil", "Acip" şirkətlərinin və Yaponiya Milli Neft Şirkətinin nümayəndələrini, layihənin rəhbərliyini və Azərbaycan neft sənayesinin bütün işçilərini bu yeni qələbə münasibətilə bir daha təbrik edim və əmin edim ki, qarşılıqlı səmərəli əməkdaşlıq nəticəsində biz Xəzərin Azərbaycan sektorunda yerləşən zəngin neft-qaz-kondensat yataqlarının kəşf edilməsi sahəsində bundan sonra da yorulmadan çalışacaq, respublikamızın iqtisadiyyatının tərəqqisi üçün bütün imkanlardan istifadə edəcəyik.

Diqqətinizə görə çox sağ olun!

"Transoşn Sedkoforeks" şirkətinin icraçı vitse-prezidenti Jan Kaxuzakaya söz verildi.

**"Transoşn Sedkoforeks" şirkətinin icraçı vitse-prezidenti Jan Kaxuzakanın çıxışı**

- Zati-aliləri cənab Prezident!

Hörmətli Baş nazir, Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti, vitse-prezidentlər, səfirlər, qonaqlar, xanımlar və cənablar!

Azərbaycan, Xəzər dənizinin neft-qaz sənayesi və "Transoşn Sedkoforeks" üçün mühüm hadisə baş verdiyi əlamətdar bir gündə sizin hamınızı burada salamlamağa çox şadam.

Bu gün biz regionda texniki cəhətdən ən mükəmməl olan özüqalxan qazma qurğusuna ad qoyacağıq. Dənizdə qazma işləri aparan bu qurğu Bakıda xarici tərəfdaşlarının köməyi ilə azərbaycanlı əməkçilər tərəfindən tikilmişdir.

Layihə üzərində işə 1998-ci ilin mayında başlayarkən biz bilirdik ki, bir çox problemlərimiz olacaqdır. Xəzər dənizinə məhdud giriş imkanı və "Transoşn Sedkoforeks"in bu regionda əməliyyat təcrübəsinin azlığı Bakıda bu tipli ilk qazma qurğusunun tikilməsini daha da mürəkkəbləşdirirdi. Bu çətinliklərin aradan qaldırılmasına ARDNŞ-in köməyi və bu işə "Acip", "CAOK", "EkssonMobil" və "TotalFinaElf"in inamı olmasaydı layihənin sona çatdırılması çox ləngiyə bilərdi.

İnşa etdiyimiz özüqalxan qazma qurğusu üzümüzə gələn üç ildə konsorsium və yaxud qurğunun istismarçıları klubuna daxil olan şirkətlər tərəfindən işlədiləcəkdir. Bakıda imzalanmış üç illik müqavilə qurğunun istismarçıları klubu ilə podratçı arasında müqavilə qiymətinin sabit saxlanılması şərti ilə bağlanan ilk müqavilədir. "Transoşn Sedkoforeks" və gəmi təmiri zavodu arasında sabit ümumi qiymətlə imzalanan inşa müqaviləsi Azərbaycanın neft və qaz sənayesi üçün yeni mərhələdir və xarici ölkələr tərəfindən Azərbaycanda qazma qurğuları tikintisinə belə böyük məbləğdə sərmayə qoyulmasının ilk nümunəsidir. Bu da danılmaz faktdır ki, ARDNŞ-nin, "Acip", "CAOK", "EkssonMobil", "TotalFinaElf", "Keppel Fels", "Kaspian Şipyard Kompani" şirkətlərinin, bir çox subpodratçıların və "Amerikan Büro Of Şippinq" şirkətinin əməkdaşlığı, hərtərəfli yardımları sayəsində "Transoşn Sedkoforeks" dənizdə qazma işləri aparan müasir qurğunun inşasını müvəffəqiyyətlə başa çatdırmışdır.

Bizim müştərilərimizin uzunmüddətli müvəffəqiyyətinin, qazma qurğusu briqadasının təhlükəsiz işləməsinin əsası yüksək ixtisaslı işçi qüvvəsinin olmasıdır.

"Transoşn Sedkoforeks" gələcəkdə də təhlükəsiz

şəkildə texnoloji cəhətdən yeni qazma sistemlərini idarə etmək üçün Azərbaycanda gənc mütəxəssisləri işə götürməyi və onlara təlim verməyi davam etdirəcəkdir.

İndi "Transoşn Sedkoforeks" Xəzər dənizində əməliyyat aparmağın çətinliklərinə hazırdır və bu regionda əldə etdiyi təcrübəni daha da təkmilləşdirmək imkanını səbirsizliklə gözləyir. Bu layihənin müvəffəqiyyətlə başa çatması onun gələcəkdə regionda, dənizdə aparacağı səyyar qazma işlərinə kömək edəcəkdir.

Zati-aliləri, bu layihəni dəstəklədiyinizə görə Sizə çox minnətdarıq. Mən Sizi, həmçinin özüqalxan qazma qurğusunun istismarçıları klubunu təşkil edən neft şirkətlərinin bütün nümayəndələrini, layihənin rəhbər qrupunu və Azərbaycan neft sənayesinin bütün işçilərini bu hadisə münasibətilə təbrik etmək şərəfinə nail olduğum üçün çox şadam. Qoy bu hadisə Azərbaycan Respublikasının neft və qaz sənayesində baş verəcək bir çox əlamətdar mərhələlərdən biri olsun.

Sonra "TotalFinaElf" şirkətinin baş meneceri Jan Pyer Dol çıxış etdi.

**"TotalFinaElf" şirkətinin baş meneceri Jan Pyer Dolun çıxışı**

- Zati-aliləri cənab Prezident!

Hörmətli Baş nazir, Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti, vitse-prezidentlər, səfirlər, xüsusi qonaqlar, xanımlar və cənablar!

Qurğunun istismarçıları klubunda iştirak edən "Acip", "CAOK", "EkssonMobil" və "TotalFinaElf" şirkətləri adından dəyərli qonaqlara müraciət etməkdən məmnunluq duyuram. Bu gün həqiqətən əlamətdar bir gündür. Biz Azərbaycan və əcnəbi şirkətlərin nümunəvi əməkdaşlığı sayəsində Xəzər dənizində dünya standartlarına uyğun inşa edilmiş qazma qurğusunun istismara verilməsinin şahidləriyik.

1998-ci ildə başlanan bu layihənin yeganə məqsədi Azərbaycan Respublikasının icazəsi ilə, dənizin dayaz sahələrində yerləşən bloklarda neft və qaz ehtiyatlarının kəşf edilməsinin sərfəli həllini təmin etmək idi. Dövlət neft şirkətinin dəstəyi ilə bir neçə şirkət səylərini müvəffəqiyyətlə cəmləşdirdi və bu layihənin gerçəkləşməsi üçün əlverişli şərait yaradıldı. O vaxtdan bəri biz bir çox problemlə qarşılaşmışıq. Texniki, madditexniki təchizat və iqtisadi sahələrdəki çətinliklər bunların yalnız bir hissəsidir.

Mən bu layihənin nümunəviliyini təmin edən amillərdən yalnız ikisini nəzərinizə çatdırmaq istərdim.

Birincisi, aprelin 26-da mən ilk dəfə bu qazma qurğusuna baş çəkdim və inşaat meydançasında Şimal dənizindəki gəmiqayırma zavodlarından geri qalmayan səliqə-sahman və qazma qurğusunda çalışan işçilərin peşəkarlığı məni heyran etdi.

Xatırlatmaq istədiyim ikinci fakt qurğunun istismarçıları klubu barədədir. "Acip", "CAOK", "EkssonMobil", "TotalFinaElf" şirkətləri ilə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və "Transoşn Sedkoforeks" arasında yaranmış çox yüksək səviyyəli əlaqələr bu gün qeyd etdiyimiz müvəffəqiyyətə böyük yardım göstərmişdir.

Çox məmnunam ki, qazma qurğusunun inşası nəzərdə tutulan vaxtdan əvvəl başa çatdırılmışdır. Bu, nailiyyəti təsdiq edən daha bir sübutdur. Müasir qurğunun erkən tamamlanması nəticəsində "TotalFinaElf" şirkəti sentyabrın sonunda və ya oktyabrın əvvəlində "Lənkəran-Talış" blokunda axtarış işlərinə başlayacaqdır. Sonra bu iş klubun digər üzvləri tərəfindən müvafiq qazma layihələri üzrə davam etdiriləcəkdir.

Çıxışımın sonunda heç də az əhəmiyyəti olmayan uğurlu bir faktı da demək istəyirəm. Qonşu ölkələrin birində fəaliyyət göstərən əməliyyat şirkətlərindən biri qazma qurğusundan istifadə etmək barədə xahişlə bizə müraciət etmişdir. Bu, qazma qurğusuna uzun müddət ehtiyac olacağını göstərən çox yaxşı bir əlamətdir.

Zati-aliləri, neft və qaz sənayesinə göstərdiyiniz daimi dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm. Siz hər zaman əcnəbi şirkətləri ölkənizə sərmayə qoymağa ruhlandırırsınız. Bu layihə Sizin siyasətinizin parlaq sübutudur. Bu böyük nailiyyət, şübhəsiz, digər çoxsaylı müvəffəqiyyətlərlə davam etdiriləcəkdir. Sizin rəhbərliyiniz altında belə təntənəli mərasimdə iştirak etmək böyük şərəfdir.

Çıxış üçün "Keppel Fels" şirkətinin icraçı direktoru Si Eyc Tonqa söz verildi.

**"Keppel Fels" şirkətinin icraçı direktoru Si Eyc Tonqun çıxışı**

- Zati-aliləri cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün biz Azərbaycanda tikilmiş ilk özüqalxan qazma qurğusunun istismara buraxılmasının şahidi olmaqla, tarixin yeni səhifəsinin yazılmasında iştirak edirik.

Mürəkkəb və irihəcmli hər bir layihənin həyata keçirilməsində olduğu kimi, bu layihənin inşası zamanı da bir çox çətinliklərin olacağını bilirdik. Ona görə də "Keppel Fels" qarşıya çıxan çətinlikləri yerindəcə həll etmək məqsədi ilə yüksək peşəkarlıq səviyyəsinə malik mütəxəssisləri bu işin idarə olunması üçün Bakıya göndərdi.

Yeni şərait layihənin həyata keçirilməsini ləngidə biləcək çoxlu problemlərlə qarşılaşacağımızdan xəbər verirdi. Lakin necə olursa-olsun, biz bu çətinliklərin öhdəsindən gələ biləcəyimizə inanırdıq və nəticədə, biz bu cür keyfiyyətli qurğunu vaxtından iki ay əvvəl is-



Bu əlamətdar hadisə münasibətilə bütün Azərbaycan xalqını, vətəndaşlarını təbrik edirəm!

"Qurtuluş" qazma qurğusu haqqında geniş məruzə ilə çıxış edən Natiq Əliyev və qonaqlarımız bizə ətraflı məlumat verdilər. Bu məlumatlar bizim hamımızı həqiqətən heyran edir.

Bu qazma qurğusunun yaranmasının, bu gün istismara verilməsinin Azərbaycan üçün, xalqımız, millətimiz üçün əhəmiyyəti nədən ibarətdir?

Birincisi, bu onu göstərir ki, müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyası uğurla həyata keçirilir.

İkincisi, bu onu göstərir ki, Azərbaycana xarici sərmayənin gəlməsi davam edir. Burada deyildiyi kimi, bu qurğunun yaranması üçün 175 milyon dollar vəsait sərf olunubdur. Bu, Azərbaycan üçün yeni sərmayədir, yeni yatırımdır.

Bu onu göstərir və bütün dünyaya nümayiş etdirir ki, Azərbaycan xalqı, neftçiləri, mühəndisləri, mütəxəssisləri, fəhlələri nə qədər yüksək səviyyədədirlər və nə qədər böyük işlər görməyə qadirdirlər.

Bu onu göstərir ki, Azərbaycana dünyada ən müasir, ən yüksək səviyyəli olan texnika, texnologiya gəlir, bu da Azərbaycanın həm neft sənayesini inkişaf etdirmək, həm də Azərbaycan mütəxəssislərinin, neftçilərinin, mühəndislərinin səviyyəsini qaldırmaq üçün çox böyük əhəmiyyət daşıyır.

Bu onu göstərir ki, bu qurğunun tikilməsi ilə ölkəmizdə mindən artıq azərbaycanlı yeni iş yeri qazanıbdır, yüksək məvacib alıb, öz rifah halını yaxşılaşdırıbdır. Burada deyildiyi kimi, Azərbaycan bu qurğunun tikilməsindən 28 milyon dollarlıq vergi və başqa vəsaitlər üzrə fayda götürübdür.

Azərbaycanın yeni neft strategiyasının əməli nəticələri, qələbələri budur! Bizim uğurla getdiyimiz yolun nəticələri budur!

Xatirinizdədir ki, 1994-cü ildə Azərbaycanın ağır vəziyyətində, ölkəmiz həm sosial-iqtisadi çətinliklər içərisində yaşadığı, həm də respublikamızda ictimai-siyasi sabitlik lazımi səviyyədə olmadığı bir zamanda biz dünyanın böyük neft şirkətlərini Azərbaycana cəlb etdik. Onlar Azərbaycan dövlətinə inandılar və ölkəmizə böyük sərmayələr qoymaq barədə qərar qəbul etdilər. Birgə işlərimiz nəticəsində 1994-cü ilin sentyabrında Azərbaycan dünyanın 11 böyük neft şirkəti ilə müqavilə imzaladı. Bu müqavilə o qədər nəhəng xarakter daşıyırdı ki, ona "Əsrin müqaviləsi" adı verildi.

"Əsrin müqaviləsi" dünyada böyük əks-səda doğurdu. Bu hadisə Azərbaycan xalqını, bizim dostlarımızı sevindirdi, xalqımızda böyük ümidlər yaratdı. Xatirinizdədir ki, eyni zamanda, bu müqaviləyə inanmayanlar, onun həyata keçirilməsinə mane olmaq istəyən qüvvələr də az deyildi. Ancaq həyat və ötən illər sübut etdi ki, Azərbaycan dövləti doğru, düz yol ilə gedibdir və 1994-cü ildə Azərbaycanla müştərək iş görməyə başlayan dünyanın böyük dövlətləri, neft şirkətləri artıq bunun əməli nəticəsini görürlər.

Biz qısa bir zamanda əməli nəticələr əldə etdik. 1997-ci ildə "Çıraq" neft yatağından neft hasil etdik və onu dünya bazarlarına ixrac etməyə başladıq. Bu neft Bakı-Novorossiysk kəməri ilə ixrac edilməyə başladı. Ondan sonra biz qısa bir zamanda Bakı-Supsa neft kəmərini tikdik, 1999-cu ilin aprel ayında onu təntənəli surətdə açdıq və Azərbaycandakı yataqlardan hasil olunan neft bu neft kəməri ilə indi dünya bazarlarına çıxarılır.

Biz Xəzər dənizindəki "Şahdəniz" yatağında böyük, nəhəng qaz ehtiyatlarını aşkar etdik, neft ölkəsi kimi tanınan Azərbaycanın bundan sonra həm də qaz ölkəsi olduğunu və xarici bazarlara qaz çıxarmağa yeni imkanlarımız yarandığını bütün dünyaya bəyan etdik və bu barədə də lazımi əməli işlər görürük.

"Əsrin müqaviləsi"ndən sonra ötən illər ərzində 19 müqavilə imzalanıbdır. Bu müqavilələrdə xarici ölkələrin 30-a qədər neft şirkəti iştirak edir. Bunların hamısı gələcəkdə Azərbaycanın nə qədər böyük miqdarda neft və qaz hasil edib dünya bazarlarına çıxaracağına əyani sübutdur.

Hasil olan böyük nefti dünya bazarlarına çıxarmaq üçün ötən beş il müddətində biz Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəmərinin tikilməsi problemləri ilə məşğul idik. Bildiyiniz kimi, keçən ilin noyabr ayında ATƏT-in İstanbul Zirvə görüşündə Türkiyə, Azərbaycan, Gürcüstan və Qazaxıstan Prezidentləri Bakı-Tbilisi-Ceyhan neft kəməri haqqında müqaviləni imzaladılar və bu böyük layihəyə Amerika Birləşmiş Ştatlarının Prezidenti də öz imzasını qoydu. Beləliklə də biz böyük neftin dünya bazarlarına çıxarılması üçün əsas neft kəmərinin yaranmasına nail olduq.

İndi Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti Azərbaycan Dövlət Neft Şirkəti, Türkiyənin, Gürcüstanın neft şirkətləri ilə bərabər Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına başlamaq üçün lazımi tədbirlər görür. Bu tədbirləri tezliklə hazırlayıb işə başlamaq lazımdır.

Təəssüf ki, indi biz yeni problemlərlə rastlaşmışıq. Bəziləri Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin həyata keçirilməsinə yenidən mane olmaq istəyirlər. Bəziləri belə fikirlər söyləyirlər ki, Azərbaycanda o qədər neft yoxdur və bu kəmərin tikilməsinə ehtiyac yoxdur.

Təbiidir ki, bu qüvvələrin, dairələrin bəziləri, ola bilər, bunu anlamırlar, bəziləri isə Xəzər dənizi kimi böyük enerji ehtiyatlarına malik olan hövzədən Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasına müxtəlif səbəblərdən mane olmaq istəyirlər. Ancaq onlar heç bir şey edə bilməyəcəklər. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsi hazırlanmalıdır, bu barədə müqavilə imzalanıbdır və bu kəmərin inşasına başlanmalıdır. Həmin kəmər inşa ediləcək, bu iş vaxtında həyata keçiriləcək və heç kəs ona mane ola bilməyəcəkdir. Bugünkü bu hadisə, bu təntənəli mərasim mənim indicə dediklərimə əyani sübutdur.

Bilirsiniz ki, son bir neçə ildə Xəzər dənizinin Azərbaycan sektorunda kəşfiyyat işləri aparmaq, quyuların qazılmasını təmin etmək üçün iki nəhəng qazma qurğusu - "Dədə Qorqud" və "İstiqlal" yarımdalma qazma qurğuları hazırlanıb işə salınıbdır. İndi onlar öz vəzifələrini yerinə yetirirlər.

Bu gün biz yeni bir qazma qurğusunun tikilməsi, hazırlanması və istismara verilməsinin şahidiyik. Hələ bundan sonra da belə qazma qurğuları yaranacaqdır. Çünki Xəzər dənizinin Azərbaycan sektorunda mövcud olan zəngin neft və qaz yataqları və ümumiyyətlə Xəzər bölgəsindəki enerji ehtiyatları belə qazma qurğularının çox olmasını tələb edir ki, qazma, kəşfiyyat işləri aparılsın, neft və qazın hasilatına başlansın. Əgər bu belə olmasaydı, bu cür qazma qurğusunun yaranmasına 175 milyon dollar vəsait qoyulmasına nə ehtiyac var idi?!

Mənim bu dediklərim həmin o bədxahlara, Azərbaycana düşmən gözü ilə baxanlara, ölkəmizə paxıllıq edənlərə və ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatı ilə inteqrasiya olunmasına maneçilik törədənlərə cavabdır.

Bu sahədə bu günə qədər gördüyümüz işlər və bundan sonra, gələcəkdə görəcəyimiz işlər Azərbaycan xalqının rifah halının yaxşılaşmasına, Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsinə, müstəqil bir dövlət kimi ölkəmizin çiçəklənməsinə gedən yolları təmin edir.

Azərbaycan xalqının tam əksəriyyəti bizim gördüyümüz bu işlərə yüksək qiymət verir, ona böyük ümidlər bəsləyir və bütün bu nailiyyətlərimizə, o cümlədən bugünkü nailiyyətimizə də sevinir. Qoy istəyənlər sevinsinlər, istəməyənlər kor olsunlar!

Biz birinci yarımdalma qazma qurğusuna "Dədə Qorqud" adı verdik. Bunun çox böyük tarixi, milli əhəmiyyəti vardır. Dədə Qorqud bizim ulu babamızdır. Həmin qazına qurğusu ilə Xəzər dənizində yeni neft yataqlarının istifadəyə verilməsini təmin etmək, Azərbaycan xalqının rifahını qaldırmaq bizim məhz Dədə Qorqud kimi ulu babamızın ruhunu şad edəcəkdir. Ona görə də biz ona "Dədə Qorqud" adı verdik.

Biz ikinci qazma qurğusuna "İstiqlal" adını verdik. Nə üçün? Çünki əgər biz istiqlaliyyətimizi, müstəqilliyimizi əldə etməsəydik, millətimiz azad olmasaydı, Azərbaycan dövlət müstəqilliyini əldə edib dünya birliyində bərabərhüquqlu dövlətlərdən biri olmasaydı, biz bu böyük neft strategiyası planını və başqa işləri həyata keçirə bilməzdik. İstiqlaliyyət, müstəqillik bizim üçün, xalqımız üçün bu gün də, gələcəkdə də ən əziz bir anlayışdır. Buna görə də biz həmin qazma qurğusuna "İstiqlal" adı vermişik.

Bu gün istismara verdiyimiz yeni qurğuya isə "Qurtuluş" adı verilmişdir. Bunun da böyük əhəmiyyəti vardır. Nə üçün "Qurtuluş"? Çünki qurtuluş Azərbaycan xalqının əsarətdən, müstəmləkəçilikdən qurtulması deməkdir. Qurtuluş Azərbaycan xalqının azadlığa çıxması deməkdir. Qurtuluş son illərdə Azərbaycan xalqının başına gəlmiş bəlalardan çıxması deməkdir. Qurtuluş 1993-cü ildə Azərbaycanda yaranmış vətəndaş müharibəsindən qurtulmaq deməkdir. Qurtuluş Azərbaycan parçalandığı zaman onun parçalanmasının qarşısını almaq deməkdir. Qurtuluş Azərbaycanın müstəqilliyi, azadlığı deməkdir. Ona görə də bu qurğu "Qurtuluş" adını daşıyır.

Mən "Qurtuluş" qazma qurğusuna və onu idarə edəcək, orada çalışan insanlara uğurlar arzulayıram və əmin olduğumu bildirmək istəyirəm ki, "Qurtuluş" qazma qurğusu Azərbaycan dövlətinin yeni neft strategiyasının həyata keçirilməsində öz xidmətlərini göstərəcək, yeni neft quyularının qazılmasında, neftin və qazın hasil olunmasında şücaətlə çalışacaq və öz nailiyyətləri ilə bizi sevindirəcəkdir.

Əziz dostlar!

Bugünkü hadisə bizim hamımızı sevindirir. Çünki yeni bir qələbənin, nailiyyətin şahidiyik. Bir də ona görə sevinirəm ki, çox hörmət etdiyim, mənim üçün çox əziz olan Azərbaycan neftçiləri ilə yenidən görüşmək imkanı əldə etdim.

Yaşasın Azərbaycan neftçiləri!

Yaşasın müstəqil Azərbaycan!

"Qurtuluş" qazma qurğusuna uğurlar, uğurlar, uğurlar olsun!

Sağ olun.

Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və dəfələrlə gurultulu, sürəkli alqışlarla qarşılandı.

**Natiq Əliyev:** Cənab Prezident!

İcazə verin, bu dərin mənalı nitqinizə, bizə verdiyiniz tövsiyələrə və "Qurtuluş" yeni özüqalxan qazma qurğusuna verdiyiniz xeyir-duaya görə Sizə bütün mərasim iştirakçıları adından dərin təşəkkürümüzü və minnətdarlığımızı bildirim.

Prezident Heydər Əliyev "Qurtuluş" qazma qurğusunun istismara buraxılmasını bildirən düyməni basdı və qurğu işə düşdü.

BAKI, 30 AVQUST 2001-Cİ İL



# "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının tammiqyaslı işlənməsinin 1-ci mərhələsinin qətnaməsinin imzalanması



2001-ci il avqustun 30-da Bakıda, Prezident sarayında "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının tammiqyaslı işlənməsinin birinci mərhələsinin qətnaməsinin imzalanması mərasimi oldu.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin mərasimdə iştirak edirdi.

Dövlət başçısı mərasimdə iştirak edən "bp", "Yunokal", "LUKoyl", "Statoyl", "Eksson", TPAO, "Penzoyl", "İtoçu" və "Delta Hess" neft şirkətlərinin rəhbərləri və nümayəndələri ilə səmimi görüşdü.

Azərbaycan Prezidenti Heydər Əliyev mərasimi giriş sözü ilə açdı.

**Azərbaycan Prezidenti**
**Heydər Əliyevin giriş sözü**

- Hörmətli xanımlar və cənablar!

Biz bu gün Azərbaycanın həyatında yeni bir əlamətdar hadisə münasibətilə buraya toplaşmışıq. 1994-cü ilin sentyabr ayında Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın 11 neft şirkəti arasında Azərbaycanın Xəzər dənizindəki sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarında müştərək iş görmək üçün müqavilə imzalanmışdır. Bu müqavilə imzalandığı gündən dünyada "Əsrin müqaviləsi" adlanıb və o vaxtdan indiyə qədər bütün dünyanın nəzər-diqqətini cəlb edibdir.

Bu müqavilə Azərbaycanda Milli Məclis tərəfindən ratifikasiya olunandan sonra burada 11 neft şirkəti konsorsium - Beynəlxalq Əməliyyat Şirkəti adı ilə ümumi bir təşkilat yaradıbdır. Onlar da Azərbaycan Dövlət Neft Şirkəti ilə birlikdə müqavilənin həyata keçirilməsi üçün lazımi tədbirlər görməyə başlamışlar. Təbiidir ki, burada böyük hazırlıq işləri görülməli idi. Bunlar müvəffəqiyyətlə həyata keçirildi və 1997-ci ilin oktyabr ayında "Çıraq" neft yatağında qurulmuş platformadan ilkin neft hasil olundu. O vaxta qədər Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti Azərbaycan Dövlət Neft Şirkəti ilə birlikdə gələcəkdə hasil olacaq neftin ixracının təmin edilməsi üçün iki neft kəmərinin tikilməsinə nail olubdur. Qara dənizin Novorossiysk limanına nefti çatdırmaq üçün Bakı-Novorossiysk xətti və Gürcüstanın Qara dənizdə olan Supsa limanına neftin çatdırılması üçün Bakı-Supsa xətti tikilmişdir.

Təbiidir ki, bir çox başqa işlər də görülmüşdür. Səngəçalda böyük terminal tikilmiş, neftin və qazın sahilə gətirilməsi üçün böyük mühəndis işləri aparılmışdır, qurğular, borular tikilmişdir və bunların nəticəsində də hasil edilən neft artıq ixrac olunmağa başlandı. O vaxtdan indiyə qədər "Çıraq" neft yatağından 15 milyon 400 min ton neft hasil olunubdur və bununla bərabər, səmt qazı da alınıbdır. Hasil olunan neft ixrac edilib, səmt qazı isə Azərbaycanın istifadəsinə verilibdir.

Ancaq indiyə qədər görülən işlər böyük neft müqaviləsinin başlanğıc mərhələsi idi. Qəbul olunmuş proqram əsasında bu yataqlarda lazımi işləri aparmaq üçün Beynəlxalq Əməliyyat Şirkəti, Azərbaycan Dövlət Neft Şirkəti bu işləri müəyyən fazalara – birinci faza, ikinci faza, üçüncü fazaya bölübdür. Demək, indiyə qədər görülən işlər başlanğıc dövrü hesab olunur. İndi isə "Əsrin müqaviləsi"nin həyata keçirilməsi üçün yeni mərhələ başlanıbdır. Bunun da adı birinci fazadır.





Təbiidir ki, birinci fazanın başlanılması üçün Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin tikilməsi haqqında qərar qəbul olunmalı idi.

Təəssüflər olsun ki, bu, bizdən asılı olmayan səbəblərə görə müəyyən qədər ləngidi. Ancaq buna baxmayaraq, artıq bu işlər də arxada qalıbdır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri haqqında sazişlər imzalanıb, lazımi kommersiya işləri görülübdür və indi artıq mühəndis-axtarış işləri gedir. Gələn ildə isə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasına başlanacaqdır. Buna görə də görülən işlərin əsasında bu böyük müqavilənin birinci fazasına başlamaq imkanı əldə edilmişdir.

Təbii ki, burada da çox işlər görmək lazımdır. Bir çox məsələləri razılaşdırmaq lazımdır. Bu barədə həm Beynəlxalq Əməliyyat Şirkəti, həm də Azərbaycan Dövlət Neft Şirkəti və bunların hamısını birləşdirən Rəhbər Komitə çox böyük iş aparıbdır. Nəhayət, birinci fazanın başlanması üçün razılıq əldə olunubdur. Sazişlər hazırlanıb və burada imzalanacaqdır. Bununla da, biz "Əsrin müqaviləsi"nin ardıcıl surətdə həyata keçməsini təmin edəcəyik.

İndi imzalanacaq saziş çox böyükdür. Onun hamısını, təbiidir ki, burada sizə bəyan etmək imkanı yoxdur və bir də orada çox texniki məsələlər var. Ancaq bu saziş ilə əlaqədar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında qətnamə imzalanıbdır. Ona görə də bu saziş haqqında müfəssəl məlumat vermək üçün hesab edirəm ki, indi bu qətnaməni sizə bəyan etmək lazımdır. Qətnamənin mətnini Elçin Bağırov sizə çatdıracaqdır.

Sonra qətnamənin mətni oxundu.

**Heydər Əliyev:** Düşünürəm ki, bunu tərcümə etməyə ehtiyac yoxdur. Çünki qətnaməni hamı birlikdə hazırlayıb və burada iştirak edən xarici neft şirkətlərinin nümayəndələri bunu bilirlər.

İndi isə "Azəri-Çıraq-Günəşli" neft yataqlarından neftin hasil olunması proqramı, müqavilənin nəzərdə tutduğu tədbirlərin birinci fazasının həyata keçirilməsi ilə əlaqədar hazırlanmış sazişə imza atılmasını təklif edirəm.

Beynəlxalq Əməliyyat Şirkəti tərəfindən sazişi cənab Vudvord imzalayacaqdır, Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən isə şirkətin prezidenti Natiq Əliyev imzalayacaqdır. Buyurun.

ABƏŞ-in prezidenti Devid Vudvord və ARDNŞ-nin prezidenti Natiq Əliyev sazişi imzaladılar.

**Heydər Əliyev:** İndi isə sözü cənab Vudvorda verirəm.

**ABƏŞ-in prezidenti Devid Vudvordun çıxışı**

- Cənab Prezident, Zati-aliləri!
Hörmətli qonaqlar!

Təxminən 7 il əvvəl "Əsrin müqaviləsi"ni imzalamaqla bir qrup xarici neft şirkəti, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Azərbaycan hökuməti birlikdə Azərbaycanın yeni neft erasının toxumlarını səpmişlər. Bu gün mənim üçün böyük şərəfdir ki, ABƏŞ-in tərəfdaşları adından burada dayanaraq, ilkin neft layihəsi timsalında olan həmin toxumları bol məhsula çevirəcək bu mühüm hadisəni elan edim. Bu bol məhsul Azərbaycanı müasir dünyaya doğru aparacaqdır.

"Azəri", "Çıraq", "Günəşli" yataqlarının tammiqyaslı işlənilməsinin birinci fazasının tikinti mərhələsi sərmayə, yaradılacaq iş yerləri, istifadə olunacaq yerli obyektlər, əldə olunacaq neft gəlirləri və ümidvarıq ki, ölkənin iqtisadiyyatına, onun bütün insanların həyatına edəcəyi müsbət təsir baxımından dünya səviyyəli nəhəng bir layihədir.

Layihənin bu mərhələsinin uğurlu qərarının verilməsinə bizi gətirib çıxarmış bir sıra əsas amillər vardır. Bunlar "Azəri", "Çıraq" və "Günəşli"nin gələcək fazalarının irəliləyişinə təsir göstərməkdə davam edəcəkdir. Həmin fazalar birlikdə onilliyin sonunadək yalnız bu yataqlardan Azərbaycana gündəlik 1 milyon barreldən artıq neft və ümumilikdə ildə 9 milyard dollarlıq gəlir gətirəcəkdir.

Cənab Prezident, xarici sərmayə üçün ən vacib şərtlərdən biri Sizin 8 illik rəhbərliyiniz dövründə Azərbaycana gətirmiş olduğunuz sülh və sabitlikdir. Bu, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətindəki xarici neft şirkətlərinə - "bp" "Yunokal", "LUKoyl", "Statoyl", "EkssonMobil", TPAO, "Devon", "İtoçu" və "DeltaHess"ə ilkin neft layihəsinə 2 milyard dollar xərcləmək və indi də "Azəri", "Çıraq", "Günəşli"nin tammiqyaslı işlənilməsinin birinci fazası üçün üstəlik 3,4 milyard dollar sərmayə vəd vermək üçün inam yaratmışdır.

Davamlı iqtisadi və ictimai sabitlik, xarici neft şirkətlərinin ARDNŞ və Azərbaycan hökuməti ilə beynəlxalq neft sənayesi standartlarına uyğun tərəfdaşhqla işləmək qabiliyyəti ölkəyə sərmayə gətirməkdə davam edəcəkdir. Azərbaycan üçün bunun faydası hədsizdir. "Azəri", "Çıraq", "Günəşli"nin işlənilməsinin 2-ci və 3-cü fazası layihə iştirakçılarından əlavə olaraq 7 milyard dollar sərmayə tələb edəcəkdir. 2005-ci ilin əvvəlində, yəni 1-ci fazadan əldə ediləcək ilk neftlə eyni vaxtda tamamlanması gözlənilən Bakı-Tbilisi-Ceyhan neft boru kəməri də layihə iştirakçılarından əlavə 2,9 milyard dollar sərmayə tələb edəcəkdir.

Bizim bu günədək olan uğurumuza görə ABƏŞ-in tərəfdaşları olan ARDNŞ və Azərbaycan hökuməti arasındakı əməkdaşlığa çox borcluyuq. Lakin biz qarşıda duran çətinlikləri də lazımınca qiymətləndirməliyik. Gündəlik hasilatı 120 min barrel olan ilkin neft layihəsi Azərbaycanın yeni neft erasından soraq verdiyi halda, bu gün bizim sanksiya qərarı verdiyimiz layihə çox-çox miqyaslı bir iş layihəsidir. Azərbaycanın öz zəngin neft potensialının bəhrəsini görməsi üçün vacibdir ki, xarici neft şirkətləri, ARDNŞ və Azərbaycan hökuməti layihənin rəvan irəliləməsinə nail olmaq, maneələri aradan qaldırmaq, cədvəl və büdcələrə əməl olunmasını təmin etməkdən ötrü birlikdə, əsl əməkdaşlıq ruhunda işləsinlər.

ABƏŞ-in səhmdarları öz tərəfindən onlara məxsus müasir idarəetmə təcrübələri ilə, texnologiyaları ilə, əməyin təhlükəsizliyi və ətraf mühitin qorunması sahəsində yüksək standartları ilə, özlərinin maliyyə təmin etmək və Azərbaycana indi qoyulmaqda olan çoxmilyardlı dollarlıq sərmayələri idarə etmək qabiliyyətləri ilə töhfə verməkdə davam edəcəklər.

İndi isə icazə verin, yenidən layihəyə qayıdım. "Faza-1" "Azəri", "Çıraq", "Günəşli" müqavilə sahəsinin mərkəzi hissəsinə yönəldilmişdir və 48 quyuağzına malik hasilat, qazma və yaşayış platformasının tikintisini, quraşdırılmasını, ona birləşdiriləcək qaz-kompressor və suvurma platformasının tikintisini, quraşdırılmasını, Səngəçal terminalının genişləndirilməsini, dənizdəki platformadan Səngəçaladək neft boru kəmərini əhatə edir. Orta gündəlik hasilat təxminən 375 min barrel olacaqdır.

Əməyin təhlükəsizliyi ən yüksək önəm verilən sahə olacaqdır və tikinti podratçıları bu sahədə yüksək iş təcrübəsinə nail olmaq əsasında seçilirlər. 3000-dən artıq iş yerləri açılacaq, "Şelflayihətikinti"dən və Azərbaycanın digər borudüzmə, kran-barj, daşıma və dəniz obyektlərindən geniş istifadə olunacaqdır. Layihənin Azərbaycan iqtisadiyyatının neft və qeyri-neft sektorlarına müsbət təsirini gücləndirmək məqsədi ilə, əsas podratçılar fəal şəkildə yerli subpodratçılardan istifadə etməyə ruhlandırılırlar.

Dünyanın öz enerji ehtiyaclarına görə arxalanmaqda davam etdiyi bir sənayeni 150 il bundan öncə yaratmış bir ölkə kimi Azərbaycan heç də təsadüfi deyildir ki, yenidən beynəlxalq enerji miqyasında həlledici rol oynamaq ərəfəsindədir. "Azəri", "Çıraq", "Günəşli" layihəsinin zaman keçdikcə gətirəcəyi sanballı gəlirlər Azərbaycana öz iqtisadiyyatını gücləndirmək və 10 il əvvəl qazandığı istiqlaliyyətini yenidən təsdiq etmək üçün nadir bir imkan yaradır. ABƏŞ bu gün üzərinə götürdüyü öhdəliyi böyük fəxrlə Azərbaycanın gələcək firavanlığı və onun bütün insanlarının sosial və iqtisadi rifahı ilə bağlayır. Çox sağ olun.

ABƏŞ-in prezidenti Devid Vudvord xatirə olaraq "Faza-1" platformasının maketini təqdim edərək dedi:

- Cənab Prezident, bizim üçün böyük şərəf olardı ki, Siz bizim kiçik bir hədiyyəmizi qəbul edəsiniz.

Dövlət başçısı xatirə hədiyyəsinə görə cənab Vudvorda təşəkkürünü bildirdi.

Prezident Heydər Əliyev mərasimdə yekun nitqi söylədi.

**Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi**

- Hörmətli xanımlar və cənablar!

Güman edirəm ki, hörmətli cənab Vudvordun nitqi bizim bu gün başlayacağımız işlər haqqında, onların gələcəyi haqqında və Azərbaycan xalqına, Azərbaycan Respublikasına gətirəcəyi yeni nailiyyətlər haqqında çox ətraflı məlumat verdi.

Cənab Vudvord, mən Sizə, Beynəlxalq Əməliyyat Şirkətində birləşmiş bütün xarici şirkətlərin nümayəndələrinə, bu şirkətlərdə çalışan xarici ölkələrdən gəlmiş mütəxəssislərə və onlarla bərabər Azərbaycan

Dövlət Neft Şirkətinin əməkdaşlarına, Azərbaycan neftçilərinə indiyə qədər birlikdə gördükləri işə görə səmimi qəlbdən təşəkkür edirəm.

"Əsrin müqaviləsi"nin nə qədər ağır və çətin şərtlər içərisində meydana çıxması haqqında biz çox danışmışıq. Həm Azərbaycan ictimaiyyətinə, həm də beynəlxalq aləmə həmin proses yaxşı tanışdır. Ancaq bu müqavilənin həyata keçirilməsi heç də asan olmayıbdır. Biz bir çox mərhələlərdən keçmişik. Bir çox ağır və çətin problemlərin həll edilməsinə nail olmuşuq. Beləliklə də, "Əsrin müqaviləsi" imzalanandan sonra hamımız birgə, ardıcıl çalışaraq hər kəsə məlum olan naliyyətlər əldə etmişik.

İndiyə qədər görülən işlər, "Çıraq" yatağından hasil edilən neft və onun ixrac edilməsi həm neft şirkətlərinə, həm də Azərbaycan Dövlət Neft Şirkətinə, deməli, Azərbaycan dövlətinə artıq mənfəət gətirir. Məhz bunların nəticəsidir ki, Azərbaycanda indi Dövlət Neft Fondu yaranıb və bu fondda 430 milyon dollardan çox vəsait vardır.

Bu müqavilədə iştirak edən hər bir şirkət də onun payına düşən mənfəəti götürübdür. Beləliklə də, biz görülən işlərin əməli nəticəsini, yəni bu işlərin gətirdiyi mənfəəti görürük və bundan da istifadə edə bilərik.

O layihənin birinci fazasının başlanması üçün mütləq əsas ixrac neft kəməri - Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsi haqqında saziş əldə olunmalı idi. Mən bu gün qeyd etmək istəyirəm ki, bu yol da bizim üçün asan olmamışdır. Biz bir neçə obyektiv və subyektiv maneələrlə rastlaşdıq. Bu gün açıq etiraf etmək lazımdır ki, Beynəlxalq Əməliyyat Şirkətinə daxil olan bəzi şirkətlər hələ ki, "Çıraq" yatağından alınan neft və onun gələcəyi haqqında müəyyən fikirləri olduğuna görə, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin məhz indi inşasına başlanılması məsələsində tərəddüd edirdilər.

Onun qiyməti, yəni kəmərin tikilməsi üçün qoyulacaq investisiya haqqında da müxtəlif fikirlər vardı. Bu da məsələnin vaxtında həll edilməsinə mane oldu. Ancaq bunların da hamısını biz birgə işimiz, əməkdaşlığımız nəticəsində aradan qaldırdıq. Bu gün birinci fazanın başlanması haqqında saziş imzalandı. Mən cəsarətlə deyə bilərəm ki, bu gün imzalanan saziş "Əsrin müqaviləsi"nin yerinə yetirilməsində həlledici xarakter daşıyır.

Bu sazişin imzalanması münasibətilə mən Beynəlxalq Əməliyyat Şirkətini, Azərbaycanın bütün neftçilərini, bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm və tam ümidvar olduğumu bildirmək istəyirəm ki, bu saziş əsasında müəyyən edilmiş proqram vaxtında yerinə yetiriləcəkdir və biz bunların əməli nəticələrinin şahidi olacağıq.

"Əsrin müqaviləsi"nin imzalanması, onun həyata keçirilməsi və ondan sonra həm Azərbaycanın Xəzər dənizindəki sektorunda, həm də quru hissəsində bir çox şirkətlərlə əməkdaşlığa başlamağımız – onların hamısı Azərbaycanın dövlət neft strategiyasının tərkib hissəsidir. Ancaq bu gün cənab Vudvord burada gözəl bir ifadə işlətdi. Hesab edirəm, o, tamamilə haqlıdır: "Azərbaycanın neft sahəsində, neft strategiyasında yeni era başlayıbdır". Bəli, bundan sonra biz bunu da özümüz üçün vacib bir ifadə kimi işlətməliyik: Azərbaycanın yeni dövlət neft strategiyası və Azərbaycan neft sənayesinin yeni erası!

İndiyə qədər görülən işlər artıq yaxşı nəticələr veribdir. Xüsusilə bizim ölkəmiz, xalqımız üçün, Azərbaycanın iqtisadiyyatının inkişaf etdirilməsi, ölkəmizdə yeni iş yerlərinin açılması, bu layihənin yerinə yetirilməsində Azərbaycanın müxtəlif şirkətlərindən, təşkilatlarından istifadə edilməsi üçün və nəhayət, Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması üçün çox işlər görülüb və yaxşı nəticələr əldə olunubdur.

Ancaq bunlar işin başlanğıcıdır. Bu gün cənab Vudvord qeyd etdi ki, birinci fazanın həyata keçirilməsi ilə əlaqədar əlavə 3 min iş yeri açılacaqdır. Bu iş yerlərinin hamısı Azərbaycanın vətəndaşları üçün olacaqdır. Azərbaycanın neft avadanlığı istehsal edən bir çox müəssisələrinin, Xəzər dənizindəki donanmamızın gəmilərinin, Azərbaycan Dövlət Neft Şirkətinin çox böyük gəmilərinin potensialından – bütün bunların hamısından istifadə olunacaqdır. Beləliklə, onlar birincisi, iş görəcək, fəaliyyətdə olacaqlar, qazanc götürəcəklər, ikincisi, bunların hamısı Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsi üçün və xalqımızın rifah halının yüksəlməsi üçün çox böyük xeyir gətirəcəkdir.

Hesab edirəm ki, bütün bu işlərin həyata keçirilməsində Azərbaycan sənayesinin potensialından maksimum istifadə etmək lazımdır. Mən Beynəlxalq Əməliyyat Şirkətinə üzümü tutaraq deyirəm: Azərbaycanda nə çatmırsa, onları siz xarici ölkələrdən gətirəcəksiniz. Amma mən sizdən rica edirəm və buna da nəzarət edəcəyəm ki, siz gərək Azərbaycanda olan bütün potensialdan maksimum istifadə edəsiniz. Bu potensial da böyükdür. Əgər onlar olmasaydı, "Dədə Qorqud", "İstiqlal", "Qurtuluş" qazma qurğuları yaranmazdı.

Mən layihə ilə tanışam. Bilirəm ki, siz vaxtilə, 1970-ci illərdə bizim burada tikdiyimiz Dərin dəniz özülləri zavodundan da çox səmərəli istifadə edəcəksiniz. Hətta platformanın böyük hissəsini quracaqsınız və ondan sonra gətirərək, sürüşdürmə üsulu ilə həmin platformanın üzərinə qoyacaqsınız. Mən eşitdim ki, bu sahədə





indiyə qədər belə iş görülməyibdir. Bunu siz görəcəksiniz. Deməli, bizim o nəhəng zavodumuz da işləyəcək və təbiidir ki, onun işçiləri məşğul olacaqlar, xeyir götürəcəklər. Siz də daha başqa yerdən - uzaqdan buraya nəsə gətirməyəcəksiniz. Azərbaycanda nə varsa, hamısından istifadə etməlisiniz.

Cənab Vudvord bunu bəyan etdi: nə qədər vəsait, sərmayə qoyulacaqdır və milyardlarla gəlir götürüləcəkdir. Milyardlar dedikdə, mən manatı nəzərdə tutmuram, Amerika Birləşmiş Ştatları dollarını nəzərdə tuturam.

Ona görə də mən bu gün çox böyük sevinc hissi keçirirəm. Çünki bizim hələ 1993-cü, 1994-cü ildə başladığımız iş öz nəticələrini verir və qarşıdakı üfüqlər də, perspektiv də çox gözəl görünür. Hesab edirəm ki, xalqımız, Azərbaycan ictimaiyyəti televiziya və mətbuat vasitəsilə bugünkü mərasimlə tanış olarkən hər kəs böyük iftixar hissi keçirəcəkdir ki, Azərbaycan öz iqtisadiyyatını bu vasitələrlə əzmlə inkişaf etdirir və hər kəs Azərbaycan xalqının rifah halının gündən-günə yaxşılaşmasına artıq tam inanacaqdır.

Mən indiyə qədər olduğu kimi, bundan sonra da bu layihənin həyata keçirilməsini nəzarətimdə saxlayacağam və sizə hər cür yardım göstərməyə hazıram.

Cənab Vudvord, Siz buyurdunuz ki, Azərbaycana xarici ölkələrin böyük neft şirkətlərinin gəlməsinin, Azərbaycana çoxlu investisiya qoyulmasının əsas şərti ölkəmizdə yaranmış ictimai-siyasi sabitlikdir. Bəli, mən böyük iftixar hissi ilə bəyan edirəm ki, bu, Azərbaycan xalqının, Azərbaycan hakimiyyətinin, demokratik, hüquqi, dünyəvi Azərbaycan dövlətinin əsas nailiyyətlərindən biridir. Siz də və Azərbaycana investisiya qoymaq fikrində olan dünyanın başqa şirkətləri də əmin ola bilərsiniz ki, yaranmış ictimai-siyasi sabitlik bundan sonra gündən-günə möhkəmlənəcək, onun pozulmasına biz heç vaxt yol verməyəcəyik və beləliklə də, Azərbaycan bundan sonra da dünyanın müxtəlif şirkətlərinin investisiyasının cəlb olunması üçün bütün şəraiti yaradacaqdır.

Mən bir daha sizi təbrik edirəm və bu işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan Prezidenti Heydər Əliyev xarici ölkələrin neft şirkətlərinin rəhbərləri ilə səmimi sağollaşdı.

BAKI, 18 SENTYABR 2002-Cİ İL



# "Azəri", "Çıraq" və "Günəşli yataqlarının tammiqyaslı işlənməsinin 2-ci mərhələsinin qətnaməsinin imzalanması

2002-ci il sentyabrın 18-də Bakı yaxınlığındakı Səngəçal sahil terminalında Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması münasibətilə təntənəli mərasim keçirildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər, Gürcüstanın Prezidenti Eduard Şevardnadze mərasimdə iştirak edirdilər.

Amerika Birləşmiş Ştatlarınm energetika naziri Spenser Abraham, eləcə də bir çox xarici ölkələrdən gəlmiş qonaqlar da mərasimdə iştirak edirdilər.

Prezidentlər və ABŞ-ın energetika naziri mərasimdən əvvəl avtobusa əyləşərək, Səngəçal terminalının ərazisi ilə tanış oldular.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Amerika Birləşmiş Ştatlarının energetika naziri Spenser Abraham, Fransa səfiri xanım Şantal Puare, İngiltərə nümayəndə heyətinin rəhbəri cənab Piter Tibber, Norveçin Bakıdakı səfiri Steynar Gil, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Devid Vudvord, ARDNŞ-nin prezidenti Natiq Əliyev mərasimdə çıxış etdilər.

Mərasimdə ABŞ Prezidenti Corc Buşun, Fransa Prezidenti Jak Şirakın, Böyük Britaniyanın Baş naziri Toni Bleyerin, Norveçin Baş naziri Kyel Maqne Bundevikin təbrik məktubları oxundu.

Daha sonra Azərbaycan Prezidenti **Heydər Əliyev** mərasimə toplaşanlara müraciətlə dedi:

- Hörmətli xanımlar və cənablar!

Burada edilən bütün nitqlərdə bildirildi ki, Bakı-Tbilisi-Ceyhan əsas ixarc neft kəmərinin gücünün təmin edilməsi üçün biz "Azəri", "Çıraq", "Günəşli" yataqlarında işləri genişləndirməliyik. Biz "Faza-1"-in sanksiyasını bir il öncə vermişik, indi isə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin Azərbaycan Dövlət Neft Şirkəti ilə birlikdə "Faza-2"-yə başlaması haqqında qərar qəbul etməliyik. Hesab edirəm ki, bu qərarı biz qəbul edirik və hörmətli Prezident Sezər də, hörmətli Prezident Şevardnadze də və hörmətli nazir də buna etiraz etmirlər. İzin verin, cənab Vudvord və Natiq Əliyev sənədləri imzalasınlar.

ABƏŞ-in prezidenti Devid Vudvord və ARDNŞ-nin prezidenti Natiq Əliyev "Azəri", "Çıraq", "Günəşli" yataqlarının tammiqyaslı işlənməsinin "Faza-2" mərhələsinə sanksiya verilməsinə dair sənədləri imzaladılar.



BAKI, 7 AVQUST 2003-CÜ İL





## Heydər Əliyev adına yarımdalma üzən qazma qurğusunun təqdimatı

2003-cü il avqustun 7-də bundan bir ay əvvəl istifadəyə verilmiş Heydər Əliyev adına yarımdalma üzən qazma qurğusunun təqdimat mərasimi keçirildi.

Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev mərasimdə iştirak edirdi.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev və "Keppel Fels" korporasiyasının prezidenti Lim Çi On Baş nazir İlham Əliyevi səmimiyyətlə qarşıladılar . Baş nazirə məlumat verildi ki, ARDNŞ-nin, "LUKoyl" və "Keppel Fels" şirkətlərinin yaratdıqları "Kaspian Şipyard Kompani" müştərək müəssisəsinin gərgin əməyi nəticəsində inşa edilən, ümumi dəyəri 250 milyon dollar olan, müasir avadanlıqla təchiz olunmuş bu möhtəşəm qurğu ilə dənizin 75 metrdən 1025 metrədək dərinliyində 9144 metrədək kəşfiyyat quyuları qazmaq mümkündür.

Baş nazir ölkə iqtisadiyyatında, Prezident Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində çox böyük əhəmiyyəti olacaq, Azərbaycan sektorunun və bütövlükdə Xəzərin dərin yerlərində neft və qaz yataqlarının kəşfi üçün nəzərdə tutulan nəhəng və dünyada təkrarı olmayan qazma qurğusunun bütün parametrləri və imkanları ilə yaxından tanış oldu.

Qurğunun inşası 2001-ci ilin avqustunda başlanmış və nəzərdə tutulduğundan 2 ay qabaq qurtarmışdır. Onun inşasında iştirak edən mütəxəssislərin 80 faizi azərbaycanlılar olmuşdur. Xəzər dənizində suyun dərin hissələrində yerləşən "Alov", "Şərq", "Zəfər", "Məşəl", "Savalan" və sair kəşfiyyat blokları üzrə qazma işlərini sürətləndirmək üçün tikilən qazma qurğusu "Eksson-Mobil", "ŞevronTeksako", "KonokoFilips" və "Total" şirkətlərinin birgə səyləri ilə yaradılmışdır. O, üç illik qazma proqramının yerinə yetirilməsindən ötrü nəzərdə tutulmuşdur və Xəzər dənizində işləyəcək çoxsaylı qurğulardan birincisi olacaqdır.

Mərasimin sonunda Baş nazir İlham Əliyev qurğu ilə tanışlıqdan aldığı xoş təəssüratlar barədə jurnalistlərə dedi:

- Çox gözəl təəssürat bağışlayır. Nəhəng bir qurğudur. Xəzər dənizində analoqu olmayan yarımdalma qazma qurğusudur. Əlbəttə, bu qurğu Azərbaycan xalqına uzun illər xidmət edəcəkdir. Suyun böyük dərinliyində qazma işlərini aparacaq və əminəm ki, Azərbaycan üçün yeni neft yataqlarını kəşf edəcəkdir.


CSC





BAKI, 24 NOYABR 2003-CÜ İL



# Heydər Əliyev adına Bakı dərin dəniz özülləri zavodunda yeni platformaların təqdimatı

2003-cü il noyabrın 24-də Bakı dərin dəniz özülləri zavodunda inşa edilən yeni nəhəng platformaların təqdimatı keçirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edirdi.

Prezident İlham Əliyevi tədbirə toplaşanlar səmimiyyətlə qarşıladılar.

Prezident İlham Əliyev platformaların üst bloklarının (modulların) tikinti sahəsinə tamaşa etdi.

ABƏŞ-in prezidenti Devid Vudvord, "bp" şirkətinin əməkdaşları Arçi Kormək və Riçard Makkey görülən işlər, "Faza-1" layihəsinin vəziyyəti və cari işlər haqqında xəritələr vasitəsilə Azərbaycan Prezidentinə ətraflı məlumat verdilər. Bildirildi ki, bir neçə gündən sonra dənizə yollanacaq dayaq bloku nəhəng qurğudur. Digər tərəfdə isə üst bloklar tikilir. Birinci dayaq bloku "Mərkəzi Azəri" yatağında quraşdırılacaqdır. Bu layihə ilə əlaqədar olaraq, orada həm də kompressor və suvurma işlərini görən ikinci blok inşa olunacaqdır. Onların hər ikisi nəhəng obyektlərdir. Bundan başqa, "Faza-1" layihəsində həm sualtı neft-qaz boru kəmərlərinin çəkilməsi, həm də Səngəçal terminalının genişləndirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev bildirdi ki, ümumiyyətlə, "Faza-1" layihəsinin dəyəri 3 milyard dollara yaxındır. Üst modullar, dayaq blokları, kompressorlar və sairlə birlikdə platformanın dəyəri təqribən 500 milyon dollardır. Belə platformalar ilk dəfədir Azərbaycanda tikilir. Ən əsası da odur ki, üst modullar birinci dəfədir Bakıda inşa olunur, bütün işlər yeni texnologiyalar əsasında görülür.

Natiq Əliyev dedi ki, bu gün Dərin dəniz özülləri zavodunun 25 ili tamam olur. Zavod 25 il bundan əvvəl hörmətli Heydər Əliyev tərəfindən yaradılmışdır və indiyədək fəaliyyət göstərir. Demək olar ki, dənizdəki yataqların hamısı bu zavodun buraxdığı avadanlıq sayəsində açılmış, istismar olunmuşdur. Əgər indi bu zavod olmasaydı, bugünkü layihələrimiz, yeni "Azəri" yatağında işlər üç-dörd il gecikəcək və 700 milyon dollar əlavə pul xərclənəcəkdi.

**İlham Əliyev:** Xərclənəcəkdi, xərclənməyəcəkdi, hələ o da sual altında idi.

**Natiq Əliyev:** Bəli, tamamilə doğrudur. Burada işlərin görülməsində 3 mindən çox azərbaycanlı çalışır. Onlar peşəkarlıqla işləyirlər, yeni texnologiyalara yiyə-







lənmişlər. Bu, böyük hadisədir. Hesab edirik, işlər hələ davam edəcəkdir. Bu platformadan sonra başqa bir platforma tikiləcəkdir. "Qərbi Azəri" və "Şərqi Azəri" yataqları üçün platforma inşa olunacaqdır. İndi bizim Zığda olan sahələrimizdə də iş gedir. "Şahdəniz" yatağının istismarı üçün platformanın orada quraşdırılması nəzərdə tutulubdur. Cənab Prezident, bu zavod 10 il bundan öncə acınacaqlı vəziyyətdə idi.

**İlham Əliyev:** Bəli, mən gəlmişdim. On il olmaz, amma altı-yeddi il bundan əvvəl gəlmişdim.

**Natiq Əliyev:** On il öncə tamamilə işləmirdi. İndi isə görürsünüz, sexləri gəzəndə də görəcəksiniz ki, burada işlər nə qədər sürətlə gedir və keyfiyyətlə aparılır.

Sonra Prezident İlham Əliyev dayaq blokunun tikildiyi meydançanı, müxtəlif sexləri gəzdi, üst modulların quraşdırılmasında işlərin gedişi ilə yaxından tanış oldu.

ARDNŞ-nin prezidenti Natiq Əliyev "Qərbi Azəri" və "Şərqi Azəri" yataqları üçün tikilən platforma haqqında məlumat verərək bildirdi ki, burada da ən müasir texnologiyalar tətbiq olunur. Bu, "Çıraq" yatağındakı platformadan da böyükdür. Ona görə ki, oradan 48 quyu, bunun vasitəsilə isə 100-dən çox quyu qazılacaqdır. Yaşayış bloku 300 nəfər üçün nəzərdə tutulub və orada hər cür şərait yaradılacaqdır. Ancaq qazma zamanı orada 200 işçi yaşayacaq və bütün təhlükəsizlik qaydaları nəzərə alınmışdır.

Prezident İlham Əliyev bəzi tövsiyələrini verdi, görülən işlərin çox sevindirici və ölkəmiz üçün faydalı olduğunu bir daha diqqətə çatdırdı.

Sonra Azərbaycan Prezidenti **İlham Əliyev** zavodun işçiləri ilə səmimi görüşüb söhbət etdi:

-Mən sizi təbrik edirəm, bu gün zavodun 25 ili tamam olur. Bilməlisiniz ki, əgər Prezident Heydər Əliyev o vaxt "Əsrin müqaviləsi"ni imzalamasaydı, bunların heç biri olmayacaqdı. Azərbaycanda görün, neftdən nə qədər gəlir gəlir. Bu gəlir də pensiyaların, maaşların artırılmasına, sosial məsələlərin həllinə xərclənir. Eyni zamanda, yeni iş yerləri açılır.

Burada 3500 adam işləyir. Əgər 1994-cü ildə həmin müqavilə imzalanmasaydı, bu qədər adam harada işləyəcəkdi?! Özü də burada yüksək əmək haqqı verilir. Bilmirəm, düzdür, ya yox, mənə deyiblər ki, orta əmək haqqı 500 dollardır. Daha böyük işlər olacaq, yeni platformalar tikiləcəkdir. Hələ bundan sonra iki platforma tikiləcəkdir. Xəzərin digər sahillərində də işlər gedir. Yəni bu artıq beynəlxalq bir müəssisədir, zavoddur. Əgər belə demək mümkündürsə, keyfiyyətli məhsul buraxan bir müəssisədir.







Mən sizə minnətdaram ki, Azərbaycanın adını yüksək tutursunuz. Mənə deyirlər ki, burada işləyən fəhlələr, mütəxəssislər çox yüksək peşəkarlığa malikdir. Bu da məni çox sevindirir. Azərbaycan qədim neft ölkəsidir. Xarici şirkətlər burada uğurla işləyirlər. Onlar çox ölkələrdə işləyirlər. Amma bəzi ölkələrdə elə vəziyyətlə üzləşirlər ki, gərək bütün mütəxəssisləri, fəhlələri özləri ilə gətirsinlər. Azərbaycanda belə deyildir. Azərbaycanda o qədər güclü kadr potensialı yaranmışdır ki, bu, bizə yerli kadrlardan istifadə etməyə imkan verir. Bu, məni çox sevindirir. Sizə uğurlar arzulayır, yeni-yeni qələbələr diləyirəm.



Fəhlələr Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər, məsuliyyətli işində ona uğurlar və cansağlığı arzuladılar.

Yeni platformalarla tamşlıq başa çatdıqdan sonra Azərbaycan Prezidenti **İlham Əliyev** zavodda görülən işlərlə əlaqədar təəssüratları barədə jurnalistlərə dedi:

- Bu zavod elə-belə zavod deyil, onun yaradılması da tarixi hadisədir. Burada deyildi, əgər 25 il bundan əvvəl bu zavod Azərbaycanda tikilməsəydi, bəlkə də bu layihələr belə uğurla həyata keçirilməzdi. İlk növbədə, burada görülən bütün işlərin sürəti azaldılacaqdı, yeddi il yubanma ola bilərdi. Ümumi xərclər 700 milyon dollar arta bilərdi. Əlbəttə, zavodun Azərbaycanda tikilməsi məhz o vaxt Heydər Əliyevin fəaliyyəti nəticəsində olubdur. O vaxt mərkəzi hökumət bu zavodu Həştərxan şəhərində tikmək qərarına gəlmişdi. Amma Heydər Əliyevin müdaxiləsindən sonra zavod Azərbaycanda tikildi. Bu gün burada 3500 azərbaycanlı işləyir, yüksək maaş alır. Orta əmək haqqı 500 dollardır. Əlbəttə, bu zavod hələ uzun-uzun illər işləyəcək, Azərbaycan üçün, bölgə üçün, region üçün çox mühüm işlər görəcəkdir.

Neft sektoru uğurla inkişaf edir. Neft sektorunda əldə olunan nəticələr ancaq cənab Prezident Heydər Əliyevin adı ilə bağlıdır. Əgər o, gərgin vaxtlarda təşəbbüs, qətiyyət göstərməsəydi, bu layihələr elə layihə olaraq qalacaqdı.

Mən bu zavodda dəfələrlə olmuşam, vəziyyətlə tanışam. Bu gün bütün bu gözəl işləri görəndə çox sevinirəm. Bu yaxınlarda modullar platforma şəklində dənizə aparılacaq və tezliklə "Azəri" yatağından ilkin neft çıxarılacaqdır. Bütün Azərbaycanın gələcək iqtisadi inkişafı bu layihələrlə bağlıdır. Bu layihələr olmasa, Azərbaycan çox çətin iqtisadi vəziyyətdə qala bilər. Layihələrdən əldə olunacaq gəlirlər ölkəmiz üçün səmərəli işləməlidir. Əminəm ki, Azərbaycan xalqı yaxın gələcəkdə bunun bəhrəsini görəcəkdir.





BAKI, 20 SENTYABR 2004-CÜ İL




# "Azəri", "Çıraq" və "Günəşli yataqlarının tammiqyaslı işlənməsinin 3-cü mərhələsinin qətnaməsinin imzalanması

2004-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 10-cu ildönümü münasibətilə Heydər Əliyev adına sarayda təntənəli mərasim keçirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edirdi.

Dövlət başçısı əvvəlcə sarayın foyesində "Əsrin müqaviləsi"nin 10-cu ildönümünə həsr edilmiş sərgi ilə tanış oldu.

Sərgidə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin iştirakı ilə neft müqavilələrinin imzalanması, "Çıraq-1" platformasından ilkin neftin çıxarılmasının bayram edilməsi mərasimləri, ayrı-ayrı platformalarda qazma işlərinin aparılması, sualtı boru kəmərinin çəkilişi, Səngəçal terminalının tikintisi, ilkin neftin ixrac marşrutları haqqında çoxsaylı fotoşəkillər, müxtəlif çertyojlar nümayiş etdirilir, videofilmlər göstərilirdi.

Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin "Dədə Qorqud" platformasında olmasını, "Şahdəniz" layihəsi ilə bağlı görülən işləri, Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsinə dair mərasimi, müxtəlif qazma qurğularının istifadəyə verilməsini, Səngəçal terminalında keçirilən tədbirləri, 1999-cu ildə Bakı-Tbilisi-Ceyhan layihəsinə dair İstanbul bəyannaməsinin imzalanması mərasimini, Dövlət Neft Fondundan ayrılmış vəsait hesabına salınmış qəsəbələrin açılışında ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin iştirakını, Azərbaycan, Türkiyə, Gürcüstan və Ukrayna Prezidentlərinin iştirakı ilə keçirilən ayrı-ayrı tədbirləri əks etdirən fotoşəkillər diqqəti cəlb edirdi.

Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Devid Vudvord sərgi barədə dövlət başçısına ətraflı məlumat verdilər. Devid Vudvord dörd ildən sonra neft hasilatının həcminin 7-8 dəfə artacağı zaman quraşdırılacaq platformalar barədə danışdı və Prezident İlham Əliyevə "Azəri", "Çıraq", "Günəşli" yataqlarının həm dərin, həm də dayaz qatlarındakı neftin çıxarılması üçün gələcəkdə istifadə olunacaq platformaların maketini hədiyyə etdi.

Prezident İlham Əliyev sərgidə Azərbaycanın ən tanınmış rəssamlarının neft mövzusunda müxtəlif janrlarda çəkdikləri əsərlərə də baxdı.

Sonra təntənəli mərasim başlandı.

Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.

Azərbaycanın dövlət himni əzəmətlə səsləndi.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar, əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün çox gözəl bir gündür, bayram günüdür. "Əsrin müqaviləsi"nin 10-cu ildönümünü qeyd edirik. Mən bu bayram günündə Azərbaycana gəlmiş bizim hörmətli qonaqlarımızı xüsusi salamlamaq istəyir, onlara öz dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

10 il bundan əvvəl "Əsrin müqaviləsi"nin imzalanması ilə xalqımızın ümummilli lideri Heydər Əliyevin neft strategiyasının təməli qoyuldu. Ötən dövr ərzində Azərbaycan hərtərəfli inkişaf etdi. Ölkəmiz iqtisadi baxımdan çox böyük nailiyyətlər əldə etdi, siyasi cəhətdən dünya birliyində özünəlayiq yerini tuta bildi. Azərbaycanda çoxlu sosial məsələlər öz həllini tapdı. Bir sözlə, ölkəmiz ötən 10 il ərzində böyük və şərəfli bir yol keçdi.

Eyni zamanda, hamımız yaxşı xatırlayırıq ki, 1994-cü ildə "Əsrin müqaviləsi" imzalananda ölkəmizdə vəziyyət çox çətin idi. Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra gedən proseslər, təəssüflər olsun ki, ölkəmizi uçurum kənarına gətirmişdi. Sosial-iqtisadi, siyasi, hərbi böhran hökm sürürdü. Azərbaycan torpaqları Ermənistanın işğalçı qüvvələri tərəfindən zəbt olunurdu, ölkədə xaos, anarxiya, hərc-mərclik mövcud idi, vətəndaş müharibəsi başlanmışdı. İqtisadiyyat isə tamamilə dağılmışdı. O illərdə baş verən iqtisadi tənəzzül ölkəmizi çox çətin vəziyyətə salmışdı.

Belə bir çətin anda, çətin dövrdə xalqımızın müdrikliyi bir daha özünü göstərdi. Xalqın təkidi və tələbi ilə ümummilli liderimiz Heydər Əliyev Azərbaycana qayıtdı, xalq onu prezident seçdi və ondan sonra ölkəmizin inkişaf dövrü başlandı. Bütün xoşagəlməz meyillərə son qoyuldu, sabitlik, ictimai asayiş bərqərar olundu, qeyri-qanuni silahlı dəstələr tərksilah edildi. Bir sözlə, Azərbaycan inkişaf yoluna qədəm qoydu.

Əlbəttə, inkişafın çox mühüm amillərindən biri də neft amili idi. Bu amildən istifadə etmək lazım idi.

Mən o dövrü çox yaxşı xatırlayıram. Həmin illərdə Azərbaycana sərmayə qoymaq istəyən şirkətlərin sayı o qədər də çox deyildi. Çünki Azərbaycan dünyada riskli bir ölkə kimi tanınırdı və əlbəttə, buraya böyük həcmdə kapital qoyuluşunun cəlb edilməsi çoxlu səylər, siyasi məharət, uzaqgörənlik tələb edirdi. Bütün bu məsələlər öz həllini tapdı. "Əsrin müqaviləsi"nin imzalanması Heydər Əliyevin neft strategiyasının başlanması demək idi. Məhz onun uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, cəsarəti sayəsində bu

müqavilə imzalandı. Xatırlayırsınız ki, buna həm ölkə daxilində, həm də xaricdə çox ciddi müqavimət var idi. Amma bütün bu çətinliklərə baxmayaraq Azərbaycan öz istəyinə nail oldu. Neft müqaviləsi imzalandı və Azərbaycana böyük həcmdə xarici sərmayənin gətirilməsi təmin edildi. Ötən dövr ərzində ölkəmiz adambaşına düşən xarici sərmayənin həcminə görə təkcə keçmiş sovet respublikaları arasında deyil, Şərqi Avropa ölkələri arasında da qabaqcıl mövqelərə sahib oldu. Ölkəmizə gətirilən sərmayələr Azərbaycanın neft sektorunun inkişafında böyük rol oynamaqla yanaşı, qeyri-neft sektorunun inkişafına da güclü təkan verdi. Azərbaycan tarixdə ilk dəfə Xəzər dənizini xarici şirkətlər üçün açdı və beləliklə, Xəzər dənizində beynəlxalq konsorsium yarandı. Müxtəlif ölkələri təmsil edən aparıcı şirkətlər Azərbaycanla çox uğurlu əməkdaşlığa başladılar və bunun nəticəsində ölkəmiz sürətlə, hərtərəfli inkişaf etməyə başladı.

Azərbaycanın neft sektoru, təbii ki, ölkə iqtisadiyyatı üçün həlledici amildir. Əlbəttə, bizim bütün səylərimiz neft sektorunun daha sürətlə inkişafı üçün tədbirlər görülməsinə yönəldilmişdir. Bu istiqamətdə "Əsrin müqaviləsi"nin Azərbaycanın müasir tarixindəki rolu müstəsna əhəmiyyətə malikdir. Ölkəyə milyardlarla dollar sərmayə qoyuldu, infrastruktur yaradıldı. Azərbaycanda müasir qazma qurğuları yenidən tikilib istifadəyə verildi. Bu gün Azərbaycanın bütün dünya standartlarına cavab verən dörd müasir qazma qurğusu vardır - "Dədə Qorqud", "İstiqlal", "Qurtuluş" və "Heydər Əliyev" nəhəng qazma qurğusu. Ölkəmizdə on minlərlə yeni iş yerləri açıldı, büdcəyə vergilər şəklində böyük vəsait daxil oldu. Bir sözlə, bütün cəhətlərdən "Əsrin müqaviləsi"nin Azərbaycanın müasir tarixində rolu çox böyük olmuşdur.

Azərbaycan Heydər Əliyev tərəfindən əsası qoyulmuş neft strategiyasını müstəqil surətdə həyata keçirir. Ölkəmiz Xəzərin ona məxsus olan sektorunda müxtəlif şirkətlərlə çox uğurlu əməkdaşlıq edir. 25 neft şirkəti ilə 23 neft müqaviləsi imzalanmışdır. Bunların həyata keçirilməsi çərçivəsində ölkəmizə 50 milyard dollardan çox sərmayə qoyulacaqdır. İndiyədək 10 milyard dollardan çox sərmayə qoyulub və növbəti 3-4 ildə bir o qədər də qoyulacaqdır. Bu onu göstərir ki, Azərbaycan xarici sərmayəçilər üçün çox münasib bir məkandır. "Əsrin müqaviləsi"ndə Azərbaycanın iqtisadi maraqları tam şəkildə təmin edilmişdir. Bununla yanaşı, xarici sərmayəçilər üçün də çox məqbul şərait yaradılıbdır. Əgər belə olmasaydı, sərmayələrin bu həcmdə Azərbaycana gətirilməsi də mümkün olmazdı. Xarici tərəfdaşlarımız əmindirlər ki, Azərbaycana qoyulan hər bir manat, hər bir dollar lazımi səviyyədə qorunur, ölkəmizin qanunvericiliyi bunun üçün təminat verir. Bilirsiniz ki, imzalanmış hər bir müqavilə Milli Məclis tərəfindən təsdiq olunur. Azərbaycan etibarlı tərəfdaşdır. Bu, bizim üçün çox vacibdir. Çünki qeyd etdiyim kimi, 1994-cü ildə ölkəmiz həm siyasi-iqtisadi cəhətdən çətin vəziyyətdə idi, eyni zamanda, Azərbaycan haqqında beynəlxalq aləmdə kifayət qədər məlumat yox idi. Mövcud olan məlumat da Azərbaycandakı reallığı kifayət qədər əks etdirmirdi. Belə olan halda Azərbaycanın çox etibarlı, sabit, xarici sərmayələr üçün əlverişli bir ölkə kimi tanınması bizim üçün çox vacib idi və buna nail olduq. Bu, özünü təkcə neft sektoruna deyil, eyni zamanda, qeyri-neft sektoruna qoyulmuş sərmayələrdə də əks etdirir. Bu onu göstərir ki, dünyada, beynəlxalq aləmdə bizim reytinqimiz, imicimiz çox sürətlə artır və güclənir. Beləliklə, bu, bizə ölkəmizi hərtərəfli inkişaf etdirməyə imkan verəcəkdir.

Biz iqtisadiyyatımızı şaxələndirməliyik ki, o, təkcə neft amilinə söykənməsin. Bilirsiniz ki, bunun üçün çox geniş tədbirlər görülür və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoru uğurla inkişaf edir. Gələcəkdə bu, bizə imkan verəcəkdir ki, ölkəmizin hər bir bölgəsi, rayonu inkişaf etsin. Amma bütün bunların təməlində neft amili durur. Biz bunu unutmamalıyıq, bu, belədir və uzun illər belə də olacaqdır. Şadam ki, neftdən əldə olunan gəlirlər də çox səmərəli şəkildə qorunub saxlanılır və onlardan istifadə edilir. Bilirsiniz ki, Heydər Əliyevin neft strategiyasının tərkib hissəsi olan məsələlərdən biri də neftdən əldə olunan gəlirlərin Azərbaycan vətəndaşları arasında ədalətli şəkildə bölünməsi, ölkə iqtisadiyyatının sonrakı inkişafında rol oynaması və gələcək nəsillər üçün bir əmanət kimi saxlanılmasıdır. Bütün bu vəzifələr həyata keçirilir.

Azərbaycanda Heydər Əliyev tərəfindən yaradılmış Neft Fondu çox şəffaf və açıq şəkildə fəaliyyət göstərir. Fondda beynəlxalq audit keçirilir, onun gəlirləri və xərcləri barədə ictimaiyyətə mütəmadi olaraq məlumat verilir. Bu, çox vacib amildir. Azərbaycan neft ölkəsi kimi öz milli sərvətindən səmərəli istifadə etməlidir. Təsadüfi deyildir ki, Neft Fondundan ayrılan ilk ödəmələr ölkəmizdə ən çətin və ağır vəziyyətdə yaşayan qaçqın və köçkünlərimizin sosial problemlərinin həllinə yönəldilmişdir. Bu, Azərbaycan üçün prioritet məsələdir. Ermənistanın təcavüzündən sonra öz doğma torpaqlarından didərgin düşmüş qardaş və bacılarımız daim diqqət mərkəzində olmalıdır və diqqət mərkəzindədirlər. Bilirsiniz ki, bu, keçmişdə də belə olub, bu gün də belədir. Hazırda qaçqın və məcburi köçkünlər üçün yeni qəsəbələr, yeni şəhərciklər, xəstəxanalar, məktəblər və digər obyektlər məhz Neft Fondunun vəsaiti hesabına tikilir.

Eyni zamanda, Azərbaycanda son müddət ərzində digər sosial məsələlərin həllinə böyük diqqət göstərilir. Maaşlar və pensiyalar artırılır və bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Mən prezident seçkiləri ərəfəsində demişdim ki, Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdır və yaşayacaqlar. Bunu etmək üçün hər cür imkanımız vardır. Ən önəmlisi isə dövlətin düzgün siyasəti vardır. Bu siyasət Heydər Əliyev siyasətidir. Mən seçkilərdən əvvəl bəyan etmişdim və söz vermişdim ki, bu siyasətə sadiq qalacağam və onu öz fəaliyyətimdə həyata keçirəcəyəm. Bu gün sizə deyə bilərəm ki, Azərbaycanda Heydər Əliyev siyasəti yaşayır, güclənir və bundan sonra da əbədi olaraq yaşayacaqdır.





Onu da qeyd etməliyəm ki, bugünkü uğurlarımızda ötən əsrin 70-80-ci illərində yaradılmış infrastruktur da çox mühüm rol oynayır. Azərbaycanda neft infrastrukturu məhz o illərdə yaranmış və yeni müəssisələr istifadəyə verilmişdir. Bu gün Heydər Əliyevin adını daşıyan Dərin özüllər zavodu da məhz 1970-ci illərdə yaradılmışdır. Əgər bu gün o zavod olmasaydı, bizim həyata keçirdiyimiz bütün neft layihələri azı 5-7 il gecikəcəkdi. Bu, bir daha onu göstərir ki, xalqımızın ümummilli lideri 1970-ci illərdə rəhbərlikdə olan zaman bu məsələlərə böyük diqqət göstərirdi.

Hazırda Bakı-Tbilisi-Ceyhan boru xətti uğurla inşa edilir və yaxınlarda istismara veriləcəkdir. Digər neft kəmərləri - Bakı-Novorossiysk, Bakı-Supsa kəmərləri istismardadır. Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə verildikdən sonra ölkə iqtisadiyyatına daxil olacaq gəlirlər artacaqdır və bu, bizə qarşımızda duran bütün sosial və iqtisadi məsələləri uğurla həll etməyə imkan verəcəkdir.

Azərbaycanın Xəzər dənizi sektorunda yerləşən "Şahdəniz" qaz yatağı da bizim gələcək inkişafımız üçün çox önəmli rol oynayacaqdır. Bu istiqamətdə də böyük işlər görülür və əminəm ki, "Şahdəniz" yatağından çıxarılacaq qazın Türkiyəyə və Avropaya nəqli də uğurla təmin ediləcəkdir.

Bir sözlə, qarşıya qoyduğumuz bütün məsələlər öz həllini tapıbdır. 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanarkən bəziləri bunun uğuruna inanmırdı və hesab edirdilər ki, müqavilə elə kağız üzərində qalacaqdır. Çünki onun həyata keçirilməsi üçün təkcə iqtisadi deyil, eyni zamanda, siyasi və coğrafi-siyasi məsələlər öz həllini tapmalı idi. Heydər Əliyevin neft strategiyası və Heydər Əliyev diplomatiyası qarşımızda duran bütün məsələlərə nail olmaq üçün imkan yaratdı. Bu gün biz müqavilənin 10 illik yubileyini qeyd edərək deyə bilərik ki, artıq bütün məsələlər öz həllini tapmışdır. Əminəm ki, Azərbaycan bundan sonra da sürətlə inkişaf edəcək, yaxın zamanlarda qüdrətli dövlətə çevriləcəkdir.

Bilirsiniz ki, son müddət ərzində Azərbaycanda həyata keçirilən siyasi və iqtisadi islahatlar öz gözəl nəticələrini verməkdədir. Ölkə iqtisadiyyatı inkişaf edir. Seçkilərdən ötən dövr ərzində 70 minədək yeni iş yeri açılmışdır, regionların sosial problemləri öz həllini tapır. Bir sözlə, biz düzgün yoldayıq. Bu yolda hamımıza uğurlar, müvəffəqiyyətlər arzulayıram.

Əziz dostlar!

"Əsrin müqaviləsi"nin 10-cu ildönümü münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı və xoşbəxtlik arzulayıram.

Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev mərasimdə çıxış etdi.

## Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevin çıxışı

- Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev!

Əziz qonaqlar!

Hörmətli mərasim iştirakçıları!

Bütün dünyada "Neft səltənəti", "Odlar yurdu" kimi tanınan Azərbaycanda bu gün böyük bayramdır. Xalqımız Azərbaycan neftçilərinin şərəfli əməyini yüksək qiymətləndirərək, Neftçilər gününü və ölkəmiz üçün son dərəcədə əlamətdar bir hadisəni - "Əsrin müqaviləsi"nin imzalanmasının 10-cu ildönümünü böyük təntənə ilə qeyd edir.

Bu bayram və Bakı şəhərində baş verən tarixi əhəmiyyətli hadisələr münasibətilə, icazə verin, ilk növbədə, möhtərəm cənab Prezident, Sizi təbrik edim, təntənəli mərasimdə iştirak edən, xüsusilə xaricdən gələn çoxsaylı qonaqlarımızı salamlayım, neftçilərə və xalqımıza dərin minnətdarlığımı və təşəkkürümü bildirim. Hamınıza möhkəm cansağlığı, səadət və gələcək işlərdə uğurlar arzulayım.

Ötən 10 ildə xalqımızın ümummilli lideri, unudulmaz öndərimiz Heydər Əliyevin müdrik daxili və xarici siyasəti və ölkədə sabitliyin yaranması nəticəsində Azərbaycanın neft sənayesi sürətlə inkişaf etmiş, güclü istehsal və maddi-texniki bazaları yaradılmış, xarici əlaqələr və beynəlxalq əməkdaşlıq genişlənmişdir.

Azərbaycanın tarixində, xüsusilə müstəqillik dövründə, neft sənayesinin əhəmiyyətini nəzərə alaraq və həmişəki kimi neftçilərə bəslədiyi qayğısını və diqqətini yenidən xalqımıza nümayiş etdirərək, ümummilli liderimiz Heydər Əliyev 2001-ci il avqustun 16-da "Neftçilər günü" peşə bayramının təsis edilməsi haqqında" Fərman imzaladı və bununla hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Neftçilər gününün qeyd olunmasına qərar verdi. Biz neftçilər əməyimizin belə yüksək qiymətləndirilməsini heç vaxt unutmayacağıq və ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsini yad edərək, onun ruhu qarşısında baş əyirik. Söz veririk ki, onun müstəqillik uğrunda apardığı siyasəti davam etdirərək, xalqın rifahı naminə yaratdığı yeni neft strategiyasını tam şəkildə və bütövlükdə həyata keçirəcəyik, ölkəmizin neft və qaz sənayesinin inkişafı yolunda fədakarcasına çalışacaq və xalqımızın tarixinə yeni şanlı səhifələr yazacağıq.

1994-cü ilin 20 sentyabrı "Əsrin müqaviləsi"nin imzalanması günü, müstəqil Azərbaycanın tarixində yeni neft strategiyasının əsasını qoyan gün, neft sənayesində yeni eranın başlanması kimi daimi qalacaqdır. Bu müqavilənin imzalanması yalnız ümummilli lider, dünya miqyaslı dahi siyasətçi Heydər Əliyevin böyük və misilsiz rəhbərliyi, uzaqgörənliyi və təcrübəsi, fenomenal diplomatik bacarığı və siyasi qətiyyəti nəticəsində mümkün oldu. Bu faktla Azərbaycan ilk dəfə olaraq, öz neft sərvətlərinə tam sahib çıxdığını təsdiqlədi, Xəzər hövzəsində xarici neft şirkətlərinin birgə işləməsinə yol açdı. Bu əməkdaşlıq təkcə Azərbaycan üçün deyil, eyni zamanda, Xəzər regionu, Cənubi Qafqaz üçün, Qərbin və dünyanın bir sıra aparıcı dövlətlərinin enerji təhlükəsizliyinin təmin olunması üçün böyük əhəmiyyət kəsb edir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında gündən-günə gerçəkləşən "Əsrin müqaviləsi" Azərbaycanın iqtisadi tərəqqisinin aparıcı amili oldu. Ötən 10 ildə geniş əməkdaşlıq, xarici sərmayələrin axını və görülən nəhəng işlər nəticəsində Azərbaycana mütərəqqi texnologiyaların gətirilməsi, milli neft sənayesinin infrastrukturunun yenidən qurulması, nəqliyyat və xidmət sahələrinin inkişafı, yüksək peşəkar yerli kadrların hazırlanması və minlərlə yeni iş yerlərinin açılması təmin olunmuşdur.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin dövlətimizin müstəqilliyi və rifahı naminə apardığı siyasətin və yaratdığı neft strategiyasının həyata keçirilməsinin ən layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev əldə olunmuş nailiyyətləri yüksək qiymətləndirərək, "Əsrin müqaviləsi"nin onuncu ildönümünün keçirilməsi haqqında" 19 iyul 2004-cü il tarixli siyasi, iqtisadi və sosial baxımdan dərin məzmunlu Sərəncam imzaladı və əlamətdar hadisə ilə əlaqədar təntənəli mərasimin və bir sıra tədbirlərin yüksək səviyyədə keçirilməsini qərara aldı. Möhtərəm cənab Prezident, bu yüksək qiymətə görə Azərbaycan neftçiləri və minlərlə tərəfdaşımız adından Sizə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Möhtərəm cənab Prezident!

Hörmətli mərasim iştirakçıları!

Ötən illər ərzində neft sahəsinə 9 milyard ABŞ dolları məbləğində xarici sərmayə qoyulmuşdur. Bunun nəticəsində Azərbaycanda ümumi neft hasilatının vəziyyəti kökündən dəyişməyə başlamışdır. 1993-cü ildən 2003-cü ilə qədər olan dövrdə hasilat 10 milyon ton səviyyəsindən 15 milyon tonu keçmişdir.

"Azəri", "Çıraq", "Günəşli" yataqlarının ilkin neft layihəsi çərçivəsində mühüm işlər görülmüşdür. "Çıraq" yatağından bu günədək 255 milyon barrel, yəni 35 milyon tondan artıq neft və 7 milyard kubmetr səmt qazı hasil olunmuşdur. Bu, yataqdan neft hasilatının uğurlu icrasını əks etdirən çox mühüm nailiyyətdir. 2004-cü ilin avqust ayında "Çıraq" platformasından bir gündə 154 min barrel neft hasil etməklə yeni bir rekord qazanılmışdır, bu da yerinə yetirilmiş uğurlu qazma, suvurma işlərinin müsbət nəticəsidir. Bu gün "Çıraq" platformasında 250 nəfər adam işləyir ki, onların da 85 faizi Azərbaycan vətəndaşıdır.

Azərbaycan neftini dünya bazarlarına nəql etmək üçün Bakı-Novorossiysk şimal ixrac boru kəməri tezliklə bərpa





edilmiş və 1997-ci ildə istifadəyə verilmişdir. Ötən müddət ərzində həmin kəmər vasitəsilə təxminən 17 milyon ton Azərbaycan nefti Novorossiysk limanından dünya bazarına çıxarılmışdır. Kəmərin Azərbaycan ərazisindəki 231 kilometrlik hissəsi, habelə nasos, neftvurma və nəzarət-ölçü stansiyaları heç bir iş günü itirilmədən işləməkdədir.

Ümummilli liderimiz Heydər Əliyevin yaratdığı yeni neft strategiyasının inkişafında və Şərq-Qərb enerji dəhlizinin gerçəkləşməsində Bakı-Supsa neft kəmərinin inşası mühüm yer tutmuşdur. Ötən illər ərzində Bakı-Supsa kəməri vasitəsilə 31 milyon tondan artıq Azərbaycan nefti nəql edilmiş və dünya bazarına çatdırılmışdır. "Çıraq" yatağından hasil olunan Azərbaycan nefti indi artıq "Azəri Layt" adı altında Supsa limanından dünya bazarlarına ixrac olunur.

"Əsrin müqaviləsi" layihəsində kəşfiyyat işlərinin tam şəkildə yerinə yetirilməsi mühüm yer tutur. Bu işlərin sırasında "Dədə Qorqud" yarımdalma qazma qurğusunda bərpa işlərinin başa çatmasını, sonra tam modernləşmiş "İstiqlal" üzən yarımdalma qazma qurğusunun, yeni inşa olunan yarımdalma, özüqalxan "Qurtuluş" qazma qurğusunun və 2002-ci ildə Xəzərin istənilən dərinliyini fəth etməyə qadir olan və hazırda xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan ən müasir, ən əzəmətli qurğunun istismara verilməsini Azərbaycan neft sənayesinin böyük uğurlarından hesab etmək olar.

2001-ci il avqustun 30-da Prezident sarayında xalqımızın ümummilli lideri Heydər Əliyevin iştirakı ilə "Azəri", "Çıraq", "Günəşli" yataqlarının tammiqyaslı işlənilməsinin birinci mərhələsinin qətnaməsinin imzalanması mərasimi keçirildi. Hazırda "Mərkəzi Azəri" platformasının dayaq bloku, payalar və dayaq tavası dənizdə quraşdırılıb, üst modullarının hazırlanması tamamlanıb və sınaqdan sonra, bu ilin oktyabr ayında onun dənizə yola salınması gözlənilir. Kompressor və suvurma platformasının dayaq bloku "Azəri" yatağındakı daimi yerində quraşdırılmaq üçün bu il iyulun 31-də Heydər Əliyev adına Bakı dərin özüllər zavodunun tikinti-quraşdırma sahəsindən dənizə yola salınmışdır. Avqustun 1-də qurğu yerinə çatmış, uğurla suya endirilmişdir və hazırda dəniz dibində quraşdırılır. Bu dayaq bloku Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin tikinti infrastrukturundan istifadə olunmaqla bütövlüklə ölkə daxilində inşa olunmuşdur.

Bu, "Mərkəzi Azəri" platformasının dayaq blokundan sonra, Xəzər dənizində quraşdırılacaq ikinci ən böyük qurğudur. "Mərkəzi Azəri" platformasından ilk neft hasilatı ilə əlaqədar 187 kilometr uzunluğunda 30 düymlük sualtı neft kəməri sahilədək çəkilib, 28 düymlük qaz kəmərinin tikintisi tam başa çatmışdır. "Faza-1" layihəsinin həyata keçirilməsi nəticəsində "Mərkəzi Azəri" platformasından maksimum orta illik hasilat 18,7 milyon ton səviyyəsində olacaqdır. Bu isə "Azəri", "Çıraq" yataqlarından illik hasilatın hazırkı 6 milyon ton səiyyəsindən 24-25 milyon tonadək artırılmasına imkan verəcəkdir.

2002-ci il sentyabrın 18-də ümummilli lider Heydər Əliyevin, Türkiyə Cümhuriyyəti və Gürcüstan Prezidentlərinin, ABŞ-ın energetika naziri cənab Spenser Abrahamın iştirakı ilə keçirilən təntənəli mərasimdə "Azəri" yatağının qərb və şərq hissələrinin işlənilməsini nəzərdə tutan "Faza-1" layihəsinə sanksiya verilmişdir. Bu layihə "Azəri" yatağının tam işlənilməsi üçün Qərb və Şərq platformalarının inşasını nəzərdə tutmuşdur. "Qərbi Azəri"də öncəqazma proqramı hazırda 6 quyudan ibarətdir. Bunların 5-i hasilat, biri isə şlamların yenidən laya vurulması quyusudur. Quyuların layihə dərinliyi 3900 metrdən 4500 metrə qədərdir. "Şərqi Azəri"dəki ilk dörd öncəqazma quyusunun uğurla tamamlanmasından sonra, bu ilin iyul ayında "Qərbi Azəri" öncəqazma proqramına başlanmışdır. "Qərbi Azəri"dən ilk neftin 2006-cı ilin ikinci rübündə, "Şərqi Azəri"dən isə 2007-ci ilin ikinci rübündə hasil ediləcəyi gözlənilir. Bu layihənin gerçəkləşməsi neft hasilatının 2007-2008-ci illərdə 40 milyon tonadək artırılmasını təmin edəcəkdir.

"Azəri", "Çıraq", "Günəşli" yataqlarının tammiqyaslı işlənilməsinin üçüncü mərhələsi (Faza-3) "Günəşli"nin dərinlikdə yerləşən hissəsinin işlənilməsini və "Çıraq" yatağının qərb hissəsindəki ehtiyatları əhatə edir və sonuncu əsas işlənilmə mərhələsidir. Möhtərəm cənab Prezident, "Faza-3" layihəsinin sanksiyalaşdırılması haqqında qərar Sizin xeyir-duanızla bu gün qəbul olunacaqdır.

Nəzərdə tutulmuş iş proqramına əsasən, ilk neftin əldə olunması 2008-ci ilin ortalarında gözlənilir. Son nəticədə "Faza-3" layihəsinin işlənilməsi ümumilikdə "Azəri", "Çıraq", "Günəşli" yataqlarından gündə 1 milyon barreldən artıq (ildə 50 milyon ton) neft çıxarılmasına imkan yaradacaqdır.

Səngəçalda inşa edilmiş terminal dünyada bu qəbildən olan ən böyük terminallardan biri olacaqdır. Terminalın genişləndirilməsi gün ərzində burada 1,2 milyon barrel xam neftin saxlanmasına və texniki emalına imkan yaradacaqdır. Nəzərdə tutulmuş işlər, demək olar, tam yerinə yetirilib və neft çənlərinin hamısı bu ilin sonunadək istifadəyə hazır olacaqdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin yeni neft strategiyasının ən mühüm tərkib hissələrindən biri Bakı-Tbilisi-Ceyhan ixrac boru kəmərinin çəkilişi ideyası və onun reallığa çevrilməsidir. Bu layihə Şərq-Qərb enerji dəhlizinin əsasını təşkil edir və XXI əsrdə Azərbaycanda həyata keçirilən ən böyük layihələrdən biridir. Bu layihənin baş memarı, onun bünövrəsini qoyan, həyata keçirilməsinə şəxsən rəhbərlik edən Heydər Əliyev olmuşdur.

Bakı-Tbilisi-Ceyhan neft kəməri dünyada bənzəri olmayan mühəndis qurğusudur. Ümumi uzunluğu 1762 kilometr olan kəmərin 443 kilometri Azərbaycan, 249 kilometri Gürcüstan, 1070 kilometri isə Türkiyədən keçəcəkdir. Layihədə boru çəkilişi ilə yanaşı, Səngəçal terminalının genişləndirilməsi, Ceyhan limanında müasir standartlara cavab verən nəhəng terminalın inşası, 8 nasos stansiyasının tikilməsi nəzərdə tutulur. İldə 50 milyon ton, sutkada isə 1 milyon barrel xam neft ötürmək qabiliyyətində olan bu kəmərin 2005-ci ildə istifadəyə verilməsi hər üç ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə üçün mühüm tarixi hadisəyə çevriləcəkdir.

Şərq-Qərb enerji dəhlizi və onun ən mühüm elementlərindən biri olan Bakı-Tbilisi-Ceyhan boru kəməri zamanın tələbi, dünya iqtisadiyyatının vacib bir hissəsi, tranzit ölkələrin iqtisadi inkişafının və enerji təhlükəsizliyinin təmin olunmasının ayrılmaz amilidir. Müstəqil Azərbaycanın yeni neft strategiyasının yaradıcısı, Bakı-Tbilisi-Ceyhan ixrac neft boru kəmərinin əsl memarı olan Heydər Əliyevin bu layihənin gerçəkləşməsində əvəzsiz xidmətlərini qiymətləndirərək, Bakı-Tbilisi-Ceyhan ixrac neft boru kəmərinə Heydər Əliyevin adı verilmişdir və bununla da bu kəmər Azərbaycan, Gürcüstan və Türkiyə arasında əbədi qardaşlıq rəmzinə çevrilmişdir.

Möhtərəm cənab Prezident!

Sadaladıqlarım neft strategiyasının həyata keçirilməsi yolunda görülən nəhəng işlərin yalnız bir hissəsidir. Bu nailiyyətlər "Əsrin müqaviləsi"nə daxil olan və layihədə iştirak edən dünyanın ayrı-ayrı ölkələrindən cəlb olunmuş çoxsaylı xarici şirkətlərin böyük fəaliyyəti və onların qoyduğu kapital, həm də Azərbaycanda və Azərbaycan neft sənayesində işləyən şirkətlər, müəssisələr, alimlər, yüksək professional səviyyədə olan mütəxəssislər və fəhlələrin iştirakı və zəhmətləri nəticəsində əldə olunmuşdur.

Bu bayram günündə "Əsrin müqaviləsi" layihəsinin bütün iştirakçılarına göstərdikləri xidmətlərinə görə təşəkkür edirəm və yeni-yeni nailiyyətlər arzulayıram. Eyni zamanda, "Əsrin müqaviləsi"nin tərəfdaşları adından və öz adımdan müqavilənin ilk addımından bu günədək bütün mərhələlərində bacarıqla rəhbərlik edən, çətinliklərin öhdəsindən gələn və hər zaman milli mənafeləri prinsipiallıq və qətiyyətlə, yüksək səviyyədə qoruyan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Biz hamımız inanırıq ki, Azərbaycanın Prezidenti cənab İlham Əliyev ötən 10 ildə olduğu kimi, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasətini və neft strategiyasını Azərbaycanın müstəqilliyi və rifahı naminə uğurla davam etdirəcək və qələbə çalacaqdır.

Bu yubiley ərəfəsində Azərbaycan Prezidenti cənab İlham Əliyev "Əsrin müqaviləsi"nin həyata keçirilməsindəki nailiyyətlərinə, Azərbaycan neft və qaz sənayesinin inkişafındakı xidmətlərinə görə 106 nəfər neftçinin orden və medallarla təltif edilməsi, 7 nəfər qocaman neftçiyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında fərmanlar imzalamışdır. Bu, bütün Azərbaycan neftçilərinin zəhmətinə və əməyinə verilən ən yüksək qiymətdir və hamımızı hədsiz sevindirir və ruhlandırır.

Cənab Prezident!

Əslində, mükafat alanların sırasında başda Siz olmalısınız. Çünki bu 10 ildə həm "Əsrin müqaviləsi"nin, həm də ondan sonrakı müqavilələrin hazırlanması, imzalanması və həyata keçirilməsindəki, ümumiyyətlə, neft və qaz sənayesinə rəhbərlik etdiyiniz illərdəki uğurlu fəaliyyətiniz, əvəzedilməz əməyiniz, xidmətləriniz və bu yolda nailiyyətləriniz göz qabağındadır. Biz hamımız Sizə dərin təşəkkürümüzü və ürəkdən gələn minnətdarlığımızı bildiririk.

Diqqətinizə görə çox sağ olun.

### Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Devid Vudvordun çıxışı

- Zati-aliləri cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Belə bir xüsusi münasibətlə "bp" şirkəti, bizim Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətindəki tərəfdaşlarımız - Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, "Yunokal", "İnpeks", "Statoyl", "EkssonMobil", TPAO, "Devon", "İtoçu" və "Amerada Hess" şirkətləri adından burada olmaq mənə böyük məmnunluq verir.

Bakıda Prezident Heydər Əliyev və "bp" qrupunun prezidenti lord Con Braun tərəfindən digər on xarici neft şirkətinin nümayəndələri ilə birlikdə "Azəri", "Çıraq" yataqları və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsi (AÇG) üzrə hasilatın pay bölgüsü sazişinin - "Əsrin müqaviləsi"nin imzalandığı gündən on il keçir. Bu dövr ərzində Azərbaycanın, Azərbaycan xalqının və ABƏŞ tərəfdaşlarının mənfəəti üçün bu ölkənin neft və qaz ehtiyatlarının işlənilməsi üzrə öz uzunmüddətli məqsədlərimizə doğru əla irəliləyiş edilmişdir.

Keçib gəldiyimiz bu yolda çoxlu mühüm addımlar atılmışdır. Onların hamısının adını çəksək, siyahı çox böyük olar. Lakin icazə verin, son on il ərzində nə qədər nailiyyət qazandığımızı yadımıza salmaq üçün onlardan yalnız bir neçəsini xatırladım.

1994-cü il sentyabrın 20-də müqavilə imzalanandan sonra 1995-ci ilin fevral ayında Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti təşkil olundu və həmin ilin oktyabr ayında ilkin neft layihəsinə sanksiya verildi. İki il keçməmiş, 1997-ci il noyabrın 7-də "Çıraq" yatağından ilkin neft hasil olundu. Qərb ixrac boru kəməri marşrutu istismara verildikdən sonra isə, 1999-cu ilin aprelində Supsa terminalından ilk tanker neftlə yüklənib yola salındı. Yataqların tammiqyaslı işlənilməsinin 1-ci fazasına - "Mərkəzi Azəri" layihəsinə 2001-ci ilin avqust ayında sanksiya verildi və gələn ilin əvvəlində hasilat başlayacaqdır. 2002-ci ilin sentyabr ayında 2-ci fazaya - "Qərbi Azəri" və "Şərqi Azəri" layihələrinə sanksiya verildi və burada 2006-2007-ci illərdə hasilata başlanacaqdır.

Bu gün isə biz "Faza-3" layihəsinə - "Günəşli"nin dənizin dərin hissəsində yerləşən sahəsinin işlənilməsinə sanksiya verilməsini qeyd edirik. Bu layihə"Azəri", "Çıraq", "Günəşli" üçün yataqların tammiqyaslı işlənilməsi konsepsiyasında yekun mərhələni göstərir. "Faza-3" layihəsi bizim indiyədək bütün nail olduqlarımız və öyrəndiklərimiz üzərində qurulur və bu layihə "Faza-1" və "Faza-2"-də yaradılmış standartlaşdırma və tikinti-istehsal xəttindən faydalanır. Faza-3 layihəsinin ümumi əsaslı xərcləri 4,7 milyard ABŞ dolları məbləğindədir və təxminən 1,2 milyard barrel neft çıxarılması nəzərdə tutulur. Biz ilk neftin hasil olunmasını təxminən 2008-ci ilin ortalarında gözləyirik və bu, 2009-cu ilədək "Azəri", "Çıraq", "Günəşli" üzrə gündəlik ümumi hasilatı bir milyon barreldən yuxarı səviyyəyə çatdıracaqdır.

Əlavə məhsulun idarə edilməsi məqsədi ilə "Faza-3" layihəsinin bir hissəsi olaraq, Sənqəçal terminalındakı obyektlər genişləndiriləcəkdir. Buraya iki əlavə texnoloji emal sistemi, üçüncü xam neft çəni və ikinci qaz texnoloji emal qurğusu daxildir. Bunlar Sənqəçal terminalını dünyadakı ən böyük terminallardan birinə çevirəcəkdir. Artıq qalan səmt qazının hamısının ARDNŞ vasitəsilə Azərbaycan bazarına çatdırılması mümkün olacaqdır. Lakin əlbəttə, əhəmiyyətli şəkildə genişləndirilmiş ixrac imkanları olmadan bu nailiyyətlərdən heç birinin real dəyəri ola bilməzdi.



Mən burada Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsi üzrə yaxşı irəliləyiş barədə hesabat verə bilməyimdən də məmnunluq duyuram. Biz artıq Bakıdan Ceyhana qədər bütün 1760 kilometr uzunluğunda boru kəməri dəhlizini açmışıq və boruların 90 faizdən çoxunu qaynaqlamışıq. Bütövlükdə, layihənin 85 faizi başa çatdırılıb və "Azəri" layihəsi hasilata başlayanda, ilk neftin qəbul edilməsi və gələn ilin ikinci yarısında Ceyhandan ilk tankerin yola salınması üçün Bakı-Tbilisi-Ceyhan boru kəməri hazır olacaqdır.

Beləliklə, həqiqətən, bu gün tarixi bir gündür. Yalnız Azərbaycan və onun xalqı üçün deyil, həmçinin Gürcüstan və Türkiyə, onların xalqları üçün də tarixi bir gündür. Bir həqiqəti deməliyik ki, çoxsaylı müxtəlif maraqlı tərəflərin həyati əhəmiyyətli köməyi və tərəfdaşlığı olmadan nə bu miqyasda layihələrlə bu gün gəlib yetişdiyimiz məqama çata bilərdik, nə də son on ildəki nailiyyətlər əldə olunardı. Biz aşağıda adları çəkilən tərəfdaşlarımıza çox minnətdarıq:

Birləşmiş Ştatların, Böyük Britaniyanın və ABƏŞ-in təmsil etdiyi digər tərəfdaş ölkələrin hökumətlərinə;

Beynəlxalq agentliklərə, podratçılara və tədarükçülərə;

Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə və ABƏŞ-dəki tərəfdaşlarımıza;

Yerli ictimaiyyətə, Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarına.



Lakin hər şeydən əvvəl, davamlı uzaqgörənliklərinə və rəhbərliklərinə görə Prezident Heydər Əliyevin və indiki Prezident İlham Əliyevin xidmətlərini xüsusi qeyd etmək istərdim. Onların dəstəyi olmadan biz bu tədbirə toplaşa və son on ildə əldə edilmiş bu mühüm nailiyyətlər və irəliləyişlər barədə hesabat verə bilməzdik. Cənab Prezident, Siz və mərhum atanız Gürcüstan və Türkiyə rəhbərliyi ilə birlikdə, düzgün siyasi və hüquqi mühit - dəqiq desək, regionda sülh və sabitlik, eləcə də bizim aramızdakı sazişləri müdafiə edən hüquqi təməl yaratmaqla bizi milyardlarla dollar dəyəri olan bu sərmayələrlə irəli getməyə ruhlandırmısınız.

"bp" və tərəfdaşları yalnız Sizin layihələrimizə göstərdiyiniz uzaqgörənliyi deyil, həm də Sizin nazirlərin və rəsmi dövlət nümayəndələrinin dəstəyini yüksək qiymətləndirir. Mən əminəm ki, biz irəli getdikcə, gələcəkdə qarşımıza çıxacaq vəzifələrin öhdəsindən gəlmək üçün Sizin dəstəyinizin davam edəcəyinə ümid bəsləyə bilərik.

İcazə verin, sözümü başladığım kimi, "Əsrin müqaviləsi"nin 10 illik yubileyi ilə yekunlaşdırım.

Zati-aliləri cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən əvvəllər də demişəm ki, bizim bir arzuya çatacağımıza inanıram. Elə bir arzuya ki, Azərbaycanda, Gürcüstanda və Türkiyədə dünya səviyyəli neft və qaz layihələri ilə gerçəkləşəcək və bununla həmin ölkələrə, onların vətəndaşlarına sanballı gəlirlər və mənfəətlər gətirəcəkdir.

Beləliklə, biz bu arzunun mühüm bir hissəsini artıq gerçəkliyə çevirmiş olan onillik yubiley münasibətilə buradayıq. Biz çox böyük uğurlar qazanmışıq, ancaq hələ çox böyük nailiyyətlər əldə etməliyik. Biz bunu əldə edəcəyik və birlikdə, əsl tərəfdaşlıq və əməkdaşlıq ruhu ilə buna nail olacağıq.

Cənab Prezident, nəhayət, şəxsən məni və "bp"-dəki həmkarlarımı bu münasibətlə təltif etdiyiniz mükafatlara görə Sizə səmimi minnətdarlığımı bildirirəm. Təşəkkür edirəm.

Daha sonra Gürcüstanın Baş naziri Zurab Jvaniya, Türkiyənin energetika və təbii ehtiyatlar naziri Mehmet Hilmi Gülər, Qazaxıstanın nəqliyyat və kommunikasiyalar naziri Kajmurat Naqmanov, Ukraynanın ətraf mühitin mühafizəsi naziri Sergey Polyakov, ABŞ-ın Azərbaycandakı səfiri Rino Harniş, ABŞ-ın xüsusi nümayəndəsi, beynəlxalq əlaqələr üzrə enerji katibi köməkçisinin müavini Castin Svivft, Norveç Krallığının Dövlət katibi, energetika nazirinin müavini Oluf Ulseth, Rusiya Federasiyasının beynəlxalq enerji əməkdaşlığı üzrə xüsusi nümayəndəsi, xüsusi tapşırıqlar üzrə səfir İqor Yusufov, Böyük Britaniyanın Şimali Qafqaz üzrə xüsusi nümayəndəsi Brayn Fol, Fransanın Azərbaycandakı səfiri





Rolan Blatman, Bolqarıstanın Azərbaycandakı səfiri İvan Palçev, İtaliyanın Azərbaycandakı səfiri Marqerita Kosta, Yaponiyanın Azərbaycandakı səfiri Toşiyuki Fucivara mərasimdə çıxış etdilər.

Mərasimdə Türkiyə Prezidenti Əhməd Necdət Sezərin, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin, Ukrayna Prezidenti Leonid Kuçmanın, ABŞ Prezidenti Corc Buşun, Norveçin Baş naziri Kyel Maqne Bundevikin, Rusiya Prezidenti Vladimir Putinin, Böyük Britaniyanın Baş naziri Toni Bleyerin, Fransa Prezidenti Jak Şirakın, Bolqarıstan Prezidenti Georgi Pırvanovun, İtaliyanın Baş naziri Silvio Berluskoninin, Yaponiyanın Baş naziri Dzünitiro Koidzuminin, Avropa Komissiyasının Sədri Romano Prodinin təbrik məktubları oxundu.

Rəsmi hissədən sonra Heydər Əliyev adına sarayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin tammiqyaslı işlənməsinin 3-cü mərhələsinin (Faza-3) icrası ilə bağlı işlərə başlanması haqqında Sazişin imzalanma mərasimi oldu.

Sazişi Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti adından və onun tapşırığı ilə şirkətin prezidenti Natiq Əliyev, podratçı tərəflər adından və onların tapşırığı ilə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Devid Vudvord imzaladılar.

İmzalanma mərasimindən sonra "Əsrin müqaviləsi"nin onilliyinə həsr olunmuş "Tarixi hünər" sənədli filmi nümayiş etdirildi.

Filmdə Bakının keçmişi, neft sənayesi ilə bağlı tarixi məlumat verilir, ümummilli lider Heydər Əliyevin Azərbaycanda ilk dəfə hakimiyyətə gəlişindən sonra paytaxtda baş vermiş müsbət dəyişikliklərdən, müxtəlif manеələrə baxmayaraq, ölkəmizin neft sənayesinin inkişafı sahəsində atılmış cəsarətli addımlardan bəhs olunur.

Bu sənədli əsərdə dahi siyasi xadim Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra neft strategiyasının həyata keçirilməsi, o cümlədən "Əsrin müqaviləsi"nin imzalanması, ilkin neftin hasilatı, Bakı-Tbilisi-Ceyhan əsas ixrac kəmərinin çəkilişinə dair razılığın əldə olunması, kəmərin təməlqoyma mərasimi və digər mühüm hadisələr, ulu öndərin "Əsrin müqaviləsi"nin əhəmiyyəti barədə söylədiyi fikirlər öz əksini tapmışdır. Eyni zamanda Heydər Əliyevin neft strategiyasının uğurla davam etdirilməsi sahəsində Prezident İlham Əliyevin fəaliyyətindən söhbət açılır.

Təntənəli mərasimdə Azərbaycan dövlətini və hökumətini təmsil edən rəsmi şəxslər, Bakıda akkreditə olunmuş diplomatik korpusun üzvləri, paytaxt ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.

BAKI, 5 OKTYABR 2004-CÜ İL



# Heydər Əliyev adına Bakı dərin dəniz özülləri zavodunda "Mərkəzi Azəri" platformasının üst modullarının təqdimatı

2004-cü il oktyabrın 5-də Heydər Əliyev adına Bakı dərin dəniz özülləri zavodunda "Mərkəzi Azəri" platformasının üst modullarının təqdimatı keçirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edirdi.

Zavodun həyətinə toplaşanlar dövlət başçısını səmimiyyətlə qarşıladılar. Onların əllərində Azərbaycanın dövlət bayrağı və ümummilli lider Heydər Əliyevin portretləri var idi.

Prezident İlham Əliyev ümummilli lider, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin abidəsinin açılışını bildirən ağ örtüyü götürdü və abidənin önünə gül dəstəsi qoydu.

Təntənəli mərasimi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev açdı.

**ARDNŞ-nin prezidenti
Natiq Əliyevin çıxışı**

- Möhtərəm cənab Prezident!

Hörmətli neftçilər!

İcazə verin, Heydər Əliyev adına Bakı dərin özüllər zavodunun işçiləri, bütün neftçilər adından Azərbaycan Respublikasının hörmətli Prezidenti İlham Əliyevi səmimi qəlbdən salamlayım və xalqımızın ümummilli lideri Heydər Əliyevin burada ucaldılmış abidəsinin açılışına həsr olunmuş təntənəli mərasimi açıq elan edim.

Əziz neftçilər, Bakı dərin özüllər zavodunun 25 ildən artıq tarixi ilk gündən xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Bu zavodun tikilməsi, fəaliyyətə başlaması Heydər Əliyevin səyləri nəticəsində mümkün olmuşdur. Bildiyiniz kimi, 1970-ci illərdə Azərbaycanın neft sənayesinin inkişafına böyük xidmətlər göstərən Heydər Əliyev bu zavodun məhz burada, Azərbaycanda tikilməsinə nail olmuşdur. Bu, böyük bir siyasi qələbə idi. 25 il keçibdir və indi biz başa düşürük ki, o vaxt Heydər Əliyev bu addımı ilə nə qədər uzaqgörənlik, müdriklik nümayiş etdirmişdir.

Bu gün biz deyə bilərik ki, bu, doğrudan da böyük siyasi qələbə idi. Əgər bu zavod Azərbaycanda, Bakıda tikilməsəydi, bu gün biz Xəzərin zəngin neft-qaz yataqlarını mənimsəyə bilməzdik. Bu, həm də böyük bir iqtisadi qələbə idi. Ona görə ki, Azərbaycanın müstəqilliyi dövründə yeni neft strategiyasının həyata keçirilməsində bu zavodun çox böyük rolu var. Bu, bütün Azərbaycan əhalisi üçün, Azərbaycan neftçiləri üçün böyük bir sosial qələbə idi. Ona görə ki, burada minlərlə insan işləyir və biz fəxr edirik ki, indi belə bir nəhəng zavod fəaliyyət göstərir və o, yeni neft strategiyasının həyata keçirilməsinin flaqmanıdır.

Hörmətli Prezidentimiz cənab İlham Əliyev abidənin açılışından sonra zavodda "Mərkəzi Azəri" platformasının üst modullarına baxacaq, xeyir-duasını verəcəkdir. Biz isə onu bir neçə gündən sonra dənizə yola salacağıq. Bunlar hamısı, deyə bilərik ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin səyləri nəticəsndə mümkün olmuşdur.

Mən bu gün hamınızı bu böyük qələbə münasibətilə təbrik etmək istəyirəm. Bütün neftçilərə uzun ömür, cansağlığı arzulayıram. Arzu edirəm ki, onlar yaxşı nəticələr əldə etsinlər və Heydər Əliyevin neft strategiyasını uğurla həyata keçirsinlər.

Hesab edirəm ki, bu zavodda çalışmağın özü böyük fəxr və şərəfdir. Bu abidənin burada ucaldılmasının daha bir mənası da bundadır ki, buraya gələn, zavodda işləyən



insanlar həmişə abidənin yanına gəlib Heydər Əliyevin əziz xatirəsi qarşısında ehtiramla baş əyəcəklər. Diqqətinizə görə çox sağ olun. Hamınızı bir daha təbrik edir, yeni qələbələr arzulayıram.

Mərasimdə çıxış edənlər Dərin dəniz özülləri zavodunun tikilməsində Heydər Əliyevin misilsiz xidmətlərindən bəhs etdilər.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimin sonunda nitq söylədi.

**Azərbaycan Prezidenti**
**İlham Əliyevin nitqi**

- Əziz dostlar!

Mən çox şadam ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş Bakı dərin özüllər zavodu indi onun adını daşıyır və burada Heydər Əliyevin abidəsi ucaldılmışdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyev bütün dövrlərdə, ictimai-siyasi quruluşundan asılı olmayaraq xalqa, millətə, doğma Vətənə ləyaqətlə və sədaqətlə xidmət etmişdir.

1970-1980-ci illərdə məhz onun fəaliyyəti nəticəsində Azərbaycanda güclü iqtisadi potensial yaranmış, Azərbaycan öz iqtisadiyyatının bütün sahələrini uğurla inkişaf etdirə bilmişdir. Məhz o illərdə Azərbaycanda nəhəng sənaye müəssisələri, mədəniyyət ocaqları, infrastruktur yaradılmışdır. Təsəvvür etmək çətindir ki, əgər o illərdə hazırda Heydər Əliyevin adını daşıyan Bakı dərin özüllər zavodu və digər iri müəssisələr yaranmasaydı, Azərbaycanın indiki vəziyyəti necə ola bilərdi?

Müstəqil Azərbaycanın uğurlu inkişafı məhz bu zəmində mümkün olmuşdur. Xalqımızın ümummilli lideri Heydər Əliyev bütün dövrlərdə çalışırdı ki, insanlar daha da yaxşı yaşasınlar, Azərbaycanda bütün sahələr inkişaf etsin, güclü iqtisadiyyat yaransın, beləliklə, ölkəmiz dünya birliyində yerini daha da möhkəm tuta bilsin.

Zavodun yaranma tarixi, yəqin ki, sizə bəllidir. O vaxtlar mərkəzi hakimiyyətdə belə fikirlər vardı ki, zavod başqa yerdə tikilsin. Məhz Heydər Əliyev öz fəaliyyəti nəticəsində nail ola bildi ki, zavod Bakıda tikildi. Zavod bu gün müstəqil Azərbaycana çox gözəl xidmət edir. Əgər vaxtilə bu zavod tikilməsəydi və indi fəaliyyət göstərməsəydi, Heydər Əliyevin neft strategiyasının tərkib hissəsi olan "Əsrin müqaviləsi"nin həyata keçirilməsi azı 5-7 il gecikə bilərdi.

Müstəqil Azərbaycanın Prezidenti kimi Heydər Əliyev ölkəni hər cəhətdən inkişaf etdirdi. Azərbaycan 1993-cü ildə çox ağır vəziyyətdə idi. Həm siyasi, həm də iqtisadi cəhətdən ölkədə böhran yaşanırdı. Demək olar ki, müəssisələr dayanmışdı, tənəzzül ölkəmizi iqtisadi cəhətdən uçuruma aparırdı. Məhz o çətin illərdə Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi, cəsarəti, apardığı siyasət sayəsində indi Azərbaycan bölgədə iqtisadi cəhətdən lider ölkəyə çevrilibdir. Bu gün Azərbaycan iqtisadi cəhətdən çox sürətlə inkişaf edir. Azərbaycan beynəlxalq, regional layihələrdə aparıcı rol oynayır və iqtisadiyyatı ildən-ilə güclənir, xalqın rifah halı getdikcə yaxşılaşır.

Bütün bu uğurları əldə etmək üçün, əlbəttə, 1993-1994-cü illərdə çox cəsarətli addımlar atmaq lazım idi. O çətin şəraitdə "Əsrin müqaviləsi"nin imzalanması, demək olar ki, Azərbaycanın müasir inkişafının təməlini qoydu. Təsəvvür etmək çətindir ki, əgər "Əsrin müqaviləsi" 1994-cü ildə imzalanmasaydı, Azərbaycanın indiki durumu necə olardı. "Əsrin müqaviləsi" iqtisadiyyatımızın bütün digər sahələrinə öz müsbət təsirini göstərdi, ölkəyə böyük həcmdə xarici sərmayə gəldi, elə bu zavoda da çoxlu sərmayə qoyuldu. Azərbaycan iri neft şirkətləri ilə, beynəlxalq neft şirkətləri ilə çox uğurlu əməkdaşlığa başladı və bunun nəticəsində həm neft kəmərlərinin tikintisi mümkün oldu, həm də Azərbaycanda neftin hasilatı artırıldı.

Biz bu gün Azərbaycanın həyatında çox böyük bir mərhələnin astanasındayıq. Yenə də məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi nəticəsində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi nəinki mümkün olmuşdur, həm də bu tikinti uğurla davam etdirilir və bu yaxınlarda kəmər istismara veriləcəkdir. Bu, ölkəmiz üçün həm iqtisadi, həm siyasi, həm də təhlükəsizlik baxımından müstəsna əhəmiyyəti olan bir layihədir. Azərbaycan bu layihənin hesabına öz iqtisadi potensialını daha da gücləndirəcək, ölkə iqtisadi cəhətdən çox möhkəm olacaqdır. İnsanlarımızın həyat səviyyəsi yaxşılaşacaqdır. Ölkəyə böyük həcmdə gəlir gələcəkdir ki, bu da öz növbəsində bizə imkan verəcək ki, Azərbaycanda bütün mövcud olan problemlər öz həllini daha sürətlə tapsın.

Bakı-Tbilisi-Ceyhan neft kəməri Heydər Əliyevin əsəridir. Təsadüfi deyil ki, bu kəmərə Heydər Əliyevin adı verilmişdir.

Növbəti mərhələ isə Azərbaycan qazının dünya bazarlarına çatdırılmasından ibarət olacaqdır. Bu da ölkəmiz üçün çox önəmli bir layihədir və uğurla icra olunur. Heç şübhə etmirəm ki, bu layihə də uğurla başa çatdırılacaqdır.

Beləliklə, 1970-ci illərdə respublikamızda bu zavodun tikilməsi və buna bənzər infrastrukturun, müəssisələrin yaranması, müstəqil Azərbaycanda "Əsrin müqaviləsi"nin və ondan sonrakı müqavilələrin imzalanması imkan verir ki, Azərbaycan yaxın zamanlarda çox qüdrətli dövlətə çevriləcəkdir. Budur, əsl siyasi xadimin fəaliyyəti, budur, əsl dövlət xadiminin fəaliyyəti!

Bayaq qeyd etdiyim kimi, Heydər Əliyev bütün dövrlərdə xalqa xidmət edirdi. Ömrünün son gününə qədər








xalqa xidmət edirdi. Mən xatırlayıram ki, keçən il aprelin 26-da o, buraya gəlməli və bu zavodun 25 illiyini burada sizinlə birlikdə qeyd etməli idi. Amma ondan beş gün əvvəl onun səhhətində problemlər yaranmışdı və o, buraya gələ bilmədi. Amma mən xatırlayıram, istəyirdi ki, zavoda gəlsin, zavodla bir daha tanış olsun. Bilirsiniz ki, Heydər Əliyev zavodda müxtəlif dövrlərdə dəfələrlə olmuşdur və onun fəaliyyəti ilə maraqlanırdı. Azərbaycanda Heydər Əliyevin neft strategiyasının icrası başlanandan sonra zavodun, demək olar ki, ikinci həyatı başladı.

Bilirsiniz ki, zavod bir müddət fəaliyyətsiz qalmışdı. Burada olan avadanlıq köhnəlmişdi, işçilərin sayı da azalmışdı. Amma yeni neft strategiyasının icrası nəticəsində zavodda yeni həyat başladı. Bu gün mənə verilən məlumata görə, zavodda və onunla birgə fəaliyyət göstərən təşkilatlarda çalışan insanların sayı 5 mindən yuxarıdır. Burada orta əmək haqqı 300 dollardan 700 dollara qədərdir.

Sadaladığım bütün bu məsələlər müasir Azərbaycanın həyatını göstərir. Göstərir ki, Azərbaycan uğurla inkişaf edir, Azərbaycan Heydər Əliyev siyasətinə sadiq olaraq, bütün dövrlərdə öz imkanlarından istifadə etməklə uğurla irəliyə gedir.

Gələcəkdə bizim vəzifələrimiz çoxdur. Biz Heydər Əliyev siyasətini bütün sahələrdə davam etdirməliyik. Yalnız bu siyasət Azərbaycan xalqına xoşbəxtlik gətirəcəkdir. Yalnız bu siyasət Azərbaycanı iqtisadi cəhətdən daha da güclü edəcəkdir.

Çox şadam ki, bu gün zavod çox uğurla fəaliyyət göstərir. Mən keçmiş işimlə əlaqədar zavodda dəfələrlə olmuşam. Prezident kimi də olmuşam və yəqin ki, hələ çox olacağam. Mən çox şadam ki, zavodda gedən işlər bu gün dünya standartlarına cavab verir. Burada tikilən, inşa edilən qurğular ən yüksək səviyyədə istismara verilir, bu da onu göstərir ki, zavodun çox peşəkar kollektivi var. Çox şadam ki, bu peşəkar kollektiv Azərbaycana çox layaqətlə xidmət edir, böyük işlər görür.

Əziz dostlar, xalqımızın ümummilli lideri Heydər Əliyevin zavodda ucaldılmış abidəsinin açılışı münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm. Zavodun kollektivinə yeni-yeni uğurlar, qələbələr arzulayıram. Sağ olun!

**Natiq Əliyev:** Möhtərəm cənab Prezident, icazə verin, dərin və məzmunlu nitqinizə görə, ümumiyyətlə, neftçilərin zəhmətinə verdiyiniz yüksək qiymətə görə mərasim iştirakçıları adından Sizə minnətdarlığımı bildirim.

Prezident İlham Əliyev abidənin qarşısında xatirə şəkli çəkdirdikdən sonra zavodla, burada hazırlanmış "Mərkəzi Azəri" platforması ilə yaxından tanış oldu.

Dövlət başçısına məlumat verildi ki, müəssisədə çalışan 7 min işçinin 90 faizi yerli mütəxəssislərdir. Kollektivin "bp" şirkətinin sifarişi ilə hazırladığı "Mərkəzi Azəri" platformasının ağırlığı 14,5 min tondur və orada vertolyot meydançası, 200 nəfərdən çox işçi üçün yataqxana da tikilmişdir. Xəzərin dərin qatlarında yataqların istismarı üçün nəzərdə tutulan bu qurğu yaxın vaxtlarda dənizə yola salınacaq və orada quraşdırılacaqdır.

"bp" şirkətinin prezidenti Devid Vudvord "Faza-3" layihəsi çərçivəsində görülən və görüləcək işlər barədə Prezidentə məlumat verdi.

Sonra Prezident İlham Əliyev zavodun qarşısına toplaşan fəhlələrlə görüşüb səmimi söhbət etdi, onların iş







şəraiti, yaşayışı, problemləri ilə maraqlandı.

Fəhlələr dövlət başçısına təşəkkür etdilər, onlara yaradılan şəraitdən razı qaldıqlarını vurğuladılar və ümummilli lider Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi prosesində iştirak etməkdən böyük iftixar duyduqlarını bildirdilər.

Prezident İlham Əliyev fəhlələrlə xatirə şəkli çəkdirdi.

Prezident İlham Əliyev sonra Azərbaycan televiziyasına qısa müsahibə verdi.

**Sual:** Cənab Prezident, bu gün tarixi bir hadisələrin şahidi olduq. Siz bu nəhəng qurğuya da baxdınız. Buradan hansı təəssüratla ayrılırsınız?

**Cavab:** Bilirsiniz, bu bir daha onu göstərir ki, müasir Azərbaycan nəyə qadirdir. Bir neçə il bundan əvvəl belə bir qurğunun Azərbaycanda tikilməsini heç kim təsəvvür edə bilməzdi. Bu, dünyanın ən yüksək standartlarına cavab verən qurğudur, "Azəri" "yatağında quraşdırılacaqdır. Bu bir daha onu göstərir ki, Azərbaycanın potensialı günü-gündən güclənir. Burada başqa qurğular da tikilməkdədir. Beləliklə, "Azəri", "Çıraq", "Günəşli" yataqlarında quraşdırılacaq bütün platformalar Azərbaycanda tikiləcəkdir. Bu işlərə böyük sərmayə qoyulubdur, böyük zəhmət çəkilir. Burada xarici və yerli mütəxəssislər, fəhlələr birgə işləyir və gözəl qurğular yaradırlar. Bu, bizə imkan verəcək ki, Azərbaycan öz neft potensialını maksimum dərəcədə səmərəli işə salsın və Heydər Əliyevin neft strategiyası uğurla davam etdirilsin.

Mən bu gün qeyd etdim ki, əgər 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə, onun əməyi nəticəsində "Əsrin müqaviləsi" imzalanmasaydı, bu işləri görmək mümkün olmazdı. Bu gün Azərbaycan dünyada mövcud olan ən yüksək standartlara cavab verən bu işləri görür və gələcəkdə daha da böyük işlər görüləcəkdir.

Mən bu gün böyük sevinc içindəyəm ki, bu işlərin əməli nəticəsini görürəm. Bu yaxınlarda platforma dənizə aparılacaq, orada quraşdırılacaqdır. Ondan sonra oradan çıxarılacaq neft Səngəçal terminalına, oradan da Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəmərinə ötürüləcəkdir. Bu da öz növbəsində Azərbaycan neftini dünya bazarlarına çatdıracaqdır. Azərbaycan daha da güclü, zəngin olacaqdır. Azərbaycanda yaşayan hər bir vətəndaş bundan fayda görəcəkdir.

BAKI, 18 FEVRAL 2005-Cİ İL



# "Mərkəzi Azəri" platformasından ilk neftin çıxarılması

2005-ci il fevralın 18-də Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" (AÇG) yataqlarının "Mərkəzi Azəri" hissəsindən ilk neftin hasilatına başlanması münasibətilə "Mərkəzi Azəri"dəki yeni tikilmiş platformada təntənəli mərasim keçirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vertolyotla platformaya gəldi. Burada dövlət başçısını platformada çalışan mütəxəssislər səmimiyyətlə qarşıladılar.

Prezident İlham Əliyevə platformanın quruluşu, ilk neftin hasil olunmasını göstərən cədvəl göstərildi. ABƏŞ-in prezidenti Devid Vudvord məlumat verdi ki, qarşıdakı aylarda bu platformanın yanında kompressor və suvurma platforması da quraşdırılacaqdır. Artıq onun dayaq özülü qurulub və yaxın vaxtlarda üst modulları gətiriləcəkdir. Apardığımız əməliyyatların hər biri uğurlu olmuşdur. Belə ki, Xəzərdə ilk dəfə həyata keçirilən ən böyük əməliyyat nəticəsində 15 min tonluq qurğu buraya gətirilərək, dayaq bloklarının üzərinə oturdulmuşdur. Artıq burada 10 hasilat quyusu qazılıbdır. İndi "Qərbi Azəri"də hasilat quyuları qazılır. İl ərzində "Mərkəzi Azəri"dən "Çıraq-1"ə nisbətən daha çox neft hasil ediləcəkdir. Hazırda burada istismarda olan quyu "bp"-nin dünyada işlətdiyi ən hasilatlı quyudur.

Nəzarət otağının operatoru dövlət başçısına məlumat verərək dedi ki, burada quraşdırılan cihazlar istənilən halda bütün prosesləri işə salmağa və dayandırmağa, bütün təhlükəsizlik qaydalarına riayət etməyə və qəza hallarını aradan qaldırmağa imkan verir. Monitorlar vasitəsilə əsas və köməkçi prosesləri izləmək, platformanın istənilən hissəsində, hətta dənizin dibində baş verən prosesləri görmək mümkündür. Hətta bütün kom-






munikasiya xətləri itirilsə belə, xilasedici gəmilərlə, qazma qurğuları ilə əlaqə saxlamaq üçün xüsusi panellər vardır. Radar qurğuları ilə baş verə biləcək kənar təsirlər barədə məlumat almaq olur. Vertolyotlarla peyk vasitəsilə əlaqə saxlanılır. Bu ərazidə gəmilər platformadan 500 metr məsafədə hərəkət edirlər.

Hazırda platformadakı 31 nömrəli quyudan neft çıxır və beş gündür ki, Səngəçal terminalına nəql edilir. İndi gündə 35 min barrel neft göndərilir. Hesablamalara görə, gündə yarım milyon kubmetr qaz çıxır və fevralın 18-də axşamdan başlayaraq Səngəçala göndəriləcək və təxminən bir həftəyə oraya çatacaqdır. Neft isə terminala iki həftəyə çatacaqdır. Digər platforma gələndən sonra gündə 7 milyon kubmetr qaz göndərmək mümkün olacaqdır.

Prezident İlham Əliyev monitorlar vasitəsilə platformanın iş prosesini izlədi, təhlükəsizlik sistemlərini, aşağı və yuxarı təzyiqli nasosların fəaliyyətini, 31 nömrəli quyudan neftin çıxarılması proseslərini izlədi və görülən işləri yüksək qiymətləndirdi.

"Mərkəzi Azəri"dən ilk neftin çıxarılması ilə AÇG-nin tammiqyaslı işlənilməsinə başlanmışdır. Qarşıdakı illərdə platformadan aparılacaq qazma işləri başa çatana qədər "Mərkəzi Azəri"də indiyədək qazılmış quyular istismara verildikcə hasilat artacaqdır. 2005-ci ildə buradan təxminən 35 milyon barrel (orta hesabla gündə 93 min barrel) neft çıxarılması proqnozlaşdırılır.

"Mərkəzi Azəri" platforması Bakıdan 100 kilometr şərqdə, dənizin dərinliyinin 128 metrə çatdığı sahədə yerləşir. "Mərkəzi Azəri" obyektləri 48 quyu gövdəsinə malik hasilat, qazma və yaşayış platformasından (HQY),













Səngəçal terminalına çəkilmiş 30 düymlük neft və 28 düymlük qaz kəmərlərindən, Səngəçaldakı mövcud terminalın genişləndirilməsindən ibarətdir.

2005-ci ilin üçüncü rübündə "Mərkəzi Azəri"də kompressor və suvurma platforması (KSP) da quraşdırılacaqdır. Yaşayış, qazma, hasilat, texnoloji emal, kompressor və suvurma-qazvurma qurğularını özündə birləşdirən iri bir dəniz obyektləri sistemini yaratmaq məqsədi ilə KSP körpü vasitəsilə HQY platformasına birləşdiriləcəkdir.

AÇG yataqlarından əlavə neftin qəbul edilməsi üçün Səngəçal sahil terminalı genişləndirilmiş, üç yeni çən tikilmişdir. Terminalda texnoloji emaldan keçən neft əvvəlcə mövcud ixrac marşrutları ilə, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri işə salınandan sonra isə həmin marşrut vasitəsilə dünya bazarına çıxarılacaqdır.

"Mərkəzi Azəri"dən hasil edilən qazın bir hissəsi lay təzyiqini saxlamaq və yanacaq məqsədi ilə istifadə olunacaq, qalanı isə 28 düymlük yeni sualtı boru kəməri ilə Səngəçal terminalına göndəriləcəkdir. Burada texnoloji emaldan sonra qaz Səngəçaldan yeni kəmər vasitəsilə "Azəriqaz" sisteminə nəql olunacaqdır.

Prezident İlham Əliyev platformanın aşağı göyərtəsində yerləşən nəzarət bölməsində neft hasilatının texnoloji proseslərini izləyən kompüter sistemləri ilə, habelə qəza və yanğın təhlükəsizliyinə qarşı avtomat sistemlərlə tanış oldu.

Prezident İlham Əliyev platforma ilə tanışlıqdan sonra rəmzi sürgünü açdı, Azərbaycan neftçilərinin köhnə ənənəsinə uyğun olaraq, neftdən üzünə sürtdü. Mərasimin digər iştirakçıları da böyük məmnunluqla bu ənənəyə əməl etdilər.

"Mərkəzi Azəri" platformasından ilk neftin çıxarılmasına həsr olunmuş təntənəli mərasimi ABƏŞ-in prezidenti Devid Vudvord açdı.

### ABƏŞ-in prezidenti Devid Vudvordun çıxışı

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Bu gün mənim üçün böyük şərəf və qürurdur ki, sizi "Mərkəzi Azəri" platformasından ilk neftin hasilatı ilə əlaqədar keçirilən təntənəli mərasimdə salamlayıram. Bu mərasim həm də "Mərkəzi Azəri"dən ilk nefti hasil etməklə "Azəri", "Çıraq", "Günəşli" yataqlarında tam-miqyaslı işlənmənin başlandığını xəbər verir.

Bugünkü mərasim həmçinin minlərlə insanın 10 ildən bəri davam edən gərgin əməyinin zirvə nöqtəsidir. 10 il əvvəl, 1994-cü ildə "Əsrin müqaviləsi"






imzalanandan sonra indiki vəziyyətə çatmaq üçün nəhəng miqyasda işlər görmüş çoxsaylı insanların zəhməti öz bəhrəsini vermişdir.

Biz bu gün "Mərkəzi Azəri"nin birinci quyusundan ilk nefti əldə etməklə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin uzaqgörənliyinin bəhrəsinin, beynəlxalq neft şirkətləri ilə birlikdə Azərbaycanın neft ehtiyatlarından istifadə etmək arzusunun həyata keçirilməsinin şahidi oluruq. İlk quyudan çıxan neft çox uzun və əlamətdar bir yol keçəcəkdir. Əvvəla, bu neft platformada gördüyünüz qurğuların içərisindən keçəcəkdir. Bunlar isə dünyada bu tipli qurğuların ən böyüyüdür. Sonra neft 187 kilometr uzunluğunda sualtı boru kəməri ilə sahildəki Səngəçal terminalına gedəcəkdir. Səngəçal terminalı da genişləndirilərək, bu tipli obyektlərin ən böyüklərindən birinə çevrilmişdir.

Bakı-Tbilisi-Ceyhan boru xətti hazır olandan sonra isə neft Səngəçal terminalından bu kəmərə vurulacaq və Azərbaycan, Gürcüstan və Türkiyə ərazisi ilə 1770 kilometrdən çox məsafə qət edərək, Aralıq dənizi sahilindəki Heydər Əliyev adına Ceyhan terminalına daxil olacaqdır.

Bayaq dediyim kimi, bütün bunlar dünya miqyaslı qurğulardır. Onları tikmək, quraşdırmaq, ərsəyə gətirmək üçün on minlərlə insan çalışmışdır. Onlar öz zəhmətlərini bu işə həsr etmişlər. Bu insanlar beynəlxalq ictimaiyyətin nümayəndələridir, dünyanın bir sıra ölkələrindən gəlmiş insanlardır. Mən bu fürsətdən istifadə edərək, onların hamısına "Çox sağ ol!" deyir, onları bu əlamətdar hadisə münasibətilə təbrik edirəm.

Cənab Prezident, mən xüsusilə Sizə təşəkkür etmək istəyirəm. Sizin dəstəyiniz, Sizin rəhbərliyiniz, Sizin yol göstərməyiniz olmasaydı, eləcə də hökumətinizin dəstəyi olmasaydı, - mən xüsusilə Azərbaycan Dövlət Neft Şirkətinin bu işlərə verdiyi dəstəyi də qeyd etmək istəyirəm, - biz bugünkü səviyyəyə gəlib çıxa bilməzdik.

Cənab Prezident, sözümün sonunda Sizdən bir xahişim vardır. Əgər "bp" və onun Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətindəki tərəfdaşları adından bu kiçik hədiyyəni qəbul etsəniz, onda bizə şərəf vermiş olarsınız. Bu, Azərbaycana və onun xalqına xidmət edəcək neftin bir hissəsidir. Çox sağ olun.

ABƏŞ-in prezidenti Devid Vudvord içərisində neft olan xüsusi qabı dövlət başçısına təqdim etdi.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.



**Azərbaycan Prezidenti**
**İlham Əliyevin nitqi**

- Əziz dostlar!

Bu gün "Azəri" yatağında ilk neft çıxarılır. Bu, böyük bayramdır, böyük hadisədir və mən bu gözəl bayram münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm.

On il bundan əvvəl "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanda yeni dövr başladı, Heydər Əliyev neft strategiyası icra olunmağa başladı. Bu illər ərzində Azərbaycan xarici tərəfdaşları ilə birlikdə öz neft-qaz yataqlarının işlənilməsində böyük uğurlar əldə etmişdir, böyük nəticələr var. Bu gün "Azəri" yatağından ilk neftin çıxarılması bir daha onu göstərir ki, qarşıda qoyulmuş bütün vəzifələr, planlar həyata keçirilir. Bütün çətinliklərə, maneələrə baxmayaraq, çətin geosiyasi vəziyyətdə Azərbaycan Xəzər dənizinin özünəməxsus olan sektorunda uğurlu işləyibdir, qarşıda duran bütün vəzifələr həyatda öz əksini tapıbdır.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi də uğurla davam edir və bu yaxınlarda biz onların istifadəyə verilməsini qeyd edəcəyik. Şübhə yoxdur ki, əgər 1994-cü ildə Heydər Əliyevin uzaqgörənliyi, cəsarəti olmasaydı biz bütün bu nailiyyətləri əldə edə bilməzdik. Ümumiyyətlə, indi təsəvvür etmək çətindir ki, əgər biz xarici şirkətlərlə bu işlərə başlamasaydıq, Azərbaycanın indiki vəziyyəti necə olacaqdı.

Bu gözəl və tarixi gündə mən "bp" şirkətinin fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Mən bu fəaliyyəti çox yüksək qiymətləndirirəm. "bp" bizim ən əsas tərəfdaşımızdır, çox etibarlı tərəfdaşdır. Bizim 10 il ərzində olan əməkdaşlığımız bir daha göstərir ki, harada əməkdaşlıq varsa, xoş niyyət, qarşılıqlı hörmət varsa, orada işlər də çox yüksək səviyyədə görülür.

"bp" şirkətinin və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin digər üzvləri bizə inanmışlar, bizim gələcəyimizə inanmışlar. Azərbaycana milyardlarla dollar sərmayə qoymuşlar və onun nəticəsində bütün bu işlərin görülməsi mümkün olmuşdur. Mən





Azərbaycan dövləti adından "bp" şirkətinə və konsorsiumun bütün üzvlərinə öz minnətdarlığımı bildirirəm.

Azərbaycan Dövlət Neft Şirkətinin fəaliyyətini çox yüksək qiymətləndirirəm. Şirkət bu illər ərzində Heydər Əliyevin neft strategiyasını Azərbaycanda çox uğurla həyata keçirir və bu gün bu gözəl əməkdaşlıq davam edir. Xarici şirkətlər, Azərbaycan Dövlət Neft Şirkəti, Azərbaycan hökuməti - biz hamımız vahid bir komanda kimi işləmişik. Ona görə də uğur qazanılıbdır. Şübhə etmirəm ki, bu əməkdaşlıq gələcəkdə daha da güclənəcəkdir.

Mən çox şadam ki, bütün bu böyük, nəhəng, dünya miqyaslı layihələrin həyata keçirilməsində Azərbaycan mütəxəssisləri, azərbaycanlı işçilər, fəhlələr çox fəal iştirak ediblər və ümumi işimizə öz töhfələrini veriblər.

Mən bu gün buraya gələrkən, "Çıraq-1" platformasının üzərindən uçarkən 1997-ci ilin unudulmaz o gününü bir daha xatırladım. 1997-ci il noyabrın 12-də "Çıraq" yatağından ilk neft hasil edilmişdi və biz hamımız orada o hadisəni qeyd edirdik. Çox yaxşı xatırlayıram ki, o gün ən çox sevinən xalqımızın ümummilli lideri Heydər Əliyev idi.

Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun ideyaları yaşayır, onun əməlləri yaşayır və Azərbaycan xalqına xidmət edir. Bu gün bu nəhəng platformanın istifadəyə verilməsi də onun siyasəti nəticəsində mümkün olmuşdur. Mən bir daha qeyd etmək istəyirəm ki, bütün planlar, nəzərdə tutulmuş bütün layihələr vaxtlı-vaxtında yerinə yetirilir, Azərbaycan dövləti, Azərbaycan hökuməti öz strateji seçiminə sadiqdir və biz bu işləri davam etdirəcəyik.

Əziz dostlar, mən sizin hamınızı bu hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm, yeni uğurlar arzulayıram. Əminəm ki, Azərbaycan nefti bundan sonra da Azərbaycan xalqının rifah halının yaxşılaşmasına, Azərbaycan dövlətinin güclənməsinə xidmət edəcəkdir.

Sağ olun.



Prezident İlham Əliyevin nitqi diqqətlə dinlənildi və alqışlarla qarşılandı.

Azərbaycan Prezidenti **İlham Əliyev** ABƏŞ-in prezidenti Devid Vudvorda xatirə olaraq "Bakının mənzərəsi" tablosunu təqdim edərək dedi:

- Mən də öz tərəfimdən bu gözəl rəsmi Sizə təqdim edirəm. Bakı Sizin üçün də doğma şəhər, Sizin üçün bir vətən olubdur. Mən çox şadam ki, Azərbaycanda işləyən xarici dostlarımız, tərəfdaşlarımız burada özlərini çox rahat hiss edirlər. Mən əminəm ki, Bakı həmişə Sizin üçün doğma şəhər olaraq qalacaqdır.

Prezident İlham Əliyev mərasim iştirakçıları ilə xatirə şəkli çəkdirdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev "Mərkəzi Azəri" platformasındakı xatirə lövhəsinə baxdı. Xatirə lövhəsində bu sözlər yazılmışdı:

***"18 fevral 2005-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev "Mərkəzi Azəri" platformasında ilk neftin hasilatının açılışını etmişdir".***

Dövlət başçısı burada platformada çalışan işçilərlə xatirə şəkli çəkdirdi.

Mərasim başa çatdıqdan sonra Prezident İlham Əliyev vertolyotla Bakıya qayıtdı.



BAKI, 20 İYUN 2005-Cİ İL



# Kompressor və suvurma platformasının təqdimatı

2005-ci il iyunun 20-də Bakıda dünya standartlarına cavab verən müasir kompressor və suvurma platformasının (KSP) təqdimatı oldu.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edirdi.

Böyük Britaniyanın "Ameq", Türkiyənin "Tekfen" və Azərbaycan-Türkiyə birgə müəssisəsi olan "Azfen" şirkətləri (ATA) tərəfindən tikilmiş və Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri" yatağında sabit hasilatı təmin etməkdən ötrü laylara qaz və su vurmaq üçün nəzərdə tutulmuş bu platformadan sualtı elektrik kabelləri vasitəsilə "Qərbi Azəri" və "Şərqi Azəri" platformalarına elektrik enerjisi də veriləcəkdir. Layihənin ümumi dəyəri 62 milyon ABŞ dollarıdır.

Dövlət başçısı əvvəlcə platformanın hazırlanma prosesini və tamamlama işlərini əks etdirən fotoguşəyə baxdı.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin vitze-prezidenti Fil Hom, Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev məlumat verdilər ki, KSP-nin su və qazvurma gücü "Mərkəzi Azəri", "Qərbi Azəri" və "Şərqi Azəri" platformalarının hasilat strategiyasına uyğun olaraq müəyyənləşdirilmişdir. KSP elektrik enerjisi istehsal edən 2 avadanlıqdan, 4 qazvurma kompressorundan və 4 suvurma nasosundan ibarətdir. Maksimum qazvurma gücü 1 milyard 50 milyon kubfut, suvurma gücü isə 900 min barreldir.

KSP-nin ictimai sərmayə proqramı barədə də məlumat verildi. Bildirildi ki, bu sahədə qarşıya qoyulmuş məqsəd Bibiheybət qəsəbəsində sosial və iqtisadi inkişafa kömək etmək, əhalinin ehtiyaclarını ödəməkdir. Proqramın əhatə dairəsinə təhsil və təlim, gənclərin məşğulluğu, icmanın inkişafı, infrastrukturun bərpası və icma tərəfindən həyata keçiriləcək müxtəlif layihələr daxildir. Layihələr icmanın özü tərəfindən seçilir və tərtib olunur.

İndiyədək elektrik enerjisi təchizatı sisteminin bərpası, idman salonu və təcili tibbi yardım stansiyasının, tibb məntəqəsinin inşası və bütün lazımi avadanlıqla təchiz olunması, mədəniyyət sarayının bərpası, orta məktəbdə kompüter sinfinin təşkili layihələri tamamlanmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev platforma ilə yaxından tanış oldu. Dövlət başçısına məlumat verildi ki, KSP-nin üst modulları Bibiheybət qəsəbəsində yerləşən ATA istehsal sahəsində hazırlanır. Bu layihəyə mövcud tikinti sahəsinin modernləşdirilməsi və yeni istehsal obyektlərinin tikintisi də daxildir. Plana əsasən, bu il iyunun 28-də üst modullar dənizə çıxarılacaqdır, iyul ayında isə modullar Bakıdan 90 kilometr cənub-şərqdə daimi yerində quraşdırılacaqdır. Platformanın istifadəyə verilməsi 2006-cı ilin fevral ayına planlaşdırılmışdır.












PLATER


CA-CWP





Prezident İlham Əliyev platformanın iş prosesi, təhlükəsizlik sistemləri, avadanlığı ilə maraqlandı. Bildirildi ki, əməyin təhlükəsizliyi KSP-də işləyən bütün şəxslər və podratçılar tərəfindən qəbul olunan hər bir qərarda nəzərə alınır. Qəzaların qarşısını almaq üçün bütün tədbirlər görülür. İş yerləri müntəzəm olaraq təftiş edilir. 2005-ci ilin mart ayından bəri heç bir qəzaya yol vermədən 6,5 milyon adamsaat iş həcminə nail olunmuşdur.

Tikinti işlərinin qızğın çağında 2400-dən çox insan işlə təmin olunmuşdur ki, bunların da 75 faizi Azərbaycan vətəndaşlarıdır. İndiyədək istehsal sahəsinin modernləşdirilməsi və ümumilikdə layihənin icrası ilə bağlı müxtəlif xidmətlərin göstərilməsi məqsədi ilə 75-dən çox Azərbaycan şirkəti subpodrat götürmüşdür. İşçi qüvvəsinin lazımi bacarıq və qabiliyyətlərə yiyələnməsi üçün 200 min saatlıq, texniki təhlükəsizliyə dair isə 120 min saatlıq təlim keçilmişdir. Ölkə daxilində sərf olunmuş xərclərin ümumi həcmi 250 milyon ABŞ dolları təşkil etmişdir. Yerli materialların alınmasına 15,5 milyon, yerli xidmətlərin göstərilməsinə isə 14,5 milyon ABŞ dolları sərf olunmuşdur.

ATA-nın istehsal sahəsi KSP layihəsi üçün tamamilə modernləşdirilmiş, yeni qurğular quraşdırılmışdır. Montaj sahəsi daha hündür yükləri qəbul etmək üçün gücləndirilmişdir. Ətraf mühitə təsiri azaltmaq üçün



xüsusi qurğular inşa olunmuşdur. İstehsal sahəsini genişləndirmək məqsədi ilə 5 hektar sahə neft gölməçələrindən təmizlənmiş və nəqliyyat vasitələrinin birtərəfli hərəkətinə imkan yaratmaq üçün 2 kilometr uzunluğunda yol çəkilmişdir. Obyekt beynəlxalq standartlara uyğundur və istehsal sahəsi 25 min tonadək çəkisi olan konstruksiyanın tikintisini təmin etməyə qadirdir. İstehsal sahəsinin modernləşdirilməsi ilə bağlı işlərin yerinə yetirilməsinə 27 min ton beton, 400 min ton doldurucu material və 200 min ton çınqıl istifadə olunmuşdur. İşçiləri yataqxana, yemək ilə təmin etmək üçün də şərait yaradılmışdır.

Prezident İlham Əliyev Xəzər dənizində ilk bu cür nəhəng kompressor və suvurma platformasının yeni istehsal qurğuları, kompüter, avtomat və digər sistemləri ilə tanış oldu, görülən işləri yüksək qiymətləndirdi.





Heydər Əliyev adına
btc neft kəməri
ƏFSANƏDƏN GERÇƏKLİYƏ





# BTC neft kəməri əfsanədən gerçəkliyə çevrilir

ANKARA, 29 OKTYABR 1998-Cİ İL



# Türkiyə Böyük Millət Məclisində Ankara bəyannaməsinin imzalanması

1998-ci il oktyabrın 29-da Ankarada, Türkiyə Böyük Millət Məclisinin binasında Xəzər regionunun enerji ehtiyatlarının, xüsusən Azərbaycan neftinin dünya bazarlarına çatdırılması üçün Bakı-Tbilisi-Ceyhan marşrutunun müəyyənləşdirilməsini nəzərdə tutan Ankara bəyannaməsinin imzalanması mərasimi oldu.

Bu mərasimdə iştirak etmək üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Böyük Millət Məclisinə gəldi. Azərbaycan dövlətinin başçısını Türkiyə parlamentinin sədri Hikmət Çətin və dost ölkənin millət vəkilləri mehribanlıqla və səmimiyyətlə qarşıladılar. Onlar Azərbaycan lideri ilə görüşməkdən və Cümhuriyyətin 75 illik yubileyində Prezident Heydər Əliyevin iştirak etməsindən şərəf duyduqlarını bildirdilər.

Azərbaycanın dövlət başçısı Böyük Millət Məclisinin ayrı-ayrı otaqlarını gəzdi.

Sonra mühüm tarixi sənədin imzalanma mərasimi oldu.

Prezident Heydər Əliyevin təşəbbüsü ilə hazırlanmış Ankara bəyannaməsini Türkiyə dövləti adından Prezident Süleyman Dəmirəl və Baş nazir Məsud Yılmaz, Azərbaycan dövləti adından Prezident Heydər Əliyev, Gürcüstan dövləti adından Prezident Eduard Şevardnadze, Qazaxıstan dövləti adından Prezident Nursultan Nazarbayev, Özbəkistan dövləti adından Prezident İslam Kərimov, habelə ABŞ dövləti adından energetika naziri Bill Riçardson imzaladılar.

Türkiyə Prezidenti Süleyman Dəmirəl və Azərbaycan Prezidenti Heydər Əliyev mərasimdə çıxış etdilər.

**Türkiyə Prezidenti Süleyman Dəmirəlin çıxışı**

- Azərbaycanın hörmətli Cümhurbaşqanı Heydər Əliyev!

Gürcüstanın hörmətli Prezidenti Eduard Şevardnadze!

Qazaxıstanın hörmətli Prezidenti Nursultan Nazarbayev!

Özbəkistanın hörmətli Prezidenti İslam Kərimov!

ABŞ-ın hörmətli energetika naziri Bill Riçardson!

Hamınıza dərin hörmət və ehtiramımı bildirirəm.

Bu gün Cümhuriyyətimizin 75-ci ildönümünü qeyd etmək münasibətilə toplaşıb, dost və qardaş ölkələrin Prezidentləri ilə çox mənalı bəyannamə imzalanması mərasimində hamınızı hörmətlə və ehtiramla salamlayıram.

İmzalanan bu bəyannamə Xəzər hövzəsi ölkələrinin müstəqilliklərinin daha da inkişaf etdirilməsi və gücləndirilməsi, iqtisadiyyatlarının canlandırılması və xalqlarının rifah səviyyəsinin yüksəldilməsi baxımından böyük əhəmiyyət kəsb edən, enerji ehtiyatlarının dünya bazarlarına iqtisadi və ticari baxımdan əlverişli olan birdən çox neft kəməri ilə daşınması sahəsində müştərək qətiyyətimizi və iradəmizi nümayiş etdirən tarixi bir sənəddir. Bəyannamə Xəzər hövzəsindəki neft və qaz ehtiyatlarının Transxəzər və Transqafqaz neft və qaz kəmərləri sistemlərini əhatə edən Şərq-Qərb dəhlizi ilə daşınmasının ölkələrimiz üçün böyük əhəmiyyət kəsb edən bir layihə olduğunu bir daha nümayiş etdirir.

Prezidentlər olaraq, Azərbaycanda əsas neft kəməri ilə bağlı qərarın qəbul ediləcəyi mərhələdə Xəzər neftinin dünya bazarlarına daşınması üçün Bakı-Tbilisi-Ceyhan neft kəmərinin əsas neft kəməri kimi seçilməsi sahəsindəki qətiyyətimizi və iradəmizi bir daha dünyaya bildiririk. Bakı-Tbilisi-Ceyhan layihəsi bölgədə enerji istehsalının uzunmüddətli iqtisadi rifahı təmin edən yeganə layihədir. Bu layihə XXI əsrin ən parlaq sülh layihəsi kimi qarşımızda durur.

Bəyannamədə göstərilən şərtlərin həyata keçirilməsi üçün sərmayə qoyacaq şirkətləri və müvafiq ölkələrin dövlətlərini, beynəlxalq maliyyə qurumlarını layihə ilə bağlı işləri sürətləndirməyə çağırırıq.

Bəyannamənin ABŞ-ın energetika naziri Bill Riçardson tərəfindən də şahid qismində imzalanması layihənin ümumbəşəri xarakter daşıdığını göstərir və ABŞ-ın bölgədə rifahın artırılması səyləri ilə bu layihəni dəstəkləməsini təqdir edirik.

XXI əsrin taleyində müəyyənləşdirici rol oynayacaq Avrasiya gələcəyi ilə bağlı konkret əməkdaşlıq layihələrində Rusiya ilə ortaqlıq zəminində birlikdə işləmək arzu və iradəmiz tamdır. Bu vasitə ilə Avrasiya enerji ehtiyatlarının daşınması layihələrində Rusiyanı da iştirak etməyə çağırıram.

Ankara bəyannaməsini imzalayan dost və qardaş ölkələrin dövlət başçılarına uğurlar diləyir, bunun xalqlarımızın gələcək rifah halının yüksəldilməsi və ölkələrimizin əmin-amanlığı üçün xeyirli olmasını arzulayıram.

Sonra Azərbaycan Prezidenti Heydər Əliyev çıxış etdi.

**Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı**

- Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli cənab Süleyman Dəmirəl!

Türkiyə Böyük Millət Məclisinin sədri hörmətli cənab Hikmət Çətin!

Türkiyə Cümhuriyyətinin Baş naziri hörmətli cənab Məsud Yılmaz!

Gürcüstan Prezidenti cənab Eduard Şevardnadze!

Qazaxıstan Prezidenti cənab Nursultan Nazarbayev!

Özbəkistan Prezidenti cənab İslam Kərimov!

Amerika Birləşmiş Ştatlarının energetika naziri cənab Bill Riçardson!



Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü münasibətilə bayram mərasimləri zamanı Ankarada imzaladığımız bəyannamə tarixi əhəmiyyət daşıyır. Bu, birinci növbədə bizim ölkələrimizin, xalqlarımızın milli mənafeyinə cavab verir, milli mənafeyindən irəli gəlir. Eyni zamanda dövlətlərimiz, ölkələrimiz arasında iş birliyinin, əməkdaşlığın yeni bir mərhələsini nümayiş etdirir.

Məlumdur ki, Azərbaycan Respublikası Xəzər dənizinin enerji ehtiyatlarının işlənilməsi və dünya bazarlarına çıxarılması üçün bir neçə il bundan əvvəl əməli işlərə başlamışdır. 1994-cü il sentyabrın 20-də dünyanın nüfuzlu 11 neft şirkəti ilə, konsorsium yaratmış şirkətlərlə böyük bir müqavilə - Xəzər dənizindəki "Azəri", "Çıraq" yataqlarından və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsindən neft və qaz hasil edilməsi haqqında müqavilə imzalanıbdır. Bu müqavilə "Əsrin müqaviləsi" adı alıbdır.

Biz keçən il noyabrın 12-də "Çıraq" neft yatağından ilkin neftin alınmasını qeyd etdik. Hazırda həmin yataqdan gündə 10 min ton neft hasil olunur və dünya bazarlarına çıxarılır. Aparılan işlər nəticəsində yaxın vaxtlarda hasilat 3 dəfə artacaqdır.

Biz 1994-cü ildə bu müqaviləni imzalayarkən Xəzər neftinin dünya bazarlarına çıxarılması üçün bir neçə boru kəməri yaradılmasını nəzərdə tutmuşduq. Onlardan birincisi Bakı-Novorossiysk marşrutu, ikincisi - ilkin neftin ixracı üçün Bakı-Supsa, Gürcüstan marşrutu və ən əsas, böyük neft kəməri isə - dörd il bundan əvvəl də fikrimiz belə idi - Bakı-Ceyhan marşrutu olmalıdır.

Xəzərin Azərbaycan sektorunda ötən dörd il müddətində bir çox yataqlar barədə 10-dan artıq beynəlxalq konsorsiumla müqavilələr imzalanmış və həmin neft, qaz yataqlarından gələcəkdə böyük neft alınması gözlənilir.



Məlumdur ki, Xəzərin digər ölkələrə - Qazaxıstana, Türkmənistana, Rusiyaya, İrana məxsus sektorlarında da neft yataqları vardır. Məmnuniyyətlə qeyd edirəm ki, bu sektorlarda da, xüsusən Qazaxıstana məxsus sektorda artıq əməli işlər aparılır.

Mərkəzi Asiyanın, Xəzəryanı ölkələrin - Qazaxıstanın, Türkmənistanın, Özbəkistanın ərazilərində də böyük neft və qaz yataqları vardır. Həmin yataqların gələcəkdə işlənilməsi, neftin və qazın dünya bazarlarına çıxarılması üçün yollar araşdırılır.

Bunlar hamısı 1994-cü ildə bizim nəzərdə tutduğumuz Bakı-Ceyhan böyük, əsas neft kəmərinin çəkilməsini bu gün daha da reallaşdırır. Məlumdur ki, Qazaxıstanın "Tengiz" yatağında zəngin neft və qaz ehtiyatları vardır. Oradan hasil edilən neftin bir hissəsi artıq Qazaxıstan, Azərbaycan, Gürcüstan respublikalarının ərazilərindən, Xəzər dənizi və Qara dəniz vasitəsilə dünya bazarlarına çıxarılır. Məlumat verirəm ki, bu yolla artıq 2 milyon 500 min ton Qazaxıstan nefti daşınıbdır.

"Tengiz"dəki zəngin neft yataqlarının gələcəkdə işlənilməsi Qazaxıstanın Aktau limanı ilə bizim Bakı limanı arasında bir neft borusu tikilməsi zərurətini də meydana çıxarmışdır. Bütün bunlar hamısı Bakı-Ceyhan əsas neft boru kəmərinin bu gün çox real olduğunu əyani surətdə sübut edir. Ona görə də bu gün burada, Türkiyədə, Ankarada hamımızın birlikdə imzaladığımız bu bəyannamə bizim dörd il müddətində apardığımız işin böyük bir nəticəsidir.

Doğrudur, Bakı-Ceyhan marşrutuna, Bakı-Tbilisi-Ceyhan marşrutuna etiraz edənlər və onun həyata keçirilməsinə mane olmaq istəyənlər də vardır. Bəzi şirkətlər kommersiya nöqteyi-nəzərindən bu marşrutun səmərəli olmadığını iddia edirlər. Şübhəsiz ki, bu şirkətlərin kommersiya maraqları da nəzərə alınmalıdır. Biz həmin şirkətlərlə bundan sonra da iş aparacağıq. Ancaq hesab edirəm ki, mərasimdə iştirak edən ölkələrin dövlət başçılarının bu gün ifadə etdikləri siyasi iradə bu proqramın, layihənin həyata keçirilməsinin təməlini qoyur.

Bilirsiniz ki, bu işlərin təməlini, əsasını müstəqil Azərbaycan Respublikası Xəzər dənizindəki enerji ehtiyatlarının birgə işlənilməsi barədə qəbul etdiyi qərarlarla qoymuşdur. Mən çox məmnunam ki, dörd il bundan əvvəl təməlini qoyduğumuz iş bu gün böyük vüsət almışdır və bu gün burada iştirak edən dövlət başçılarının hamısının birgə iradəsi ilə böyük bir bəyannamənin qəbul olunmasına gətirib çıxarmışdır.

Mən Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin böyük gələcəyinə, uğuruna inanıram. Mən inanıram ki, bu neft borusunun tikilməsi və ondan gələcəkdə istifadə edilməsi bizim ölkələrimiz arasında olan dostluq, əməkdaşlıq, qardaşlıq əlaqələrini daha da yüksəklərə qaldıracaqdır. Eyni zamanda, bunlar hamısı ölkələrimizin dövlət müstəqilliyinin nə qədər vacib olduğunu sübut edir. Biz yalnız dövlət müstəqilliyi əldə edəndən sonra öz təbii sərvətlərimizin sahibi olmuşuq, bunlardan sərbəst surətdə istifadə edirik və hasil edilmiş nefti istədiyimiz vaxt dünya bazarlarına çıxarırıq.

Mən bu gün bəyannamənin imzalanması münasibətilə dost ölkələrin dövlət başçılarını - Türkiyəni, Qazaxıstanı, Gürcüstanı, Özbəkistanı, Amerika Birləşmiş Ştatlarını və Xəzəryanı ölkələrin hamısını təbrik edirəm. Ümidvaram ki, bizim bu gün gördüyümüz iş XXI əsr, gələcək əsrlər üçün böyük töhfələr verəcəkdir. Xeyirli, uğurlu olsun!

Türkiyə Prezidenti Süleyman Dəmirəlin və Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışları diqqətlə dinlənildi və gurultulu, sürəkli alqışlarla qarşılandı.

Sonra mərasimdə iştirak edən dövlət və hökumət başçıları Bakı-Tbilisi-Ceyhan boru kəməri haqqında Ankara bəyannaməsinin qəbul olunması münasibətilə bir-birini bir daha təbrik etdilər, bu tarixi layihənin həyata keçirilməsində uğurlar arzuladılar.

## İSTANBUL, 18 NOYABR 1999-CU İL



# "Çırağan sarayı"nda tarixi sənədlərin imzalanması

1999-cu il noyabrın 18-də İstanbulda, "Çırağan sarayı"nda "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikasının əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında saziş"in, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin layihəsini dəstəkləmək, Qazaxıstanın neft həcmlərini bu layihəyə cəlb etmək üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Qazaxıstan Respublikası arasında "İstanbul bəyannaməsi"nin, Transxəzər qaz kəməri barədə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Türkmənistan arasında "Hökumətlərarası bəyannamə"nin, Azərbaycan qaz layihələrinin inkişafını və Azərbaycan qazının Türkiyə Respublikasına və digər beynəlxalq bazarlara satışını dəstəkləyən sənəd kimi Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında "Qarşılıqlı anlaşma memorandumu"nun imzalanması mərasimi oldu.

Salona toplaşanlar Azərbaycan Prezidenti Heydər Əliyevi, Türkiyə Prezidenti Süleyman Dəmirəli, ABŞ Prezidenti Bill Klintonu, Gürcüstan Prezidenti Eduard Şevardnadzeni, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevi, Türkmənistan Prezidenti Saparmurad Niyazovu, Norveçin Baş naziri Kyel Maqne Bundeviki, Türkiyənin Baş naziri Bülənd Eceviti və bu ölkələrin digər rəsmi şəxslərini alqışlarla qarşıladılar.

Mərasimi Türkiyə Respublikasının Prezidenti **Süleyman Dəmirəl** giriş sözü ilə açaraq dedi:

- Əziz dostlar, möhtərəm qonaqlar!

Dəyərli mətbuat nümayəndələri!

Biz bu gün buraya qısa bir müddətdən sonra bölgəmizin inkişafında mühüm rol oynayacaq tarixi sənədlərin imzalanması mərasiminə toplaşmışıq. XXI yüzilliyə möhürünü vuracaq bu sənədlər bölgəmizin parlaq gələcəyinin təməlini atacaqdır.

Həmin sənədlərin adlarını çəkən Prezident Süleyman Dəmirəl əlavə etdi ki, bütün bu sənədlərin tərəfdaş ölkələrə xeyirli olmasını ürəkdən arzulayıram. İndi isə imzalanma mərasiminə başlayırıq.

"Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikasının əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında saziş"i Prezidentlər Heydər Əliyev, Eduard Şevardnadze və Süleyman Dəmirəl imzaladılar.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin layihəsini dəstəkləmək, Qazaxıstanın neft həcmlərini bu layihəyə cəlb etmək üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Qazaxıstan Respublikası arasında "İstanbul bəyannaməsi"ni Prezidentlər Bill Klinton, Heydər Əliyev, Süleyman Dəmirəl, Eduard Şevardnadze və Nursultan Nazarbayev imzaladılar.

Sonra Prezidentlər Transxəzər qaz kəməri barədə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Türkmənistan arasında "Hökumətlərarası bəyannamə"ni imzaladılar.

Daha sonra Prezidentlər Azərbaycan qaz layihələrinin inkişafını və Azərbaycan qazının Türkiyə Respublikasına və digər beynəlxalq bazarlara satışını dəstəkləyən sənəd kimi Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında "Qarşılıqlı anlaşma memorandumu"nu imzaladılar.

Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi və digər Prezidentləri Bakı-Ceyhan əsas ixrac boru kəməri barədə sənədlərin imzalanması münasibətilə hərarətlə, səmimiyyətlə təbrik etdi.

**Süleyman Dəmirəl:** Çıxış etmək üçün ilk sözü Azərbaycan Respublikasının Prezidenti, əziz qardaşım, hörmətli Heydər Əliyevə verirəm.

### Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi

- Hörmətli Prezidentlər!

Hörmətli dostlar!

Hörmətli xanımlar və cənablar!

Mən bu gün böyük iftixar hissi keçirirəm. Ona görə ki, beş il bundan öncə, 1994-cü ilin sentyabr ayında Bakıda imzalanmış "Əsrin müqaviləsi" adlı böyük neft müqaviləsinə, Xəzər dənizinin neft və qaz ehtiyatlarından müştərək istifadə etmək üçün yaranmış konsorsumun tərkibinə Azərbaycan, Amerika Birləşmiş Ştatları, Avropa ölkələri, Türkiyə və Rusiya daxildirlər və bu müqavilənin imzalanmasından beş il keçəndən sonra həmin müqavilə imzalanarkən nəzərdə tutulmuş Bakı-Tbilisi-Ceyhan neft kəmərinin həyata keçirilməsi üçün artıq bu gün bu sənədlər imzalandı.

Məlumdur ki, bu, asan iş deyildi. Bizim qarşımızda çox böyük çətinliklər var idi. "Əsrin müqaviləsi"ni imzalayanda da biz böyük çətinliklərlə rastlaşdıq. Sonra da Bakı-Ceyhan neft kəmərini çəkmək üçün bizim qarşımızda çox böyük maneçiliklər, əleyhimizə çıxanlar var idi. Ancaq biz öz iradəmizi itirmədik, başladığımız işi axıra çatdırdıq.

Bu barədə Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında olan əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Ona görə də mən Türkiyə Cümhuriyyətini, Türkiyə xalqını və Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum, qardaşım Süleyman Dəmirəli ürəkdən təbrik edirəm.

Biz bu boru xəttini Gürcüstandan keçiririk. Şübhəsiz ki, əgər bu xəttin Gürcüstan ərazisindən keçməsi mümkün olmasaydı bu, baş tutmazdı. Ona görə də Gürcüstan Prezidenti cənab Şevardnadzenin də bu məsələnin həll edilməsi üçün çox böyük səyləri olmuşdur. Mən gürcü xalqını, Gürcüstanı və əziz dostum, qardaşım Eduard Şevardnadzeni ürəkdən təbrik edirəm.

Ancaq onu da bəyan edirəm ki, əgər bu məsələləri həyata keçirmək üçün Amerika Birləşmiş Ştatlarının dəstəyi olmasaydı, biz bunların heç birisini edə bilməzdik.

"Əsrin müqaviləsi"nin imzalanmasından əvvəl müstəqil Azərbaycana qarşı bir il böyük təzyiqlər göstərildi. Bizim qarşımızı almaq istəyirdilər. Məhz Amerika Birləşmiş Ştatlarının, onun Prezidenti, hörmətli dostum cənab Bill Klintonun dəstəyi nəticəsində biz 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"ni imzaladıq. Amma ondan sonra da problemlərimiz çox oldu. Bakı-Ceyhanı başqa ölkələr qəbul etmirdilər. Ancaq hörmətli cənab Prezident Bill Klinton bu məsələ ilə ardıcıl surətdə məşğul olurdu, bizə dəstək, ruh verirdi və Türkiyəni, Azərbaycanı, Gürcüstanı, Xəzəryanı başqa ölkələri bu məsələyə cəlb edirdi, öz hörməti, öz nüfuzu ilə, bu barədə ardıcıl siyasəti ilə biz belə böyük "Əsrin müqaviləsi"nin imzalanmasına nail olduq.

Ona görə də mən, biz hamımız birlikdə Amerika Birləşmiş Ştatlarına, onun Prezidenti, əziz dostumuz cənab Bill Klintona təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Hörmətli cənab Prezident Bill Klinton, mən Sizi də bu münasibətlə ürəkdən təbrik edirəm.

Bu boru xəttinin, yəni neft kəmərinin istifadə edilməsi layihəsinə indi Qazaxıstan da qoşulubdur. Qazaxıstan da öz neftinin böyük bir hissəsini bu kəmər vasitəsilə keçirəcəkdir.

Biz Azərbaycan olaraq, - Gürcüstan da bunu qəbul edibdir, - bunu qəbul etmişik və üzərimizə düşən bütün öhdəlikləri həyata keçirəcəyik. Hesab edirəm ki, Qazaxıstan bu yolla, bu boru xətti ilə neftin ixracında böyük uğurlar əldə edəcəkdir. Ona görə də mən qazax xalqını və Qazaxıstan Prezidenti, əziz dostum Nursultan Nazarbayevi ürəkdən təbrik edirəm.

Mən Türkiyə xalqına, Türkiyənin vətəndaşlarına hörmət və ehtiramımı bildirirəm və onları təbrik edirəm. Beş ildir ki, Türkiyəyə hər dəfə gələndə mənə sual verirdilər: Bakı-Ceyhan boru xətti nə vaxt olacaqdır? Mən də hər dəfə deyirdim ki, olacaqdır, olacaqdır, olacaqdır! Artıq bu gün bu, oldu və saziş imzalandı. Hamınızı ürəkdən təbrik edirəm!

Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və gurultulu, sürəkli alqışlarla qarşılandı.

Sonra mərasimdə Gürcüstan Prezidenti Eduard Şevardnadze nitq söylədi.

**Gürcüstan Prezidenti**
**Eduard Şevardnadzenin nitqi**

- Əgər 10 il əvvəl kimsə belə bir layihə irəli sürsəydi, yəqin deyərdilər ki, bu, xülyadır, real deyildir.

Bu gün biz həqiqətən böyük bir hadisənin şahidiyik. Gəlin, yaxşı yadda saxlayaq: 18 noyabr - biz Avropa xartiyasını imzalamaq məsələsini həll etdik və bu gün, indicə tarixi, çox böyük əhəmiyyətə malik layihələr - Heydər Əliyeviç Əliyevin dediyi kimi, əsrin layihələrini imzaladıq.

Mən sizin hamınızı təbrik edirəm və fotoqraf-jurnalistləri bu fotoşəkilləri qoruyub saxlamağa çağırıram, bir müddətdən sonra onlar nadir və bahalı şəkillər olacaqdır.

Mənim dostum, mənim qardaşım Heydər Əliyeviç Əliyev Bakı-Tbilisi-Ceyhan layihəsinin,- şübhəsiz ki, Qazaxıstanın, bu ölkə Prezidentinin iştirakı ilə, Qazaxıstanın bu layihədə iştirak etməsi onun iradəsidir, - əhəmiyyətindən çox yaxşı, gözəl danışdı. Mən onun sözlərinə qoşuluram. Amma xatırlatmaq istəyirəm ki, biz bu sazişi imzalamazdan öncə Bakı-Supsa layihəsi olmuşdur. Bunu unutmayaq. Bu, ilkin neftlə bağlı layihədir və o, sınaqdan çıxarılmışdır, fəaliyyət göstərir, işləyir və indi Xəzər nefti Qərb marşrutu ilə axır.

Bununla vurğulamaq istəyirəm ki, indi bu çox mühüm kontraktları, çox mühüm müqavilələri imzalamış ölkələr etibarlı ölkələrdir. O cümlədən də mənim Vətənim - o da etibarlı və sabit ölkədir. Bizə inanmaq olar.

Çox mühümdür ki, qazın Transqafqaz, Transxəzər magistralı adlandırılan magistralla nəqli kimi prinsipial məsələ həll edilir. Bu da Türkmənistan, Azərbaycan, Gürcüstan, Türkiyə üçün və bir çox digər ölkələr üçün tarixi hadisədir.

Hətta Prezidentlər arasında tamamilə müxtəlif mövqelərin mövcud olduğu vaxtda da hökm sürmüş əməkdaşlıq, qarşılıqlı anlaşma və qarşılıqlı hörmət ruhunu qeyd etməyə bilmərəm. Onu da deməyə bilmərəm ki, biz çətinlik çəkdikdə, - belə çətinliklər isə olmuşdur, - amerikalı dostlarımız, xüsusən Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton həmişə bizim yanımızda olmuşdur.



Mən, təəssüf ki, öz nefti və qazı olmayan bir ölkəni təmsil edirəm. Biz onları ancaq öz ərazimizdən ya buraxa, ya da buraxmaya bilərik. Bununla əlaqədar mən Amerika Birləşmiş Ştatlarının Prezidenti ilə dəfələrlə danışmalı olmuşam. Onun bu işdə şəxsən maraqlı olduğunu, özü də təkcə öz şirkətlərinin, öz ölkəsinin iqtisadi faydası baxımından yox, hər cəhətdən maraqlı olduğunu bilirəm. O, ən başlıca cəhəti gözəl anlayırdı ki, bu cür layihələr - əsrin ən iri layihələri ölkələrimizin müstəqilliyinin, azadlığının və demokratik inkişafının çox mühüm əsasıdır, yəni gələcəyimizin əsasıdır.

Hörmətli Prezidentlər, əziz dostlar, əziz qardaşlar, mən sizi bu tarixi gün münasibətilə təbrik edirəm. Bir daha çağırıram - fotoşəkilləri qoruyub saxlayın.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayevə söz verildi.

**Qazaxıstan Prezidenti**
**Nursultan Nazarbayevin nitqi**

- Çox sağ olun, cənab Prezident Dəmirəl!

Hörmətli xanımlar və cənablar!

Transxəzər nəqliyyat sistemi yaratmaq ideyasının əməli surətdə gerçəkləşməsindəki mühüm tərəqqini Qazaxıstan da alqışlayır. Həmin sistemin bünövrəsi bu ilin yazında Bakı-Supsa boru kəmərinin istismara verilməsi ilə qoyulmuşdur və təkcə cari ildə Qazaxıstan bu boru kəməri ilə 2 milyon tondan artıq neft ixrac etməlidir.

Bu gün İstanbul bəyannaməsinin, digər sənədlərin imzalanması Şərq-Qərb enerji dəhlizinin marşrutlarından birinin - çoxdan gözlədiyimiz marşrutun texniki, hüquqi və kommersiya cəhətlərinə nəhayət, müəyyənlik gətirdi. Ümidvaram ki, bu, neft şirkətlərinə, potensial sərmayədarlara əlverişli şərait yaradacaq, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin iqtisadi cəhətlərinin cazibədarlığını yüksəldəcəkdir ki, bunda da bizim hamımızın böyük marağı var.

Böyük Xəzər neftinin çoxvariantlı marşrutlarının inkişafı haqqında özünün prinsipial mövqeyini əsas tutaraq, Qazaxıstan Transxəzər nəqliyyat sistemi layihəsinin həyata keçirilməsində əməkdaşlığa hazırdır, neft və qazın həmin marşrutla ixracı üçün neftçıxaran şirkətlərə qarşılıqlı surətdə məqbul şərait yaradılmasından ötrü bütün lazımi tədbirləri görəcəkdir.

Mən Prezident Şevardnadze ilə razıyam. O dedi ki, bu gün sənədlərin imzalanması, qəbul etdiyimiz qərarlar yalnız dövlətlərimizin müstəqilliyi şəraitində



mümkün olmuşdur. Müstəqilliyin qorunub saxlanması və möhkəmləndirilməsi bizim başlıca məqsədimizdir. Buna görə də hesab edirəm ki, bu gün tarixi sənəd imzalanmışdır.

Qazaxıstanda biz hamımız Şimali Xəzər yataqlarında kəşfiyyat qazmasının nəticələrini ümidlə gözləyirik. Bütün ekspertlər Qazaxıstandan başlanan nəqliyyat dəhlizlərinin inkişaf perspektivlərini və dünya iqtisadiyyatının Xəzər enerji daşıyıcıları ilə təmin edilməsini həmin yataqlarla bağlayırlar.

Neft-qaz sektorunun inkişaf etdirilməsi Qazaxıstan üçün üstün vəzifədir. Biz bu sahəyə sərmayələr cəlb olunması üçün fəal çalışırıq. Hesab edirik ki, Xəzər neftinin nəqli üçün etibarlı, ekoloji cəhətdən təhlükəsiz, kommersiya baxımından sərfəli marşrutun çəkilməsi ən əvvəl müstəqilliyimizin, Xəzər bölgəsi ölkələrinin iqtisadi sərbəstliyinin möhkəmlənməsinə, xalqlarımızın rifahının yaxşılaşmasına xidmət edəcəkdir.

Ölkəmin mehriban qonşuluq, qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsiplərinə sadiqliyini nəzərə çarpdıraraq, mənim həmkarlarım, sizi əmin etmək istəyirəm ki, Qazaxıstan bu perspektivli layihənin iştirakçılarından biri kimi olmağa hazırdır. Ümidvaram ki, bu gün biz Xəzər dənizi hövzəsinin neft və qazının dünya bazarına sabit, qarşılıqlı surətdə faydalı ixracı üçün bünövrəni möhkəmlətdik.

Hazırlıq işlərində yaxından iştirak etdiklərinə görə bütün Prezidentləri təbrik edir və onlara təşəkkürümü bildirirəm. Zənnimcə, bu gün biz Birləşmiş Ştatların və onun indiki Prezidenti cənab Bill Klintonun liderliyini ədalətlə vurğulayırıq.

Diqqətinizə görə təşəkkür edirəm.

Sonra mərasimdə Türkmənistan Prezidenti Saparmurad Niyazov nitq söylədi.

**Türkmənistan Prezidenti**
**Saparmurad Niyazovun nitqi**

- Hörmətli xanımlar və cənablar!

Möhtərəm Türkiyə Prezidenti, dostumuz və qardaşımız Süleyman Dəmirəl!

Bu gün dövlət başçılarının - Türkmənistan Prezidentinin, Azərbaycan Prezidenti Heydər Əliyeviç Əliyevin, Gürcüstan Prezidenti Eduard Amvrosiyeviç Şevardnadzenin tarixi qərarını imzalamaq Türkmənistan üçün böyük səadətdir və bu sazişin Amerika Birləşmiş Ştatlarının görkəmli Prezidenti cənab Klintonun imzası ilə təsdiqlənməsi bizim üçün şərəf və iftixardır.

Türkmənistan öz qazını Türkiyə bazarına çıxarmağa səkkiz il çalışmışdır. Biz dünyanın təbii qaz ehtiyatlarının 30 faizinə malikik və Türkmənistanın enerji daşıyıcılarını Türkiyəyə və Avropaya nəql etməyin alternativ yollarına çoxdan can atırıq. Çoxları buna siyasi don geydirirdi, lakin bu, enerji daşıyıcıları ilə başqa regionlara, Avropaya çıxmaq üçün alternativ yola malik olmaq arzusu, zəruriyyəti idi və biz buna Türkmənistanın milli müstəqilliyini möhkəmlətmək kimi baxırdıq.

Uzun müddət bir şeyə nail ola bilmədik. Amma indi Birləşmiş Ştatların rəhbərliyinin yardımı ilə bu layihə çox-çox irəliləmişdir. Biz Türkiyə ilə qazın qiyməti, həcmi haqqında saziş imzalamışdıq. 2002-ci ildə Türkiyəyə 30 milyard kubmetr Türkmənistan qazı çatdırılacaqdır. Qiymətlər razılaşdırılmışdır. Biz







mehriban qonşularımızla - Azərbaycan və Gürcüstanla qazımızın onların ərazisi vasitəsilə tranzitinin şərtləri barədə razılığa gəlmişik. Bu, artıq real layihədir və o, bizim hamımız üçün XXI əsrdə çox böyük iqtisadi sərfəni, iqtisadi əlaqələr sahəsində əməkdaşlığı təmin edəcəkdir.

Fürsətdən istifadə edərək nəzərə çarpdırmaq istəyirəm ki, Türkmənistan bu layihəyə sadiq olacaq və onu fəal surətdə həyata keçirəcəkdir. Biz öz tərəfdaşlarımızla hər şey edəcəyik ki, Türkmənistan qazı 2002-ci ildə Türkiyəyə çatdırılsın. Türkiyə tərəfi 16 milyard kubmetr qaz qəbul edəcək, öz ərazisi ilə Avropaya 14 milyard kubmetr qaz göndərməkdə bizə kömək edəcəkdir. Biz konsorsiumla birlikdə işləyəcəyik.

1990-cı ildən ölkəmiz Türkmənistan-Özbəkistan-Qazaxıstan-Rusiya boru kəməri ilə ildə 90 milyard kubmetrdən çox qaz nəql etmişdir. Fürsətdən istifadə edərək, biz Amerika rəhbərliyindən xahiş etmək istərdik ki, Türkmənistan qazının alternativ olaraq Cənub-Şərqi Asiyaya - Çin vasitəsilə Yaponiyaya çıxması məsələsinə baxsın. Biz bu layihə üzərində də işləyirik və əgər dostumuz, Amerika Birləşmiş Ştatlarının hörmətli Prezidenti Bill Klinton öz həmkarları ilə bu layihəni dəstəkləsəydi, minnətdar olardıq. Bu, XXI əsrdə bizi dostluq və iqtisadi əməkdaşlıq telləri ilə bağlayardı.

Bu gün bizə belə mühüm tarixi sazişi - türkmən xalqının taleyində çox böyük rol oynayacaq sazişi imzalamağa imkan verildiyinə görə təşəkkür edirəm. Bizi dəstəklədiyinizə və imzalanmış sənədə görə Sizin hamınıza təşəkkür edirəm. Sağ olun.

Eduard Şevardnadze: Mən etiketi pozmalı olacağam. Çünki həmvətənlərim indi məni dinləyir və qoy onlar bilsinlər ki, bu neftin və bu qazın müəyyən hissəsi Gürcüstanda qalacaqdır.

Sonra mərasimdə Türkiyə Prezidenti Süleyman Dəmirəl nitq söylədi.

**Türkiyə Prezidenti**
**Süleyman Dəmirəlin nitqi**

- Azərbaycan Prezidenti, əziz qardaşım hörmətli Heydər Əliyev!

Gürcüstan Prezidenti, əziz qardaşım hörmətli Eduard Şevardnadze!

Qazaxıstan Prezidenti, əziz qardaşım hörmətli Nursultan Nazarbayev!

Türkmənistan Prezidenti, əziz qardaşım hörmətli Saparmurad Niyazov!

Amerika Birləşmiş Ştatlarının Prezidenti, əziz dostum hörmətli Bill Klinton!

Norveçin Baş naziri, hörmətli Kyel Maqne Bundevik!

Dəyərli qonaqlar!

Biz bu gün buraya, Asiya ilə Avropanın qucaqlaşdığı yerə, İstanbulun ürəyinə, dünyada təbii gözəlliyi ilə məşhur olan Bosfor boğazına yeni bir tarix yaratmaq üçün toplaşmışıq. Biz bu gün burada yeni və parlaq bir gələcəyə doğru yola birlikdə çıxırıq. Biz bu gün burada təkcə Xəzər və Aralıq dənizlərini deyil, talelərimizi də bir-birinə bağlayırıq. Bu gün burada nəhayət, ortaq xəyallarımızı gerçəkləşdiririk.

Bir az bundan əvvəl imza atdığımız sənədlər sülhə və rifaha xidmət edəcəkdir. Xəzər hövzəsinin neft və





təbii qaz ehtiyatlarını təhlükəsiz, iqtisadi cəhətdən sərfəli və ətraf mühitə zərər verməyəcək şəkildə dünya bazarlarına çatdırmaq istiqamətində iradəmizi nümayiş etdirərkən, biz eyni zamanda tarixin çağırışına da cavab vermiş oluruq.

Cənab Prezident Klintonun iki gün əvvəl dediyi kimi, bizim imzalarımız gələcək nəsillərin xoşbəxtliyi və rifahı üçündür. Dost və qardaş Azərbaycanın, Gürcüstanın, Qazaxıstanın və Türkmənistanın Prezidentlərinə - əziz qardaşlarıma gələcəyimizin birgə qurulması sahəsində göstərdikləri mətanətə və uzaqgörənliyə görə öz təşəkkürümü bildirirəm. Onlar Avrasiyanı konkret reallığa çevirən prosesin öncülləridir.

Amerika Birləşmiş Ştatlarının Prezidenti, əziz dostum Bill Klintona və onun əməkdaşlarına da minnətdarlıq edirəm. Mən hər kəsin nə etdiyinin ən yaxşı şahidiyəm. Prezident Klintonun liderliyi altındakı Amerika Birləşmiş Ştatları hökuməti Avrasiyanın rifah və sabitlik üçün, qlobal sülh üçün əhəmiyyətini vaxtında görmüşdür.

Əziz dostlarım!

Bölgəmizin gələcəyini müəyyənləşdirəcək tarixi bir am Sizinlə bölüşməkdən böyük səadət duydum. Bu gün imzaladığımız sənədlərin bu gözəl şəhərdə yaşayan insanlar üçün xüsusi əhəmiyyəti və mənası vardır. Çünki bu layihələrin həyata keçirilməsi ilə İstanbul qorxulu bir kabusdan qurtaracaqdır. Bu gün biz burada bəşəriyyətin ortaq sərvəti olan İstanbulu və Bosfor boğazını da təhlükədən xilas etmiş oluruq. Bəli, bu layihələr eyni zamanda ətraf mühitin qorunmasına və təbii müvazinətin pozulmamasına zəmanət verən addımlardır.

Bosforun hər iki sahilindən göz işlədikcə uzanan Avropa və Asiyaya baxarkən XXI əsrin ümidlərlə dolu dünyasını görə bilirik. Bu dünya qlobal əməkdaşlıq dünyası olacaqdır. Bu dünya düşmənçilik yerinə həmrəylik və ortaq tale şüuruna malik bir dünya olacaqdır. Bu dünyada elm insanlığın ortaq səadətinin təməlini təşkil edəcəkdir. Bu dünya birimizin bədbəxtliyinin digərimizin xoşbəxtliyi mənasına gəlmədiyi, hamımızın bir-birinin taleyində pay sahibi olduğu, hegemoniyanın öz yerini həmrəyliyə və əməkdaşlığa verdiyi bir dünya olacaqdır.



Hamınızı ortaq nailiyyətimiz münasibətilə bir daha təbrik edir, daha gözəl bir dünyaya doğru yolda hamımıza sülh və ümid dolu əmin-amanlıq arzulayıram. Sağ olun.

Sonra Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton niqt söylədi.

**ABŞ Prezidenti**
**Bill Klintonun nitqi**

- Prezident Dəmirəl, Baş nazir Bundevik, çox sağ olun.

Qazaxıstan, Türkmənistan, Azərbaycan və Gürcüstan Prezidentlərinə xüsusi minnətdarlığımı ifadə edirəm. Bu günün onlar üçün xüsusi mənası var. Bu gün bizim uzunmüddətli səylərimizin kulminasiyası və yeni başlanğıcı günüdür.

Əsrlər boyu Xəzər hövzəsi regionu bəşər tarixində müxtəlif yolların kəsişdiyi və xüsusi əhəmiyyətə malik region olmuşdur. Lakin o, heç zaman bugünkü qədər əhəmiyyətli olmamışdır. İndicə imzalanmış sənədlərin həqiqətən tarixi mənası var. Bu sənədlər regionun inkişafı və təhlükəsizliyini ön plana çəkəcəkdir. Bu isə dünyanın bütün qalan hissəsi üçün də əhəmiyyətlidir.

Qədim İpək yolu üzərində yerləşən bu ərazilərdə baş verəcək hadisələrin Rusiyanın gələcəyinə, Avropanın təhlükəsizliyinə, Qərblə müsəlman dünyasının əlaqələrinə, qlobal iqtisadiyyatın güclənməsinə və Amerika iqtisadiyyatının davamlı yüksəlişinə təsiri olacaqdır.

Bir qədər əvvəl deyildiyi kimi, Amerika Birləşmiş Ştatları Bakı-Ceyhan və Transxəzər layihələri üzrə bu ölkələrin hamısı ilə intensiv işləmişdir. Biz bu işi dörd məqsədi əsas tutaraq görmüşük.

Birincisi, enerji ehtiyatlarının müdrikcəsinə inkişaf etdirilməsi Xəzər ətrafındakı yeni müstəqillik qazanmış ölkələrin istiqlaliyyətini bir daha möhkəmlədərək onlara ayaq üstə möhkəm durmaqda və öz talelərini müəyyən etməkdə yardım göstərəcəkdir. Həm də bu vasitə ilə Mərkəzi Asiya və Qərb arasında ticarət və siyasət körpüsü salınacaqdır. Ağ evdə fəaliyyətə başladığım gündən etibarən bu, mənim hökumətimin üstünlük verdiyi əsas istiqamətlərdən biri olmuşdur.

İkincisi, bu boru xətlərinin inşası sübut edəcəkdir ki, həmin ölkələr siyasi rəqabətdənsə, iqtisadi və kommersiya əlaqələrindən daha çox qazanc əldə edə bilərlər.

Üçüncüsü, Xəzərin təbii sərvətləri bizim ümumi qlobal enerji təchizatımızı daha təhlükəsiz və daha rəngarəng edəcəkdir. Bütün dünya üçün təminat siyasəti demək olan bu boru kəmərləri enerji resurslarının bir nöqtədən deyil, müxtəlif boru kəmərləri vasitəsilə daşınmasına yardım göstərəcəkdir.

Nəhayət, sonuncusu, - bu, çox vacibdir, Prezident Dəmirəl bir qədər əvvəl bu haqda dedi, - müdrik planlaşdırma və müasir texnologiya nəticəsində enerji resurslarının inkişafı ətraf mühitə lazımsız təsir etmədən həyata keçiriləcəkdir. Bu isə o deməkdir ki, burada, sahilində olduğumuz, böyük türk milləti üçün həyati məna daşıyan Bosforun gözəl suları həmin boru kəmərləri ilə axıdılacaq neftin ləkələri ilə çirklənməyəcəkdir.

1995-ci ildən etibarən Birləşmiş Ştatlar Xəzər regionundan enerji məhsullarının beynəlxalq bazarlara daşınması üçün müxtəlif boru kəmərləri yaradılması fikrinin tərəfdarı kimi çıxış edir. Bunların bəziləri tikilib, yaxud da tikilmək üzrədir.

Mən istəyirəm hamınız biləsiniz ki, biz Sizin səylərinizi və Sizinlə işləyən enerji şirkətlərimizi dəstəkləməkdə davam edəcəyik. Diplomatlarımız və enerji məsələləri üzrə ekspertlərimiz Xəzəryanı dövlətlərin, Türkiyənin ehtiyaclarını və tələbatını ödəyən nəticələrin işlənib hazırlanmasına yardım göstərəcəklər. Energetika naziri Riçardsonun bu gün burada iştirak etməsi bizim gələcəkdə də bu işə sadiq olacağımıza sübutdur.

Biz anlayırıq ki, bugünkü gün ümumi işimizin intensiv kommersiya bazasının yalnız başlanğıcıdır. Üzümüzə gələn aylarda bizim İxrac-İdxal Bankı, xarici ölkələrə sərmayə ayıran şəxsi investisiya korporasiyalarımız və eləcə də ticarət və inkişaf agentliyimiz - onların hamısı kommersiya-maliyyə paketinin işlənib hazırlanması üçün Sizinlə birgə çalışacaqlar.

Təxminən 700 il bundan əvvəl dünyanın bu hissəsi neftlə o qədər zəngin idi ki, Bakıya gələn səyahətçi onu bütün gecə püskürən alova bənzətmişdir. Uzun illər boyu bu regionun əhalisi azadlıq və təhlükəsizliyə malik olmamışdır ki, öz zəngin potensialından istifadə etsin. İndi onların azadlığı var, təhlükəsizliyi var və onların liderləri gələcəyi görmək qabiliyyəti nümayiş etdirmişlər. Bu isə qədim yolayrıcına dünyanı bir daha işıqlandırmaq və bizim hamımızın gələcəyini bir daha parlatmaq imkanı verir.

Çox sağ olun.

Sənədlər imzalandıqdan sonra Prezidentlər bu tarixi hadisə münasibətilə bir-birini bir daha təbrik etdilər, layihələrin həyata keçirilməsində uğurlar arzuladılar.

BAKI, 17 OKTYABR 2000-Cİ İL



# Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsi barədə sazişlərin imzalanması

2000-ci il oktyabrın 17-də Bakıda, Prezident sarayında "Azərbaycan Respublikası hökuməti ilə əsas ixrac boru kəməri iştirakçıları arasında tranzit ərazisinə malik ölkənin hökuməti ilə saziş"in və "Bakı-Tbilisi-Ceyhan xam neft kəməri layihəsinin mühəndis işləri və layihələşdirilməsi üçün maliyyələşdirmə və əməkdaşlıq sazişi"nin imzalanması mərasimi oldu.

Mərasimə toplaşanlar Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi hərarətli alqışlarla qarşıladılar.

Dövlət başçısı Heydər Əliyev mərasimi giriş nitqi ilə açdı.

**Azərbaycan Prezidenti**
**Heydər Əliyevin giriş nitqi**

- Hörmətli xanımlar və cənablar!

Sabah, oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktının qəbul olunmasının 9-cu ildönümüdür. 9 il bundan öncə Konstitusiya aktı qəbul olunandan sonra Azərbaycan öz müstəqilliyini əldə edib və 9 ildir ki, müstəqil dövlət kimi yaşayır. Mən bu bayram, Azərbaycanın İstiqlaliyyət günü münasibətilə Sizi, bütün xalqımızı, vətəndaşlarımızı ürəkdən təbrik edirəm. Azərbaycan xalqına sülh, əmin-amanlıq, rifah, dövlətimizin müstəqilliyinin əbədi olmasını arzulayıram.

Biz bu gün buraya tarixi bir hadisə münasibətilə toplaşmışıq. Məlumdur ki, 1994-cü ilin sentyabr ayında Xəzərin Azərbaycan sektorundakı zəngin neft yataqlarının müştərək işlənilməsi üçün dünyanın bir çox böyük neft şirkətləri ilə ilk müqavilə imzalanmışdır. Biz o vaxtdan bu müqavilənin həyata keçirilməsi ilə məşğuluq. Beləliklə, Azərbaycanın yeni neft strategiyası başlamışdır. 1994-cü ilin sentyabr ayında "Əsrin müqaviləsi"nin imzalanması məhz Azərbaycan xalqının azadlığının, dövlət müstəqilliyinin bəhrəsidir.

Bu gün böyük iftixar hissi ilə deyə bilərik ki, imzalanmış bu neft müqaviləsi ardıcıl surətdə həyata keçirilir, öz nəticələrini verir.

Birinci müqavilə Xəzər dənizinin böyük neft və qaz imkanlarını dünyaya açıbdır. İndi Azərbaycanda 20 böyük neft müqaviləsi imzalanıbdır.

"Əsrin müqaviləsi"ndə - Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi barədə müqavilədə Azərbaycan Dövlət Neft Şirkətinin 11 xarici ölkə neft şirkəti ilə birgə əməkdaşlıq etməsi nəzərdə tutulurdu. Bu əməkdaşlıq uğurla həyata keçirilir, "Çıraq" yatağından 1997-ci ildə neft hasil olunubdur. Həmin yataqdan alınan neft dünya bazarlarına ixrac edilir. Beləliklə, biz imzaladığımız müqavilənin əməli nəticəsini görürük.

Təbiidir ki, belə bir müqavilənin həyata keçirilməsi zamanı böyük miqdarda neft hasil olunması nəzərdə tutulduğuna görə, bu neftin dünya bazarlarına ixracı da müqavilədə nəzərə alınmalı idi. Ona görə də ilk müqavilədən hasil edilən neftin dünya bazarlarına ixrac olunması üçün müxtəlif neft borularının, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikilməsi nəzərdə tutulmuşdu.

Biz xarici neft şirkətləri ilə birlikdə elə o vaxtdan, 1994-cü ildən başlayaraq əsas ixrac neft kəmərinin - Bakı-Ceyhan kəmərinin, - sonra biz onu Bakı-Tbilisi-Ceyhan adlandırdıq, - yaradılması üçün çox işlər gördük.

Məlumdur ki, bu istiqamətdə apardığımız işlər çox böyük müqavimətlərlə, çətinliklərlə rastlaşmışdı. Çoxları belə bir ixrac kəmərinin tikilməsinin real olmadığını bəyan edirdilər. Hər halda, Bakı-Tbilisi-Ceyhan neft kəməri ötən illər bütün dünya ictimaiyyətinin nəzər-diqqəti altında olubdur. Lakin biz Azərbaycan, Türkiyə, Gürcüstan dövlətləri, konsorsiumda iştirak edən neft şirkətləri Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsi işi ilə ardıcıl məşğul olmuşuq, mübarizə aparmışıq və buna da nail olmuşuq.

Gördüyümüz bütün bu işlərin zirvəsini də 1999-cu ilin noyabrında İstanbulda ATƏT-in zirvə görüşü zamanı imzalanmış saziş təşkil edir. Həmin sazişi Azərbaycan Respublikasının Prezidenti, Türkiyə Cümhuriyyətinin Prezidenti, Gürcüstan Prezidenti, Qazaxıstan Prezidenti imzalamışlar və o sazişə Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klinton da öz imzasını qoymuşdur.

Beləliklə, bizim çoxillik işlərimiz belə bir siyasi sənədin qəbul olunması ilə başa çatmışdır. Ancaq ondan sonrakı dövrdən bu günədək o qədər də asan olmamışdır. Çünki Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsi, onun qiyməti, başqa kommersiya-texniki məsələləri ilə əlaqədar müxtəlif fikirlər olmuşdur. Bu müxtəlif fikirlər hətta konsorsiuma daxil olan şirkətlər arasında da mövcud idi. Ona görə də bu sahədə də çox işlər görmək lazım idi.

Bu işlər Azərbaycan, Türkiyə, Gürcüstan dövlətləri və onların müvafiq orqanları tərəfindən aparılmışdır. Amerika Birləşmiş Ştatlarının dövləti, hökuməti də bu prosesə daim dəstək vermişdir. Bütün texniki, kommersiya məsələləri barəsində razılıqlar əldə edilmişdir.

Bunların nəticəsində Azərbaycan Dövlət Neft Şirkəti və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə daxil olan şirkətlər birlikdə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin tikilməsi haqqında kommersiya-texniki sazişlər hazırlamışlar. Bu gün biz bu sazişlərin imzalanması üçün buraya toplaşmışıq.

Nəzərdə tutulur ki, həmin sazişlər bu gün Azərbaycanda, onun paytaxtı Bakıda, sabah Gürcüstanda, Tbilisidə, o biri gün isə Türkiyədə imzalanacaqdır. Təbiidir ki, sazişlərin imzalanması bu sahədə yeni bir mərhələ açacaqdır, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin əməli surətdə tikilməsinə başlanacaqdır.

Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Devid Vudvord məlumatlar verəcəklər.

Çıxış üçün Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevə söz verildi.

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevin çıxışı**

- Zati-aliləri möhtərəm cənab Prezident!

Son illər ölkəmizdə əldə edilmiş və Sizin adınızla bağlı olan, çox mühüm strateji əhəmiyyət daşıyan nailiyyətlər sırasında uzaqgörən siyasətiniz nəticəsində 1994-cü ildə yaratdığınız və Azərbaycanın neft-qaz ehtiyatlarından, əlverişli coğrafi mövqeyinin üstünlüklərindən istifadə edilməsinə yönəldilmiş, ötən zaman ərzində bilavasitə rəhbərliyiniz altında uğurla gerçəkləşən neft strategiyası və konsepsiyası xüsusi yer tutur və öz bəhrəsini verməkdədir.

Möhtərəm cənab Prezident!

Sizin rəhbərliyiniz altında son 7 ildə böyük işlər görülmüşdür. Azərbaycan Xəzər neftinin dünya bazarlarına və xüsusilə Aralıq dənizinə çatdırılmasında və bununla XXI əsrin astanasında daha sürətlə dünya iqtisadiyyatına qovuşmasında ilk addımlarını atan bir ölkə kimi tarixi rolunu möhkəmləndirir. Məhz buna görə bu gün Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru neft kəmərinə aid imzalanan sənədlər Sizin növbəti qələbəniz kimi qiymətləndirilir. İcazə verin, bu münasibətlə Azərbaycan neftçiləri adından Sizi və bütün xalqımızı ürəkdən təbrik edim, müstəqil Azərbaycanın iqtisadi cəhətdən möhkəmlənməsi və inkişafı yolunda yeni-yeni nailiyyətlər arzulayım.

Möhtərəm cənab Prezident!

"Əsrin müqaviləsi"ndən sonra təkcə Azərbaycan üçün deyil, bütün Cənubi Qafqaz, Orta Asiya, Avropa dövlətləri və ümumən bəşəriyyət üçün əhəmiyyətinə görə ən mühüm sənədlərdən biri 1999-cu il noyabrın 18-19-da İstanbul şəhərində, ATƏT-in zirvə görüşü zamanı Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri haqqında imzalanmış saziş oldu.

Bu saziş və ona qoşulan sənədlərin əhəmiyyəti barədə 1999-cu il noyabrın 24-də Sizin rəhbərliyiniz altında Prezident Aparatında keçirilmiş yekun iclasında respublika ictimaiyyətinə ətraflı məlumat verilmişdi. Lakin imzalanmış bu sənədlər bizim gələcək fəaliyyətimiz üçün yalnız dövlət zəmanəti və danışıqları davam etdirməkdən ötrü hüquqi əsas idi. Bu danışıqların gedişi və qarşıya çıxan çətinliklər, xüsusən Gürcüstanla tranzit tariflərinin razılaşdırılmasında yaranmış problem cari ilin 22-23 martında Gürcüstana rəsmi səfəriniz zamanı şəxsən Sizin Tbilisidə böyük alicənablıqla qəbul etdiyiniz uzaqgörən və dəyərli qərarınız sayəsində uğurla həll olunmuşdur ki, bu da işlərin sürətlə davam etdirilməsinə geniş imkanlar yaratdı.

Belə ki, bundan sonra cari ilin aprel ayında Vaşinqtonda, may ayında İstanbulda aparılmış gərgin danışıqlar nəticəsində bütün sənədlər haqqında razılıq əldə edildi. Sənədlər qovluğu 2000-ci il mayın 26-da Azərbaycan Respublikası, mayın 31-də Gürcüstan və iyunun 21-də Türkiyə Cümhuriyyəti parlamentləri tərəfindən ratifikasiya olundu. Bununla da əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsi üçün zəruri olan, beynəlxalq təcrübədə nümunəsi olmayan qanunverici və hüquqi əsaslar yarandı.

2000-ci il mayın 29-da Bakıda Azərbaycan Dövlət Neft Şirkəti Xəzər bölgəsində çalışan yerli və xarici neft şirkətləri üçün bu layihə ilə bağlı təqdimat mərasimi keçirdi. Mərasimdə iştirak edən 31 xarici şirkətdən 27-si layihədə iştirak etmək arzusunda olduğunu bildirdi. Həmin şirkətlərin Azərbaycan Dövlət Neft Şirkəti ilə razılaşdırılmış şərtlərlə layihəyə qoşulmaq imkanları onların nəzərlərinə çatdırıldı.

Lakin bundan sonra da Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin səhmdarları arasında olan bəzi fikir ayrılığı layihəni ləngidə bilərdi. Yalnız sentyabr ayında Sizin Amerika Birləşmiş Ştatlarına etdiyiniz səfər zamanı ABŞ Prezidenti cənab Bill Klintonla, Dövlət katibi xanım Madlen Olbraytla, Energetika Nazirliyinin rəhbərliyi və xarici neft şirkətlərinin prezidentləri ilə olan görüşləriniz və bu barədə qəti qərarlarınız mövcud ziddiyyətləri aradan götürməyə imkan verdi. Eyni zamanda layihənin həyata keçirilməsinin ləngiməsinə yol verməməkdən ötrü, kəmərin Türkiyə ərazisindən keçəcək hissəsinin marşrutu üzərində "Botaş" şirkəti tərəfindən mühəndis-axtarış işlərinin başlanması üçün qəti və cəsarətli addımlar atıldı.

Beləliklə, görülən işlər nəticəsində, nəhayət, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin səhmdarları və Azərbaycan Dövlət Neft Şirkəti arasında bütün şərtlər razılaşdırılmış, sponsorlar qrupu yaradılmışdır.

Bu gün mühüm sənədlərin Bakıda, sonra isə Tbilisidə və Ankarada imzalanması artıq 2000-ci ilin noyabr ayında ilkin mühəndis işlərinə başlamağa və əsas ixrac boru kəmərinin 2004-cü ilin sonunda istismara verilməsinə imkan yaradır.

Möhtərəm cənab Prezident!

İcazə verin, bu mərasimdə kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakını nəzərə alaraq, imzalanacaq sənədlərin mahiyyəti haqqında qısa məlumat verim.

**Heydər Əliyev:** Məlumat ver, ancaq təkcə kütləvi informasiya vasitələri orqanlarına yox, hamıya məlumat verməl lazımdır. Yoxsa, elə çıxır ki, sən ancaq onlara məlumat verirsən.

**Natiq Əliyev:** Baş üstə. Azərbaycan Respublikası hökuməti, Azərbaycan Dövlət Neft Şirkəti və digər






əsas ixrac boru kəməri sərmayəçiləri arasında "Bakı-Tbilisi-Ceyhan xam neft kəməri layihəsinin mühəndis işləri və layihələşdirilməsi üçün maliyyələşdirmə və əməkdaşlıq sazişi" qarşılıqlı münasibətləri tənzimləyir, o cümlədən görüşlərin keçirilməsi, bildirişlər, mübahisəli məsələlərin həlli, məxfilik, öhdəliklərin icrasının sığorta mexanizmi, öhdəliklərini yerinə yetirməyən tərəflərə qarşı cərimə sanksiyaları və fərdi məsuliyyət daşınması və digər kommersiya-hüquqi aspektləri əhatə edir.

Bu sazişdə nəzərdə tutulub ki, sərmayəçilərin qoyduğu vəsaitlərin əvəzinin ödənilməsindən sonra əsas ixrac boru kəmərinin mülkiyyəti 100 faiz Azərbaycan Respublikasına keçir; əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsi üçün rəhbər komitə yaradılır, onun sədri Azərbaycan Respublikasının nümayəndəsi təyin edilir və Rəhbər Komitə müəyyən olunmuş qərarların qəbul edilməsinin qayda və prinsipləri əsasında işləyir; tərəflərin iştirak payları belə müəyyən olunmuşdur: ARDNŞ - 50 faiz, "bp" - 25,41 faiz, "Yunokal" - 7,48 faiz, "Statoyl" - 6,37 faiz, TPAO - 5,02 faiz, "İtoçu" - 2,92 faiz, "Remko" - 1,55 faiz, "Delta Hess" - 1,25 faiz.

Sazişdə layihəyə qoyulmuş vəsaitlərin qaytarılması həddi, tariflərin müəyyənləşdirilməsi mexanizmi, neft borusunun ötürmə qabiliyyətinin gücündən istifadə növbəsi, yeni iştirakçıların gələcəkdə layihəyə qoşulması mexanizmi kimi məsələlər də öz əksini tapmışdır.

İkinci sənəd - "Azərbaycan Respublikası hökuməti ilə əsas ixrac boru kəməri iştirakçıları arasında tranzit ərazisinə malik ölkənin hökuməti ilə saziş" respublika ərazisində müvafiq hüquqi və kommersiya rejiminin yaradılmasını əks etdirir. Sazişin qüvvədə olduğu əsas müddət 40 il nəzərdə tutulur və layihənin həyata keçirilməsi üçün lazımi icazələrin, lisenziyaların alınmasını, dövlət təşkilatları ilə əlaqələri, torpaqların istifadəsi, avadanlıq, texnologiya, pul vəsaitlərinin ixracı və idxalı məsələlərinin həlli qaydalarını tənzimləyir.

Əsas ixrac boru kəmərinin texniki və iqtisadi göstəriciləri haqqında kütləvi informasiya vasitələri üçün məlumat hazırlamb və ona görə bu məsələ barədə geniş informasiyaya ehtiyac yoxdur.

Beləliklə, 1993-cü ildən başlanmış danışıqlar və onların nəticələri, nəhayət, bu gün imzalanmış mühüm sənədlər bir daha sübut edir ki, hörmətli Prezidentimizin neft strategiyası dinamik şəkildə həyata keçirilir və ölkəmizin iqtisadi inkişafı üçün tam təminat verir.

Möhtərəm cənab Prezident!

Bununla əlaqədar, Sizin dediyiniz: "Bunlar hamısı bizim siyasi və iqtisadi strategiyamızın nə qədər düzgün, məqsədəuyğun və Azərbaycan xalqının milli mənafelərini təmin edən olduğunu bir daha sübut edir" sözlərinizi biz heç vaxt unutmuruq.

İcazə verin, Sizi əmin edim ki, Azərbaycan Dövlət Neft Şirkəti nəzərdə tutulan bu böyük iş proqramının uğurla yerinə yetirilməsi üçün bütün istehsal-mühəndis qüvvələrini və imkanlarını səfərbər edəcək, əsas ixrac boru kəmərinin layihəsi vaxtında başa çatdırılıb istifadəyə veriləcəkdir.



Zati-aliləri, cənab Prezident mən bu gün Sizi bu imzalanma mərasimi münasibətilə və həmçinin sabah qeyd edəcəyimiz Dövlət müstəqilliyi günü bayramı münasibətilə bir daha təbrik edirəm. Eyni zamanda bu layihəyə qoşulan və onda iştirak edən xarici şirkətlərin rəhbərlərini təbrik edir, hamınıza cansağlığı və uğurlar diləyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

Sonra ABƏŞ-in prezidenti Devid Vudvord çıxış etdi.

**ABƏŞ-in prezidenti**
**Devid Vudvordun çıxışı**

- Cənab Prezident!

Möhtərəm qonaqlar, xanımlar və cənablar!

Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin reallaşmasında irəliyə doğru atılmış əsas addımı əks etdirən bu tarixi hadisə münasibətilə mərasimdə iştirak etməkdən şərəf duyuram. Belə böyük hadisə layihədə təmsil olunan bütün hökumətlər və şirkətlər tərəfindən görülmüş nəhəng işlərin zirvəsidir. Bu bir həqiqətdir ki, boru kəməri marşrutunun özü kimi uzun və enişli-yoxuşlu bir yolda bizim müvəffəqiyyət qazana biləcəyimizə çoxları şübhə ilə yanaşmışlar. Ancaq indi qarşımızdakı sənədlər xarici neft şirkətləri, ARDNŞ və Azərbaycan, Gürcüstan və Türkiyənin hökumətləri arasında mövcud olan əməkdaşlığın müsbət ruhunun sübutudur.

Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəmərinin ilk tərəfdaşları olan ARDNŞ, "bp", "Yunokal", "Statoyl", "Türkiyə Petrolları Anonim Ortaqlığı", "İtoçu", "Remko" və "Delta Hess" şirkətlərindən ibarət şirkətlər qrupu Bakı-Tbilisi-Ceyhanla əlaqədar layihə sazişlərini imzalayacaqlar. Bakı şəhərində imzalanacaq sazişlər Azərbaycanın tranzit ərazisinə malik hökuməti ilə imzalanan və boru kəməri üçün qanuni çərçivə müəyyənləşdirilən sazişdir. Bu, həmçinin maliyyələşdirmə və əməkdaşlıq haqqında sazişdir. Həmin sazişdə qarşıdan gələn səkkiz ay müddətində bizim birlikdə işləməyimizin yolu müəyyənləşdirilir və boru kəməri ilə əlaqədar əsas prinsiplər dəqiqləşdirilir. Biz həmin prinsipləri işləyib hazırlayaraq onları tam kommersiya sazişlərinə çevirəcəyik.

Gürcüstanın hökuməti ilə sazişi imzalamaq üçün biz sabah bu ölkənin paytaxtı Tbilisi şəhərində olacağıq. Cümə axşamı isə Türkiyənin hökuməti ilə sazişi və obyektin istismara hazır vəziyyətdə verilməsi haqqında sazişi, maliyyələşdirmə haqqında məktubu imzalamaq üçün həmin ölkədə olacağıq. Beləliklə, bu yaddaqalan həftənin sonuna qədər Bakı-Tbilisi-Ceyhan layihəsi ilə bağlı sazişlərə imza atılacaq və bu, kəmərin layihəsinin həyata keçirilməsinin başlanmasına yol açacaqdır.

İşin bugünkü mərhələsinə nail olmaq üçün bir sıra maneələri birlikdə aradan qaldırmışıq və irəliyə nəzər salaraq, hələ də həllini gözləyən bir sıra mühüm problemlər olduğunu görürük. Şübhə yoxdur ki, Bakı-Tbilisi-Ceyhan layihəsi mühüm bir işdir və növbəti səkkiz ay layihə ilə əlaqədar həlledici dövr olacaqdır. Bu müddət ərzində biz kəmərin texniki və layihələşdirmə baxımından həyat qabiliyyətli olub-olmamasını daha dərindən dərk etməyə nail olacağıq və müvafiq surətdə, hesablanmış xərclərin maliyyələşdirilməsi, boru kəmərinin tikintisi ilə bağlı inamımız artacaqdır.

Eyni zamanda biz Bakı-Tbilisi-Ceyhan layihəsini kommersiya baxımından həyat qabiliyyətli bir layihəyə çevirmək üçün Azərbaycanda və Xəzər regionunun başqa bir yerində hansı mühüm neft həcmlərinin bu kəmərlə nəql ediləcəyini müəyyənləşdirmək üçün addım atacağıq. Ətraflı layihələşdirmə ilə yanaşı, biz bu layihə ilə əlaqədar həm Azərbaycandan, həm də Xəzər regionunun digər dövlətlərindən olan investorlar və yükdaşıyanlar arayacağıq.

Biz, bu mərasimdə iştirak edən şirkətlər bu gün buraya ona görə yığışmışıq ki, Bakı-Tbilisi-Ceyhan layihəsinin kommersiya baxımından həyat qabiliyyətli layihə olduğuna inanırıq. Biz hesab edirik ki, layihənin reallaşdırılmasına çəkiləcək xərclərin, tikinti işləri qrafikinin və görüləcək işlərin həcminin ümumi balansı elə olacaq ki, bu layihə Cənubi Xəzərdən əsas neft ixracı marşrutu kimi cəlbedici olacaqdır. Bundan əlavə, biz gözləyirik ki, müvafiq şirkətlərimizə, digər investorlara və yükdaşıyanlara kifayət qədər inam aşılamaqla Bakı-Tbilisi-Ceyhan layihəsinin reallığa çevrilməsi üçün tələb olunan maliyyə vəsaitlərini toplamağa müvəffəq olacağıq.

Mən bu gün Bakı-Tbilisi-Ceyhan layihəsinin ilk tərəfdaşlarını Sizin qarşınızda təmsil edirəm və onların hamısı "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə hasilatın pay bölgüsü sazişinin iştirakçılarıdır. Bu gün bizi buraya gətirən yataqların işlənilməsi üçün imkan verən bir ixrac marşrutunun tapılmasına olan ehtiyacdır.

Biz qəlbən ümid edirik ki, Bakı-Tbilisi-Ceyhan kəməri Azərbaycanın yanacaq ehtiyatlarının əhəmiyyətini sübuta yetirəcək və Azərbaycan xalqına, bütövlükdə regiona tərəqqi gətirmək üçün bizə şərait yaradacaqdır.

"Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında sazişin tam miqyaslı işlənilməsinin birinci mərhələsi ilə bağlı neft 2004-cü ilin sonuna qədər hasil olunacaqdır. Cənab Prezident, bu isə Sizin altı il öncə imzaladığınız "Əsrin müqaviləsi"ndə qarşıya qoyulmuş məqsədin yerinə yetirilməsi üçün yataqların işlənilməsi ilə bağlı digər məsələlərin həyata keçirilməsi ilə nəticələnə bilər.

"Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında saziş ilə Bakı-Tbilisi-Ceyhan layihəsi arasında əlaqə yenicə yaranmağa başlayır. İnanırıq ki, Azərbaycanda və Xəzər regionunda digər neft ehtiyatları kəşf ediləcək və işləniləcəkdir. Bakı-Tbilisi-Ceyhan layihəsi cəlbedici bir marşrut olduğunu sübut edəcək və Xəzər dənizinin dünyanın əsas neft hasil edən regionlarından birinə çevrilməsinə imkan verəcəkdir.

Beləliklə, icazə verin, bizim hamımızın bu mərasimə yığılmağımıza səbəb olan uğurun qazanılmasına öz töhfəsini vermiş bütün şəxsləri təbrik edim və onlara təşəkkürlərimi yetirim.

Cənab Prezident, bu layihənin reallığa çevrilməsi üçün sarsılmaz əzminizə və bizim inamla sərmayə qoya biləcəyimiz demokratik, təhlükəsiz və sabit Azərbaycan yaradılmasına rəhbərliyinizə görə, biz xüsusi təbriklərimizi və təşəkkürlərimizi Sizə ünvanlamışıq. Bugünkü hadisələr Sizin neft strategiyanızın daha bir uğurudur və bu, strategiya müstəqil Azərbaycan Respublikasının bundan sonra da inkişaf etməsinə və çiçəklənməsinə səbəb olacaqdır.

Cənab Prezident, xanımlar və cənablar! Biz mühüm bir tarixin başlanğıcında dayanaraq, ixrac marşrutlarının yataqların işlənilməsi yolunda daha manеə olmayan və ehtiyatlarla zəngin bu bölgədə gələcək kəşfiyyat və hasilat işlərinə sərmayələr qoyuluşuna ümidlə baxırıq. Biz Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin reallaşdırılmasına tərəfdaşlarımızla birlikdə, Azərbaycan hökuməti və xalqının bizə fasiləsiz dəstəyi və xeyirxahlığı ilə başlayacağımız günü səbirsizliklə gözləyirik.

Cənab Prezident, bu mərasimdən xatirə olaraq Azərbaycan Respublikası Dövlət Neft Şirkəti adından Natiq Əliyev və xarici neft şirkətləri adından mən bu gün imzalanan sazişlərin xüsusi şəkildə hazırlanmış bir nüsxəsini Sizə bağışlamaq istərdik. Bundan əlavə, neftin boru kəməri ilə Bakıdan axmağa başlayıb Ceyhan limanına çatana qədər bizim işlərimizə nəzarət etməyinizə imkan yaradan bir hədiyyə vermək istəyirik.

Diqqətinizə görə təşəkkür edirəm.

Sonra sənədlər imzalandı. Azərbaycan Baş nazirinin müavini Abid Şərifov, ARDNŞ-nin prezidenti Natiq Əliyev, ABƏŞ-in və "bp-Azərbaycan" şirkətinin prezidenti Devid Vudvord, "Yunokal" şirkətinin vitse-prezidenti Əndru Fotrop, "Statoyl" şirkətinin vitse-prezidenti Rolf Maqne Larsen, "Türkiyə Petrolları Anonim Ortaqlığı" (TPAO) şirkətinin prezidenti Osman Dəmiraq, "İtoçu" şirkətinin prezidenti Masao Yamasaki, "Remko" şirkətinin birinci vitse-prezidenti Mixail Qalkin və "Delta Hess" şirkətinin vitse-prezidenti Riçard Myu "Azərbaycan Respublikası hökuməti ilə əsas ixrac boru kəməri iştirakçıları arasında tranzit ərazisinə malik ölkənin hökuməti ilə saziş"i imzaladılar.

Cənab **Devid Vudvord** Azərbaycanın dövlət başçısına müraciətlə dedi:

- Cənab Prezident, icazə verin, bu hadisə, sənədlərin imzalanması münasibətilə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti adından mən və Natiq Əliyev bu sazişin ilk nüsxəsini Sizə hədiyyə edək.

Cənab Prezident, daha bir kiçik hədiyyəmizi bizdən qəbul etməyinizi Sizdən xahiş edirik. Biz istəyirik ki, bu layihənin müvəffəqiyyətlə həyata keçirilməsində nəzarətinizi daim üzərimizdə saxlayasınız.

**Natiq Əliyev:** Cənab Prezident, Sizə təqdim etdiyimiz bu saat həm Azərbaycan, həm Gürcüstan, həm də Türkiyə vaxtını göstərir.

**Heydər Əliyev:** Təşəkkür edirəm, çox sağ olun.

**Natiq Əliyev:** Cənab Prezident, bu sazişin birinci nüsxəsinə Siz imza atmısınız, ikinci nüsxəsinə Eduard Şevardnadze, üçüncü nüsxəsinə isə Əhməd Necdət Sezər imza atacaqdır.

**Heydər Əliyev:** Sağ olun.

Sonra "Bakı-Tbilisi-Ceyhan xam neft kəməri layihəsinin mühəndis işləri və layihələşdirilməsi üçün maliyyələşdirmə və əməkdaşlıq sazişi" imzalandı.

Prezident Heydər Əliyev mərasimdə yekun nitqi söylədi.

### Azərbaycan Prezidenti Heydər Əliyevin yekun nitqi

- Hörmətli xanımlar və cənablar, dostlar!

Bu gün hamımız həqiqətən eyni fikirdəyik ki, tarixi bir gün yaşayırıq, tarixi dəqiqələr keçiririk.

1994-cü ilin sentyabrında Azərbaycanda ilk neft müqaviləsi imzalananda biz böyük qürur, xoşbəxtlik hissi keçirirdik, bu istiqamətdə Azərbaycanın gözəl gələcəyini görürdük.

Məlumdur ki, buna şübhə ilə yanaşanlar da, inanmayanlar da, mane olanlar da var idi. Azərbaycanın həm daxilində, həm də xaricində bu müqavilə bir tərəfdən qısqanclıq, o biri tərəfdən narazılıq doğurmuşdu. Ancaq Azərbaycan xalqı, hər halda onun tam əksəriyyəti, bu hadisəni tarixi hadisə və müstəqil ölkəmizin gələcəyi üçün ən önəmli, ən mühüm iş kimi qiymətləndirir.

Ondan sonrakı dövr bizim üçün asan olmadı. Biz xaricdən çox təzyiqlərə məruz qaldıq. Bir sıra ölkələrin mətbuatında, qəzetlərində bu barədə müxtəlif fikirlər - əksəriyyəti isə əks fikirlər dərc olunurdu. Beləliklə, bizim gördüyümüz bu işlərə həm beynəlxalq ictimaiyyətdə, həm də Azərbaycanda şübhə yaratmaq istəyirdilər.



Ölkəmizin həm xaricdə, həm də daxildə olan düşmənləri yaxşı dərk edirdilər ki, bu müqavilə Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi üçün ən mühüm hadisələrdən biridir. Təsadüfi deyil ki, bu müqavilə imzalanandan bir gün sonra Azərbaycana qarşı böyük bir təxribat baş verdi. Respublikamızın Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasında cəza çəkən çox təhlükəli cinayətkar məhbuslar müxtəlif qüvvələrin köməyi ilə oradan çıxarıldı, qaçırıldı və Azərbaycanın daxilində sabitliyin pozulması üçün müəyyən imkanlar yarandı. Bundan bir həftə sonra Azərbaycanda iki dövlət xadiminə, siyasi xadimə qarşı terror baş verdi, onlar qətlə yetirildi.

Bunların məntiqi davamı olaraq, 1994-cü il oktyabrın 3-4-də Azərbaycanda silahlı dövlət çevrilişinə cəhd göstərildi. Biz bu cəhdin qarşısını xalqımızın, millətimizin birliyi, gücü ilə aldıq. Ancaq Azərbaycanın daxili və xarici düşmənləri ölkəmizin bu qədər müstəqil siyasət aparmasına, müstəqil inkişaf etməsinə maneçilik törətməkdən əl çəkmirdilər.

Həmin hadisədən altı ay sonra Azərbaycanda yenidən silahlı dövlət çevrilişinə cəhd göstərildi. Bu, həm xaricdən idarə olunurdu, həm də daxildəki cinayətkar qüvvələr tərəfindən təşkil edilmişdi. Çox təəssüflər olsun ki, bu gün müxalifətdə olan bəzi siyasi partiyalar da həmin dövlət çevrilişinə cəhddə fəal iştirak edirdilər. Biz bu dövlət çevrilşinə cəhdin də qarşısını aldıq. Qan töküldü, şəhidlər verdik, ancaq Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin əleyhinə çıxan qüvvələri darmadağın etdik.

Sonrakı illərdə də Azərbaycanın qarşısına bir çox çətinliklər çıxmışdı. Bunlar hamısı sizə məlumdur. Bunların hamısının bir səbəbi vardır. Həm xaricdə, həm də daxildə olan düşmənlər görürdülər ki, Azərbaycan müstəqil bir dövlət kimi yaşayır, ölkəmizin müstəqilliyi gündən-günə möhkəmlənir, respublikamızın yeni dövlət neft strategiyası böyük gələcəkdən xəbər verir. Məhz həmin adamlar bunların qarşısını almaq, Azərbaycanı zəiflətmək və ayrı-ayrı cinayətkar qruplar tərəfindən ölkəmizi ələ keçirmək üçün bu cür dəhşətli yollara düşdülər.

Biz ötən illər çox ağır, çətin yollar keçdik, Azərbaycan xalqını bir çox təhlükələrdən xilas etdik və ölkəmizin müstəqilliyini, dövlətçiliyini qoruduq. Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək üçün dövlət neft strategiyasını ardıcıl surətdə həyata keçirdik.

Burada deyildi ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin yaradılması da dövlət neft strategiyamızın əsas hissəsini təşkil edir. Bütün təxribatlar, xaricdən bizə qarşı olan təzyiqlər heç bir nəticə vermədi. Son illər isə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin çəkilməsinə qarşı müxtəlif təbliğatlar aparıldı, təxribat hərəkətləri edildi. Amma bizim iradəmiz, müstəqil, demokratik Azərbaycanın iqtisadi, xarici siyasəti və dünyanın böyük dövlətləri, onların neft şirkətləri ilə əməkdaşlığı - bütün bunlar bizi bugünkü günə gətirib çıxardı.

Beləliklə, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ağır bir yol keçibdir. Amma bu gün artıq hamı görür ki, biz bu yolu uğurla keçmişik. Biz - Türkiyə Cümhuriyyəti, Gürcüstan, Azərbaycan Amerika Birləşmiş Ştatlarının daimi dəstəyi nəticəsində bu ağır, çətin yolu birlikdə uğurla keçdik və bu gün artıq son sazişlər imzalandı.

İndi yeni mərhələ açılır. Bu gün burada verilən bəyanatlar və xüsusən Devid Vudvordun verdiyi bəyanatlar onu göstərir ki, biz əməli işə başlayırıq, bu əməli iş də uğurla həyata keçiriləcək və 2004-cü ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri ilə Xəzər dənizinin nefti Aralıq dənizinə axacaqdır. Biz buna inanırıq. Biz hamımız birlikdə - Türkiyə, Gürcüstan, Azərbaycan, xarici neft şirkətləri, onların təmsil etdikləri dövlətlər Amerika Birləşmiş Ştatlarının dəstəyi ilə bu proqramı da gələcəkdə uğurla həyata keçirəcəyik.

Bizim bu işimizə maneçilik törədənlərə, - həm daxildə, həm xaricdə, - mən bildirmək istəyirəm ki, qoy onlar müstəqil Azərbaycan dövlətinin son illər, son 7 ildə keçdiyi ağır, çətin, amma çox uğurlu yolu düzgün qiymətləndirə bilsinlər və özlərinə nəticə çıxarsınlar.

Biz bütün bu işləri Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək üçün edirik. Biz bütün bu işləri Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq üçün edirik. Biz bütün bu işləri Azərbaycana parlaq gələcək yaratmaq üçün edirik. Biz bütün bu işləri müxtəlif dövlətlərlə uzunmüddətli əməkdaşlıq üçün edirik. Ona görə də mən inanıram ki, bizim bütün bu işlərimiz uğurla həyata keçiriləcəkdir.

Mən bu sənədlərin imzalanması münasibəti ilə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətini, Azərbaycan Dövlət Neft Şirkətini, Azərbaycan dövlətini, hökumətini, bütün Azərbaycan xalqını təbrik edirəm.

Biz estafeti Gürcüstana, sonra isə Türkiyəyə veririk. Mən cənab Vudvorddan xahiş edirəm ki, bizim salamlarımızı, mənim xüsusi salamlarımı, hörmət və ehtiramımı Gürcüstanın Prezidenti, mənim dostum Eduard Şevardnadzeyə və bütün gürcü xalqına çatdırasınız.

Bizim salamlarımızı və xoş arzularımızı Türkiyə Cumhuriyyətinin Prezidenti hörmətli Əhməd Necdət Sezərə, Türkiyə Cümhuriyyətinin Baş naziri hörmətli Bülənd Ecevitə, qardaş türk xalqına çatdırasınız.

Mən hamınızı bir daha təbrik edirəm və bu yolda hamıya uğurlar arzulayıram.

Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və gurultulu, sürəkli alqışlarla qarşılandı.

**BAKI, 18 SENTYABR 2002-Cİ İL**



# Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması

2002-ci il sentyabrın 18-də Bakı yaxınlığındakı Səngəçal sahil terminalında Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması münasibətilə təntənəli mərasim keçirildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər, Gürcüstanın Prezidenti Eduard Şevardnadze mərasimdə iştirak edirdilər.

Amerika Birləşmiş Ştatlarının energetika naziri Spenser Abraham, eləcə də bir çox xarici ölkələrdən gəlmiş qonaqlar da mərasimdə iştirak edirdilər. Prezidentlər və ABŞ-ın energetika naziri mərasimdən əvvəl avtobusa əyləşərək, Səngəçal terminalının indiki və gələcək ərazisi ilə tanış oldular.

Ali qonaqlara məlumat verildi ki, tikintisinə 1996-cı ildə başlanmış bu terminalın indiki ərazisi 255 hektardır. "Çıraq-1" platformasından sualtı boru kəməri ilə vurulan neft bu terminala qəbul olunur və texniki emaldan keçirilir. Terminalda ümumi tutumu 32 min kubmetr olan 4 çən quraşdırılmışdır. Dəniz yatağından qəbul edilən neft texniki emaldan sonra bu çənlərə - sonra isə nasoslar vasitəsilə ixrac sisteminə vurulur. Hazırda terminalda iki - qərb və şimal ixrac sistemləri var. İndi əsasən qərb ixrac sistemindən istifadə olunur.

Terminalda quraşdırılmış iki qaz-turbin generatoru onu elektrik enerjisi ilə təmin edir.

Prezidentlərə terminalın gələcək perspektivləri barədə də məlumat verildi. Bildirildi ki, terminalın gücünü artırmaq məqsədi ilə burada tikinti işləri aparılır. Hazırda terminal gündə 140 min barrel xam neft qəbul edə bilir. Gələn ildən etibarən bu, 180 min barrelə çatdırılacaqdır. İndi terminalda aparılan tikinti işlərinə min nəfərə yaxın yerli vətəndaş cəlb olunubdur.

Ali qonaqlara mərkəzi idarəetmə məntəqəsi də göstərildi, onun funksiyası və texniki göstəriciləri barədə məlumat verilərək bildirildi ki, terminalda bütün proseslər buradan idarə olunacaqdır.

Belə bir fakt da vurğulandı ki, bütün tikinti işləri qurtardıqdan sonra terminalın ərazisi 800 hektara çatacaq, gündəlik gücü isə 800 min barreldən çox olacaqdır. Beləliklə, o, dünyada ən böyük terminallardan birinə çevriləcəkdir.

Sonra Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulmasına həsr edilmiş mərasimin rəsmi hissəsi başlandı.

Mərasimə toplaşanlar dövlət başçılarını hərarətlə qarşıladılar.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti **Natiq Əliyev** təntənəli mərasimi açaraq dedi:

- Zati-aliləri Azərbaycan Respublikasının hörmətli Prezidenti Heydər Əliyev!

İcazənizlə, bugünkü mərasimi açıq elan edirəm və bildirmək istəyirəm ki, bu tədbirə müxtəlif ölkələrdən çoxsaylı qonaqlar gəlmişdir. Onlar bizimlə tərəfdaş ölkələrin təmsilçiləridir. Ancaq ən böyük qürur hissini ona görə keçiririk ki, bu gün bizimlə bir yerdə sevincimizi bölüşməyə Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Əhməd Necdət Sezər gəlibdir. Gəlin, onu salamlayaq. Azərbaycan Respublikasının, həmişəki kimi, ən əziz qonağı Gürcüstan Prezidenti hörmətli Eduard Şevardnadze gəlibdir, onu salamlayaq.

Bizim layihələrə həmişə dəstək verən, siyasi cəhətdən bunu dəstəkləyən Amerika Birləşmiş Ştatları olubdur. Bu gün mərasimə Amerika Birləşmiş Ştatlarının energetika naziri cənab Spenser Abraham da buyurubdur. Gəlin, onu da salamlayaq.

İndi isə bu böyük layihənin əsl memarı, hamımızın sevimlisi olan Azərbaycan Respublikasının Prezidenti hörmətli Heydər Əliyevdən xahiş edək ki, öz sözünü desin.

**Azərbaycan Prezidenti**
**Heydər Əliyevin nitqi**

- Türkiyə Cümhuriyyətinin Prezidenti Zati-aliləri hörmətli Əhməd Necdət Sezər!

Gürcüstanın Prezidenti Zati-aliləri hörmətli Eduard Şevardnadze!

Amerika Birləşmiş Ştatlarının energetika naziri hörmətli Spenser Abraham!

Hörmətli xanımlar və cənablar, qonaqlar!

Mən Sizin hamınızı Azərbaycanda səmimi qəlbdən salamlayıram və bu böyük əhəmiyyət kəsb edən layihənin həyata keçirilməsi münasibətilə bura toplaşanlara təşəkkür edirəm.

Bizim hamımızı, o cümlədən uzaq ölkələrdən Azərbaycana gəlib bu gün bizimlə birlikdə bu şənliyi bölüşənləri buraya toplayan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına başlanması üçün təməl daşının atılması mərasimidir. Bu böyük layihə artıq bütün dünyada məşhurdur və dünya ictimaiyyəti bir çox illərdir ki, bu layihəni müzakirə edir.

Bu layihənin əsası 1994-cü ildə Azərbaycanın neft strategiyasının həyata keçirilməsinin başlanğıcında, 1994-cü il sentyabr ayının 20-də Azərbaycanda, Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda olan "Azəri", "Çıraq", "Günəşli" yataqlarının müştərək işlənilməsi üçün Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın 11

böyük neft şirkəti arasında müqavilə imzalanarkən qoyulmuşdur. Bu müqavilə dünyaya səs saldı və təsadüfi deyildir ki, ona "Əsrin müqaviləsi" adı verildi. Biz bu müqaviləni imzalayarkən, təbiidir ki, "Azəri", "Çıraq", "Günəşli" yataqlarından gələcəkdə ildə 50 milyon tondan artıq neft hasil edilməsini nəzərdə tutmuşduq. Ancaq hasil olan neft dünya bazarlarına çıxarılmalıdır. Bunun üçün müxtəlif yollar var idi, müxtəlif marşrutlar var idi. Ancaq biz Azərbaycan olaraq öz dostlarımızla - Türkiyə Cümhuriyəti ilə, Gürcüstanla və təbiidir ki, bu layihədə iştirak edən şirkətlərlə birlikdə gələcəkdə hasil olunacaq nefti Bakı-Tbilisi-Ceyhan boru xətti ilə Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına çatdırmağı qərara aldıq.

Bu qərarın özü də çox mübahisələr doğurdu. Çünki o vaxt həm bizim imzaladığımız müqaviləyə qarşı çıxış edənlər, həm də boru xəttinin məhz Bakı-Tbilisi-Ceyhan marşrutu ilə getməsinin əleyhinə çıxanlar var idi. Bunlar məlumdur. Bizə, yeni birinci növbədə Azərbaycana mane olurdular. Çünki neftin sahibi bizik və nefti də haradan ixrac etmək birinci növbədə bizim hüququmuz idi. Bizə çox təzyiqlər etdilər. O vaxt Azərbaycanda ictimai-siyasi vəziyyət o qədər də sabit deyildi. 1993-cü ildə burada vətəndaş müharibəsi baş vermişdi. Biz onların qarşısını aldıq və müqaviləni imzaladıq. Ancaq müqaviləni imzalayanda hətta bizim daxilimizdə belə yüksək vəzifəli şəxslər var idi ki, onlar müxtəlif xarici xidmət orqanlarına qulluq edirdilər, bu müqavilənin pozulması haqqında öz fikirlərini söyləmişdilər.





Bunu demək sizin üçün maraqlıdır. Çünki 1994-cü il sentyabrın 20-də biz müqaviləni imzaladıq. Ondan bir gün sonra Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından böyük cinayət etmiş 4 nəfəri qaçırdılar. Ondan bir həftə keçdi, Azərbaycan parlamenti sədrinin müavininə terror etdilər, onu öldürdülər. Azərbaycanın əks-kəşfiyyat idarəsinin rəisini, polkovniki öldürdülər. Bu terrorlarla bizi qorxutmaq istədilər. Ancaq biz qorxmadıq.

Onlar isə bu işlərini davam etdirirdilər. O vaxt məcburiyyət qarşısında mənimlə burada baş nazir vəzifəsində çalışan Surət Hüseynov kimi bir şəxs oktyabr ayının 4-də Azərbaycanda silahlı dövlət çevrilişi etməyə başladı. Biz bunun qarşısını aldıq. Birinci növbədə, xalqın bizə dəstəyi ilə, xalqın köməyi ilə. 1995-ci ilin mart ayında yenidən silahlı dövlət çevrilişi etmək istədilər, qarşısını aldıq. Ondan sonra bəzi yer-

lərdə terror aktları törətmək, körpünü partlatmaq, təxribat etmək istədilər. Zərər çəkdik, amma qarşısını aldıq.

Bilirəm ki, məhz o zaman, Bakı-Tbilisi-Ceyhan layihəsi irəliyə sürüləndə mənim dostum Gürcüstan Prezidenti Eduard Şevardnadzeyə terror etdilər və o, möcüzə sayəsində sağ-salamat qurtardı.

Bütün bunların hamısı və bizə göstərilən başqa siyasi təzyiqlər, müxtəlif təsirlər ona yönəldilmişdi ki, birincisi, bizim neft müqaviləsini - bu işə Xəzər dənizində ilk dəfə başladıq - qəbul etmək istəmirdilər. İkincisi isə, Bakı-Tbilisi-Ceyhan boru xəttinin çəkilməsinin əleyhinə çıxırdılar. Belə bir şəraitdə biz bunu başladıq, öz iradəmizi ortaya qoyduq və əvvəldən tutduğumuz yol ilə getdik.

1999-cu ildə "Çıraq" yatağından ilk neft aldıq. Biz onu əvvəl Bakı-Novorossiysk kəməri ilə, Rusiyanın Qara dənizdəki Novorossiysk limanı vasitəsilə nəql edirdik. Ancaq bununla bərabər, biz Qərb marşrutu ilə Bakı-Supsa neft kəmərini tikirdik və onu tezliklə istifadəyə verdik. İndi o vaxtdan indiyə qədər hasil edilən neft məhz bu kəmərlə - Qərb xətti ilə nəql olunur.

Ancaq bunların hamısı ilkin neftdən ötrü idi. Bizim nəzərdə tutduğumuz böyük neft üçün isə, yenə də deyirəm, Bakı-Tbilisi-Ceyhan lazım idi. Biz ardıcıl surətdə bu layihənin üzərində işləyirdik, çalışırdıq, bütün imkanlarımızdan istifadə edirdik. Türkiyə, Gürcüstan, Azərbaycan burada bərabər idi, birlikdə hərəkət edirdi, bu işlə birlikdə məşğul idi. Ancaq əgər Amerika Birləşmiş Ştatları hökumətinin bizə, Azərbaycana bu barədə köməyi, daimi dəstəyi, məsləhətləri olmasaydı, təbiidir ki, biz buna nail ola bilməzdik.

Təsadüfi deyil ki, 1999-cu ilin noyabr ayında İstanbulda, ATƏT-in zirvə görüşündə biz - Türkiyə, Gürcüstan, Azərbaycan və Qazaxıstan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşasına başlamaq üçün anlaşma imzaladıq. Bundan əlavə, bəyanat imzaladıq və Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton öz dövləti adından bu bəyanata qoşuldu, öz imzasını qoydu. Bu da Bakı-Tbilisi-Ceyhan boru xəttinin tikilməsinin reallığına gətirib çıxartdı.

Mən bu qısa tarixi sizə deməliyəm. Çünki bilməlisiniz ki, burada 8 il müddətində biz nə işlər görmüşük və hansı çətinliklərdən çıxmışıq, hansı müqavimətlərin, maneələrin qarşısını almışıq.

Nəhayət, son dövrdə Bakı-Tbilisi-Ceyhan boru xəttinin inşa edilməsi haqqında bir neçə aydır proseslər gedir. Onun maliyyələşdirilməsi məsələsində də problemlər var idi. Ancaq onlar da həll olundu. İndi Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti, "bp" bu işlərə başçılıq edir. Onlar artıq bütün planları hazırlayıblar. Ona görə də bizi buraya təməl daşının qoyulmasına dəvət ediblər.

Mən sizə bildirmək istəyirəm ki, Bakı-Tbilisi-Ceyhan boru xəttinin əleyhinə çıxanlar çox vaxt belə söyləyirdilər ki, bu, xəyaldır, mümkün deyil, Azərbaycanda o qədər neft yoxdur, olmayacaqdır. Belə danışıqlar çox idi. Zaman çox keçdiyinə görə bəziləri də bu danışıqlara inanırdılar. Ancaq bunların hamısı əsassız oldu, biz öz işimizi gördük.

Bu yaxın vaxtlarda İstanbulda "Üç dənizin əfsanəsi" adlı konfrans keçirildi. Orada əfsanə haqqında söhbət gedirdi. Mən orada nitq söylədim, dedim, siz burada əfsanədən danışırsınız. Amma mən sizə demək istəyirəm ki, bu, xəyal deyil, əfsanə deyil, üç dəniz - Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi birləşəcəkdir. Bunu birləşdirən də Türkiyə, Gürcüstan, Azərbaycan, onların həyata keçirdikləri bu layihə və Amerika Birləşmiş Ştatlarının bu məsələyə daimi dəstəyi olmuşdur. Ona görə indi xəyaldan gerçəkliyə gəlib çatmışıq.

Buraya nə qədər vəsait qoyulacaq, nə işlər görüləcək - bu barədə sizə məlumatlar veriləcəkdir. Mən bunu demək istəmirəm. Ancaq onu demək istəyirəm ki, bütün bu layihələr Azərbaycanın iqtisadiyyatının inkişafına yönəldilibdir. Bu gün burada "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənilməsinin ikinci fazası haqqında da sənəd imzalanacaqdır. Bu o deməkdir ki, artıq buraya çox böyük investisiya gələcək, işlər sürətlə gedəcəkdir. Çünki biz hesab edirik ki, 2005-ci ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri tamamilə hazır olacaq və biz hamımız birlikdə buradan Türkiyənin Ceyhan limanına gedəcək və orada Azərbaycan neftinin, Xəzər neftinin Ceyhan limanından yola salınmasının şahidi olacağıq.

Dediyim kimi, Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsində bəzi problemlər var idi. Azərbaycan bu işə öz payını verdi, biz onun maliyyələşdirilməsinin 25 faizini öz üzərimizə götürdük. Qalan hissəsi ayrı-ayrı şirkətlər arasında bölünübdür. Ancaq maraqlısı budur ki, bu layihəyə 2,5 faizlə "Eni" şirkəti qoşulubdur. Sonra "Total" şirkəti qoşulubdur. Mənə bu gün dedilər ki, 2,5 faizlə Yaponiyanın "İtoçu" şirkəti qoşulubdur və bir də Yaponiyanın "İnpeks" şirkəti məhz dünən 2,5 faizlə buna qoşulubdur. Bu, nə deməkdir? O deməkdir ki, bu boru xəttindən təkcə Azərbaycan yox, hamı istifadə etmək istəyir.

Biz vaxtilə İstanbulda anlaşmanı imzalayanda ona Qazaxıstan Prezidenti Nursultan Nazarbayev də imzasını qoyub və bildiribdir ki, Qazaxıstan da bu boru xəttindən istifadə edəcəkdir. İndi mən bilirəm ki, xarici şirkətlər Qazaxıstanda çox işləyirlər. Onların bizim Bakı-Tbilisi-Ceyhan layihəsinə qoşulması və sərmayə qoyması onu göstərir ki, doğrudan da, Xəzərin başqa sektorlarından neft Bakı-Tbilisi-Ceyhan kəməri ilə ixrac olunacaqdır.

Ancaq mən sizə deyirəm ki, təxminən 2007-2008-ci illərdə "Azəri", "Çıraq", "Günəşli" yataqlarından 50 milyon





ton neft hasil olunacaqdır. Ancaq Xəzər dənizində bizim başqa yataqlarımız da var. Biz bir çox şirkətlərlə əməkdaşlıq edirik. 30 ölkənin şirkətləri ilə 21 müqavilə imzalamışıq, iş aparırıq. Əlbəttə, onlar da neft hasil edəcəklər. Biz onlarla birlikdə çalışırıq. Ona görə gələcəkdə hətta Bakı-Tbilisi-Ceyhanın tutumu çatmayacaqdır. Ya onu genişləndirmək, ya da ikinci boru lazım olacaqdır.

Mənim dediyim bu sözlər gələcək üçündür və bu işlər bizim xalqlarımızın gələcəyi üçündür. Bizim bu işlərimiz yalnız və yalnız Azərbaycanın dövlət müstəqilliyi əldə etməsindən sonra mümkün olubdur. Siz bilirsiniz ki, Azərbaycan qədim neft ölkəsidir. 150 il bundan öncə Azərbaycanda sənaye üsulu ilə neft hasilatına başlanıbdır. Ancaq heç vaxt neft Azərbaycan xalqına məxsus olmayıbdır. Xəzər dənizindəki bütün neft və qaz yataqlarının hamısı Azərbaycan alimləri, geoloqları tərəfindən kəşf edilib, ancaq biz bunun sahibi olmamışıq. İndi isə müstəqil dövlətik. Müstəqil dövlət olaraq öz sərvətlərimizin sahibiyik. İstədiyimiz ölkələr ilə əlaqələr qururuq və belə işlər görürük. Amma ikinci boru da növbədədir. 1 trilyon kubmetr ehtiyatı olan "Şahdəniz" yatağından Bakı-Tbilisi-Ərzurum qaz kəməri də çəkiləcəkdir.

Beləliklə, boru kəmərlərinin sayı artır. Təbiidir ki, bunlar çox böyük iqtisadi xarakter daşıyır. Ancaq təkcə iqtisadi deyil, hesab edirik ki, bizim gördüyümüz işlər, Bakı-Tbilisi-Ceyhan siyasi xarakter daşıyır. Bu layihə və onun həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əmin-amanlığın, təhlükəsizliyin təminatçısı ola bilər. Bu boru xətti, bu polad boru Azərbaycanı, Gürcüstanı, Türkiyəni bir-biri ilə daha sıx birləşdirəcəkdir.

Biz dost ölkələrik. Türkiyə bizim üçün dost, qardaş ölkədir. Gürcüstan bizim üçün dost, qardaş ölkədir. Eləcə də biz onlar üçün dost, qardaş ölkəyik. Biz çox əlaqələr saxlayırıq. Ancaq bu əlaqələrimizi, necə deyərlər, daha möhkəm tellərlə bağlayırıq. Bu tellərdən biri də Bakı-Tbilisi-Ceyhan kəməri olacaqdır. Mən şübhə etmirəm ki, Amerika Birləşmiş Ştatları bu məsələlərdə bizi bundan sonra da dəstəkləyəcəkdir. Ona görə mən bu mərasimdə Türkiyə Cümhuriyyətinə, onun Prezidenti hörmətli Əhməd Necdət Sezərə təşəkkür edirəm. Gürcüstana, onun Prezidenti hörmətli Eduard Şevardnadzeyə təşəkkür edirəm. Amerika Birləşmiş Ştatlarına, onun Prezidenti cənab Corc Buşa təşəkkür edirəm.

Mən bu yaxınlarda cənab Corc Buşdan antiterror koalisiyasında Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirən çox xoş bir məktub aldım. Biz ötən il sentyabrın 11-də ABŞ-da baş vermiş dəhşətli terror hadisəsindən dərhal sonra antiterror koalisiyasına qoşulmuşuq, bu koalisiyada öz vəzifəmizi yerinə yetiririk və bundan sonra da yerinə yetirəcəyik. Beləliklə, biz bu sahədə də Amerika-Azərbaycan əlaqələrini inkişaf etdiririk, daha da yüksəklərə qaldırırıq.

Dünən hörmətli nazir ilə söhbət edəndə o, Prezident Buşdan mənə səmimi salamlar, çox xoş sözlər çatdırdı. Bütün bunlara görə, ümumiyyətlə, Bakı-Tbilisi-Ceyhan boru xəttinin reallaşmasına dəstəyinə görə Amerika Birləşmiş Ştatlarına, onun xalqına və Prezident cənab Buşa təşəkkürümü bildirirəm.

Əziz dostlar!

Əziz qonaqlar!

Mən sizi bir daha ürəkdən salamlayıram, hamınıza cansağlığı arzu edirəm. Bakı-Tbilisi-Ceyhan irəliyə gedəcək, gedəcək, gedəcəkdir!

**Türkiyə Prezidenti Əhməd Necdət Sezərin nitqi**

- Hörmətli Cümhurbaşqanları!

Hörmətli nazirlər, dəyərli qonaqlar!

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması mərasimində iştirak etməkdən böyük qürur duyuram. Bu tarixi gündə qardaş Azərbaycanı iki illik fasilədən sonra yenidən ziyarət etməkdən də böyük məmnunluq duyduğumu bildirmək istəyirəm. Şərq-Qərb enerji dəhlizi çərçivəsində Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri və digər layihələr həyata keçirilməkdədir. Şərq-Qərb enerji dəhlizi Xəzəryanı ölkələrin neft və qaz ehtiyatlarının dünya bazarlarına sabit şəkildə, təhlükəsiz çatdırılmasını təmin edəcəkdir. Bu layihələrin həyata keçirilməsinə başlanıldığı vaxtlarda hamımız bunu xəyal kimi qəbul edirdik. Ancaq Türkiyə, Azərbaycan və Gürcüstan müttəfiqlərinin dəstəyi ilə Xəzər dənizinin enerji sərvətlərini Qərbə daşıyacaq Şərq-Qərb enerji dəhlizini təmin etmək üçün hər cür işləri görmüşlər, fəaliyyətlərini inancla, qətiyyətlə göstərmişlər.

Bizim bu qərarımız və qətiyyətimiz artıq bu gün bəhrəsini vermişdir. Dostum hörmətli Heydər Əliyevin "Üç dənizin əfsanəsi" konfransında önəmli çıxışı zamanı bildirdiyi kimi, Bakı-Tbilisi-Ceyhan artıq əfsanəliyindən çıxmış, gerçəkliyə çevrilmişdir. Bəli, indi Şərq-Qərb enerji dəhlizi layihəsi geri dönülməz nöqtəyə çatmışdır. Bundan sonra bölgəmizin inkişafına və xalqlarımızın gücünə söykənən yeni əfsanələr tapmalı, bunları reallığa çevirmək üçün birlikdə çalışmalıyıq.

Qafqazda və Xəzər dənizində yeni işbirliyinə başladığımız bu tarixi gündə dostlarım hörmətli Heydər Əliyev və hörmətli Edurad Şevardnadze başda olmaqla, üç ölkənin hökumətlərinin dəyərli rəhbərlərinə, Amerika Birləşmiş Ştatlarının hökumətinə, Azərbaycanın Dövlət Neft Şirkətinə, Gürcüstanın Beynəlxalq Neft Şirkətinə, Türkiyənin "Botaş" şirkətinə, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərini həyata keçirən digər şirkətlərə, xüsusilə bu layihəyə əvvəldən inancla dəstək verən ARDNŞ, "Türkiyə Petrolları Anonim Şirkəti"nə, "bp", "Statoyl", "Yunokal", "İtoçu" şirkətlərinə, Şərq-Qərb enerji dəhlizinin həyata keçirilməsində əməyi olan bütün insanlara ürəkdən təşəkkürümü bildirirəm. "Eni" və "Total" şirkətlərinin bu layihəyə qoşulmalarının da böyük məmnunluq doğurduğunu vurğulamaq istəyirəm.

Türkiyə lap əvvəldən Xəzər neftinin və təbii qazının Türkiyə üzərindən Qərb bazarlarına daşınmasının iqtisadi, siyasi və strateji cəhətdən bölgə ölkələri və özü üçün ən doğru seçim olduğunu bildirmiş və bu sahədə böyük fəaliyyət göstərmişdir. Bu layihələrin həyata keçirilməsi, bir tərəfdən, Qafqaz və Orta Asiya ölkələri ilə dünya bazarları arasında Türkiyə üzərindən keçən təhlükəsiz enerji körpüsü yaradacaq, digər tərəfdən isə, Türkiyə ilə Qərbin enerji təhlükəsizliyini artıracaqdır.

Bölgəmiz üçün başqa bir önəmli cəhət Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin ən təhlükəsiz yolla Türkiyə üzərindən keçməsidir. Tarixi İpək yolunun yenidən bərpa edilməsi layihəsinin də Xəzər hövzəsində yerləşən ölkələr üçün əhəmiyyəti çox böyükdür. Xəzəryanı ölkələr ilə Qərb arasında ticarət körpüsü və siyasi körpü rolunu oynayan bu layihələr bölgə ölkələrinin Qərbə qovuşması üçün önəmli əhəmiyyət daşıyacaqdır.

Bu gün təməlini qoyacağımız Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə qoşulması üçün Qazaxıstan hökumətinin fəaliyyətinin uğurla nəticələnəcəyinə inanıram. Qazaxıstan və Türkmənistan Şərq-Qərb enerji dəhlizi layihəsində yer almaqla, Xəzəryanı ölkələrin Qərb iqtisadiyyatına qovuşmasına yardımçı olacaqlar. Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan layihəsinə, daha sonra isə Türkmənistanın və Özbəkistanın Bakı-Tbilisi-Ərzurum layihələrinə qoşulmaları bölgədə işbirliyinin inkişafı baxımından böyük önəm daşımaqdadır.

Hörmətli Cümhurbaşqanları!

Hörmətli nazirlər!

Dəyərli qonaqlar!

Türkiyə enerji strategiyasını, təhlükəsizliyini diqqətlə həyata keçirməkdədir. Azərbaycanın qazı istər təbii qaz ehtiyatlarımızın artırılması, istərsə də enerji təhlükəsizliyimizin təminatı baxımından strateji önəm daşıyacaqdır. Bu məqsədlə Bakı-Tbilisi-Ərzurum boru xəttinin tamamlanmasına, Azərbaycan qazının Türkiyəyə çatdırılmasına xüsusi əhəmiyyət veririk.

Bu fürsətdən istifadə edərək, Türkiyənin bütün qonşu ölkələrdən gələcək qaz kəmərləri üçün keçid yolu olduğunu diqqətə çəkmək istəyirəm. Türkiyə qısa müddət içində Cənubi Avropaya qaz verilməsində tranzit ölkə rolunu oynayacaqdır. Bununla əlaqədar 2002-ci il martın 28-də Türkiyənin "Botaş" və Yunanıstanın "Depo quruluşu" şirkətləri arasında bir anlaşma imzalanmışdır. Bu layihə ilə bağlı hüquqi sənədlər 2002-ci ilin üçüncü rübündə tamamlanacaqdır. Avropa Birliyi Komissiyasının da dəstəklədiyi bu layihə ilə Türkiyə yaxın gələcəkdə Avropanın təbii qazla təminatı üçün Rusiya, Əlcəzair və Norveçdən sonra mühüm rolunu oynayacaqdır.





Bir sözlə, boru xətti layihələrinin həyata keçirilməsi regional işbirliyinin qurulmasına, Azərbaycan, Gürcüstan və Türkiyənin iqtisadi inkişafının güclənməsinə, siyasi sabitliyin və demokratiyanın qorunmasına xidmət edəcək və beləliklə, bölgədə və dünyada sülh işinə də kömək edəcəkdir. Bu layihələrin həyata keçirilməsi ilə Azərbaycan, Gürcüstan və Türkiyə arasında yüksək səviyyəyə qalxan çox mühüm, möhkəm, dayanıqlı əlaqələr zəncirinə yeni güclü həlqələr əlavə ediləcəkdir.

Bu duyğu və düşüncələrlə başda hörmətli Əliyev və hörmətli Şevardnadze olmaqla, Şərq-Qərb enerji dəhlizinin gerçəkliyə çevrilməsində əməyi olan hər kəsi bir daha salamlayır, fəaliyyətləri sahəsində siyasi qətiyyətlərini, yolgöstərici xidmətlərini ortaya qoyan Türkiyə Cümhuriyyətinin məndən önceki Cümhurbaşqanları mərhum Turqut Özalı və hörmətli Süleyman Dəmirəli hörmət və ehtiram duyğuları ilə anıram. Bu böyük layihələrin Azərbaycan, Gürcüstan və Türkiyə xalqları arasındakı dostluq və qardaşlığın daha da möhkəmləndirməsini, bölgəmizə sülh və əmin-amanlıq gətirməsini diləyirəm.

**Gürcüstan Prezidenti Eduard Şevardnadzenin nitqi**

- Cənab Prezident Heydər Əliyev!

Cənab Prezident Əhməd Sezər!

Amerikanın cənab energetika naziri!

Xanımlar və cənablar, qonaqlar, övladlarımız!

İndi burada baş verənləri bizim gələcək nəsillərimiz görür və minnətdarlıq hissi ilə xatırlayacaqlar. XXI əsr Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisi ilə başlandı. Bu, Azərbaycan, Türkiyə və Gürcüstan dövlətlərinin çoxəsrlik tarixində son dərəcə əhəmiyyətli hadisələrdəndir. Müstəqillik əldə etdikdən ötən 10 ildə Gürcüstan üçün bu, ən böyük nailiyyətlərdəndir. Mənə icazə verin, bu təntənənin səbəbkarına, ümumiyyətlə, bu mühüm layihənin əsas yaradıcısına, Azərbaycan xalqının tanınmış liderinə, xalqımın əsl dostuna, qardaşım Heydər Əliyevə bu sevincli gündə gürcü xalqı adından dərin minnətdarlığımı bildirim. Dəfələrlə demişəm, yaddaşlardan silinməsin deyə bir daha təkrar edirəm - Prezident Heydər Əliyevin qəhrəmanlığı, müdrikliyi, mətanəti və qarşısına qoyduğu məqsədinə sarsılmaz sədaqəti olmasaydı, Şərq-Qərb enerji dəhlizi gerçəkləşə bilməzdi.

Bizim bədxahlarımız da məhz bunu istəyirdilər. Ona görə də təxribat aktlarından belə çəkinmirdilər. Ancaq onlar öz məqsədlərinə onda nail ola bilmədilər və gələcəkdə də nail ola bilməyəcəklər.

İcazə verin, Prezident Sezərə atəşin salamlarımı yetirim. Şərq-Qərb enerji dəhlizinin tikintisində Türkiyənin rolu mühümdür. O, bölgənin lider dövləti kimi tarixi vəzifə daşıyır. Onun bu vəzifəsi Azərbaycan və gürcü xalqlarının Avratlantik məkanına, dünya birliyinə inteqrasiyasında öz təzahürünü tapır.

Yeni Böyük İpək yolu ideyası yarandığı gündən bölgədə həmin ideyanın həyata keçirilməsini təmin edəcək əsas qüvvə məhz Türkiyə oldu. Şərq-Qərb enerji dəhlizini mən yeni Böyük İpək yolunun onurğası adlandırardım. Qafqaz və Mərkəzi Asiya dövlətlərinin möhkəmlənməsi, azad seçimə əsaslanan inkişaf yolu ilə getmək imkanı məhz bundan asılıdır. Müasir dünyada bunu Amerika Birləşmiş Ştatları kimi dərindən dərk edənlər azdır. Bu layihəni və bir çox başqa layihələri açıq və gizli maneələrdən keçirən həlledici amil məhz dünyanın lideri olan həmin dövlətin dəstəyidir. Həmin layihələrə qarşı əvvəldən olan şübhələrə baxmayaraq, o, öz beynəlxalq sanbalı və nüfuzu ilə bu layihələrin uğurunu təmin etmişdir.

Zərrə qədər şübhə etmirəm ki, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum boru kəmərləri Prezident Buşun dəstəyi sayəsində yaxın vaxtlarda istismara veriləcək, Qara dəniz və Xəzər dənizi hövzəsində həyata keçirilən ən uğurlu layihələr olacaqdır.

Avropa Birliyinin rolunu xüsusi qeyd etməyə bilmərəm. Həmin birlik Böyük İpək yolu layihəsinə



həyat və dəstək verənlərdəndir. Əgər 1990-cı illərdə həmin layihəyə qarşı hökm sürən bədbinlikdən söz açırıqsa, onda onu da deməliyik ki, həmin şübhələrin aradan qaldırılmasında Avropa Birliyinin, onun rəhbərlərinin, onun üzvü olan ölkələrin, xüsusən də Almaniya, Böyük Britaniya və Fransanın rolu əvəzsizdir.

Əsas ixrac boru kəmərində iştirak edən şirkətləri salamlayıram. Bugünkü tarixi hadisə onların yorulmadan çalışmalarının və fasiləsiz zəhmətlərinin bəhrəsidir. Yüksək peşəkarlıq nümunəsi göstərən, əsas ixrac boru kəmərinin tikintisinin uğurla başa çatmasının və uğurlu istismarının zəminini təşkil edən şirkətlərin rəhbərlərinə, onların bütün əməkdaşlarına öz dərin təşəkkürümü bildirmək istəyirəm.

Şərq-Qərb enerji dəhlizinə Qazaxıstanın qoşulmasına regional əməkdaşlıq prinsipləri baxımından böyük əhəmiyyət verirəm. Bu barədə həm Heydər Əliyev, həm də Əhməd Sezər qeyd etmişlər. Həmin proses artıq praktiki olaraq başlanmışdır. Onun daha da inkişaf etməsinə Gürcüstan da təkan verəcəkdir. Biz hər cür imkan yaradacağıq ki, qardaş Ukrayna, Rumıniya, Bolqarıstan və Avropanın başqa ölkələri həmin dəhlizin sonrakı inkişafının gözəl bəhrəsini görsünlər.

Bu gün mən təkcə Vətənimin və ona dost olan ölkələrin böyük qələbəsinin iştirakçısı olduğuma görə deyil, həm də ona görə xoşbəxtəm ki, hələ 12 il bundan öncə Vladivostokdan Vankuverədək vahid Avratlantik məkanı barədə irəli sürdüyüm ideya, Böyük İpək yolunun Avratlantik məkanına inteqrasiyasına dair tarixi Bakı sammitinin qərarları göz önündə gerçəkləşərək həyata keçir. Bu yolda biz hamımız ilk qələbəyə indiyədək maneəsiz işləyən Bakı-Supsa boru kəməri işə salınanda nail olduq. Cəsarətlə deyə bilərəm ki, Bakı-Supsa layihəsi Qərb istiqamətinin, xüsusən də Gürcüstandan keçən marşrutun etibarlılığını, sərfəliliyini təsdiq edən Bakı-Tbilisi-Ceyhan layihəsinə yol açmışdır.

Xanımlar və cənablar!

Gerçəkləşməsi bu gün başlanan əsrin layihəsi bir irs olaraq bizim nəvə-nəticələrimizə qalacaqdır. Mən fəxr edirəm ki, bizim nəslimiz onlara layiqli miras qoyur. Biz birgə qüvvəmizlə, razılaşdırılmış ahəngdar fəaliyyətimizlə, azacıq da olsa, möcüzə yaratmağa qadir olduğumuzu dünyaya göstərdik. Arzu edirəm ki, bizim birgə əməkdaşlığımız bir çox belə möcüzələr yarada bilsin.

Diqqətinizə görə təşəkkür edirəm. Sizə xoşbəxtlik arzu edirəm! Qardaş Azərbaycana tərəqqi arzu edirəm!

**ABŞ-ın energetika naziri**
**Spenser Abrahamın çıxışı**

- Möhtərəm Prezidentlər!

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinin ilk mərhələsinin başlanmasını bayram etmək üçün burada olmaq mənim üçün çox xoşdur. Bu, çox vacib bir tədbirdir. Bu, Bakı-Tbilisi-Ceyhan kəmərinin başlanğıcından xəbər verən bir tədbirdir. Prezident Əliyev, Prezident Sezər və Prezident Şevardnadze ilə bir yerdə olmaq çox xoşdur.

Bu, gözəl kommersiya, ticarət və mühəndis layihəsi, Xəzər dənizindən nefti Gürcüstan vasitəsilə Türkiyənin Aralıq dənizi sahilinə, Ceyhana, oradan da dünyaya daşıyacaq 1760 kilometrlik boru kəməridir.

Prezident Heydər Əliyevin Azərbaycanın əsas ixrac boru kəmərinin işçi qrupunu yaratdığı vaxtdan, yəni 1997-ci il sentyabrın 5-dən bəri bugünkü tədbirin iştirakçıları uzun yol keçmişlər. Ötən müddət ərzində Prezident Heydər Əliyev neft və qaz ixrac dəhlizinə verdiyi dəstəkdən geri çəkilməmişdir. Onun boru kəmərlərinin reallığa çevrilməsində göstərdiyi uzaqgörənlik və qətiyyət bu böyük və mühüm işlərin düzgün istiqamətləndirilməsini mümkün etmişdir.

Mən həmçinin layihənin operatoru kimi "bp" şirkətinin xidmətlərini qiymətləndirmək istəyirəm. O, Bakı-Tbilisi-Ceyhan layihəsinə həyat vermək üçün özəl şirkətlərdən ibarət beynəlxalq qrupun yaradılmasında çox böyük iş görmüşdür. Mən çox məmnunam ki, Amerika Birləşmiş Ştatlarından burada "Yunokal" və "Delta Hess" şirkətləri də iştirak edirlər. Mən dünən Prezident Heydər Əliyev ilə görüşəndə demişəm və indi də bildirmək istəyirəm ki, ABŞ Prezidenti cənab Buş da bu layihənin əhəmiyyətindən çox yaxşı xəbərdardır. O, Prezident Əliyevə və bugünkü tədbirin iştirakçılarına bir məktub göndəribdir. Mən indi bu məktubu oxuyuram:



*"Azərbaycan Respublikasının Prezidenti*
***Zati-aliləri***
***cənab Heydər Əliyevə***

*Mən Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarına və Prezident Heydər Əliyevə, Prezident Əhməd Necdət Sezərə və Prezident Eduard Şevardnadzeyə Bakı-Tbilisi-Ceyhan boru kəmərinin təməlinin qoyulması münasibətilə salamlarımı, təbriklərimi göndərirəm.*

*Mən məmnunam ki, bu mühüm layihə indi həyata keçirilir və Amerika Birləşmiş Ştatları regionda yerləşən ölkələrin hökumətləri ilə ictimai və özəl sahədə sıx əməkdaşlıq quraraq, "bp"-nin aparıcısı olduğu sərmayəçilərlə birgə işləyərək, layihənin inkişaf etdirilməsinə fəal töhfəsini verir. Mən xüsusilə "Yunokal" və "Delta Hess" şirkətlərinin bu layihədə iştirakı, töhfəsi ilə fəxr edirəm.*

*Bakı-Tbilisi-Ceyhan boru kəməri uzunmüddətli faydanı təmin edəcək yeni Şərq-Qərb enerji dəhlizinin mərkəzi komponentdir. Uzunmüddətli fayda deyəndə isə, regiona yeni sərmayələrin cəlb olunması, qlobal enerji təhlükəsizliyinin güclənməsi, Xəzər hövzəsi ölkələrinin suverenliyi və müstəqilliyinin möhkəmlənməsi, bu dövlətlərin iqtisadi əməkdaşlığının genişlənməsi və onların dünya iqtisadiyyatına inteqrasiyası nəzərdə tutulur. Eyni zamanda, boru kəməri bütün region ölkələrinə, onların vasitəsilə dünya ölkələrinə fayda gətirəcəkdir.*

*Mən Sizin strateji uzaqgörənliyiniz və qətiyyətiniz sayəsində həyata keçən bugünkü mərasimə təşrif buyurmuş hökumət və şirkət rəhbərlərini alqışlayıram. Amerika Birləşmiş Ştatları möhkəm sülhün və tərəqqinin təmin edilməsi üçün Xəzərin enerji ehtiyatları sahəsində Sizinlə uzun illər davamlı əməkdaşlıq etmək əzmindədir.*

*Xanımım Laura da mənə qoşulur və ən xoş arzularımızı Sizə yetiririk.*

***Corc Buş***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***
***Vaşinqton, 18 sentyabr 2002-ci il"***

Baxmayaraq ki, bu boru kəməri ilə ilk neftin keçəcəyi vaxta hələ xeyli qalır, ancaq bu layihə regionun gələcəyinə əhəmiyyətli töhfələr vermişdir. Bu layihəni ərsəyə gətirərkən birgə işlədikləri zaman Azərbaycan, Gürcüstan və Türkiyə hökumətlərinin öz aralarında yaratdıqları əməkdaşlıq və etibarlılıq gələcək birgə işlərdə inkişaf üçün, yeni tərəfdaşlar üçün, regionun digər ölkələri üçün bir model ola bilər.

Biz həmçinin özəl sektor sərmayəsinin gücünü də qiymətləndirməliyik. İnanırıq ki, hökumətlərin və özəl şirkətlərdə çalışanların birliyi qarşıdakı illərdə dünyanın hər yerində enerji etiyatlarının uğurlu işlənilməsi üçün mühüm amil olacaqdır. Bu cür tərəfdaşlığa dəstək vermək və onu ruhlandırmaq ABŞ-ın enerji siysətində əsas yer tutur.

Enerji sahəsində tərəfdaşlığı genişləndirmək imkanları da çox yaxşı haldır. Siz birlikdə işləməklə Xəzərin zəngin enerji ehtiyatlarına daha geniş qapılar açırsınız. Bu boru kəməri hər üç ölkənin xalqına, xüsusilə Azərbaycan xalqına mənfəətlər gətirməlidir. Bu kəmər Azərbaycanda enerji ehtiyatlarının istismar sürətini artıracaq və Prezident Heydər Əliyevin yaratdığı Neft Fondu kimi tərifəlayiq qurumlara kömək edəcək ki, neftlə bağlı qoyulan xarici sərmayələrdən gələcək gəlirlər yoxsulluğun azaldılmasına, təhsilə və Azərbaycanın kənd yerlərindəki əhalinin yaşayış səviyyəsinin yüksəldilməsinə yönəldilsin.

Amerika Birləşmiş Ştatları Xəzər regionunun hökumətləri ilə birgə işləməyə davam etmək əzmindədir. Dünyanın enerji bazarlarının daha fəal iştirakçısına çevrilməyiniz prosesində, hasilatdan və nəqldən gələcək gəlirlərin artımı üçün çoxşaxəliliyin sürətləndirilməsi prosesində biz sizinlə birlikdə işləməyə davam edəcəyik. İnanırıq ki, bu kimi birgə layihələr yerli, regional və qlobal sülhə, firavanlıq və əmin-amanlığa doğru daha yaxın bir yoldur.

Biz hamımız bu qələbəni qeyd etmək üçün buraya yığışmışıq. Bilirik ki, bu layihədən əldə edilən gəlirlərin hamısı bütün digər layihələrin irəliyə aparılmasına çox yaxşı zəmin yaradır. Bu, qısa müddətdə əldə olunmuş çox böyük irəliləyişdir. Elə bir irəliləyişdir ki, cəmi on il əvvəl buna ancaq xəyal demək olardı. Bizim ümumi təhlükəsizlik, kommersiya maraqlarımız, sülh və firavanlığa olan maraqlarımız bu kəmərin uzunluğu ilə daha da güclənəcəkdir.

Bu tədbirdə hamımızın olması bizi dövlətlərimiz arasında münasibətlərdə yeni, daha böyük ümidlər verən tarixin iştirakçısına çevirir. Tarixin bu bölməsini yazarkən gəlin söz verək ki, biz bu gün burada, bu tədbirdə nailiyyətlərini qiymətləndirdiyimiz adamların belə alicənablıqla irəliyə, bu səviyyəyə gətirib çatdırdıqları işi davam etdirəcəyik. Bu layihənin uğurla həyata keçirilməsi uğrunda işimizi birlikdə davam etdirəcəyik ki, ondan hamımız üçün gəlirlər gəlsin.

Cənab Prezident Heydər Əliyev, qonaqpərvərliyiniz üçün Sizə ürəkdən təşəkkür edirəm. Müdrik rəhbərliyinizə görə çox sağ olun.

**Natiq Əliyev:** Zati-aliləri möhtərəm Prezidentlər, Hörmətli qonaqlar, xanımlar və cənablar!

Azərbaycanın paytaxtında, Bakı şəhərində keçirilən bugünkü mərasim dünyanın çox ölkələrinin diqqət mərkəzindədir. Bu ölkələr Azərbaycanda həyata keçirilən layihələri daim dəstəkləyiblər və bu gün də bu mərasimə çoxsaylı teleqram və məktublar göndəriblər.

Zati-aliləri, icazənizlə, biz onun bir neçəsini burada oxuyaq. Fransa Respublikasının Prezienti Jak Şirakın təbrik məktubunu oxumaq üçün bu ölkənin Azərbaycandakı səfiri xanım Şantal Puareyə söz verilir.

Fransa səfiri xanım Şantal Puare Prezident Jak Şirakın məktubunu oxudu:

*"Azərbaycan Respublikasının Prezidenti*
*Zati-aliləri*
*cənab Heydər Əliyevə*

*Cənab Azərbaycan Respublikasının Prezidenti!*
*Cənab Prezidentlər!*
*Cənab nazirlər və ali təmsilçilər!*
*Xanımlar və cənablar!*

*Bu məktubumla mən Sizin hamınıza Azərbaycanın inkişafına və onun qonşu və dost dövlətlərlə - Gürcüstan və Türkiyə ilə əlaqələrinin möhkəmlənməsinə Fransanın göstərdiyi diqqəti nümayiş etdirmək istəyirəm.*

*Bu gün, 2002-ci il sentyabrın 18-də, ABƏŞ Bakı-Tbilisi-Ceyhan neft kəməri kimi tarixi layihənin təməlinin qoyulduğunu və eləcə də ACG adını almış "Azəri", "Çıraq", "Günəşli" dəniz yataqlarının istismarının "Faza-2" mərhələsinin başlandığını elan edəcəkdir.*

*Bu hadisə Prezident Heydər Əliyevin uzun illərdən bəri həyata keçirdiyi səylərin nəticəsidir və Fransa onu ilk gündən tamamilə dəstəkləmişdir. Toplaşdığımız bu yerin bir neçə kilometrliyində yerləşən "Şelflayihətikinti" İstehsalat Birliyi 20 il bundan əvvəl məhz bir Fransa şirkətinin iştirakı ilə yaradılmışdır.*

*Bugünkü mərasim xarici sərmayələri cəlb etmək yolunu tutmuş Azərbaycanın inkişaf strategiyasının nə qədər düzgün olduğunu bir daha təsdiqləyir.*

*Səkkiz ildən bəri Azərbaycanın nümunəvi tərəfdaşı olan ABƏŞ-in əməyi burada xüsusi qeyd olunmalıdır. O, bu gün bünövrəsi qoyulan və ölkənin yüksək iqtisadi göstəricilərinin daha da gücləndirilməsinə xidmət edəcək enerji sektorunun inkişaf layihələrinin mühərrikidir.*

*Fransa "Buiq Ofşor", "Eyfel", "Antrpoz", "Spi-Kapaq", "Opek", "Teknip-Kofleksip" kimi nüfuzlu şirkətlərinin bu layihələrdə iştirak etməsindən iftixar hissi keçirir. Fransa əmindir ki, onun şirkətləri Azərbaycana və tərəfdaşı olduğu Azərbaycan şirkətlərinə gələcək layihələrin həyata keçirilməsində daha çox fayda verə biləcəkdir. Bu baxımdan o, artıq "Şahdəniz" və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələrinə qoşulmuş "TotalFinaElf" şirkətinin Bakı-Tbilisi-Ceyhan konsorsiumuna daxil olmasını məmnunluq hissi ilə qeyd edir.*

*Yohannesburq şəhərində davamlı inkişafa həsr edilmiş beynəlxalq sammitdə mən ətraf mühitin qorunmasında bizim hamımızın kollektiv məsuliyyətimizi təkidlə vurğuladım. Azərbaycan, Gürcüstan və Türkiyə, eləcə də "bp" şirkəti bu işləri ekoloji cəhətdən məsuliyyətlə həyata keçirəcəkləri barədə öz iradələrini aydın şəkildə ifadə etmişlər. Biz sizinlə bu yolu seçmişik və bu sahədə fransızların peşəkarlığına etibar edə bilərsiniz.*

*Nəhayət, icazə verin, ölkənin neft və qaz kimi sərvətlərindən əldə edilən gəlirlərin səmərəli idarə olunmasına şərait yaradan Neft Fondunun təsis olunmasını alqışlayıram. Bu, Azərbaycan xalqına yalnız xeyir gətirə biləcək uğurlu bir təşəbbüsdür.*

*Cənab Azərbaycan Respublikasının Prezidenti, cənab Gürcüstan və cənab Türkiyə Prezidentləri, qoy bu gün açılışında iştirak etdiyimiz layihələr ölkələrinizin inkişafına və hər üç ölkə ilə Fransa arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinə xidmət etsin.*

***Jak Şirak***
***Fransa Respublikasının Prezidenti***
***Paris, 17 sentyabr 2002-ci il"***

İngiltərə nümayəndə heyətinin rəhbəri cənab Piter Tibber Böyük Britaniyanın Baş naziri Toni Bleyerin təbrik məktubunu oxudu:

***"Azərbaycan Respublikasının Prezidenti***
***Zati-aliləri***
***cənab Heydər Əliyevə***

*Əziz cənab Prezident!*

*Bu gün Bakı-Tbilisi-Ceyhan boru kəmərinin təməlinin qoyulması və bununla bağlı "Azəri", "Çıraq", "Günəşli" neft yataqlarının tammiqyaslı işlənilməsi münasibətilə Sizə ən hərarətli təbriklərimi göndərirəm.*

*Mən xüsusilə məmnunam ki, "bp" və digər Britaniya şirkətləri Azərbaycanın neft sənayesində əsas rol oynayırlar. Bu möhtəşəm layihənin uğurla həyata keçirilməsi bizim hər iki ölkəmiz üçün böyük mənfəət gətirəcəkdir. Bu o deməkdir ki, Britaniya ən azı daha 20 il müddətində Azərbaycanla əməkdaşlıq edəcəkdir. Artıq ölkələrimiz arasındakı siyasi əlaqələr, sıx ticarət və sosial əlaqələrimiz artaraq həmişəkindən daha yaxşı olmuşdur. Ölkənizin Avropa Şurasına qəbul olunması, Avropa Birliyi ilə tərəfdaşlıq və əməkdaşlıq sazişinin imzalanması nəticəsində bizim nazirlər və rəsmilər bütün səviyyələrdə işbirliyi yaratmışlar. Mən həm də gələcəyə ümidlə baxaraq Azərbaycanın Dünya Ticarət Təşkilatının üzvü olacağı zamanı gözləyirəm.*

*Bu gün Azərbaycan xalqı üçün tarixi bir gündür və bu, Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı əməkdaşlığı gücləndirir. Xəzər dənizinin sərvətlərindən istifadə olunması artıq uzaq xülya deyildir. Bu sərvətin müdrik idarəçiliyi xalqınızın həyatını hərtərəfli yaxşılaşdıracaqdır.*

*Azərbaycan ümid dolu bir gələcəyin astanasındadır. Mən və Britaniya xalqı Sizə bu gələcəyin uğurlu olmasını arzu edirik. Ümid edirəm ki, biz yaranmış əlaqələrimizi qarşıdakı illərdə daha da gücləndirməkdə davam edəcəyik.*

*Səmimiyyətlə,*

***Toni Bleyer***
***Böyük Britaniyanın Baş naziri***
***London, 12 sentyabr 2002-ci il"***

Sonra Norveçin Bakıdakı səfiri **Steynar Gil** çıxış edərək dedi:

- Azərbaycan, Gürcüstan və Türkiyənin hörmətli Prezidentləri!

Möhtərəm Baş nazir və nazirlər!

Xanımlar və cənablar!

Bu gün burada Norveçdən təbrik məktubunu oxumaq bizim üçün fövqəladə dərəcədə əhəmiyyətlidir. İcazənizlə, möhtərəm Heydər Əliyevə Norveçin Baş naziri cənab Bundevikin təbrik məktubunu oxuyuram:

***"Azərbaycan Respublikasının Prezidenti***
***Zati-aliləri***
***cənab Heydər Əliyevə***

*Əziz cənab Prezident!*

*Bakı-Tbilisi-Ceyhan boru kəmərinin təməlinin qoyulması münasibətilə Sizə hərarətli təbriklərimi yetirirəm.*

*Bu boru kəməri "Azəri, "Çıraq, "Günəşli neft yataqlarının inkişafının əsasını təşkil edir. Onun çəkilişi regionun neft və qaz sənayesinin əsaslı inkişafına gətirib çıxaracaq, Azərbaycan, Gürcüstan və Türkiyəni bir-birinə daha sıx bağlayacaqlar.*

*Mən şadam ki, "Statoyl" "şirkəti bu nüfuzlu layihədə tərəfdaş kimi çıxış edir. Şirkətlərimizin ölkənizdəki fəaliyyəti bugünədək formalaşmış əla Norveç-Azərbaycan münasibətlərini daha da gücləndirəcək və bizi bütövlükdə regiona bir qədər də yaxınlaşdıracaqdır.*

*Təməlqoyma mərasiminə və boru kəmərinin gələcəyinə ən xoş arzularımla,*

*Səmimiyyətlə,*

***Kyel Maqne Bundevik***
***Norveç Krallığının Baş naziri***
***Oslo, 17 sentyabr 2002-ci il"***

**Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Devid Vudvordun çıxışı**

- Zati-aliləri cənab Prezidentlər! Cənab energetika naziri!

Möhtərəm qonaqlar, xanımlar və cənablar!

Əvvələn, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətindəki tərəfdaşlarımız - ARDNŞ, "Yunokal", "LUKoyl", "Statoyl", "EkssonMobil", TPAO, "Devon", "İtoçu" və "Delta Hess" şirkətləri adından, ikincisi, Bakı-Tbilisi-Ceyhan Boru Kəməri Şirkətindəki tərəfdaşlarımız - ARDNŞ, "Yunokal", "Statoyl", TPAO, "Eni", "İtoçu", "Delta Hess", TFE, "İnpeks" şirkətlərinin adından bu gün burada çıxış etmək imkanından çox məmnunam.

Bu gün həqiqətən tarixi bir gündür. Biz bu gün buraya iki böyük layihənin tikinti mərhələsinin başlanmasını bayram etmək üçün toplaşmışıq. Bunlar "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənilməsi üzrə "Faza-2" və Bakı-Tbilisi-Ceyhan boru kəməri layihələridir. Əminik ki, onların hər ikisinin Azərbaycan, Gürcüstan və Türkiyə üçün əhəmiyyətli dərəcədə müsbət təsiri olacaqdır.

Beləliklə, biz hamımız bu gün Azərbaycan, Gürcüstan və Türkiyədə enerji iqtisadiyyatının yeni bir dövrünün yaranması ərəfəsindəyik. Bu, qanunauyğun haldır, dünyanın hələ də öz enerji ehtiyatları üçün arxalanmaqda davam etdiyi bir sənayenin yaranmasına 100 ildən də çox bundan qabaq töhfə vermiş bir ölkə olan Azərbaycan bu nəhəng enerji layihələri üçün karbohidrogen ehtiyatlarını təmin edəcəkdir.

1997-ci il noyabrın 7-dən - "Çıraq" yatağından ilkin neftin hasilinə başlanandan bəri bütün maraqlı tərəflərlə əməkdaşlıq şəraitində əldə etdiyimiz mühüm irəliləyişlər barədə əvvəllər də danışmışam.

İlkin neft layihəsi çərçivəsində artıq 165 milyon barreldən çox neft hasil edilmiş və Azərbaycan dövlətinə təxminən 500 milyon dollarlıq mənfəət nefti təhvil verilmişdir.

"Azəri" yatağının mərkəzi hissəsinin işlənilməsi üzrə "Faza-1" layihəsinin tikinti işləri də yaxşı gedir. Bu layihəyə sanksiya verilməsindən bir il ötür, irəliləyiş əladır və layihə cədvələ tam uyğun həyata keçirilir. "Faza-1" üzrə hasilatın 2005-ci ilin əvvəllərində başlayacağı və nəticədə, orta hesabla gündə 375 min barrel neft çıxarılacağı gözlənilir.

Bu işin icrası bizdə belə böyük inam yaratmışdır ki, Azərbaycan və Gürcüstan uğurlu biznes qurmaq üçün möhkəm özül yaradılmasını təmin edə bilərlər və edirlər. Lakin bugünədək əldə etdiklərimiz nə qədər əhəmiyyətli olsa da, hazırda həyata keçirdiklərimizlə müqayisədə xeyli azdır.

Biz layihələrimizin həcmini və miqyasını genişləndirərək, Türkiyəni də bu işə qoşmaq ərəfəsindəyik. Biz burada uzun müddət fəaliyyət göstərəcəyik və ABƏŞ, BTC və "Şahdəniz"dəki tərəfdaşlarımızla birlikdə Xəzər regionundakı neft və qaz layihələrinə bundan sonra əlavə 18 milyard dollar sərmayə qoymağı planlaşdırırıq, bunun da əksər hissəsi Azərbaycana qoyulacaqdır.

"Faza-2" layihəsinin dəniz obyektləri iki əsas hasilat platformasından ibarət olacaqdır. Onlar "Azəri" yatağının qərb və şərq hissələrində yerləşəcək və hər ikisi "Faza-1"-in hasilat platforması ilə oxşar olacaqdır.

Yeni hasilat platformasından çıxarılacaq neft uzunluğu 190 kilometr olan 30 düymlük yeni sualtı boru kəməri vasitəsilə Səngəçal terminalına nəql ediləcəkdir. Səngəçal terminalında "Faza-2" layihəsinin əsas hissəsi olaraq, böyük genişləndirmə işləri aparılacaqdır. Bunun nəticəsində terminalın gücü sutkada 800 min barreldən artıq olacaq, onun ümumi sahəsi 540 hektaradək artacaq və terminal dünyanın bu növ ən böyük obyektlərindən birinə çevriləcəkdir.

"Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənilməsinin üçüncü, yekun fazası 2007-ci ildə tamamlanacaq və bu mərhələ yataqlardan ümumi hasilatı gündə 1 milyon barreldən yuxarı səviyyəyə çatdıracaqdır.

Səngəçal terminalında texniki emaldan keçirilmiş neft Ceyhana ixrac olunmaq üçün Bakı-Tbilisi-Ceyhan boru kəmərinə vurulacaqdır.

BTC layihəsinin mahiyyəti nədir? Statistik məlumatlara görə, bu, uzunluğu, 1760 kilometr olan, əsasən 42 düymlük boru kəmərinə, 8 nasos stansiyasına və 98 siyirtməli stansiyaya malik, 2,95 milyard dollar sərmayə tələb edən layihədir. Xəzər dənizindən Aralıq dənizinədək olan yol boyunca boru kəməri bəzi yerlərdə 2700 metrdən də artıq yüksəklikdən və 1500-dən çox çaydan keçəcəkdir.

Lakin BTC təkcə bu demək deyildir. Bu layihə yeni Şərq-Qərb enerji dəhlizini açacaq və bizi yalnız yerli ixrac çözümü olan orta miqyaslı neft hasilatı əməliyyatlarından beynəlxalq ixrac çözümünə malik nəhəng neft istismarı əməliyyatlarına aparacaqdır. Bu elə bir beynəlxalq ixrac çözümüdür ki, onun beynəlxalq standartlara uyğun fəaliyyət göstərən beynəlxalq tərəfdaşları var. Bununla belə, o, yerli tərəfdaşlardan, yerli məhsullardan və xidmətlərdən istifadə etməklə və əhəmiyyətli sayda yerli işçi qüvvəsi cəlb etməklə yerli ehtiyaclara çox həssas yanaşır.

Gəlin, həm də unutmayaq ki, BTC böyük həcmdə xam neftin çox tünlük olan Türkiyə boğazlarından yan keçməklə birbaşa dünya bazarlarına nəqlinə imkan yaradacaq və ətraf mühitin qorunması ilə bağlı Türkiyənin bütün narahatlıqlarını aradan qaldıracaqdır.

Beləliklə, biz bu gün hansı mərhələdəyik? Bu gün biz artıq gələcək uğurlarımız üçün möhkəm təməl qoymuşuq. Bununla yanaşı, biz yalnız bütün maraqlı tərəflərin fəal dəstəyi, iştirakı və əməkdaşlığı ilə irəli gedə bilərik.

Mən burada bizi bu tarixi günə gətirib çıxaran rəhbərliyinə görə Prezident Heydər Əliyevə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Sizin Prezident Şevardnadze və Prezident Sezərlə birlikdə regionda yaratmış olduğunuz sülh və sabitlik, imzaladığınız müqavilələrin bütövlüyü bu çoxmilyardlı dollarlıq sərmayələr tələb edən layihələri irəli apara bilməyimiz üçün həlledici əhəmiyyətə malikdir. "bp" və tərəfdaşları layihələrimizə gətirmiş olduğunuz gələcəyə tuşlanmış baxışları və uzaqgörənliyi, Sizin nazirlərinizin və şəxslərinizin dəstəyini olduqca yüksək qiymətləndirirlər. Əminəm ki, biz bu layihələri irəli apardıqca və bugünkü tarixi günlə son məqsədə çatacağımız dövr arasında üzləşəcəyimiz labüd çətinliklərin aradan qaldırılmasında Sizin daimi dəstəyinizə arxalana bilərik.

Mən həmçinin digər maraqlı tərəflərin - Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarının, ABŞ və Avropa hökumətlərinin, maliyyə qurumlarının, dövləti təmsil edən tərəfdaşlarımızın - ARDNŞ və Gürcüstan Beynəlxalq Neft Korporasiyasının, çoxsaylı podratçılarımızın və əlbəttə, layihədəki tərəfdaşlarımızın əhəmiyyətli töhfələrini yüksək qiymətləndirmək istərdim. Onların dünyanın bir çox ölkələrindən - Böyük Britaniya, ABŞ, Türkiyə, Norveç, Yaponiya, Rusiya, Səudiyyə Ərəbistanı və İtaliyadan olmaları layihələrin əsl beynəlmiləl təbiətini və bunun nəticəsi kimi, bu layihələrə göstərilən çox geniş dəstəyi əks etdirir.

Biz bu dəstəyə nail olmaq üçün çox ciddi çalışmışıq, bütün aidiyyətli tərəflərlə geniş məsləhətləşmələr aparmışıq. Biz BTC marşrutunun seçilməsinə böyük qayğı ilə yanaşmışıq, məsələn, elə bir əminlik yaratmağa çalışmışıq ki, bircə nəfər də olsa, öz evinin köçürülməməsi barədə xahiş etməsin. Biz mənfi təsirin azaldılması üzrə geniş məsləhətləşmələr aparmışıq ki, nəticədə bu ərazidə tikinti işlərimiz başa çatdıqdan sonra ətraf mühiti işə başladığımız vaxt necə idisə, o cür, yaxud daha yaxşı vəziyyətdə təhvil verə bilək.

Hər bir işi "bp"-nin siyasətinə və tranzit ölkə hökuməti ilə sazişlərdəki öhdəliklərə uyğun olaraq, ən yüksək beynəlxalq standartlarla görməyə söz veririk. Bu öhdəliklərlə bərabər, hər bir hökumətin özünün həyata keçirəcəyi hüquq və tələblər də var və biz hökumətlərarası sazişlərin və tranzit ölkə hökuməti ilə sazişlərin yaratmış olduğu hüquqi əsaslar çərçivəsində bundan sonra da əməkdaşlıq etmək ümidindəyik ki, bu layihələrin təhlükəsiz, sərfəli və səmərəli yerinə yetirilməsi təmin olunsun.

İnanırıq ki, əldə olunacaq böyük gəlirlərdən yaxşı istifadə təmin edilərsə, bu, regionun əhalisinə əsaslı fayda verə bilər. Neft gəlirlərinin daxil olmasında və onlardan istifadə edilməsində şəffaflığı təmin etmək üçün Azərbaycanda Neft Fondunun yaradılmasından xüsusilə ruhlanmışıq.

Cənab Prezidentlər, cənab energetika naziri, hörmətli qonaqlar, xanımlar və cənablar! Zənnimcə, biz bu gün bir arzunu bölüşürük - Gürcüstan və Türkiyə ilə əməkdaşlıqda Azərbaycanda dünya səviyyəli neft və qaz



layihələri gerçəkləşəcək və bu ölkələrə, onların vətəndaşlarına, sanballı fayda və mənfəət gətirəcəkdir. Elə buna görə də bu gün "Faza-2" və BTC layihələrinə sanksiya verilməsinə həsr edilmiş bu mərasimdə olmaqdan məmnunluq duyuram. "bp" və onun tərəfdaşları bu arzunun reallığa çevrilməsi üçün sizinlə birlikdə işləmək əzmindədirlər.

Sağ olun.

**ARDNŞ-nin prezidenti**
**Natiq Əliyevin çıxışı**

- Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab Heydər Əliyev!

Türkiyə Cümhuriyyətinin Prezidenti Zati-aliləri cənab Əhməd Necdət Sezər!

Gürcüstanın Prezidenti Zati-aliləri cənab Eduard Şevardnadze!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İki gündən sonra müstəqil Azərbaycanın yeni neft strategiyasının əsasını qoyan "Əsrin müqaviləsi"nin imzalanmasının 8 ili tamam olacaqdır. Dünya miqyaslı dahi siyasətçi cənab Heydər Əliyevin uzaqgörənliyi, dövlətin və ölkə iqtisadiyyatının inkişafının əsas qanunları və yolları haqqında ensiklopedik biliyə malik olması, böyük və misilsiz rəhbərlik təcrübəsi, xalqına sədaqəti və Vətənə sonsuz məhəbbəti ona miqyasına görə dünyada analoqu olmayan çox nəhəng layihəni yaratmaq, eyni zamanda onun həqiqi rəhbəri və bilavasitə əsas icraçısı olmaq imkanı verdi. Bu gün tam qətiyyətlə demək olar ki, Heydər Əliyevin neft konsepsiyası nəinki Azərbaycanın XXI əsrdəki inkişafının əsasını qoydu, həm də Xəzər regionundakı zəngin karbohidrogen potensialını hərəkətə gətirərək, yeni inkişaf mərhələsinə yol açdı və bütövlükdə, regionun dünyanın ən böyük enerji mərkəzlərindən birinə çevrilməsində həlledici qüvvə rolunu oynadı.

Mən öz adımdan, çoxsaylı tərəfdaşlarım və xarici qonaqlar adından bu gün Bakı şəhərində baş verən tarixi əhəmiyyətli hadisələr münasibətilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi və onun yaxın həmkarları Türkiyə və Gürcüstan Prezidentlərini təbrik edirəm.

Yeni neft strategiyasının həyata keçirilməsinin indiki mərhələsinin əhəmiyyətini mərasim iştirakçılarına inandırmağa ehtiyac yoxdur, bununla belə mən bu haqda bəzi rəqəm və faktları sizin nəzərinizə çatdırmaq istərdim.

"Əsrin müqaviləsi"nin imzalanmasından bu günə qədər xarici şirkətlərlə 21 neft müqaviləsi imzalanmışdır və bu layihələrin inkişafına ümumilikdə 6 milyard dollara qədər sərmayə qoyulmuşdur, bunun da təxminən 4 milyardı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının payına düşür. 1996-cı ilin fevral ayında "Çıraq" yatağından ilkin neftin hasilatı haqqında qərar



qəbul olundu və uğurla həyata keçirildi. İlkin neft obyektlərinə "Çıraq" yatağında 105 metr dərinlikdə qurulmuş bir dəniz qazma və hasilat platforması, Səngəçaladək 24 düymlük bir sualtı neft kəməri, Neft daşlarınadək 16 düymlük bir sualtı qaz kəməri, Səngəçalda neft terminalı, Şimal və Qərb istiqamətində iki ixrac boru kəməri və Supsada bir ixrac terminalı daxil oldu. Hazırda "Çıraq-1" özülündə 16 quyu qazılmışdır və onların 12-dən, nəzərdə tutulduğundan xeyli artıq, gündə orta hesabla 140 min barrel (19 min ton) neft hasil edilir. Bu günədək 22,6 milyon tondan artıq neft çıxarılıb ki, bunun da 3,8 milyon tonu Bakı-Novorossiysk, 18,6 milyon tonu isə Bakı-Supsa boru kəmərləri vasitəsilə dünya bazarlarına çatdırılmışdır.

Lakin neftin hasilatını və ixracını artırmaq üçün Azərbaycanın və xüsusilə "Azəri", "Çıraq", "Günəşli" yataqlarının imkanları bugünkündən qat-qat çoxdur. Axır zamanlarda aparılan kəşfiyyat işləri göstərmişdir ki, yalnız bu yataqlardan sübut olunmuş və çıxarıla bilən neft ehtiyatları 4,2 milyard barreldən 5,4 milyard barrelə və ya 511 milyon tondan 730 milyon tona qədər artmışdır. Bu imkanlardan səmərəli istifadə etmək məqsədi ilə yataqların tammiqyaslı işlənilməsi proqramı hazırlandı və 2001-ci il avqustun 30-da onun ilk mərhələsinin - "Faza-1" layihəsinin başlanması qərara alındı.

Bu layihə "Azəri" yatağının mərkəzi hissəsinin işlənilməsinə yönəldilmişdir. Layihədə 128 metr dərinlikdə 48 quyuağzına malik olan, sutkada 400 min barrel (ildə təxminən 20 milyon ton) neft hasil etmək gücündə hasilat, qazma və yaşayış platformasının tikilməsi nəzərdə tutulur. Bu platformadan neft uzunluğu 187 kilometr olan yeni sualtı boru kəməri vasitəsilə




Səngəçal terminalına, səmt qazı isə 28 düymlük kəmər vasitəsilə sahilə çatdırılacaqdır. Bu həcmdə nefti və qazı qəbul etmək üçün Səngəçal terminalının genişləndirilməsi böyük əhəmiyyət kəsb edir. Bunun nəticəsində "Faza-1" layihəsi çərçivəsində terminal gündə 360 min barrelə (48,6 min tona) yaxın nefti qəbul və emal etmək qabiliyyətinə malik olacaqdır. Neft tutumlarının ümumi saxlanılma gücü 1,6 milyon barrelə və ya 220 min tona çatacaqdır. Bundan başqa, neft laylarımn səmərəli işlənilməsini təmin etmək məqsədi ilə hasilat platformasının körpü ilə birləşdirilməsi, bir yeni qaz kompressorunun və suvurma platformasının inşası nəzərdə tutulmuşdur. "Faza-1" layihəsinin həyata keçirilməsi nəticəsində 2005-ci ilin birinci rübündə ilkin neftin hasil olunması gözlənilir və ümumilikdə, "Çıraq-1" və "Mərkəzi Azəri" platformasından neft hasilatı gündə 250 min barrelə, 2008-ci ildə isə yalnız bu iki platformadan 500 min barrelə (ildə 25 milyon tona) çatacaqdır.

Möhtərəm cənab Prezident! Sizə məruzə etmək istəyirəm ki, "Faza-1" layihəsi cari ildə çox dinamik inkişaf edir, artıq əsas tikinti-quraşdırma işlərinə Azərbaycanda, Dubayda, Fransada, İtaliyada və İsveçdə



başlanmışdır və bu işlərin vaxtında yerinə yetirilməsi üçün ABŞ-ın "MakDermott", Fransanın "Buiq", "Eyfel" və "Antrpoz", İtaliyanın "Saypem", İsveçin "Emtunqa", Türkiyənin "Tekfen" şirkətləri böyük səylər göstərir. Hazırda bu şirkətlərdə "Faza-1" layihəsi çərçivəsində 2300-dən artıq Azərbaycan mütəxəssisi və vətəndaşı işə götürülüb və uğurla çalışır.

"Faza-1" üzrə qazma proqramı "Dədə Qorqud" qazma qurğusu vasitəsilə "Azəri" yatağında platformanın tikilməsini gözləmədən, 2002-ci ilin mart ayında başlamışdır. Hazırda bir quyu tam qazılıb qurtarıb, ikinci quyu qazılmaqdadır və ümumilikdə, dəniz dibində quraşdırılmış qazma dayaq tavasından istifadə edilməklə doqquz quyu qazılacaqdır. Qalan 39 quyu isə platforma istismara verildikdən sonra, 2005-2011-ci illər arasında platformadan qazılacaqdır.

"Faza-2" layihəsi "Azəri" yatağının şərq və qərb hissələrinin işlənilməsinə yönəldilmişdir və bu, "Faza-1" ilə birlikdə "Azəri" yatağının işlənilməsini tam başa çatdıracaqdır. "Faza-2" dəniz obyektləri suyun dərinliyi müvafiq olaraq 120 və 150 metr olan sahələrdə yerləşməklə, "Azəri" yatağının qərb və şərq hissəsində iki ədəd 48 quyuağzına malik platformanı əhatə edəcəkdir. Platformaların texnoloji emal gücü "Azəri" yatağının qərb hissəsində gündə 340 min barrel (ildə 17 milyon ton), şərq hissəsində isə 260 min barrel (ildə 13 milyon ton) olacaqdır. Bunun nəticəsində "Azəri" yatağında neft hasilatı artırılacaq və gündə azı 800 min barrelə (ildə 40 milyon tona) çatdırılacaqdır.

Bu zaman neft Səngəçala iki ədəd 30 düymlük boru kəməri, səmt qazı isə 28 düymlük boru kəməri vasitəsilə nəql ediləcəkdir. Səngəçal terminalı alınacaq əlavə hasilatın texnoloji işlənilməsini təmin etmək üçün genişləndiriləcək və 2007-ci ilə qədər texnoloji emal obyektlərinin gücü gündə 1,2 milyon barrelə (ildə 60 milyon tona) çatdırılacaqdır. Bu da Səngəçal terminalını dünyanın ən böyük terminallarından birinə çevirəcəkdir.

"Faza-1"-in qaz kompressor və suvurma platforması gücləndiriləcək və onun üzərində yerləşdirilmiş dörd qaz və suvurma qurğusuna "Faza-2"-nin iş həcmi ilə əlaqədar daha iki qazvurma və üç suvurma qurğusu da əlavə ediləcəkdir.

"Faza-2" çərçivəsində 2003-cü ilin 4-cü rübündə "Azəri" yatağının mərkəzi hissəsində ilkin qazma işləri başa çatdırılan kimi, onun qərb hissəsində "Dədə Qorqud" qazma qurğusu işə başlayacaq və platforma quraşdırılmazdan əvvəl doqquz hasilat quyusu qazılacaqdır. Bundan sonra şərq hissəsində 2006-cı ilin 2-ci rübünədək daha 4 hasilat quyusu təhvil veriləcəkdir. Bundan əlavə, platformalardan, ümumilikdə, 70 hasilat və 16 suvurma quyusunun qazılması nəzərdə tutulur.

Beləliklə, "Faza-2" layihəsinin iş cədvəlinə və proqramına uyğun "Azəri" yatağının qərb və şərq hissələrindən ilk hasilat 2006-cı və 2007-ci illərdə başlanacaq və həmin ildə yalnız "Azəri" yatağından ümumi gündəlik hasilat 615 min barrelə (ildə 30 milyon tona) çatacaqdır.

Bu baxımdan, bu gün Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin ilk borusunun qoyulması, üç ölkənin Prezidentlərinin bu təntənəli mərasimdə iştirak etməsi və bu işə xeyir-dua verməsi xüsusi əhəmiyyət kəsb edir, hamımızda bayram əhval-ruhiyyəsi yaradır. "Bakı-








Tbilisi-Ceyhan Kompani" şirkəti artıq yaradılmış və fəaliyyətə başlamışdır.

Hazırda boru kəməri sisteminin tikintisini və istismarını təmin etmək məqsədi ilə layihəni maliyyələşdirmək üçün Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, ixrac kredit agentlikləri, sığorta və kommersiya bankları daxil olmaqla geniş beynəlxalq kreditorlar qrupundan vəsait almaqdan ötrü danışıqlar aparılır. Boru kəmərinin Türkiyədən keçən hissəsi Türkiyə hökuməti ilə "BTC Kompani" səhmdarları arasında bağlanmış "Birdəfəyə ödənilən məbləğ əsasında açarlı təhvil sazişi"nə uyğun olaraq tikiləcəkdir. "BTC Kompani" Türkiyə ərazisi daxilindəki 1070 kilometrlik hissənin tikintisinə məsul olan "Botaş" şirkətinə işə başlamaq barədə bildiriş təqdim etmişdir və müqavilə sentyabrın 10-dan qüvvəyə minmişdir.

Azərbaycanda və Gürcüstanda tikinti işlərini aparmaq üçün hazırlıq tədbirləri görülür, BTC dəhlizinin torpaq sahibləri müəyyənləşdirilib, lazımi

sənədlər təsdiq olunub, müvafiq icazələr və lisenziyalar alınıbdır.

Biz qəti fikirdəyik və əminik ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin rəhbərliyi ilə bu iki nəhəng layihə qısa bir zamanda uğurla gerçəkləşəcək və bununla dövlət müstəqilliyimizin möhkəmlənməsinə, doğma Vətənimizin çiçəklənməsinə, xalqımızın rifah halının yüksək səviyyəyə çatdırılmasına misilsiz xidmətlər göstərəcəkdir.

Çıxışımın sonunda mən fürsətdən istifadə edərək, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin rəhbərliyi adından bu layihələrdə iştirak edən çoxsaylı tərəfdaşlarımıza, Bakıya gələn bütün qonaqlarımıza öz dərin təşəkkürümü və minnətdarlığımı bildirmək, iki gündən sonra qarşılayacağımız və Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab Heydər Əliyev tərəfindən bizə bəxş edilən "Neftçilər günü" peşə bayramı münasibətilə Azərbaycan neftçilərini təbrik etmək istəyirəm.

Diqqətinizə görə sağ olun.

Sonra Azərbaycan Prezidenti Heydər Əliyev "Azəri", "Çıraq", "Günəşli" yataqlarının tammiqyaslı işlənməsinin 2-ci mərhələsinin başlanmasına dair sənədlərin imzalanması mərasimini elan etdi.

ABƏŞ-in prezidenti Devid Vudvord və ARDNŞ-nin prezidenti Natiq Əliyev "Azəri", "Çıraq", "Günəşli" yataqlarının tammiqyaslı işlənməsinin "Faza-2" mərhələsinə sanksiya verilməsinə dair sənədləri imzaladılar.

**Heydər Əliyev:** Hörmətli xanımlar və cənablar!
Dostlar!

Bizim bugünkü təntənəli mərasimimiz başa çatır. Mən bir daha hamınıza təşəkkür edirəm ki, Azərbaycan, Türkiyə, Gürcüstan üçün və Qərb ölkələrindəki, digər ölkələrdəki həmkarlarımız üçün vacib olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşasına başlanmasının təməlinin qoyulmasında iştirak edirsiniz. Çox sağ olun.

Biz belə qərara almışıq ki, bunun təməlini qoyanda, ilk borunu xəndəyə endirəndə, eyni zamanda, gələcək nəsillərə müraciətimizi də oraya qoyaq. Ona görə təklif var ki, o müraciət üç ölkənin Prezidentləri adından burada imzalansın.

Mərasimdə Prezidentlərin müraciətlərinin mətni oxundu:

***"Gələcək nəsillərə***

*Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəri, 18 sentyabr 2002-ci il*

*Bu gün biz, üç suveren dövlətin rəhbərləri - Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyev, Gürcüstan Prezidenti Eduard Amvrosiyeviç Şevardnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Hecdət Sezər Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin təməl daşını qoyaraq, sizə, xalqlarımızın gələcək nəsillərinə müraciət edirik.*

*Ölkələrimizin milli mənafelərindən çıxış edərək, böyük qürur duyğusu ilə bütün dünyaya bəyan edirik ki, XXI əsrin ilk illərində regionda ən nəhəng layihə olan, Xəzər və Aralıq dənizlərini birləşdirən neft boru kəmərinin çəkilməsi dövlətlərimizin, hökumətlərimizin birgə uğurlu səyləri nəticəsində artıq reallığa çevrilir.*

*Layihənin həyata keçirilməsi və istismar zamanı hazırda bəşəriyyətin bu sahədə əldə etdiyi müasir elmi-texnoloji nailiyyətlərin tətbiq ediləcəyi mütərəqqi mühəndislik üsullarından istifadə olunması nəticəsində Şərq-Qərb enerji dəhlizi keyfiyyətcə yeni mərhələyə qədəm qoyacaqdır. Bu proseslərdə Azərbaycan, Böyük Britaniya, Amerika Birləşmiş Ştatları, Norveç, Türkiyə, Yaponiya, İtaliya, Fransa və Səudiyyə Ərəbistanının neft şirkətləri xüsusi rola malikdirlər.*

*Buna görə, bu tarixi əhəmiyyətli hadisənin ən aparıcı amili ondan ibarətdir ki, müxtəlif dilə, dinə, adət-ənənələrə mənsub olan insanlar dostluq, qardaşlıq və həmrəylik şəraitində qlobal səviyyədə sivil əməkdaşlıq edirlər. Əminik ki, Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsinin gerçəkləşməsi ülvi amallara xidmət edərək, regionun simasını dəyişdirəcək, siyasi iqlim sabitləşəcək, iqtisadi inkişafa ciddi təkan verəcək, xalqlarımızın rifahı yüksələcəkdir.*

*Sizə sülh, əmin-amanlıq və firavanlıq arzulayırıq.*

***Azərbaycan Respublikasının Prezidenti***
***Heydər Əliyev***

***Gürcüstanın Prezidenti***
***Eduard Şevardnadze***

***Türkiyə Cümhuriyyətinin Prezidenti***
***Əhməd Necdət Sezər"***

**Heydər Əliyev:** Müraciət imzalandı. İndi cənab Vudvord bir dəqiqəlik söz istəyir. Buyurun.

**Devid Vudvord:** Cənab Prezident, dediyimiz kimi, bugünkü layihələrin həm Azərbaycan, həm də Gürcüstan və Türkiyə Cümhuriyyəti üçün çox böyük tarixi əhəmiyyəti var. Bu layihənin reallaşdırılması ilə Azərbaycanın Xəzər nefti dünyanın bütün yerlərinə çatdırılcaqdır. Bu hadisəni qeyd etmək üçün indi mən bizim tərəfdaşlarımız adından Sizə bir hədiyyə təqdim etmək istəyirəm.

Cənab Devid Vudvord Azərbaycan Prezidenti Heydər Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

Mərasimin sonunda Azərbaycan Prezidenti yekun sözü söylədi.



**Azərbaycan Prezidenti**
**Heydər Əliyevin yekun sözü**

- Hörmətli xanımlar və cənablar!
Dostlar!

Biz bu gün tarixi bir gün yaşayırıq. Tarixi bir hadisənin şahidiyik. Bu tarixi biz yazırıq. Bugünkü nəsillər, Azərbaycan, Türkiyə, Gürcüstan, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Norveç, Fransa, İtaliya və digər dövlətlər, hamımız bir yerdə böyük bir tarix yazırıq. Bunların hamısı gələcək nəsillər üçündür. Şübhə yoxdur ki, gələcək nəsillər bizim gördüyümüz bu işlərdən bəhrələnərək, daha da firavan yaşayaraq, ölkələrimizdə, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu şəraitində, vətəndaş cəmiyyəti şəraitində yaşayaraq bunların bəhrələrini görəcəklər.

Bu gün burada Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Buşun təbrik məktubunu dinlədik. Mən Prezident Buşa bizim bugünkü mərasimimizə göstərdiyi diqqətə görə çox təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Prezident Buş daim bizimlə, Bakı-Tbilisi-Ceyhanla olacaqdır.

Fransa Prezidenti hörmətli Jak Şirak bizə təbrik məktubu göndərmişdir. Biz onu burada çox diqqətlə dinlədik. Çox mehriban, dostluq ruhunda yazılmış, yəni məzmunca bizə inamla dolu bir təbrik məktubudur. Mən Prezident cənab Jak Şiraka təşəkkürümü bildirirəm və onu əmin etmək istəyirəm ki, biz bu işdə dayanmayacağıq, irəliyə gedəcəyik və Fransanın dəstəyini daim hiss edəcəyik.

Biz Böyük Britaniyanın Baş naziri Toni Bleyerin təbrik məktubunu dinlədik. Mən təşəkkür edirəm. Burada, təbiidir ki, bir çox şirkətlər iş görür. Ancaq bu şirkətlərin içərisində "bp", bildiyiniz kimi, özünəməxsus yer tutubdur və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə, eyni zamanda, Bakı-Tbilisi-Ceyhan layihəsi ilə əlaqədar yaradılmış şirkətə rəhbərlik edir. Ona görə də burada Böyük Britaniyanın mühüm iqtisadi maraqları var. Əmin ola bilərsiniz ki, o maraqlar yerinə yetiriləcəkdir.

Mən Böyük Britaniyanın Baş naziri cənab Toni Bleyerə təşəkkür edirəm. Onu əmin edirəm ki, Azərbaycan-Böyük Britaniya əməkdaşlığı bundan sonra da davam edəcəkdir.

Biz Norveç Krallığının Baş naziri cənab Kyel Maqne Bundevikin təbrik məktubunu dinlədik. Biz Azərbaycanın neft strategiyasını həyata keçirməyə başlayandan, 1994-cü ildən bəri Norveç və onun "Statoyl" şirkəti bizimlə bərabərdir və çox səmərəli əməkdaşlıq edir. Ona görə bizə göndərdiyi təbrik üçün hörmətli Baş nazirə təşəkkür edirəm və ümidvaram ki, bizim bu əməkdaşlığımız gələcəkdə də davam edəcəkdir.

Nəhayət, sizin hamınıza - Bakı-Tbilisi-Ceyhan boru xəttində çalışacaq insanlara, azərbaycanlılara, xarici ölkələrin Azərbaycanda işləyən vətəndaşlarına cansağlığı, xoşbəxtlik və böyük uğurlar arzu edirəm. Sağ olun.

İndi isə təməl daşının qoyulmasında iştirak edəcəyik.

Azərbaycan, Gürcüstan və Türkiyə Prezidentləri, ABŞ-ın energetika naziri, mərasimin digər iştirakçıları Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulacağı yerə gəldilər. Burada ilk boru təntənəli şəkildə xəndəyə endirildi. Azərbaycan Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Türkiyə Prezidenti Əhməd Necdət Sezər borunun üstünə ilk torpağı atdılar.

İçərisində "Gələcək nəsillərə" müraciətinin mətni olan dəmir kapsul Bakı-Tbilisi-Ceyhan boru kəmərinin başlanğıcında qazılmış quyuya basdırıldı. Sonra dövlət başçıları boru kəmərinin təməlinin qoyulması münasibətilə ucaldılmış xatirə lövhəsinə baxdılar. Xatirə lövhəsində Azərbaycan, türk və gürcü dillərində bu sözlər yazılmışdır:

***"18 sentyabr 2002-ci il tarixdə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin inşasının təməl daşı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər tərəfindən qoyulmuşdur".***

Azərbaycan, Gürcüstan və Türkiyə Cümhuriyyətinin Prezidentləri xatirə lövhəsinin qarşısında şəkil çəkdirdilər.

Mərasimdə Azərbaycanın dövlət və hökumət nümayəndələri, xarici ölkələrin Bakıdakı səfirləri, beynəlxalq təşkilatların Azərbaycandakı təmsilçiləri və digər rəsmi şəxslər iştirak edirdilər.



## "Gülüstan" sarayında

Elə həmin gün "Gülüstan" sarayında Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması münasibətilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin adından dövlət başçılarının və nümayəndə heyətlərinin şərəfinə rəsmi ziyafət verildi.

Salona toplaşanlar Azərbaycan Prezidenti Heydər Əliyevi, Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezəri, Gürcüstan Prezidenti Eduard Şevardnadzeni hərarətlə qarşıladılar.

Prezident Heydər Əliyev ziyafətdə nitq söylədi.

### Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi

- Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Əhməd Necdət Sezər!

Gürcüstan Prezidenti hörmətli Eduard Şevardnadze!

Hörmətli qonaqlar, dostlar!

Bu gün biz tarixi bir gün yaşayırıq. Bu gün bir neçə il üzərində işlədiyimiz və çox həyata keçirmək istədiyimiz Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına başlanılmasının təməlini qoyduq. Mən çox məmnunam ki, bunu biz Türkiyə Cümhuriyyəti ilə, Gürcüstanla və Amerika Birləşmiş Ştatları ilə bir yerdə edirik. ABŞ-ın energetika naziri bu mərasimdə iştirak etdi, ancaq onun Tokioda təcili işi olduğuna görə ziyafətə qala bilmədi.

Biz bu gün Səngəçalda, Bakı küləyinin əsməsinə baxmayaraq, çox böyük mərasim keçirdik. Yəni kəmərin təməl daşını atdıq, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə yol açdıq. Bununla əlaqədar biz - Prezident Əhməd Necdət Sezər, Prezident Eduard Şevardnadze, Amerika Birləşmiş Ştatlarının energetika naziri və mən orada nitqlər söyləmişik və Bakı-Tbilisi-Ceyhan haqqında öz fikirlərimizi, sözlərimizi, arzularımızı demişik. Ona görə də mən indi yemək vaxtı bu barədə danışmaq istəmirəm. İstəyirəm deyəm ki, Bakı-Tbilisi-Ceyhan boru xəttinin hazırlanmasında və indi ona həyat verilməsində iştirak edənlərin hamısına ürəkdən təşəkkür edirəm.

Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Əhməd Necdət Sezərə, Gürcüstan Prezidenti hörmətli Eduard Şevardnadzeyə, Amerika Birləşmiş Ştatlarının energetika naziri cənab Spenser Abrahama xüsusi təşəkkür edirəm. Ancaq bu böyük layihənin hazırlanmasında bizimlə bərabər, bizdən də çox zəhmət çəkənlər var. Birincisi, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti və onun tərkibində olan şirkətlər, Azərbaycan Dövlət Neft Şirkəti... Mən bu gün onların indiyə qədər gördükləri işi yüksək qiymətləndirərək bəyan edirəm ki, bu işlərin hamısı beynəlxalq standartlara uyğundur və bizim Xəzər dənizində neft hasilatı ilə əlaqədar bütün istək və arzularımızı yerinə yetirə biləcəkdir. Ona görə də bu şirkətlərə təşəkkür edir, onların çox yüksək peşəkarlığını qeyd edirəm. Mən eyni zamanda, bütün neftçilərə, inşaatçılara, bütün fəhlələrə, Azərbaycan övladlarına, müxtəlif ölkələrdən Azərbaycana gəlmiş və bu layihələr üzərində çalışan dostlarımızın hamısına təşəkkür edirəm.



Bu təşəkkürləri edərkən mən yalnız bir adamın, cənab Vudvordun xüsusi səylərini və çox yüksək səviyyəli rəhbərliyini xüsusi qeyd etmək istəyirəm.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri tikilməyə başlandı. Mən sizi təbrik edirəm və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinə uğurlu yol arzulayıram.

Bunun üçün qədəhlərinizi qaldırmağı xahiş edirəm.

Hörmətli Prezident Əhməd Necdət Sezər!

Hörmətli Prezident Eduard Şevardnadze!

Hörmətli qonaqlar, dostlar!

Bakı-Tbilisi-Ceyhan neft kəməri üç dövlətin ərazisindən keçir. Neft Azərbaycanda hasil edilir və bundan sonra da hasil olunacaqdır. Amma neftin dünya bazarlarına çıxarılması üçün, təbiidir ki, bizim üçün çox əlverişli marşrut lazımdır. Burada da çox fikirləşmək lazım deyildi. Çünki biz Bakı-Tbilisi-Ceyhan layihəsinə 1994-cü ildə Türkiyə Cümhuriyyəti və Gürcüstan ilə bir yerdə başlamışdıq.

Biz əvvəldən Türkiyə Cümhuriyyəti, onun hökuməti ilə, Türkiyənin keçmiş Prezidenti mərhum Turqut Özalla, 9-cu Prezidenti hörmətli Süleyman Dəmirəllə bu işləri bir yerdə başlamışdıq, bir yerdə çalışırdıq. Bu boru xətti Türkiyəsiz ola bilməzdi. Biz Türkiyədən savayı başqa ölkədən, regiondan boru xəttini keçirmək istəməmişik. Ona görə də bizim əməkdaşlığımız çox səmərəli olubdur. Türkiyənin şirkətləri burada çox işlər görüblər. Biz daim məsləhətləşdik və təsadüfi deyil ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac kəmərinin inşa olunması haqqında 1998-ci ildə ilk dəfə Ankara bəyannaməsini qəbul etdik. Daha sonra, 1999-cu ildə İstanbulda, ATƏT-in zirvə görüşündə bu barədə saziş imzalandı. Bu sazişi Azərbaycan Prezidenti, Türkiyə Prezidenti və Gürcüstan Prezidenti imzaladı. Qazaxıstan Prezidenti də buna qoşuldu. Ən əhəmiyyətlisi də odur ki, Amerika Birləşmiş Ştatlarının keçmiş Prezidenti Bill Klinton da bu sazişi dəstəklədi və biz birlikdə böyük bəyanat verdik və Prezident Bill Klinton da həmin bəyanata öz imzasını atdı.

1999-cu ildən sonra əsas işlər başlandı. Bu işlərdə yenə də Türkiyə ilə Azərbaycan sıx əməkdaşlıq edirdi və Türkiyənin Prezidenti hörmətli Əhməd Necdət Sezər də bizimlə bərabər bu layihənin həyata keçirilməsi üçün çox səylər qoymuşdur, çox zəhmət çəkmişdir.

Türkiyə bizim üçün dost, qardaş ölkədir. Türkiyə xalqı ilə Azərbaycan xalqı arasında qədim dostluq, qardaşlıq əlaqələri var. Türkiyə bu gün də bizim üçün güvənc yeridir. Türkiyə bizim dostumuzdur. Biz Türkiyə ilə olan bu dostluğumuzu daim, əbədi olaraq davam etdirəcəyik.

Rica edirəm, qədəhlərinizi Türkiyə Cümhuriyyətinin və Türkiyə xalqının şərəfinə, Türkiyənin Prezidenti hörmətli Əhməd Necdət Sezərin şərəfinə qaldırasınız.

Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər mərasimdə nitq söylədi.

### Türkiyə Prezidenti Əhməd Necdət Sezərin nitqi

- Əziz dostum, Cümhurbaşqanı Heydər Əliyev!

Əziz dostum, Cümhurbaşqanı Eduard Şevardnadze!

Dəyərli qonaqlar!

Bu tarixi bir gündə qardaş ölkə Azərbaycanda olmaqdan böyük sevinc duyuram.

Bu gün ölkələrimiz, xalqlarımız üçün böyük əhəmiyyət daşıyan Bakı-Tbilisi-Ceyhan boru xəttinin təməlinin qoyulması mərasiminin gerçəkləşdirilməsində iştirak etməyimiz bizə qürur və məmnunluq verir.

Türkiyə üçün öz qonşuları ilə əlaqələri inkişaf etdirmək hər zaman önəmli olmuşdur. Ətrafdakı və bölgədəki dövlətlərlə sülh və sabitlik yaratmaq məqsədi daşıyan Türkiyənin bu münasibəti böyük öndərimiz Atatürkün "Yurdda sülh, cahanda sülh" sözləri ilə ən gözəl şəkildə ifadə olunmuşdur.

Qonşularımız arasında Azərbaycan ilə Gürcüstanın xüsusi və ayrıca yeri vardır. Bu, coğrafi yaxınlıqdan əlavə, xalqlarımız arasındakı güclü mədəni və tarixi əlaqələrdən qaynaqlanır.

Sovetlər Birliyi dağıldıqdan sonra Türkiyə iki dəyərli qonşusu - Azərbaycan və Gürcüstanla əlaqələrini yeni anlayışla canlandırmağa başlamışdır. Xalqlarımız arasındakı qardaşlığa, tarixi və mədəni əlaqələrə söykənən strateji tərəfdaşlığımız hər ötən gün daha da sağlam bünövrə üzərində inkişaf etməkdədir.

Çox hörmətli Cümhurbaşqanları!

Dəyərli qonaqlar!

Təməlini bu gün qoyduğumuz Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri işbirliyimizin inkişafı yolunda önəmli bir addımdır. Dövlətlərimiz arasındakı işbirliyi yalnız siyasi sahədə əlaqələrin inkişafı ilə məhdudlaşmır. Siyasi sahədə əməkdaşlıq iqtisadi və mədəni işbirliyi ilə dəstəkləndiyi zaman daha da dərinləşir. İndi Bakı-Tbilisi-Ceyhan boru xətti iqtisadi maraqlardan əlavə, bu istiqamətdə də əhəmiyyət daşımaqdadır.

Ölkələrimiz arasındakı siyasi və iqtisadi əməkdaşlığın gözəl bir nümunəsi olan bu boru xətti həm də xalqlarımızın əbədi olan ümumi maraqlarına xidmət etməkdədir. Türkiyə bütün sahələrdə Azərbaycana və Gürcüstana öz köməyini əsirgəməmiş, bu dost və qardaş ölkələrin yanlarında olmuşdur. Əlaqələrimiz bundan sonra da ümumi mənafelərimiz və beynəlxalq maraqlarımız istiqamətində davam edəcəkdir.

Bakı-Tbilisi-Ceyhan boru xətti bu istiqamətdəki qətiyyətimizi açıq şəkildə ortaya qoymaqdadır. Azərbaycan və Gürcüstanın da öz ölkələrində sülh və sabitlik yaratmaq səylərini dəstəkləməkdə davam edirik. Bu mənada Azərbaycan və Gürcüstanın bölgədə beynəlxalq hüquqa və münasibətlərə zidd olaraq qarşılaşdığı problemləri beynəlxalq hüquq normaları əsasında həll etmələrinə hər cür kömək göstərməyə hazırıq. Qafqazın möhkəm sülhə və sabitliyə

nail olması, bu önəmli bölgənin əhəmiyyətli ölkələri olan Azərbaycan və Gürcüstanın demokratik dövlətlər arasında layiq olduqları yeri ən qısa müddətdə əldə etmələri bizə də xoşbəxtlik və qürur verəcəkdir. Türkiyə Azərbaycan və Gürcüstanın bu məqsədə xidmət edən səylərini hər zaman olduğu kimi, bundan sonra da hərtərəfli dəstəkləyəcəkdir.

Hörmətli Heydər Əliyev!

Əziz qardaşım, Azərbaycanda olduğumuz müddətdə Sizin və Azərbaycanın digər vəzifəli şəxslərinin bizə göstərdikləri qonaqpərvərlik üçün təşəkkürlərimi bildirmək istəyirəm. Azərbaycanın öz Vətənimiz olduğunu, eyni yurdun övladları olduğumuzu bir daha hiss etdik. Xalqlarımızı gözəl günlər gözləyir. Ölkələrimiz arasındakı möhkəm əməkdaşlığımızı davam etdirməyimiz Qafqazı sülh və sabitliyə qovuşduracaq əməkdaşlıq anlayışının bütün bölgəyə yayılmasını sürətləndirəcəkdir. Bu düşüncələrlə hamınızı hörmətlə salamlayır və qədəhimi dostlarım hörmətli Heydər Əliyevin, hörmətli Eduard Şevardnadzenin sağlığına, xalqlarımızın səadəti və müvəffəqiyyətləri, ölkələrimizin əbədi birliyi şərəfinə qaldırıram.

### Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi

- Hörmətli qonaqlar!

Hörmətli dostlar!

Hörmətli Prezident Əhməd Necdət Sezər!

Hörmətli Prezident Eduard Şevardnadze!

Azərbaycan ilə Gürcüstan qonşu, dost, qardaş dövlətlərdir. Tale bizim xalqlarımızı Qafqazın gözəl bölgəsində yerləşdiribdir. Sevindirici hal odur ki, əsrlər boyu, tarixin bütün zamanlarında Gürcüstan ilə Azərbaycan arasında heç bir nifaq, münaqişə olmamış və bir-birimizlə dostluq, mehribanlıq, qonşuluq şəraitində yaşamışıq.

Biz Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin, ümumiyyətlə, 1994-cü ildə Azərbaycanın neft strategiyasının həyata keçirilməsinə başlayanda bilavasitə Gürcüstanla və onun Prezidenti hörmətli Şevardnadze ilə əməkdaşlıq etmişik. Hasil ediləcək neftin Qərb istiqamətində, Gürcüstan ərazisindən nəqli üçün biz çox çalışdıq, Prezident Şevardnadze də çox çalışdı. Çünki bu marşruta çox mane olanlar var idi. Ancaq bunların hamısı aradan götürüldü və artıq onun qarşısını heç kəs ala bilməz.

İlkin neftin ixracı üçün biz Bakıdan Novorossiyskə - Rusiyanın Qara dəniz sahilindəki limanına boru xətti çəkdik və onunla nefti ixrac etməyə başladıq. Ancaq bizim əsas məqsədimiz Qərb istiqamətində Bakı-Supsa xəttini - Gürcüstanın Qara dənizdəki limanına böyük neft kəməri çəkmək idi. Biz buna da nail olduq. 1999-cu ildə bu boru xətti artıq istismara başladı və o vaxtdan indiyə qədər Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti hasil etdiyi neftin hamısını bu xətlə ixrac edir. Bakı-Supsa xətti ilə artıq 23 milyon ton neft ixrac olunubdur.

Bakı-Tbilisi-Ceyhan kəməri üçün, təbiidir ki, ən əlverişli marşrut Gürcüstandan, Türkiyədən keçən marşrutdur. Bunun üçün də çox işlər görməli olduq. Ancaq, Allaha şükürlər olsun ki, biz bu gün böyük bayram edirik. Bayram edirik ki, Bakı-Tbilisi-Ceyhan boru xəttinin inşasına başlanıbdır və bu boru xətti ilə neft Azərbaycandan, Gürcüstanın ərazisindən, Türkiyənin ərazisindən keçərək Aralıq dənizindəki Ceyhan limanına çatacaqdır.

Beləliklə, Prezident Şevardnadze əvvəldən indiyə qədər bu layihənin hazırlanması, həyata keçirilməsi üçün çox səylər qoymuşdur və ümumi səylərimizin, işbirliyimizin nəticəsində də biz indi bu xoşbəxt günə gəlib çatmışıq. Gürcüstan ilə bizim başqa sahələrdə də əməkdaşlığımız var və bu əməkdaşlıq bundan sonra da davam edəcəkdir.

Məlumdur ki, Gürcüstan indi müəyyən səbəblərdən gərgin vəziyyət keçirir. Ancaq biz bilirik ki, gürcü xalqı və onun hörmətli Prezidenti böyük iradəyə malikdirlər. Ona görə öz dövlətinin suverenliyinin, ərazi bütövlüyünün qorunması yolunda nə lazımdırsa edəcəklər.

Təklif edirəm, qədəhlərimizi gürcü xalqının şərəfinə, müstəqil, azad Gürcüstanın şərəfinə və Gürcüstanın Prezidenti hörmətli Eduard Şevardnadzenin şərəfinə qaldıraq.

Sonra Gürcüstan Prezidenti nitq söylədi.

### Gürcüstan Prezidenti Eduard Şevardnadzenin nitqi

- Əziz dostum, əziz qardaşım, Azərbaycan dövlətinin Prezidenti cənab Heydər Əliyev!

Əziz dostum, bizə qardaş Türkiyənin Prezidenti cənab Sezər!

Hörmətli xanımlar və cənablar!

Bu gün tarixi bir gündür. Həqiqətən tarixi bir gün - üç xalqın, millətin, üç dövlətin həyatında tarixi bir gün. Mən məcburam ki, öz çıxışımı qısaldam. Çünki gördüyünüz kimi, iki dilə tərcümə olunur. Mən burada sizə oxumaq üçün yazdıqlarımın hamısını desəm, onda biz səhərə qədər burada oturmalı olarıq. Ona görə də bu gün burada konkret olaraq qarşıma qoyduğum məqsəd ondan ibarətdir ki, Azərbaycan xalqının böyük oğlu, dünyada tanınmış siyasətçi, Azərbaycan xalqının tanınmış lideri cənab Heydər Əliyevə öz səmimi minnətdarlığımı bildirim.

1990-cı illərdən üzü bu yana mən və dostum, qardaşım Heydər Əliyev neft kəmərlərinin, qaz kəmərlərinin problemlərinə dəfələrlə qayıtmışıq, müzakirələr aparmışıq.

Bu gün mən və mənim xalqım xoşbəxtdir. Ona görə xoşbəxtdir ki, bu günü də gördük. Bakı-Tbilisi-Ceyhan layihə, ideya deyil, artıq həyata keçirilmiş işdir. Bu layihəyə, həmin ideyaya qarşı ayrı-ayrı dövlətlər və qüvvələr tərəfindən, demək olar ki, fasiləsiz təzyiqlər var idi. Qızğın mübarizələr gedirdi, kənardan müdaxilələr olurdu, göstərişlər verilirdi. Çalışırdılar ki, bu layihənin həyata keçirilməsinə hər cür maneçilik etsinlər. Mən bu gün dediyim sözləri sizin qarşınızda da bir daha təkrar etmək istəyirəm. Heydər Əliyevin şəxsi qəhrəmanlığı,



müdrikliyi, cəsarəti olmasaydı, həmin layihə bu gün də həyata keçirilə bilməyəcəkdi. Mən göstərdiyi şücaətə, qəhrəmanlığa və mərdliyə görə bir daha sizin qarşınızda xalqım adından, öz adımdan Azərbaycanın Prezidenti cənab Heydər Əliyevə dərin minnətdarlığımı bildirmək istəyirəm. Gürcü, Azərbaycan və türk xalqları üçün etdiklərinə görə mən ona minnətdarlığımı bildirmək istəyirəm.

Mən Bakıya ona görə gəldim ki, bir daha buradan böyük türk xalqını, böyük Türkiyəni, onun rəhbərlərini, böyük mədəniyyətin və böyük tarixin sahibi olan türk xalqını buradan salamlayım. Türkiyənin dəstəyi olmasaydı, Türkiyənin keçmiş Prezidenti Süleyman Dəmirəlin, Türkiyənin indiki Prezidenti cənab Sezərin dəstəyi olmasaydı, beynəlxalq dəstək olmasaydı, sözsüz ki, biz bu layihəni həyata keçirə bilməzdik. Ona görə də türk xalqına bir daha dərin minnətdarlığımı bildirirəm. Ona görə dərin minnətdarlığımı bildirirəm ki, onların dəstəyi ilə biz tarixən qısa müddət olan on il ərzində mümkün olmayan uğurlar qazandıq. Ona görə də mən cənab Sezərdən xahiş edirəm ki, bizim salamlarımızı, minnətdarlığımızı böyük türk xalqına çatdırsın.

Cənab Heydər Əliyev bu gün artıq qeyd etdi ki, həmin layihənin həyata keçirilməsində Amerika Birləşmiş Ştatlarının misilsiz rolu olmuşdur. Doğrudan da, Amerika Birləşmiş Ştatlarının, onun rəhbərlərinin və Prezident Corc Buşun dəstəyi olmasaydı, bu layihə həyata keçirilə bilməzdi.

Xoşbəxtəm ki, bu gün mən burada nəhəng, dünyamiqyaslı neft şirkətlərinin nümayəndələrini görürəm. Həmin şirkətlər əllərindən gələni, nə vaxtlarını, nə də vəsaitlərini əsirgəmirlər ki, Xəzər dənizinin sərvətləri bütün dünyanın sərvəti olsun.

Artıq neçə illərdir bizim dövlətlərimizin xeyrinə fasiləsiz və maneəsiz işləyən Bakı-Supsa neft kəməri təsdiq etmişdir ki, Gürcüstan sizin, Azərbaycan xalqının, dövlətinin layiqli tərəfdaşıdır. Mən əmin etmək istəyirəm ki, biz həmişə, daim sizin tərəfdaşınız olacağıq.

Bir məsələni də qeyd etmək istəyirəm. Gürcüstanda artıq neçə müddətdir ki, böyük qaz kəmərinin tikintisi barədə düşünürlər, bunu arzu edirlər. Sözsüz ki, bu, təkcə gürcü xalqının yox, həm də Azərbaycan xalqının, başqa dövlətlərin istəyinə uyğundur. Bizim layihəmizə, həyata keçirdiyimiz bu böyük işlərə gələcəkdə qoşulacaq ayrı-ayrı dövlətlərə, ölkələrə indidən minnətdarlığımı bildirmək istəyirəm. Bu işdə Gürcüstana, Azərbaycana, Türkiyəyə qoşulacaq ayrı-ayrı dövlətlərə indidən təşəkkürümü çatdırıram. Mənə belə gəlir ki, gələcəkdə Qazaxıstan, Orta Asiya dövlətləri hökmən həmin ideyaya qoşulacaqlar.

Mən əminəm ki, üç layihə, - mən iki ixrac neft kəmərini və qaz kəmərini nəzərdə tuturam, - üç dənizsahili dövləti bir-biri ilə daha möhkəm tellərlə bağlayacaqdır. Mən Xəzər dənizini, Qara dənizi və Aralıq dənizini nəzərdə tuturam.

Mən badəni, sözsüz ki, ilk növbədə dostum, qardaşım Azərbaycan dövlətinin Prezidenti Heydər Əliyevin sağlığına və Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezərin sağlığına və onlar başda olmaqla sizin hər birinizin sağlığına qaldırıram.

Sonra Azərbaycan Prezidenti Heydər Əliyev nitq söylədi.

### Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi

- Hörmətli xanımlar və cənablar, dostlar!

Bu gün bütün mərasim vaxtı Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin hazırlanması və onun həyata keçirilməsi haqqında çox danışıldı.

Bu layihənin həyata keçirilməsinə müqavimət göstərənlər, maneçilik edənlər var idi. Ancaq Amerika Birləşmiş Ştatlarının hökumətinin əvvəldən, 1994-cü ildən Xəzər hövzəsinə, Azərbaycan neftinə göstərdiyi maraq və ümumiyyətlə, Qafqaza, Azərbaycan bölgəsinə göstərdiyi maraq ABŞ-ı Bakı-Tbilisi-Ceyhan neft kəmərinin həyata keçirilməsinə çox yaxından cəlb etdi. Ona görə də biz Amerika Birləşmiş Ştatlarının hökuməti ilə bu barədə çox danışıqlar aparırdıq. Prezidentdən bizə məktublar gəlirdi. Həmin məktublarda bizim apardığımız iş dəstəklənirdi. Deyə bilərəm ki, əgər Amerika Birləşmiş Ştatlarının, onun hökumətinin güclü dəstəyi olmasaydı, Bakı-Tbilisi-Ceyhan ixrac neft kəməri bugünkü vəziyyətə gəlib çata bilməzdi.

Amerika Birləşmiş Ştatlarının energetika naziri mənimlə söhbətdə dedi ki, ABŞ özünün uzunmüddətli neft strategiyasını hazırlayıb və həyata keçirir. Bu strategiyada Xəzər dənizinin sərvətləri, neft sərvətləri, Azərbaycan özünün xüsusi yerini tutubdur. Mən çox məmnunam ki, Prezident Buş bu məsələlərə və Azərbaycana çox diqqət yetirir və bizim burada apardığımız işlərin həyata keçirilməsi üçün dəstək verir və güman edirəm ki, bundan sonra da biz bunun şahidi olacağıq.

Prezident Buş bu gün bizə çox dəyərli təbrik məktubu göndəribdir. Ona görə mən bir daha təşəkkür edirəm.

Biz Fransa Prezidenti Jak Şirakdan, Böyük Britaniyanın Baş naziri Toni Bleyerdən, Norveçin Baş nazirindən də çox dəyərli təbrik məktubları almışıq. Bunlara görə mən öz minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Mən rica edirəm, qədəhlərinizi dünyanın ən qüdrətli dövləti, ölkəsi olan Amerika Birləşmiş Ştatlarının, onun xalqının şərəfinə, Azərbaycanda böyük işlər görən Amerika vətəndaşlarının şərəfinə, ABŞ-ın Prezidenti hörmətli Corc Buşun şərəfinə qaldırasınız.

Azərbaycan dövlət və hökumət nümayəndələri, xarici ölkələrin Bakıdakı səfirləri, beynəlxalq təşkilatların, xarici neft şirkətlərinin təmsilçiləri, Bakı ictimaiyyətinin nümayəndələri ziyafətdə iştirak edirdilər.



***Azərbaycan Respublikasının Prezidenti***
***Zati-aliləri***
***cənab Heydər Əliyevə***



*Hörmətli Heydər Əlirza oğlu!*

*Ötən il sentyabrın 18-də, Bakıda təntənəli mərasimdə Azərbaycan, Türkiyə və Gürcüstan Prezidentləri Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin tikintisinin startını verdilər. Sonra estafeti Ceyhan davam etdirdi. bu il mayın 23-də isə neft kəmərinin Gürcüstan sahəsinin tikintisinə başlanması münasibətilə təntənəli mərasim keçiriləcəkdir.*

*İcazə verin, Sizi bu, həqiqətən, çox böyük hadisə münasibətilə təbrik edim. Bu hadisə ölkələrimizin qarşılıqlı münasibətlərinin çoxəsrlik və misli olmayan tarixinin salnaməsinə qızıl hərflərlə yazılacaqdır.*

*Bu hadisə nəinki Azərbaycan, Türkiyə və Gürcüstan üçün, həm də bütün dünya üçün, regionumuzun xalqlarına əmin-amanlıq və firavanlıq gətirəcək Böyük İpək Yolunun dirçəldilməsi ideyasının inkişafında maraqlı olan bütün ölkələr üçün sözün əsl mənasında əlamətdardır.*

*Hər bir belə uğurlu addım dövlətlərimizi qarşıya qoyduğumuz məqsədə - Avratlantika məkanına inteqrasiya olunmaq məqsədinə daha da yaxınlaşdırır ki, bu da regionun dinc və demokratik inkişafının mühüm amili olacaqdır.*

*İndi, üçüncü minilliyin ilk çağında regionumuzun inkişafının keyfiyyətcə yeni dövrünün bünövrəsi qoyulur ki, onun da yaradıcılarından biri, əziz Heydər Əlirza oğlu, Sizsiniz.*

*Məhz Sizin siyasi müdrikliyiniz və yorulmadan göstərdiyiniz səylər sayəsində ölkələrimiz dünya iqtisadi və energetika inteqrasiyası prosesinə fəal surətdə qoşulmuş və dünya birliyində layiqli yerə nail olmaq və onu əldə möhkəm saxlamaq üçün nadir imkan qazanmışlar.*

*Gürcüstanda bunu yüksək qiymətləndirirlər ki, Azərbaycan və onun xalqı üçün ən ağır sınaqlar dövründə məhz Siz yeganə lider oldunuz və ölkəyə başçılıq edərək, müstəqil Azərbaycanın dövlətçiliyinin formalaşdırılması üçün öz xalqınız qarşısında bütün məsuliyyət yükünü öz üzərinizə götürdünüz.*

*Sizin təcrübəniz və siyasi uzaqgörənliyiniz nəinki dağıntılara və hərc-mərcliyə məruz qalmış ölkəni çox qısa bir müddətdə dirçəliş yoluna çıxarmağa, həm də onu qlobal quruculuq proseslərinin tam hüquqlu iştirakçısına çevirməyə imkan verdi. Buna görə də haqlı olaraq Siz təkcə öz xalqınız arasında deyil, həm də beynəlxalq dairələrdə də hədsiz məhəbbət və hörmət qazanmısınız.*

*Bizi birləşdirən dostluq - ömrümüzün çox hissəsi ərzində davam edən dostluğumuz mənə xüsusilə əzizdir və Sizi yenə də əvvəlki kimi, tam sağlam və gümrah görməyimə xoşbəxtəm.*

*Əziz Heydər Əlirza oğlu, bu gün Sizinlə bizim üçün bunu görmək xüsusilə sevindirici haldır ki, Azərbaycan ilə Gürcüstan arasında çoxəsrlik qarşılıqlı münasibətlər daha yüksək, keyfiyyətcə yeni səviyyəyə qalxaraq, ölkələrimiz üçün tamamilə yeni perspektiv və üfüqlər açmışdır.*

*Bu gün bizim bir-birimizi təbrik etməyə və belə bir faktı nəzərə çarpdırmağa haqqımız var ki, biz yolun ən mürəkkəb hissəsini qət etmişik və indi möhkəm təməl əsasında ölkələrimiz demokratik cəmiyyət quruculuğu və regionumuzun təhlükəsiz, dinc inkişafının təmin edilməsi işində daha böyük müvəffəqiyyətə nail olacaqlar.*

*Şərq-Qərb enerji dəhlizi layihələrinin uğurla inkişaf tapması işində qardaş Türkiyənin və onun Prezidenti Əhməd Necdət Sezərin çox böyük töhfəsini, habelə Gürcüstanın və Azərbaycanın dövlətçiliyinin təşəkkül tapmağa başladığı ilk günlərdən Türkiyənin onlara göstərdiyi təmənnasız yardımı ayrıca vurğulamaq istərdim.*

*Bizim üçün bu fərəhli gündə Amerika Birləşmiş Ştatlarının və Prezident Corc Buşun nəinki Şərq-Qərb enerji dəhlizi layihələrinin inkişafına yönəldilmiş, həm də regionumuzdakı ölkələrin azad, demokratik və dinc inkişafının, əslində, bütün cəhətlərini əhatə edən çox böyük dəstəyini qeyd etməyə bilmərəm.*

*Bizim Sizinlə dəfələrlə vurğuladığımız kimi, müəyyənləşdirdiyimiz strateji layihələrin həyata keçirilməsində Avropa Birliyi ölkələrindəki dost və tərəfdaşlarımızın bütün bu dövr ərzində bizə göstərdikləri məqsədyönlü dəstəyin xüsusi rolu və əhəmiyyəti var.*

*Beynəlxalq neft şirkətləri, habelə maliyyə və sərmayə qurumları rəhbərlərinin enerji dəhlizi layihələrinin uğurla reallaşdırılması işinə verdikləri çox böyük töhfəni də qeyd etməmək olmaz. Regionda irimiqyaslı neft-qaz layihələrinin uğurla həyata keçirilməsini məhz onların səyləri və yüksək peşəkarlığı şərtləndirmişdir və ilkin neftin nəqli üçün Bakı-Supsa boru kəməri bunlara ən parlaq misallardan biridir. Elə bugünkü hadisəni də həmin başlanğıc layihəsi olmadan təsəvvür etmək çətin olardı.*

*Qarşıda yeni məqsədlər, yeni qələbələr, dövlətlərimizin təşəkkülü və möhkəmlənməsinin yeni illəri durur.*

*Mayın 23-də keçiriləcək mərasim nəinki Bakı-Tbilisi-Ceyhan boru kəmərinin Gürcüstan sahəsinin tikintisinə start verəcək, həm də Gürcüstanın ən yeni tarixində yeni dövrün başlanğıcı olacaqdır. Odur ki, əziz Heydər Əlirza oğlu, dostluğunuza və yorulmadan göstərdiyiniz dəstəyə görə bu gün gürcü xalqı adından və öz adımdan Sizə bir daha təşəkkür etmək və şəxsən Sizə və qardaş Azərbaycan xalqına xoşbəxtlik, firavanlıq və yeni-yeni nailiyyətlər arzulamaq istəyirəm.*

*Biz azərbaycanlı dostlarımızın və həmkarlarımızın qarşıdakı şənliklərdə iştirakından çox şad olardıq.*

*Ən xoş diləklərlə,*

***Eduard Şevardnadze***
***Gürcüstan Prezidenti***
***Tbilisi, 20 may 2003-cü il***



***Gürcüstanın Prezidenti***
***Zati-aliləri***
***cənab Eduard Şevardnadzeyə***



*Hörmətli cənab Prezident!*

*Əziz Eduard Amvrosiyeviç!*

*İlk öncə Sizin mənə ünvanladığınız 20 may tarixli çox səmimi, dost məktubunuza görə dərin təşəkkürümü bildirirəm.*

*Bu gün həqiqətən mühüm əhəmiyyətli tarixi hadisə baş verir. Regionumuzda miqyasına görə siyasi və iqtisadi cəhətdən analoqu olmayan layihə - Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri qədim Gürcüstan torpağına qədəm qoyur.*

*Sizi və bütün gürcü xalqını bu əlamətdar hadisə münasibətilə ürəkdən təbrik edirəm və hamınıza ən xoş arzular diləyirəm.*

*Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri bizim birgə apardığımız məqsədyönlü siyasətin, gərgin əməyimizin bəhrəsidir. Bu layihənin bünövrəsi hələ 1994-cü ildə qoyulmuşdur. O zaman, Azərbaycan Respublikası və dünyanın tanınmış neft şirkətləri arasında tarixi "Əsrin müqaviləsi" imzalanarkən Xəzər dənizindən hasil ediləcək neftin dünya bazarlarına ixracı yollarının müəyyənləşdirilməsi tələb olunurdu.*

*Bizim mövqeyimiz qəti və sarsılmaz oldu - əsas ixrac boru kəməri Türkiyənin Aralıq dənizində yerləşən Ceyhan limanına məhz Gürcüstanın ərazisindən getməlidir.*

*Layihənin hansı təhlükələrə məruz qaldığını və hansı təzyiqlərə davam gətirməli olduğunu hamımız çox yaxşı bilirik. Bunlara baxmayaraq, biz tutduğumuz yolla ardıcıl surətdə irəlilədik, birgə mübarizə apardıq, saysız maneələri dəf etdik və nəhayət, məqsədimizə nail olduq. Keçən il sentyabr ayının 18-də Bakıda Azərbaycan, Gürcüstan və Türkiyə Prezidentlərinin, habelə Amerika Birləşmiş Ştatlarının yanacaq və energetika nazirinin iştirakı ilə müasir dövrün ən nəhəng sənaye layihələrindən biri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməl daşının qoyulması mərasimi təntənəli şəkildə qeyd olundu.*

*Uğurlu əməkdaşlığımızın daha bir qızıl səhifəsi - Azərbaycanın dünyamiqyaslı "Şahdəniz" qaz yatağından çıxarılacaq təbii qazın Gürcüstan ərazisi ilə Türkiyəyə, oradan isə Avropanın digər ölkələrinə nəqli üçün Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməridir. Bu layihənin Azərbaycan, Gürcüstan, Türkiyə üçün nə dərəcədə faydalı olduğu məlumdur. Fərəhləndirici haldır ki, bu istiqamətdə də görülən işlər təsdiq olunmuş cədvəl üzrə uğurla inkişaf edir.*

*Beləliklə, bu gün mən böyük məmnunluq və qürur hissi ilə bəyan edirəm ki, Azərbaycanın neft və qaz sənayesinin inkişafı üçün xarici sərmayələrin cəlb edilməsinə yönəldilmiş yeni neft doktrinası və strategiyası özünü tamamilə doğruldub və Şərq-Qərb enerji dəhlizi çərçivəsində Azərbaycanla Gürcüstan arasında yeni iqtisadi əlaqələr keyfiyyətcə yeni mərhələyə qədəm qoyur.*

*Ölkələrimiz arasında iqtisadi əlaqələrin çoxəsrlik tarixi və ənənələri var. Biz tarixin bütün mərhələlərində birlikdə olmuşuq və xalqlarımız elə indi də, amma artıq tamamilə yeni şəraitdə - müstəqilliyə qovuşaraq bu ənənələri davam etdirirlər. Bu əlaqələr müstəqillik, siyasi sabitlik, demokratiya dəyərlərinin təntənəsi şəraitində yeni xarakter almış, yeni məzmun kəsb etmişdir.*

*Azərbaycanla Gürcüstan arasında, iki Prezident arasında mövcud olan münasibətlər xalqların, qonşuların dostluq, qardaşlıq, həmrəylik və qarşılıqlı anlaşma şəraitində necə yaşaya bilməsinə nümunədir.*

*Mən xoşbəxtəm ki, XXI əsrin ilk illərində birgə başladığımız irimiqyaslı, qlobal layihələrin reallaşması daim müstəqilliymizin rəmzi olacaq və gələcək nəsillərin rifahının daha da yaxşılaşdırılmasına xidmət edəcəkdir!*

*Hörmətli Eduard Amvrosiyeviç!*

*Mən bütün bu görülən işlərdə şəxsən Sizin böyük rolunuzu xüsusilə qeyd etmək istərdim. Sizi həm Gürcüstanda, həm də Azərbaycanda sevir, yüksək qiymətləndirir və Sizə dərin ehtiram bəsləyirlər.*

*Xatırlayıram, 1999-cu ildə biz Bakı-Supsa neft kəmərinin açılışında iştirak etdik. Əminəm ki, 2005-ci ildə Ceyhan limanından Xəzər nefti ilə doldurulmuş ilk tanker yola salınacaq və biz yenə də bu mərasimdə bərabər iştirak edəcəyik!*

*Sizi və xalqınızı bir daha səmimi qəlbdən təbrik edirəm, müstəqil Gürcüstana xoşbəxtlik və tərəqqi arzulayıram.*

*Hörmətlə,*

***Heydər Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı, 21 may 2003-cü il***

## BAKI, 11 AVQUST 2003-CÜ İL




# Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin tikintisində

2003-cü il avqustun 11-də Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin Azərbaycan hissəsində, Bakı şəhəri yaxınlığındakı Umbakı ərazisində aparılan tikinti işləri ilə tanış oldu.

ARDNŞ-nin prezidenti Natiq Əliyev, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Devid Vudvord, "bp"-nin və inşaat işləri ilə məşğul olan şirkətlərin nümayəndələri Baş naziri səmimiyyətlə qarşıladılar və görülən işlər barədə ətraflı məlumat verdilər. Bildirildi ki, bir sıra xarici ölkələrin, beynəlxalq maliyyə qurumlarının diqqət mərkəzində olan Bakı-Tbilisi-Ceyhan kəmərinin Azərbaycan hissəsinin gələn ilin sentyabrında, Gürcüstan və Türkiyə hissələrinin isə oktyabr-dekabr aylarında istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

Qeyd olundu ki, son illər görülən bu nəhəng işlər təkzibedilməzdir və Azərbaycanın neft sənayesində əldə edilmiş bütün nailiyyətlər Prezident Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin, onun rəhbərliyi altında həyata keçirilən neft strategiyasının bəhrəsidir. Məhz Prezident Heydər Əliyevin gərgin əməyi, rəhbərliyi və ciddi nəzarəti sayəsində əldə olunmuş bu uğurlar Azərbaycan dövlətinin daha da möhkəmlənməsi, onun dünya iqtisadiyyatına qovuşması, ölkəyə xarici sərmayələrin cəlb olunması, Xəzər regionunda Azərbaycanın ən aparıcı bir dövlətə çevrilməsi üçün möhkəm zəmin yaratmışdır.




KOMATSU




NTV
TRT



Baş nazir İlham Əliyev görülən işlərlə maraqlandı, ən müasir texnologiya əsasında boruların düzülməsi və qaynaq edilməsi qaydaları ilə tanış oldu, bu prosesləri yaxından müşahidə etdi. Azərbaycan hökumətinin rəhbəri görülən işləri yüksək qiymətləndirdi, dünya, o cümlədən Avropa üçün böyük əhəmiyyət kəsb edən bu irimiqyaslı layihənin planauyğun həyata keçirildiyini və tikinti-quraşdırma işlərinin nəzərdə tutulduğu vaxtda başa çatdırılacağını bir daha vurğuladı.

Sonra Baş nazir İlham Əliyev tikintidə çalışan yerli işçilərlə səmimi görüşdü. Fəhlələr Baş naziri böyük məhəbbətlə qarşıladılar, onu böyük məsuliyyət tələb edən vəzifəyə təyin olunması münasibətilə ürəkdən təbrik edərək dedilər ki, biz Prezident Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən daxili və xarici siyasəti bəyənirik. Çünki onun neft strategiyası Azərbaycan xalqını, o cümlədən bizi xoşbəxt gələcəyə aparır. Bugünkü nəticələr göz qabağındadır. Bəzilərimiz 1982-ci ildə cənab Heydər Əliyevin təşəbbüsü ilə Urenqoy-Ujqorod qaz kəmərində işləmişik. Xoşbəxtik ki, indi onun rəhbərliyi ilə bu mühüm işdə çalışırıq. İlham müəllim, biz Sizi yeni vəzifəyə təyin olunmağınız münasibətilə təbrik edirik. Çünki Siz buna layiqsiniz. Siz gəncliyi sevən insansınız. Biz də Sizi sevirik. Burada bütün işlər öz axarı ilə gedir. Bakı-Supsa kəmərinin çəkilişində də iştirak etmişik. Biz orada işləyəndə hörmətli Prezidentimiz bizi təbrik etmişdi.

Səmimi sözlərə görə təşəkkürünü bildirən Baş nazir İlham Əliyev dedi ki, mən tikintidə işləri öz gözümlə görmək üçün gəldim. Bir var ki, Bakı-Tbilisi-Ceyhan haqqında ümumi danışasan, nəsə qərar qəbul edəsən. Bir də var ki, öz gözünlə görəsən. Burada Azərbaycanın gələcəyi tikilir. Bakı-Tbilisi-Ceyhan hamımız üçün, bütün millət üçün çox böyük fayda verəcəkdir. Gəldim görüm ki, burada bizim vətəndaşlar necə işləyirlər, şəraitləri necədir. Əlbəttə, şərait ağırdır, çöldə bu istidə böyük iş görürsünüz. Sizə minnətdaram, çox sağ olun.

Sonra Baş nazir fəhlələrlə xatirə şəkli çəkdirdi.

Baş nazir İlham Əliyev Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin Azərbaycan hissəsinin tikintisi ilə





tanışlıq zamanı yerli və xarici kütləvi informasiya vasitələrinin nümayəndələrinə müsahibə verdi.

**Sual:** İlham müəllim, Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşməsində hər hansı problem varmı?

**Cavab:** Deyə bilərəm ki, bu layihə üçün sərmayə artıq ayrılmışdır. Bakı-Tbilisi-Ceyhan layihəsi üzrə işlərin 30 faizi yerinə yetirilmişdir. Bugünkü tikinti işləri onu göstərir ki, bütün işlər cədvəl üzrə nəzərdə tutulmuş sürətlə gedir. Sərmayə cəhətdən heç bir problem yoxdur və olmayacaqdır.

**Sual:** İlham müəllim, həmişə Sizi Heydər Əliyev siyasi məktəbinin məzunu kimi qiymətləndirirlər. Siz cənab Heydər Əliyevdən bir məzun kimi nələri öyrənə bilmisiniz, nələri yox?

**Cavab:** Mən çalışıram öyrənəm. Çalışıram ki, öz fəaliyyətimlə Heydər Əliyevin siyasətinə töhfəmi verəm. Bu siyasət Azərbaycanda on il ərzində öz bəhrələrini veribdir. Azərbaycan inkişaf edir, iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilir. Əminəm bu siyasət hələ uzun illər Azərbaycana lazımdır ki, ölkəmiz çətin şəraitdən çıxa bilsin, güclənsin, möhkəmlənsin, dünyada özünə daha da möhkəm yer tutsun, bölgədə təhlükəsizlik hökm sürsün. Mən çalışıram bu siyasətə öz töhfəmi verim, öz işimlə Azərbaycanın hərtərəfli inkişafına kömək edim...

**Sual:** İlham müəllim, Dövlət Neft Şirkəti ilə sponsorlar qrupu arasında aparılan danışıqlar nə ilə nəticələnmişdir? Deyilənə görə, guya iki Amerika şirkəti Azərbaycanda işləməkdən imtina edibdir.

**Cavab:** Heç bir problem yoxdur. Azərbaycan bu günə qədər öz payını maliyyələşdirir. Eyni zamanda bilirsiniz ki, gələcək maliyyə məsələləri haqqında "bp" şirkəti ilə fikir mübadiləsi aparılmışdı və razılığa gəlmişdik ki, bizə kredit veriləne qədər o və başqa şirkətlər bizim maliyyə problemlərini öz üzərinə götürəcəklər. Beləliklə, bizə kömək edəcəklər, əldə olunan bütün razılaşmalar qüvvədə qalır. Yeni layihənin maliyyələşdirilməsi ilə bağlı heç bir problem yoxdur və olmayacaq da.

**Sual:** Bakı-Ərzurum qaz kəmərində vəziyyət nə yerdədir?

**Cavab:** Hər şey qaydasındadır. Yeni işlər proqram




üzrə gedir. Lazım gələndə, Bakı-Ərzurum kəməri ilə bağlı müvafiq addımlar atılacaq, bunun maliyyə məsələləri həll olunacaqdır. Biz orada da hələlik heç bir problem görmürük. Mən inanmıram ki, hər hansı problem yarana bilsin. Bakı-Ərzurum kəməri tikintisinin dəhlizi də, təxminən elə bu yerlərdən keçir. Əlbəttə ki, Bakı-Tbilisi-Ceyhanın həyata keçirilməsi Bakı-Ərzuruma da böyük kömək edəcəkdir...

**Sual:** İlham müəllim, Türkiyə mətbuatında bəzi adamlar bu fikirlə çıxış edirlər ki, Azərbaycanın indiki iqtidarı Rusiyanın maraqlarını Türkiyənin maraqlarından üstün tutur. Yəni Azərbaycanda Türkiyənin maraqlarını o qədər də təmin etmirlər. Sizin fikirlərinizi bilmək olarmı?

**Cavab:** Mən bir neçə gün əvvəl bunu eşitdim. Türkiyə televiziya kanallarından birində belə bir məlumat getdi. Bu, tamamilə yanlış bir məlumatdır. Azərbaycan ilk növbədə öz maraqlarını təmin etməlidir və təmin edir. Azərbaycanda son on il ərzində Heydər Əliyev tərəfindən aparılan siyasət məhz ona yönəlib ki, öncə Azərbaycanın maraqları təmin olunsun. Əgər Azərbaycanın maraqları təmin olunarsa, əlbəttə, bizə dost olan dövlətlər də bundan ancaq fayda götürə bilər.

O ki qaldı "Əsrin müqaviləsi"ndə Rusiya şirkətinə pay verildi, Türkiyə şirkətinə pay verilmədi - mən buna da aydınlıq gətirmək istəyirəm. Bu müqavilə hazırlanarkən o zaman keçmiş iqtidar tərəfindən "Türk Petrolları" şirkətinə 1,6 faiz pay verilmişdi. Heydər Əliyevin şəxsi təşəbbüsü ilə bu pay 5 faiz artırılaraq 6,6 faizə çatdırılmışdır. Nəzərə alsaq ki, Türkiyədə neft çıxmır, neft sənayesi yoxdur, biz görərik ki, Azərbaycan hökuməti və şəxsən Prezident Heydər Əliyev bu addımla "Türkiyə Petrolları" şirkətini də beynəlxalq layihəyə qoşdu, onları da buraya cəlb elədi.

Bakı-Ceyhan kimi nəhəng layihənin məhz Türkiyə üzərindən keçməsi də onu göstərir. Siz bilirsiniz, nə qədər səylər olmuşdu ki, bu boru kəməri başqa istiqamətdən keçsin. Bizə hədələr də, təzyiqlər də olmuşdu, digər xoşagəlməz addımlar da atılmışdı. Ancaq biz buna getmədik. Yəni bu, Heydər Əliyevin neft strategiyası idi. Ona görə belə yanlış fikirlərin səslənməsi, əlbəttə, bizi üzür. Gərək Türkiyədə belə adamlara imkan verilməsin. İki ölkə arasında münasibətləri pozmaq istəyən şəxslərə gərək televiziyalarda, xüsusilə NTV kimi tanınmış televiziya kanallarında yer verilməsin. Əgər yer verilirsə, gərək bizim də fikrimiz orada səslənsin.

## BAKI, 3 FEVRAL 2004-CÜ İL



# Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlərin imzalanması

2004-cü il fevralın 3-də Bakıda, "Gülüstan" sarayında, Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlərin imzalanması mərasimi keçirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edirdi.

Mərasimə toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi hərarətli alqışlarla qarşıladılar.

Azərbaycan, Gürcüstan və Türkiyə hökumətlərinin, BTC kreditorlar qrupunun nümayəndələri tərəfindən imzalanan maliyyələşmə paketi 78 müxtəlif tərəfin 17 mindən artıq imzası olan 208 maliyyə sənədini əhatə edir. Bu, tikintisi 2,95 milyard ABŞ dollarına başa gələcək boru kəməri üçün maliyyələşmə sazişlərinin həyata keçirilməsində mühüm addımdır.

Ümumiyyətlə, boru kəmərinin doldurulması və tikinti müddətində borcların faizi də daxil olmaqla, layihənin ümumi dəyəri 3,6 milyard ABŞ dollarıdır. Xərclərin təxminən 30 faizini səhmdarlar öz vəsaitləri hesabına maliyyələşdirir, qalan 70 faizi isə üçüncü tərəfdən maliyyələşmə formasında təmin olunur. Layihəyə vəd edilmiş ümumi borc 2,6 milyard dollar təşkil edir ki, bu da onun maliyyələşməsini başa çatdırır.

1760 kilometr uzunluğunda boru kəməri gündə bir milyon barrel neftin Xəzər regionundan təhlükəsiz nəqlinə imkan yaradacaqdır.

Aralıq dənizindəki Ceyhan limanından ilk neft 2005-ci ildə ixrac olunacaqdır. İndiyədək tikinti işlərinin 50 faizindən çoxu başa çatdırılmışdır. Bakıdan Ceyhanadək boru kəməri marşrutu boyunca 12 min insan işlə təmin olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

**Azərbaycan Prezidenti
İlham Əliyevin nitqi**

- Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Düz on il bundan əvvəl, 1994-cü il sentyabrın 20-də bu salonda Azərbaycanın gələcəyi üçün böyük əhəmiyyət kəsb edən "Əsrin müqaviləsi" imzalanmışdır. Bu müqavilə Azərbaycanın gələcək inkişafı üçün çox mühüm rol oynamışdır. Həmin müqavilədən sonra Azərbaycanda Heydər Əliyevin neft strategiyası həyata keçirilməyə başlanmışdır. On il ərzində aparılan bu strategiya ölkəmizə böyük uğurlar gətiribdir. Azərbaycan iqtisadi cəhətdən güclənmiş, öz müstəqilliyini daha da möhkəmləndirmişdir. İndi ölkəmizin iqtisadi inkişafı uğurla davam edir. Azərbaycanın bütün iqtisadi göstəriciləri onu göstərir ki, ölkəmiz inkişaf edir, güclənir və bu ənənə davam edəcəkdir.

1994-cü ildə Azərbaycan çox çətin vəziyyətdə idi. Azərbaycan müharibədən təzə çıxmışdı. Ermənistan silahlı qüvvələrinin işğalçı siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal altına düşmüşdü. Bir milyondan artıq vətəndaşımız qaçqın-köçkünə çevrilmişdi. O vaxt ölkədə sabitlik hələ tam bərqərar olunmamışdı. Ümumiyyətlə, ölkədəki vəziyyəti böhran kimi dəyərləndirmək mümkün idi. Məhz o çətin vəziyyətdə, o çətin anlarda Azərbaycan rəhbərliyinin və şəxsən Prezident Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi və siyasi iradəsi nəticəsində Azərbaycana böyük həcmdə investisiyaların cəlb edilməsi mümkün olmuşdur.

O vaxt investorları inandırmaq üçün böyük səylər göstərilmişdir. Bu gün vəziyyət tam başqadır. Bu gün Azərbaycan investisiyanın qoyulması baxımından keçmiş sovet respublikaları arasında liderdir, adambaşına düşən birbaşa xarici investisiyaların həcminə görə bəzi Şərqi Avropa ölkələrini də qabaqlayıbdır. Ancaq o vaxt vəziyyət tamamilə başqa idi.

O vaxt investorları inandırmaq lazım idi ki, Azərbaycan xarici investisiyalar üçün məqbul yerdir, bu investisiyalar qorunacaqdır. Bu, belə də oldu və son on il ərzində bütün beynəlxalq ictimaiyyət, bizimlə bir yerdə bu irimiqyaslı layihələri həyata keçirən şirkətlər bir daha əmin oldular ki, Azərbaycanda onların sərmayələri lazımi səviyyədə qorunur. Bu inamı qazanmaq üçün illər lazım idi. Amma bu inamı itirmək üçün bir yanlış addım da kifayət idi. Bu yanlış addım Azərbaycanda atılmadı. Çünki bütün bu proseslər şəxsən Prezident Heydər Əliyevin nəzarəti altında idi.

1994-cü ildən başlayaraq, Azərbaycan öz neft-qaz yataqlarının işlənilməsində böyük uğurlar əldə etmişdir. Xəzər dənizinin Azərbaycan sektorunda böyük işlər görülmüşdür. Azərbaycana milyardlarla dollar investisiya qoyulmuş və 1997-ci ildə "Çıraq" yatağından ilkin neft hasil olunmuşdur. Bakı-Novorossiysk, Bakı-Supsa neft kəmərləri istismara verilmişdir ki, bu da Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasında əhəmiyyətli rol oynamışdır. Əlbəttə, bizim hamımızın arzusu, istəyi, məqsədi onda idi ki, Azərbaycanda böyük ixrac neft kəməri tikilsin ki, o da öz növbəsində bizə böyük həcmdə neftin hasilatına nail olmağa imkan versin. Bu, indi baş verir.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası uğurla aparılır. Demək olar ki, biz hazırda işlərin səmərəliliyini görürük. İşlərin təxminən 50 faizi artıq görülmüşdür.

Əminik ki, yaxın zamanlarda Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara veriləcəkdir.

Bu gün isə bu layihənin maliyyələşməsi istiqamətində mühüm bir addım atılır. Beynəlxalq maliyyə qurumları bu layihəyə öz dəstəyini vermiş olurlar. Dünyanın aparıcı maliyyə qurumları tərəfindən verilən bu dəstək həm Bakı-Tbilisi-Ceyhan layihəsi üçün, həm də gələcəkdə digər layihələr üçün də böyük əhəmiyyət kəsb edir.

Bu gün bizim birgə fəaliyyətimizin, elə bil ki, son mərhələsidir, son nöqtəsidir. Bu uğurlar yalnız bizim hamımızın vahid komanda kimi fəaliyyət göstərəcəyimiz təqdirdə mümkün idi. Bu da baş verdi. Azərbaycan Dövlət Neft Şirkəti ilə "bp" şirkətinin rəhbərliyi və liderliyi nəticəsində bu vahid komanda qarşıda duran bütün məsələlərə nail oldu. Azərbaycan bütün dünyaya nümayiş etdirdi ki, burada əməkdaşlıq öz bariz nəticələrini verir.

Bu müqavilələrin icrasında çətinliklər də az deyil, qarşımızda süni şəkildə yaradılmış manеələr də az deyildi. Çətin vəziyyətdə, xüsusilə 1994-1996-cı illərdə müqavilələr üçün real təhlükələr yaranmışdı. Amma Azərbaycan rəhbərliyinin və şəxsən Prezident Heydər Əliyevin qətiyyəti, beynəlxalq neft şirkətlərinin inamı və dünya ictimaiyyətinin dəstəyi bizə imkan verdi ki, bütün bu çətinliklərə baxmayaraq, istədiyimizə nail ola bilək. Bir daha bütün dünyaya sübut edək ki, Azərbaycan öz siyasətini müstəqil şəkildə aparır. Azərbaycan







xalqının milli maraqları qorunur və heç kim, heç bir qüvvə bizi bu yoldan çəkindirə bilməz.

Bu müqavilənin həyata keçirilməsi regional əməkdaşlıq nöqteyi-nəzərdən çox əhəmiyyətlidir. Bu, üç ölkənin xarici neft şirkətlərinin, 30-dan yuxarı beynəlxalq maliyyə qurumlarının vahid məqsədə necə nail ola bilməsinə çox gözəl nümunədir. Türkiyə, Gürcüstan, Azərbaycan rəhbərlərinin səyi nəticəsində bu layihə həyata keçirilir. Əfsanə gerçəyə çevrilir. Mən əminəm ki, qardaş Türkiyə ilə, qardaş Gürcüstanla bizim əlaqələrimiz bundan sonra daha da inkişaf edəcək və Bakı-Tbilisi-Ceyhan neft kəməri bu istiqamətdə öz mühüm rolunu oynayacaqdır. Bizim ölkələrimiz, xalqlarımız bir-birinə daha yaxın olacaqdır.

Gələcəkdə bizim böyük planlarımız var, böyük arzularımız var. Gələcəkdə Azərbaycanın neft-qaz yataqlarından səmərəli şəkildə istifadə olunacaqdır. "Şahdəniz" layihəsinin həyata keçirilməsi məsələsi gündəlikdə durur. Mən əminəm ki, biz buna da nail olacağıq. Bizim hamımızın məqsədi ondan ibarətdir ki, xalqlarımız bu layihələrdən fayda götürsün. Mən əminəm ki, belə də olacaqdır. Artıq bu, baş veribdir. Minlərlə yeni iş yerləri açılıbdır. On minlərlə insanımız maddi fayda əldə etmişdir və bu proses davam edəcəkdir.


btc
Bakı - Tbilisi - Ceyhan layihəsinin
...iyyələşdirilməsi ilə əlaqədar sənədlərin
imzalanma mərasimi
Bakı, 3 fevral 2004




Azərbaycanda Prezident Heydər Əliyevin sərəncamı ilə yaradılmış Dövlət Neft Fondunun fəaliyyəti çox səmərəlidir. Bu fondda yığılan vəsaitlər şəffaf şəkildə saxlanılır və Azərbaycanın ən ağır problemi olan qaçqınların və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına sərf edilir. Mən əminəm ki, Dövlət Neft Fondunda gələcəkdə yığılacaq vəsaitlər də bu məqsədlərə sərf olunacaqdır. Azərbaycanın iqtisadi-sosial problemlərinin həlli istiqamətində bu vəsaitlər ölkəmizə kömək edəcəkdir.

Əziz dostlar!

Bu gün müasir Azərbaycan tarixində çox əlamətdar bir gündür. Bu gün Azərbaycanın gələcək potensialını böyük dərəcədə müəyyən edəcək Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin maliyyə məsələlərinin son nöqtəsidir. Mən bu gündə sizin hamınıza uğurlar arzulayıram. Arzulayıram ki, yaxın zamanlarda Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılış mərasiminə toplaşaq, onun istismara verilməsini də böyük təntənə ilə qeyd edək. Mən əminəm ki, biz bu məqsədlərə nail olacağıq, Azərbaycanı daha da gücləndirəcəyik. Bu, bizə imkan verəcək ki, regionda mövcud olan əməkdaşlıq daha da güclənsin və qonşu, qardaş ölkələrlə birlikdə biz qarşımızda duran bütün məqsədlərə çata bilək.

Bu mühüm hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Sizin hamınıza cansağlığı, uğurlar arzulayıram. Sağ olun.



Azərbaycan Prezidenti İlham Əliyevin nitqi böyük diqqətlə dinlənildi və alqışlarla qarşılandı.

Sonra Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlərin imzalanması mərasimi oldu.

"Tranzit ərazisinə malik ölkə hökuməti ilə sazişlərin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cumhurriyəti hökumətləri tərəfindən təsdiqnamələri"ni Azərbaycan hökuməti adından Baş nazirin müavini Abid Şərifov, Türkiyə hökuməti adından energetika və təbii ehtiyatlar naziri Mehmet Hilmi Gülər, Gürcüstan hökuməti adından Gürcüstan Beynəlxalq Neft Korporasiyasının prezidenti Giorgi Çanturiya, Bakı-Tbilisi-Ceyhan Boru Kəməri Şirkəti adından şirkətin icraçı direktoru Maykl Taunzend, birinci dərəcəli kreditorlar adından təminat üzrə vəkil qismində çıxış edən "Sitikorp Trasti Kompani Limited" adından "Siti Bank"ın (ABŞ) icraçı direktoru İsgəndər Zaman imzaladılar.

Təsdiqnamələr Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti hökumətləri tərəfindən 2000-ci ilin oktyabr ayında imzalanmış "Tranzit ərazisinə malik ölkə hökuməti ilə sazişlər" çərçivəsində Bakı-Tbilisi-Ceyhan Boru Kəməri Şirkətinə verilmiş hüquqların və onun tərəfindən üzərinə götürülmüş öhdəliklərin BTC layihəsinin kreditorlarına şamil edildiyini və girov şəklində qoyulmasını tanıyır və təsdiq edir.

"Azərbaycanın təminat sazişi"ni Azərbaycan hökuməti adından Baş nazirin müavini Abid Şərifov, Bakı-Tbilisi-Ceyhan Boru Kəməri Şirkəti adından şirkətin icraçı direktoru Maykl Taunzend, BTC beynəlxalq sərmayə şirkəti adından şirkətin icraçı direktoru Maykl Taunzend, birinci dərəcəli kreditorlar adından kreditorlararası agent qismində çıxış edən "Sosiyete Jeneral" bankının (Fransa) icraçı direktoru Tyeri Barbiye, birinci dərəcəli kreditorlar adından təminat üzrə vəkil qismində çıxış edən "Sitikorp Trasti Kompani Limited" adından "Siti Bank"ın icraçı direktoru İsgəndər Zaman imzaladılar.

Bu sazişlə Azərbaycan hökuməti birinci dərəcəli kreditorlara BTC layihəsinin maliyyələşdirilməsi ilə bağlı "Azərbaycan BTC Limited" şirkətinin, habelə "Azəri", "Çıraq", "Günəşli" yataqları üzrə nəqletmə sazişinin müddəalarına uyğun qaydada ARDNŞ-nin Bakı-Tbilisi-Ceyhan Boru Kəməri Şirkətinə ödənilməli ola bilən ödəniş öhdəlikləri üzrə zəmanət verir.

"İştirakçılar sazişi üzrə birbaşa saziş"i Bakı-Tbilisi-Ceyhan Boru Kəməri Şirkəti adından "bp"-Azərbaycan" şirkətinin prezidenti Devid Vudvord, "Azərbaycan BTC Limited" şirkəti (Azərbaycan) adından ARDNŞ-nin prezidenti Natiq Əliyev, BTC beynəlxalq sərmayə şirkəti adından şirkətin icraçı direktoru Maykl Taunzend, birinci dərəcəli kreditorlar adından kreditorlararası agent qismində çıxış edən "Sosiyete Ceneral" bankının icraçı direktoru Tyeri Barbiye, birinci dərəcəli kreditorlar adından təminat üzrə vəkil qismində çıxış edən "Sitikorp Trasti Kompani Limited" adından "Siti Bank"ın icraçı direktoru İsgəndər Zaman, "bp" Payplaynz BTC Limited" şirkəti (Birləşmiş Krallıq) adından "bp" şirkətlər qrupunun baş xəzinədarı Patrik Çepmən, "KonokoFilips BTC Limited" şirkəti (ABŞ) adından şirkətin regional direktoru Arne Holqcem, "Eni BTC Limited" şirkəti (İtaliya) adından şirkətin regional direktoru Pyetro Kovana, "İnpeks BTC Payplaynz Limited" şirkəti (Yaponiya) adından "İnpeks Korporeyşn"ın baş vitse-prezidenti Minora Naqata, "İtoçu Oyl Eksploreyşn




BTC İnkorporeytid" şirkəti (Yaponiya) adından "İtoçu Oyl Korporeyşn"ın prezidenti Masao Yamasaki, "Statoyl BTC Kaspian Limited" şirkəti (Norveç) adından şirkətin regional direktoru Georq Qundersen, "Total BTC Limited" şirkəti (Fransa) adından şirkətin regional direktoru Jan Klod Navro, "Törkiş Petroleum BTC Limited" şirkəti (Türkiyə) adından "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətinin xarici layihələr üzrə qrupunun prezidenti Əli Qaraqaya, "Yunokal BTC Payplaynz Limited" şirkəti (ABŞ) adından şirkətin regional direktoru Maykl Barnz, "Amerada Hess BTC Limited" şirkəti (ABŞ) adından maliyyə direktoru Fəxri Dadaşov imzaladılar.

Bu sazişdə 2002-ci ilin avqustunda BTC Boru Kəməri Şirkətinin iştirakçıları tərəfindən imzalanmış sazişə uyğun olaraq, iştirakçılar və kreditorlar arasında kredit vəsaitlərinin qaytarılmasını təmin edən girov təminatı, qarşılıqlı hüquq və öhdəliklər, iştirak payları üzrə hüquqların ötürülməsi şərtləri müəyyən edilir.

"Birinci dərəcəli kreditorlararası saziş"i Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı tərəfindən bankın baş icraçı direktoru Yamada Takayuki, Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən bankın birinci vitse-prezidenti xanım Norin Doyl, Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən şöbə müdiri Şahbaz Mavadat, İxrac Əməliyyatları üzrə Kreditləşdirmə Zəmanəti Departamenti (Birləşmiş Krallıq) tərəfindən neft və qaz üzrə direktor Rocer Qotts, "Sitikorp Trasti Kompani Limited" tərəfindən "Siti Bank"ın icraçı direktoru İskəndər Zaman, "Sosiyete Ceneral" bankı tərəfindən bankın icraçı direktoru Tyeri Barbiye, "ABN Amro" bankı" (Hollandiya) tərəfindən bankın icraçı direktoru Riçard Börret, "BNP Pariba" bankı (Fransa) tərəfindən bankın departament direktoru Stefen Budrinski, "Mizuho Korporeyt" bankı (Yaponiya) tərəfindən bankın icraçı direktoru Keyzo Ohaşi, "Siti Bank" Şimali Amerika bankı (ABŞ) tərəfindən bankın icraçı direktoru Tuşita Rancan, "Banka İntesa" bankı (İtaliya) tərəfindən bankın icraçı direktoru Riçard Oliver, "Kredi Aqrikol İndosuez" bankı (Fransa) tərəfindən bankın icraçı direktoru Devid Uits, "Deksia Kredi Lokal" bankı (Belçika) tərəfinən bankın icraçı direktoru Patrik Blanşar, "Bayeriş Hipovereyns" bankı (Almaniya) tərəfindən bankın icraçı direktoru Filip Remnits, "Ay-En-Ci" bankı (Hollandiya) tərəfindən bankın icraçı direktoru Maykl Klemeyn, "Key-Bi-Si" bankı (Belçika) tərəfindən bankın icraçı



direktoru Nil Morey, "Nateksiz Bank Populer" bankı (Fransa) tərəfindən bankın icraçı direktoru Anton Darqnis, Şotlandiyanın "Royal" bankı (Birləşmiş Krallıq) tərəfindən bankın icraçı direktoru Herbinder Mudan, "San Paolo" bankı (İtaliya) tərəfindən bankın icraçı direktoru Yevgeni Piyevski, "Vest El-Bi" bankı (Almaniya) tərəfindən bankın icraçı direktoru cənab Harvard Qruder imzaladılar.

Bu sazişlə kreditorlar arasında kredit vəsaitlərinin təqdim olunması ilə bağlı qarşılıqlı əlaqələr tənzimlənir.

Sənədlərin imzalanması başa çatdıqdan sonra Türkiyənin energetika və təbii ehtiyatlar naziri Mehmet Hilmi Gülər çıxış etdi.

**Türkiyənin energetika və təbii ehtiyatlar naziri Mehmet Hilmi Gülərin çıxışı**



- Hörmətli cənab Prezident!

Azərbaycan, Gürcüstan, ABŞ hökümətlərinin hörmətli nümayəndələri!

Hörmətli nazirlər!

BTC layihəsinin hörmətli sərmayədarları və rəhbərliyi!

Sizin hamınızı hörmətlə salamlayıram.

Bu gözəl, möhtəşəm gündə, qardaş Azərbaycanda xoşbəxt anı sizinlə birlikdə yaşadığım üçün çox şadam. Hamınıza hökümətim adından təşəkkür edirəm.

Bu, son dərəcə vacib bir layihədir. Həm iqtisadi, həm sosial, həm də regional sabitlik və inkişaf baxımından nümunəvi bir layihədir. Bu layihənin həyata keçirilməsində əməyi olanları xüsusilə təbrik edirəm və onlara təşəkkürümü bildirərək, çox dəyərli Prezident möhtərəm Heydər Əliyevi burada xoş sözlərlə yad etməyi özümə borc bilirəm. Ona, türk dünyasının böyük oğluna uzaqgörən siyasəti və geniş dünyagörüşü üçün son dərəcə minnətdaram. Bu səbəblə Türkiyənin Ceyhan terminalına möhtərəm Heydər Əliyevin ismini verərək, onun adının əbədiləşdirilməsi qərarına gəldik.

Bu layihə uzun müddət müzakirə olunmuş, hətta siyasi layihə kimi də qəbul edilmişdir. Amma artıq bəllidir ki, bu layihə geriyə dönüşü olmayan bir nöqtəyə gəlmişdir və həyata keçirilməkdədir. Bundan sonra atılacaq hər bir addım bu regiona və bütün dünyaya təsir edəcəkdir. Bu, həm də nümunəvi layihə kimi də yadda qalacaqdır. Bu, adi bir layihə deyil və dünyanın ən böyük layihələrindən hesab olunur.

78 tərəfin imza atdığı və 49 sənədin imzalandığı bu çox mühüm layihəni, - Türkiyənin energetika sahəsinə cavabdeh bir şəxs kimi deyirəm, - tam zamanında başa çatdıracağıq və əsas mərhələyə keçəcəyik. Buna heç kimin şübhəsi olmasın. Bu layihə vaxtında yekunlaşacaqdır. Bununla əlaqədar ciddi tədbirlər görürük.

Bundan sonra reallaşacaq "Şahdəniz" layihəsi çərçivəsində Bakıdan, Tbilisidən keçərək, Ərzuruma qədər uzanacaq boru xətti sayəsində həm Türkiyənin təbii qaza olan ehtiyacı ödənəcək, həm də Avropaya mavi yanacaq nəql olunacaqdır. Bununla bağlı Yunanıstan ilə də müqavilə imzaladıq. Həmin alqı-satqı müqaviləsinə əsasən, təbii qaz Yunanıstandan İtaliyaya gedəcəkdir. 11 milyard kubmetr təbii qazın nəqlini nəzərdə tutan bu layihə çərçivəsində daha sonra ikinci bir xətt Yunanıstandan Avstriyaya çəkiləcəkdir.

Nəticə etibarilə Bakı-Tbilisi-Ceyhan layihəsi ilə neft Aralıq dənizinə axaraq, iki dənizi "bir dostluq körpüsü" ilə birləşdirəcəkdir. Digər tərəfdən, bu regionun karbohidrogen ehtiyatları Avropaya və bəlkə də, daha sonra gəmilər vasitəsilə bütün dünyaya daşınacaqdır. Bu baxımdan son dərəcə böyük əhəmiyyət verdiyimiz bu layihədə ABŞ-ın böyük dəstəyini yada salaraq, onlara təşəkkür edirik.

Beləliklə, müştərək layihənin hansı şəkildə həyata keçiriləcəyini göstərmiş olacağıq və bundan sonra bu layihələri böyük ehtimalla yeni layihələr əvəz edəcəkdir. Yeni layihə sahələri ilə əvvəlki layihələrin marşrutlarının üst-üstə düşməsi və qazanılan təcrübələr görülən işləri sürətləndirəcəkdir. Bu baxımdan Gürcüstanın, Azərbaycanın, bütün sərmayədarların və kredit qurumlarının dəstəyi sayəsində yeni xidmət mexanizmi ortaya çıxacaqdır və beləliklə, həm regional sabitliyə, həm də dünyadakı sülh proseslərinə böyük təsiri olacaqdır.

BTC təbiəti mühafizə qurumları üçün də nümunəvi bir layihə olacaqdır. Müştərək işin uğurla nəticələnməsi baxımından da örnək olacaqdır. Bu duyğular ilə bu

gözəl ölkədə mənalı hadisədə iştirak etdiyim üçün son dərəcə sevinirəm və xoşbəxtəm. Mən bu hisslərlə hamınıza hörmət və ehtiramımı bildirirəm.

Sonra Gürcüstan Beynəlxalq Neft Korporasiyasının prezidenti Giorgi Çanturiyaya söz verildi.

**Gürcüstan Beynəlxalq Neft Korporasiyasının prezidenti Giorgi Çanturiyanın çıxışı**

- Zati-aliləri cənab Azərbaycan Respublikasının Prezidenti!

Hörmətli mərasim iştirakçıları!

Xanımlar və cənablar!

Bu gün təkcə Azərbaycan üçün deyil, həm də Türkiyə, Gürcüstan üçün, ümumən, Qara dəniz və Xəzər dənizi hövzəsi ölkələri üçün, habelə ABŞ, Böyük Britaniya, bütün Avropa və dünyanın Şərq-Qərb enerji dəhlizinin inkişafı prosesinə fəal qoşulmuş bir çox digər ölkələri üçün tarixi gündür.

Bu gün olduqca böyük məqsədyönlülük və öz təcrübəsi sayəsində bu layihələri uğurla həyata keçirə bilmiş və onlara öz sadiqliyini sübut etmiş şirkətlər və beynəlxalq maliyyə təsisatları üçün də tarixi gündür.

Bu gün Azərbaycan Respublikasının dünya şöhrətli Prezidentinin formalaşdırdığı energetika doktrinasının müvəffəqiyyətinə daha bir sübutdur. Elə bir doktrina ki, onun həyata keçirilməsinə zəmanəmizin ən böyük siyasətçilərindən birinin - Heydər Əlirza oğlu Əliyevin töhfəsi misilsizdir. Ona görə də təəccüblü deyildir ki, bugünkü görüşdə bu boru kəmərinə Heydər Əlirza oğlu Əliyevin adı verildi.



Bugünkü gün bir də ona görə tarixi gündür ki, o, gələcək regional əməkdaşlığın inkişafında yeni perspektivlər açır.

Bugünkü gün bu layihələrə qoşulmuş ölkələrin, şirkətlərin və beynəlxalq maliyyə təşkilatlarının iştirakı ilə formalaşdırılmış modelin nadirliyini bir daha təsdiqləyir.

Tərəfdaş ölkələrimizin çox böyük səyləri və dəstəyi olmasaydı, bugünkü müvəffəqiyyət də mümkün olmazdı. ABŞ-ın, Böyük Britaniyanın və Avropa Birliyi ölkələrinin dəstəyini xüsusi razılıqla xatırlamaq istəyirəm və onlara minnətdarlığımızı bildirirəm.

Dostum səfir Stiven Mənnin bugünkü forumda iştirak etməsi mənim üçün xüsusilə fərəhlidir. Bugünkü çox mühüm görüşdə o, ABŞ hökumətini təmsil edir. Fürsətdən istifadə edərək, ona öz təşəkkürümü bildirirəm.

Boru kəmərləri layihələrini milli layihələr səviyyəsinə qaldırmış olan Azərbaycan, Türkiyə və Gürcüstan xalqlarına da təşəkkürümü bildirmək istəyirəm.

Bu layihələrin uğurlu olmasına belə bir fakt da sübutdur ki, bu gün - 2002-ci il sentyabrın 18-də Azərbaycan, Türkiyə və Gürcüstan Prezidentlərinin ABŞ-ın energetika naziri ilə birlikdə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin tikintisinə təntənəli surətdə start verdikləri vaxtdan 16 ay ötəndən sonra bu boru kəmərinin inşasının, demək olar, yarısı artıq başa çatdırılmışdır.

Əziz dostlar!

Əminəm ki, sizin bir çoxunuz son bir neçə ay ərzində Gürcüstandakı siyasi hadisələrin gedişini diqqətlə izləmisiniz.

Hadisələrin bu cür inkişaf etməsi Gürcüstana müstəqil, tərəqqi edən və demokratik dövlət qurulmasını real surətdə uğurla həyata keçirmək üçün nadir tarixi imkan verir.

Gürcüstanda baş vermiş siyasi dəyişikliklər ölkədə sərmayə mühitinin yaxşılaşdırılması baxımından irəliyə doğru atılmış olduqca böyük addımdır. Biz əcnəbi sərmayəçiləri və beynəlxalq maliyyə təşkilatlarını real surətdə, əməli surətdə, - bu isə xüsusilə vacibdir, - inandıra bilərik ki, Gürcüstan ölkədə onların mənafelərini də, hüquqlarını da qoruyacaqdır.

Bugünkü çox əhəmiyyətli qərar sübut edir ki, Gürcüstan beynəlxalq iqtisadi birliyin üzvünə çevrilir. Gürcüstanda yeni siyasi dövr başlanmışdır və ümid edirik ki, bugünkü gün də Gürcüstan üçün yeni iqtisadi dövrün başlanğıcı olacaqdır.



Gürcüstanın yeni rəhbərliyi tam dərk edir ki, ölkədə sərfəli sərmayə siyasəti aparılması, xarici sərmayələrin cəlb olunması iqtisadiyyatı dirçəltməyin mühüm amillərindən biridir.

Yuxarıda deyilənlərə bu da sübutdur ki, Gürcüstanın yeni hökuməti hakimiyyətə gəldiyi vaxtdan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin və Cənubi Qafqaz boru kəmərinin sərmayəçilərinə birmənalı şəkildə bəyan etmişdir ki, o, Gürcüstan üçün strateji əhəmiyyətli bu layihələri bütünlüklə dəstəkləyəcək və ölkənin beynəlxalq müqavilələrdə nəzərdə tutulan öhdəliklərini tamamilə yerinə yetirəcəkdir.

Xüsusilə sevindirici haldır ki, Gürcüstanda baş vermiş dəyişikliklər regiondakı cari hadisələrə uyğundur və bu, region ölkələrində gənc və enerjili liderlərin hakimiyyətə gəlməsində öz ifadəsini tapır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu fəaliyyəti buna parlaq nümunələrdən biridir. Biz əminik ki, o, adlı-sanlı atasının müdrik siyasətini və strateji xəttini uğurla davam etdirəcəkdir.

Biz tam əminik ki, bütün bunlar regional əməkdaşlığın geniş miqyasda inkişafına, region ölkələrinin mənafelərinin tarazlaşdırılmasına, münaqişələrin nizama salınmasına və sülhün bərqərar olunmasına yönəldilmiş yeni ideyaların həyata keçirilməsinə kömək göstərəcəkdir. Yeni regional iqtisadi layihələr bu məqsədlərə çatmaqda çox böyük rol oynayacaqdır.

Bu gün Gürcüstanı belə bir fakt xüsusilə sevindirir ki, Cənubi Qafqaz boru kəməri layihəsinin daha da inkişaf etdirilməsi məqsədi ilə mühüm qərar qəbul olundu, neft şirkətləri həmin layihənin maliyyələşdirilməsinə sanksiya verilməsinə dair qərar qəbul etdilər, "Şahdəniz" yatağından qazın Gürcüstana nəqli haqqında Gürcüstanla müqavilələr rəsmiləşdirildi, enerji dəhlizi çərçivəsində qaz kəmərinin bəzi hissələrinin tikintisinə başlandı.

Bildiyiniz kimi, Gürcüstanın enerji təhlükəsizliyinin təmin edilməsi ölkəmiz üçün həyati əhəmiyyətli vəzifədir. Bu məsələlərin uğurlu həlli yolu ilə ölkə mütəmadi enerji böhranını aradan qaldıra və həmin sektoru səmərəli şəkildə bərpa edə bilər.

Gürcüstan əhalisi Şərq-Qərb enerji dəhlizi layihələrini tam dəstəkləyir və gözəl başa düşür ki, bu layihələr çox böyük strateji əhəmiyyətə malik olmaqla yanaşı, ölkə büdcəsinə xeyli gəlir gətirər və əhali layihələrdən çox böyük sosial-iqtisadi fayda götürə bilər. Xüsusilə əhəmiyyətlidir ki, bu proses ölkədə getdikcə güclənir.

Ayrıca qeyd etmək lazımdır ki, layihələrin misilsizliyi həm də ondan ibarətdir ki, Şərq-Qərb enerji dəhlizi layihələri ətraf mühitin mühafizəsi baxımından ən yüksək standarlara və bu gün dünyada mövcud olan texniki standartlara müvafiq surətdə həyata keçirilir.

İndiki mərhələdə biz BTC neft kəmərinin tikintisinə tammiqyaslı monitorinq keçirilməsinə xüsusi əhəmiyyət veririk. Neft kəmərinin inşasının bütün cəhətləri üzrə elmi-texniki və ictimai monitorinq keçirilməsi üçün xüsusi qruplar yaradılmışdır.

Gürcüstanın yeni hökumətinin yerinə yetirməli olduğu mühüm vəzifələrdən biri ölkənin bu layihələrdən əldə etdiyi bütün vəsaitin aşkar və şəffaf bölüşdürülməsi mexanizmini hazırlamaqdır. Bununla əlaqədar, Toni Bleyerin irəli sürdüyü "Hasilat sənayelərinin şəffaflığı təşəbbüsü" ilə fəal əməkdaşlıq edirik. Gürcüstan onunla əməkdaşlığa başlamış tranzit ölkəsi olacaqdır. Fəxr edirik ki, Gürcüstan iqtisadiyyat sahəsində şəffaflıq əlaməti olan bu cür əməkdaşlığa nümunə olacaqdır.

Regional əməkdaşlığın inkişafından danışarkən, Gürcüstan adından belə bir faktı alqışlamaq istəyirəm ki, Yunanıstan və Türkiyə öz aralarında birləşdirici qaz kəməri çəkilməsi haqqında müqavilə imzalamışlar. Bu qaz kəməri "Şahdəniz" yatağından çıxarılacaq Azərbaycan təbii qazını Yunanıstana və digər Avropa ölkələrinə nəql etməyə imkan verəcəkdir. Gürcüstan Xəzər qazının Avropaya nəqlində maraqlıdır, çünki bu, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin maksimum yüklənməsini və Cənubi Qafqaz regionunun Avropa üçün strateji əhəmiyyətinin artmasını təmin edəcəkdir.

Biz Qazaxıstan neftinin BTC boru kəməri ilə nəqli üçün bu ölkənin Şərq-Qərb enerji dəhlizi layihələrinə daha fəal qoşulmasına çox böyük əhəmiyyət veririk. Ümidvarıq ki, ABŞ-ın köməyi ilə Azərbaycan və Qazaxıstan hökumətləri yaxın gələcəkdə hökumətlərarası müqavilələrin rəsmiləşdirilməsi işini başa çatdıra biləcəklər.

Ukraynanın regional layihələrin həyata keçirilməsinə qoşulması da bizim üçün ən mühüm məsələlərdən biridir. Odessa-Bdodı-Qdansk neft kəmərinin gücündən istifadə edilməsi və enerji daşıyıcılarının həmin kəmərlə Avropaya nəql olunması üçün səyləri gücləndirmək lazımdır. Biz şadıq ki, neftin Avropaya göndərilməsinin yeni, müstəqil variantı hesab edilən neft kəməri həm Avropa Birliyi, həm də ABŞ hökuməti tərəfindən dəstəklənir.

Belə bir faktı da vurğulamaq eyni dərəcədə əhəmiyyətlidir ki, həmin layihələrin qarşılıqlı surətdə məqbul regional əməkdaşlıq prinsipləri nəzərə alınmaqla inkişaf etdirilməsi istər regionun özündə, istərsə də Avropa ölkələrində neft və qaz təchizatı mənbələrinə çoxşaxəli xarakter verilməsinə və onların energetika sahəsində uzunmüddətli müstəqilliyinin və təhlükəsizliyinin möhkəmlənməsinə kömək və xidmət edəcəkdir.

Sözümün sonunda Şərq-Qərb enerji dəhlizi layihələrinin inkişafı işində yardıma və səmərəli əmək-

daşlığa görə Azərbaycan xalqına, şəxsən onun Prezidenti İlham Əliyevə, habelə Türkiyənin, ABŞ-ın, Böyük Britaniyanın və digər Avropa ölkələrinin hökumətlərinə və dövlət başçılarına, neft şirkətlərinə və maliyyə təsisatlarına xüsusi təşəkkürümüzü bildirmək istəyirəm. İnanırıq ki, belə sıx əməkdaşlıq sayəsində biz qarşıya qoyulmuş məqsədlərə nail ola bilərik və hər bir tərəfin mənafelərini nəzərə alaraq, bu genişmiqyaslı layihələri həyata keçirə bilərik.

Sizi əmin etmək istəyirəm ki, iqtisadi tərəqqiyə və şəffaflığa nail olmağa çalışan yeni Gürcüstan regional əməkdaşlığın genişləndirilməsinə və iqtisadi yüksəlişə yönəldilmiş strateji cəhətdən mühüm enerji layihələrinin inkişafı prosesinə daha fəal kömək edəcəkdir.

Bugünkü gün beynəlxalq iqtisadi birlikdə öz yerini tutan Gürcüstanda indi yeni dövrün başlandığını irəlicədən müəyyənləşdirir. Biz hamıya təşəkkürümüzü bildirir və söz veririk ki, siz ümidlərinizdə yanılmayacaqsınız.

Diqqətinizə görə sağ olun.

Sonra ABŞ-ın Xəzər hövzəsinin enerji diplomatiyası üzrə səfiri Stiven Mənn çıxış etdi.

**ABŞ-ın Xəzər hövzəsinin enerji diplomatiyası üzrə səfiri Stiven Mənnin çıxışı**

- Hörmətli cənab Prezident!

Hörmətli cənab Baş nazir!

Hörmətli istirakçılar, qonaqlar və dostlar!

Bu il "Əsrin müqaviləsi"nin imzalanmasının on ili tamam olacaqdır. Həmin hadisədən keçən hər bir il Azərbaycanın dünya səviyyəli tərəfdaşlıq çərçivəsində enerji ehtiyatlarının işlənilməsi ilə bağlı atdığı addımların, bu işdə iştirak etmiş bir sıra ölkələrlə, o cümlədən Amerika Birləşmiş Ştatları ilə əməkdaşlıq etməsinin düzgünlüyünə dəlalət edir.

Son onillikdə Xəzər regionunda yeni inkişaf mərhələləri müşahidə olunmuşdur və Azərbaycan bu inkişafın önündə gedən bir ölkədir. Həyata keçirilən bütün layihələrin böyük bir hissəsini Bakı-Tbilisi-Ceyhan neft kəməri əhatə edir ki, bu da Şərq-Qərb enerji dəhlizinin əsasını təşkil edir. Bu layihə son dərəcə böyük tarixi əhəmiyyətə malikdir. Layihə çərçivəsində Avrasiyada enerji sahəsində yeni inkişaf mərhələsi açılmışdır. Eyni zamanda, ətraf mühitlə bağlı yeni standartlar da təsbit olunmuşdur. Mən belə bir fikirdəyəm ki, Avrasiya regionundakı bütün yeni layihələr Bakı-Tbilisi-Ceyhan layihəsi ilə ayaqlaşmalıdır. Onun ictimaiyyətin maraqlarını qorumaq baxımından qəbul olunmuş standartlarına cavab verməlidir. Onu da qeyd etmək istərdim ki, ABŞ-ın dəstəyi



ilə Azərbaycan hokuməti, Gürcüstan və Türkiyə hokumətləri arasında əməkdaşlığın aparılması layihə çəçivəsində əldə olunmuş ən mühüm nailiyyətlərdən biridir.

Bugünkü mərasimin keçirilməsi ciddi bir öhdəliyin qorunması ilə bağlıdır. Mərasim həm də beynəlxalq maliyyə ictimaiyyətinin BTC layihəsinə dəstək verməsini sübut edir. Ancaq onu demək istərdim ki, indiyə qədər görülən işlər o qədər də asan olmamışdır. Bütün bunlara baxmayaraq, biz müəyyən nəticələrə nail ola bildik. Bu işlər Devid Vudvord kimi şəxslərin rəhbərliyi altında uğurla həyata keçirilmişdir. Mən burada iştirak edən ABŞ şirkətlərini xüsusilə qeyd etmək istərdim. Bundan əlavə, milli şirkətlərin də bu layihədə iştirakı təqdirəlayiqdir. Natiq Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti özünü etibarlı bir tərəfdaş kimi göstərmişdir. Eyni zamanda, mən inanıram ki, Gürcüstan Beynəlxalq Neft Korporasiyası bu layihədə iştirak etmək üçün özünü dünya səviyyəli qurum kimi təsdiq edəcəkdir. Türkiyənin "Botaş" şirkəti də bu baxımdan təqdirəlayiq addımlar atmışdır.

Beynəxalq kreditorlar bu layihənin həyata keçirilməsi istiqamətində çox səylər göstərmiş, yüksək peşəkarlıq nümayiş etdirmişlər. Onların bir məqsədi var. O da, ilk növbədə, həmin ölkələrdə yaşayan insanlara iqtisadi inkişaf ümidi verməkdir. Əlbəttə, bu işlərlə təklikdə məşğul olmaq heç bir inkişafa zəmanət verə bilməz. Bu, regionda olan ölkələrin aparacağı siyasətdən də asılıdır. Bir çox işlər görülüb, bir sıra işlər hələ qabaqdadır. Ancaq Azərbaycan, Gürcüstan və Türkiyə hökumətləri sərmayə qoyuluşunu dəstəkləməklə və



müvəffəqiyyət naminə öz səylərini əsirgəməyərək, öz xalqlarının uğurlu gələcəyinin təmin edilməsi baxımından mühüm addımlar atmışlar. Əlbəttə, bu layihə, ilk növbədə, özəl sektor tərəfindən həyata keçiriləcəkdir. Bu layihənin uğurla həyata keçirilməsi üçün yaratdıqları şəraitə görə mən Azərbaycan, Gürcüstan və Türkiyə hökumətlərinə minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hər zaman bu layihədə yaxından iştirak etmişdir. Biz həmişə onun dəstəyinə arxalanmışıq. Sizin xoş məramınızı və əsl rəhbər olduğunuzu həmişə hiss etmişik. Eyni zamanda demək istəyirəm ki, bu əməkdaşlığın inkişaf etdirilməsində ABŞ hökuməti öz dəstəyini həmişə göstərəcəkdir. Şərq-Qərb enerji dəhlizinə dəstək verilməsi və onun həyata keçirilməsi baxımından mərhum Heydər Əliyevin səyləri yüksək qiymətləndirilməlidir. Gurcüstan və Türkiyə hökumətləri də nümayiş etdirdikləri əzmkarlıq və gördükləri işlərlə buna böyük yardım etmişlər.

Mən ABŞ hökuməti adından ən səmimi təbrikləri çatdırmaq istəyirəm. Gələn il bu təbrikləri Ceyhanda davam etdirəcəyimə çox ümid bəsləyirəm. Çox sağ olun.

Qazaxıstan Respublikasının Azərbaycandakı səfiri Andar Şukputov mərasimdə çıxış etdi.

**Qazaxıstanın Azərbaycandakı səfiri Andar Şukputovun çıxışı**

- Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

İcazə verin, sizi bu əlamətdar gün münasibətilə təbrik edim. İştirak etdiyimiz bu hadisə nəinki, sadəcə, layihənin həyata keçirilməsində növbəti addım olduğunu göstərir, həm də onun həyatiliyinə və perspektivliliyinə sübutdur. Bu hadisə Azərbaycan iqtisadiyyatını keyfiyyətcə yeni səviyyəyə çıxarmalı olan öncül istiqamətlərin müəyyənləşdirilməsində Prezident Heydər Əlirza oğlu Əliyevin uzaqgörənliyini də bir daha təsdiqləyir. Bu layihənin real şəkil alması üçün vaxtilə onun nə qədər səy göstərdiyini biz hamımız yaxşı bilirik. Ona görə də indi, bu mərasimdə dərk etmək xoşdur ki, hamımızın hörmət bəslədiyi Heydər Əlirza oğlunun bütün işlərinin, o cümlədən də bu strateji layihənin layiqli və nüfuzlu davamçısı var.

Azərbaycan kimi, Qazaxıstan da zəngin karbohidrogen ehtiyatlarına malik ölkədir. Qazaxıstanda təsdiq edilmiş karbohidrogen ehtiyatları təxminən 4 milyard ton neftdən və 2 trilyon kubmetr qazdan ibarətdir. Neft hasilatının həcmi də artır. Əgər 2002-ci ildə 47 milyon ton neft və kondensat hasil edilmişdisə, ötən il bu göstərici 50 milyon tondan artıq olmuşdur. Qazaxıstanın bu sahədə əsas strateji vəzifələri Xəzər dənizindəki



sektorundan istifadə edilməsinə dair dövlət proqramında öz əksini tapmışdır. Proqramın yerinə yetirilməsi hasilatın həcmini 2010-cu ilədək 100 milyon tona çatdırmağa, 2015-ci ilədək isə 150 milyon ton səviyyəsinə çıxmağa imkan verəcəkdir.

Bir neçə qardaş dövlətin iştirak etdiyi və bu gün bir daha yəqin etdiyimiz kimi, beynəlxalq maliyyə təşkilatlarının və mötəbər bankların dəstəklədikləri Bakı-Tbilisi-Ceyhan kimi belə böyük layihə ölkəmiz üçün də maraq doğurmaya bilməz. Odur ki, bu layihənin iştirakçılarının hər hansı uğurları, nailiyyətləri respublikamız üçün mücərrəd bir şey deyildir. Biz bu qələbə münasibətilə sizin sevincinizə şərik çıxırıq. Hələ 1999-cu ilin noyabrında Azərbaycan, Gürcüstan və Türkiyə ilə birlikdə Qazaxıstan bu layihənin dəstəklənməsi haqqında İstanbul bəyannaməsini imzalamışdır. Bakı-Tbilisi-Ceyhan sistemi ilə neft tranziti çərçivəsində əməkdaşlıq xəttinin davam etdirilməsinə sadiqliyimizi bu yaxınlarda Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev təsdiqləmişdir.

Belə bir faktı da nəzərdən qaçırmaq olmaz ki, bu konsorsiumun səhmdarları sırasına Xəzər şelfinin Qazaxıstan sektorunda işləyən və səhmlərin üst-üstə 15 faizinə malik olan bir neçə şirkət də daxildir.

Bundan əlavə, hazırda həmin sahədə əməkdaşlığın perspektivləri Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan sistemi ilə nəqli üçün müvafiq hüquqi məkan və texniki şərtlər hazırlanması məqsədi ilə aparılan danışıqlar prosesində öz ifadəsini tapır. Biz bu məsələyə dair danışıqların tezliklə və uğurla başa çatdırılacağına əminik. Bu isə əməkdaşlığımız üçün yeni üfüqlər açacaqdır. Xəzər neftinin dünya bazarına çıxarılmasının

strateji əhəmiyyətini qeyd etməklə yanaşı, diqqəti onun sosial mahiyyətinə də yönəltmək istərdim. Burada ərazisindən boru kəmərinin keçdiyi ölkələrin inkişafına təsir göstərə biləcək müsbət məqamlar nəzərdə tutulur. Neft kəmərinin tikintisi layihəsini maliyyələşdirmək prosesinin başa çatdırılması da bu yüksək məqsədin həyata keçirilməsində çox mühüm məqam, dönüş məqamıdır.

Bu layihənin iştirakçıları indiyədək çox iş görmüşlər, lakin hələ çox işlər də görülməlidir. Buna baxmayaraq, qarşıya qoyulmuş vəzifələrin sürətlə, ruh yüksəkliyi ilə həyata keçirilməsi nəzərdə tutulan bütün işlərin keyfiyyətlə və vaxtında başa çatdırılması əzmindən xəbər verir.

Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

Sonra ABƏŞ-in prezidenti Devid Vudvord çıxış etdi.

**Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Devid Vudvordun çıxışı**

- Zati-aliləri cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu tədbirə xoş gəlmisiniz. Bu gün "bp" və bizim Bakı-Tbilisi-Ceyhan Boru Kəməri Şirkətindəki tərəfdaşlarımız - ARDNŞ, "Yunokal", "Statoyl", TPAO, "Eni", "Total", "İtoçu", "İnpeks", "KonokoFilips" və "Amerada Hess" adından burada olmaq mənə böyük məmnunluq verir.

Bu gün BTC layihəsinin tarixində mühüm bir gündür. Biz bura BTC layihəsi üçün bütün 3-cü tərəf maliyyələşməsini əhatə edən sazişlərin yekunlaşdırılmasını qeyd etmək üçün toplaşmışıq.

Mən əvvəllər də BTC üçün maliyyələşmə razılaşmaları barədə danışmışam. Layihənin əsaslı xərcləri 2,95 milyard dollardır və ya boru kəmərini dolduracaq neftin qiyməti, tikinti dövründə kreditlərin faizləri və maliyyələşmə xərcləri də daxil olmaqla 3,6 milyard dollardır. Bu məbləğin təxminən 70 faizi və ya 2,6 milyard dolları borc şəklində götürülür ki, onun da 1,6 milyard dolları üçüncü tərəflərdən kənar maliyyələşmə formasında təmin olunur. Bunların hamısı beynəlxalq səviyyədə tanınmış bank və ya beynəlxalq maliyyə institutlarıdır. Qalan bir milyard dollar isə layihənin iştirakçısı olan bəzi neft şirkətləri tərəfindən təmin olunur.

BTC kreditorlar qrupu bunlardan ibarətdir:

Birinci, Dünya Bankı qrupunun özəl sektora sərmayə qoyuluşu üzrə bölməsi olan Beynəlxalq Maliyyə Korporasiyası (BMK) və Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) kimi beynəlxalq maliyyə institutları.

İkinci, maliyyə və sığorta təmin edilməklə malların və xidmətlərin ixracını dəstəkləyən ixrac əməliyyat-



larının kreditləşdirilməsi üzrə səkkiz agentlik. Bu qrupda təklikdə götürülmüş ən böyük kənar borc - 480 milyon dollar Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankından (JBİC) gəlir. Digərləri Böyük Britaniyadan İxrac Kreditlərinin Təminatı Departamenti (ECGD), Amerika Birləşmiş Ştatlarından İxrac-İdxal Bankı və OPİC, Yaponiyadan NEXİ, Fransadan COFACE, Almaniyadan "Hermes" və İtaliyadan SACE-dir.

Üçüncü, 15 kommersiya bankından ibarət sindikat bir milyard dollarlıq kredit təmin edir.

Nəhayət, dörd şirkət - "bp", "Statoyl", "Total" və "KonokoFilips" layihə üçün kreditlər təmin edir.

Biz çox çətin iş qrafiki çərçivəsində razılaşmaları uğurla başa çatdıran bu qrupun hər bir üzvünə təbriklərimizi və təşəkkürlərimizi bildiririk.

Bu, Azərbaycan hökumətinin və onun tərəfdaşı olan neft şirkətlərinin BTC layihəsində qoyduğu maliyyədən əldə edəcəkləri gəliri artırmağa xidmət etməklə, indiyədək razılaşdırılmış ən böyük və ən mürəkkəb layihə maliyyələşdirmə paketlərindən biridir.

Bəziləriniz deyə bilərsiniz ki, bu, ilk boru hissəsinin çəkilməsi və ya ilk nasos stansiyasının başa çatdırılması qədər əlamətdar hadisə deyil. Həqiqətən də, ola bilər ki, bizim bu gün qeyd etdiyimiz hadisə fiziki baxımdan gözlegörünən olmasa da, BTC layihəsinin irəliləməsi üçün fundamental əhəmiyyət daşıyır.

Aydındır ki, bu institutlar tərəfindən təmin edilmiş maliyyə layihəyə birbaşa töhfə kimi əhəmiyyətlidir. Bu, həmçinin ona görə də əhəmiyyətlidir ki, həmin institutların və onların müvafiq hökumətlərinin "bp"-nin və bizim tərəfdaşlarımızın BTC boru kəmərini ən yüksək



beynəlxalq standartlara uyğun tikmək və istismar etmək qabiliyyətimizə inamını vurğulayır. BMK, AYİB və ixrac əməliyyatlarının kreditləşdirilməsi agentliklərinin iştirakı layihədə şəffaflığı artırır və onlara layihənin həyata keçirilməsinə müsbət təsir göstərmək imkanı verir.

Layihənin maliyyələşmə sazişləri ətraf mühitə və sosial sahəyə təsirin iki ildən artıq dövrünün diqqətlə araşdırılması, eləcə də ictimaiyyətlə hərtərəfli məsləhətləşmə prosesinin nəticəsində əldə edilmişdir. Kommersiya faizləri ilə verilən borclar layihənin öz ciddi ictimai öhdəliklərini yerinə yetirməsini davam etdirməsi şərti ilə verilir ki, bu da "bp", tranzit əraziyə malik ölkə hökumətləri və ictimaiyyət tərəfindən aparılan monitorinqə əlavə olaraq borc verən təşkilatlar tərəfindən müntəzəm keçiriləcək rəsmi auditlə yoxlanacaqdır.

Layihəyə gəldikdə, tikinti işləri hər üç ölkə boyunca 17 tikinti sahəsində aparılan işlərdə mühüm irəliləyiş əldə etmişdir. Bütövlükdə layihənin 50 faizdən çoxu artıq tamamlanmış, ümumi uzunluğu 1760 kilometr olan boru kəmərinin təxminən 780 kilometrində tikinti dəhlizi təmizlənmiş və 540 kilometr uzunluğunda boru qaynaqlanmışdır. Söylənilən şayiələrə və fərziyələrə baxmayaraq, boru kəməri ilk nefti 2005-ci ilin əvvəllərində qəbul etmək cədvəlinə uyğun davam edir.

Mən bunu da məmnunluqla qeyd etmək istərdim ki, Azərbaycanın bütövlükdə enerji strategiyasının ayrılmaz bir hissəsi olaraq BTC-ni tamamlayacaq layihələr də cədvəl üzrə irəliləyir.

"Azəri", "Çıraq", dərinlikdə yerləşən "Günəşli" yataqlarının tammiqyaslı işlənmə layihəsinin birinci fazası üzrə işlərin 80 faizdən çoxu artıq tamamlanmışdır və layihə 2005-ci ilin əvvəlində ilk neft hasilatına nail olmaq məqsədinə doğru irəliləyir. "Mərkəzi Azəri" platformasının dayaq bloku qarşıdakı bir-iki ay içində quraşdırılacaq. Üst modullar üzrə iş yaxşı irəliləyir, 30 düymlük sualtı neft boru kəməri başa çatdırılmışdır, eləcə də Səngəçal terminalının genişləndirilməsi cədvəl üzrə gedir. Beləliklə, BTC-ni dolduracaq və borcların ödənməsinə başlamağa imkan verəcək neft artıq yoldadır.

"Şahdəniz" layihəsi təxminən bir il bundan əvvəl sanksiya veriləndən bəri yaxşı irəliləmişdir. Bu layihə qazı Şərq-Qərb enerji dəhlizində BTC ilə yan-yana çəkiləcək Cənubi Qafqaz boru kəməri ilə ixrac edəcək. Layihə qazı 2006-cı ilin üçüncü rübünədək Azərbaycan, Gürcüstan və Türkiyə bazarlarına çatdırmaq üçün cədvəl üzrə irəliləyir.

Lakin biz yalnız bütün maraqlı tərəflərin fəal dəstəyi, iştirakı və əməkdaşlığı sayəsində irəliləməkdə davam edə bilərik.

Bu gün bizim nəzərlərimiz bu mühüm addımın atılmasına nail olmaqda maliyyə institutlarının əhəmiyyətli töhfəsini qeyd etməyə yönələrkən, mən mərhum Prezident Heydər Əliyevin xidmətini xüsusi ehtiramla yad etmək istərdim. Çünki bu layihəni yerinə yetirərkən biz məhz onun arzularını həyata keçiririk. Mən həmçinin bizi bu mühüm günə çatdıran dəstəklərinə görə və bu dəstəyi gələcəkdə də davam etdirmək öhdəliklərinə görə Prezident İlham Əliyevin, Gürcüstan Prezidenti Saakaşvilinin və Türkiyə Prezidenti Sezərin də xidmətlərini qeyd etmək istərdim.

Mən həmçinin digər maraqlı tərəflərin - ABŞ-ın və Avropa hökumətlərinin, yerli ictimaiyyətin, Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarının, dövlət tərəfdaşlarımız olan ARDNŞ və Gürcüstan Beynəlxalq Neft Korporasiyasının, əsas podratçılarımız olan "CCİC", "Spi Kapaq Petrofak", "Botaş" şirkətlərinin, onların çoxsaylı subpodratçılarının və əlbəttə, bu layihədəki tərəfdaşlarımızın mühüm töhfələrini qeyd etmək istərdim.

Biz bütün maraqlı tərəflərlə, xüsusilə yerli ictimaiyyətlə öz əlaqələrimizi qurmaq üçün gərgin işləmişik. Biz öz fəaliyyətimizin artıq Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarının həyatında real dəyişikliklər yaratmağa başladığını görürük. BTC-nin ictimai sərmayə proqramı başlanmışdır, hər üç ölkədə həyata keçirilir və əhatə etdiyi çoxsaylı icmalar tərəfindən çox yaxşı qəbul edilir. BTC və Cənubi Qafqaz boru kəməri (CQBK) layihələrinin üç ildən artıq tikinti müddətində biz öz obyektlərimizin yaxınlığındakı yaşayış məntəqələrinə və ətraf mühitə birbaşa mənfəətlər gətirmək üçün təxminən 40 milyon dollar vəsait xərcləməyi nəzərdə tuturuq və biz indi bu proqramların istismar mərhələsini də necə əhatə etməsi məsələlərinə baxırıq.

Hazırda "bp" ilə 500-dən artıq yerli şirkət işləyir. 2003-cü ildə ümumi xərclərimizin təxminən 30 faizi - bir milyard dollardan artıq vəsait Azərbaycanda xərclənmişdir və biz bunu 2004-cü ildə daha da artırmağı nəzərdə tuturuq ki, yerli insanlar üçün iş yerləri və biznes imkanları yaransın. Bu nailiyyətlərin qazanılmasında bizim Biznes Mərkəzi əhəmiyyətli rol oynamışdır.

Biz məmnunuq ki, gördüyümüz hər bir işi ən yüksək beynəlxalq standartlara, "bp"-nin əsas siyasətlərinə və "Tranzit əraziyə malik ölkə hökumətləri ilə sazişlər"dən irəli gələn vəzifələrə uyğun yerinə yetirmək öhdəliyimiz bu gün beynəlxalq maliyyə institutları, ixrac əməliyyatlarının kreditləşdirilməsi agentlikləri və banklar tərəfindən real şəkildə etiraf olunmuşdur.

Zati-aliləri cənab Prezident,

Hörmətli qonaqlar,

Xanımlar və cənablar.

Biz indiyədək bu layihədə bütün maraqlı tərəflərdən son dərəcə böyük dəstək almışıq. Mənim böyük inamım

var ki, bu mühüm gündən BTC layihəsini həyata keçirməyə və Azərbaycan, Gürcüstan və Türkiyə xalqları üçün onun çoxlu mənfəətlərini gerçəkləşdirməyə doğru irəli gedərkən sizin fəal və əməli köməyinizi almaqda davam edə biləcəyik. Sağ olun.

Çıxış üçün Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankının baş icraçı direktoru Yamada Takayukiyə söz verildi.

**Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankının baş icraçı direktoru Yamada Takayukinin çıxışı**

- Zati-aliləri Prezident Əliyev!

Xanımlar və cənablar!

Mənə imkan verilib ki, bu gün belə əlamətdar bir tədbirdə iştirak edim və sizin qonaqpərvərliyinizdən məmnun olum. Çox şadam ki, belə tədbirdə və bayramda iştirak edirəm. BTC layihəsinin maliyyələşdirilməsi və müvafiq sənədin imzalanması mərasimi sübut edir ki, Prezident Heydər Əliyev çox müdrik siyasət yeritmiş, bu layihəni seçmiş və həyata keçirilməsində böyük xidmətlər göstərmişdir.

Gürcüstanın yeni Prezidenti cənab Saakaşvili "Faynenşl Tayms" qəzetindəki çıxışında Qədim İpək yolunun bərpa olunmasını Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsi ilə əlaqələndirmişdir və bu yolla malların və xidmətlərin Xəzər hövzəsindən dünyanın digər ölkələrinə çatdırılması imkanlarını vurğulamışdır. Yaponiya Şərqdə İpək yolunun son məntəqəsidir. Ona görə də biz bu layihəyə çox böyük maraq göstəririk.

Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankı Bakı-Tbilisi-Ceyhan layihəsi ilə bağlı müraciəti iki il bundan əvvəl qəbul etmişdir. Bu layihə çox cəlbedici və perspektivlidir. Lakin bu layihənin maliyyələşdirilməsinə inanmayanlar da olmuşdur. Çünki layihənin miqyası çox böyük idi.

BTC layihəsinin nümayəndələri ilə birlikdə sponsorlar, kredit ayıranlar, hər kəs burada böyük iftixar və məmnunluq hissi keçirir. layihə üçün maliyyə təminatı vaxtında yaradılacaqdır. Layihənin iştirakçıları bu gün bir-birlərini gülər üzlə salamlayırlar. Mən çox nadir hallarda öz işçilərimi gülər üzlə qarşılayıram. Bu gün mən də burada sponsorlardan biri kimi Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsini qəlbimdə sevinc hissi ilə qəbul edirəm.

Xanımlar və cənablar! 1760 kilometrlik belə bir kəmərin tikintisi, əlbəttə, böyük vaxt tələb edir. Bu isə tikintini maliyyələşdirən sərmayədarlara müəyyən mənada imkanlar yaradır. Xam neftin belə uzun kəmərlə nəql edilməsi sponsorlar üçün çox vacib məsələdir. Kredit ayıranlar razılaşıblar ki, layihə vaxtında həyata keçiriləcək, öz bəhrəsini verəcəkdir. Çünki onlar nikbindirlər, elə buna görə də sevinc hissi keçirirlər.



Bu gün biz burada sənədlərin imzalanması mərasimində iştirak etdik və həmin sənədlərə imza atan hər kəs kəmərin hər bir hissəsinin tikintisini öz imzası ilə təsdiqlədi. Sənədə çoxsaylı imzalar atıldı. Burada 11 sponsor, maliyyə qurumları, banklar və digər maliyyə təsisatları, 15 kommersiya bankı iştirak edir. Bu neft kəmərinin tikintisi başa çatdıqdan sonra üç ölkə öz aralarında hökumətlərarası müqavilə imzalayaraq, regionda siyasi və iqtisadi sabitliyin təmin edilməsinin əsasını qoyacaqdır. Mən buna əminəm. Elə buna görə mən Azərbaycan, Gürcüstan, Türkiyə hökumətlərinə öz təşəkkürümü bildirmək istəyirəm. Bu layihədə Prezident Heydər Əliyevin xüsusi əməyi olmuşdur. Ümid edirəm ki, hökumətlərarası müqavilə imkan verəcəkdir ki, maliyyə təminatçıları bu layihəni vaxtında yerinə yetirə bilsinlər, neft kəməri tikildikdən sonra onun vasitəsilə beynəlxalq bazarlara neft daşına bilsin.

Mən, eyni zamanda, bütün sponsorlara və kredit ayıran təşkilatlara öz təşəkkürümü bildirirəm. Çünki onlar bu layihəyə çox böyük dəstək göstərmişlər. Əlbəttə, bilirəm ki, bunun üçün uzun-uzadı müzakirələr aparılıbdır. Bu layihədə iştirak edənlər müxtəlif sənədləri nəzərdən keçiriblər və belə bir qərar qəbul ediblər.

Mən son nəticənin əldə edilməsində əməyi olan bütün iştirakçılara öz dərin təşəkkürümü bildirirəm. Bakı-Tbilisi-Ceyhan layihəsinin bir il müddətində başa çatdırılacağı gözlənilir. Bundan sonra xam neft Xəzər hövzəsindən, yəni Bakıdan Tbilisi vasitəsilə Ceyhana və oradan Aralıq dənizi sahilinə, buradan isə dünyanın digər ölkələrinə daşınacaqdır.



Mən əminəm ki, belə nəhəng ixrac kəmərinin tikilməsi və onun sabit olaraq işə düşməsi hər üç ölkədə yeni biznes imkanlarının yaradılmasına imkan verəcəkdir. Kəmərin tikintisinin maliyyələşdirilməsi isə digər maliyyə qurumlarının diqqətini layihəyə cəlb edəcəkdir.

Xanımlar və cənablar, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin layihəsi bizə çox şeyi öyrənməyə imkan verir. Məsələn, biz öz fikrimizi bir-birimizə çatdırmağı, uzun-uzadı müzakirələr aparmağı öyrənirik. Burada birgə əməkdaşlıq mühiti hökm sürür. Bu, onu göstərir ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri uzaq yerlərdə yaşayan insanları da birləşdirir, bir araya toplayır. Yəni Xəzər bölgəsi ilə Aralıq dənizi hövzəsi ölkələrinin insanlarını yaxınlaşdırır. Hesab edirəm ki, belə uzun neft kəmərinin tikintisi yaxşı səmərə verəcəkdir. İndiyə qədər aparılmış danışıqlar əbəs deyildir. Mən fikrimi yekunlaşdıraraq demək istəyirəm ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri gələcəkdə uğur qazanacaqdır.

Mən sizə bir daha öz təşəkkürümü bildirirəm. Yeni, XXI əsrin neft kəməri bizim hamımızı birləşdirəcəkdir. Təşəkkür edirəm.

Sonra AYİB-in birinci vitse-prezidenti xanım Norin Doyla söz verildi.

**Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti Norin Doylun çıxışı**

- Zati-aliləri hörmətli cənab Prezident!

Hörmətli həmkarlar, dostlar!

Son bir neçə ildə bizdən çox böyük qüvvə və enerji tələb etmiş bu sənədin imzalanması mərasimində bu gün bütün tərəfdaşlarımızla birlikdə iştirak etməyimə şadam. İşlər uzun müddət getsə də, hər şey məhz bu gün başlanır.

BTC boru kəməri və "Azəri", "Çıraq", "Günəşli" neft yataqları Avropa üçün yeni və mühüm enerji daşıyıcıları mənbələrindən biri olmalıdır. Elə bir mənbə ki, sabitliyi təmin edə bilər və artıq bu gün çox iri sənaye tikintisi layihəsidir. Layihənin sponsorları maliyyə ehtiyatları barədə xahişlə AYİB-ə müraciət etdikdə, biz bu kompleks layihəni regionun əhalisinə real ümid vermək imkanı kimi qiymətləndirdik.

Boru kəməri ən yüksək standartlar əsasında çəkilərsə və istifadə edilərsə, o, AYİB üçün ərazilərindən keçəcəyi regionun üç ölkəsində iqtisadi inkişafı təmin etmək imkanı deməkdir. Hesab etdiyimiz kimi, AYİB özünün bu regionda 12 illik iş təcrübəsi sayəsində layihənin səmərəliliyini məhz bu baxımdan gücləndirə bilər. Əməliyyatın planlaşdırılmasının bu uzun prosesi ərzində AYİB Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarının mənafelərinə real surətdə xidmət edə, habelə regionda bazar iqtisadiyyatının təşəkkülünə kömək göstərə biləcək belə bir layihənin yaradılmasında hökumətlərlə, sponsorlarla və bir çox digər mütəxəssislərlə qarşılıqlı surətdə sıx fəaliyyət göstərmişdir.



Bu məqsədə çatmaq üçün biz layihənin qiymətləndirilməsinin üç meyarını işləyib hazırladıq. Bizim Direktorlar Şurasını inandırmalı idik ki, layihə təhlükəsiz olacaq, əhalinin mənafelərinə həqiqətən cavab verəcək və iqtisadi cəhətdən sabit iqtisadi səmərəsi olacaqdır.

İndi, iki il ötəndən və əməkdaşlarımız 10 min adam-saat vaxt sərf etdikdən sonra yəqin etmişik ki, BTC layihəsi bütün bu meyarlara uyğundur. BTC boru kəməri ətraf mühitin mühafizəsinin, istehsalatda sağlamlığın qorunmasının və təhlükəsizlik texnikasının ən son normalarına riayət edilməklə tikilir. O, təhlükəsizliyin maksimum səviyyəsi ilə, ən yeni texnologiyalarla və qəzaların qarşısının alınmasının digər sistemləri ilə səciyyələnir. Bütün bunlar nəzərdə tutulmamış hallar yarandıqda zərərin həcmini azaltmağa imkan verir.

Beynəlxalq Maliyyə Korporasiyası ilə birlikdə AYİB özünün bütün tarixi ərzində ictimaiyyətlə ən genişmiqyaslı məsləhətləşmələr apararaq, bu layihənin məqbulluğu barədə ictimaiyyətin rəyini öyrənmişdir. Biz insanların rəyini öyrənmək üçün hər üç ölkədə ictimaiyyətlə görüşlər keçirdik. Əhalinin bir çox təbəqələrinin, dövlət idarələrinin və elmi dairələrin, çoxsaylı ixtisaslaşdırılmış qrupların və boru kəmərinin çəkildiyi zonada yaşayan əhalinin nümayəndələri ilə fəal dialoqumuz oldu. Bu, bizə inandırıcı sübutlar əldə

etmək imkanı verdi ki, əhali boru kəmərinin tikintisini dəstəkləyir. Belə görüşlərin gedişində bizə saysız-hesabsız suallar verildi və biz onları cavablandırırdıq.

Lakin bu da eyni dərəcədə vacibdir ki, layihə işlərin şəffaf və açıq aparılması mədəniyyəti aşılamağa imkan verir. Layihənin iştirakçıları şirkətlərlə hökumətlər arasında bağlanmış ümdə sazişlərin məzmununu açıqladılar, gələcəkdə isə onların və hökumətlərin götürdükləri gəlirlərin məbləğini dərc edəcəklər ki, bu da öz növbəsində ölkənin xeyrinə olacaqdır.

Biz BTC boru kəmərinin istismarının iqtisadi səmərəliliyinin sabit xarakterini təmin etməyə çalışaraq, daha irəli getməyi və layihənin özünün regiona cəlb etdiyi sərmayələrin çox böyük həcmini artırmağı lazım bildik.

Boru kəmərinin tikintisi ilə bağlı iş yerləri ləğv olunduqdan sonra yeni iş yerləri yaradılması prosesini uzunmüddətli perspektivdə maliyyələşdirmək üçün AYİB "bp" şirkəti ilə birlikdə ayrıca vəsait fondu təşkil etmişdir. "Regional inkişaf" təşəbbüsü davamlı iqtisadi inkişafın təmin olunması naminə düşünülmüşdür və maliyyələşdirilir.

Bu təşəbbüs aşağı səviyyədə bir sıra tədbirlərin həyata keçirilməsinin, yeni kiçik müəssisələrə kredit və qrantlar verilməsinin, kadr hazırlığı proqramlarının yerinə yetirilməsinin və infrastruktur yaradılmasının köməyi ilə özəl sektorun möhkəmlənməsini stimullaşdıracaqdır. AYİB və "bp" bu təşəbbüsə əvvəlcədən planlaşdırılmış 100 milyon dolların 50 milyonunu ayırmaq barədə razılığa gəlmişlər. Ümidvarıq ki, konsorsium üzrə digər tərəfdaşlarımız da bizi dəstəkləyəcəklər.

Dediyim kimi, bu gün bizim hamımız üçün yeni mərhələ başlayır. Mən bizi bu günə gətirib çıxarmaq üçün əzmlə çalışmış insanların hamısını təbrik edirəm. Sizə bu layihəni uğurla başa çatdırmağı, özü də nəinki başa çatdırmağı, həm də Azərbaycan neftinin Gürcüstan və Türkiyə vasitəsilə dünya bazarına uğurla çıxarılmasını arzulayıram.

Hesab edirik ki, dünyada ən yüksək standartlar səviyyəsində olan və hətta onları üstələyən bu layihə regionun iqtisadi potensialını aşkara çıxarmağa imkan verəcəkdir. Biz regionun potensialından real surətdə istifadə edilməsinə tərəfdarıq.

Sonra Beynəlxalq Maliyyə Korporasiyası direktorunun müavini Şahbaz Mavadata söz verildi.

**Beynəlxalq Maliyyə Korporasiyası direktorunun müavini Şahbaz Mavadatın çıxışı**

- Cənab Prezident!

Xanımlar və cənablar, hər vaxtınız xeyir olsun!

Beynəlxalq Maliyyə Korporasiyası və Dünya Bankı



qrupu adından mən Azərbaycan xalqını, Gürcüstan və Türkiyə xalqlarını layihənin belə bir mühüm mərhələsinin baş tutması münasibətilə böyük məmnuniyyətlə təbrik edirəm. Dünya miqyasında çox az layihə vardır ki, bu qədər böyük ümidlər yaratmış olsun. Bu layihə tarixi əhəmiyyət kəsb edir. Bakı-Tbilisi-Ceyhan kəməri Xəzər bölgəsi ilə Aralıq dənizi bölgəsi arasında əməkdaşlığın inkişaf etdirilməsinə töhfə olacaqdır. Bugünkü hadisə böyük əhəmiyyət kəsb edir. Çünki bu mərasimdə Avropa Yenidənqurma və İnkişaf Bankı, bizim korporasiya və digər qurumlar tərəfindən layihənin maliyyələşdirilməsi təsdiqlənir. Ancaq bu mərasimin əhəmiyyəti həm də bir sıra insanların ümidləri ilə bağlıdır. Bu mərasim, eyni zamanda, layihənin uğurla həyata keçirilməsi, yüksək ekoloji və digər standartların təmin olunması üçün hökumətlərin, neft şirkətlərinin üzərinə öhdəliklər qoyur. Bu mərasim ona dəlalət edir ki, son 10 ildə biz, həqiqətən, bir çox şeyə nail olmuşuq. Bu, həyata keçirilmiş işlərə də aiddir. Eyni zamanda, korporativ əməkdaşlıq, idarəetmə və kreditləşmə sahəsində ilk yardım göstərmişik, hər üç ölkəyə yardım strategiyasının hazırlanmasında iştirak etmişik.

Mən Azərbaycanda xüsusi bir mərkəzin açılması ilə əlaqədar söz demək istərdim. Bu mərkəz bir sıra qeyri-hökumət təşkilatlarında və kiçik müəssisələrdə öz təlimlərini və xidmətlərini təşkil edir. Məncə, bu, dünya miqyasında digər layihələrdə də tətbiq edilə bilər.

Zənnimcə, birgə görəcəyimiz işlər hələ çoxdur. Bu mərasim yalnız başlanğıc mərhələsidir. Əlbəttə, layihənin böyük iqtisadi səmərə verəcəyi gözlənilir. Bu, o deməkdir ki, bizim üzərimizə birgə işləmək məsuliyyəti düşür. Bu layihənin verəcəyi gəlirdən, ilk



növbədə, yoxsulluğun azaldılması və iqtisadi inkişafın təmin edilməsi məqsədi ilə istifadə edilə bilər.

Cənab Prezident!

Xanımlar və cənablar! Mən bu regiona gələndə müşahidə etdim ki, buradakı insanlar son dərəcə səmimi və ürəyiaçıqdırlar. Burada deyilən təkliflərə mən də qoşulmaq istərdim. Ümid edirəm ki, bu layihə çərçivəsində yaranacaq imkanlar hər üç ölkənin xalqlarına uğur və müvəffəqiyyət gətirəcəkdir.

Çox sağ olun.

Mərasim zamanı Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin memarı, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin fəaliyyətindən, onun rəhbərliyi altında həyata keçirilən neft strategiyasından bəhs edən videofilm göstərildi.

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevin çıxışı**

- Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Bu gün Azərbaycanın paytaxtı Bakı şəhərində mühüm hadisə baş verir. On ildən artıqdır ki, ümummilli liderimiz Azərbaycan Respublikasının Prezidenti, əziz və unudulmaz Heydər Əliyevin apardığı uğurlu siyasət nəticəsində müstəqil dövlətimiz sürətlə inkişaf edir. Heydər Əliyevin xalqımız qarşısında saysız-hesabsız xidmətlərindən biri də müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyasının hazırlanması və onun böyük uğurla həyata keçirilməsidir. İnkaredilməz həqiqətdir ki, 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması Heydər Əliyevin gərgin əməyi və cəsarətli siyasi addımları nəticəsində mümkün olmuşdur.

Tarixi baxımdan ən qısa zaman ərzində Azərbaycanın və Xəzər dənizinin neft və qaz sərvətlərini dünya bazarına çıxarmaq məqsədi ilə 22 beynəlxalq neft sazişi imzalanmışdır. Bu günədək "Çıraq-1" platformasından 31 milyon tondan artıq neft çıxarılıb, "Azəri", "Çıraq", "Günəşli" yataqlarının tammiqyaslı işlənməsi üçün böyük işlər görülür. Bu ilin axırında "Azəri" yatağının mərkəzi hissəsindən ilk neft hasil olunacaqdır. "Mərkəzi Azəri" platforması 48 quyu ağzına malik olacaq və gündəlik 400 min barrel xam nefti texniki emal etməyə qadir olacaqdır. Hazırda dayaq bloku, payalar və dayaq tavası Azərbaycanda quraşdırılıb. Qazma qurğuları Fransa, Polşa və Norveçdə inşa edilib və Bakıya gətirilib. Birləşdirilmiş qazma, yaşayış bloku və hasilat platforması Azərbaycanda yığılıb quraşdırılır. "Mərkəzi Azəri" platformasından ilk neft hasilatı ilə əlaqədar 187 kilometr uzunluğunda sualtı 30 düymlük neft kəməri sahilədək yüz faiz inşa olunub, 28 düymlük qaz kəmərinin tikilməsinin tam başa çatması isə bu ilin



birinci rübünün axırında gözlənilir. Bakı dərin özüllər zavodunda "Azəri" platformasının üst modullarının tikilməsi 70 faiz həcmində yerinə yetirilib və bu ilin iyul ayında onların dayaq blokuna quraşdırılması başa çatacaq. "Azəri" yatağının işlənilməsi Qərb və Şərq platformalarının inşası ilə tamamlanacaqdır. İlk neftin "Mərkəzi Azəri"dən 2004-cü ilin 4-cü rübündə, "Qərbi Azəri"dən 2006-cı ilin 2-ci rübündə, "Şərqi Azəri"dən isə 2007-ci ilin 2-ci rübündə hasil ediləcəyi gözlənilir.

Səngəçalda inşa edilmiş terminal dünyada bu qəbildən olan ən böyük terminallardan biri olacaq. Bu terminalın genişləndirilməsi ilə bağlı inşaat işləri 2002-ci ilin yanvar ayında başlanmışdır və bunlar başa çatdıqdan sonra terminal 540 hektar sahəni tutacaq, gün ərzində burada 1,2 milyon barrel xam neftin saxlanılmasına və texniki emal olunmasına imkan yaranacaqdır. Hazırda nəzərdə tutulmuş işlər 80 faiz yerinə yetirilib və bu ilin üçüncü rübündə terminal istifadəyə hazır olacaqdır.

Yeni neft strategiyasının ən mühüm tərkib hissələrindən biri Bakı-Tbilisi-Ceyhan ixrac boru kəmərinin çəkilişi ideyasının meydana qoyulması və onun reallığa çevrilməsidir. Bu layihə Şərq-Qərb enerji dəhlizinin əsasını təşkil edir və XXI əsrdə Azərbaycanda həyata keçirilən ən böyük layihələrdən biridir.

Bu layihənin də baş memarı, onun bünövrəsini qoyan, həyata keçirilməsinə şəxsən rəhbərlik edən Heydər Əliyev olmuşdur. Əsas ixrac neft kəməri marşrutunun seçilməsi, onun idarə edilməsi üzrə müvafiq şirkətin yaradılması barədə təkliflər hazırlamaq, sərmayəçilərin, digər əlaqədar təşkilatların iştirakı ilə ortaya çıxan məsələlərin operativ həll edilməsini təmin etmək məqsədi ilə Heydər Əliyevin 1997-ci il 5

sentyabr tarixli sərəncamı ilə dövlət işçi qrupu yaradıldı və bu qrupa Azərbaycan Respublikası adından danışıqların aparılması, neft kəmərinin keçəcəyi ölkələr ilə müqavilələrin hazırlanması səlahiyyəti verildi.

1997-ci ilin noyabr ayında "Çıraq-1" platformasından ilk neftin hasilatı baş verdi və xam neft dünya bazarına Azərbaycanın tarixində ilk dəfə olaraq Bakı-Novorossiysk şimal neft boru kəməri vasitəsilə çatdırıldı. Elə bu zaman Gürcüstanda əsas ixrac neft boru kəmərinin tikilməsinə dair işçi qrupu yaradıldı. 1999-cu ilin aprel ayında Bakı-Supsa neft kəməri istifadəyə verildi və Türkiyədə də Bakı-Ceyhan ixrac boru neft kəmərinin tikilməsi üçün səlahiyyətli işçi qrupu fəaliyyətə başladı.

1998-ci ildə Heydər Əliyev Ankarada Türkiyə və Gürcüstanın Prezidentləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşa edilməsi haqqında ilk bəyannamə imzaladı. Aparılan tədqiqatlar və danışıqlar 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul zirvə görüşü zamanı Azərbaycan, Gürcüstan, Türkiyə Prezidentləri tərəfindən xam neftin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair hökumətlərarası sazişin imzalanmasına imkan verdi. Heydər Əliyevin gördüyü siyasi, diplomatik tədbirlər və səylər nəticəsində Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə Azərbaycan, Qazaxıstan, Gürcüstan və Türkiyə Prezidentləri tərəfindən bu layihənin dəstəklənməsi haqqında və qısa müddət ərzində həyata keçirilməsinə yönəlmiş İstanbul bəyannaməsinin imzalanmasına nail olundu.

Bununla əlaqədar, Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyev "Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisi və istismara verilməsi tədbirləri haqqında" 29 dekabr 1999-cu il tarixli sərəncam imzalamış və layihənin həyata keçirilməsi üzrə komissiya təşkil etməyi qərara almışdır. Yaranmış komissiyaya danışıqların aparılmasına, müvafiq tədbirlərin icrasına aid səlahiyyətlər verilmişdir. Eyni zamanda, komissiyaya tapşırılmışdır ki, əsas ixrac boru kəmərində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsini təşkil etmək üçün müəyyən olunmuş qaydada beynəlxalq səviyyədə tanınmış qurumlardan maliyyə məsləhətçisini seçib təyin etsin.

Bu sazişlərin və sərəncamların Heydər Əliyev tərəfindən imzalanması 2000-ci ilin oktyabr ayında BTC layihəsinin sponsorlar qrupunun yaradılmasına, ilkin mühəndislik və ətraflı mühəndislik işlərinin aparılmasına imkan verdi və BTC layihəsinin texniki, iqtisadi, kommersiya, maliyyə cəhətdən ən əlverişli və səmərəli olduğu təsdiqləndi.

2002-ci il avqustun 1-də London şəhərində Heydər Əliyevin xeyir-duası ilə kəmərin tikilməsi və gələcəkdə onu istismar etmək üçün "BTC Kompani" şirkəti təsis olundu. Həmin il sentyabrın 18-də isə üç ölkənin Prezidentləri və ABŞ-ın energetika naziri cənab Spenser Abrahamın iştirakı ilə Səngəçal terminalında Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin təməli qoyuldu və tikintisinə start verildi.

Bakı-Tbilisi-Ceyhan neft kəməri dünyada analoqu olmayan mühəndis qurğusudur. Ümumi uzunluğu 1762 kilometr olan kəmərin 443 kilometri Azərbaycan, 249 kilometri Gürcüstan, 1070 kilometri isə Türkiyədən keçəcəkdir. Layihədə boru çəkilişi ilə yanaşı, Səngəçal terminalının genişləndirilməsi, Ceyhan limanında müasir standartlara cavab verən yeni nəhəng terminalın inşası, 8 nasos stansiyasının tikilməsi nəzərdə tutulur. İldə 50 milyon ton, sutkada isə bir milyon barrel xam neft ötürmək qabiliyyətində olan bu kəmərin ümumi dəyəri 2,95 milyard ABŞ dollarıdır.

Artıq Xəzərdəki karbohidrogen ehtiyatlarının mənimsənilməsində, neft və qaz yataqlarının işlənilməsində və dünya bazarına çıxarılmasında maraqlı olan dövlətlər, bu işlə məşğul olan şirkətlər Bakı-Tbilisi-Ceyhan ixrac boru kəmərinin zəruriliyinə əmin olmuşlar. Hazırda "BTC Kompani" şirkətinin 11 səhmdarı var, onların 4-ü - "Total", "İnpex", "Acip", "KonokoFilips" Xəzər dənizinin şimal-şərq hissəsində neft və qaz əməliyyatları aparır və Qazaxıstanı təmsil edirlər.

Tikinti işləri başlayandan bəri Bakı-Tbilisi-Ceyhan kəmərinin dəhlizi boyunca cəmi 520 kilometr, o cümlədən Azərbaycandan keçən hissəsində təxminən 200 kilometr (ümumi uzunluğun 45 faizi), Gürcüstanda - 100 kilometrə yaxın (40 faiz), Türkiyədə isə 225 kilometr (21 faiz) boru qaynaqlanmışdır. İşlərin aparılması sürətinin artırılması üçün zəruri tədbirlər nəzərdə tutulmuşdur. Hazırda tikinti işlərinə hər gün 4 milyon dollar vəsait xərclənir və bu maliyyələşmə cari il boyunca davam etdiriləcəkdir. Layihə üzrə 2004-cü il yanvarın 1-nə təxminən 1,5 milyard dollar xərclənmiş və 2,95 milyard dollarlıq ümumi büdcənin 2,6 milyard dollarlıq hissəsi sifariş və tədarük edilmişdir.

BTC layihəsi misli görünməmiş məsləhətləşmələrin aparılması ilə səciyyələnmişdir. Layihənin sənədləri və qarşıya çıxan bütün məsələlər tranzit əraziyə malik ölkələrin hökumətləri, yerli hakimiyyət orqanları, yerli və beynəlxalq qeyri-hökumət təşkilatları, yerli və beynəlxalq kütləvi informasiya vasitələri və beynəlxalq ictimaiyyət ilə geniş müzakirə edilmiş, marşrut boyunca 450 kəndin hər birində, 30 min torpaq sahibi və torpaq istifadəçisi ilə məsləhətləşmələr aparılmışdır.

Maliyyə paketinin təsdiqlənməsi 2 ildən artıq dövrü əhatə edən geniş monitorinq, layihələrin ətraf mühitə və sosial sahəyə təsirinin qiymətləndirilməsi, eləcə də ictimaiyyətlə hərtərəfli məsləhətləşmə prosesinin nəticəsində əldə edilmişdir.



BTC boru kəmərinin maliyyələşdirmə planı və prosesi ekspertlər qrupu ("Lazard", "Sallivan Kromvel", "bp", "Statoyl", "Yunokal", ARDNŞ) tərəfindən hazırlanmışdır. Bakı-Tbilisi-Ceyhan boru kəmərinin inşasının maliyyələşdirilməsini təmin etmək məqsədi ilə, boru kəməri konsorsiumuna ("BTC Kompani") daxil olan sponsorlar qrupu layihənin 30 faizini öz vəsaitləri hesabına, 70 faizini isə kreditlər cəlb etmək yolu ilə maliyyələşdirmək barədə qərar qəbul etmişdir.

Beləliklə, layihə üzrə xərclərin 1 milyard ABŞ dollarını iştirakçılar öz vəsaiti, 2,6 milyard ABŞ dollarını isə cəlb ediləcək kreditlər hesabına maliyyələşdirirlər (kreditin 200 milyon ABŞ dolları məbləğində artırılması iştirakçıların əlavə ehtiyat vəsaitinin yaradılması üçün edilir).

Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyə məsələlərinin həllində və bu prosesin başa çatmasında Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Prezident Heydər Əliyevin 30 iyul 2002-ci il tarixli 739 nömrəli və 1 noyabr 2002-ci il tarixli 811 nömrəli fərmanlarına uyğun olaraq, Azərbaycan tərəfinin layihədəki payının maliyyələşdirilməsi məqsədi ilə yeni yaradılmış Azərbaycan Respublikası Dövlət Neft Fondundan vəsait ayrılmışdır. Prezident Heydər Əliyev böyük həcmdə kredit vəsaitlərinin alınmasını təmin etmək məqsədi ilə dünyanın ən nüfuzlu maliyyə qurumlarının rəhbərləri, o cümlədən Dünya Bankının prezidenti cənab Vulfensonla, Beynəlxalq Maliyyə Korporasiyasının icraçı direktoru cənab Uoyke, Avropa Yenidənqurma və İnkişaf Bankının rəhbərləri ilə görüşlər keçirmiş və bir sıra ölkələrin prezidentləri ilə müzakirələr apararaq, ortaya çıxan problemləri həll etmişdir.

18 ay gərgin iş nəticəsində cəmi 208 maliyyə sənədi və sazişlər hazırlanmış və 78 təşkilatın iştirak etdiyi mailyyələşmə və kreditlərin alınması prosesi müvəffəqiyyətlə bu gün başa çatmışdır. Cəlb olunan 2,6 milyard ABŞ dolları kredit vəsaitləri üç qrup kreditorlar - 500 milyon ABŞ dolları Beynəlxalq Maliyyə Korporasiyası və Avropa Yenidənqurma və İnkişaf Bankı, 1 milyard 166 milyon ABŞ dolları 6 ölkəni təmsil edən ixrac kredit agentlikləri, 923 milyon ABŞ dolları isə layihənin sponsorları olan "bp", "Statoyl", "KonokoFilips" və "Total" şirkətləri tərəfindən təqdim olunmuşdur.

Beynəlxalq maliyyə təşkilatlarının və ixrac kredit təşkilatlarının zəmanətləri əsasında bank bazarından 936 milyon ABŞ dolları vəsait cəlb edilmişdir. Bu vəsaitlər dünyanın 8 ölkəsini təmsil edən 15 kommersiya bankından ibarət sindikat tərəfindən təqdim olunmuşdur.

Ötən ilin fevral ayında Heydər Əliyev maliyyə prosesində ləngiməni aradan götürmək məqsədi ilə Vaşinqton şəhərində Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Corc Buş, vitse-prezident cənab Çeyni, energetika naziri cənab Abraham, Beynəlxalq Maliyyə Korporasiyasının vitse-prezidenti cənab Piter Uoyke ilə görüşlər keçirmiş və bir sıra çətin problemlərin həllinə nail olmuşdur. Bununla yanaşı, Heydər Əliyev iş proqramının gərgin olmasına baxmayaraq, həmin zaman Vaşinqtonda "Şərq-Qərb enerji dəhlizi reallıqdır" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak etməyi özünə borc bilmişdir. Heydər Əliyev geniş auditoriya qarşısında dərin məzmunlu və mənalı nitq söylədi və konfransda iştirak edən yüzlərlə nüfuzlu şirkətin və bankın səlahiyyətli nümayəndələrini Bakı-Tbilisi-Ceyhan layihəsinin səmərəliliyinə, onun region, Avropa və dünya üçün böyük fayda gətirəcəyinə, layihənin təhlükəsizliyinin və ətraf mühitin qorunması məsələlərinin lazımi səviyyədə həll edilməsinin zəruriliyinə inandırdı.

Bu gün keçirdiyimiz və iştirak etdiyimiz maliyyələşdirmə haqqında sənədlər paketinin imzalanma mərasimi Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikilməsi salnaməsində çox vacib növbəti addımdır və bu hadisə öz mühüm əhəmiyyətinə görə dünyada, xüsusilə tranzit və qonşu ölkələrdə, neft şirkətləri, beynəlxalq işgüzar və maliyyə qurumlarında böyük maraq və əks-səda doğurmuşdur.

Şərq-Qərb enerji dəhlizi və onun ən mühüm elementlərindən biri olan Bakı-Tbilisi-Ceyhan boru kəməri zamanın tələbidir, dünya iqtisadiyyatının vacib bir hissəsidir, tranzit ölkələrin iqtisadi inkişafının və enerji təhlükəsizliyinin təmin olunmasının ayrılmaz amilidir.

Heydər Əliyev siyasətinin əsl davamçısı kimi, bu layihələrin hazırlanmasına və həyata keçirilməsinə ilk andan bilavasitə rəhbərlik edən, bu gün Azərbaycan Respublikası Prezidenti vəzifəsində xalqına ləyaqətlə xidmət göstərən hörmətli cənab İlham Əliyev bu layihələrin tezliklə gerçəkləşdirilməsi, onların sürətlə həyata keçirilməsi və bunun nəticəsində ölkəmizin iqtisadi inkişafının təmin olunması üçün çox böyük işlər görür, öz gərgin zəhmətini əsirgəmir.

Hörmətli cənab Prezident!

Sizin bir neçə ay öncə Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin tikintisi ilə bağlı çöl şəraitində aparılan işlərlə tanış olmağınız, Bakı dərin dəniz özülləri zavodunda "Mərkəzi Azəri" platformasının dayaq blokunun və üst modullarının, o cümlədən qazma qurğusunun və yaşayış blokunun tikilməsinin gedişini izləməyiniz, yeni istifadəyə verilmiş Heydər Əliyev adına nəhəng yarımdalma üzən qazma qurğusunu və boru örtükləmə zavodunu ziyarət etməyiniz, bu müəssisələrdə çalışan yerli və əcnəbi işçilərlə söhbətiniz hamımızı sevindirmiş və həvəsləndirmişdir. Hörmətli cənab Prezident, icazə verin, bu tədbirdə şəxsən iştirakınıza görə, bütün qonaqlarımız və hamımızın adından Sizə dərin təşəkkürümü bildirim.

Artıq Bakı-Tbilisi-Ceyhan ixrac neft boru kəməri layihəsi arzudan reallığa çevrilmişdir.

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Mən çox şadam ki, Azərbaycanda irihəcmli neft sazişlərində, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft boru kəməri layihəsində iştirak edən və öz qiymətli töhfələrini vermiş Azərbaycan, Gürcüstan, Türkiyə, ABŞ nümayəndələri, bütün xarici şirkətlərin və beynəlxalq maliyyə qurumlarının rəhbərləri bu tədbirlə əlaqədar Bakı şəhərinə toplaşıblar.

Bu fürsətdən istifadə edərək, bildirmək istəyirəm ki, əziz və unudulmaz ümummilli liderimiz, dünyamiqyaslı siyasətçi, müstəqil Azərbaycanın yeni neft strategiyasının yaradıcısı, Bakı-Tbilisi-Ceyhan ixrac neft boru kəmərinin əsl memarı olan Heydər Əliyevin bu layihənin gerçəkləşməsində əvəzsiz xidmətləri olmuşdur. Bakı-Tbilisi-Ceyhan layihəsində iştirak edən bütün tərəflər təşəbbüs göstərərək, Bakı-Tbilisi-Ceyhan ixrac neft boru kəmərinə Heydər Əliyevin adının verilməsini qərara almışlar. Bununla da bu kəmər Azərbaycan, Gürcüstan və Türkiyə arasında əbədi qardaşlıq rəmzinə çevriləcəkdir.

Cənab Prezident, xahiş edirəm bu qərara dəstək verəsiniz.

Diqqətinizə görə minnətdaram.

Maliyyələşdirmə sənədlərinin imzalanması mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyev xarici qonaqlarla xatirə şəkli çəkdirdi.

Azərbaycanın dövlət və hökumət nümayəndələri, xarici ölkələrin Bakıdakı səfirləri və digər rəsmi şəxslər mərasimdə iştirak edirdilər.

İmzalanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev, Dövlət Neft Fondunun icraçı direktoru Samir Şərifov, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Devid Vudvord, Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti xanım Norin Doyl, Bakı-Tbilisi-Ceyhan Boru Kəməri Şirkətinin icraçı direktoru Maykl Taunzend, Beynəlxalq Maliyyə Korporasiyası direktorunun müavini Şahbaz Mavadat, Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankının baş icraçı direktoru Yamada Takayuki mətbuat konfransı keçirdilər. Jurnalistlərə bildirildi ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişinə 2002-ci ilin üçüncü rübündə start verilmiş, 2003-cü ilin əvvəllərində ilk borular Azərbaycana gətirilərək əməli işə











başlanılmışdır. Bu günədək tikinti dəhlizinin təxminən 760 kilometri hazırlanmış, 580 kilometr boru uc-uca düzülmüş, 520 kilometr boru qaynaqlanmışdır. 270 kilometr uzunluğunda xəndək qazılmış, 235 kilometr boru torpağa qoyulmuş və 215 kilometr borunun üstü torpaqlanmışdır. Hər üç ölkədəki 17 tikinti sahəsində inşaat işləri davam edir. Bu layihənin həyata keçirilməsi nəticəsində minlərlə yeni iş yeri yaradılmışdır. Layihənin ictimai sərmayə proqramı hazırlanmış və hər üç ölkədə həyata keçirilir.

Layihənin ümumi dəyəri 2 milyard 950 milyon dollar müəyyən olunmuşdur. Borcun verilməsinə bu ilin mart-aprel aylarından başlanılacaqdır. Borcların qaytarılma faizi gizli saxlanılsa da, borc libor+3,5 faizlə qaytarılacaqdır.

Mətbuat nümayəndələrinə belə bir məlumat da verildi ki, maliyyələşmə üzrə sazişlərin yekunlaşdırılması iki ildən artıq dövrü əhatə edən geniş monitorinq, layihənin ətraf mühitə və sosial sahəyə təsirinin diqqətlə araşdırılması, eləcə də ictimaiyyətlə hərtərəfli məsləhətləşmə prosesi nəticəsində əldə edilmişdir. Borclar layihənin ciddi, ictimai öhdəliklərin yerinə yetirilməsi şərti ilə verilir. Bu, borcverən qurumlar tərəfindən hər il keçiriləcək rəsmi auditlə yoxlanacaqdır.

Çoxtərəfli, ixrac kredit və sığorta agentliklərinin iştirakı layihədə şəffaflığı artırır və onlara layihənin yerinə yetirilməsinə təsir göstərmək, eləcə də layihələrdən irəli gələn inkişaf potensialının gerçəkləşməsini təmin etməyə kömək göstərmək imkanı verir.

Torpaq sahiblərinə və torpaq istifadəçilərinə tikinti mərhələsi ərzində torpaqdan istifadə üçün lazımi kompensasiyalar verilmişdir. Onlar təhlükəsizlik texnikası tələblərinə görə, bəzi məhdudiyyətlər istisna olmaqla, tikintidən sonra öz torpaqlarından istifadə edə biləcəklər.

Daha sonra bildirildi ki, "bp", "Yunokal", "Statoyl" və "Delta Hess" şirkətləri ilə "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənilməsinin birinci fazasını əhatə edən daha bir maliyyələşmə sazişi də razılaşdırılmışdır. Beynəlxalq Maliyyə Korporasiyası və Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən verilən təqribən 120 milyon dollarlıq kreditləri təmin edən həmin sənədlər də bu gün qüvvəyə minmişdir.

Sonda jurnalistləri maraqlandıran suallara ətraflı cavablar verildi.

Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlərin imzalanması münasibətilə həmin gün axşam Bakı Əyləncə Mərkəzində rəsmi ziyafət verildi.

YEVLAX, 8 İYUN 2004-CÜ İL



# Bakı-Tbilisi-Ceyhan neft kəmərinin nasos stansiyasının tikintisində

2004-cü il iyunun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Yevlax rayonu ərazisindən keçən hissəsində nasos stansiyasında aparılan tikinti işləri ilə tanış oldu.

"bp-Azərbaycan" şirkətinin prezidenti Devid Vudvord və ARDNŞ-nin prezidenti Natiq Əliyev dövlət başçısına məlumat verərək bildirdilər ki, burada çalışan müxtəlif şirkətlər öz işlərini uğurla başa çatdırırlar. İşçi qüvvəsinin 90 faizini azərbaycanlılar təşkil edir ki, onların da 60 faizi nasos stansiyasına yaxın olan ərazidə yerləşən kəndlərin sakinləridir.

Tikinti zamanı bütün ekoloji və təhlükəsizlik qaydalarına tam riayət olunur. Bunlar layihənin müvəffəqiyyəti üçün zəruri amillərdir.

Sonra Prezident İlham Əliyev burada görülmüş işləri əks etdirən stend və xəritə ilə tanış oldu. Dövlət başçısına görülmüş işlər - buxarlanma hovuzu, dizel yanacağı ehtiyatı, əsas generatorlar, yardımçı stansiya, mühafizə binası, nəzarət məntəqəsi, anbar, emalatxana, yaşayış binası, texniki xidmət sahəsi, yanğın əleyhinə su çənləri barədə ətraflı məlumat verildi.

Prezident İlham Əliyev obyektdə çalışan fəhlələrlə görüşüb söhbət etdi:




Boulos



- Mənə verilən məlumata görə, burada 600 nəfərə yaxın işçi var və onların 90 faizi azərbaycanlılardır. Onların nəqliyyat problemləri həll olunmuşdur, işçilərə yüksək səviyyəli yeməkxana xidmət göstərir. Minimum əmək haqqı 650 min manat, orta əmək haqqı isə 800 min manatdır. Bu kəmər bizə çox böyük fayda gətirəcəkdir. Bu, həqiqətən, tarixi bir tikintidir. Çoxlu iş yeri açılmış, tikintiyə böyük sərmayə qoyulmuşdur. Kəmər işə düşdükdən sonra ölkəmizə böyük mənfəət gətirəcəkdir. Siz də yaxşı çalışırsınız. Mən sizin işinizdən çox razıyam. Buradakı fəhlələr və mütəxəssislər çox peşəkar insanlardır. Bu, çox sevindirici haldır və göstərir ki, Azərbaycanda kadr potensialı güclüdür.

1994-cü ildə "Əsrin müqaviləsi" imzalananda bu sahədə çalışanların 90-95 faizi xaricilər idi. Ofislərdə də, yerlərdə də onlar çalışırdılar. İndi belə bir mürəkkəb sahədə işləyənlərin 90-93 faizi yerli kadrlardır. Yəni siz təcrübə əldə etmisiniz və indi yaxşı çalışırsınız. Bu, məni çox sevindirir. Sizə uğurlar arzulayıram. Əminəm ki, bu iş vaxtında başa çatacaq, kəmər istifadəyə veriləcək və ölkəmiz bundan mənfəət götürəcəkdir.





AĞSTAFA, 16 OKTYABR 2004-CÜ İL





## Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin Azərbaycan və Gürcüstan ərazilərindən keçən hissəsinin birləşdirilməsi

2004-cü il oktyabrın 16-da Azərbaycanın Ağstafa rayonunun Böyük Kəsik kəndində - Gürcüstanın Qardabani rayonu ilə sərhəddə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsi mərasimi keçirildi.

"Qızıl qaynaq" adlanan bu mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Prezidenti Mixail Saakaşvili iştirak edirdilər.

İnzibati işlərinə 2002-ci ilin sentyabrında başlanmış kəmərin tikintisi üçün yaradılan "BTC Kompani" şirkətinin səhmdarları "bp" (30 faiz), ARDNŞ (25 faiz), "Yunokal" (8,90 faiz), "Statoyl" (8,71 faiz), TPAO (6,53 faiz), "Eni" (5,00 faiz), "Total" (5,00 faiz), "İtoçu" (3,40 faiz), "İnpeks" (2,50 faiz), "KonokoFilips" (2,50 faiz) və "Amerada Hess" (2,36 faiz) şirkətləridir.

Bu yaxınlarda "Mərkəzi Azəri" platformasının üst modulları dənizdə dayaq bloku üzərində quraşdırılmışdır. Bu, Səngəçaldan ilk neftin 2005-ci ilin birinci yarısı ərzində BTC boru kəmərinə vurulmasına imkan yaradacaqdır. Sonra isə bizə Azərbaycandan Türkiyəyədək boru kəmərini bütün marşrut boyunca doldurmaq üçün bir neçə ay vaxt lazım olacaqdır. Beləliklə, 2005-ci ilin ikinci yarısında Ceyhandan ilk tanker yüklənib yola salınacaqdır.

Hər üç ölkənin ərazisində kəmərin marşrutu boyunca tikinti dəhlizinin 100 faizi təmizlənərək açılmış, boruların 97 faizi qaynaqlanmış və onların 70 faizinin üstü torpaqla örtülmüşdür. Hazırda hər üç ölkədə tikintidə 21 min adam işləyir. Azərbaycanda tikinti işlərinə təxminən 5 min adam cəlb olunmuşdur və bunların 80 faizə yaxını Azərbaycan vətəndaşlarıdır.

Təntənəli mərasimə toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi və Gürcüstan Prezidenti Mixail Saakaşvilini hərarətli alqışlarla qarşıladılar.


SCP



Mərasimi giriş sözü ilə "Bakı-Tbilisi-Ceyhan Kompani" şirkətinin Direktorlar Şurasının sədri, ARDNŞ-nin prezidenti Natiq Əliyev açdı.

**Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevin çıxışı**

- Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev!

Gürcüstanın Prezidenti Zati-aliləri cənab Mixail Saakaşvili!

Hörmətli xanımlar və cənablar!

İcazə verin, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsinə həsr olunmuş təntənəli mərasimi açıq elan edim və bu mərasimdə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevi və Gürcüstan Prezidenti Mixail Saakaşvilini səmimi qəlbdən salamlayım, gələcək fəaliyyətlərində uğurlar arzu edim.

Bu gün Azərbaycan və Gürcüstanın qardaş xalqları arasında olan çoxəsrlik və çoxşaxəli münasibətlər və əməkdaşlıq tarixində əlamətdar hadisə baş verir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin misilsiz əsəri olan və hazırda onun adını daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri iki ölkənin XXI əsrdə iqtisadi inkişafını, regionumuzun təhlükəsizliyini təmin edəcək, xarici sərmayələrin cəlb olunmasına, dünya iqtisadiyyatına qovuşmağa, əlverişli ticarət əlaqələrinin genişlənməsinə şərait yaradacaqdır.

Hörmətli mərasim iştirakçıları, öz neft ehtiyatlarına görə dünyada təxminən 10-cu yeri tutan Xəzər hövzəsinin potensialı təqribən 20 milyard barrel neft və 640 trilyon kubmetr qaza bərabərdir. Bu isə dünyanın ümumi ehtiyatlarının 15 faizini təşkil edir. Xəzər dənizinin Azərbaycan sektorunda böyük həcmdə ehtiyatlara malik olan iri neft-qaz yataqları mövcuddur. Lakin Xəzər bölgəsinin qapalı coğrafi mövqeyi həmin ehtiyatların beynəlxalq bazarlara nəql edilməsini çətinləşdirir və məhz buna görə yeni etibarlı ixrac-nəql sisteminin yaradılması məsələsi ön sıraya çıxmışdı. Xalqımızın ümummilli lideri Heydər Əliyevin neft strategiyası çərçivəsində bu problem həll olunur və ildən-ilə artan böyük həcmli sərmayələr, nəhəng boru kəmərlərinin tikilməsi, neft və qaz sektorunda proseslərin fəallaşması inkişaf etmiş infrastrukturu ilə bərabər Azərbaycanın dünya iqtisadiyyatı üçün əhəmiyyətini təsdiq edir və bu baxımdan dünyanın neft və qaz mərkəzlərindən birinə çevrilməsinə imkan yaradır.

Növbəti beş ildə Azərbaycan neft-qaz hasilatı sahəsində nəhəng inkişafa çatacaqdır və bu, əsasən, "Azəri", "Çıraq", "Günəşli" yataqlarının və "Şahdəniz" yatağının irimiqyaslı işlənilməsi nəticəsində baş verəcəkdir. Bu il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 10-cu ildönümünə həsr olunmuş təntənəli mərasimdə "Azəri", "Çıraq", "Günəşli" yataqlarının tammiqyaslı işlənilməsinin üçüncü mərhələsi təsdiq olunmuşdur. Beləliklə, bu yataqlardan hazırda gün ərzində 140 min barrel olan hasilat 2008-ci ildə 1 milyon barrelə çatacaqdır.

Bununla yanaşı, "Şahdəniz" yatağının təkcə birinci mərhələsinin işlənilməsi nəticəsində 400 milyard kubmertdən çox həcmdə qaz alınacaqdır. Beləliklə, Azərbaycan təbii qaz ixrac edən ölkəyə çevriləcək və Cənubi Qafqaz, Bakı-Tbilisi-Ərzurum ixrac qaz kəməri vasitəsilə əsasən Türkiyə bazarı, 2006-cı ildən başlayaraq isə Avropa bazarı gün ərzində təqribən 90 milyard kubmetr təbii qazla təmin olunacaqdır. Eyni zamanda, Azərbaycan və Gürcüstan da öz tələbatlarını ödəyəcəklər.

Bütün bu layihələri gerçəkləşdirmək üçün tələb olunan sərmayənin ümumi məbləği, indiyədək qoyulmuş sərmayələr də daxil olmaqla, təxminən 20 milyard dollar həcmindədir. Bu nəhəng layihələrin təməlini qoyan və inkişaf etdirən, onların gerçəkləşməsi üçün əvəzsiz xidmətlər göstərən xalqımızın ümummilli lideri Heydər Əliyev olmuşdur. Bu gün biz hamımız sevinc hissi duyuruq ki, Heydər Əliyevin başladığı işlər uğurla davam etdirilir və arzular reallığa çevrilir. Bu gün fərəhlə deyə bilərik ki, Qara dəniz boğazlarından yan keçərək, Xəzərlə Aralıq dənizini birləşdirəcək, Şərq-Qərb enerji-nəqliyyat dəhlizinin əsasını təşkil edən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisi başa çatmaqdadır. Səngəçal ter-





minalında ilk neftin qəbul olunmasına hazırlıq işləri 72 faizdən çox, Ceyhan terminalında isə 85 faiz yerinə yetirilmişdir.

Etibarlı enerji dəhlizinin yaradılması hər üç ölkədə yerli əhalinin işlə təmin olunması və xidmət sahələrinin genişləndirilməsi üçün uzunmüddətli imkanlar açmışdır. Hazırda Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsi üzrə sahə və obyektlərdə 21 min insan işləyir ki, bunların təxminən 5 mini Azərbaycanda, 5 mini Gürcüstanda və 11 mini Türkiyədədir. Bunların da təxminən 80 faizi yerli vətəndaşlardır. Kəmərin tikilməsi nəticəsində Azərbaycan, Gürcüstan və Türkiyə üçün uzunmüddətli və etibarlı gəlir axını təmin ediləcəkdir. Bu, regiona yeni xarici sərmayələrin cəlb olunmasına, yerli təchizat gücünün artırılmasına daha böyük imkanlar verəcəkdir.

İcazə verin, ixrac neft kəmərinin Azərbaycan və Gürcüstandan keçən hissələrinin birləşməsi münasibətilə bu nəhəng tikintidə iştirak edən tərəfdaşlarımızı və xüsusilə inşaatçıları təbrik edim, onlara uğurlar arzu edim.

**Gürcüstanın yanacaq və energetika naziri Nika Gilaurinin çıxışı**

- Hörmətli Prezident İlham Əliyev!

Hörmətli Prezident Mixail Saakaşvili!

Xanımlar və cənablar!

İcazənizlə, bugünkü əlamətdar hadisə münasibətilə sizi ürəkdən təbrik edərdim. Bu gün bizim dostluğumuzun və qardaşlığımızın möhkəmlənməsinin daha bir əsası qoyulur və xalqlarımızın iqtisadi gələcəyinin təminatı yaradılır. Biz bu layihənin regionumuz üçün böyük əhəmiyyətini yaxşı dərk edirik. Həm iqtisadiyyat, həm də təhlükəsizlik baxımından layihə bölgə üçün çox mühümdür. Eyni zamanda, layihə bizim xalqlarımız arasında dostluğun daha da möhkəmləndirilməsinə xidmət edəcəkdir. Bildiyiniz kimi, Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsinin həyata keçirilməsində Gürcüstanın da böyük rolu vardır. Ölkəmiz gələcəkdə də nəzərdə tutulan layihələrin yerinə yetirilməsində öz əməyini əsirgəməyəcəkdir. Eyni zamanda, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilməsi də Gürcüstanın qaza olan tələbatını ödəyəcəkdir. Bu layihələrin həyata keçirilməsində əməyi olanların hamısına, o cümlədən onun təşəbbüskarlarına dərin minnətdarlığımı bildirmək istəyirəm.

**"BTC Kompani" şirkətinin icraçı direktoru Maykl Taunzendin çıxışı**

- Zati-aliləri Prezident İlham Əliyev!

Zati-aliləri Prezident Mixail Saakaşvili!

Hörmətli qonaqlar!

Bir müddət bundan əvvəl bura, sadəcə, boş bir sahə idi. Biz boş olan bir sahədə nadir hallarda toplaşırıq. Amma bu adi sahə deyil və bugünkü mərasim də qeyri-adi bir mərasimdir. Siz də adi qonaqlar deyilsiniz. Bu, hər cəhətdən çox əlamətdar bir tədbirdir və iki ölkəni əhatə edən, BTC-nin Azərbaycan və Gürcüstan sərhədində birləşməsini təmin edən bir mərasimdir. Bu qaynaq bizi BTC-nin tamamlanmasına daha da yaxın-





laşdırır. 2005-ci ildə neft məhz bu boru ilə axacaqdır. Qlobal təhlükəsizliyin təmin olunması üçün neft axını başlayacaqdır. Ərsəyə gəlməkdə olan bu uzunmüddətli layihə zəmanəmizin ən möhtəşəm layihələrindəndir. Eyni zamanda, BTC zəmanəmizin ən möhtəşəm inşaat və mühəndis layihələrindən biridir. Bugünkü "Qızıl qaynaq" BTC-də 15 min qaynaqdan biri olacaqdır.

Bakı-Tbilisi-Ceyhan adi boru kəmərindən daha çox məna kəsb edir. Bu, insanlarla bağlı bir layihədir və hər kəsin maraqlarına cavab verir. Layihənin həyata keçirilməsində qarşılıqlı inam da mühüm rol oynayır. Biz bu inamı Tbilisidə bir həftə öncə ətraf mühitin vahidliyi və təhlükəsizlik problemləri ilə bağlı görüşümüz zamanı möhkəmləndirdik. Ətraf mühitin qorunması, təhlükəsizliyi və sosial problemləri əhatə edən beş illik və 60 milyon dollarlıq iki protokol imzalandı. Bu protokollar Gürcüstanın Baş nazirinin iştirakı ilə imzalandı.

Azərbaycan və Gürcüstan sərhədlərini əhatə etməyimiz BTC üçün bir növ bu ölkələr qarşısında götürdüyümüz uzunmüddətli öhdəliklərin nişanəsidir. Qonaq olaraq, bu, bizə 40 illik müddətə verilmiş bir imkandır və ondan səmərəli istifadə edirik. BTC və tərəfdaşları adından mən Azərbaycan və Gürcüstan Prezidentlərinə öz təbriklərimi çatdırıram. Bugünkü tədbir həm onların, həm də bizim bu müstəsna layihənin müvəffəqiyyəti üçün götürdüyümüz öhdəliklərin yerinə yetirilməsinin bir simvoludur.

Sonra mərasimdə "bp-Azərbaycan" şirkətinin prezidenti **Devid Vudvord** çıxış etdi:

- Zati-aliləri cənab Prezidentlər!

Xanımlar və cənablar!

Bu gün burada iştirak etməyim mənim üçün böyük şərəfdir. Bakı-Tbilisi-Ceyhan layihəsi dünya miqyaslı bir layihədir və regionun inkişafına təkan verir. Bu, həmçinin sosial-mədəni sahədə xalqların daha da yaxınlaşmasına xidmət edir. İstərdim ki, layihəni əks etdirən, "Azəri", "Çıraq", "Günəşli" yataqlarını, Cənubi Qafqaz boru kəmərini və Bakı-Tbilisi-Ceyhan kəmərini nümayiş etdirən bir xəritəni Prezidentlərə təqdim edim.

Devid Vudvord nəhəng enerji layihələrini əks etdirən xəritəni Prezident İlham Əliyevə və Prezident Mixail Saakaşviliyə təqdim etdi.

**ABŞ Dövlət Departamentinin Xəzər hövzəsinin enerji diplomatiyası üzrə müşaviri, səfir Stiven Mənnin çıxışı**

- Hörmətli cənab Əliyev!

Hörmətli cənab Saakaşvili!

Xanımlar və cənablar!

Bu gün çox tarixi bir gündür. Biz "Qızıl qaynaq"ın təntənəli mərasimini keçiririk. Bu, həm də iki ölkənin əməkdaşlığının nümunəsidir və onları, habelə Türkiyəni birləşdirir. Bundan başqa, Bakı-Tbilisi-Ceyhan layihəsi region ölkələrini bütün dünyaya birləşdirir. Artıq on ildir ki, bu layihə həyata keçirilməkdədir və çoxlu böyük texniki nailiyyətlər əldə olunmuşdur. Biz qeyri-adi səviyyədə inşaat-mühəndis uğurları əldə etmişik. Dünya standartlarına uyğun şəkildə 1700 kilometrdən çox ərazidə boru kəməri çəkilir. Layihənin həyata







keçirilməsində Amerika Birləşmiş Ştatları da öz dəstəyini göstərmişdir. Mən öz dövlətimin adından burada iştirak etməyimdən böyük şərəf hissi duyuram. Eyni zamanda qeyd etmək istəyirəm ki, "bp" şirkəti əvvəldən başlayaraq, bu layihənin həyata keçirilməsində böyük səylər göstərmişdir. Kəmərin inşasında artıq böyük irəliləyiş əldə olunmuşdur. Onu da demək istəyirəm ki, Bakı-Tbilisi-Ceyhan layihəsi yalnız texniki layihə deyildir. Bu, həm də ticarət əlaqələrinin qurulması və siyasi razılıqların əldə edilməsi deməkdir. Layihə Avrasiya məkanında böyük enerji siyasətinin həyata keçirilməsinə kömək edir. Demək olar ki, bu, dünya miqyaslı tərəfdaşlıq nümunəsidir. Layihə habelə beynəlxalq səviyyədə ətraf mühitin qorunması texnologiyasını təcəssüm etdirir, sosial əlaqələrin, biznes dairələri ilə ətrafda yaşayan insanlar arasında münasibətlərin qurulması amilini də əks etdirir. Bakı-Tbilisi-Ceyhan layihəsi dünyanın bu sahədə həyata keçirdiyi proqramlar arasında irəliyə atılan daha bir addımdır.

Cənab Prezident Saakaşvili, mən istərdim Sizə öz dövlətimin adından və öz adımdan salamlarımı çatdırım. Sizin və komandanızın ən çətin vaxtda göstərdiyiniz səylər üçün təşəkkürümü bildirirəm.

Cənab Prezident İlham Əliyev, istəyirəm, həmişə olduğu kimi, Sizə də təşəkkürümü bildirəm. İlk növbədə, hər zaman bu layihəyə böyük diqqət göstərdiyinizə və bu layihəni davam etdirdiyinizə görə Sizə minnətdaram.

Mən, habelə Devid Vudvorda, Natiq Əliyevə öz təşəkkürümü bildirirəm, onlar bu layihənin həyata keçirilməsində həmişə bir yerdə olmuşlar. Artıq biz burada fəxrlə deyə bilərik ki, konsorsiumlar və şirkətlər bu layihənin həyata keçirilməsində böyük nailiyyətlər əldə etmişlər. Sizin hamınıza təbriklərimi çatdırıram.

**Gürcüstan Prezidenti Mixail Saakaşvilinin çıxışı**

- Mənim əziz dostum və qardaşım cənab İlham!

Hörmətli qonaqlar və dostlar!

Amerikadan və Britaniyadan olan əziz qonaqlarımız!

Bugünkü mərasimdə iştirak etmək mənim üçün böyük şərəfdir. Ona görə ki, bu, doğrudan da bizim arzularımızın və niyyətlərimizin həyata keçməsi deməkdir. Bir neçə illər bundan əvvəl razılıqların əldə olunmasına və müqavilələrin imzalanmasına baxmayaraq, elə qüvvələr var idi ki, bu layihənin həyata keçirilməsini ləngitmək və onun qarşısında maneələr törətmək istəyirdi. Onlar ümumilikdə regionun inkişafını dayandırmaq istəyirdilər. Hesab edirəm ki, artıq həmin adamların niyyətlərinin boşa çıxdığını demək olar. Bütün bu əngəllərə baxmayaraq, biz layihəni həyata keçirə bildik və əminik ki, neft kəməri





vaxtında istismar ediləcəkdir. Bugünkü tədbir buna daha bir əyani misal və neft kəmərinin vaxtında tamamlanacağına bir sübutdur.

Qeyd etməliyəm ki, ölkələrimiz arasında olan əlaqələr çox genişdir. Bu neft kəməri də bizi birləşdirən amillərdən biridir. Eyni zamanda, Gürcüstanla Azərbaycan milyonlarla insanların qəlbində bir-birinə yaxınlaşmışdır. Bizi həmçinin ölkələrimizin tarixi yaddaşı bir-birinə birləşdirir. Mən iftixar hissi ilə xatırlayıram ki, müstəqilliyimizin ilk illərində biz, həqiqətən, çiyin-çiyinə bir-birimizə yardım göstərdik, qarşımıza çıxan çətinlikləri birlikdə aradan qaldırdıq. Burada etiraf edə bilərəm ki, Azərbaycan bəzən öz ehtiyatlarından kəsərək bizə qardaş əli uzadırdı.

Bu layihənin həyata keçirilməsində cənab Heydər Əliyevin xüsusi rolunu qeyd etmək istəyirəm. Heydər Əliyev Bakıya qayıdanda Azərbaycanda dövlətçilik tamamilə pozulmuşdu. Bu dahi şəxsiyyət heç nədən böyük bir dövlət yaratdı. Heydər Əliyevin hakimiyyətə qayıtması Azərbaycanın bir ictimai-siyasi formasiyadan digərinə keçdiyi dövrə təsadüf edirdi. Xalqın özündə də sabaha inam itmişdi. Heydər Əliyev həmin inamı qaytardı və böyük bir milləti yenidən bir dövlətin içərisində birləşdirdi. Əminəm ki, əsrlər keçəcək və Azərbaycan xalqı bugünkü Prezidentin atasının ölkə üçün, xalq üçün gördüyü işləri unutmayacaqdır.

Bizim borcumuz ondan ibarətdir ki, Gürcüstanda da eyni işləri görək, gürcü xalqını birləşdirək.





Gürcü xalqı deyəndə, mən Gürcüstanda yaşayan bütün millətləri nəzərdə tuturam. Bildiyiniz kimi, son illərdə Gürcüstan ağır və keşməkeşli bir yol keçibdir. Biz məktəblərdə Gürcüstanın müstəqilliyi uğrunda canını qurban vermiş insanların şəklini asırıq. Eyni zamanda bilirik ki, Azərbaycan üçün də müstəqilliyi qoruyub saxlamaq çox çətin idi. Ona görə də biz müstəqilliyimiz uğrunda həyatlarını qurban vermiş qəhrəmanları unutmamalıyıq. Azərbaycanlılar da Gürcüstanda bizim müstəqilliyimiz uğrunda mübarizə aparmışlar və onlar bizim vətəndaşlarımız, öz doğmalarımızdır. Biz istəyirik ki, onlar gürcülərlə qaynayıb-qarışsınlar və Gürcüstanın ayrılmaz hissəsi olsunlar. Onlara münasibətdə Gürcüstanda ədalət prinsipi olmalıdır. Onlar həmişə hiss etməlidirlər ki, Gürcüstanda heç bir azərbaycanlını incitməyəcəklər. Əlbəttə, məndə elə bir illüziya yoxdur ki, bu neft kəməri bütün problemləri həll edəcəkdir. Məndən önçəki iqtidar həmişə deyirdi ki, bu neft kəməri problemlərin hamısını həll edəcəkdir. Amma eyni zamanda, mən onu da etiraf etməliyəm ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri ən böyük amillərdən biridir.

Biz eyni zamanda, Gürcüstanda dövlətin borcu kimi yığılmış maaşları, təqaüdləri verə bildik, struktur islahatları apardıq, polis öz funksiyalarını icra etməyə başladı. İki-üç gün öncə biz Gürcüstanda elan etdik ki, bütün biznesmenlərin bu günədək olan borcunu bağışlayırıq, amma bundan sonra onlar öz vəsaitlərinin həcmini açıqca göstərməli və Gürcüstanın iqtisadiyyatına yönəltməlidirlər. Mən onların toxunulmazlığını bəyan etdim və onlara təminat verdim. İstəyirəm ki, artıq Gürcüstanda insanlarda dövlətə inam olsun və onlar bilsinlər ki, iqtisadiyyata qoyduqları pullar ölkənin gələcəyinin və inkişafının təminatıdır.





FINAL
TIE-IN
BAKU TBILISI - CEYHAN
PIPELINE PROJECT

Ötən həftə ərzində BTC şirkəti ilə bizim aramızda danışıqlar nəticəsində razılıq əldə olundu. Danışıqlar ekoloji cəhətdən Gürcüstan üçün ən mühüm regionlara aid idi. Bildiyiniz kimi, Bakı-Tbilisi-Ceyhan neft kəməri Gürcüstanın gələcəyi üçün böyük əhəmiyyətə malik olan ekoloji bölgələrdən keçir və danışıqlardan sonra əldə olunmuş razılıq və ayrılacaq məbləğ ölkəmizin kurort zonasında xeyli işlər görülməsinə imkan verəcəkdir. Biz bütün bu layihələrin həyata keçirilməsi üzrə addım-addım irəliləyərək, ayaq üstə dura biləcəyik. Bizim xalqımız hələ kasıbdır, sosial problemlərimiz çoxdur. Amma illər ərzində yığılmış problemləri bir gündə həll etmək mümkün deyildir. Biz çalışırıq ki, səylərimizi artıraq. Səkkiz ay ərzində əldə etdiklərimiz, yəqin ki, başqa şəraitdə dörd-beş ilə görülərdi. İnanıram ki, biz insanlarımızın gələcəyi naminə gördüyümüz işləri uğurla başa çatdıracağıq. Bizim üçün ən önəmlisi vətəndaşların həmrəyliyidir. Gürcü və Azərbaycan xalqları artıq bizim seçimimizin doğru olduğuna inanıblar. Biz bütün ölkələrlə - Rusiya, Türkiyə ilə əlaqələrimizin yaxşı olmasını istəyirik. Biz ölkələrimizin inkişafında Türkiyənin rolunu danılmaz hesab edirik. Bu layihənin və digər proqramların həyata keçirilməsində ABŞ-ın və Böyük Britaniyanın xüsusi rolunu da qeyd etməliyik.

Bir daha sizi salamlayıram. Bizim üçün çox əhəmiyyətlidir ki, bir daha görüşdük. Mən İlham Əliyevlə görüşə heç zaman rəsmi görüş kimi gəlmirəm. Çünki rəsmi görüş bir növ gərginliklə müşayiət olunur və bəzən bu görüşlərdə adamın üzü də gülmür. Mən İlham Əliyevi bir qardaşım kimi görəndə, onun üzünə gülümsəmək istəyirəm. Ömrümün 36-cı ilində deyə bilərəm ki, məni Azərbaycan Prezidenti ilə bir çox amillər birləşdirir. İlk növbədə, bizi xalqlarımızın gələcəyi və tutduğumuz mövqelər, habelə öz dövlətimizə və millətimizə olan məhəbbətimiz birləşdirir. Bir daha sizi təbrik edir və uğurlar arzulayıram.

**Azərbaycan Prezidenti**
**İlham Əliyevin çıxışı**

- Hörmətli cənab Prezident Mixail Saakaşvili, əziz dostum Mixail!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün çox tarixi bir gündür. İnşası uğurla davam edən Bakı-Tbilisi-Ceyhan neft kəməri iki qardaş ölkənin sərhədində birləşir. Bu əlamətdar, tarixi gündə sizin hamınıza öz dərin minnətdarlığımı və salamlarımı çatdırmaq istəyirəm. Bu kəmərin tikintisində iştirak etmiş bütün insanları xüsusilə qeyd etmək istəyirəm. Bəziləri tərəfindən əfsanə kimi təqdim edilən Bakı-Tbilisi-Ceyhan neft kəməri onların əməyi nəticəsində gerçəyə çevrilmişdir.

Bakı-Tbilisi-Ceyhan neft kəməri Azərbaycanda 1994-cü ildən başlanmış Heydər Əliyevin neft strategiyasının tərkib hissəsidir. On il bundan əvvəl, "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycanda yeni neft strategiyası həyata keçirilməyə başlandı. Bu müddət ərzində böyük uğurlar qazanıldı, böyük məsələlər öz həllini tapdı. Azərbaycan iqtisadi cəhətdən gücləndi. Ölkəmizin iqtisadiyyatına, sənayesinə milyardlarla dollar sərmayə qoyuldu. Bu, çox mühüm bir hadisədir və onu göstərir ki, ölkəmizdə gedən proseslərə, Azərbaycanın gələcəyinə çox böyük inam var. Əgər bu inam olmasaydı, əlbəttə ki, milyardlarla dollar sərmayə qoyulmazdı. Bu müddət ərzində Azərbaycanın neft infrastrukturu, demək olar ki, tamamilə yeniləşdi, yenidən quruldu və indi dünyanın ən yüksək standartlarına cavab verir. Qazma qurğularının tikintisi, digər infrastrukturun yaranması və əlbəttə ki, iki neft kəmərinin - Bakı-Novorossiysk və Bakı-Supsa kəmərlərinin tikintisi neft strategiyasının tərkib hissəsi idi. Əgər 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalanmasaydı, bunların heç biri mümkün olmazdı.

Azərbaycan öz iqtisadi potensialını çox böyük dərəcədə gücləndirə bildi. Bütün bu işləri həll etmək üçün böyük iradə, cəsarət və uzaqgörənlik lazım idi. Mənim dostum Mixail öz çıxışında qeyd etdi ki, Azərbaycan müstəqilliyini əldə etdikdən sonra çox ağır vəziyyətdə idi. Ölkədə xaos, böhran, hərc-mərclik hökm sürürdü. İqtisadiyyat ildən-ilə tənəzzülə uğrayırdı və demək olar ki, tamamilə dağılmışdı. Yalnız və yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişindən sonra vəziyyət dəyişdi, Azərbaycan tədricən böhrandan çıxmağa başladı və təxminən 1996-cı ildən sonra ölkədə bütün sahələrdə inkişaf başlandı. Biz bu gün sizinlə bu inkişafın nəticələrini görürük. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi həm Azərbaycan üçün, həm Gürcüstan üçün, həm də bütün region üçün çox vacibdir. Bu, ölkəmizə yeni imkanlar yaradacaqdır, xalqlarımız üçün yeni şəraitin yaradılmasını təmin edəcəkdir. Əlbəttə ki, bu, ölkələrimizə böyük həcmdə maliyyə vəsaitinin cəlb olunmasına gətirib çıxaracaqdır.

Eyni zamanda, bütün bu iqtisadi məsələlərlə yanaşı, regional təhlükəsizlik məsələlərinə də bu layihə öz töhfəsini verəcəkdir. Təəssüflər olsun ki, regionda sülh və təhlükəsizlik hələ də tam mənada bərqərar olunmayıbdır. Biz ümid edirik ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri bu baxımdan da bizə kömək edəcəkdir.

Regionda əməkdaşlıq uğurla davam edir, Gürcüstanla Azərbaycan arasında əlaqələr həmişə çox yüksək səviyyədə olmuşdur. Əsrlər boyu xalqlarımız mehriban dostluq və qardaşlıq şəraitində yaşamışlar. Bu gün də belədir. Çox vacibdir ki, aramızda olan ənənəvi dostluq və qardaşlıq münasibətləri xalqlarımız, ölkələrimiz





müstəqilliyini əldə etdikdən sonra daha da inkişaf etsin. Bu gün ölkələrimiz çox mühüm bir mərhələdədir. Hər iki ölkədə rəhbərliyə yeni insanlar gəlmişlər. Onların fəaliyyətindən, bir-birinə olan münasibətindən çox şey asılıdır. Çox şadam ki, ilk görüşdən, ilk təmasdan Mixaillə mənim aramda olan münasibətlər əsl mənada qardaşlıq münasibətləridir. Biz həmişə bir-brimizi görməyimizə çox sevinirik, çox şadıq. İştirak etdiyimiz elə bir beynəlxalq tədbir olmayıb ki, biz orada görüşməyək. Xalqlarımızın gələcəyi, müstəqil dövlətlərimizin birgə yaşaması və güclənməsi, dünyada öz mövqelərini möhkəmləndirməsi üçün bizim dostluğumuz vacibdir. Hər bir Azərbaycan, hər bir Gürcüstan vətəndaşının dostluğu vacibdir. Bu məsələdə də ölkə rəhbərləri öz vətəndaşlarına gözəl nümunə göstərir. Əminəm ki, bu, hamı üçün örnək olacaqdır, hamımız gündəlik həyatımızda, gündəlik fəaliyyətimizdə çalışacağıq ki, iki ölkə arasında olan münasibətləri daha da gücləndirək, daha yüksək pilləyə qaldıraq.

Bu gözəl gündə qeyd etməliyəm ki, həm Gürcüstanda, həm Azərbaycanda, həm də Türkiyədə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi istiqamətində böyük işlər görülmüşdür. Mən bu gün bu kürsüdən bizim türkiyəli qardaşlarımızı da təbrik etmək, onların fəaliyyətini də yüksək qiymətləndirmək istəyirəm. Bu layihə, ümumiyyətlə, bütün dünyaya sübut edir ki, regional əməkdaşlıq hansı formada həyata keçirilməlidir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və digər enerji layihələri dünyanın ən böyük layihələridir. Əlbəttə, bizim bütün uğurlarımız gələcək əməkdaşlıq prosesinə müsbət təsir edəcəkdir. Regional əməkdaşlıq daha da güclənəcək, yeni formalarla zənginləşəcəkdir. Əminəm ki, bizim uğurumuz başqa regional məsələlərə də öz gözəl təsirini göstərəcəkdir.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisində bilavasitə iştirak etmiş, əməyini qoymuş şirkətləri, insanları, dostlarımızı salamlayıram və onları təbrik edirəm, öz minnətdarlığımı bildirirəm. "Bakı-Tbilisi-Ceyhan Kompani" şirkəti və bu şirkətdə aparıcı rol oynayan "bp" şirkəti Azərbaycanın çox gözəl tərəfdaşlarıdır. 10 ildən artıqdır ki, "bp" ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında çox gözəl əməkdaşlıq var, biz əsl mənada tərəfdaşıq. Biz çox minnətdarıq ki, "bp" Azərbaycana böyük həcmdə sərmayə qoyubdur, ölkəmizdə müxtəlif layihələrdə aparıcı rol oynayır və əminəm ki, bundan sonra əməkdaşlığımız daha da güclənəcəkdir. Gələcəkdə bizi böyük işlər gözləyir. Kəmərlər tikiləndən və istismara veriləndən sonra onların normal fəaliyyəti və təhlükəsiz istismarı bizim hamımızın diqqət mərkəzində olacaqdır.

Bu illər ərzində Azərbaycan Dövlət Neft Şirkəti çox böyük işlər görübdür. Şirkətdə çalışan mütəxəssislərin, fəhlələrin, danışıqları aparan şəxslərin hamısının bu



işlərdə böyük əməyi vardır. Azərbaycan Dövlət Neft Şirkəti də bu son 10 il ərzində daha yüksək nəticələr əldə edib, daha müasirləşibdir və əlbəttə ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisində bu şirkətin böyük, 25 faizə bərabər payının olması bizim üzərimizə əlavə məsuliyyət qoyur.

Bütün digər şirkətlərin, Azərbaycan tərəfindən inşaatı aparan "SSİS" və Gürcüstan tərəfindən inşaatı aparan "Kapaq-Petrofak" şirkətlərinin də fəaliyyətini yüksək qiymətləndirirəm. Əgər bu məsələdə bizim dostumuz Amerika Birləşmiş Ştatlarının iştirakı və fəaliyyəti olmasaydı, əlbəttə ki, bütün bunları həyata keçirmək çox çətin olardı. Biz bu dəstəyi ilk anlardan hiss etmişik, bu gün də hiss edirik. Bu məsələlərlə 10 ilə yaxın məşğul olan bir adam kimi tam səmimiyyətlə deyə bilərəm ki, əgər Amerika hökumətinin bu məsələ ilə əlaqədar qətiyyətli mövqeyi nümayiş etdirilməsəydi, bizim işlərimiz daha çətin ola bilərdi. Fürsətdən istifadə edərək, bu tədbirdə bizimlə bərabər olan və məxsusi buraya gəlmiş dostumuz, səfir Stiven Mənni salamlayıram və onun fəaliyyətini xüsusi qeyd etmək istəyirəm.

Sadaladığım bütün məsələlər bizə bu nəhəng layihəni həyata keçirməyə imkan veribdir. Burada Azərbaycanda və Gürcüstanda görülən işlər, bizim neft şirkətlərimiz və tərəfdaşlarımız, Amerika Birləşmiş Ştatlarının fəaliyyəti və bu işlərə töhfəsi mühüm rol oynamışdır. Beynəlxalq maliyyə qurumlarının yardımı olmasaydı, biz bu qədər vəsaiti toplaya bilməzdik. Bütün bu amillər bir daha göstərir ki, beynəlxalq və regional əməkdaşlıq olan yerdə uğurlar da, nəticələr də olur.

Mən çox şadam və sevinirəm ki, biz bu əlamətdar günü qeyd edirik. Bilirsiniz ki, bu məsələlərdə, Azərbaycanın neft strategiyasının həyata keçirilməsində, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisində xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna rolu vardır. Təsadüfi deyildir ki, bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri Heydər Əliyevin adını daşıyır. Ceyhanda tikilən nəhəng terminal Heydər Əliyevin adını daşıyır. Bunların hamısı təbiidir. Ona görə ki, Heydər Əliyevin fəaliyyəti, rəhbərliyi, uzaqgörənliyi, cəsarəti nəticəsində bütün bu məsələlər öz həllini tapmışdır.



Mən 1994-1995-ci illəri də yaxşı xatırlayıram. O zaman bəziləri buna inanmırdı, bəziləri bizə maneçilik törətmək istəyirdi. Amma heç kim buna müvəffəq ola bilmədi. Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarının iradəsi, əzmkarlığı, birliyi bizə imkan verdi ki, biz bu gün burada bu gözəl bayramı qeyd edə bilək. Bu əlamətdar hadisə bir daha göstərir ki, bizim qarşımızda heç bir maneə, heç bir əngəl ola bilməz və heç kim bizi tutduğumuz yoldan döndərə bilməz.

Əziz dostlar,

Mən sizin hamınızı bir daha ürəkdən salamlayıram. Bu gözəl hadisə münasibətilə hamınızı ürəkdən təbrik edirəm. Arzu edirəm ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri uğurla, vaxtında istismara verilsin, biz də bunu qeyd edək. Bakı-Tbilisi-Ərzurum qaz kəmərini də oxşar tale gözləsin və ölkələrimiz bir-birinə daha da yaxın olsun. Bu, bizim arzumuzdur, istəyimizdir və buna nail olacağıq. Çünki bu, Gürcüstan və Azərbaycan rəhbərliyinin, insanlarının, vətəndaşlarının arzusudur.

Bir daha sizin hamınızı ürəkdən təbrik edirəm. Arzu edirəm ki, belə bayramlar çox olsun və biz həmişə görüşəndə bir-birimizi təbrik edək, sevinək, elə edək ki, xalqlarımız həmişə yaxşı, firavanlıq içində yaşasın və xoşbəxt olsunlar.

Sonra Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan-Gürcüstan sərhədində "Qızıl qaynaq" mərasimi keçirildi. Prezidentlər İlham Əliyev və Mixail Saakaşvili qaynaq işlərinə baxdılar, qaynaq olunmuş borunun üstünə torpaq atdılar.

Dövlət başçıları "Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan və Gürcüstan hissələri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Gürcüstan Prezidenti Mixail Saakaşvilinin iştirakı ilə 16 oktyabr 2004-cü il tarixdə birləşdirilmişdir" sözləri yazılmış lövhənin üzərindən ağ örtüyü götürdülər. Onlar burada Azərbaycanın və Gürcüstanın dövlət bayraqları önündə xatirə şəkli çəkdirdilər.

Daha sonra Azərbaycan və Gürcüstanın incəsənət ustalarının konserti oldu.

Mərasimdə Azərbaycanın və Gürcüstanın dövlət və hökumət nümayəndələri iştirak edirdilər.

BAKI, 25 MAY 2005-Cİ İL



# Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi

2005-ci il mayın 25-də Bakı şəhəri yaxınlığındakı Səngəçal terminalında Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsinə həsr olunmuş təntənəli mərasim keçirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər, Gürcüstanın Prezidenti Mixail Saakaşvili, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, ABŞ-ın energetika naziri Samuel Bodman, Böyük Britaniyanın, Fransanın, Ukraynanın, Yaponiyanın, Norveçin və digər ölkələrin yüksək vəzifəli şəxsləri mərasimdə iştirak edirdilər.

Mərasimi Azərbaycan Prezidenti İlham Əliyev açdı.

### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bu gözəl bayram münasibətilə ürəkdən təbrik edirəm. Bu gün tarixi bir gündür. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsi münasibətilə Bakıda gözəl bir mərasim keçirilir. Mərasimdə iştirak etmək üçün Bakıya gəlmiş bütün yüksək qonaqları səmimi qəlbdən salamlayıram. Bizimlə bərabər bu mərasimdə Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər iştirak edir. Gürcüstanın Prezidenti Mixail Saakaşvili iştirak edir. Qazaxıstanın Prezidenti Nursultan Nazarbayev iştirak edir. Əlahəzrət York Hersoqu iştirak edir. Amerika Birləşmiş Ştatlarının energetika naziri cənab Bodman iştirak edir. Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı cənab Pibalqs iştirak edir. "bp" şirkətinin prezidenti lord Braun da bu gün bizim qonağımızdır.

Mən çox şadam ki, bu tarixi gündə biz hamımız birlikdə Bakıda yığışmışıq, bu gözəl bayramı birlikdə qeyd edirik. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanda Heydər Əliyevin neft strategiyasının icra olunması başladı. 1994-cü il bizim hamımızın xatirindədir. O ağır, çətin şəraitdə xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti nəticəsində bu müqavilə imzalandı və Azərbaycan öz neft-qaz yataqlarını xarici şirkətlərlə birlikdə istismar etməyə başladı.

O vaxtdan 10 ildən çox zaman keçir. Bu illər ərzində qarşıda duran bütün vəzifələr öz həllini tapdı, Azərbaycan Xəzər dənizinin özünə məxsus olan sektorunda xarici şirkətlərlə çox səmərəli işbirliyi, əməkdaşlıq qura bildi. Azərbaycana böyük həcmdə sərmayə gəldi, Azərbaycanın neft-qaz sektoruna milyardlarla dollar sərmayə yatırıldı. Bu illər ərzində ölkədə gedən proseslər, iqtisadi islahatlar, inkişaf onu göstərdi ki, Azərbaycan 1994-cü ildə düzgün seçim etmişdir. Çox böyük təzyiqlər olmasına, süni maneələr yaradılmasına baxmayaraq, bizi bu yoldan heç kim və heç nə döndərə bilmədi. Heydər Əliyevin neft strategiyası Azərbaycana böyük uğurlar gətirdi. Azərbaycanın iqtisadiyyatının bütün sektorları inkişaf etməyə başladı. Azərbaycanda aparılmış iqtisadi islahatlar nəticəsində bu gün ölkəmizin həm neft sektoru, həm də qeyri-neft sektoru uğurla inkişaf edir. Ölkəmiz son 10 ildə öz iqtisadi potensialını gücləndirərək, hər il təxminən 10 faiz səviyyəsində iqtisadi artıma nail ola bildi. 2005-ci ilin ilk dörd ayında Azərbaycanda sənaye istehsalı 15 faiz, ümumi daxili məhsul 14 faiz artmışdır. Bu ilin sonuna qədər Azərbaycanda ÜDM ən azı 18 faiz artacaqdır ki, bu da Beynəlxalq Valyuta Fondunun verdiyi bəyanata görə dünyada ən yüksək göstəricidir.

Neft amilindən məharətlə istifadə edərək, iqtisadiyyatımızı şaxələndirir, qeyri-neft sektoruna böyük diqqət göstəririk. Keçən il qəbul edilmiş regionların sosial-iqtisadi inkişaf proqramı da uğurla icra edilir. Böyük qürur hissi ilə deyə bilərəm ki, son ilyarım ərzində görülmüş tədbirlər nəticəsində Azərbaycanda iki yüz mindən artıq yeni iş yeri açılmış, onların tam əksəriyyəti qeyri-neft sektorunda yaradılmışdır. Yoxsulluğun səviyyəsi son ilyarım ərzində 9 faiz aşağı düşmüşdür və biz qarşımıza vəzifə qoymuşuq ki, Azərbaycanda yoxsulluq tamamilə aradan götürülsün. Əminəm ki, biz buna nail olacağıq.

Bütün bu işləri görmək üçün, əlbəttə ki, möhkəm iradə lazım idi, müdriklik lazım idi. İqtisadi və siyasi islahatlar aparmaq lazım idi. Amma onu da bilirik ki, həlledici rolu neft amili, "Əsrin müqaviləsi"nin imzalanması oynamışdır. Həmin müqavilə, ondan sonrakı dövr ərzində görülən işlər Azərbaycanın inkişafına böyük təkan vermişdir və biz bunu bu gün də hiss edirik.

Ölkəmiz yeniləşir, müasirləşir, inkişaf edir və əminəm ki, yaxın zamanlarda Azərbaycan iqtisadi cəhətdən çox qüdrətli dövlətə çevriləcəkdir.

Nefti hasil etmək, əlbəttə ki, bizim problemlərimizin hamısının həlli demək deyildir. Nefti nəql etmək lazımdır. Çünki Azərbaycanın coğrafi vəziyyəti belədir ki, bizim dünya bazarlarına birbaşa çıxışımız yoxdur. Bunu etmək üçün neft kəmərləri lazım idi və bu



istiqamətdə də ardıcıl siyasət aparılmışdır. Azərbaycan çoxvariantlı neft kəmərləri strategiyasını həyata keçirir və artıq iki kəmər fəaliyyətdədir: Bakı-Novorossiysk və Bakı-Supsa neft kəmərləri Azərbaycan neftini dünya bazarlarına çıxarır. Amma bizim neft strategiyamızı tam həcmdə həyata keçirmək üçün, əlbəttə ki, böyük gücə malik neft kəmərinin tikintisi lazım idi və biz də bunu bacardıq, bunu etdik. Bəziləri buna inanmırdı, şübhə ilə yanaşırdı, bəziləri buna maneçilik törətmək istəyirdilər. Amma bunların heç biri baş tutmadı. Azərbaycan öz dostları, qonşu dövlətlər ilə birlikdə məqsədinə nail oldu. Türkiyə-Gürcüstan-Azərbaycan birliyi, Amerika Birləşmiş Ştatlarının bu layihəyə və ümumiyyətlə, bütün enerji layihələrinə verdiyi dəstək, "bp" şirkəti başda olmaqla xarici şirkətlərin çox səmərəli fəaliyyəti, Azərbaycan Dövlət Neft Şirkətinin fəaliyyəti imkan verdi ki, biz bu əfsanəni reallığa, gerçəkliyə çevirdik.

Mən şübhə etmirəm ki, bundan sonra da Bakı-Tbilisi-Ceyhan Azərbaycan xalqına, bizim qonşu, dost ölkələrimizə çox böyük səmərə, fayda gətirəcəkdir. Bu kəmər, əlbəttə ki, ilk növbədə bizim iqtisadi problemlərimizin həlli üçün bizə kömək edəcəkdir. Sosial problemlərin həlli də öz əksini tapmalıdır. Amma eyni zamanda, biz onu da gözəl bilirik ki, regionda təhlükəsizlik sisteminin möhkəmlənməsi işində bu kəmərin rolu çox böyük olacaqdır. Buna ehtiyac var. Hələ ki, bölgədə sülh, əmin-amanlıq, təhlükəsizlik tam mənada bərqərar olunmayıbdır. Bölgədə təhlükələr var. Onlardan biri də Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz, bu təcavüzün nəticəsində torpaqlarımızın 20 faizinin işğal altına düşməsi və bir milyondan artıq azərbaycanlının qaçqın və köçkün vəziyyətində yaşamasıdır. Biz əminik ki, bütün imkanlardan istifadə edərək, ədaləti bərpa edəcəyik. Azərbaycan öz ərazi bütövlüyünü təmin edəcək və bizim suverenliyimiz tam bərpa olunacaqdır. Bölgədə buna bənzər digər separatçılıq hərəkətləri mövcuddur. Ona görə də Bakı-Tbilisi-Ceyhan neft kəmərinin bölgədə əməkdaşlığın, sülhün, təhlükəsizliyin təmin edilməsində mühüm rolu olacaqdır.

Bu kəmər eyni zamanda regional əməkdaşlıq baxımından da çox gözəl nümunədir, örnəkdir. Bu kəmər dünyanın ən iri, ən nəhəng enerji layihəsidir. Yalnız və yalnız üç ölkənin birgə fəaliyyəti, əməkdaşlığı və dostluğu nəticəsində biz bu kəməri bu gün istismara veririk. Türkiyə, Gürcüstan və Azərbaycanın rəhbərləri, vəzifəli şəxsləri, mütəxəssisləri vahid bir komanda kimi, bir ailə kimi bu kəmərin tikilməsi üçün fəal işləmişlər və onun istismara verilməsi gələcək regional əməkdaşlıqdan ötrü çox böyük əhəmiyyət kəsb edəcəkdir.

Kəmərin fəaliyyətindən əldə olunacaq gəlirlərin səmərəli istifadə edilməsi də bizi çox düşündürür. Azərbaycan hökuməti bu sahədə şəffaflığın təmin olunması üçün əlindən gələni edir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin qərarı ilə Azərbaycanda Neft Fondu yaradılmışdır və neft əməliyyatlarından əldə olunan bütün gəlirlər o Fondda cəmləşir. Fondda çox açıq, şəffaf şəkildə beynəlxalq






audit keçirilir və Azərbaycan vətəndaşları dəqiq məlumat əldə edirlər. Biz hesab edirik ki, Azərbaycan iqtisadiyyatına bu layihələrdən gələcək böyük vəsait səmərəli istifadə olunmalıdır, hər bir Azərbaycan vətəndaşı bu gözəl imkanlardan faydalanmalıdır və neft gəlirləri Azərbaycanda ədalətli bölünməlidir. Bizim hökumətimiz bunu təmin etmək üçün əlindən gələni edir və əminəm ki, buna nail olacağıq.

Mən bu gün Amerika Birləşmiş Ştatlarının dəstəyini xüsusi qeyd etmək istəyirəm. Hamımız gözəl bilirik ki, əgər bu dəstək olmasaydı, bizim planlarımız həyata keçə bilməzdi. Biz bu dəstəyi 1994-cü ildən başlayaraq bu günə qədər hiss edirik. Amerika Birləşmiş Ştatları hökumətinin bizim bütün enerji layihələrimizi dəstəkləməsi bu kəmərin istismara verilməsinə böyük kömək göstərdi. Biz çox şadıq ki, aramızda çox gözəl əməkdaşlıq var. Amerika və Azərbaycan müxtəlif sahələrdə çox səmərəli işləyirlər. Biz tərəfdaşıq, dünyada gedən proseslərə eyni baxışlarla yanaşırıq. Amerika Birləşmiş Ştatlarının energetika nazirinin bugünkü tədbirdə iştirak etməsi də göstərir ki, bu layihə ABŞ-ın maraqlarının təmin olunması üçün böyük əhəmiyyət kəsb edir.

Bu gün mən xüsusilə “bp” şirkətinin və onun prezidenti lord Braunun fəaliyyətini qeyd etmək istəyirəm. Buraya gəlməzdən əvvəl biz muzeydə nümayiş etdirilən ekspozisiya ilə tanış olduq, 1994-cü ildə “Əsrin müqaviləsi”nin imzalanması münasibətilə təşkil olunmuş mərasimdə çəkilmiş şəkilləri də gördük. Orada gördük ki, hörmətli lord Braun Heydər Əliyevlə birlikdə müqavilənin imzalanmasında iştirak edirlər. Lord Braunun fəaliyyəti həlledici rol oynamışdır və dünyanın aparıcı neft şirkəti olaraq “bp” şirkəti Azərbaycana, Azərbaycan iqtisadiyyatına çox böyük həcmdə sərmayə qoyubdur. Bu onu göstərir ki, bizim aramızda çox səmimi əlaqələr, qarşılıqlı hörmət, qarşılıqlı etimad, qarşılıqlı inam var. Biz bunu hiss edirik və görürük ki, “bp” şirkəti Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsinə çevrilibdir. Biz bunu çox yüksək qiymətləndiririk və çox şadıq ki, burada “bp”-ni təmsil edən insanlar bizimlə bərabər çox fəal işləyirlər və bu gün mən cənab Devid Vudvordun da xidmətlərini xüsusi qeyd eymək istəyirəm. Bütün başqa xarici neft şirkətlərinin nümayəndələrinin xidmətlərini qeyd edirəm və birgə fəaliyyətə görə onlara öz minnətdarlığımı bildirmək istəyirəm. Bizim aramızda çox gözəl münasibətlər var və xarici şirkətlərin Azərbaycanın bu gününə və sabahına da böyük inamı var. Əgər bu inam olmasaydı, heç vaxt Azərbaycana on milyardlarla dollar vəsait qoyulmazdı.

Bu gün Azərbaycan neftçilərinin də böyük bayramıdır. Mən bu bayram günündə bu yüksək kürsüdən Azərbaycan neftçilərini ürəkdən təbrik edirəm. Onlara salamlarımı çatdırmaq, öz hörmətimi bildirmək istəyirəm. Azərbaycan Dövlət Neft Şirkətinin bütün əməkdaşlarına öz səmimi salamlarımı çatdırıram. Layihələrin həyata keçirilməsində Azərbaycan Dövlət Neft Şirkətinin də müstəsna rolu olmuşdur və mən bunu çox yüksək qiymətləndirirəm. Fəxr edirəm ki, mənim də həyatımın böyük hissəsi – 9 ili Azərbaycan Dövlət Neft Şirkətində keçmişdir. Mən bütün neftçilərə, burada iştirak edən neftçilərə, bizim xarici həmkarlarımıza və burada olmayan bütün neftçilərə öz hörmətimi, ehtiramımı bildirmək istəyirəm. O illər mənim həyatımda çox mühüm illər idi, mənim fəaliyyətim üçün çox faydalı idi və mən o günləri heç vaxt unutmayacaq, yaddan çıxarmayacağam. Fəxr edirəm ki, 1994-cü ildən mən də bu layihələrin həyata keçirilməsində öz əməyimi göstərmişəm.

Bu gün bayram günüdür, hamımız sevinirik. Amma eyni zamanda, kədərli hisslər də keçiririk. Çünki Bakı-Tbilisi-Ceyhan neft kəmərinin memarı, təşəbbüskarı, Azərbaycanın neft strategiyasının təşəbbüskarı, müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyev bizim aramızda deyildir. Onun uzaqgörənliyi, qətiyyəti, onun fəaliyyəti olmasaydı, əminəm ki, biz bütün bu uğurlara nail ola bilməzdik. O, çox istəyirdi, çox gözləyirdi ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri nə vaxt istismara veriləcəkdir. 2002-ci ilin sentyabr ayında elə bu Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlqoyma mərasimi keçirilmişdir. O günü biz çox yaxşı xatırlayırıq. Heydər Əliyev ondan sonra dəfələrlə maraqlanırdı, soruşurdu ki, nə vaxt kəmər istismara veriləcək, hansı tarixdə işə başlayacaqdır. Ancaq tale ona nəsib etmədi ki, bu gün bizimlə bərabər olsun və bu günə sevinsin. Amma onun ideyaları yaşayır, siyasəti yaşayır, bu siyasət bu gün davam etdirilir, Azərbaycan xalqına böyük uğurlar gətirir və gələcəkdə də uğurlar gətirəcəkdir. Memarı, təşəbbüskarı Heydər Əliyev olan Bakı-Tbilisi-Ceyhan neft kəməri bu gün istismara verilir.

Əziz dostlar, bu gözəl bayram münasibətilə sizin hamınızı, Azərbaycan xalqını, türk xalqını, gürcü xalqını, bütün bizim dostlarımızı bir daha ürəkdən salamlayıram, sizə öz təbriklərimi çatdırıram. Arzu edirəm ki, bu kəmərin həyatı, fəaliyyəti uğurlu olsun, xalqlarımıza, bizim bölgəyə sülh, əmin-amanlıq, rifah, firavanlıq, xoşbəxtlik gətirsin. Sağ olun.

**Türkiyə Prezidenti**
**Əhməd Necdət Sezərin nitqi**

- Hörmətli Cümhurbaşqanları!
Hörmətli nazirlər!
Dəyərli iştirakçılar!





Dost və qonşu ölkələrin hörmətli Prezidentləri və nazirləri ilə birlikdə Azərbaycanda Bakı-Tbilisi-Ceyhan boru kəmərinin ilk bayramında iştirak etməkdən çox böyük sevinc hissi duyuram. Bu tarixi gündə qardaş və dost Azərbaycanda keçirilən tədbirə dəvət olunmağımdan böyük qürur hissi duyduğumu bildirirəm. Bu layihənin yaradıcılarından olan və onun həyata keçirilməsində tarixi rol oynamış, müasir Azərbaycanın qurucusu mərhum Heydər Əliyevin əziz xatirəsini hörmətlə yada salmaq istəyirəm.

Dünya üçün nümunə olan Səngəçal terminalında bir zaman xəyal kimi görünən, lakin bəşəriyyətin ən böyük enerji layihələrindən biri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru xəttinə ilk neftin doldurulmasına çox böyük qürur hissi ilə şahidlik edirik. Bu layihənin həyata keçirilməsində əməyi olan bütün iştirakçılara səmimi qəlbdən təşəkkürümü bildirirəm.

Hörmətli Prezidentlər!

Hörmətli nazirlər, iştirakçılar!

XXI yüzilliyin İpək yolu kimi adlandırılan Şərq-Qərb enerji dəhlizinin ən vacib elementi - Bakı-Tbilisi-Ceyhan neft kəməri bu regionun sabitliyi və inkişafı üçün çox böyük əhəmiyyət kəsb etməkdədir. Enerji təhlükəsizliyi sabitliyin və inkişafın əsas elementi kimi qarşımıza çıxmaqdadır. 2030-cu ilə qədər dünyada enerji istehlakı 60 faiz artacaqdır. Bu baxımdan Xəzər neftinin beynəlxalq bazarlara təhlükəsiz şəkildə nəqlini təmin edəcək Bakı-Tbilisi-Ceyhan boru kəmərinin həm regionda, həm də dünyada çox böyük rolu vardır. Bu boru kəməri Qərb bazarlarını Xəzər hövzəsinin nefti ilə təmin edəcəkdir ki, bu da xüsusi əhəmiyyətə malikdir.

Hər gün 1 milyon barrel və ildə 50 milyon ton həcmində neft daşıyacaq bu kəmər eyni zamanda, Türkiyə boğazları vasitəsilə nəql olunan təhlükəli yükləri azaldacaqdır. Bu layihənin həyata keçirilməsi Qafqazda çox böyük ehtiyac olan güclü işbirliyi şəbəkəsinin yaradılmasına öz töhfəsini vermişdir. Bakı-Tbilisi-Ceyhan boru kəməri eyni zamanda, Türkiyənin enerji siyasətinə də böyük miqyasda xidmət göstərəcəkdir. Ölkəmiz bu enerji mənbələrindən, coğrafi-strateji layihələrdən faydalanaraq, enerji istehlakçısı olan ölkələrə təhlükəsiz şəkildə neftin nəqlini təmin edəcəkdir. Türkiyənin məqsədi Ceyhan terminalını ticarət şəbəkəsinə çevirməkdir. Bakı-Tbilisi-Ceyhan layihəsi Türkiyənin bu məqsədlərə çatmasında çox mühüm bir mərhələdir.

Bu gün ilk nefti dolduracağımız boru kəmərinə Qazaxıstan neftinin də əlavə edilməsi onun əhəmiyyətini daha da artıracaq, Qazaxıstan neftinin çox əlverişli şəkildə Aralıq dənizinə çatdırılmasını təmin edəcəkdir. Bu baxımdan bu gün burada imzalanacaq sənədin çox böyük əhəmiyyəti vardır.

Hörmətli Prezidentlər!

Hörmətli nazirlər, iştirakçılar!

Şərq-Qərb enerji dəhlizinin ikinci hissəsini təşkil edən Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsinin həyata keçirilməsinin 2006-cı ildə başa çatmasını ürəkdən arzulayırıq. Türkiyə “Şahdəniz” layihəsində və digər layihələrdə iştirak etməyə böyük əhəmiyyət verir. Xəzərin təkindəki təbii qazın Avropa bazarlarına çatdırılması üçün Türkiyə-Yunanıstan-İtaliya təbii qaz boru kəməri ilə bağlı işlər də davam etməkdədir.

2030-cu ilə qədər 70-80 faiz genişlənməsi gözlənilən Avropa Birliyi ölkələri üçün təbii qaz istehlakının bir hissəsinin “Şahdəniz” yatağından və digər mənbələrdən təmin olunması nəzərdə tutulur. Bu işdə Türkiyənin çox mühüm rolu vardır. Türkiyə təbii qazın Avropaya çatdırılmasında Rusiya, Norveç və Əlcəzairlə birlikdə Avropa Birliyi üçün 4 əsas marşrutlardan birinə çevrilmişdir. Bununla birlikdə, Türkiyə Ceyhan terminalında maye təbii qaz terminalı yaratmaqla bölgənin yataqlarındakı təbii qazın ABŞ-ın şərq sahilindəki obyektlərə çatdırılmasını planlaşdırır.

Başqa bir layihə Şərq və Qərb arasında dəmir yolu xəttinin çəkilməsi ilə əlaqədardır. Bunun sayəsində Qars-Tbilisi-Bakı dəmir yolu sadəcə Türkiyəni, Qafqaz və Orta Asiyanı bir-biri ilə birləşdirməklə kifayətlənməyəcək, tarixi İpək yolunu XXI əsrdə yenidən bərpa etmiş olacaqdır.

Türkiyə Şərq-Qərb enerji dəhlizi ilə yanaşı, Şimal-Cənub dəhlizi layihəsinə də çox böyük önəm verir. Türkiyə Avrasiya bölgəsində Xəzəri Aralıq dənizinə, Qara dənizi isə Orta Şərqə bağlayacaq bir mövqeyə malikdir. Ona görə də bölgənin inkişafına xidmət edəcək bütün layihələrə qoşulmağa hazırdır.

Türkiyənin enerji strategiyasının əsas hissələrindən biri də enerji bazarının sərbəstləşdirilməsindən, enerji sahəsində müasir qanunların qəbul edilməsindən ibarətdir. Bu işlərin görülməsi, eyni zamanda, xarici sərmayəçilər üçün də çox cəlbedicidir. Hazırda ölkəmizdə enerji istehlakı ildə 6-7 faiz artır. 2020-ci ilə qədər bunu təmin etmək üçün 120 milyard dollar sərmayə qoyuluşuna ehtiyac vardır. Buna görə də Türkiyə bazarı xarici sərmayəçilər üçün cəlbedici bir bazardır.

Son olaraq demək istəyirəm ki, Türkiyənin yaxın gələcəkdə həyata keçirəcəyi layihələrlə dünyaya enerji daşıyıcılarının təhlükəsiz şəkildə nəqlinə öz töhfəsini verməsi hər zaman vurğulanır. Bakı-Tbilisi-Ceyhan boru kəməri bu istiqamətdə çox böyük əhəmiyyətə malik olacaqdır.

Sözlərimi bitirərək demək istəyirəm ki, Səngəçal terminalının, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarının rifahının yüksəlməsinə töhfə verəcəyinə əminəm. Hamınızı bir daha salamlayır, sizə dərin təşəkkürümü bildirirəm.

**Gürcüstan Prezidenti**
**Mixail Saakaşvilinin nitqi**

- Hörmətli həmkarlar!
Hörmətli qonaqlar!

Bilirsiniz ki, bu gun bizim üçün çox mühüm bir gündür. Həm mənim ölkəm, həm Azərbaycan, həm də Türkiyə üçün çox önəmli bir gündür. İnsanlar on il bundan əvvəl Bakıdan Gürcüstan vasitəsilə Aralıq dənizi sahilinə belə bir kəmərin çəkilməsini heç bir iqtisadi səmərəsi olmayan arzu kimi, reallaşmayan yuxu kimi görürdülər.

Gürcüstanın, Türkiyənin Xəzər hövzəsindəki enerji resurslarının daşınması işinə olan dəstəyi nəticəsində çox böyük işlər görülmüşdür. Prezident Əliyevin bu işin başa çatmasında, yəni Azərbaycan neftinin bu yolu keçərək Türkiyəyə çatması üçün çox böyük rolu olmuşdur.

Mən bu işdə bizi dəstəkləyən dostumuz Amerika Birləşmiş Ştatlarının da fəaliyyətini yüksək qiymətləndirirəm. "bp" tərəfindən rəhbərlik edilən konsorsium Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçməsi, reallaşması üçün böyük işlər görmüşdür. Artıq bu reallıqdır. Bu reallıq nəticəsində neft dünya bazarlarına çıxarılır. Bu, elə bir əməkdaşlıqdır ki, bundan ölkələrimiz yararlanırlar. Burada tranzit ölkə olan Gürcüstan çox vacibdir.

Mən demək istəyirəm ki, Gürcüstan illər boyu, əsrlər boyu Asiya, Avropa və Yaxın Şərq arasında körpü rolunu oynamışdır. Amma bunun nəticəsində, belə bir coğrafi-siyasi mövqeyə malik olduğumuz üçün



tarixən çox imperiyaların diqqət mərkəzində olmuşuq. İndi isə Gürcüstan elə bir yerə çevrilmişdir ki, dünyanın ən böyük enerji şirkətləri enerji təminatında və təhlükəsizliyində onun çox böyük rol oynadığını artıq qəbul etmişlər.

Biz belə düşünürük ki, bu gün enerji daşıyıcılarının nəqlində dəhliz rolunu oynamağımız vətəndaşlarımızın rifahının yüksəldilməsi işində çox böyük rol oynayacaqdır. Bilirsiniz ki, bu boru kəmərinin Gürcüstanın ərazisindən haradasa 239 kilometri keçir. Gürcüstan bunun vasitəsilə neftin həm Avropaya, həm də digər ölkələrə ötürülməsində ən vacib rol oynayan ölkələrdən biridir. Gürcüstanın Mərkəzi Asiya ölkələrinə vacib məhsulların daşınmasında da böyük rolu vardır.

Bilirsiniz ki, biz indi Gürcüstandan Türkiyəyə gedən böyük bir dəmir yolu layihəsindən danışırıq. Biz daha böyük layihələrə hazırıq və yeni yollar açmaq istəyirik. Birinci növbədə çalışırıq ki, əvvəllər bağlanmış sərhədləri açaq, qapalı dövlət statusundan yaxa qurtaraq. Biz qapımızı açmaqla, infrastruktur qurmaqla özümüzü beynəlxalq cəmiyyətə açmaq istəyirik. Çalışırıq ki, bütün enerji işinə cəlb olunaq, cəmiyyətin hər bir üzvü, hər bir fərdi başqa ölkələrdə olan vətəndaşlarla əlaqə saxlaya bilsin. Bu bizim sabahımız, gələcək rifahımız üçün çox vacibdir. Artıq bu gün bu cür arzular həyata keçməkdə, reallaşmaqdadır. Məhz bu gün belə bir işin şahidi oluruq.

Artıq biz uzun əsrlər boyu davam edən qapalılıq mentalitetindən yaxa qurtarmaq istəyirik. Bu gün elə bir iş görmək istəyirik ki, onun nəticəsində bizim region, insanlar və dünya bu fəaliyyətdən yararlana bilsin.

Diqqətinizə görə çox sağ olun.



**Qazaxıstan Prezidenti**
**Nursultan Nazarbayevin nitqi**

- Hörmətli cənab Prezident!
Hörmətli xanımlar və cənablar!

Mən bu gün sizin hamınızı əlamətdar bir hadisə - Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə salınması münasibətilə təbrik etməkdən çox böyük şərəf hissi duyuram. Artıq Xəzər hövzəsindən boru kəməri işə salınır. Bu tikintinin başa çatması yeni bir səhifə açacaqdır. Bu sadəcə, müstəqil Azərbaycanın tarixində deyil, eyni zamanda bizim ölkələrin də tarixində yeni bir səhifə açacaqdır.

Xatırlatmaq istəyirəm ki, bu layihənin müvəffəqiyyəti çox böyük, dahi bir şəxsiyyətin nailiyyətidir və o, bizim qəlblərimizdə həmişə yaşayacaqdır. Onun haqqında bizim xatirələrimiz zəngindir və həmişə onu yada salacağıq. Bu dahi şəxsiyyət unudulmaz Heydər Əliyevdir. Mən onun işini bütün bu illər ərzində müşahidə etmişəm. Biz çox yaxşı bilirik ki, o, nə kimi səylər, cəhdlər göstərmişdir ki, bu boru kəməri layihəsi həyata keçirilsin. Hamı üçün aydındır ki, ilk addımları atmaq o qədər də asan deyildi. Xüsusilə, belə böyük layihələrlə bağlı ilk addımları atmaq o qədər də asan deyildir.

Çox sevindirici bir haldır ki, hazırda Azərbaycanın Prezidenti olan cənab İlham Əliyev əldə edilmiş nailiyyətlərin hamısını davam etdirmək iqtidarındadır. Qazaxıstan Azərbaycanın müvəffəqiyyətlərini çox böyük diqqətlə müşahidə edir, bizə qonşu olan qardaş bir dövlətin, Azərbaycan xalqının bütün müvəffəqiyyətlərini yaxından müşahidə edir.

Qazaxıstan bu enerji sahəsinin inkişaf etdirilməsini istəyir və buna gələcəkdə iqtisadiyyatın dirçəldilməsinin əsas elementi kimi baxır. Qazaxıstanda neft və qazın ehtiyatları on milyardlarla ton həcmindədir. Biz bu ehtiyatların işlənməsinin gələcəyini düşünürük. Son il ərzində 60 milyon ton neft hasil olunmuşdur ki, bu da 2003-cü ilin göstəricisindən qat-qat yüksəkdir. Keçən il 21 milyard kubmetr qaz çıxarılmışdır. Bu, 2003-cü illə müqayisədə 1,5 dəfə artıqdır.

Xəzər hövzəsinin yataqlarında olan nefti hasil etməklə 2010-cu ildə Qazaxıstan neft çıxarılmasını artıracaq və 2015-ci ildə 150 milyon tona çatdıracaqdır. Qazaxıstanın coğrafi mövqeyi xüsusi şərtlər doğurur ki, bu da ixrac boru kəmərlərinin yaradılmasını labüd edir. Bizim qaz-neft sahəsinin inkişafında çox iri sərmayəçilərin iştirak etməsi, yəni ABŞ-ın, Avropanın, Rusiyanın, Çinin şirkətlərinin iştirak etməsi əməkdaşlığı beynəlxalq səviyyəyə çıxarır.

Qazaxıstan ixrac boru kəmərləri layihələrini coğrafi-siyasi əməkdaşlıq elementi kimi nəzərdən keçirir. Hazırda bəzi məsələlər ətrafında müzakirələr gedir. Bu məsələlər boru kəmərlərinin Rusiya ərazisindən çəkilişi barədədir.



Xəzər dənizinin yataqlarının işlənilməsinin genişləndirilməsi nəticəsində ildə 87 milyon ton neft ixrac etmək planlaşdırılır. Bu ilin dekabr ayında Çinə gedən boru kəmərinin tikintisi başa çatdırılacaqdır ki, bunun da uzunluğu 1000 kilometr olacaqdır. Onu başa çatdırandan sonra Qazaxıstan Qərbi Çinə ildə 20 milyon tona qədər neft ixrac edəcəkdir.

Əsas elementlərdən biri kimi, Bakı-Tbilisi-Ceyhan boru kəməri bizim ixrac potensialımızın artırılmasına xidmət edəcəkdir. Bu nöqteyi-nəzərdən qeyd etmək istərdim ki, hazırda Azərbaycan Qazaxıstan neftinin ixracında etibarlı tərəfdaşımızdır. Biz buna uzun müddətdir hazırlaşmışıq. Aktauda müasir liman yaratmışıq. Qazaxıstanda neft terminalları tikilmişdir. Bundan əlavə, Xəzər dənizindən neftin nəql olunması üçün yeni tankerlər alınmışdır. Eyni zamanda, biz milli neft donanması haqqında düşünürük ki, bunun da nəticəsində Qazaxıstan nefti nəql ediləcəkdir. Hazırda 3 milyon tondan çox neft Bakı istiqamətində nəql olunmuşdur. Keçən il Aktaudan Bakıya çox böyük miqdarda neft nəql edilmişdir. Lakin yeni layihənin həyata keçirilməsi ilə bu həcm getdikcə daha da artacaqdır.

İndi biz elə bir hadisəyə şahidlik edirik ki, bu, tarixə dönür. Bu bölgədə böyük ölkələrin strateji maraqları kəsişir. Buna görə də əlimizdən gələni etməliyik ki, Xəzər dənizi tarazlaşdırılmış, konstruktiv və məsuliyyətli məsələlərin həlli mərkəzinə çevrilsin.

Sizə məlum olduğu kimi, 1999-cu ilin noyabr ayında Qazaxıstan, Azərbaycan, ABŞ, Türkiyə və Gürcüstan Prezidentləri bu layihənin başlanması üçün İstanbul bəyannaməsini imzalamışlar. Biz görürük ki, bu səylər hazırda öz nəticəsini verir. Boru kəməri Qazaxıstan da daxil olmaqla, Xəzər dənizindəki təbii sərvətlərin

nəqlinə xidmət edir. Eyni zamanda bu bölgə ölkələrinin, xalqlarının inteqrasiyası üçün, sabitliyin bərqərar olunması, iqtisadi inkişaf üçün əsas yaradılmışdır.

Qazaxıstanın iqtisadi potensialı və onun tərəfdaşlarının potensialı, - onların arasında Azərbaycan da vardır, - bir daha göstərir ki, qarşımızda daha geniş əməkdaşlıq üfüqləri açılır. Mən sərmayəçiləri təbrik etmək istəyirəm ki, onlar bu nəhəng boru kəmərinin həyata keçirilməsinə vəsait xərcləmişlər.

Mən bu əlamətdar hadisə münasibətilə Azərbaycan Prezidenti cənab İlham Heydər oğlunu təbrik edirəm. Sizin xalqlarınızı təbrik edirəm. Çox sağ olun.

**Böyük Britaniyanın Kral ailəsinin üzvü,**
**York Hersoqu şahzadə Endryunun çıxışı**

- Hörmətli Prezident!

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən öz adımdan təbriklərimi çatdırmaq istəyirəm. Bu, Azərbaycan üçün çox mühüm bir andır. İlkin neftin Bakı-Tbilisi-Ceyhan neft kəmərinə doldurulması böyük bir strategiyanın, strateji baxışların təcəssümüdür, Heydər Əliyevin strateji baxışlarının təcəssümüdür.

Gürcüstan, Azərbaycan və Türkiyə son 10 il ərzində bu baxışları həyata keçirmək üçün birgə işləmişlər. Bu işdə ən yüksək texnologiyalardan istifadə olunmuş və yüksək keyfiyyətli, qlobal miqyaslı bir infrastruktur yaradılmışdır. Deyim ki, hətta son 25 il ərzində bu cür böyük tikinti, inşaat aparılmamışdır.

Mən Birləşmiş Krallığın beynəlxalq ticarət və sənaye üzrə xüsusi nümayəndəsi qismində bu tədbirə qatılmağıma görə çox şadam. Bilirəm ki, nəinki bizim



şirkətlər və həm də bir çox digər xarici şirkətlər bu infrastrukturun inkişaf etdirilməsində böyük rol oynamışdır. Biz bilirik ki, Bakı-Tbilisi-Ceyhan Azərbaycanı, Gürcüstanı və Türkiyəni bir-birinə birləşdirir və onlar üçün dünya bazarlarına çıxışı təmin edir. Bu da Bosfor boğazında yük daşımalarındakı gərginliyin azaldılmasına müəyyən töhfə verəcəkdir.

Biz bilirik ki, bu üç ölkə nəinki dünya iqtisadiyyatına, eyni zamanda, qlobal təhlükəsizliyə öz töhfəsini verəcəkdir. Bu boru kəməri bütün Azərbaycan xalqı üçün və region üçün təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Məlumdur ki, bir çox ölkələrdə təbii sərvətlər var, lakin bunların hamısına diqqəti yönəltmək düzgün olmazdı. Azərbaycan neft hasil edən ölkələr arasında dünyada ilk olaraq "Hasilat sənayesində şəffaflıq təşəbbüsü"nə qoşulmuşdur. Bu da ölkədə neftdən əldə edilən gəlirlərin idarə edilməsində, şəffaflığın təmin olunmasında öz rolunu oynayacaqdır. Azərbaycan bu təşəbbüsə ilk olaraq qoşulmuşdur. Birləşmiş Krallıq bu baxımdan Azərbaycanın gələcəyi ilə bağlı planlarını çox yüksək səviyyədə görür və inanır ki, Azərbaycan gələcəkdə demokratik, tərəqqi edən güclü dövlətə çevriləcəkdir. Məncə, heç kim buna şübhə etmir ki, Azərbaycan gələcəkdə daha böyük nailiyyətlər əldə edə biləcəkdir. Mən əmin etmək istəyirəm ki, Birləşmiş Krallıq bu işlərdə həmişə sizin tərəfinizdə olacaqdır.

Sizi təbrik edirəm. Diqqətinizə görə minnətdaram.

**ABŞ-ın energetika naziri**
**Samuel Bodmanın çıxışı**

- Hörmətli cənab Prezidentlər!

Hörmətli xanımlar və cənablar!

Bu gün necə də gözəl bir gündür. Biz indi burada maddi cəhətdən dünyamızı dəyişirik və burada iştirak etmək mənim üçün çox şərəfdir.

Ümumiyyətlə, Bakı-Tbilisi-Ceyhan layihəsi həddindən artıq əhəmiyyətli bir layihədir. Baxmayaraq ki, orada çoxlu texniki və maliyyə çətinlikləri vardı, lakin bu cür kəmərin tikintisi çox vacibdir. Çətin regionda, mühitdə belə işlərin görülməsi, xüsusilə kəmər boyunca yerləşən ərazilərdəki icmalar arasında bəzi problemlərin aradan qaldırılması asan iş deyildi. Əlbəttə, Azərbaycan, Türkiyə və Gürcüstanın hökumətləri və vətəndaşları bu işə böyük töhfə vermişlər. Mən həmçinin "bp", "Yunokal" və digər böyük şirkətlərə təşəkkür edirəm ki, onlar bu işi reallığa çatdırdılar.

Mən bu layihənin reallaşmasına Heydər Əliyevin dəstəyini yada salmaq istəyirəm. Əgər onun köməyi olmasaydı, onun güclü iradəsi olmasaydı, sizi inandıra bilərəm ki, indi biz bu gün burada olmayacaqdıq. Bu, Azərbaycanın tarixində çox mühüm, hətta regionun





tarixində çox mühüm bir məqamdır. Mən ona görə də ABŞ hökuməti, Birləşmiş Ştatların insanları adından bu layihənin həyata keçirilməsində əməyi olan hər kəsə təşəkkürümü bildirirəm.

Diqqətinizə görə çox sağ olun!

İndi isə mən Prezident Buşun cənab İlham Əliyevə ünvanladığı təbriki çatdırmaq istəyirəm:

***"Azərbaycan Respublikasının Prezidenti***
***Zati-aliləri***
***cənab İlham Əliyevə***

*Hörmətli cənab Prezident,*

*Bakı-Tbilisi-Ceyhan boru kəmərinə ilkin neftin doldurulması münasibətilə Sizi və Azərbaycan xalqını təbrik edirəm. Azərbaycanın Birləşmiş Ştatlardakı, Avropadakı və digər ölkələrdəki dostları bu əlamətdar nailiyyətə Sizinlə birgə sevinirlər.*

*Bakı-Tbilisi-Ceyhan Xəzər hövzəsinin inkişafında yeni mərhələnin başlanğıcıdır. O, Xəzər neftinin kommersiya baxımından səmərəli və ekoloji baxımdan təhlükəsiz formada Avropaya və digər bazarlara çıxarılmasını təmin edəcəkdir. Eyni zamanda, Bakı-Tbilisi-Ceyhan Azərbaycan, Gürcüstan və Türkiyənin dünya iqtisadiyyatına inteqrasiyasını daha da dərinləşdirəcəkdir. Biz bu enerji dəhlizi çərçivəsində Qazaxıstanla qurulan tərəfdaşlığı alqışlayırıq və ümid edirik ki, Xəzər regionunda bu və ya digər yerlərdə neft hasil edən şirkətlər dünya bazarlarına çıxış əldə etmək üçün Bakı-Tbilisi-Ceyhan boru kəmərindən istifadə edəcəklər.*

*Azərbaycan "Əsrin müqaviləsi"ni imzaladıqdan etibarən on ildən artıq müddət ərzində inanılmaz liderlik məharətini nümayiş etdirmişdir. "Azəri", "Çıraq", "Günəşli" neft yataqlarının beynəlxalq səviyyədə işlənilməsi qərarı regional çətinliklər zolağında yeni müstəqil Azərbaycanın ümidli gələcəyinə aparan cəsarətli addım olmuşdur. Türkiyə və Gürcüstanın qətiyyətli rəhbərliyi ilə birgə işləyərək və özəl sərmayəçilərlə tərəfdaşlıq edərək, Azərbaycan dünya miqyaslı layihəni yaratmışdır. Azərbaycan öz demokratik və bazar iqtisadiyyatı islahatlarını genişləndirdiyi bir vaxtda, bu boru kəməri tarazlaşdırılmış iqtisadi artıma nail olmaqda yardımçı olur və azadlığı daha da inkişaf etdirən çiçəklənən və ədalətli cəmiyyətin qurulması üçün zəmin yaradır.*

*Birləşmiş Ştatlar Bakı-Tbilisi-Ceyhan boru kəmərini davamlı şəkildə dəstəkləmişdir, çünki biz inanırıq ki, layihə qlobal enerji təhlükəsizliyini möhkəmləndirəcək, iştirakçı ölkələrin enerji müxtəlifliyini gücləndirəcək, regional əməkdaşlığı təşviq edəcək və beynəlxalq sərmayə imkanlarını genişləndirəcəkdir. Biz əmin-amanlıq, ədalət və sülhün inkişaf etdirilməsi üçün Azərbaycan xalqı ilə sıx işləmək arzusundayıq.*

*Səmimiyyətlə,*

***Corc Buş***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti"***

**Avropa Komissiyasının enerji məsələləri üzrə**
**komissarı Andris Pibalqsın çıxışı**

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən bu gün imkan əldə etdiyimə görə, bu çox mühüm və təntənəli mərasimdə Avropa Komissiyasının adından iştirak etməyimdən çox böyük qürur hissi duyuram. Hər şeydən əvvəl, mən bu çox vacib infrastrukturun tikintisinin başa çatması ilə əlaqədar hamınızı təbrik etmək istəyirəm. Əlbəttə ki, bu layihə bütün iştirak edən ölkələrin inkişafına, sabitliyinə xidmət edəcəkdir. Eyni zamanda, Avropaya və dünyaya enerji daşıyıcılarının nəqlinin təhlükəsiz bir şəkildə həyata keçirilməsinə xidmət edəcəkdir.

Mən Azərbaycan, Gürcüstan və Türkiyənin siyasi dairələrini təbrik etmək istəyirəm ki, onlar bu layihənin həyata keçməsində iştirak etmək üçün kifayət qədər şərait yaratmışlar. Eyni zamanda, bütün şirkətləri təbrik etmək istəyirəm ki, lazımi məsələlərin həllini vaxtında tapmaqla bu layihənin həyata keçirilməsinə xidmət etmişlər.

Hörmətli xanımlar və cənablar!

Gələn il Türkiyə Avropa Birliyinə daxil olmaq barədə danışıqlar aparacaq, Azərbaycanla Gürcüstan isə Avropanın "Yeni qonşuluq siyasəti"nə daxil olunmuşlar. Avropa Birliyi bu ölkələrlə əməkdaşlıq əlaqələrini fəal



şəkildə genişləndirir, təbii sərvətlərin Xəzər hövzəsindən dünya bazarlarına daşınması da daxil olmaqla, bütün sahələrdə daim öz siyasi və texniki yardımını əsirgəmir.

Bakı-Supsa boru kəməri ilə Avropanın və dünyanın digər ölkələrinin bazarlarına neft göndərilir. Bu gün açılışı olan kəmərlə ildə 50 milyon ton neft ixrac ediləcəkdir. Bakı-Tbilisi-Ceyhan layihəsinin bütün dünya bazarları üçün böyük əhəmiyyəti vardır. Avropa Birliyi ona görə də karbohidrogenlərin təhlükəsiz bir şəraitdə nəql olunması baxımından bu layihənin böyük əhəmiyyətini qiymətləndirir. Çünki biz başa düşürük ki, ildə nəql olunacaq 50 milyon ton neft Bosfor boğazında gərginliyin azalmasına xidmət edəcəkdir.

Biz bir çox yerlərdə baş vermiş qəzaları yaxşı xatırlayırıq. Əlbəttə, biz heç düşünə bilmirik ki, Qara dənizdə belə bir qəza baş versə, onun nəticələri necə ola bilər. Avropa Birliyinin Xəzər hövzəsindəki fəaliyyəti, sadəcə, neft sektorundakı fəaliyyətlə kifayətlənmir. Mən Avropa Birliyinin Xəzər dənizi hövzəsi ölkələrinin və qonşu ölkələrin nazirləri arasında 2004-cü ilin noyabrında keçirdiyi görüşü xatırlatmaq istəyirəm. O görüş məhz Bakıda keçirilmişdi və Qafqazdan, Orta Asiya və Şərqi Asiyadan iştirak edən dövlətlər enerji sektorunda hüquqi və texniki standartları harmonizə etmək, yeni sabitləşdirmək, enerji daşıyıcıları təchizatının idarə olunmasını təşkil etmək, bu təchizat sahəsində təhlükəsizliyi təmin etmək barədə, əməkdaşlıq barədə razılığa gəlmişlər. Biz inanırıq, bu əməkdaşlıq çərçivəsi bizə uzunmüddətli işbirliyi yaratmağa imkan verəcək ki, Xəzər və Qara dənizlərindən karbohidrogenlər Avropa və dünya bazarlarına daşınmış olsun.

Sizi bir daha təbrik edirəm. Diqqətinizə görə minnətdaram.

**"bp" şirkətinin prezidenti**
**lord Con Braunun çıxışı**

- Zati-aliləri cənab Prezident Əliyev!
Cənab Prezident Nazarbayev!
Cənab Prezident Sezər!
Cənab Prezident Saakaşvili!
Hörmətli nazirlər, xanımlar və cənablar!

Mənim üçün bu gün burada iştirak etmək şərəfdir. Çünki bu, tarixin yaradılmasının bir anıdır. Bu, "bp" və onun tərəfdaşları üçün çox önəmli bir andır. Azərbaycan və onun xalqı üçün, bütün region üçün də tarixi bir andır. Azərbaycanın yüz illər bundan öncədən dünya neft sənayesində oynadığı mühüm rolun yenidən dirçəlməsi və bərpa olunması andır. Əgər siz neft, qaz sənayesinin dünyanı istilik və işıqla təmin etmək potensialı ilə bağlı 1859-cu ildə aparılmış akademik tədqiqat işlərinə baxsanız, orada görərsiniz ki, Bakının adı dünyada neft və qazın mövcud olduğu sayca çox az yerlərdən biri kimi çəkilir. 100 il bundan öncə dünyanın neft təminatının yarısı bu regiondan gəlirdi. İndi, 2005-ci ildə Azərbaycan dünya sənayesinin ürəyində özünün mühüm rolunu yenidən bərpa edir.

Bu, "bp" üçün ilk başlanğıcın sonudur. Bu ilk başlanğıc demək olar ki, 10 ildən də əvvəl başlayıb və indi də davam edir. Bunun üçün mən Azərbaycan dövlətinə, hökumətinə, Prezident İlham Əliyevə və əlbəttə ki, dahi şəxsiyyət mərhum Heydər Əliyevə təşəkkür etmək istəyirəm. Məhz onun təsiri və nüfuzu sayəsində bu layihənin irəliləyişi mümkün olmuşdur. Mən Gürcüstan və Türkiyə hökumətlərinə, Avropa





ölkələrinin hökumətlərinə və ABŞ hökumətinə təşəkkür edirəm. Azərbaycan Dövlət Neft Şirkəti də daxil olmaqla, digər bütün tərəfdaşlarımıza təşəkkür edirəm. Bu boru kəmərini Devid Vudvordun rəhbərliyi altında tikmiş bütün işçi heyətə təşəkkür edirəm.

On il əvvəl hamı deyirdi ki, bu boru kəmərinin tikintisi qeyri-mümkündür və çox çətindir. Bizim sənayemiz mümkün olan işi daha da genişləndirən bir biznesdir. Amma əgər çoxsaylı digər insanların razılığı və əməkdaşlığı olmasaydı, biz bunların heç birini edə bilməzdik.

Bakı-Tbilisi-Ceyhan XXI əsrin ilk nəhəng infrastruktur layihələrindən biridir. Onun başa çatması əməkdaşlıq sayəsində nələrə nail olmağın mümkünlüyünü ifadə edən bir rəmzdir. Elə bir rəmzdir ki, o müxtəlif ölkələr, dövlətlər, xalqlar, milli şirkətlər və beynəlxalq biznes arasında əməkdaşlıq vasitəsilə nələrə nail olmağın mümkünlüyünü əks etdirir.

Biz həmçinin bilirik ki, təbii, ətraf mühitin qorunması üçün çox mühüm işlərdən biri də belə layihələrin həyata keçirilməsidir. Bakı-Tbilisi-Ceyhan dünya bazarına yeni neft həcmləri daşıyacaq bir layihədir.

Dediyim kimi, bugünkü tədbir ilk başlanğıcın sonudur, həmçinin yeni işlənmə mərhələsinin başlanğıcıdır. Bakı-Tbilisi-Ceyhan dünya bazarına yeni neft həcmləri daşıyacaq və göstərəcək ki, təminata nail olmağın ən yaxşı yolu təchizat mənbələri və ticarət marşrutlarının çoxsaylı olmasıdır. Bakı-Tbilisi-Ceyhan bu regiona resurslar gətirilməsinə kömək edəcəkdir. Sərmayə, gəlir və məşğulluq - bunların hamısı iqtisadi inkişaf və irəliləyiş üçün yeni imkanlar yaradacaq, yeni sərvət və imkanlar yaranacaq, bu regionun bütün insanları bundan bəhrələnəcəklər. Ümid edirik ki, həmin inkişaf üçün uzunmüddətli əsas olacaq və onu genişləndirmək üçün biz öz rolumuzu oynaya biləcəyik.

Bu cür layihələr onilliklərlə ölçülən, ömrü uzun olan layihələrdir. Ümidvaram ki, bu boru kəməri vasitəsilə yaranan əməkdaşlıq nümunəsi ilə biz milli dövlətlərin və özəl biznesin ümumi bir məqsəd uğrunda birgə işləməsinin şahidi olduq. Bunun sayəsində bacarıq və texnologiyanın birgə tətbiqi nələrə nail olmağın mümkünlüyünü nümayiş etdirdi.

Çox sağ olun.

**ARDNŞ-nin prezidenti**
**Natiq Əliyevin çıxışı**

- Möhtərəm cənab Prezident!

Çox dəyərli qonaqlar, hörmətli xanımlar və cənablar!

Üç il öncə, 2002-ci il sentyabrın 18-də burada, Səngəçal terminalında, xalqımızın ümummilli lideri Heydər Əliyev Gürcüstan və Türkiyənin Prezidentləri ilə birgə, Amerika Birləşmiş Ştatlarının energetika nazirinin, İngiltərə, Fransa, Norveç və başqa dövlətlərin nümayəndələrinin iştirakı ilə Xəzər regionunda XXI əsrin ən iri layihələrindən biri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlini qoydu. Bu tarixi hadisə həm Azərbaycanın, həm də bütövlükdə Xəzər bölgəsinin neft və qaz yataqlarının zəngin potensialını hərəkətə gətirərək, yeni inkişaf mərhələsinə geniş yol açdı, xarici sərmayələrin axınının artırılmasına zəmin yaratdı, beynəlxalq əməkdaşlığı daha möhkəm və dönməz etdi.

O tarixi gündən sonra böyük və nəhəng işlər göründü, eyni zamanda layihənin həyata keçirilməsi yolunda müxtəlif problemlər və çətinliklər oldu. Lakin buna baxmayaraq, Bakı-Tbilisi-Ceyhan boru kəməri əfsanədən reallığa çevrildi.

Bakı-Tbilisi-Ceyhan boru kəmərinin Azərbaycan hissəsinə ilk neftin daxil olması və onun istifadəyə verilməsi və bu tarixi hadisəyə həsr edilmiş təntənəli mərasim Heydər Əliyevin uzaqgörənliyinin, müdrikliyinin, xalqına sonsuz məhəbbətinin və yaratdığı yeni neft strategiyasının növbəti təntənəsidir.

Bu münasibətlə mən öz adımdan, bu layihədə iştirak edən çoxsaylı tərəfdaşlarımız adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və onun yaxın həmkarlarını - Türkiyə, Gürcüstan və Qazaxıstan Prezidentlərini təbrik edir və onlara yeni-yeni qələbələr arzulayıram.

Heydər Əliyevin neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycanın böyük neftinin dünya bazarlarına nəqlidir. Buna nail olmaq üçün Azərbaycanın neft sənayesində bu vaxta kimi görünməmiş böyük, nəhəng işlər getmiş, irimiqyaslı layihələr həyata keçirilmişdir.

Qısa bir müddətdə Azərbaycanda neft hasilatı kəskin surətdə artmışdır. 2005-ci ildə neft hasilatı 20 milyon tondan artıq gözlənilir. Bunun 11,5 milyon tonu "Azəri" və "Çıraq" yataqlarından çıxarılacaqdır. Bu il fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Mərkəzi Azəri" platformasına səfər etdi və ilk neftin hasil olunmasını tarixi hadisə kimi qiymətləndirdi. Cari ildə bu platformadan 35 milyon barrel, ya təxminən 5 milyon ton xam neft hasil olunacaqdır. Orta hesabla gündə "Mərkəzi Azəri" platformasından 93 min barrel və "Çıraq-1" platformasından 145 min barrel neft hasilatı nəzərə alınmaqla, təkcə bu iki platformadan gündəlik hasilat təxminən 240 min barrel təşkil edir. Bu isə Bakı-Tbilisi-Ceyhan boru kəmərinin ümumi gücünün dörddə birinə bərabərdir.

"Mərkəzi Azəri"də işlər sürətlə davam edir. Kompressor və suvurma platformasının inşası 92 faiz



yerinə yetirilib və bu ilin üçüncü rübündə dayaq blokunun üstündə quraşdırılacaqdır.

"Qərbi Azəri"də öncə dörd qabaqlayıcı quyu qazılmış və gözlədiyimizdən daha yaxşı nəticələr vermişdir. "Qərbi Azəri"nin dayaq bloku artıq dənizdə öz nöqtəsində quraşdırılmışdır. Üst modulların inşası 93 faiz tamamlanıb və dördüncü rübdə dayaq blokunun üstündə quraşdırılıb istifadəyə veriləcəkdir.

"Şərqi Azəri" yatağının işlənilməsi üçün platformanın tikintisi 67 faiz yerinə yetirilib, gələn ilin ikinci rübündə tikintisi başa çatacaqdır.

Səngəçal terminalı öz həcminə, texniki və texnoloji xüsusiyyətlərinə görə dünyada bu qəbildən olan obyektlərdən ən irisi hesab olunur. Artıq "Azəri", "Çıraq", "Günəşli" yataqlarının tammiqyaslı işlənilməsinin birinci mərhələsində xam neftin və qazın qəbulu, nəqli üçün tikinti işləri 100 faiz görülmüş və obyektlər istifadəyə verilmişdir. İkinci mərhələsi üçün isə tikinti işləri 65,4 faiz yerinə yetirilmişdir.

"Şahdəniz" yatağının işlənilməsi və Cənubi Qafqaz boru kəməri layihələri də uğurla həyata keçirilir. Ən müasir standartlara cavab verən "TPG-500" platforması 2006-cı ilin aprel ayında istifadəyə veriləcək, Səngəçal terminalında "Şahdəniz" qazının qəbulu, emalı və nəqli üçün qurğuların tikilməsi gələn ilin may ayında tamamlanacaqdır.

Cənubi Qafqaz boru kəməri 2006-cı ilin avqust ayında istismara veriləcək, Azərbaycan qazını 2006-cı ilin sentyabr ayında Türkiyəyə çatdıracaqdır.

Gördüyümüz işlərin nəticəsində həm Azərbaycanın, həm də qardaş Gürcüstan və Türkiyənin xam neft və qazla təmin olunmasına, elektrik enerjisinin istehsalına əlverişli şərait və imkan yaradılır.

Şübhə yoxdur ki, bu enerji daşıyıcıları regionun bütün ölkələrinə yeni həyat enerjisi verəcək və iqtisadiyyatın inkişafını təmin edəcəkdir. Bunun əsası və bünövrəsi isə Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan ixrac boru kəməridir.

Bakı-Tbilisi-Ceyhan kəməri Xəzərlə Aralıq dənizi arasında ilk və Türkiyə boğazlarından yan keçən birbaşa nəqliyyat xəttidir. Kəmər dünya bazarını gündə 1 milyon barrel xam neftlə təchiz edəcəkdir. Bu, dünyanın bugünkü tələbatının 1,3 faizinə bərabərdir, 2007-2008-ci illərdə isə dünyanın artan neftə ümumi tələbatının 25 faizini təmin edəcəkdir.

Bakı-Tbilisi-Ceyhan neft boru kəməri neft hasil edən Xəzəryanı ölkələr üçün də yeni imkanlar yaradır. Bu kəmər vasitəsilə ildə təxminən 20-25 milyon ton



Qazaxıstan neftinin nəql olunması barədə planlar nəzərə alınıbdır. Bununla əlaqədar Transxəzər sisteminin yaradılması haqqında Qazaxıstan və Azərbaycan arasında Saziş hazırlanmış və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevə təqdim edilmişdir.

Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin tikintisi başa çatır və ən məsuliyyətli mərhələsindədir. Tikintiyə minlərlə insan cəlb olunub, işlərin ən qızğın çağında 22 mindən artıq işçi çalışıbdır. Üç ölkənin dövlət başçılarının bilavasitə rəhbərliyi və ciddi nəzarəti ilə böyük işlər görülmüşdür. Xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasətinin davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu layihəyə daim diqqət yetirib, çoxsaylı görüşlər və danışıqlar aparıb, işlərin gedişi ilə maraqlanıb, ortaya çıxan problemlərin və çətinliklərin aradan götürülməsində şəxsən özü əvəzsiz səylər göstərib, dəyərli yardımını əsirgəməyibdir.

2004-cü il iyunun 8-də Prezident İlham Əliyev Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisinin gedişi ilə tanış olmuş, kəmərin Yevlax rayonundan keçən hissəsində və burada yerləşən nasos-kompressor stansiyasının quraşdırılmasında görülən işləri izləmiş, öz tapşırıqlarını və məsləhətlərini vermişdir. 2004-cü il oktyabr ayının 16-da Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Mixail Saakaşvili Ağstafa rayonunda Bakı-Tbilisi-Ceyhan kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşməsi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmişlər.

Bu fürsətdən istifadə edərək, mən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Gürcüstan Prezidenti Mixail Saakaşviliyə, Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezərə gərgin əməklərinə və xidmətlərinə görə təşəkkür edir və dərin minnətdarlığımı bildirirəm.

Bakı-Tbilisi-Ceyhan kəmərinin tikintisinə bir zaman inanmayan, əleyhinə olan və müxtəlif uydurmalar, şayiələr, böhtanlar yayan, guya "vətənini sevən və onun inkişafı uğrunda çalışan" müxalif qüvvələrin və xaricdə olan bəzi dairələrin və qurumların səylərinə baxmayaraq, artıq kəmər istifadəyə verildi.

Azərbaycan Avropa və Asiya arasında əlaqələrin genişləndirilməsində, nəqliyyat və enerji dəhlizinin inkişafında, İNOGEYT, TRASEKA və digər nəhəng layihələrin gerçəkləşməsində mühüm rol oynayan bir dövlətə, dünyanın neft mərkəzlərindən birinə çevrilir.

Respublika və xalqımız bu gün bayram əhval-ruhiyyəsindədir. Ümummilli liderimiz Heydər Əliyevin dərindən düşünülmüş neft strategiyası nailiyyətlər qazanır, zəfər çalır.

Bakı neftinə uğurlu yol! Ceyhanda görüşənədək!

Diqqətinizə görə təşəkkür edirəm.

**Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Devid Vudvordun çıxışı**

- Zati-aliləri cənab Prezident İlham Əliyev!
Zati-aliləri cənab Prezidentlər!
Hörmətli xanımlar və cənablar!

Bu gün Səngəçal terminalında ən əlamətdar hadisə münasibətilə çıxış etmək mənim üçün böyük şərəfdir. Burada çoxsaylı ölkələrin, şirkətlərin və təşkilatların təmsil olunması bugünkü tədbirin nə qədər mühüm olduğunu bir daha sübut edir. "Mərkəzi Azəri"dən hasilatın başlanması "Azəri", "Çıraq", "Günəşli" layihəsinin tammiqyaslı işlənməsinin yalnız birinci mərhələsidir. Biz üzümüzə gələn illər ərzində ikinci və üçüncü mərhələləri başa çatdırdıqca, "Azəri", "Çıraq", "Günəşli" yataqlarının gündəlik hasilatı 2008-ci ilə qədər bir milyon barreldən çox olacaqdır. Bu isə o deməkdir ki, dünyanın gözlənilən yeni neft tələbatının 25 faizini bu layihələr təmin edəcəkdir.

Bu gün bizim burada olduğumuz Səngəçal terminalı genişləndirilmişdir ki, həmin nefti qəbul edə bilsin. Bu, dünyanın ən böyük neft və qaz terminallarından biridir. Tam hazır olduqda bu obyekt "Azəri", "Çıraq", "Günəşli" yataqlarından gündə bir milyon barrel neft, "Şahdəniz"in birinci mərhələsindən isə gündə 900 milyon kubmetr qaz qəbul edəcəkdir. Bakı-Tbilisi-Ceyhan kəmərinin əsas nasos stansiyası da burada yerləşir. Terminal Xəzərin şərq tərəfindən gələcək nefti də qəbul edəcəkdir. Bu isə onu göstərir ki, bu terminal ən böyük regional neft və qaz nəqli mərkəzinə çevriləcəkdir. Bu layihələrin hamısının birlikdə tələb olunan sərmayəsi 14 milyard dollardan çox olacaqdır.

Uzunluğu 1770 kilometr olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan ixrac boru kəmərinin ümumi dəyəri isə 3 milyard dollardan bir qədər artıqdır. Bu boru kəməri heyranedici texniki nailiyyətdir. O, Xəzər dənizindən Aralıq dənizinə qədər 3 min metr hündürlüyündə dağlardan, 1500 çay keçidindən və 7 seysmik zonadan keçir. Bu il, bir müddət sonra Ceyhan terminalından ilk tankeri yola salarkən bir daha dünyaya göstərəcəyik ki, biz Xəzər neftini onsuz da çox yüklənmiş və ekoloji cəhətdən həssas olan Türkiyə boğazlarından yan ötməklə dünya bazarlarına çatdıra bilirik.

"Şahdəniz" yatağının istismarına da tezliklə, gələn il başlanacaqdır. Əminik ki, bundan sonra Azərbaycan, Gürcüstan və Türkiyə Cənubi Qafqaz boru kəməri vasitəsilə qazla təmin ediləcəkdir.

Bunların hamısı çox böyük nailiyyətdir. Amma ən böyük nailiyyət və ən əlamətdar olanı odur ki, bu



obyektlərin hamısı dünyanın ən yüksək texniki, texnoloji və ətraf mühitin qorunması standartlarına riayət etməklə tikilmişdir. Bununla da biz öz əməliyyatlarımızda ətraf mühitə təsiri, habelə inşaat dövründə də tikinti işlərinin təsirini minimuma endirməyə nail olmuşuq.

Biz çox ciddi işləmişik ki, boru kəməri boyunca yaşayan əhaliyə, bizim yaxın qonşularımıza heç bir ziyan vurmayaq, əksinə, onlara xeyir verməyi, mənfəət gətirməyi təmin edək. Tikintinin həmin əhaliyə təsirini minimuma endirmək üçün çox işlər görmüşük və səylər göstərmişik. Tikinti işləri ilə bağlı Bakıdan Ceyhana qədər bir nəfər də olsun öz evindən köçürülməmişdir. Torpaq sahiblərinə yaxşı kompensasiyalar verilmişdir. Genişmiqyaslı ictimai sərmayə proqramları həyata keçirilir, məktəblər, klinikalar tikilir, nümunəvi təsərrüfatlar yaradılır, mikromaliyyələşmə layihələri həyata keçirilir ki, əhaliyə öz səriştəsini artırmaqda kömək etsin.

Biz yerli ehtiyatlardan maksimum istifadə etmişik. Xərclədiyimiz pulların təqribən 30 faizi yerli şəraitdə, yəni Azərbaycanda xərclənir. Biz həmçinin şəffaflığın ən yüksək səviyyəsinə nail olmuşuq. Təkcə bu layihələr üzrə bağlanmış sazişləri açıqlamamış, həm də yerli qeyri-hökumət təşkilatlarının bizim işlərimizdə iştirakını təmin etmişik. Azərbaycan, Gürcüstan və Türkiyə hökumətlərinin rəhbərliyi və dəstəyi olmadan bunların heç biri həyata keçməzdi.

Mən xüsusilə Prezident Heydər Əliyevin rəhbərliyini qeyd etmək istəyirəm. Məhz o, on il bundan əvvəl "Əsrin müqaviləsi"ni imzalamışdır. İndi isə, on il sonra, növbəti əsrdə biz onun arzusunu həyata keçirən bir tədbirdəyik. Mən həmçinin Azərbaycan Dövlət Neft Şirkətinə və bizim digər tərəfdaşlarımıza - "Yunokal", "Statoyl", "İnpeks", "Türkiyə Petrolları", "EkssonMobil", "Devon", "İtoçu", "Amerada Hess", "Total", "Eni" "KonokoFilips" və başqa şirkətlərə təşəkkürümü bildirirəm.

Mən xüsusilə Azərbaycan Dövlət Neft Şirkətinin əməyini qeyd etmək istəyirəm. Onların bizə olan dəstəyi və yardımı olmasaydı, çox güclü tərəfdaşlıq olmasaydı, bu layihələrin heç biri uğurlu ola bilməzdi.

Mən layihəyə kredit vermiş təşkilatların – Beynəlxalq Maliyyə Korporasiyasının, Avropa Yenidənqurma və İnkişaf Bankının da yardımını qeyd etmək istəyirəm. Bizim bugünkü bayramımız çox qarşılıqlı bir nailiyyəti ifadə edir və bunun gələcək illərdə də davam edəcəyini gözləyirik.

Biz həmçinin bilirik ki, bu layihə son dərəcə mürəkkəb bir layihədir. Mən öz işçilərimizə təşəkkür etmək istəyirəm. Onlar bu mürəkkəb işin öhdəsindən peşəkarlıqla gəlmişlər və ilk yolaçanlar kimi böyük rol oynamışlar. Bir sözlə, mümkün olmayanı mümkün edən

tərəfdaşların hamısının bu işdə böyük əməyi vardır. Ona görə də sözümün sonunda bugünkü bayramı mümkün etmiş bütün insanlara, tədbirdə iştirak edənlərin hamısına təşəkkür edirik. Hamınıza minnətdarıq.

Bu əlamətdar günün rəmzi olaraq hədiyyələr veririk ki, bu tarixi gündən gözəl xatirəniz qalsın. Çox sağ olun.

Prezidentlərə və rəsmi qonaqlara xatirə hədiyyələri təqdim olundu.

Fransanın Azərbaycandakı səfiri Rolan Blatman Prezident Jak Şirakın təbrik məktubunu oxudu:

***"Azərbaycan Respublikasının Prezidenti***
***Zati-aliləri***
***cənab İlham Əliyevə***

*Mən bu məktubumla Azərbaycanın sadiq dostu olan Fransanın onun inkişafına və qonşuları ilə əlaqələrinin möhkəmləndirilməsinə davamlı diqqət yetirdiyini təsdiq etmək istəyirəm.*

*Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılış mərasimi böyük dövlət xadimi, Prezident Heydər Əliyevin strateji baxışlarının həyata keçirilməsinə yönəlmiş və uzun illər ərzində göstərilmiş səylərin nəticəsidir. İlk günlərdən bu nəhəng layihəyə öz dəstəyini vermiş Fransa belə bir günün Azərbaycan və bütün region üçün tarixi əhəmiyyətini yüksək dəyərləndirir. Fransa Respublikası boru kəmərinin timsalında Azərbaycanın seçdiyi inkişaf strategiyasının düzgün olmasının təsdiqini görür. Fransa öz müəssisələri və banklarının bu layihənin uğurla həyata keçirilməsində iştirakından qürur hissi duyur.*

*Bakı-Tbilisi-Ceyhan neft boru kəməri əslində sadə bir infrastruktur deyil, o, həm də Azərbaycanın Mərkəzi Asiya hüdudlarından kənarda dünya iqtisadiyyatına qovuşması siyasətinin bir meyarıdır. O, eyni zamanda, Qafqazın Avropa ilə yaxınlaşması üçün alətdir. Tezliklə Bakı-Tbilisi-Ceyhan boru kəməri bizim neft emalı zavodlarımızı Azərbaycan nefti ilə doldurmağa və iqtisadi əlaqələrimizi daha da möhkəmləndirməyə imkan verəcəkdir. İkinci mərhələdə isə, yeni boru kəməri Avropaya Xəzər dənizinin qazını əldə etməyə imkan verəcəkdir. Bu əlaqələr gələcəkdə inkişaf etdirilməlidir və bu baxımdan, dəmir yolunun tikintisi layihəsi buna töhfə verəcəkdir.*

*Eyni zamanda, Bakı-Tbilisi-Ceyhan boru kəməri Fransanın uğrunda qətiyyətlə mübarizə apardığı davamlı inkişafın məqsədlərinə nail olmağa xidmət edəcəkdir. 2002-ci ilin sentyabr ayında ifadə etdiyim arzuya uyğun olaraq, bu layihənin həyata keçirilməsi kənd təsərrüfatına, kiçik və orta sahibkarlığa yardım proqramları ilə müşayiət olunmuşdur və həmin proqramlar gələcək onilliklər ərzində konsorsiumun tərəfdaşları, Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının vəsaitləri və beynəlxalq yardım sayəsində davam etdiriləcəkdir. Bakı-Tbilisi-Ceyhan boru kəmərinin istismara verilməsi ekoloji cəhətdən həssas olan Bosfor boğazının da işinin yüngülləşdirilməsinə imkan yaradacaqdır.*



*İcazə verin, ölkənizin neft və qaz əməliyyatlarından əldə olunan gəlirlərin lazımınca idarə edilməsi vəzifəsini yerinə yetirən və onların başlıca olaraq Azərbaycan xalqının inkişafına və sosial tələbatlarına yönəldilməsi məqsədini qarşıya qoyan Neft Fondunun yaradılması ilə bağlı xoş təşəbbüsü yenidən alqışlayım.*

*Mən həmçinin öz işləri və məharəti sayəsində belə bir böyük ideyanı reallığa çevirmiş hər bir şəxsə - fəhlələrə, mühəndislərə və şirkətlərə öz təbriklərimi çatdırmaq istəyirəm.*

*Cənab Azərbaycan Respublikasının Prezidenti, cənab Gürcüstan Prezidenti və cənab Türkiyə Respublikasının Prezidenti, qoy bu neft kəmərinin açılışı bütün regionda tərəqqi və sülhün başlanğıcı olsun və Fransa ilə sizin üç ölkəniz arasındakı dostluq və əməkdaşlığı daha da möhkəmləndirsin.*

*Hörmətlə,*

***Jak Şirak***
***Fransa Respublikasının Prezidenti."***

Ukraynanın yanacaq və energetika nazirinin birinci müavini Aleksey İvçenko Prezident Viktor Yuşşenkonun təbrik məktubunu oxudu:

***"Azərbaycan Respublikasının Prezidenti***
***Zati-aliləri***
***cənab İlham Əliyevə***

*Çox hörmətli İlham Heydər oğlu!*

*Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə ən səmimi təbriklərimi qəbul edin. Onun təntənəli açılışında bir çox ali qonaqların iştirakı təsdiq edir ki, bu layihənin nəinki milli, həm də mübaliğəsiz, böyük beynəlxalq əhəmiyyəti vardır.*

*Bugünkü hadisə Azərbaycan Respublikası rəhbərliyinin Xəzərin enerji ehtiyatlarının dünya istehlakçılarına çatdırılmasını təmin etməyə yönəldilmiş çoxillik səylərini göstərir. Bu genişmiqyaslı layihənin birinci mərhələsinin uğurla başa çatdırılması regionun*

*enerji təhlükəsizliyinin möhkəmlənməsində Azərbaycanın getdikcə daha mühüm rol oynamağa hazır olduğunu sübut edir. Layihənin həyata keçirilməsinin nəinki iqtisadi, həm də siyasi mahiyyəti var, Azərbaycanın Avropa və Avratlantik qurumlarına müvəffəqiyyətlə inteqrasiyasının rəhnidir. Neft kəməri regionun tranzit imkanlarını yüksəltməklə yanaşı, Qara dəniz hövzəsinin ekoloji təhlükəsizliyini gücləndirməyin mühüm elementi olacaqdır.*

*Biz bugünkü hadisəni həm də Xəzər regionunun daha geniş kontekstdə açılması və onun ümumavropa və dünya iqtisadi proseslərinə daha sıx qoşulması kimi qiymətləndiririk.*

*Ukrayna da öz tərəfindən Xəzər neftinin ixracına çoxşaxəli xarakter verilməsinə maksimum kömək göstərməyə hazırdır. Əminəm ki, Avropa-Asiya neft nəqli dəhlizləri şəbəkəsi tezliklə enerji daşıyıcılarının Avropaya nəqlinin daha bir mühüm marşrutu – Odessa-Brodı-Qdansk neft kəməri ilə genişlənəcəkdir.*

*Hörmətli İlham Heydər oğlu, Azərbaycanın beynəlxalq nüfuzunun və iqtisadi potensialının möhkəmləndirilməsi işində Sizə yeni-yeni uğurlar, Azərbaycan xalqına isə sülh, həmrəylik və tərəqqi arzulayıram.*

*Dərin hörmətlə,*

***Viktor Yuşşenko***
***Ukrayna Prezidenti."***

Böyük Britaniyanın Baş naziri Toni Bleyerin təbrik məktubunu oxundu:

***" Azərbaycan Respublikasının Prezidenti***
***Zati-aliləri***
***cənab İlham Əliyevə***

*Hörmətli Prezident Əliyev,*

*Mayın 25-də Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin istismara verilməsinin Bakıda qeyd edilməsi mərasimində iştirak etmək məqsədi ilə 29 mart tarixli dəvətnamə məktubunuza görə Sizə təşəkkürümü bildirirəm. Bu tədbirdə iştirak edə bilməyəcəyimi təəssüf hissi ilə bildirirəm, lakin mən şadam ki, Əlahəzrət York Hersoqu, Şahzadə Endryu ölkəmizin beynəlxalq ticarət və sənaye üzrə xüsusi nümayəndəsi qismində Birləşmiş Krallığı təmsil etməyə razılıq vermişdir.*

*Fürsətdən istifadə edərək, belə bir böyük nailiyyəti qeyd edən tədbir münasibətilə Azərbaycan xalqını təbrik edirəm. Bakı-Tbilisi-Ceyhan boru kəmərinin istismara verilməsi atanızın Azərbaycanın sabahı üçün düşünülmüş strateji baxışlarının həyata keçirilməsində mühüm mərhələdir. Boru kəmərinin açılışı bu baxışların reallığa çevrilməsi məqsədi ilə Azərbaycan və onun tərəfdaşları tərəfindən aparılan on illik gərgin əməyin nəticəsidir. Mən bu cür dünya miqyaslı infrastrukturun tikilməsində bp və digər Britaniya şirkətlərinin oynadığı roldan böyük qürur hissi duyuram.*

*Neft və qaz layihələrinin həyata keçirilməsi və onların gətirəcəyi gəlirlər Azərbaycana, Azərbaycan xalqına və bütün regiona böyük imkanlar açılmasına potensial zəmin yaradır. Layihələr eyni zamanda Avropanın və dünyanın enerji təhlükəsizliyinə mühüm töhfə olacaqdır. Ötən ilin dekabr ayında Sizin Londona rəsmi səfəriniz zamanı mənə bu məsələləri müzakirə etmək imkanı qismət oldu. Həmin vaxtdan etibarən, Azərbaycan "Hasilat sənayesində şəffaflıq təşəbbüsü"nə qoşulan dünyada ilk neft hasil edən ölkə oldu. Mən Sizi və rəhbərlik etdiyiniz hökuməti bu münasibətlə təbrik etmək istəyirəm. Azərbaycanın neft gəlirlərinin idarə olunmasında daha böyük şəffaflıq və məsuliyyət ölkənizin gələcək inkişafına davamlı töhfə verəcəkdir.*

*Londonda müzakirə etdiyimiz kimi, 2005-ci il təyin etdiyiniz məqsədlərə doğru yolda sürətli tərəqqiyə nail olmaq üçün Azərbaycana imkanlar açır. Qəbul etdiyimiz "Birgə bəyannamə" Azərbaycanın və Birləşmiş Krallığın ümumi gündəliyini müəyyən etdi. Bizim sabitlik, təhlükəsizlik, əmin-amanlıq, qanunun aliliyi, insan hüquqlarının qorunması, demokratiya və bazar iqtisadiyyatının bərqərar olunmasında ümumi maraqlarımız var.*

*Azərbaycan NATO ilə fərdi tərəfdaşlıq üzrə tədbirlər planını həyata keçirməkdədir. Avropada "Yeni qonşuluq siyasəti"nin yerinə yetirilməsi sahəsində Avropa İttifaqı ilə müzakirələr aparılır. 2005-ci ilin ikinci yarısında Avropa İttifaqına sədrlik edəcək Birləşmiş Krallıq bu məqsədlərə nail olmaq üçün Sizinlə sıx işləmək arzusundadır. Biz bu ilin payızında Azərbaycanda uğurlu parlament seçkilərinin keçirilməsinə xüsusi önəm veririk. Ümid edirəm ki, Azərbaycan Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı və Avropa Şurası kimi beynəlxalq təşkilatların bu seçkilər ərəfəsində verəcəyi ekspert məsləhətlərindən səmərəli qaydada yararlanmağa qadir olacaqdır.*

*Mayın 25-dəki tədbirin uğurla keçirilməsini diləyərək, Sizə ən xoş arzularımı çatdırıram.*

*Səmimiyyətlə Sizin,*

***Toni Bleyer***
***Böyük Britaniya və Şimali İrlandiya***
***Birləşmiş Krallığının Baş naziri"***

İtaliyanın xarici işlər nazirinin müavini xanım Marqerita Boniver Baş nazir Silvio Berluskoninin təbrik məktubunu oxudu:





***"Azərbaycan Respublikasının Prezidenti***
***Zati-aliləri***
***cənab İlham Əliyevə***

*Hörmətli cənab Prezident,*

*Sizin bu yaxınlarda İtaliyaya etdiyiniz xoş rəsmi səfərinizi və Romadakı olduqca səmimi görüşümüzü xatirələrimdə canlandıraraq, İtaliyanın xarici işlər nazirinin müavini xanım Marqerita Boniver vasitəsilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Azərbaycan hissəsinin təntənəli rəsmi açılışı münasibətilə Sizə ən səmimi şəxsi təbriklərimi çatdırmaqdan məmnunam.*

*Söhbət reallaşmasında İtaliyanın "Eni" şirkətinin də rolu olan layihədən gedir və bu layihə nəinki Azərbaycan və bütün Qafqaz regionu, həm də istehlakçı ölkələr üçün böyük əhəmiyyət kəsb edir və mən qeyd edirəm ki, İtaliya Azərbaycanın xam neftinin idxalına görə həmin ölkələr sırasında ön plandadır. Sizin mərhum atanız, Prezident Heydər Əliyev tərəfindən 2002-ci ildə təməl daşı qoyulduğu bu neft kəmərinin bu gün istifadəyə verilməsi sanki qədim Qafqaz əfsanəsini reallığa çevirərək, Xəzər dənizini Qara və Aralıq dənizləri ilə birləşdirəcəkdir.*

*Əminəm ki, bu layihənin gerçəkləşməsi bütün bazarlara müsbət təsir göstərəcək və beləliklə, ölkələrimizin iqtisadi və sosial inkişafı üçün tələb olunan enerji resurslarının daha səmərəli paylanmasına şərait yaradacaqdır.*

*Cənab Prezident,*

*Romadakı görüşlərimiz zamanı qeyd etdiyim kimi, İtaliya Azərbaycanın və ümumiyyətlə, Qafqaz regionunun artan coğrafi-strateji əhəmiyyətinə əmin olaraq və onun Avropa ilə yaxınlaşmasını tam dəstəkləyərək onun siyasi, iqtisadi və sosial inkişafını böyük maraqla izləyir.*

*Əminəm ki, İtaliya tərəfindən tam dəstək almış Azərbaycanın Avropanın "Yeni qonşuluq siyasəti"nə qoşulması olduqca çətin, lakin mühüm istiqamətdə tərəqqini daha da sürətləndirəcəkdir.*

*Cənab Prezident, əziz dostum, İtaliya dövləti adından və şəxsən öz adımdan bu əhəmiyyətli infrastruktur layihəsinin ölkənizə yeni mühüm nəticələri gətirməsini və habelə ölkələrimiz arasındakı iqtisadi və ticarət əlaqələrinin daha da möhkəmlənməsini ürəkdən arzulayıram.*

***Silvio Berluskoni***
***İtaliya Respublikasının Nazirlər Şurasının Sədri."***

Norveç Krallığının Dövlət katibi, neft və energetika nazirinin müavini Oluf Ulseth Baş nazir Kyel Maqne Bundevikin təbrik məktubunu oxudu:

*"Azərbaycan Respublikasının Prezidenti*
*Zati-aliləri*
*cənab İlham Əliyevə*

*Cənab Prezident,*
*Zati-aliləri,*

*Bu əlamətdar hadisə münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram. Bakı-Tbilisi-Ceyhan boru kəmərinin açılışı həqiqətən bayram etmək üçün bir səbəbdir. Mən fəxr edirəm ki, "Statoyl" vasitəsilə Norveç də bu gün qeyd etdiyiniz bu nailiyyətin bir hissəsi olmuşdur.*

*Mən Prezident Əliyevlə bir neçə gün əvvəl Varşavada görüşmək şərəfinə nail oldum və biz neft ehtiyatlarının vətəndaşlarımızın rifahı və təhlükəsizliyinə xidmət etməsinin vacibliyi fikri ilə razılaşdıq.*

*Neft sektoru həm Norveç, həm də Azərbaycan üçün son dərəcə böyük əhəmiyyətə malikdir. Neft sahəsində fəaliyyətimizi daha təhlükəsiz, sağlam və səmərəli şəkildə həyata keçirmək üçün eyni məqsədlərə xidmət edirik. Həm Norveç, həm də Azərbaycan öz neft sektorlarını beynəlxalq şirkətlərə açmaq yolunu seçmişdir. Belə etməklə biz onların təcrübə və biliyindən yararlanmışıq.*

*Bu gün biz "Əsrin müqaviləsi"nin imzalanmasından keçən on ilə nəzər salsaq, yaranmış irəliləyişin sürəti və səmərəsinə heyran qalarıq. Qarşıya çıxan böyük çətinliklər vaxtında və konstruktiv şəkildə aradan qaldırılmışdır. Üç ölkə və bir neçə şirkət bu işdə iştirak etmişdir. Müxtəlif tərəflərin işi necə irəli aparmaq barədə fərqli fikirləri olmasına baxmayaraq, zənnimcə, bu proses konstruktiv olmuşdur və əməkdaşlıqla xarakterizə edilir.*

*Mən "Statoyl"un bu təkamüldə vacib rol oynadığını qeyd etməkdən məmnunam və düşünürəm ki, şirkət hər iki ölkə arasında yaranmış münasibətlərin mənşəyində durmağa davam edəcəkdir. Şübhəsiz, "Statoyl"un Azərbaycandakı geniş fəaliyyəti ölkələrimiz üçün sərfəlidir. Həmçinin bir neçə digər Norveç şirkətlərinin də Azərbaycanın neft və qaz sektorunda getdikcə artan fəaliyyətini qeyd etməkdən məmnunam. Norveç şirkətləri üçün Azərbaycanda maraqlı biznes imkanları yaranmışdır və mən əminəm ki, onlar bu imkanlardan istifadə etməyə davam edəcəklər. Bu baxımdan "Azəri", "Çıraq", "Günəşli" layihəsi əsas hərəkətverici qüvvədir.*

*Bakı-Tbilisi-Ceyhan boru kəmərinin açılışı münasibətilə mənim səmimi təbriklərimi və gələcəyə ən xoş arzularımı lütfən qəbul edin.*

***Kyel Magne Bundevik***
***Norveçin Baş naziri"***

Yaponiyanın Azərbaycandakı səfiri Tadahiro Abe Baş nazir Dzünitiro Koidzuminin təbrik məktubunu oxudu:

*"Azərbaycan Respublikasının Prezidenti*
*Zati-aliləri*
*cənab İlham Əliyevə*

*İkinci Dünya müharibəsinin başa çatmasının 60-cı ildönümü münasibətilə mayın 9-da Moskvada keçirilən mərasim zamanı apardığımız fikir mübadiləsindən çox məmnunam.*

*İstərdim ki, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin Azərbaycan hissəsinin tikintisinin tamamlanması və açılış mərasimi münasibətilə səmimi təbriklərimi ifadə edim.*

*Azərbaycan Respublikası müstəqilliyini əldə etdikdən sonra Yaponiya demokratiyanın və dövlət quruculuğunun inkişafına yönəlmiş səylərin dəstəklənməsi məqsədi ilə müxtəlif sahələrdə, o cümlədən iqtisadi əməkdaşlığın genişləndirilməsi işində ölkənizə dayaq və yardımçı olmuşdur.*

*Mən bu gün məmnuniyyətlə qeyd edə bilərəm ki, Yaponiya və Azərbaycan Respublikası arasındakı siyasi, iqtisadi, mədəni və digər sahələrdə çox gözəl ikitərəfli əlaqələr təşəkkül tapmışdır. Bundan əlavə, ölkələrimiz arasında ikitərəfli iqtisadi əməkdaşlığın son illər ərzində heyranedici inkişafını da vurğulamaq istərdim.*

*Mən Bakı-Tbilisi-Ceyhan neft boru kəməri layihəsinin Azərbaycanın gələcək iqtisadi inkişafı və beynəlxalq ictimaiyyətin neftlə sabit təminatı üçün əhəmiyyətini anlayıram. Yaponiyanın iki şirkətinin - "İtoçu Oyl Eksploreyşn" və "İnpex" korporasiyalarının layihənin həyata keçirilməsində iştirakına və Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankının (JBİC) maliyyə qrupunun tərkibinə qoşulmasına görə də Sizə minnətdaram.*

*Ümid edirəm ki, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin qalan işləri də uğurla yerinə yetiriləcək və kəmər tam gücü ilə fəaliyyətə başlayacaqdır.*

*Zati-alilərinizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə tərəqqi və çiçəklənmə arzulayıram.*

***Dzünitiro Koidzumi***
***Yaponiyanın Baş naziri"***

Təntənəli mərasim çərçivəsində iki mühüm tarixi sənəd imzalandı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər Azərbaycan, Gürcüstan və Türkiyə arasında Qars-Axalkalaki-Tbilisi-Bakı birləşdirici dəmir yolu xətti layihəsi haqqında Bəyannaməni imzaladılar.



Şərq-Qərb enerji nəqliyyat dəhlizinin inkişaf etdirilməsi və genişləndirilməsi haqqında Bakı bəyannaməsini isə Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov, Gürcüstan tərəfindən xarici işlər naziri xanım Salome Zurabişvili, Qazaxıstan tərəfindən xarici işlər naziri Qasımcomərd Tokayev, Türkiyə tərəfindən energetika və təbii sərvətlər naziri Mehmet Hilmi Gülər, ABŞ tərəfindən energetika naziri Samuel Bodman imzaladılar.

İmzalanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

- Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mərasim başa çatır. Sizin hamınıza bu mərasimdə iştirak etdiyiniz üçün bir daha öz təşəkkürümü, minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün çox önəmli sənədlər də imzalandı. Əminəm ki, Bakı bəyannaməsi bizim gələcək əməkdaşlığımız üçün çox gözəl şərait yaradacaqdır. Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu isə regionda gedən əməkdaşlıq meyillərini daha da gücləndirəcəkdir.

Bu gün burada çıxış edən bütün şəxslərə dərin minnətdarlığımı bildirirəm. Eyni zamanda, bizi təbrik etmiş dostlarımıza da öz təşəkkürümü bildirirəm. Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Corc Buşa, Fransa Prezidenti cənab Jak Şiraka, Ukrayna Prezidenti cənab Viktor Yuşşenkoya, Böyük Britaniyanın Baş naziri cənab Toni Bleyerə, İtaliya Nazirlər Şurasının Sədri cənab Silvio Berluskoniyə, Norveç Krallığının Baş naziri cənab Kyel Maqne Bundevikə, Yaponiyanın Baş naziri cənab Dzünitiro Koidzumiyə öz təşəkkürümü bildirirəm.

Eyni zamanda bildirmək istəyirəm ki, bizim ünvanımıza çoxlu digər təbrik məktubları da gəlmişdir. Bütün bu məktublara görə mən Azərbaycan dövləti adından öz minnətdarlığımı bildirirəm.

Ümumiyyətlə, bu gün bu sevinci bizimlə bölüşən bütün insanlara minnətdaram. Bu gün Azərbaycan nefti Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə Heydər Əliyevin adını daşıyan Ceyhan terminalı istiqamətinə göndərilir.

Uğurlu olsun, xeyirli olsun!

Sizi bir daha ürəkdən təbrik edirəm. Sağ olun.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər, "bp" şirkətinin prezidenti lord Con Braun Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinə ilk nefti doldurmaq üçün dəvət olundular. Onlar ulu öndərin adını daşıyan neft kəmərinin sürgüsünü açdılar və ilk neft boruya axdı.

Azərbaycanın dövlət himni əzəmətlə səsləndi. Bununla da üç dənizin əfsanəsi - Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri gerçəkləşdi. Ümummilli lider Heydər Əliyevin işləyib hazırladığı Azərbaycanın yeni neft strategiyasının həyata keçirilməsində ən əlamətdar hadisələrdən biri tarixin səhifəsinə qızıl hərflərlə yazıldı.

## Səngəçalda Xəzər Enerji Mərkəzinin açılışı

Həmin gün Bakı yaxınlığında yerləşən Səngəçal terminalında Xəzər Enerji Mərkəzinin açılışı oldu.

Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, ABŞ-ın, Böyük Britaniyanın və digər ölkələrin yüksək vəzifəli şəxsləri mərasimdə iştirak edirdilər.

Məlumat verildi ki, Xəzər Enerji Mərkəzi Azərbaycanın gələcək nəsillərinə və xarici qonaqlara Xəzərin zəngin neft və qaz sərvətlərinin işlənilməsi tarixini əks etdirmək üçün yaradılmışdır. London Elm Muzeyinin hazırladığı eksponatlar neft və qaz yataqlarının kəşf olunmasının tarixindən, həllini tapmış texnoloji problemlərdən, yataqların işlənilməsi, boru kəmərləri layihələrindən söhbət açır. Bunların hamısı regionun mədəniyyəti kontekstində əks etdirilir.

Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev və digər qonaqlar Mərkəzlə tanış oldular, 1994-cü ildən 2005-ci ilin mayınadək Xəzər dənizinin Azərbaycan sektorunda nəhəng layihələrin həyata keçirilməsini, xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən hazırlanmış neft strategiyası əsasında görülmüş işləri, "Əsrin müqaviləsi"nin və digər müqavilələrin imzalanmasını, ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin iştirakı ilə platformaların, qazma qurğularının istifadəyə verilməsini əks etdirən fotolara, videomateriallara maraqla baxdılar.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Devid Vudvord bildirdi ki, əsas sərgi binasından, qəbul, sinif və qonaq otaqlarından, xidmət sahələrindən ibarət olan Mərkəz ilk növbədə Azərbaycan gəncləri üçün faydalı olacaqdır. ABƏŞ-in rəhbəri dünya şöhrətli siyasi xadim Heydər Əliyevin tarixi xidmətlərini xatırlatdı, onun neft strategiyasının bütün dünya üçün böyük əhəmiyyətini və müəllifi olduğu Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Azərbaycan, Gürcüstan və Türkiyənin gələcək inkişafında oynayacağı böyük rolu vurğuladı.



Sonra Prezidentlər və digər qonaqlar "1994-2005: Azərbaycanın neft strategiyası" adlı videosüjetə tamaşa etdilər.

Mərkəzin həyətində Aralıq dənizindən gətirilmiş tısbağaların qoruq yeri də böyük maraq doğurdu.

Dövlət başçıları xüsusi hazırlanmış materialın üzərində əl izlərini qoydular, birgə xatirə şəkli çəkdirdilər.

## "Gülüstan" sarayında ziyafət

Elə həmin gün Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin Azərbaycan hissəsinin tikintisinin başa çatması münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin adından "Gülüstan" sarayında rəsmi ziyafət verildi.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, Türkiyə Prezidenti Əhməd Necdət Sezər, xarici qonaqlar əvvəlcə sarayın foyesində "Əsrin müqaviləsi" ilə başlayan Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi ilə bağlı ən mühüm hadisələri, artıq tarixin yaddaşına əbədi həkk olunmuş məqamları əks etdirən videokadrlara, "bp" şirkətinin yeni qurğularının maketinə baxdılar.

Sarayın ziyafət salonuna toplaşanlar Azərbaycan və Türkiyə Prezidentlərini hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev mərasimdə nitq söylədi.

**Azərbaycan Prezidenti**
**İlham Əliyevin nitqi**

- Hörmətli cənab Prezident Əhməd Necdət Sezər!
Hörmətli qonaqlar!
Əziz xanımlar və cənablar!

Mən sizin hamınızı bir daha ürəkdən salamlayır, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsi münasibətilə ürəkdən təbrik edirəm.

Bu gün çox əlamətdar bir gündür, tarixi bir gündür. Mən əminəm ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri bizə imkan verəcək ki, bölgədə iqtisadi inkişaf daha da sürətlə getsin, təhlükəsizlik sistemi daha da möhkəmlənsin.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin fəaliyyəti bölgədə gedən əməkdaşlıq meyillərinə güclü təkan verəcəkdir. Əminəm ki, bölgədə yaşayan xalqlar bundan sonra bir-birilə daha sıx əməkdaşlıq edəcəklər. İqtisadi inkişaf daha geniş vüsət alacaqdır.



Azərbaycanın, Azərbaycan xalqının gələcəyi üçün, rifahı üçün Bakı-Tbilisi-Ceyhan neft kəmərinin müstəsna rolu vardır. O, bizim iqtisadi müstəqilliyimizi daha da gücləndirəcəkdir.

Hər bir ölkə üçün onun iqtisadi müstəqilliyi böyük əhəmiyyət kəsb edir. Biz istəyirik ki, Azərbaycan daha da güclənsin, öz iqtisadi potensialını möhkəmləndirsin və zəngin, qüdrətli dövlətə çevrilsin. Bu bizim dövlət müstəqilliyimizin möhkəmlənməsinə də çox gözəl töhfə verəcəkdir. Dövlət müstəqilliyimiz bizim ən böyük sərvətimizdir. Uzun illər, əsrlər boyu Azərbaycan xalqı bu müstəqillikdən məhrum idi. Bizim böyük xoşbəxtliyimiz ondadır ki, bu gün Azərbaycan müstəqil dövlət kimi dünya birliyinə inteqrasiya edir, dünyada özünə layiq yerini tuta bilibdir. Biz bundan sonra da çalışacağıq ki, müstəqilliyimizi möhkəmləndirək və gücləndirək.

Bakı-Tbilisi-Ceyhan neft kəməri nadir bir layihədir. Burada üç qonşu, dost, qardaş ölkə dünyanın aparıcı dövləti Amerika Birləşmiş Ştatlarının dəstəyi ilə, dünyanın aparıcı enerji şirkətlərindən olan "bp" şirkətinin rəhbərliyi ilə, tanınmış beynəlxalq neft şirkətlərinin iştirakı, beynəlxalq maliyyə qurumlarının dəstəyi ilə, birgə səylərlə üç dənizi bu kəmərlə birləşdirərək əfsanəni həqiqətə, reallığa çevirdi.

Bu nadir layihə bizim xalqlarımızın gələcəyinə xidmət edəcək, Türkiyədə, Azərbaycanda, Gürcüstanda gedən iqtisadi proseslərə güclü təsir göstərəcəkdir.

Mən şübhə etmirəm ki, bizim xalqlarımız bu layihədən səmərəli istifadə edəcəklər və onların gələcəyi daha da yaxşı olacaqdır.

Bu gün biz gözəl mərasim keçirdik, Bakı-Tbilisi-Ceyhan neft kəmərini istismara verdik. Bu gün biz bu tarixi yazdıq. Bu gün xalqımızın ümummilli lideri, bu layihənin memarı və təşəbbüskarı Heydər Əliyevin xatirəsi də yad edildi. Onun xidmətləri haqqında söhbət açıldı. Hamımız çox yaxşı bilirik ki, Heydər Əliyevin qətiyyəti, müdrikliyi, cəsarəti, uzaqgörənliyi imkan verdi ki, biz bu gün bu tarixi məqamı yaşayırıq. Azərbaycan bu gün müstəqil dövlət kimi öz mövqelərini bölgədə möhkəmləndirir və gələcəyə böyük inamla baxır.

Mən bu gün bu badəni Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin həyata keçirilməsində iştirak edən bütün insanların şərəfinə, bütün şirkətlərin şərəfinə qaldırmaq istəyirəm.

Bizi dəstəkləyən, daim bizim yanımızda olan dövlətlərin xalqlarına öz minnətdarlığımı bildirir və onların şərəfinə badə qaldırmaq istəyirəm.

Türkiyə, Gürcüstan, Azərbaycan xalqlarının şərəfinə badə qaldırmaq istəyirəm.

Bizim birliyimizin şərəfinə, bizim gələcəyimizin şərəfinə, sülhün, əmin-amanlığın, tərəqqinin şərəfinə!

Sağ olun, Sizin şərəfinizə!

Sonra Azərbaycan, Türkiyə və Gürcüstanın incəsənət ustaları maraqlı konsert proqramı ilə çıxış etdilər.

Ziyafətdən sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva, xarici qonaqlar "Gülüstan" sarayından Bakının, Xəzərin bənzərsiz gecə mənzərəsini, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi şərəfinə bayram atəşfəşanlığını seyr etdilər.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə Bakı Şəhər İcra Hakimiyyəti Milli parkda bayram konserti və atəşfəşanlıq təşkil etmişdi.

Bir neçə saat davam edən konsertdə on minlərlə insan tanınmış incəsənət ustalarının ifasında şux mahnılar dinlədilər, gözəl rəqslərə tamaşa etdilər. Ümummilli lider Heydər Əliyevə həsr olunmuş şeirlər, mahnılar alqışlarla qarşılandı.

Neft Bakısının səmasını al-əlvan rəngə boyayan atəşfəşanlıq bayram şənliyinə xüsusi rövnəq verdi.

Paytaxt sakinləri Milli parka gələn Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük sevinclə, alqışlarla qarşıladılar.

Prezident **İlham Əliyev** izdiham qarşısında çıxış edərək dedi:

- Əziz bacılar və qardaşlar!
Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün çox gözəl gündür, tarixi bir gündür. Bu gün Azərbaycanın xoşbəxt gələcəyi üçün çox mühüm addım atılmışdır. Uzun illər ərzində arzuladığımız, üzərində işlədiyimiz Bakı-Tbilisi-Ceyhan neft kəməri bu gün əfsanədən həqiqətə, gerçəkliyə çevrilibdir. Bu, böyük tarixi hadisədir, böyük nailiyyətdir. Mən bu bayram münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqını təbrik edirəm.

Bu layihə, görülən bu işlər bizim dövlət müstəqilliyimizi, bizim bölgədəki mövqeyimizi daha da möhkəmləndirəcək, Azərbaycanı dünyada güclü ölkəyə çevirəcəkdir. Mən əminəm və şübhə etmirəm ki, yaxın zamanlarda Azərbaycan qüdrətli dövlətə çevriləcəkdir. Biz qarşıda duran bütün vəzifələri həll edəcək, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik.

Biz bu gün səhərdən bu tədbirləri keçirərkən mən fikirləşirdim ki, istəyirəm, bu gün Azərbaycan xalqı ilə birlikdə olum. Bu gün çoxlu qonaqlarımız, mötəbər görüşlərimiz var idi. Dünyanın müxtəlif ölkələrindən gəlmiş dövlət başçıları, rəsmi şəxslər Azərbaycanın qonaqları idi. Mən səhərdən bu vaxta qədər qonaqlarla birlikdə idim. Amma çox arzulayırdım ki, bu əziz gündə sizinlə birlikdə olum. Budur, indi də sizin yanımıza





gəlmişəm. Sizi ürəkdən salamlayıram, bağrıma basıram, öpürəm, qucaqlayıram.

Azərbaycan xalqına eşq olsun!

Yaşasın müstəqil Azərbaycan Respublikası!

Dövlət başçısının səmimi sözlərini hərarətli, sürəkli alqışlarla qarşılayan paytaxt sakinləri ulu öndərin əsəri olan Bakı-Tbilisi-Ceyhan boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi və ilk neftin kəmərə vurulması münasibətilə Prezident İlham Əliyevi təbrik etdilər, bu tarixi hadisənin Azərbaycan xalqının gələcəyi üçün çox böyük əhəmiyyəti olacağını bildirdilər.




QARDABANİ, 12 OKTYABR 2005-Cİ İL




# Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Gürcüstan hissəsinin istifadəyə verilməsi

2005-ci il oktyabrın 12-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Gürcüstan hissəsinin istifadəyə verilməsi münasibətilə Gürcüstanın Qardabani rayonunda yerləşən 1 nömrəli nasos stansiyasının ərazisində təntənəli mərasim keçirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər, Gürcüstanın Prezidenti Mixail Saakaşvili, ABŞ-ın, Böyük Britaniyanın və digər ölkələrin yüksək vəzifəli şəxsləri mərasimdə iştirak edirdilər.

Mərasimdə əvvəlcə Gürcüstan Prezidenti Mixail Saakaşvili nitq söylədi.

**Gürcüstan Prezidenti**
**Mixail Saakaşvilinin nitqi**

- Hörmətli Prezidentlər!

Hörmətli qonaqlar!

Sizin hamınızı salamlayıram. Əsasən də, bizim dostlarımızı, Azərbaycan və Türkiyə Prezidentlərini, eləcə də “bp”-nin nümayəndələrini salamlayıram. Bugünkü tədbir elə bir tədbirdir ki, bir neçə il öncə bunu təsəvvür etmək mümkün deyildi. Bunu inanılmaz bir hadisə hesab edirdilər. Biz bu gün çox şadıq ki, tarixin dialektikası, məntiqi və istiqaməti biz istədiyimiz kimi inkişaf edir. Bizim ölkələr, iqtisadiyyatımız inkişaf edir. Ölkələrimizin əhəmiyyəti böyüyür. Bu, bizim ölkələrin tutduğu düzgün istiqamətə əsaslanır. Çox şadıq ki, Azərbaycan çox yaxşı, Gürcüstanın arzuladığı kimi inkişaf edir. Azərbaycan varlı bir dövlətə çevrilir. Sosial və iqtisadi sahələr çox sürətlə inkişaf edir. Bu sahələrin inkişafı insanların rifah halının yüksəlməsinə xidmət edir. Bütün bunlar təkcə Azərbaycan xalqı üçün yox, həm də gürcü xalqı üçün faydalıdır.

Mən sizə dostum, qardaşım İlham Əliyev haqqında danışmaq istəyirəm. Onun siyasəti bizi çox sevindirir. Ona görə ki, biz qonşumuzun varlı olmasını istəyirik. Azərbaycanın iqtisadi cəhətdən güclü olması Gürcüstanın iqtisadi və siyasi məsələlərinin həllinə də öz müsbət təsirini göstərir. Azərbaycan bilməlidir ki, onun Gürcüstan kimi dostu, qardaşı vardır.

Türkiyə böyük ölkə olmaqla yanaşı, həm də güclü iqtisadi potensiala malikdir. O, Gürcüstanın dar günündə həmişə kömək əlini uzadıb, təmənnasız kömək göstəribdir. Gürcüstanın müstəqilliyinin ilk illərində Türkiyə ona yardım edən, dost əli uzadan, bizi dəstəkləyən ilk ölkələrdəndir.

Acarıstanda baş vermiş vətəndaş qarşıdurması təhlükəsi yaranan zaman Türkiyənin köməyini bir daha hiss etdik. Türkiyə bu böhrandan dinc, sakit çıxmaq üçün bizə yardımını əsirgəmədi. Türkiyə bu gün də bizim tərəfdaşımızdır. İqtisadi layihələrdə iştirak edir. Tbilisinin və Batuminin hava limanlarının yenidən qurulmasında yaxından iştirak edir. İqtisadiyyatın başqa-başqa sahələrinə, o cümlədən ticarət və tikinti, energetikanın müxtəlif sahələrinə sərmayə qoyurlar. Digər infrastruktur layihələrdə də iştirak edirlər. Biz bu münasibətin inkişafından çox razıyıq. Düşünürəm ki, biz bir regionda yaşadığımız üçün belə də olmalıdır.

Bizim həmçinin “bp” ilə iş təcrübəmiz var. Biz hakimiyyətdə əvvəllər olsaydıq, bu məsələni sürətləndirə bilərdik. Hakimiyyətə gələndən sonra mövcud problemlərin həlli ilə məşğul olduq. Bunun gözəl nümunəsindən biri də bu gün iştirakçısı olduğumuz möhtəşəm tarixi hadisədir və Borjomi parkının bərpasıdır. Biz birlikdə başqa layihələr də həyata keçirdik. Hazırda Axaltsixe şəhərinin su sisteminin bərpası ilə əlaqədar danışıqlar aparılır. Bundan əlavə, kiçik və böyük həcmli layihələr üzərində birlikdə işləyirik. Bütün bu işlərin yüksək səviyyədə yerinə yetirilməsi üçün lazımi qanun və qərarları hazırlayıb tətbiq edəcəyik.



Mən dost və qardaş ölkələrin Prezidentlərini və digər hörmətli qonaqlarımızı bir daha salamlayıram.

Bu neft kəmərinin Gürcüstan üçün əhəmiyyəti nədən ibarətdir? İqtisadi baxımdan bir sıra infrastrukturun yaranması və genişlənməsi Gürcüstana sərmayənin axını deməkdir. Siyasi baxımdan isə çox böyük əhəmiyyəti vardır. Gürcüstan dünya birliyində tanınır.

Gələn il Gürcüstandan keçəcək Bakı-Tbilisi-Ərzurum qaz kəməri də işə düşəcəkdir. Bu, bizim üçün daha da əhəmiyyətlidir. Bu qaz xətti eyni zamanda, mavi yanacaq baxımından Gürcüstanın asılılığını aradan qaldırmağa kömək edəcəkdir. Bütün bunlar, eləcə də bugünkü mərasim bizim üçün tarixi bir hadisədir. Əhəmiyyətlisi odur ki, regionumuz dünya üçün açıqdır və perspektivlidir. Hansı ölkədə iqtisadi rəqabət varsa, orada düzgün seçim və demokratik inkişaf var, demək, o ölkənin müstəqilliyi güclənir. Bütün bu dəyərlər neft və qazdan qat-qat üstündür.

Enerji sektoru ilə bağlı danışıqlarımız müsbət və mənfi reaksiyalarla üzləşmişdi. Bu, təbii haldır. Sağlam rəqabət olan yerdə heç kəs uduzmur. Biz ayaq üstündə nə qədər güclü dayanırıqsa, məğlubiyyətə uğrayan olmayacaq və bütün tərəflər udacaqdır. Biz bu məsələlərə real yanaşsaq, görərik ki, bu layihə heç kəsə qarşı yönəlməyibdir.

Bütün iştirakçılara, bu işdə əməyi olan şirkətlərə, onların rəhbərlərinə təşəkkür edirəm. Artıq neft mənim dayandığım yerdədir və bu yer Gürcüstanın əhəmiyyətini daha da artırır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tribunaya dəvət olundu.

**Azərbaycan Prezidenti**
**İlham Əliyevin nitqi**

- Hörmətli Gürcüstan Prezidenti Mixail Saakaşvili!

Hörmətli Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər!

Hörmətli dostlar, xanımlar və cənablar!

Mən yenidən qardaş Gürcüstan torpağında olmağımdan çox məmnunam və bu fürsətdən istifadə edərək, bütün qardaş gürcü xalqına öz dərin hörmət və məhəbbətimi ifadə etmək istəyirəm.

Bu gün çox əlamətdar bir gündür. Bu gün Gürcüstan torpağında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin həyatında çox mühüm hadisə baş verir. Azərbaycan nefti artıq Gürcüstanın ərazisinə daxil olubdur və bundan sonra Türkiyənin Ceyhan limanına nəql ediləcəkdir. Bir neçə ay bundan əvvəl buna oxşar mərasim Bakıda keçirilmişdi və mənim əziz dostlarım - Türkiyə və Gürcüstan Prezidentləri həmin mərasimdə iştirak etmişdilər. Ümid edirəm ki, yaxın zamanlarda buna bənzər mərasim Türkiyənin Ceyhan limanında keçiriləcək və beləliklə, uzun illər əfsanə sayılan kəmər işə düşəcəkdir.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisində iştirak etmiş, bu layihəni gerçəkləşdirmiş bütün insanlara öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu layihənin həyata keçirilməsində çoxlu insan iştirak edibdir. Biz hamımız - çoxlu şirkətlər, dövlətlər, beynəlxalq maliyyə qurumları, adi fəhlələr bunu birlikdə etmişik. Ancaq hamımız xatırlayırıq ki, bu nəhəng transmilli layihənin təməli 1994-cü ildə Bakıda "Əsrin müqaviləsi"nin imzalanması ilə başlanmışdır. Məhz o ağır, çətin dövrdə Azərbaycan rəhbərliyinin qətiyyəti və uzaqgörənliyi nəticəsində "Əsrin müqaviləsi" imzalandı və bundan sonra bütün məsələlər öz həllini tapdı. Yeni kəmərlər tikildi, yeni neft infrastrukturu yaradıldı. O illər Azərbaycanda çox böyük təlatüm müşahidə olunurdu. Azərbaycana çoxlu təzyiqlər edilirdi. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin yaranmasını istəməyən qüvvələr müxtəlif təzyiqlər göstərirdi. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan rəhbərliyinin, xalqımızın ümummilli lideri Heydər Əliyevin qətiyyəti, cəsarəti, Azərbaycan xalqının dəstəyi bizə imkan verdi ki, ölkəmiz öz zəngin neft, qaz yataqlarını işə sala bildi və bu gün bizim təbii ehtiyatlarımız dünya bazarlarına çıxarılır.

Mən bu fürsətdən istifadə edib bir məsələyə də toxunmaq istəyirəm. Bu layihə transmilli bir layihədir, dünyanın ən böyük enerji layihəsidir. Şübhəsiz ki, əgər burada çox geniş əməkdaşlıq olmasaydı, biz bu layihəni həyata keçirə bilməzdik.

Layihənin aparıcı şirkəti olan "bp" şirkəti, beynəlxalq maliyyə qurumları, konsorsiumun digər üzvləri və əlbəttə ki, Gürcüstan, Türkiyə və Azərbaycan rəhbərliyinin siyasi iradəsi, qətiyyəti, cəsarəti bu layihəni əfsanədən gerçəkliyə çevirdi. Bu gün bu gözəl mərasimi keçirərək, yenidən ötən illərə nəzər salırıq və çox böyük fərəh hissi ilə deyə bilərik ki, biz bunu bacardıq. Bütün çətinliklərə, bütün əngəllərə baxmayaraq, biz bunu bacardıq və beləliklə, biz tarixi yazdıq. Bu tarix yeni tarix olacaqdır. Bu, bizim xalqlarımızın inkişafına, ölkələrimizin müstəqil şəkildə yaşamasına çox güclü şərait yaradacaqdır.

Sirr deyil ki, Sovet İttifaqı dağılandan sonra həm Gürcüstan, həm də Azərbaycan çox çətin vəziyyətə düşmüşdü. Ölkədə gedən proseslər, sabitliyin pozulması, torpaqlarımızın işğal altına düşməsi bizi çox sarsıtdı. Bu əməkdaşlıq, bu işbirliyi bizə yeni üfüqlər açır. Mən şübhə etmirəm ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismarından əldə ediləcək gəlirlər bizim xalqlarımızın rifah halının yaxşılaşmasına sərf olunacaq, ölkələrimizin hər bir vətəndaşı bundan fayda götürəcəkdir.





Bakı-Tbilisi-Ceyhan neft kəmərinin digər əhəmiyyəti ondadır ki, bu, bölgədə təhlükəsizlik sisteminin möhkəmlənməsinə güclü xidmət edəcəkdir. Bildiyiniz kimi, bu bölgədə təhlükəsizlik sisteminin möhkəmlənməsinə böyük ehtiyac var və hər üç ölkə öz tərəfindən bu işə töhfəsini verir və verəcəkdir. Əminəm ki, kəmərin istismara verilməsindən sonra təhlükəsizlik sistemi daha da möhkəmlənəcəkdir. Digər tərəfdən, bu, regional əməkdaşlığın çox parlaq bir təzahürüdür, həm də onu göstərir ki, regionda əməkdaşlıq uğurla gedə bilər. Üç ölkə dünyanın ən böyük enerji layihəsinin həyata keçirilməsinə nail oldu. Bu, gələcəkdə imkan verəcək ki, digər beynəlxalq iqtisadi və nəqliyyat layihələrimizi də birlikdə icra edək.

"Şahdəniz" yatağının işə düşməsi ilə əlaqədar Cənubi Qafqaz qaz kəmərinin tikintisi layihəsi çox böyük önəm daşıyır. Bu, Azərbaycan qazının Gürcüstana, Türkiyəyə və ondan sonra digər ölkələrə daşınmasını təmin edəcəkdir.

Bölgədə növbəti regional əməkdaşlıq layihəsi Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolunun çəkilməsidir. Biz bu layihəyə də çox böyük əhəmiyyət veririk və ümid edirəm ki, yaxın zamanlarda bu əfsanə də gerçəkliyə çevriləcəkdir. Yeni gələcəkdə görüləcək işlər çoxdur. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin yaranması bütün dünyaya sübut etdi ki, burada gözəl əməkdaşlıq var, gözəl ab-hava hökm sürür, ölkələr arasında əsl qardaşlıq əlaqələri mövcuddur.

Bu fürsətdən istifadə edərək, mən bizim aramızda olan əlaqələrin inkişafına yenidən diqqət yetirmək istəyirəm. Gürcüstanla Azərbaycanı çox dərin tarixi tellər bağlayır. Bizim xalqlarımız qonşudur. Həmişə, bütün zamanlarda biz mehribanlıq şəraitində, dostluq, qardaşlıq şəraitində yaşamışıq. Yaxşı qonşu olmuşuq, yaxşı dost, yaxşı qardaş olmuşuq. Çox sevindirici haldır ki, ölkələrimizin indiki rəhbərləri bu gözəl ənənələri davam etdirir. Bu əlaqələr çox böyük və güclü zəmin üzərində qurulubdur.

Əminəm ki, Mixail Saakaşvili ilə bizim şəxsi dostluğumuz, qardaşlığımız ölkələrimizin çox uğurlu inkişafına da böyük təkan verir. Bizim xalqlarımız, ölkələrimiz bir-birinə çox sıx bağlıdır. Gürcüstanın uğuru bizim uğurumuzdur, Azərbaycanın uğuru Gürcüstanın uğurudur. Biz bir-birimizə o qədər sıx bağlıyıq ki, bir ölkə o biri ölkənin inkişafında iştirak edir və əksinə. Eyni zamanda, bizi bağlayan dostluq, qardaşlıq münasibətləridir. Biz bu münasibətlərə çox böyük əhəmiyyət verir, onu çox yüksək dəyərləndiririk. Biz Gürcüstanda gedən prosesləri dəstəkləyirik. Rəhbərliyin qətiyyətli siyasətini bəyənirik. Azərbaycanda buna çox böyük rəğbət var. Sizin uğurlarınıza sevinirik. Göründə ki, Gürcüstanın büdcəsi artır, sosial vəziyyət yaxşılaşır, ölkənizdə güclü infrastruktur yaradılır, qayda-qanun yaradılır – bu, bizi də çox sevindirir. Çünki dost kimi, qardaş kimi, bizim mövqeyimiz başqa cür ola da bilməz. Ümid edirəm ki, gələcəkdə bizim uğurlarımız daha da böyük olacaqdır. Həm Gürcüstanın, həm də Azərbaycanın gələcəkdə böyük perspektivləri vardır. Bu perspektivləri reallaşdırmaq üçün bütün səviyyələrdə birlik olmalıdır, dostluq, qardaşlıq olmalıdır.

Mən bu gün dostum, qardaşım, Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezəri də görməyimdən çox məmnunam. Bildiyiniz kimi, Türkiyə

və Azərbaycan qardaş ölkədir. Bizim aramızda münasibətlər ən yüksək səviyyədədir. Bütün sahələrdə çox uğurlu əməkdaşlıq edirik. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə olubdur. Bütün beynəlxalq tədbirlərdə, bütün məsələlərdə həmişə biz bu dəstəyi hiss etmişik və buna arxalanırıq.

Bu gün üç ölkənin Prezidentləri bu gözəl mərasimə toplaşaraq Bakı-Tbilisi-Ceyhan neft kəmərinin yeni bir hissəsinin işə salınmasını qeyd edirlər. Bu, çox əlamətdar hadisədir. Bu, lokal hadisə deyil, çünki Bakı-Tbilisi-Ceyhan neft kəməri transmilli layihədir. Dünyanın ən böyük enerji layihəsidir və onun uğurla başa çatması bütün bölgəyə yeni nəfəs gətirəcək, burada yeni imkanlar yaradacaqdır. İnsanlarımız daha da yaxşı yaşayacaqlar. Çünki bundan əldə olunan gəlir, şübhə etmirəm ki, bölgəmizin iqtisadi potensialına, rifah halının yaxşılaşmasına xidmət edəcəkdir.

Əziz dostlar, bu gözəl bayram münasibətilə bir daha sizin hamınızı ürəkdən təbrik edirəm, qardaş Gürcüstan xalqına uğurlar, xoşbəxtlik, tərəqqi arzulayıram. Sağ olun.

Sonra Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər nitq söylədi.

**Türkiyə Prezidenti**
**Əhməd Necdət Sezərin nitqi**

- Çox hörmətli Cümhurbaşqanları!
Hörmətli nazirlər!
Hörmətli iştirakçılar!

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri ilə ilk neftin Gürcüstana gəlməsi münasibətilə keçirilən təntənəli mərasimə qatılmaqdan və dost, qonşu Gürcüstanda olmaqdan böyük məmnunluq duyuram.

Təxminən dörd ay əvvəl, mayın 25-də Azərbaycanın Səngəçal terminalında keçirilən ilk təntənəli mərasimdən sonra bu gün layihənin ikinci mərhələsini reallaşdırırıq. Hamımız Avropa və Asiyanın kəsişdiyi, starteji önəm daşıyan Cənubi Qafqazda sabitliyin, sülh və təhlükəsizliyin təmin olunması, əlverişli beynəlxalq əməkdaşlığın yaradılması üçün atılan bu böyük addımın reallığını yaşayırıq. Şərq-Qərb enerji dəhlizini gerçəkləşdirən layihələr bölgədə təhlükəsizliyin, sülhün möhkəmlənməsi, iqtisadi dirçəliş yolunda mühüm bir addımdır. Bu layihələr bölgə ölkələrinin bir-biri ilə əlaqələri ilə yanaşı, Qərb dünyası ilə də əlaqələrini gücləndirəcəkdir.

Bölgə ölkələrində iqtisadi və sosial inkişafın davam etdirilməsi önəm daşıyır. Bu çərçivədə xüsusi yeri olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin son mərhələsinə ölkələrimiz arasında etimada əsaslanan fəaliyyət nəticəsində nail olacağıq. Avropa və Asiyaya yeni dinamika gətirəcək və xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaq bu layihə son hədəfinə doğru sürətlə irəliləməkdədir. Bakı-Tbilisi-Ceyhan layihəsinin gerçəkləşməsində əməyi olan hər kəsi ürəkdən təbrik edir, təşəkkürlərimi bildirirəm.

Hörmətli Cümhurbaşqanları!
Dəyərli iştirakçılar!

Enerji təhlükəsizlyi bütün ölkələrin işbirliyi baxımından dünyəvi bir məsələdir. Amerikada baş verən "Katrina" və "Rita" qasırğaları kimi təbii fəlakətlər beynəlxalq enerji təhlükəsizliyinin nə dərəcədə əhəmiyyətli olduğunu bir daha göstərdi. Bakı-Tbilisi-Ceyhan neft kəməri Avropa bazarlarında Xəzər neftinə olan ehtiyacı ödəyəcəkdir. Bu kəmərlə gündə nəql edilən 1 milyon barrel və ildə 50 milyon ton neft dünyada enerji təhlükəsiziyinin gücləndirilməsinə önəmli töhfə verəcəkdir.

Təxminən 1770 kilometr uzunluğunda olan "qara qızıl" kəmərindən söhbət açırıq. Bu kəmərə Qazaxıstanın da qoşulması ilə onun əhəmiyyətinin daha da artacağına və Qazaxıstan neftinin bir hissəsinin ən əlverişli şəkildə Aralıq dənizinə çıxmasına şərait yaranacağına inanırıq.

Türkiyə, Gürcüstan və Azərbaycan bir zamanlar əfsanə kimi görünən Bakı-Tbilisi-Ceyhan layihəsini müvəffəqiyyətlə həyata keçirərək, regional işbirliyi sahəsində digər ölkələrə gözəl nümunə göstərmişlər. Bakı-Tbilisi-Ceyhan layihəsini tamamlamaq yolunda çalışdığımız bu mərhələdə digər layihələri reallaşdırmağımızın da zamanı gəlib çatmışdır. Bundan sonrakı hədəfimiz Bakı-Tbilisi-Ərzurum təbii qaz kəmərinin ən qısa zamanda – 2006-cı ilin sonunadək başa çatdırılması olmalıdır. Xəzərdəki yataqlarda olan təbii qazın Avropa Birliyinin bazarlarına çatdırılması üçün Türkiyə-Yunanıstan-İtaliya qaz kəmərinin çəkilməsi istiqamətində aparılan işlər də xüsusi önəm daşıyır. Avropa ilə Asiya arasında əlaqənin daha sürətlə inkişafı, mal və xidmətlərin səmərəli və daha ucuz yollarla daşınması baxımından ölkələrimizin əhəmiyyəti böyükdür. Bu sahədə önəmli layihələrdən biri Şərq və Qərb arasında dəmir yolu vasitəsilə əlaqə yaradılmasına xidmət edən Qars-Tbilisi-Bakı dəmir yoludur. Bu layihə gerçəkləşdirildikdə Türkiyə Cənubi Qafqazla Orta Asiyanı bir-birinə bağlamaqla yanaşı, tarixi İpək yolunu da XXI əsrdə yenidən canlandıra biləcəkdir.

Türkiyə Şərq-Qərb enerji dəhlizi ilə yanaşı, Şimal-Cənub nəqliyyat dəhlizində də işbirliyinə önəm verməkdədir. Avrasiya bölgəsində Xəzəri Aralıq dənizi ilə, Qara dənizi Orta Şərqlə bağlamaq gücündə olan ölkəmiz bölgədəki xalqların müştərək formada həyata keçiriləcək bütün layihələrinə kömək etmək niyyətindədir.





Hörmətli Cümhurbaşqanları!
Hörmətli iştirakçılar!

Bildiyiniz kimi, Xəzərin enerji ehtiyatlarının dünya bazarına çatdırılmasında önəmli yollardan biri də Türkiyədəki boğazlardır. Türkiyədəki boğazlardan daşınan neft dünyada neftə tələbatın təxminən dörd faizini təmin etməkdədir. Bakı-Tbilisi-Ceyhan layihəsi ilə genişlənəcək Ceyhan limanı dünyanın mühüm enerji, ticarət və sair mərkəzinə çevriləcəkdir. Ceyhan terminalına çəkiləcək yeni boru xətləri Türkiyədəki boğazlardan keçən yüklərin həcmini azaltmağa, enerji, sərhəd təhlükəsizliyini inkişaf etdirməyə səbəb olacaqdır. Boğazlardan tankerlərin və təhlükəli maddələrin keçməsinin qarşısını almaqla, İstanbulun və ətrafının qorxusuz bir sahəyə çevrilməsini nəzərdə tuturuq. Bu çərçivədə Şimal-Cənub dəhlizində reallaşdırılmaqda olan digər bir layihə Novorossiysk və Supsaya gətiriləcək nefti Aralıq dənizinə daşıyacaq Samsun-Ceyhan neft boru xəttidir. 2010-cu ildən başlayaraq Qara dənizə çatması gözlənilən Rusiya və Qazaxıstan neftinin Samsun-Ceyhan boru xətti vasitəsilə ən təhlükəsiz, sərfəli şəkildə Aralıq dənizinə və oradan da dünya bazarlarına çıxarılacağına inanırıq.

Hörmətli Cümhurbaşqanları!
Hörmətli iştirakçılar!

Tarixdən gələn dərin əlaqələrə malik Qafqazın sülhə, sabitliyə və işıqlı günlərə qovuşması ən böyük diləyimizdir. Qardabani rayonu bu aydınlığın, sabaha doğru uzanan yolun yeni bir məkanıdır. Bakı-Tbilisi-Ceyhan boru xəttindən keçəcək neftin Ceyhandan tankerlərə yüklənməsi münasibətilə Ceyhanda təşkil olunacaq mərasimdə sizlərlə yenidən görüşməyi gözləyirik. Gələcəkdə bölgə ölkələrinin Bakı-Tbilisi-Ceyhan neft xətti kimi uğurlu, çox mühüm layihələrə imza atacağına inanır, ən səmimi diləklərimi bildirirəm.

Təntənəli mərasimdə Amerika Birləşmiş Ştatları hökuməti adından çıxış edən konqresmen Bakı-Tbilisi-Ceyhan boru xəttinin Gürcüstan ərazisində tikintisinin başa çatması münasibətilə ABŞ Prezidenti Corc Buşun təbrikini və xoş arzularını çatdırdı.

"bp" şirkətinin baş direktorunun müavini bu kəmərin region ölkələrinin tərəqqisinə çox böyük köməyi dəyəcəyini və sosial proqramların reallaşmasına təkan verəcəyini, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin gələn il işə salınacağını söylədi.

Böyük Britaniyanın nümayəndəsi çıxışında bu layihənin çox cəsarətli addım olduğunu və bu gün onun konkret nəticələrinin göründüyünü xüsusi vurğuladı, dünya birliyinə inteqrasiyanın iqtisadi aspektlərinə toxundu.

Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev, "bp-Azərbaycan" şikətinin prezidenti Devid Vudvord bu əlamətdar tarixi gün münasibətilə mərasim iştirakçılarını təbrik etdilər və növbəti işlər barədə məlumat verdilər.

Sonra Prezidentlər İlham Əliyev, Əhməd Necdət Sezər və Mixail Saakaşvili Azərbaycan neftinin Gürcüstan ərazisində Bakı-Tbilisi-Ceyhan boru xəttinə doldurulması ilə bağlı prosesi həyata keçirdilər.

# "Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəməri regionda sülhün, təhlükəsizliyin, sabitliyin və inkişafın qarantıdır" devizi ilə keçirilən beynəlxalq sülhməramlı aksiyanın iştirakçılarına



*Əziz qadınlar, hörmətli aksiya iştirakçıları!*

*Sizi - "Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəməri regionda sülhün, təhlükəsizliyin, sabitliyin və inkişafın qarantıdır" devizi ilə keçirilən beynəlxalq sülhməramlı aksiyanın iştirakçılarını böyük məmnuniyyət hissi ilə salamlayır, hər birinizə ən səmimi arzularımı yetirirəm.*

*İnanıram ki, Azərbaycan, Türkiyə və Gürcüstan qadınlarının təşkil etdiyi bu xoşməramlı aksiya ölkələrimiz və xalqlarımız arasında dostluğun, əməkdaşlığın və qarşılıqlı anlaşmanın daha da dərinləşdirilməsinə öz töhfəsini verəcəkdir.*

*Azərbaycanın ümummilli lideri Heydər Əliyevin memarı olduğu əsrin ən böyük enerji layihəsinin - Bakı-Tbilisi-Ceyhan boru kəmərinin çəkilişi və neftlə doldurulması işləri artıq uğurla yekunlaşır.*

*Hamıya məlumdur ki, layihə o qədər də asan həyata keçməmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti, eləcə də layihəyə qoşulan ölkə və şirkətlərin rəhbərlərinin səyləri onun reallaşmasına imkan yaratdı. Biz bu yolda müxtəlif çətinliklərlə rastlaşdıq. Lakin bu çətinliklərdən qorxmadıq, çünki qarşımızda çox önəmli, həm də müqəddəs vəzifə dayanmışdı.*

*Hələ ötən əsrin 90-cı illərinin ortalarında Heydər Əliyev Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi ideyasını irəli sürdü. Təklif həmin dövrdən başlayaraq geniş müzakirə edildi və onu həm Azərbaycan rəhbərliyi, həm də bütün maraqlı tərəflər - konsorsiumun iştirakçıları, habelə ABŞ, Türkiyə, Gürcüstan və Qazaxıstan liderləri dəstəklədilər.*

*Qərbin iri neft şirkətləri ilə Azərbaycanın 1994-cü ilin sentyabrında imzaladığı "Əsrin müqaviləsi"ndən başlanan neft strategiyasının həyata keçirilməsində ABŞ hökumətinin xüsusi rolu vardır. Məmnunluq hissi ilə bildirirəm ki, artıq əfsanədən gerçəkliyə çevrilən Bakı-Tbilisi-Ceyhan ixrac boru kəmərinin tikintisi məhz ABŞ-ın mühüm siyasi və iqtisadi dəstəyi ilə başa çatdırılır.*

*Avrasiya nəqliyyat dəhlizinin ən mühüm qollarından sayılan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin reallaşması Prezident Heydər Əliyevin təkcə öz xalqı qarşısında deyil, həm də beynəlxalq miqyasda ən böyük xidmətlərindən biridir və beynəlxalq əməkdaşlıq simvolu kimi region dövlətləri üçün mühüm əhəmiyyət daşıyacaqdır.*

*Bakı-Tbilisi-Ceyhan boru kəməri ölkələrimiz arasında münasibətlərin daha sıx xarakter almasına əhəmiyyətli təsir göstərəcək, regional təhlükəsizliyin möhkəmlənməsinə əlverişli şərait yaradacaq, xalqlarımızı bir-birinə yaxınlaşdıracaq, onların sosial rifahının yüksəlməsi, siyasi-strateji maraqlarının uzlaşdırılması və birgə qorunması üçün yeni perspektivlər açacaqdır.*

*Bakı-Tbilisi-Ceyhan neft kəməri regionun sabitliyi, inkişafı və Avratlantik strukturlara inteqrasiyası baxımından da çox böyük əhəmiyyət kəsb edir.*

*Əminəm ki, Bakı-Tbilisi-Ceyhan ixrac boru kəməri ölkələrimizin iqtisadi yüksəlişinə və tərəqqisinə xidmət edəcək və regionumuzu dünyanın sülh, sabitlik və çiçəklənən regionlarından birinə çevirəcəkdir.*

*Əziz qadınlar, hörmətli aksiya iştirakçıları!*

*Şübhə etmirəm ki, Sizin həyata keçirdiyiniz aksiya region ictimaiyyəti tərəfindən dəstəklənəcəkdir. Bu beynəlxalq sülhməramlı aksiya bir daha sübut edir ki, qadınlar sülh və əmin-amanlıq uğrunda qətiyyət və əzmkarlıq göstərərək, öz missiyalarını şərəflə yerinə yetirirlər.*

*Bir daha sizin hər birinizi aksiya münasibətilə təbrik edir, təmsil etdiyiniz ölkələrin xalqlarına sülh, firavanlıq və davamlı inkişaf arzulayıram.*

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 4 may 2006-cı il*



# Azərbaycan neftinin Ceyhan terminalına çatması münasibətilə Azərbaycan xalqına müraciət

*Əziz həmvətənlər!*

*Dünən Azərbaycan nefti Ceyhan terminalına çatıbdır. Bu böyük tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.*

*Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edən hadisədir. Bu, Azərbaycanın uzunmüddətli inkişafını təmin edəcək, ölkəmizi zənginləşdirəcək, bizim iqtisadi potensialımızı daha da möhkəmləndirəcəkdir.*

*Azərbaycan çox sürətlə və dinamik şəkildə inkişaf edən ölkədir. Azərbaycanın çox gözəl perspektivləri, çox gözəl nəticələri var və şübhəsiz ki, ölkəmiz Bakı-Tbilisi-Ceyhan neft kəmərinin fəaliyyətindən çox böyük fayda əldə edəcəkdir. Hər bir vətəndaş bu müsbət dəyişiklikləri öz gündəlik həyatında hiss edəcəkdir.*

*Bakı-Tbilisi-Ceyhan neft kəməri ulu öndər Heydər Əliyevin adını daşıyır. Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə başlanmış Azərbaycanın neft strategiyası bu gün ölkəmizin hərtərəfli inkişafına şərait yaradır. Onu da bilirsiniz ki, Türkiyə hökuməti Ceyhan terminalına da ulu öndər Heydər Əliyevin adını vermişdir. Beləliklə, Azərbaycan nefti Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə Heydər Əliyev adına Ceyhan terminalına nəql edilibdir və bir neçə gündən sonra birinci tanker yola düşəcəkdir. Bu bir daha onu göstərir ki, ölkəmiz qarşıda duran bütün vəzifələri icra etməyə hazırdır və buna qadirdir.*

*1990-cı illərin çox ağır şəraitində müəyyən təzyiqlərə, təhlükələrə, təhdidlərə baxmayaraq, Azərbaycan xalqı öz siyasətindən dönmədi. Azərbaycan rəhbərliyi öz siyasətini cəsarətlə, müdrikliklə irəliyə aparırdı. Bu gün də belədir. İndi Azərbaycan qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir. Dünyanın ən böyük enerji layihəsi olan Bakı-Tbilisi-Ceyhan bu gün reallıqdır. Vaxtilə əfsanə kimi görünən bu layihə artıq gerçəklikdir. Bu ilin sonuna qədər Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işə düşməsi Azərbaycanın hərtərəfli inkişaf etməsinə böyük xidmət göstərəcəkdir.*

*Bilirsiniz ki, indi dünyada və Avropada enerji təhlükəsizliyi məsələləri ön plana çıxır. Demək olar ki, gündəliyin ön planına çıxır. Bu baxımdan Azərbaycanın rolu getdikcə artacaqdır. Bu, bizə bir tərəfdən böyük iqtisadi mənfəət gətirəcək, digər tərəfdən, böyük siyasi kapital gətirəcəkdir. Azərbaycanla hesablaşırlar, Azərbaycanla məsləhətləşirlər. Bizim dünyadakı və Avropadakı mövqelərimiz möhkəmlənir. Müstəqil siyasət aparmağımızda heç bir problem yoxdur, heç bir çətinlik çəkmirik və ölkəmizi çox inamla və uğurla gələcəyə aparırıq.*

*Bu, böyük tarixi hadisədir. Bu, təkcə Azərbaycan üçün, bölgə üçün deyil, dünya əhəmiyyətli tarixi hadisədir.*

*Əlbəttə, biz hamımız istəyirik ki, Azərbaycanın qarşısında duran bütün problemlər tezliklə öz həllini tapsın. İlk növbədə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapsın. Biz bu münaqişənin həll olunmasında bütün imkanlardan istifadə edəcəyik. O cümlədən iqtisadi imkanlarımızdan, artan iqtisadi potensialımızdan və bütün başqa imkanlardan.*

*Mən Azərbaycanın qarşısında böyük problem görmürəm, gələcəyə çox nikbinliklə baxıram. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin reallaşması bir daha onu göstərir ki, Azərbaycan iqtidarı, rəhbərliyi ölkəni inamla idarə edir. Bizim siyasətimiz xalq tərəfindən bəyənilir, dəstəklənir və biz də çalışacağıq əlimizdən gələni edək ki, ölkəmiz daha da möhkəmlənsin, hər bir vətəndaş daha da yaxşı yaşasın, işsizlik, yoxsulluq tamamilə aradan qaldırılsın. Əlbəttə ki, bu işdə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin rolu müstəsna əhəmiyyət daşıyır.*

*Gəlin fərz edək ki, əgər 1994-cü ildə "Əsrin müqaviləsi" bağlanmasaydı nə olardı, əgər çətin, ağır şəraitdə Heydər Əliyevin səyləri nəticəsində biz Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə başlamasaydıq nə olardı? Azərbaycan hansı problemlərlə üzləşərdi? İndi Azərbaycanın dünyadakı mövqeləri necə ola bilərdi? Əlbəttə, bunu təsəvvür etmək çətin deyildir. Bu gün Azərbaycanın inamlı inkişafının əsas səbəbi məhz 1990-cı illərin ortalarında ulu öndər Heydər Əliyev tərəfindən başlanmış neft strategiyasıdır. Bu neft strategiyası bizə böyük imkanlar yaratdı, böyük imkanlar da yaradacaqdır və biz bundan səmərəli istifadə edəcəyik.*

*Çox əlamətdar hadisədir ki, Azərbaycan neftinin Ceyhan terminalına daxil olması Respublika gününə təsadüf etdi. Bu hadisə də böyük rəmzi xarakter daşıyır. Çünki Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin rolu danılmazdır və çox əhəmiyyətlidir. Azərbaycan 15 ildir ki, müstəqil ölkə kimi yaşayır. Bu 15 il ərzində biz bütün dünyaya sübut etdik ki, müstəqil ölkə kimi yaşaya bilərik, biz öz siyasətimizi Azərbaycan xalqının milli maraqları üzərində qururuq, biz Azərbaycanı dünya birliyinə sürətlə inteqrasiya edirik. Azərbaycanın dünyadakı mövqeləri möhkəmlənir, ölkə daxilində olan sabitlik və vətəndaş həmrəyliyi möhkəmlənir və müstəqil ölkə kimi Azərbaycan bundan sonra da yaşayacaq və əbədi yaşayacaqdır.*

*Əziz dostlar, əziz bacılar və qardaşlar, bu tarixi hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram.*

*Yaşasın müstəqil Azərbaycan!*

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Paris, 29 may 2006-cı il*

## Azərbaycan neft və qaz sənayesi işçilərinin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanından



*Bakı, 22 noyabr 2004-cü il*



2004-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın tanınmış neft şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsinə dair Sazişin imzalanmasının onuncu ildönümü tamam olur.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış bu Saziş müstəqil Azərbaycanın neft strategiyasının təməlini qoyaraq, ölkəmizin siyasi və iqtisadi həyatında müstəsna əhəmiyyət kəsb etdi.

Beynəlxalq aləmdə "Əsrin müqaviləsi" adlandırılan bu Sazişin həyata keçirilməsindəki nailiyyətlərinə və Azərbaycanın neft və qaz sənayesinin inkişafındakı xidmətlərinə görə aşağıdakı işçilər təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Əliyev Natiq Ağaəmi oğlu
Yusifzadə Xoşbəxt Bağı oğlu
Ələsgərov Valeh Feyruz oğlu
Devid Vudvord

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 18 sentyabr 2004-cü il*



*Bakı, 22 noyabr 2004-cü il*



*Baku, 3 dekabr 2004-cü il*



## Maykl Taunzendin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsində xidmətlərinə görə "BTC Ko." şirkətinin baş icraçı direktoru Maykl Taunzend "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı, 13 iyun 2006-cı il*



ALMATI, 16 İYUN 2006-CI İL



# Qazaxıstanın BTC-yə qoşulması haqqında müqavilənin imzalanması

2006-cı il iyunun 16-da Almatı şəhərində, Qazaxıstan Respublikası Prezidentinin sarayında "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Azərbaycan Respublikasının ərazisi ilə Bakı-Tbilisi-Ceyhan sistemi vasitəsilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında" müqavilənin imzalanması mərasimi oldu.

Müqaviləni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev imzaladılar.

Müqavilə imzalandıqdan sonra dövlət başçıları kütləvi informasiya vasitələrinin nümayəndələri üçün brifinq keçirdilər.

Prezidentlər brifinqdə bəyanatlarla çıxış etdilər.





**Qazaxıstan Prezidenti**
**Nursultan Nazarbayevin bəyanatı**

- Hörmətli xanımlar və cənablar!

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri!

İndi biz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə çox mühüm, səmimi danışıqlar apardıq. Elə indicə, sizin gözləriniz qarşısında Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəqlinə şərait yaradılması haqqında müqavilə imzaladıq. Bu, çox mühüm müqavilədir və biz onu uzun müddət işləyib hazırlamışıq. Mütəxəssislərimiz yaxşı işlədilər və sənədin imzalanmasını mümkün etdilər.

Müqavilənin əhəmiyyətini lazımınca qiymətləndirmək çətindir. Xəzər dənizinin hər iki tərəfindən məhz Qazaxıstan və Azərbaycan Mərkəzi Asiya regionunun dövlətləri ilə ticarət üçün əsas birləşdirici vasilədir, ən başlıcası isə, neftin nəqli üçün biz Rusiya və Çin istiqamətləri ilə yanaşı, üçüncü yolu da əldə edirik. 2015-ci ilədək Qazaxıstanda neft hasilatının getdikcə artacağı bu yolun da işləməsini zərurətə çevirir. Müqaviləyə uyğun olaraq, 2010-cu ilədək Xəzərin həm Qazaxıstan, həm də Azərbaycan sahilində infrastruktur obyektləri tikiləcək – mən yeni terminalları, tankerlərlə nəqletmə üçün yeni imkanları nəzərdə tuturam. Bütün bunlara müvafiq vəsait qoyulacaqdır. Sonra neftin getdikcə artan həcmdə miqdarı müəyyənləşdiriləcək, neft Qazaxıstan üçün çox vacib olan bu boru kəməri ilə nəql ediləcəkdir.

Hesab edirəm ki, bu, ənənəvi surətdə dost olan, bir-birinə həmişə səmimiyyətlə yanaşan, ümumi kökləri, ümumi mədəniyyəti olan dövlətlərimizin qarşılıqlı münasibətlərində çox mühüm tarixi hadisə, ticarətimizin yüksək sürətlə artması üçün vacib imkandır.

İlham Heydər oğlu, mən Sizi bu müqavilə münasibətilə təbrik edir və salamlayıram, bu müşavirədə iştirak etmək üçün gəldiyinizə görə Sizə təşəkkürümü bildirirəm.

**Azərbaycan Prezidenti**
**İlham Əliyevin bəyanatı**

- Hörmətli xanımlar və cənablar!

İlk növbədə, Qazaxıstana dəvətə görə hörmətli Qazaxıstan Prezidenti Nursultan Abişeviç Nazarbayevə təşəkkür etmək istərdim. Bu, mənim üçün çox vacibdir. İkitərəfli münasibətlərə, regional əməkdaşlığa dair məsələlərin olduqca geniş spektri haqqında çox mühüm danışıqlar aparıldı. Enerji təhlükəsizliyi, kommunikasiya, nəqliyyat, regionda təhlükəsizlik tədbirlərinin gücləndirilməsi məsələləri də, əlbəttə ki, regionda ölkələrimiz arasında sıx qarşılıqlı fəaliyyətdən asılı olacaqdır.





Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan boru kəməri sistemi ilə nəqli haqqında Qazaxıstan ilə Azərbaycan arasında imzalanmış bugünkü dövlətlərarası müqavilə də ölkələrimizin münasibətlərinin yüksək səviyyədə olduğunu bir daha göstərir. Bu, qardaş xalqlar arasında, bir-birinə həmişə kömək etmiş və bu gün də müttəfiqlik nümunəsi olan ölkələr arasında ənənəvi münasibətlərdir.

Bakı-Tbilisi-Ceyhan boru kəmərinin əhəmiyyəti, yəqin ki, sonralar özünü göstərəcəkdir. Biz ona doğru çox uzun müddət irəliləmişik. Bu layihənin həyata keçirilməsi üçün Azərbaycanda çox böyük iş görülmüşdür. Boru kəmərinin Azərbaycanın ulu öndəri Heydər Əliyevin adını daşıması təsadüfi deyil, çünki bu layihə məhz onun təşəbbüsü ilə həyata keçirilməyə başlanmışdır. Çoxları onu qeyri-real, mümkün olmayan, kommersiya baxımından səmərəsiz və sair və ilaxır layihə kimi qəbul edirdi. Amma həyat göstərdi ki, bu layihəyə inananlar, onu həyata keçirənlər haqlıdırlar. İndi Bakı-Tbilisi-Ceyhan reallıqdır, Xəzəri Aralıq dənizi ilə ilk dəfə birləşdirən və bununla da Xəzərin enerji ehtiyatlarını dünya bazarlarına çıxarmağa imkan verən nadir nəqliyyat infrastrukturudur. O, ən müasir texnologiyadır və Azərbaycana, Qazaxıstana həmin istiqamətdə milyonlarla ton neft nəql etməyə imkan verəcəkdir. Boru kəmərinin buraxılış gücü hazırda ildə 50 milyon tondur, lakin texniki təkmilləşdirmələr hesabına, bu, demək olar, iki dəfə artırıla bilər.

Beləliklə, o, regionun ən iri neft arteriyası olacaqdır. Boru kəməri işə salındıqdan heç bir ay keçməmiş Qazaxıstanın ona qoşulması da bu layihənin nə dərəcədə vacib olduğuna sübutdur. Boru kəməri bu il mayın 28-də, Azərbaycanın Respublika günündə istismara verildi. İndi o, işləyir, neftlə doldurulur və gələcəkdə xalqlarımız onun fəaliyyətindən həm iqtisadi cəhətdən, həm müstəqil siyasətimizin möhkəmlənməsi baxımından, həm də regional əməkdaşlığın inkişafı baxımından və əlbəttə ki, regionda təhlükəsizlik sisteminin möhkəmlənməsi sarıdan ancaq fayda götürəcəklər.

Mənə çox xoşdur ki, bu tarixi gündə biz regionun dinamik inkişafını, enerji ehtiyatlarının dünya bazarlarına çatdırılmasının alternativ yolunu on illərlə öncədən müəyyənləşdirən bir sənəd imzaladıq.

İndi enerji təhlükəsizliyi məsələləri ön sıraya keçir. Ona görə də Qazaxıstanın və Azərbaycanın səylərini birləşdirmək bizim üçün də, ümumən, regional layihələr üçün də çox vacibdir.

Bu mühüm tarixi hadisə münasibətilə Qazaxıstan Prezidenti Nursultan Abişeviç Nazarbayevi, habelə Qazaxıstan və Azərbaycan xalqlarını təbrik etmək istəyirəm.

**CEYHAN, 13 İYUL 2006-CI İL**



# Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin istifadəyə verilməsi

2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər, Gürcüstanın Prezidenti Mixail Saakaşvili Bakı-Tbilisi-Ceyhan boru kəmərinin rəsmi açılış mərasimində iştirak etmək üçün İstanbuldan təyyarə ilə Adana şəhərinə gəldilər.

Hava limanında dövlət başçılarının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Sonra Prezidentlər İlham Əliyev, Əhməd Necdət Sezər və Mixail Saakaşvili avtomobillərlə Heydər Əliyev adına Ceyhan terminalına gəldilər.

Ceyhan terminalında mərasimə toplaşanlar dövlət başçılarını, eləcə də Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanı, "bp" şirkətinin prezidenti Con Braunu, habelə 30-dək ölkənin dövlət və hökumət nümayəndələrini, beynəlxalq və regional təşkilatların təmsilçilərini ehtiramla qarşıladılar.

Mərasimin əvvəlində Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət himnləri ifa olundu.

Sonra BTC-nin tarixi və tikintisinə dair sənədli filmdən kadrlar göstərildi.

İlk söz BTC layihəsinin operatoru olan "bp" şirkətinin prezidenti lord Con Brauna verildi.

### "bp" şirkətinin prezidenti lord Con Braunun çıxışı

- Zati-aliləri,

Hörmətli xanımlar və cənablar!

Burada böyük tarixi bir anda çıxış etmək mənim üçün böyük şərəfdir. Çünki Bakı-Tbilisi-Ceyhan neft kəmərinin başa çatdırılması tarixi əhəmiyyət daşıyır. İlk dəfədir ki, bu əsrdə Xəzər neftinin dünya bazarlarına çıxışını təmin edir. Eyni zamanda Türkiyənin də Aralıq dənizi vasitəsilə xam neftin ixracatına qatılmasını təmin etdi. Mən burada oturan bütün həmkarlarıma öz minnətdarlığımı bildirmək istəyirəm. Burada Azərbaycan, Gürcüstan və Türkiyədən olan əməkdaşlarımı salamlayır və onların böyük zəhmətlərini yüksək qiymətləndirirəm. Eyni zamanda həm hökumətlərin, yerli hakimiyyətlərin nümayəndələrini, həm də şirkət nümayəndələrini - Devid Vudvordu və digər həmkarlarımı salamlayıram. BTC layihəsi əsrin böyük bir layihəsidir. Uzunluğu 1774 kilometrdir və bu layihə 4 milyard dollarlıq sərmayənin qoyulması nəticəsində başa çatmışdır. Bu layihə çərçivəsində yerli hakimiyyətlərin köməyi ilə ətraf mühitin qorunmasına dair çox böyük layihələr də həyata keçirilibdir. Biz bugünkü rəsmi mərasimdə, demək olar ki, 12 illik işin nəticəsini dilə gətiririk. Gələcəkdə bu layihənin başqa bölgələrə çatmasının vacibliyini, "Şahdəniz"dən Gürcüstan vasitəsilə Türkiyəyə qaz ixrac edilməsini və Azərbaycanın qaz ixracatçısı olaraq dünya bazarına çıxmasını və bu bazarın Avropa və Asiya qaz bazarlarına qədər uzanmasını düşünürük. Biz bilirik ki, illər keçdikcə, enerji ehtiyatlarının dünya bazarlarına çatdırılmasında ehtiyat və təhlükəsizlik tədbirləri möhkəmləndirilməlidir. Biz bu layihələrə baxdıqda gördüyümüz işlərin bütün iştirakçılara həm sosial, həm də iqtisadi mənada böyük müsbət nəticələr verdiyini görürük. Əgər bizim təşəbbüsümüz bu qədər güclü olmasaydı, bu layihə heç bir zaman gerçəkləşə bilməzdi. Burada, əlbəttə, ilk mərhələləri xatırlatmaq istəyirəm. Onda təhlükəsizliklə əlaqədar problemlər yaşanırdı. Biz bütün tərəflərin güclü siyasi dəstəyini görməsəydik, bu layihə, çətin ki, müvəffəqiyyətlə nəticələnərdi.

Biz tarixə - həm keçmişə, həm də gələcəyə nəzər salanda görürük ki, bu layihə böyük addım sayılır.



Çünki bir çox insanı bir yerə gətirdi və parlaq gələcəyə yol açdı. Çox sağ olun.

Sonra "bp-Azərbaycan" şirkətinin prezidenti Devid Vudvord çıxış etdi.

**"bp-Azərbaycan" şirkətinin prezidenti Devid Vudvordun çıxışı**

- Zati-aliləri Türkiyə Prezidenti Sezər,
Zati-aliləri cənab Prezidentlər,
Hörmətli xanımlar və cənablar!

Mənim üçün "bp" və "BTC Ko." üzrə tərəfdaşlarım adından bu gün neft kəmərinin açılış mərasimində sizlərə bu yüksək kürsüdən müraciət etmək böyük şərəfdir. Düşündüyümüz kimi, layihəmizin axırında biz enerjidaşıyıcılarının daha təhlükəsiz nəqli yolunu əldə edəcəyik. Bu işin keçmişində böyük çətinliklər yaşandı. Xəzərin "Azəri", "Çıraq", "Günəşli" yataqlarından çıxarılan neft Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə böyük məsafələr qət edərək buraya gətirilir. Kəmərin təkcə Türkiyə hissəsində 300-dən artıq kəndin yanından keçmişik. Marşrutun keçdiyi yerlərdə böyük kənd təsərrüfatı tarlaları, iri yaşayış məntəqələri vardı. Bu çətinliklərin hamısının öhdəsindən gəldik. Bundan başqa, ətraf mühitin qorunmasına böyük diqqət yetirildi. Flora və faunanın qorunmasına dair ətraf mühit proqramları da həyata keçirildi. Marşrutun keçdiyi yerdə biz Qazi Universitetinin arxeologiya bölməsinin köməyi ilə arxeoloji qazıntılar apardıq.

Mən bu gün hamınızı təbrik edib, yenə də minnətdarlığımı bildirmək istəyirəm. Burada həm Azərbaycan, həm Gürcüstan, həm də Türkiyə tərəflərinin göstərdikləri diqqət və köməyi qeyd etmək istəyirəm. Burada "bp", ARDNŞ, "Şevron", "Statoyl", TPAO, "Eni", "Total", "İtoçu", "İnreks", "KonokoFilips" və "Amerada Hess" kimi şirkətləri də saymalıyam. Türkiyənin "Botaş" şirkətini, onun Türkiyə tərəfindən podratçılarını da qeyd etmək istəyirəm. Minlərcə insanın bu layihəyə cəlb olunması onun gerçəkləşməsi üçün böyük əhəmiyyət kəsb etdi.



Bu gün artıq kəmərin açılış mərasimini qeyd edirik. Səngəçaldan gələn, böyük əməyin nəticəsi olan xam neftin Ceyhana qədər gəlməsini görürük. Enerji bazarlarına neftin, qazın nəqli daha çox təhlükəsizlik tələb edir. İnsanlar və şirkətlər inkişaf etdikcə, cəmiyyətlərin rifahı daha yüksək olduqca, eyni zamanda cəmiyyətlər arasında etibarın daha da artırılmasının və istər-istəməz, təhlükəsizliyin də vacib olduğunu qeyd edirlər. Mən bir daha sizə minnətdarlığımı bildirirəm.

Sonra ABŞ-ın energetika nazirinin müavini Kley Sellə söz verildi.

**ABŞ-ın energetika nazirinin müavini Kley Sellin çıxışı**

- Zati-aliləri Azərbaycan Prezidenti İlham Əliyev,
Gürcüstan Prezidenti Mixail Saakaşvili,
Türkiyə Prezidenti Sezər,
Hörmətli xanımlar və cənablar!

Mən bu gün böyük bir mərasimdə iştirak edirəm. Neft kəmərinin inşasının başa çatdırılmasında əməyi olan böyük neft şirkətlərini salamlayıram. Onların böyük səyləri və investisiyaları nəticəsində bu layihə həyata keçirildi.

Zati-aliləri Prezident Buşun göndərdiyi salamı bu kürsüdən sizə çatdırmaq mənim üçün böyük şərəfdir. Burada Zati-aliləri Sezərə də müraciət etmək istəyirəm:

*"Zati-aliləri, mən Türkiyə xalqını ürəkdən təbrik edirəm. İlk neft Bakıdan Ceyhana çatdı və bu hissləri Amerika xalqı Sizinlə paylaşır. BTC Xəzər dənizi ehtiyatlarının inkişafında böyük addımdır. Bu, eyni zamanda, ətraf mühit üçün böyük bir inkişaf addımıdır. Həm Azərbaycan, həm Gürcüstan, həm Türkiyə, həm də dünya bazarı üçün böyük bir hadisədir. Onun əhəmiyyəti BTC-nin həm də dünya enerji bazarına çıxmasındadır. Biz bu layihənin enerji təhlükəsizliyini möhkəmləndirəcəyinə, bölgələrin əməkdaşlığının artırılmasında böyük əhəmiyyət daşıyacağına və Amerika xalqı olaraq, biz Bakı-Tbilisi-Ceyhan layihəsinin yüksək dərəcədə müvəffəqiyyətlə tamamlanacağına inanırıq.*

*Corc Buş".*





Mən burada Türkiyə, Gürcüstan, Azərbaycan xalqlarını və onların rəhbərlərini təbrik etmək istəyirəm. BTC-nin hər zaman daha yüksək zirvələr əldə etmək üçün müvəffəqiyyətli addım olacağına Amerika hökuməti adından inanıram. Əminəm ki, bu layihə və bundan sonrakı layihələr həm sərhədləri daha şəffaf edəcək, həm də əməkdaşlığı daha yüksək səviyyəyə qaldıracaqdır. Onun XXI əsrin əvvəlində dünyada ən böyük layihə olduğuna ürəkdən inanıram. Bu layihə ən yeni texnoloji nailiyyətlərdən istifadə edilərək həyata keçirildi. Bu enerji dəhlizlərinin Şərqdən Qərbə gedən böyük bir yol olduğuna və enerji təhlükəsizliyini təmin etdiyinə və insanlara daha yüksək rifah gətirəcəyinə inanıram. Bu enerji layihələri həm neftin, həm də qaz ehtiyatlarının dünya bazarlarına çatdırılmasında uğurlu addımdır və onlardan sonra yeni layihələr yaranacaqdır. BTC-nin müvəffəqiyyəti həm bölgə liderlərinin qərarlılığının, həm də böyük dəstəyin nəticəsidir. Bunun uğurlu olmasında Amerika hökuməti də öz dəstəyini heç zaman əsirgəməyibdir. Bir daha deyirəm, bu böyük, mötəbər mərasimdə iştirak etmək mənim üçün böyük şərəfdir. Yenə də sizi təbrik edir və minnətdarlığımı bildirirəm. Sağ olun.

Çıxış üçün Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana söz verildi.

**Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın çıxışı**

- Hörmətli Prezidentlər,
Dünya enerji ictimaiyyətinin hörmətli nümayəndələri,
Xanımlar, cənablar!

Sizləri bu mənalı gündə ən səmimi hisslərlə salamlayıram.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin rəsmi açılış mərasimi münasibətilə siz dəyərli qonaqlarımızla bir araya gəlməkdən böyük xoşbəxtlik hissi keçirdiyimizi xüsusi vurğulamaq istəyirəm. Bu mənalı günü bizimlə bölüşən hər bir kəsə təşəkkür edirəm.

Bu gün dünyanın ən böyük enerji layihələrindən biri olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin gerçəyə çevrildiyinin şahidi oluruq. Bakı-Tbilisi-Ceyhan bir mühəndislik əsəri olmaqla yanaşı, ekoloji baxımdan da uğur nümunəsidir. Bakı-Tbilisi-Ceyhan bölgənin ekologiyasını dəyişdirəcək strateji bir layihədir. Bu layihə "XXI əsrin İpək yolu" adlandırılan Şərq-Qərb enerji dəhlizinin ən mühüm xəttini təşkil etməkdədir. Bölgəmizin həm sabitliyi, həm də iqtisadi və sosial inkişafı baxımından son dərəcə taleyüklü layihədir.

Dəyərli qonaqlar, müasir dövrdə enerji təminatının təhlükəsizliyi təmin edilmədən rifah, sabitlik, iqtisadi və sosial inkişaf mümkün deyildir. 2030-cu ilədək dünyada enerji tələbatının 60 faiz artacağı gözlənilir. Bunu nəzərə aldıqda, Xəzər neftini beynəlxalq bazarlara fasiləsiz və təhlükəsiz bir şəkildə çatdıracaq Bakı-Tbilisi-Ceyhan kəmərinin bölgə və qlobal baxımdan əhəmiyyəti daha da aydınlaşır. Bakı-Tbilisi-Ceyhan neft kəməri Qərb ölkələrinin Xəzər hövzəsinin ehtiyatlarına birbaşa çatması baxımından da strateji əhəmiyyətə malikdir. Kəmər gündəlik 1 milyon barrel, illik 50 milyon ton buraxılış qabiliyyəti ilə dünya enerji təhlükəsizliyinə ciddi töhfələr verəcəkdir. Eyni zamanda, o, Türkiyə boğazlarının təhlükəsizliyinin təmin edilməsi baxımından da böyük əhəmiyyət kəsb edir və bu da bizim üçün çox mühümdür. Bu layihə ekoloji baxımdan böyük təhlükə yaradan neft tankerlərinin boğazlardan keçməsini azaldacaqdır.

Türkiyə olaraq biz bir tərəfdən, enerji mənbələrinin müxtəlifləşdirilməsi istiqamətində işlərimizi davam etdirir, digər tərəfdən də, coğrafi mövqeyimizdən istifadə edərək, hasilatçı ölkələrlə istehlakçı ölkələr arasında etibarlı enerji dəhlizləri yaratmaq məqsədi güdürük. Ceyhan terminalını bir enerji mərkəzinə çevirmək istəyirik. Bakı-Tbilisi-Ceyhan bizi bu məqsədə çatdıracaq ən mühüm layihədir. İyunun 4-də ilk neftini tankerə doldurduğumuz neft kəmərinə Qazaxıstanın da qoşulması ilə layihə daha da səmərəli olmuşdur. Aktau–Bakı-Tbilisi-Ceyhan marşrutu ilə Qazaxıstan neftinin Aralıq dənizinə çatdırılması, inanıram ki, qardaş Qazaxıstanla əlaqələrimizi daha da gücləndirəcəkdir.


STATOIL
btc
btc

Dəyərli qonaqlar, 2030-cu ildə Avropa Birliyinin təbii qaza olan tələbatının 70-80 faiz artması gözlənilir. Bu tələbatın bir hissəsinin Azərbaycanın "Şahdəniz" təbii qazı ilə və bölgədəki digər mənbələrdən təmin edilməsi nəzərdə tutulur. Eyni zamanda, son hadisələr çərçivəsində Avropa Birliyinin enerji mənbələrinin müxtəlifləşdirilməsi üçün işlərin sürətləndirilməsi Türkiyənin bu baxımdan daha mühüm mövqeyə malik olması ilə nəticələnmişdir. Türkiyə təbii qaz təchizatında Rusiya, Norveç və Əlcəzairdən sonra Avropa Birliyi üçün dördüncü arteriya kimi qiymətləndirilmişdir. Bu səbəbdən dost və qonşu ölkələrlə inkişaf etdirdiyimiz Şərq-Qərb enerji dəhlizi, sadəcə, bölgə ölkələri üçün yox, Avropa Birliyi, Amerika Birləşmiş Ştatları və digər istehlakçı ölkələr üçün də böyük əhəmiyyət kəsb edir. Dəhlizin ikinci qolu olan Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin, nəzərdə tutulduğu kimi, 2006-cı ilin sonunda istifadəyə verilməsi, beləliklə, "Şahdəniz" qazının Türkiyəyə çatdırılması mühüm uğur olacaqdır. Son hadisələr Qazaxıstan və Türkmənistanın zəngin qaz ehtiyatlarının da bir hissəsini Avropaya çatdıracaq Transxəzər qaz kəməri layihəsini ön plana çıxarmışdır. Qazaxıstan və Türkmənistan qazını Qərb bazarlarına çıxaracaq layihə bu iki ölkənin qlobal enerji təhlükəsizliyinin inkişafında oynadığı rolu da möhkəmləndirəcəkdir.



Çoxçalarlı enerji strategiyamız İraqın zəngin təbii qaz ehtiyatlarından istifadəni də əhatə edir. İraq təbii qazının qarşıdakı illərdə Kərkük-Yumurtalıq neft kəmərinə paralel çəkiləcək bir kəmərlə Ceyhana çatdırılmasını nəzərdə tuturuq. Eyni zamanda, Ceyhanda tikiləcək bir terminal vasitəsilə bölgənin təbii qazının Avropadan da o tərəfə, Amerika Birləşmiş Ştatlarının şərqinə qədər çatdırmaq məqsədi güdürük. Xəzər və Yaxın Şərq təbii qazını Türkiyə vasitəsilə Avropa Birliyi bazarlarına çatdıracaq Türkiyə-Yunanıstan-İtaliya qaz kəmərinin inşası üçün işlər davam edir. Türkiyə-Yunanıstan xəttinin inşası sürətlə davam edir və 2006-cı ilin sonlarında başa çatmasını nəzərdə tuturuq.




Onu da demək istəyirəm ki, biz həm ölkələrimiz, həm də Avropa ilə Asiya arasındakı nəqliyyatın inkişafına böyük əhəmiyyət veririk. Mal və xidmətlərin daha sürətlə və daha ucuz daşınması prioritet vəzifələrimizdən biridir. Bu çərçivədə Şərqlə Qərb arasında nəqliyyat əlaqəsini daimi edəcək Qars-Tbilisi-Bakı dəmir yolunu tezliklə həyata keçirmək üçün səy göstəririk və bu məsələdə qətiyyətliyik. Şərq-Qərb dəhlizinin nəqliyyat qolunu təşkil edən bu layihə həyata keçirildikdə, Türkiyə, Cənubi Qafqaz və Orta Asiyanı bir-birinə bağlayacaqdır. Bu layihə, eyni zamanda, Qafqazda geniş və irimiqyaslı bir əməkdaşlıq magistralının yaradılmasına da imkan verəcəkdir.

Dəyərli dostlar, burada bir daha vurğulamaq istəyirəm ki, söhbət, sadəcə, xalqlarımızın həyat səviyyəsini yüksəldəcək bir enerji dəhlizinin yaradılmasından, şəhərlərimizi və insanlarımızı işıqlandıracaq və isindirəcək, inkişaf etdirəcək bir layihədən getmir. İnşa etdiyimiz neft kəmərləri enerji ehtiyatlarının nəqli ilə yanaşı, çox mühüm bir mesaj da daşıyır.

O da bu layihələri həyata keçirmək üçün etdiyimiz çoxtərəfli və çoxçalarlı əməkdaşlığın xarakterində gizlənibdir. Məncə, bu mesaj, kodunun açıqlanmasına ehtiyac duyulmayacaq dərəcədə aydındır. Bu enerji dəhlizi xalqlarımız və dövlətlərimiz arasında möhkəm sülh və dostluq dəhlizinin açılması mənasını da daşıyır. Mən əməkdaşlığımızın ortaya çıxardığı bu enerji dəhlizini qlobal miqyasda gündən-günə daha çox ehtiyac duyduğumuz təbii qaz qədər, yanacaq qədər, elektrik qədər həyati əhəmiyyət kəsb edən bir sabitlik və rifah dəhlizi kimi görürəm.

Türkiyə olaraq biz Şərq-Qərb enerji dəhlizi ilə yanaşı, Şimal-Cənub xətti çərçivəsində də əməkdaşlığa böyük əhəmiyyət veririk. 2010-cu illərdə Qara dənizə çatdırılacaq böyük həcmlərdə Rusiya və Qazaxıstan neftinin Aralıq dənizi vasitəsilə istehlakçı bazarlarına daşınmasını təmin edəcək Samsun-Ceyhan neft kəməri də ən qısa müddət ərzində inşa olunacaqdır. Bu layihə ilə əlaqədar ilk mərhələdə bir türk şirkəti ilə İtaliyanın qabaqcıl şirkətlərindən birinin lisenziya üçün müştərək müraciətləri qəbul edilmişdir. Şimali Xəzər bölgəsində və Rusiyada fəaliyyət göstərən digər neft şirkətlərinin də layihədə iştirak etməsi bizi məmnun edir. Samsun-Ceyhan neft kəməri Qara dənizə çatdırılacaq nefti iqtisadi və ekoloji cəhətdən ən əlverişli şəkildə Aralıq dənizinə çıxaracaqdır. Eyni zamanda boğazlarımız və gözəl İstanbulumuz üçün təhlükə yaradan tanker magistralının da qismən yüngülləşdirilməsi təmin



ediləcəkdir. Bu səbəbdən layihənin həyata keçirilməsi üçün hökumət olaraq əlimizdən gələni etməyə hazırıq.

2010-cu illərdə İraq, Azərbaycan, Rusiya və Qazaxıstan neftinin çatdırılacağı Ceyhan terminalı hər gün müxtəlif ölçülərdəki tankerlərə fərqli xüsusiyyətlərə malik nefti doldurmağa hazır olacaqdır. Bu, hamı üçün böyük bir üstünlükdür. Təhlükəsiz bir bölgədə yerləşən terminalın bir enerji supermarketinə çevrilməsi Avropanın enerji təhlükəsizliyi baxımından da son dərəcə mühümdür.

Burada bir həqiqəti də vurğulamaq istəyirəm. O da enerji daşıyıcılarına tələbatımızın 20 il ərzində 60 faiz artacağının gözlənilməsidir. Bu tələbatın ödənilməsi üçün böyük miqyaslı sərmayə qoyulmalıdır. Bu səbəbdən istər yerli, istərsə də beynəlxalq sərmayədarlar üçün münasib bazar şərtləri yaratmaq istiqamətində mühüm addımlar atmışıq. Sərmayədarlara ən əlverişli investisiya imkanları yaratmaq üçün səy göstəririk. Qarşıdakı dövrdə ortaya çıxacaq enerji tələbatını ödəyə bilmək üçün atom enerjisi məsələlərinin də gündəliyimizdə olduğunu xüsusilə vurğulamaq istəyirəm. Bütün bu işlər Avropa Birliyinə daxil olmaq prosesinə mühüm töhfələr verəcəkdir.

Enerji bazarını sərbəstləşdirərək daha şəffaf etməyimiz qlobal sərmayədarlar üçün də həvəsləndirici olacaqdır. Hazırda bu sərmayələri müxtəlif maliyyə modellərindən istifadə edərək, sizlərlə birlikdə həyata keçiririk və həyata keçirə bilərik. Beynəlxalq sərmayədarlar üçün əlverişli bir bazara çevrilən enerji bazarımıza lazımi diqqəti göstərəcəyinizə inanıram.



Dəyərli qonaqlar, nəticə etibarilə qlobal enerji təhlükəsizliyi baxımından üzərimizə götürdüyümüz taleyüklü rolu dərk edirik. Bu məsələdə üzərimizə düşən vəzifələri yerinə yetirməkdə qətiyyətliyik. Enerji mənbələrinin hər birini əməkdaşlıq amili kimi qəbul edərək, bu sahədə beynəlxalq dialoq və əməkdaşlığa əhəmiyyət veririk. İstər bölgəmizdə, istərsə də dünyada sülh, sabitlik və rifaha töhfə verəcək Bakı-Tbilisi-Ceyhan kəmərinin buna bənzər layihələr üçün nümunə olacağına inanır, onun həyata keçirilməsində zəhməti olan hər kəsə təşəkkür edirəm. Bir az əvvəldə dediyim kimi, bu dəhlizlə nəql ediləcək enerjidaşıyıcılarının şəhərlərimiz qədər xalqlarımızın bir-birinə baxışlarını da işıqlandıracağına, qəlblərimizi isidəcəyinə, dostluq əlaqələrimizi daha da dərinləşdirəcəyinə inanıram. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Türkiyə, Azərbaycan, Gürcüstan və iştiraka dair sazişi imzalayan Qazaxıstan üçün xeyirli olmasını, xalqlarımızın təhlükəsizlik və rifahına töhfə verməsini arzulayır, sizləri bir daha hörmətlə salamlayıram.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

**Azərbaycan Prezidenti**
**İlham Əliyevin nitqi**

- Hörmətli Prezident Əhməd Necdət Sezər!

Hörmətli Prezident Mixail Saakaşvili!

Hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğan!

Xanımlar və cənablar, əziz dostlar!

Bu gün tarixi bir gündür. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri istismara verilir və bu tarixi günü biz birlikdə Ceyhan terminalında qeyd edirik. Bu gün mərasimin əvvəlində nümayiş etdirilən qısa filmdə tarixi anlar bir daha xatırlandı. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasının görüntülərini bu gün bir daha gördük. Həqiqətən, bütün bu işlər, nəhəng layihələr məhz 1994-cü ildə başlanmışdır. "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanda böyük neft siyasəti başlanmışdır. Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə başlanmış Azərbaycanın yeni neft strategiyası öz imkanlarından istifadə edib bizi qarşıda duran bütün məqsədlərə çatdırdı. "Azəri", "Çıraq", "Günəşli" neft yataqlarının işlənilməsi nəticəsində hasil olunan Azərbaycan nefti bu gün dünya bazarlarına müxtəlif yollarla ixrac edilir.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan tarixdə ilk dəfə olaraq, Xəzər dənizinin özünə məxsus olan sektoruna xarici investorları dəvət etdi. Ondan əvvəl Xəzər dənizində xarici şirkətlər heç vaxt fəaliyyət göstərməmişdir. Bütövlükdə, Azərbaycan neft ölkəsi kimi tanınır. Dünyada ilk dəfə sənaye üsulu ilə neft Azərbaycanda çıxarılmışdır. O cümlədən dünyada dəniz



yataqlarından ilk dəfə neft Azərbaycanda, Xəzər dənizində hasil edilmişdir. 1994-cü ildə başlanmış yeni layihələr Azərbaycana onun neft şöhrətini təzədən qaytardı. Bu gün Azərbaycan bu imkanlardan səmərəli istifadə edərək, öz iqtisadi potensialını gücləndirir. Azərbaycanda gedən iqtisadi inkişaf artıq hamımız tərəfindən görünür. Keçən il iqtisadiyyat 26 faiz, bu ilin 5 ayında təxminən 40 faiz artmışdır. Bütün bu nəticələrin təməli məhz 1994-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə imzalanmış "Əsrin müqaviləsi" ilə qoyulmuşdur.

O vaxt Azərbaycan çox çətin, ağır durumda idi. Müstəqilliyi yenicə əldə etmiş ölkə iqtisadi böhran içərisində yaşayırdı. O cümlədən siyasi vəziyyət o qədər də ürəkaçan deyildi. Ölkədə sabitlik hələ tam bərqərar olunmamışdı. Azərbaycan çox riskli bir ölkə kimi tanınırdı və o şəraitdə xarici sərmayəni Azərbaycana cəlb etmək, investorları inandırmaq ki, Azərbaycanda onların sərmayəsi batmayacaq, əksinə, əlavə sərmayə, əlavə gəlirlər gətirəcək – bu, əlbəttə ki, çox böyük siyasi bacarıq, müdriklik, uzaqgörənlik tələb edirdi. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin fəaliyyəti nəticəsində bu gün biz bu gözəl anları yaşayırıq. Nəzərə alsaq ki, həm ölkə daxilində, həm də bölgədə və bütövlükdə, müəyyən mənada dünyada Bakı-Tbilisi-Ceyhan neft kəmərinə inam o qədər böyük deyildi, onda görərik ki, bu işin həyata keçirilməsi nə qədər böyük çətinliklərlə müşayiət olunurdu. İnanmayan var idi, eyni zamanda, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasının qarşısının alınmasına çalışanlar var idi, problemlər, maneə törədənlər var idi. Ancaq xalqımızın iradəsi, Azərbaycan, Türkiyə, Gürcüstan rəhbərliyinin iradəsi, bizim birgə fəaliyyətimiz bu əfsanəni gerçəkliyə çevirdi.

Azərbaycanda son 12 il ərzində təkcə neft-qaz sənayesinə 20 milyard dollardan çox vəsait qoyulmuşdur. Bu gün Azərbaycan neftini dünya bazarlarına çıxaran 3 ixrac neft kəməri var. Onların ən böyüyü Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan neft kəməridir. Bu illər ərzində Azərbaycanın neft infrastrukturu yeniləşdi, müasirləşdi. Azərbaycanda yeni, peşəkar mütəxəssislər yetişdi, fəhlələr yetişdi. Bizim birgə fəaliyyətimiz nəticəsində, xarici şirkətlərlə birlikdə gördüyümüz işlər nəticəsində bu sahəyə də böyük diqqət verildi. Bu imkandan, bugünkü fürsətdən istifadə edib, xüsusilə, xarici şirkətlərin fəaliyyətini vurğulamaq istəyirəm. "bp" şirkətinin rəhbərliyi ilə Azərbaycanda 1994-cü ildən fəaliyyət göstərən beynəlxalq konsorsiumun işini yüksək qiymətləndirirəm. "bp" şirkəti eyni zamanda, Bakı-Tbilisi-Ceyhan layihəsində aparıcı rol oynayır və bu şirkətin Azərbaycana verdiyi töhfələri biz çox yüksək qiymətləndirir və bunları təqdir edirik. Bu, bizə imkan verdi ki, Azərbaycan iqtisadi cəhətdən inkişaf etsin, neft amilindən məharətlə istifadə etsin.



Biz neft tarixini yaxşı bilirik. Müxtəlif ölkələrin təcrübəsini də öyrənmişik. Əfsuslar olsun ki, bəzi hallarda neft ölkəyə, xalqlara rifah deyil, çətinliklər gətirir, sosial ədalətsizlik, problemlər, gərginlik gətirir. Biz isə istəyirik ki, neft Azərbaycana sülh, inkişaf gətirsin, əməkdaşlıq gətirsin, xalqımızın rifah halı yaxşılaşsın. Əlbəttə ki, bütün görülən işlər bu məqsədi güdür və Azərbaycanda uzun illər ərzində fəaliyyət göstərən Dövlət Neft Fondunun işi bunun bariz nümunəsidir.

Bu gün mən xüsusilə Amerika Birləşmiş Ştatlarının bu məsələ ilə bağlı olan fəaliyyətini vurğulamaq istəyirəm. Biz Amerikanın dəstəyini bütün dövrlərdə hiss etmişik, ona arxalanmışıq və o dəstək bəzi məqamlarda həlledici rol oynamışdır. Həm "Azəri-Çıraq-Günəşli" neft yataqlarının işlənilməsində və həm də Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasında Amerika hökumətinin dəstəyi çox önəmli olmuşdur. Biz bunu çox yüksək qiymətləndiririk və buna görə Amerika hökumətinə minnətdarıq.

Bu işin ərsəyə gəlməsində beynəlxalq əməkdaşlıq yarandı: üç ölkə - Türkiyə, Gürcüstan, Azərbaycan, xarici neft şirkətləri, xarici maliyyə qurumları, yerli mütəxəssislər, neftçilər, fəhlələr, hüquqşünaslar. Bu işlərdə əməyi olan bütün insanlara mən Azərbaycan dövləti adından öz dərin minnətdarlığımı bildirirəm.

Bu kəmərin fəaliyyətə başlaması ilə Azərbaycanın qarşısında yeni üfüqlər açılır, yeni imkanlar açılır. Azərbaycan iqtisadi cəhətdən çox zəngin ölkəyə çevriləcəkdir. Ölkədə bütün sosial problemlər öz həllini tapacaqdır. Azərbaycan çox önəmli neft ixrac edən ölkəyə çevrilir. Əminəm ki, neftdən əldə olunan gəlirlərdən istifadə edilməklə Azərbaycanda bütün sosial məsələlər qısa müddət ərzində öz həllini tapacaq və Azərbaycan dünya iqtisadiyyatına daha da inamla inteqrasiya edəcəkdir.

Baxın, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin fəaliyyətə başlaması bölgədə gedən proseslərə nə qədər böyük təkan verdi. Bunun ardınca biz Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismarına çox yaxınıq. Bu layihə bir növ, Bakı-Tbilisi-Ceyhanın kölgəsində idi. Ancaq bu gün hamı görür ki, onun nə qədər böyük strateji əhəmiyyəti var. Nəzərə alsaq ki, xüsusilə indi dünyada və Avropada enerji təhlükəsizliyi məsələləri çox önəm daşıyır, onda görərik ki, Azərbaycan qazının Gürcüstana və Türkiyəyə gətirilməsinin çox böyük strateji əhəmiyyəti var.

Artıq biz yeni dövrə qədəm qoyuruq. Bəlkə də, bir neçə il bundan əvvəl zənn edirdik ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tamamlanması ilə bizim əsas işlərimiz bitmiş olacaqdır. Amma həyat yerində durmur. Bakı-Tbilisi-Ceyhan kəmərinin tamamlanması, sadəcə olaraq, bizim işimizin yeni mərhələsinin başlanması deməkdir. Bundan sonra Qazaxıstan nefti bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılacaqdır. Qaz ehtiyatları ilə zəngin olan Azərbaycan "Şahdəniz" qaz yatağından çıxarılan qazı Avropaya göndərəcəkdir. Digər önəmli layihələr, Bakı-Tbilisi-Ceyhanın ardınca gələn layihələr məhz Bakı-Tbilisi-Ceyhanın fəaliyyətə başlaması nəticəsində yaranır.

Bu, iqtisadi layihə deyil, sadəcə olaraq, texniki layihə deyil, halbuki texniki cəhətdən, iqtisadi cəhətdən və siyasi cəhətdən bunun meydana gəlməsi çox böyük çətinliklərlə müşahidə olunurdu. Bakı-Tbilisi-Ceyhanın daha geniş mənası var. Artıq bu layihə regional çərçivədən çıxıb qlobal müstəviyə keçmişdir. Layihənin bu gün də dünya üçün böyük əhəmiyyəti var və gələcəkdə daha da artacaqdır. Belə olan halda, Azərbaycanın, Gürcüstanın, Türkiyənin də önəmi artacaqdır. Bu dəhlizdən istifadə edib başqa ölkələr də faydalana bilərlər. Belə olan halda, Azərbaycan həm neft-qaz hasil edən ölkə kimi, eyni zamanda tranzit ölkə kimi bizim dostlarımızla bərabər fəaliyyətə başlayacaqdır. Yeni inanılmaz dərəcədə gözəl imkanlar açılır. Bütün bu imkanları möhkəmləndirmək, onlardan istifadə etmək üçün bölgədə təhlükəsizlik tədbirləri gücləndirilməlidir. Mən əminəm ki, bu işdə Bakı-Tbilisi-Ceyhanın əhəmiyyəti daha da artacaqdır. Təhlükəsizlik tədbirləri, regional əməkdaşlıq, sülhün bərqərar olunması – bütün bunlar bölgə üçün lazımdır. Bölgənin inkişafı bundan sonra tam başqa formalarla zənginləşəcəkdir. Bu gün Azərbaycan, Türkiyə və Gürcüstan regional müstəvidə müttəfiq ölkələrdir. Bizim müttəfiqliyimiz artıq həyatda öz əksini tapıbdır. Bizim müttəfiqliyimiz bölgəyə təhlükəsizlik, sabitlik gətirir. Biz bunu istəyirik, sülh, əmin-amanlıq şəraitində yaşamaq istəyirik. İstəyirik ki, xalqlarımız rifah içərisində yaşasınlar, problemlər öz həllini tapsın və ölkələrimiz möhkəmlənsin. Hər üç ölkə bu layihənin həyata keçirilməsindən böyük faydalar götürəcəkdir. Bəlkə də, bu gün onların hamısını təsəvvür etmək mümkün deyildir. Amma vaxt keçdikcə, həyat keçdikcə biz bunların bariz nümunələrini açıq görəcəyik.

Qarşıda yeni məsələlər var, yeni layihələr var. Qars-Tbilisi-Bakı dəmir yolunun yaranması məsələsi artıq gündəlikdədir və biz bunun üzərində çox ciddi işləyirik. Bütövlükdə qədim İpək yolunun bərpası işində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çox böyük əhəmiyyəti var. Bir sözlə, bu layihə artıq qlobal xarakter daşıyır və üç ölkənin səmərəli işbirliyi, əməkdaşlığı bunu mümkün etmişdir.

Mən bu fürsətdən istifadə edib bir daha demək istəyirəm ki, bizim həm Türkiyə, həm də Gürcüstanla ikitərəfli münasibətlərimiz ən yüksək zirvədədir. Bu münasibətlər qardaşlıq xarakteri daşıyır, xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır, belə nəhəng layihələrin





həyata keçirilməsinə imkan yaradır. Çünki bu gün Azərbaycanda icra olunan layihələr dünyanın ən böyük enerji layihələridir. Dünyanın gələcəyi isə enerji mənbələri ilə bağlı olacaqdır. Artıq bunu hamı bilir və hamı görür ki, enerji təhlükəsizliyi ölkənin ümumi təhlükəsizliyinə çox böyük töhfə verir. Enerji müstəqilliyi ölkənin müstəqilliyini möhkəmləndirir.

Gürcüstan və Azərbaycan gənc müstəqil dövlətlərdir. Biz yalnız 15 il bundan əvvəl müstəqilliyimizi bərpa etmişik və bizim üçün müstəqillik ən yüksək, ən böyük nemətdir, ən böyük sərvətdir. Bakı-Tbilisi-Ceyhan bizim müstəqilliyimizi möhkəmləndirəcək, enerji müstəqilliyimizi təmin edəcəkdir. Belə olan halda, biz müstəqil siyasət apararaq, xalqlarımızın rifah halını yaxşılaşdıracağıq, milli maraqlarımızı daha da inamla müdafiə edəcəyik. Ona görə Bakı-Tbilisi-Ceyhan layihəsinin çox geniş aspektləri var. Bu gün bunların hamısını sadalamaq çox vaxt aparar. Bir sözlə, bu, strateji əhəmiyyət daşıyan, ölkələrimizin müqəddəratını təmin edən, xoşbəxt gələcəyini təmin edən layihədir.

Bu gün mən çox xoşbəxtəm ki, buradayam. Ceyhan terminalına da Azərbaycanın ümummilli lideri Heydər Əliyevin adı verilmişdir. Bu, təsadüfi deyildir. Heydər Əliyevin adını həm Bakı-Tbilisi-Ceyhan, həm də Ceyhan terminalı daşıyır. Heydər Əliyev bu layihələrin təşəbbüskarı, onların memarı olmuşdur. Mən bu gün çox təəssüf edirəm ki, o, bu günləri görmədi. Allah ona bunu nəsib etmədi. Amma inanıram ki, onun ruhu bu gün bizimlədir. Bizimlə bərabər onun ruhu bu gün şaddır. Azərbaycan, Gürcüstan və Türkiyənin işbirliyi, qardaşlığı, əməkdaşlığı bundan sonra da möhkəmlənəcək və bizim bölgəyə sülh, sabitlik gətirəcəkdir.

Əziz dostlar, bu gözəl, tarixi hadisə münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm, qardaş türk, gürcü və doğma Azərbaycan xalqlarına sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram. Sağ olun.

Sonra Gürcüstan Prezidenti Mixail Saakaşviliyə söz verildi.

**Gürcüstan Prezidenti**
**Mixail Saakaşvilinin nitqi**

- Hörmətli Prezident Sezər,
Hörmətli Prezident Əliyev,
Hörmətli Baş nazir Ərdoğan,
Hörmətli qonaqlar, xanımlar və cənablar!

Qaz layihəsi bizim ölkələrimiz üçün vacibdir. Çünki bu, təktərəfli əlaqələri sona çatdırdı və çoxtərəfli əlaqələrə yol açdı. Bizim siyasi vəziyyətimizin dəyişməsinə və beynəlxalq əlaqələrimizin inkişafına yol açdı. Artıq ölkələrin əlaqələri daha çox sülh və tərəfdaşlıq yolu ilə qurulur. Əlaqələrin heç bir şəkildə təzyiq və müharibə yolu ilə davam etdirilməsi mümkün deyildir. Mən xüsusən Sovetlər Birliyinin süqutundan sonra müstəqillik əldə etmiş ölkələrdəki, bu regionlardakı vəziyyətdən danışmaq istəyirəm. Mən heç vaxt Gürcüstanın dəhliz vəzifəsi daşıdığını və bu layihədə dəhliz olduğunu qəbul etmirəm. Çünki reallıqda biz burada təkcə əməkdaşlıqdan, çox güclü beynəlxalq şirkətlərlə əlaqədə ətraf mühitin qorunmasından və iqtisadi inkişafdan danışmırıq. Neft kəmərinin tikilməsi təkcə iqtisadiyyatın inkişafı mənasına gəlmir. Eyni zamanda ölkəmizdə standartların, yeni ətraf mühiti qoruma mexanizminin qurulmasından, həyat standartlarının artırılmasından, habelə yeni enerji strategiyasının artıq həyata keçirilməsindən və ölkəmizdə artıq korrupsiyanın olmadığından danışa bilərəm. Bir il bundan əvvəl enerji sahəsində özəlləşdirmə apardıq və özəl sektora hüquqları verdikdən sonra ölkəmizdə daha az korrupsiya olmasına və daha çox bazar iqtisadiyyatı əlaqələrinin bərqərar edilməsinə nail olduq. Gürcüstan artıq bir postsovet ölkəsi deyil və olmayacaqdır. Biz

artıq Qərb standartlarında işləyirik və Gürcüstan həm Qərb ölkələrinin, həm də, ələlxüsus, Türkiyənin ən böyük tərəfdaşlarından biridir.

Bildiyiniz kimi, Türkiyə Gürcüstanın artıq ən yaxın iqtisadi tərəfdaşıdır. Baş nazir Ərdoğan Gürcüstana səfər edərkən bizim investisiya mühitimizin inkişafına dair böyük layihələrdən danışdı. Biz artıq Türkiyə ilə Gürcüstan arasında viza rejiminin olmadığını bəyan etdik. Gürcüstanda ən çox şəffaflığı olan sərhəd rejimi yaradılmışdır. Bunun əsasında yüksək səviyyədə dostluq mühiti qurduq. Türkiyə ilə Gürcüstan arasında fərqli layihələri həyata keçiririk. Batumi aeroportu Türkiyə şirkəti tərəfindən yenidən qurulur və noyabrda istifadəyə veriləcəkdir.

Ondan sonra bir çox iş adamı İstanbuldan Batumiyə rahat gəlib-gedəcək və hətta sərhədlərdən şəffaf şəkildə istifadə edə biləcəkdir.

Bu gün iki ölkə arasında texnoloji bilgilərin paylaşılmasını, özəl sektor nümayəndələrinin Gürcüstana daha çox cəlb edilməsini, ehtiyatlardan daha səmərəli istifadə olunmasını və Türkiyə ilə Gürcüstanın yeni bir iqtisadi əməkdaşlıq səviyyəsinə çıxdığını görürük. Yeni investisiyalar isə ölkəmizdə yeni iş yerlərinin açılmasına, iqtisadi və siyasi sabitliyə imkan yaradacaqdır. Eyni zamanda, qeyd etmək istəyirəm ki, Zati-aliləri Türkiyə Prezidentinin dediyi kimi, iki ölkə arasındakı əməkdaşlıq, doğrudan da, yeni bir mərhələyə çıxmışdır. Daha rahat nəqliyyat imkanları, daha çox investisiya və iqtisadi əlaqələr hər iki ölkənin tezliklə yeni, inkişaf etmiş iqtisadiyyata malik olmasına yol açmaqdadır.

Azərbaycan da artıq yeni iqtisadi əlaqələr mərhələsinə keçibdir. Biz fərqli mərhələlərdə fərqli çətinliklərlə üzləşdik. Bu çətinlikləri bir yerdə birgə səylərlə dəf etdik. Hazırda Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolunun inşasını yeni əməkdaşlıq mərhələsi kimi görürük. Axalkalaki bölgəsinə daha çox diqqət yetirilməsi, daha çox investisiya qoyuluşunun təmin




edilməsi bölgəni tamamilə yeni səviyyəyə çıxaracaqdır. Biz - Gürcüstan və Azərbaycan hazırda dünyada ən sürətlə inkişaf edən ölkələrik.

Mən öz təşəkkürlərimi lord Brauna, Devid Vudvorda bildirmək istəyirəm. Siz bilirsiniz ki, ilk növbədə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin qətiyyəti BTC layihəsinin mümkünlüyünü göstərirdi. Onu da demək istəyirəm ki, burada gələcəyə baxışın olması da vacibdir və uzunmüddətli layihənin gerçəkləşməsi üçün inam lazımdır. Bu məsələləri inhisarçılıqla həll etmək çətin olacaq, mümkün olmayacaqdır. Burada alternativlər daha çox olmalıdır. İqtisadi inkişafa nail olmaq üçün çox fərqli yollar bu layihə kimi kağız üzərində işlənilməlidir. Çünki bütün bu amillər olmadan siz parlaq gələcəyi fikirləşə bilməzsiniz. Çünki biz hər şeydən əvvəl, sabitliyə, təhlükəsizliyə və yüksək rifaha nail olmaq istəyirik. Burada haqqında danışdığımız layihə, onun başa çatması bizə daha çox müstəqillik təmin edir. Bu, Ceyms Bond filmi deyildir. Sizin gördüyünüz bugünkü hadisə bir reallıqdır. Biz konfransda qazın Gürcüstanın, Türkiyənin fərqli bölgələrinə, Avropanın fərqli ölkələrinə çatdırılması haqqında danışacağıq. Bilirsiniz ki, bir zamanlar Bakı-Tbilisi-Ceyhan layihəsi olduğu kimi, qaz layihəsi də sıfırdan başlayırdı. Bir zamanlar bu danışıqlar Türkiyə ilə Azərbaycan arasında aparılırdısa, indi artıq dünya ölkələrinin də iştirakı ilə böyük beynəlxalq enerji layihələrindən söhbət edirik. Mən sizə təşəkkürlərimi bildirirəm və yeni uğurlar arzulayıram.



Sonra Türkiyə Prezidenti Əhməd Necdət Sezər nitq söylədi.



**Türkiyə Prezidenti**
**Əhməd Necdət Sezərin nitqi**

- Hörmətli Prezidentlər,
Hörmətli Baş nazir və nazirlər,
Dəyərli qonaqlar!

Şərq və Qərb svilizasiyalarının kəsişdiyi ölkəmizə və Aralıq dənizinin parlayan ulduzu Ceyhan terminalına xoş gəlmisiniz. Bu gün burada əsrin layihəsi adlandırılan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışı münasibətilə bir araya gəlmişik. Bu neft kəmərinin istifadəyə verilməsi ilə ölkəmizin Avropa, Asiya və Afrikanın kəsişdiyi bölgədə əsrlər boyu oynadığı mühüm rol bu gün daha parlaq şəkildə tarix səhnəsinə çıxmaqdadır. Enerji bütün sivilizasiya tarixi boyu insan oğlunun əsas ehtiyacları sırasında olmuş, fərdlərin enerjiyə olan bağlılığı enerjini qlobal səviyyəyə çıxarmışdır. Texnoloji inkişaf və qloballaşmanın sürətlənməsi enerji məsələsini yaşadığımız XXI əsrdə daha mühüm yerə gətirmiş, enerji ilə əlaqədar problemlərin beynəlxalq məsələlər arasında ön plana çıxması ilə nəticələnmişdir. Bu gedişat hər bir ölkənin enerjiyə daha böyük əhəmiyyət verməsinə, enerjinin milli müstəqillik və təhlükəsizliyin əsas amillərindən biri olaraq qəbul edilməsinə şərait yaratmışdır.

Dəyərli qonaqlar, ölkəmiz neft və qaz ehtiyatlarına görə dünyanın yeni strateji bölgələrindən biri olan Avrasiyanın ortasında, enerji nəqli yollarının kəsişdiyi nöqtədədir, bu səbəbdən yaranmaqda olan yeni qlobal enerji xəritəsinin mərkəzindədir. Türkiyə coğrafi mövqeyinin verdiyi bu məsuliyyəti dərk edərək, qonşuları və ortaqları ilə zəruri enerji və nəqliyyat dəhlizlərini yaratmaqla Avropa və Asiyanın bütünləşməsi, regional sabitlik və tərəqqi üçün yeni şərtlərin yaradılması məqsədini güdür. Türkiyənin enerji strategiyası öz milli planlaşdırması, qlobal hadisələrin istiqamət verdiyi dünya enerji ehtiyacları əsas götürülərək yaradılır. Bu çərçivədə Türkiyənin Şərq-Qərb və Şimal-Cənub xətlərində keçid nöqtəsi olması, Ceyhan terminalının enerjidaşıyıcıların ticarəti mərkəzinə çevrilməsi, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin ardınca Samsun-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum və Transxəzər qaz kəməri layihələrinin həyata keçirilməsi nəzərdə tutulur. Türkiyə bu nöqtədən hərəkət edərək, Şərq-Qərb enerji dəhlizinin gerçəkləşdirilməsinə təşəbbüs göstərərkən, eyni zamanda, Xəzər hövzəsi və Yaxın Şərqin təbii qaz ehtiyatlarını Avropaya daşıyacaq layihələrin həyata keçirilməsində ön sıralardadır, beləliklə də yaxın müttəfiqimiz olan Avropa Birliyinin təbii qazla təmin edilməsinə töhfə verməkdədir.

Şərq-Qərb enerji dəhlizini təşkil edən layihələr bölgədə təhlükəsizlik və sülhün, iqtisadi inkişafın təmin edilməsi yolunda strateji addımlardır. Bu layihələr bölgə ölkələrinin biri-birləri ilə olan əlaqələri ilə yanaşı, Qərb dünyası ilə əlaqələrini də gücləndirir. Bu cəhət iqtisadi fayda ilə yanaşı, layihələrin daha böyük əhəmiyyətə malik olduğunu göstərir. Bu yanaşma çərçivəsində xüsusi yeri olan Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin həyata keçirilməsinə iştirakçı ölkələr və xətti işlədəcək şirkətlərlə birlikdə ortaq və sağlam bir istək, inanc və qətiyyətlə göstərilən səylər nəticəsində nail olmuşuq. Bu layihənin həyata keçirilməsində nümayiş etdirilən əməkdaşlıq mədəniyyətinin yeni layihələrə təminat yaratdığını qürurla qeyd etmək istərdim. Bu gün dünya neft bazarları baxımından əvəzsiz bir dəyərə malik olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışı münasibətilə yığışdığımız Ceyhan terminalının gələcək illərdə daha mühüm rol oynayacağına inanırıq. 28 ildir ki, İraq neftini dünya bazarlarına çıxaran bu terminal Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsi ilə artıq Xəzər neftinə də dünya bazarlarını açan qapı vəzifəsini yerinə yetirəcəkdir. Ceyhan terminalı Samsun-Ceyhan neft kəmərinin çəkilməsi ilə böyük bir enerji və ticarət mərkəzinə çevriləcəkdir.

Hörmətli Prezidentlər, dəyərli iştirakçılar. Enerji məsələsinin beynəlxalq siyasətlə sıx bağlılığı qarşıdakı dövrdə getdikcə artacaqdır. Bu səbəbdən hasilatçı, tranzit və istehlakçı ölkələr arasında daimi dialoq və əməkdaşlığın əhəmiyyəti daha da artmışdır. Dünyada enerji təhlükəsizliyinə töhfə verən bu neft kəmərinin açılışında ən mühüm hasilatçı və istehlakçı ölkə nümayəndələrinin bu gün burada bir arada olması sevindiricidir. Bu sayılıb-seçilmiş nümayəndələrin iştirakı enerji sahəsində ortaq problemlərin həlli yolunda əməkdaşlıq və dialoqa verilən əhəmiyyətin təzahürüdür. Bu cəhəti ilə Bakı-Tbilisi-Ceyhan neft kəməri bölgə ölkələri arasında əməkdaşlıq potensialını və regional əməkdaşlıq imkanlarından istifadə üçün göstərilən səylərin konkret nəticələrini göstərir. Tarixdən gələn köklü dərin əlaqələrimizin olduğu Qafqazın da sülh, sabitlik və rifah dolu günlərə qovuşması ən böyük arzumuzdur. Türkiyə, Azərbaycan və Gürcüstan arasında nümunəvi bir əməkdaşlıq modeli olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışı ilə Cənubi Qafqaz bölgəsində iqtisadi və sosial inkişafın sürətlənməsini gözləyirik. Bir müddət əvvəl Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan neft kəmərinə qoşulmasına dair sazişin Prezident hörmətli İlham Əliyev və Prezident hörmətli Nursultan Nazarbayev tərəfindən imzalanmasından da xoşbəxtlik hissi keçirdik.

Qazaxıstan neftinin Azərbaycan nefti ilə birlikdə Bakı-Tbilisi-Ceyhan vasitəsilə Aralıq dənizinə və dünya bazarlarına təhlükəsiz və əlverişli şəkildə çatdırılması Şərq-Qərb enerji dəhlizinin güclənməsinə, bölgədə əməkdaşlıq və qarşılıqlı etimadın daha da genişlənməsinə əlavə töhfə verəcəkdir. Türkiyə Qara dənizdən Qafqaza və Yaxın Şərqə qədər uzanan bölgədə müsbət istiqamətdəki dəyişiklikləri stimullaşdırmaqla, gərginlik və qarşıdurmanın əvəzində, əməkdaşlığa şərait yaradan bir ab-havanın yaranmasını istəyir, bu çərçivədə regional əməkdaşlığı etimad artıran bir tədbir kimi görür və onun qarşılıqlı anlaşmanın möhkəmlənməsinə müsbət təsir göstərdiyinə inanır. Qlobal səviyyədə sülh, sabitlik və təhlükəsizliyə töhfə verən, eyni zamanda, bölgəsində müsbət dəyişiklikləri təşviq edən və əməkdaşlıq üçün etibarlı bir tərəfdaş olan ölkəmiz böyük öndər Mustafa Kamal Atatürkün müəyyən etdiyi prinsiplər çərçivəsində ikitərəfli və regional əlaqələrdə bəşəri dəyərlər əsasında siyasi, iqtisadi və sosial inkişaf istiqamətində səylərini davam etdirir. Bu səylər Şərq-Qərb və Şimal-Cənub müstəvilərində mühüm rol oynayan ölkəmiz üçün prioritet vəzifədir.



Dəyərli qonaqlar, bildiyiniz kimi, son günlərdə Ceyhana heç də uzaq olmayan bir bölgədə, Yaxın Şərqdə bütün dünyanı narahat edən mənfi hadisələr cərəyan etməkdədir. Mən bu gün bütün əlaqədar tərəfləri içində olduqları müharibə vəziyyətini unudaraq, diqqətlərini, heç olmasa, bir neçə dəqiqəlik buraya bizləri bir araya gətirən bu böyük əməkdaşlığa çevirməyə və bununla da regional sülh və sabitliyin nələrə qadir olduğunu qiymətləndirməyə dəvət edirəm. Bu fürsətdən istifadə edərək, beynəlxalq ictimaiyyətin çağırışlarına ürəkdən qoşulduğumu vurğulamaq istərdim.

Hörmətli Prezidentlər, hörmətli Baş nazir, nazirlər və dəyərli qonaqlar!

Uzaqgörən insanların böyük zəhmət və səylərinin məhsulu olan beynəlxalq əməkdaşlığın, inam və qətiyyətin ən uğurlu nümunələrindən birini təşkil edən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışı münasibətilə sizləri ölkəmizdə qəbul etməkdən xoşbəxtlik hissi keçiririk. Bu layihənin həyata keçirilməsinə rəhbərlik edən liderlərdən artıq aramızda olmayan Azərbaycan Prezidenti Heydər Əliyevi rəhmətlə yad edirəm. Bu şərəfli işdə əməyi olan bütün səlahiyyətli şəxslərə, bilik, təcrübə və bacarıqları ilə layihə və tikinti işlərində iştirak edən şirkətlərə, istedad və alın tərlərini əsirgəməyən mühəndis və fəhlələrə, kəmərin təhlükəsizliyini təmin edən əməkdaşlara türk milləti adından təşəkkür edirəm. Hamınıza əmin-amanlıq arzulayıram.

Sonra Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsində iştirak edən şirkətlərin təmsilçiləri kəmərin rəmzi maketinin yanına dəvət olundular. Onlar rəmzi borularla kəmərin iki qolunu birləşdirdilər.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Baş nazir Rəcəb Tayyib Ərdoğan və "bp" şirkətinin prezidenti lord Con Braun dəvət olunaraq, rəmzi borularla kəməri tam birləşdirdilər.

Açılış mərasimindən sonra konsert oldu.








CEYHAN, 13 İYUL 2006-CI İL





## Ceyhanda "Türkiyə-Azərbaycan qardaşlığı parkı"nın təntənəli açılışı

2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində ulu öndər Heydər Əliyevin adını daşıyan "Türkiyə-Azərbaycan qardaşlığı parkı"nın təntənəli açılışı mərasimi oldu.

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğan iştirak edirdilər.

Azərbaycan dövlətinin başçısını və dost ölkənin Baş nazirini buraya toplaşan minlərlə sakin böyük hörmət və hərarətlə, gül-çiçəklə qarşıladı. Ətraf binada türk dünyasının dahi şəxsiyyətləri Atatürkün və Heydər Əliyevin portretləri, Azərbaycanın və Türkiyənin dövlət bayraqları asılmışdı. Azərbaycan Prezidentini salamlayan, hər iki qardaş ölkənin birliyini vurğulayan şüarlar diqqəti cəlb edirdi.

Ceyhan şəhərinin mərkəzi küçəsində yerləşən bu istirahət guşəsi müasirliyi, gözəlliyi və sakinlərin asudə vaxtlarını səmərəli keçirməsi üçün yaradılan şərati ilə göz oxşayır. Parkda ulu öndərlər Atatürkün və Heydər Əliyevin abidələri ucaldılmış, heykəllərin arxasındakı lövhədə isə Türkiyənin və Azərbaycanın xəritələrinin üzərində iki dost, qardaş ölkənin qədimliyini əks etdirən tarix-mədəniyyət abidələrinin şəkilləri, Atatürkün və Heydər Əliyevin "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir", "Biz bir millət, iki dövlətik" müdrik kəlamları yazılmışdır. Abidə kompleksi Azərbaycan və Türkiyə memarları və mütəxəssisləri tərəfindən hazırlanmışdır.

Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan türk dünyasının dahi şəxsiyyətləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin abidələri önünə gül dəstələri qoydular, kompleksi seyr etdilər.

Mərasimi Ceyhan bələdiyyəsinin başçısı **Hüseyn Sözlü** açaraq dedi:

- Qardaş Azərbaycanın çox hörmətli Prezidenti İlham Əliyev!

Türkiyə Cümhuriyyətinin hörmətli Baş naziri!

Hörmətli nazirlər, millət vəkilləri, valilər!

Hörmətli qonaqlar, sevimli ceyhanlılar!

Bu gün Bakı-Tbilis-Ceyhan boru xəttinin açılışı münasibətilə tarixi bir günü yaşayırıq. Biz dəyərli həməvətənlərimizin arzusu ilə gerçəkləşdirdiyimiz "Türkiyə-Azərbaycan qardaşlığı parkı"nda türk millətinin iki dəyərli övladının - ulu öndərimiz,



qurucumuz Atatürkün və Azərbaycanın ulu öndəri, qurucusu Heydər Əliyevin abidələrini də ziyarət edərək, çox şərəfli bir günü qeyd edirik. Mən bütün qonaqlarımza bir daha "Xoş gəlmisiniz!" deyir, dərin sevgi və hörmətimi bildirirəm.

Bu tarixi günü yaşayarkən, həqiqətən də, çox böyük həyəcan içindəyik. Eyni dili danışdığımız, eyni kökdən gəldiyimiz, eyni mədəniyyətin övladları olduğumuz Azərbaycanın möhtərəm Prezidentini bir daha salamlayır və böyük məmnuniyyətlə sözü ona verirəm.

**Azərbaycan Prezidenti**
**İlham Əliyevin çıxışı**

-Əziz dostum, qardaşım Rəcəb Tayyib Ərdoğan!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bütün türk xalqına öz dərin hörmət və məhəbbətimi ifadə edirəm.

"Türkiyə-Azərbaycan qardaşlığı parkı" iki ölkə, iki xalq arasında olan münasibətləri əks etdirir. Bizim tariximiz, müştərək köklərimiz və bizim bu günümüz – bütün bunlar bir-biri ilə sıx bağlıdır. Türk və Azərbaycan xalqları əsrlər boyu bir-birinə çox sıx bağlı olmuşlar. Ancaq tarixin hökmünə görə, illər ərzində bir-birindən uzaq düşmüşlər. Yalnız Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra biz yenidən bir-birimizə qovuşduq, bir-birimizlə yenidən təmasda oluruq. Bu gün bizim birliyimiz, bir-birimizə bağlılığımız həm xalqlarımız, dövlətlərimiz üçün və həm də bütün bölgə üçün çox böyük əhəmiyyət kəsb edir.

Bu gün açılışında iştirak etdiyimiz Bakı-Tbilisi-Ceyhan boru xəttinin ərsəyə gəlməsi də iki xalqın, iki ölkənin birgə fəaliyyəti nəticəsində mümkün olmuşdur. Bizim gücümüz birliyimizdədir. Bu gün biz çox tarixi gün yaşadıq. Əsrlər boyu Azərbaycan xalqı və türk xalqı birlikdə yaşamağa meyil göstərmişdir. Bu gün biz





bunu yaşayırıq. Bu gün bizim birgə fəaliyyətimizdən dünyada gedən proseslərə də təsir payı düşür. Bu gün bu gözəl gündə sizinlə bərabər olmağımdan çox böyük xoşbəxtlik hissi duyuram.

Bu parkda iki ulu insanın, türk dünyasının öndərlərinin heykəlləri qoyulmuşdur. Mustafa Kamal Atatürk, ulu öndərimiz müasir Türkiyənin qurucusudur, Türkiyənin xilaskarıdır və bu gün müasir Türkiyənin çox möhkəm inkişafı məhz Mustafa Kamal Atatürkün fəaliyyəti nəticəsində mümkün olmuşdur.

Ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycana hakimiyyətə gələndə Azərbaycan faktik olaraq parçalanma ərəfəsində idi. Azərbaycan çox pis duruma düşmüşdü və ölkənin müqəddəratı çox qeyri-müəyyən idi. Onun fəaliyyəti nəticəsində Azərbaycan toparlandı, öz müstəqilliyini qoruyub saxlaya bildi və bu gün uğurla inkişaf edən ölkədir.

Bu gün Türkiyə və Azərbaycan dünyada öz mövqelərini möhkəmləndirirlər. Türkiyə və Azərbaycan iqtisadi baxımdan öz imkanlarını artırırlar. Bizim birgə fəaliyyətimiz bizə fayda gətirir, xalqlarımıza fayda gətirir, bölgəyə sülh, sabitlik gətirir və bu gün bu gözəl gündə sizinlə bərabər olmaq mənim üçün çox böyük şərəf və xoşbəxtlikdir.

Əziz, doğma bacı-qardaşlarım, bu əziz gündə sizi bir daha ürəkdən salamlayıram. Hər bir Türkiyə vətəndaşına, xoşbəxtlik, səadət, cansağlığı, yeni-yeni uğurlar arzulayıram.

Yaşasın Türkiyə, yaşasın Azərbaycan!

**Türkiyənin Baş naziri**
**Rəcəb Tayyib Ərdoğanın çıxışı**

- Dəyərli qardaşım, Azərbaycan Prezidenti hörmətli Əliyev!

Dəyərli ceyhanlı qardaşlarım!

Hörmətli xanımlar və cənablar!

Sizi belə gözəl bir açılış mərasimində ən xoş duyğularla salamlayıram.

Bu gün iki mühüm mərasimi gerçəkləşdirdik. Bunlardan biri Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru xəttinin açılışı idi ki, bunun da memarı mərhum Heydər Əliyev olmuşdur. Məhz Ceyhandakı terminal Heydər

Əliyev adına terminal kimi tarixə düşdü və bununla bu bölgə sülhə, qardaşlığa, dostluğa bir mesaj verdi. 1994-cü ildən bu günə qədər atılan addımlar, şükürlər olsun ki, son nöqtəsinə çatdı. İyunun 4-dən etibarən neft daşınmağa başladı və bu gün Ceyhanda rəsmi mərasimi gerçəkləşdirdik.

Hazırda ikinci mərasimi keçirir, "Türkiyə-Azərbaycan qardaşlığı parkı"nın açılışını edirik. Xüsusilə Ceyhanın bələdiyyə başçısına və bu işdə əməyi olan bütün insanlara təşəkkür edirəm.

Biz mərhum Heydər Əliyevin ifadə etdiyi kimi, "Bir millət, iki dövlət" olaraq gələcəyə baxırıq. Eyni şəkildə tərəqqi edirik və hər ötən gündə bu inkişaf daha da irəliyə gedir və gedəcəkdir. İnanıram ki, hazırda bütün türkdilli cümhuriyyətlərdə olan inkişafın önəmli olması sentyabr və oktyabr aylarında Türkiyədə keçirəcəyimiz tədbirlərdə, çıxışlarda bir daha nümayiş etdiriləcəkdir. Mən xüsusilə bu sahədə atasının yolunu uğurla davam etdirməsinə görə burada dəyərli qardaşıma ölkəm, millətim adından və öz adımdan çox təşəkkür edirəm.

Mən Cümhuriyyətimizin banısı Mustafa Kamal Atatürkü, eyni zamanda müstəqil Azərbaycanın banisi Heydər Əliyevi bir daha rəhmətlə anır, bu parkın açılışında əməyi olanlara təşəkkür edir, qardaşım İlham Əliyevə də ölkəmizə bir daha "Xoş gəlmisiniz!" deyirəm.

Sonra Azərbaycan Prezidenti və Türkiyənin Baş naziri parkı gəzərək, bu istirahət guşəsi ilə tanış oldular.

Azərbaycan və Türkiyə qardaşlığına, eləcə də ulu öndərlər Atatürkə və Heydər Əliyevə həsr olunmuş mahnıları, milli musiqi nömrələrini böyük maraqla dinləyən ceyhanlılar bu parkın Azərbaycan və türk xalqlarının əbədi dostluğunun nümunəsi olduğunu xüsusi vurğuladılar.




HAYDAR
ALİYEV
TERMİNALİ
btc
B BLOK
B BLOCK
C BOK
C BOCK
D BLOK
D BLOCK

# Əlavələr

## Neft-qaz yataqlarının kəşfiyyatına, işlənməsinə və hasilatın pay bölgüsünə dair bağlanmış ilkin sazişlər

**Bakı, 20 sentyabr 1994-cü il**

Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Amoko Kaspian Si Petroleum Limited, bp Eksploreyşn (Kaspian Si) Limited, Delta İnmir Xəzər Limited, Den Norske Stats Loyeselkam, LUKoyl Səhmdar Cəmiyyəti, Mak-Dermott Azərbaycan İnk, Pennzoyl Kaspian Korporeyşn, Remko Xəzər Enerci Limited, Türkiyə Petrolları Anonim Ortaqlığı, Yunokal Xəzər LTD arasında Saziş

**Bakı, 10 noyabr 1995-ci il**

Xəzər dənizinin Azərbaycan sektorunda "Qarabağ" perspektiv strukturunun və onu əhatə edən ərazinin kəşfiyyatına, işlənməsinə və hasilatın pay bölgüsünə dair Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə LUKoyl İntənəşnl LTD, Acip Azərbaycan, LUKAcip, Pennzoyl Kaspian Development Korporeyşn və ARDNŞ Ortaq Kommersiya Şirkəti arasında Saziş

**Bakı, 4 iyun 1996-cı il**

Xəzər dənizinin Azərbaycan sektorunda "Şahdəniz" perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə ARDNŞ Kommersiya Ortaq Şirkəti, Bi-Pi Eksploreyşn (Azərbaycan) Limited, Elf Petroleum Azərbaycan, LUKoyl İntənəşnl LTD, Oyl İndastriz Enciniriııq ənd Konstrakşn, Statoyl Azərbaycan, Türkiyə Petrolları Anonim Ortaqlığı şirkətləri arasında Saziş

**Bakı, 14 dekabr 1996-cı il**

Xəzər dənizinin Azərbaycan sektorundakı "Əşrəfi", "Dan ulduzu" perspektiv strukturlarının və onlara bitişik sahənin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Amoko Nord Abşeron Petroleum Limited, Yunokal İsternNemisfir Eksploreyşn LTD, İtoçu Oyl Eksploreyşn (Kaspian) İnk., Delta Oyl Kompani (Azərbaycan) LTD, ARDNŞ Ortaq Neft Şirkəti arasında Saziş

**Paris, 13 yanvar 1997-ci il**

Xəzər dənizinin Azərbaycan sektorunda "Lənkəran-dəniz" və "Talış-dəniz" perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Elf Petroleum Azərbaycan, ARDNŞ-nin Ortaq Neft Şirkəti, Total Eksploreyşn ənd Prodakşn Azərbaycan arasında Saziş

**Moskva, 3 iyul 1997-ci il**

Xəzər dənizində D-222 ("Yalama", "Samur") perspektiv Azərbaycan blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və LUKoyl İntənəşnl LTD, ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş

**Vaşinqton, 1 avqust 1997-ci il**

Xəzər dənizinin Azərbaycan sektorunda "Naxçıvan" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və Eksson Eksploreyşn ənd Prodakşn Azərbaycan Limited və ARDNŞ -nin Ortaq Neft Şirkəti arasında Saziş

**Vaşinqton, 1 avqust 1997-ci il**

Xəzər dənizinin Azərbaycan sektorunda "Abşeron" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Şevron Oversiz Eksploreyşn Limited, ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş

**Vaşinqton, 1 avqust 1997-ci il**

Xəzər dənizinin Azərbaycan sektorunda "Oğuz" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Mobil Eksploreyşn ənd Prodakşn Azərbaycan İnk. və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş

**Bakı, 2 iyun 1998-ci il**

Xəzər dənizinin Azərbaycan sektorunda "Kürdaşı" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Acip Azərbaycan, Mitsui Oyl Eksploreyşn Ko.LTD, Türkiyə Petrolları Anonim Ortaqlığı, Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin Ortaq Neft Şirkəti və Repsol Eksploreyşn arasında Saziş

**Bakı, 2 iyun 1998-ci il**

Azərbaycan Respublikasında "Cənub-Qərbi Qobustan" blokuna daxil olan üç sahənin ("Şıxzəgirli", "Şeytanud", "Bürgüt", "Donquzduq", Nardaran", "İlxıçı", "Qərbi Hacıvəli", "Sundi", "Şərqi Hacıvəli", "Turağay", "Kənizədağ", "Qərbi Duvannı", "Duvannı", "Solaxay" və "Daşgil" yataqlarının) kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Komonvels Qobustan Limited, Yunion Teksas Qobustan Limited və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş

**Bakı, 2 iyun 1998-ci il**

Azərbaycan Respublikasında "Kürsəngi" və "Qarabağlı" neft yataqlarının daxil olduğu blokun reabilitasiyası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Frontera Resorses Azərbaycan Korporeyşn, DeltaHess Limited və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş

**London, 21 iyul 1998-ci il**

Xəzər dənizinin Azərbaycan sektorunda "İnam" perspektiv strukturunun daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Amoko İnam Petroleum Kompani, Monument Resorses (Kaspian) Limited, Sentral Fyuel Kaspian Si Limited və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş

**London, 21 iyul 1998-ci il**

Xəzər dənizinin Azərbaycan sektorunda "Araz", "Alov" və "Şərq" perspektiv strukturlarının daxil olduğu kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bögüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Bİ-Pi Eksploreyşn (Azərbaycan) Limited, Statoyl Azərbaycan Alov və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş

**London, 21 iyul 1998-ci il**

Azərbaycan Respublikasında "Muradxanlı", "Cəfərli" və "Zərdab" neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Remko Enerci (Muradxanlı) Limited və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş

**Bakı, 25 dekabr 1998-ci il**

Xəzər dənizinin Azərbaycan sektorunda "Atəşgah", "Yanan tava" və "Muğan-dəniz" perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Capan Petroleum Eksploreyşn Ko. LTD, İndoneziya Petroleum LTD, İtoçu Oyl Eksploreyşn Ko. LTD, Teykoku Kontinental Şelf Development Ko.LTD və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş

**Vaşinqton, 27 aprel 1999-cu il**

Xəzər dənizinin Azərbaycan sektorunda "Zəfər" və "Məşəl" perspektiv strukturlarının daxil olduğu kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Eksson Eksploreyşn ənd Prodakşn Kaspian Si Limited, Konoko Limited və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş

**Vaşinqton, 27 aprel 1999-cu il**

Azərbaycan Respublikasında "Padar" sahəsi və ona bitişik perspektiv strukturların daxil olduğu blokun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Kura Valley Development Kompani LTD (Monkrif Oyl) və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş

**Vaşinqton, 27 aprel 1999-cu il**

Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Savalan", "Dalğa", "Lerik-dəniz" və "Cənub" perspektiv strukturlarının daxil olduğu dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə Amerika Birləşmiş Ştatlarının "Mobil" şirkəti və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş

**Vaşinqton, 12 sentyabr 2000-ci il**

Azərbaycan Respublikasında "Mişovdağ" və "Kələməddin" neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Karasu Development Kompani (KDK), Petoyl Petroleum ənd Prodakts İntənəşnl Eksploreyşn ənd Prodakşn İnkorporeyted (Petoyl) və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş

**Bakı, 9 yanvar 2001-ci il**

Azərbaycan Respublikasında "Zığ" və "Hövsan" neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə LUKoyl Oversiz Abşeron LTD (LUKoyl) və ARDNŞ-nin Ortaq Neft Şirkəti arasında Saziş

**Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsi haqqında**
**ANKARA BƏYANNAMƏSİ**

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl, Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov öz ölkələrində neft və qaz ehtiyatlarının hasilatı və istehsalı, bir neçə boru kəməri vasitəsilə bu ehtiyatların dünya bazarlarına təhlükəsiz nəql edilməsi imkanlarını qiymətləndirərək, habelə bu məsələlər barədə təxirə salmadan qərar qəbul edilməsi zəruriliyini nəzərə alaraq bu bəyannaməni imzaladılar.

1) Prezidentlər hesab edirlər ki, onların ölkələrindəki karbohidrogen ehtiyatlarının işlənilməsi Xəzər regionu ölkələrinin və qonşu ölkələrin müstəqilliyinin və təhlükəsizliyinin möhkəmləndirilməsi üçün böyük əhəmiyyət daşıyır. Onlar həmçinin iqtisadi inkişafın təmin edilməsi, öz xalqlarının həyatının yaxşılaşdırılması üçün iqtisadi və kommersiya cəhətdən əlverişli boru kəmərləri vasitəsilə neft və təbii qazın nəql olunmasının zəruriliyini təsdiq etdilər. Prezidentlər daha sonra karbohidrogen ehtiyatlarının sərbəst, sabit şəkildə, ətraf mühitin qorunmasının şərtlərinə uyğun olaraq maneəsiz daşınmasını tələb edən Avropa energetika xartiyasının prinsiplərinə sadiq olduqlarını təsdiq etdilər.

2) Prezidentlər karbohidrogen istehsal edən ölkələrin mənafelərini əsas tutaraq qeyd etdilər ki, kommersiya cəhətdən məqbul və ədalətli olan, ayrı-seçkiliyə yol verməyən Şərq-Qərb dəhlizinin, o cümlədən Xəzər boru kəməri şirkətinin, Transxəzər və Transqafqaz boru kəmərləri sistemlərinin yaradılması Xəzər dənizi regionunda və başqa qonşu ölkələrdə hasil edilən karbohidrogenlərin dünya bazarına çıxarılmasını təmin edən son dərəcə mühüm layihədir.

3) Prezidentlər Azərbaycanın əsas ixrac boru kəməri üzrə qərar qəbul etmək ərəfəsində qətiyyətlə bəyan etdilər ki, onlar Xəzər-Aralıq dənizi (Bakı-Tbilisi-Ceyhan) boru kəməri layihəsini əsas ixrac layihəsinə çevirmək barədə qəti qərara gəlmişlər.

4) Prezidentlər həm istehsalçı ölkələr, həm də Xəzər dənizinin hər iki tərəfində yerləşmiş tranzit ölkələr üçün boru kəmərinin açıqlığının, habelə bu xəttin lazımi miqdarda məhsul ilə təmin edilməsinin əhəmiyyətini qeyd etdilər. Prezidentlər bu məqsədlə müvafiq hökumətlərlə ətraflı və konstruktiv danışıqlar aparmaq, boru kəmərinin yaradılması üçün əlverişli şərtlər təqdim etmək və zəruri maliyyə vəsaitinin ayrılmasını təmin etmək üçün Xəzər regionunda karbohidrogen ehtiyatlarının işlənməsində iştirak edən şirkətləri, başqa əlaqədar şirkətləri, habelə beynəlxalq maliyyə təsisatlarını dəvət etdilər.

5) Prezidentlər dünya bazarlarına enerji ehtiyatlarının nəql olunmasına dair layihələr üzərində işləyən xarici və yerli investorların hüquqlarının müdafiəsi haqqında beynəlxalq qanunlara uyğun olaraq Şərq-Qərb enerji dəhlizinin və bu çərçivədə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin yaradılması üçün zəruri şəraiti mümkün qədər tez bir zamanda təmin etmək barədə özlərinin müvafiq hakimiyyət orqanlarına göstəriş verəcəklərini öhdələrinə götürdülər. Onlar həmçinin investorlar üçün əlverişli şərait yaradılması məqsədi ilə lazımi tədbirlər görəcəkləri barədə razılığa gəldilər.

6) Prezidentlər Qara dənizin, Aralıq dənizinin sahillərinin, habelə Türkiyə boğazlarının qorunması üçün səylər göstərilməsinin əhəmiyyətini bir daha vurğuladılar. Prezidentlər həmçinin qeyd etdilər ki, xüsusilə Türkiyə boğazlarında tanker gəmiçiliyinin potensial artımını nəzərə alaraq neftin və təbii qazın dünya bazarlarına nəql edilməsi təhlükə yaratmamalı, ətraf mühitə, insanların həyatına, mülkiyyətinə və təhlükəsiz dənizçiliyə mane olmamalıdır.

*Ankara, 29 oktyabr 1998-ci il*

**Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsinə dair**
**İSTANBUL BƏYANNAMƏSİ**

Şərq-Qərb enerji dəhlizi çərçivəsində əsas ixrac boru kəməri kimi Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsində 1998-ci il oktyabrın 29-da imzalanmış Ankara bəyannaməsini inkişaf etdirərək Türkiyə, Gürcüstan və Azərbaycan işçi qrupları Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərini həyata keçirmək üçün sazişlər qovluğuna dair razılığa gəlmişlər. Bu layihə Xəzər hövzəsində və Mərkəzi Asiyada çıxarılan nefti Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə nəql edəcəkdir. 1999-cu il noyabrın 18-də Azərbaycan, Gürcüstan və Türkiyə hökumətlərarası sazişi imzalamış və tranzit ərazisinə malik ölkənin hökuməti ilə sazişləri paraflamışlar. Bundan əlavə Türkiyə ilə əsas ixrac boru kəmərinin əvvəlcədən müəyyən olunmuş qiymət və zaman əsasında tikilməsi haqqında saziş və Hökumət təminatı sazişi yekunlaşdırılmışdır.

Bölgənin neft ehtiyatlarının ətraf mühit üçün təhlükəsiz, etibarlı və kommersiya baxımından əlverişli marşrutlarla nəql edilməsinə dair öz məqsədlərinə çatmaq məqsədilə Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin hökumətləri aşağıdakılar barədə razılığa gəlmişlər:

- ölkələrin və bütövlükdə bölgənin iqtisadi və siyasi inkişafına təkan vermək məqsədilə, Xəzər hövzəsinin və Mərkəzi Asiyanın neft ehtiyatlarının işlənməsini və onların ətraf mühit üçün təhlükəsiz, etibarlı və kommersiya baxımından əlverişli boru kəmərləri ilə dünya ixrac bazarlarına vaxtında nəql edilməsini təmin etmək üçün bütün lazımi addımları atmaq;
- qısamüddətli qərarlarla yanaşı, daim Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərini dəstəkləmək;
- Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin sərmayəçiləri üçün əlverişli şərait yaratmaq və onların hüquqlarını təmin etmək məqsədilə özlərinin müvafiq ölkələrində hökumətlərarası sazişin ən qısa zamanda ratifikasiyası və qəbul edilməsi üçün öz səlahiyyətləri çərçivəsində bütün lazımi tədbirləri görmək;
- bu layihəni 2004-cü ilədək həyata keçirmək üçün bütün lazımi işləri görmək;
- Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə müəyyən neft həcmlərini nəql etmək barədə uzunmüddətli öhdəlik götürmək, xüsusi və beynəlxalq maliyyə təşkilatlarından maliyyələşdirməni sürətləndirmək üçün Xəzər hövzəsi və Mərkəzi Asiyadakı neft hasilatçılarını dəvət etmək;
- layihəni hazırlamaq, lazımi layihələşdirməni yekunlaşdırmaq, neft həcmləri öhdəliyini təmin etmək və maliyyə yollarını hazırlamaq məqsədilə ən qısa müddətdə işçi qrup yaratmaq.

Onlar öz hazırkı öhdəliklərinə zərər vurmadan və əvvəlcədən ifadə etdikləri istəyi təkrar təsdiq edərək Qazaxıstanda çıxarılan neftin xeyli miqdarının Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə dünya bazarına nəql edilməsini təmin edəcəyi barədə Qazaxıstan hökumətinin Bəyannaməsini alqışladılar.

Onlar həmçinin bir daha təsdiq etdilər ki, neftin boru kəməri vasitəsilə dünya bazarına nəql edilməsi xüsusilə Türkiyə boğazlarında tanker nəqliyyatının potensial artması səbəbindən ətraf mühitin, həyatın, əmlakın və nəqliyyatın mühafizəsi üçün təhlükə və risklərin qarşısının alınması baxımından əvəzedilməzdir.

**İstanbul, 18 noyabr 1999-cu il**

**Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsinə dair imzalanmış sənədlər**

Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri (ƏİBK) vasitəsi ilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında Saziş
**İstanbul, 18 noyabr 1999-cu il**

Türkiyə Cümhuriyyətinin Hökuməti və ƏİBK sərmayəçiləri ilə tranzit ərazisinə malik ölkənin hökuməti arasında Saziş
**İstanbul, 18 noyabr 1999-cu il**

Gürcüstan Hökuməti və ƏİBK sərmayəçiləri ilə tranzit ərazisinə malik ölkənin hökuməti arasında Saziş
**İstanbul, 18 noyabr 1999-cu il**

Əsas ixrac boru kəmərinin əvvəlcədən müəyyən olunmuş qiymət və zaman əsasında tikilməsi haqqında ƏİBK sərmayəçiləri və Türkiyə Cümhuriyyətinin təyin etdiyi inşaat podratçısı arasında Saziş
**İstanbul, 18 noyabr 1999-cu il**

Əsas ixrac boru kəmərinin əvvəlcədən müəyyən olunmuş qiymət və zaman əsasında tikilməsinə Türkiyə Cümhuriyyəti Hökumətinin təminat sazişi
**İstanbul, 18 noyabr 1999-cu il**

Azərbaycan Respublikasının Hökuməti və ƏİBK sərmayəçiləri ilə tranzit ərazisinə malik ölkənin hökuməti arasında Saziş
**İstanbul, 18 noyabr 1999-cu il**

Azərbaycan Respublikasının Hökuməti və ƏİBK iştirakçıları ilə tranzit ərazisinə malik ölkənin hökuməti arasında Saziş
**Bakı, 17 oktyabr 2000-ci il**

Bakı-Tbilisi-Ceyhan xam neft kəməri layihəsinin mühəndis işləri və layihələşdirilməsi üçün maliyyələşdirmə və əməkdaşlıq haqqında Saziş
**Bakı, 17 oktyabr 2000-ci il**

Tranzit ərazisinə malik ölkə hökuməti ilə sazişlərin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cumhurriyəti hökumətləri tərəfindən təsdiqnamələri
**Bakı, 3 fevral 2004-cü il**

Azərbaycanın təminat sazişi
**Bakı, 3 fevral 2004-cü il**

İştirakçılar sazişi üzrə birbaşa saziş
**Bakı, 3 fevral 2004-cü il**

Birinci dərəcəli kreditorlararası saziş
**Bakı, 3 fevral 2004-cü il**

# Adlar göstəricisi


Aaron, David - 99-100.
Abasov, Qurban - 14,16,17.
Abe, Tadahiro - 398.
Abraham, Spenser - 221,235,291, 298-299,310,347.
Adams, Terri - 148-149,151,153, 155,159,171,178-179,180.
Alen, Devid - 185,186.
Arlet, Gi - 59.
Atatürk, Mustafa Kamal - 108,439, 445,449.
Ayml, Con - 8.
Bakster, Nikolas - 99,109.
Barbiye, Tyeri - 333,334.
Barnz, Maykl - 334.
Batl, Con - 100-102.
Berluskoni, Silvio - 239,396,397,399.
Bersani, Luici - 102-103.
Biman, Triza - 128.
Bjezinski, Zbiqnev - 79.
Blanşar, Patrik - 334.
Blatman, Rolan - 239,394.
Bleyer, Toni - 111,113,221,239,300-301,309,313,337,396,399.
Bodman, Samuel - 379,386-387, 399.
Boniver, Marqerita - 396,397.
Börret, Riçard - 334.
Braun, Con - 7,14-16,111,236,379, 382,388-389,399,421-422,437,440.
Budrinski, Stefen - 334.
Bundevik, Kyel Maqne - 221,239, 275,279,281,301,309,398,399.
Buş, Corc - 221,239,295,298,299, 313,316,347,387,399,411,422.
Cövhəri, Nəcməddin - 7,17-20,23, 25.
Çanturiya, Giorgi - 333,336-338.
Çeyni - 347.
Çəpmən, Patrik - 333.
Çətin, Hikmət - 271.
Çillər, Tansu - 20,35,36-37,39.
Çörçill - 159.
Dadaşov, Fəxri - 334.
Daqano, Jan Fransua - 186.
Darqnis, Anton - 335.
Debeyki - 125.
De More, Tyeri - 87.
De Şarett, Erve - 87.
Deyli, Uilyam - 125,128-129,130,131.
Dəmiraq, Osman - 288.
Dəmirəl, Süleyman - 20,35,271,273, 275,276,277,278,279-281,297,311,313.
Dits - 125.
Dol, Jan Pyer - 206.
Doyl, Norin - 334,343-344,349.
Ecevit, Bülənd - 275,289.
Eqqar, Tim - 7,23,25,58,59,60-62,111.
Endryu - 386,396.
Eskudero, Stenli - 135.
Ələkbərov, Vahid - 7,41,44,50-51,66,141.
Ələsgərov, Murtuz - 183.
Ələsgərov, Valeh - 79,80,82,414.
Əl-Əyban, Bədr - 8,74,82,99,107-108.
Əliyev, Natiq - 17,27,31,36,44,51, 53,60,75,77-78,79,80,82,84,87, 93,99,105,111,117,128,131,141,145-148,149,153,155,185-190,191,193, 199,200-205,208-209,210,211, 216,221,223,227-228,231,233,234-236,239,241,245,261,284-287,288, 291,299-300,303-308,319,333, 338,345-348,349,353,362-363,365,389-391,411,414.
Əliyeva, Mehriban - 400,401.
Ərdoğan, Rəcəb Tayyib - 421,423-429,435,440,445,448,449-450.
Ərsümər, Cümhur - 103,104.
Façett, Derik - 155,160.
Fakih, Osam Cəfər - 7,22,23.
Fol, Brayn - 238.
Fotrop, Əndru - 288.
Fucivara, Toşiyuki - 239.
Füzuli, Məhəmməd - 39.
Gil, Hokon - 160.
Gil, Steynar - 221,301.
Gilauri, Nika - 363.
Gülər, Mehmet Hilmi - 238,333, 335-336,399.
Hamilton, Tomas (Tom) - 8,17,41,44.
Handa, Akira - 119.
Harniş, Rino - 238.
Haşimi, Seyid Əli Əkbər - 60,65-66,186.
Haşimoto - 116,123.
Hatçinson, Key Beyli - 125,128, 129-130,131,133,134,135-136,139.
Hezltayn, Maykl - 20.
Hirata, Takeo - 118-119.
Hitler - 33.
Holis, Con - 183.
Holqcem, Arne - 333.
Hom, Fil - 261.
Hüseyn, Seyid Mehdi - 60.
Hüseynov, Surət - 293.
Xakulov, Kayum - 160.
İvçenko, Aleksey - 395.
Jofre, Filip - 59,65,87.
Jvaniya, Zurab - 238.
Kaxuzaka, Jan - 205-206.
Kalitski, Yan - 74,75-77,79,85,133-134.
Kerolayn - 179.
Kərimov, İslam - 271.
Ki, Bill - 199,208.
Klemeyn, Maykl - 334.
Klinton, Bill - 33,48,73,75,77,85,91, 93,130,136,138,175,275,276,278,27 9,280,281,283,285,294,311.
Klo, Alberto - 41,44,46,48-49,51.
Koidzumi, Dzünitiro - 239,398,399.
Kormək, Arçi - 227.
Kosta, Marqerita - 239.
Kostyunin, Vladimir - 59,62-63.
Kovana, Pyetro - 333.
Kozlariç, Riçard - 33,79.
Körtis, Çarlz - 41,44,46-48.
Kuçma, Leonid - 239.
Kunts, Terri - 31,93,128,131.
Qaber, Sted - 149.
Qalkin, Mixail - 288.
Qaraqaya, Əli - 334.
Qlatye, T.C. - 125-128,131.
Qoldman, Devid - 134.
Qolubçenko, Anatoli - 160.
Qor, Albert - 73,74,85,91,93.
Qotts, Rocer - 334.
Qrem, Bill - 134,136,139.
Qrodi, Bayron - 63-64.
Qruder, Harvard - 335.





Quliyev, Fuad - 31,36,44.
Quliyev, Rəsul - 195.
Quliyev, Vilayət - 135.
Qundersen, Georq - 334.
Laflin, Qreq - 31,32.
Larsen, Rolf Maqne - 288.
Laura (Buş) - 299.
Lauri, Uilyam - 7,16-17.
Leydlou, Sem - 99,108.
Makduqall, Riçard - 99,108-109.
Makkey, Riçard - 227.
Maqanov, Ravil - 66.
Matske, Riçard - 93.
Mavadat, Şahbaz - 334,344-345,349.
Memioğlu, Erol - 186.
Meycor, Con - 20.
Meys, Maykl - 104.
Məmmədquliyev - 60.
Məmmədyarov, Elmar - 399.
Mənn, Stiven - 336,338-339,364-365,375.
Mikelancelo - 49.
Miller, Marti - 74,80-81.
Mirzəyev - 20.
Mitteran, Fransua - 87
Monkrif, Riçard - 128,130,131,133,134.
Morey, Nil - 335.
Morninqstar, Riçard - 128.
Moskato, Qulyelmo - 41,44,99,104,105.
Mudan, Herbinder - 335.
Murvanq, Qunnar - 7,21.
Myu, Riçard - 288.
Naqata, Minora - 117,120-121,333
Naqmanov, Kajmurat - 238.
Navro, Jan Klod - 334.
Nazarbayev, Nursultan Abişeviç - 239,271,275,276,277-278,279,294, 339,379,385-386,388,391,399, 417,418,419.
Nemtsov, Boris - 155,160,174-175, 176,181.
Nikandros, Stiv - 99,105-107.
Nikvold, Yotan - 7.
Niyazov, Saparmurad - 275,278-279.
Nobel qardaşları - 8.
Nocima, Koçu - 74,81-82.
Norvinq, Harl - 53,111.
Ohaşi, Keyzo - 334.
Okata - 122.
Olbrayt, Madlen - 93,285.
Oliver, Hyu - 155.
Oliver, Riçard - 334.
On, Lim Çi - 223.
Özal, Turqut - 297,311.
Palçev, İvan - 239.
Paşayev, Hafiz - 131,135.
Pederson, Tor İvar - 186.
Penya, Federiko - 93,155,160,175-176,181.
Pırvanov, Georgi - 239.
Pibalqs, Andris - 379,387-388.
Pitman, Carlz - 93.
Piyevski, Yevgeni - 335.
Polo, Marko - 48,49.
Polyakov, Sergey - 238.
Prodi, Romano - 239.
Puare, Şantal - 221,299,300.
Puqaç, Stanislav - 7,21-22,23.
Putin, Vladimir - 141,239.
Radney, Cim - 104.
Rafael - 49.
Rancan, Tuşita - 334.
Rasizadə, Artur - 105.
Remnits, Filip - 334.
Remp, Stiv - 8,111.
Riçardson, Bill - 128,134,271,281.
Saakaşvili, Mixail - 341,342,359, 362,363,364,365-372,377,379,384, 388,391,398,399,407-408,409,411, 421,422,429,435-437,440.
Sell, Kley - 422,423.
Sezər, Əhməd Necdət - 221,239, 288,289,291,295,296-297,298, 299,302,303,308,309,310,311-312,313,341,379,382-384,388,391, 398,399,400,407,408,409,410-411,421,422,429,435,437,438-440.
Səncər, Sidqi - 8,36,59,64-65,99,105.
Simada, Tosio - 117,121-122.
Skoginz, Uilyam (Bill) - 93,128,131.
Sözlü, Hüseyn - 445-448.
Steysi, Don - 74,78-80,82-83,85.
Stivens, Ted - 136,139.
Stoltenberq, Yens - 59.
Svivft, Castin - 238.
Şafranik, Yuri Konstantinoviç - 41, 45-46,51,59,111.
Şerman, Mayk - 185,190,191-193, 194,195,197.
Şevardnadze, Eduard Amvrosiyeviç - 160,173,175,176,178,181,221, 271,275,276-277,278,279,288, 291,294,295,296,297-298,299,302, 303,308,309,310,311,312-313,316, 317.
Şərifov, Abid - 183,288,333.
Şərifov, Samir - 349.
Şirak, Jak - 87,221,239,299,300, 309,313,394-395,399.
Şukputov, Andar - 339-340.
Takayuki, Yamada - 334,342-343,349.
Tanabe, Yasuo - 103.
Taunzend, Maykl - 333,349,363-364,414,415.
Teşşinz - 128.
Tibber, Piter - 221,300.
Tokayev, Qasımcomərd - 399.
Toqo, Takehiro - 117-118,119.
Tomson - 125.
Tonq, Si Eyc - 206-208.
Tuxvatulin, Rüstəm - 186.
Tzunozaki, Toşiro - 74,77,85.
Uayt, Uilyam - 7,20-21,23,24,31-32,33.
Uits, Devid - 334.
Ulseth, Oluf - 238,398.
Umeda, Harumiçi - 117,121.
Uoyke, Piter - 347.
Vakasugi, Katsuo - 117,119-120.
Vasilyev, Oleq - 44.
Viper - 125.
Vitnis, Uilyam - 8.
Vudvord, Devid - 216-217,218,219, 221,227,231,236-238,239,245, 249,255-256,259,284,287-288,289, 301-303,308,319,333,338,340-342,349,353,364,365,382,389,391-394,399,414,421,422,437.
Vulf, Con - 134-135.
Vulfenson - 347.
Yamasaki, Masao - 288,334.
Yamasaki, Takenosuke - 99,105.
Yanq, Tomas - 60.
Yeltsin, Boris Nikolayeviç - 89,175.
Yılmaz, Məsud - 160,173-174,175, 176,181,271.
Yusufzadə, Xoşbəxt - 414.
Yusufov, İqor - 238.
Yuşşenko, Viktor - 395-396,399.
Zaman, İsgəndər - 333,334.
Zurabişvili, Salome - 399.

# Mündəricat

**Tarixi müqavilələr imzalanır**

"Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi haqqmda müqavilənin - "Əsrin müqaviləsi"nin imzalanması ..... 7

"Əsrin müqaviləsi" üzrə Rəhbər Komitənin ilk iclası ..... 27

"Eksson" şirkətinin pay bölgüsünün artırılması haqqında sazişin imzalanması ..... 31

"Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətinin pay bölgüsünün artırılması haqqında sazişin imzalanması ..... 35

"Qarabağ" strukturunun birgə işlənməsi haqqında sazişin imzalanması ..... 41

ARDNŞ ilə "Statoyl" arasında əməkdaşlıq haqqında sazişin imzalanması ..... 53

"Şahdəniz" yatağının birgə işlənməsi haqqında sazişin imzalanması ..... 57

"Dan ulduzu" və "Əşrəfi" strukturlarının birgə işlənməsi haqqmda sazişin imzalanması ..... 71

"Lənkəran-dəniz" və "Talış-dəniz" yataqlarının birgə işlənməsi haqqında sazişin imzalanması ..... 87

"Yalama" və "Samur" strukturlarının birgə işlənməsi haqqında sazişin imzalanması ..... 89

"Abşeron", "Naxçıvan", "Oğuz" strukturlarının birgə işlənməsi haqqında sazişlərin imzalanması ..... 91

"Kürdaşı", "Cənub-Qərbi Qobustan", "Kürsəngi" və "Qarabağlı" strukturlarının birgə işlənməsi haqqında sazişlərin imzalanması ..... 95

"Araz", "Alov", "Şərq", "İnam", "Muradxanlı", "Cəfərli" və "Zərdab" strukturlarının birgə işlənməsi haqqında sazişlərin imzalanması ..... 111

"Yanan tava", "Atəşgah" və "Muğan-dəniz" strukturlarının birgə işlənməsi haqqında sazişin imzalanması ..... 115

"Zəfər", "Məşəl", "Savalan", "Dalğa", "Lerik-dəniz", "Cənub" və "Padar" strukturlarının birgə işlənməsi haqqında sazişlərin imzalanması ..... 125

"Mişovdağ" və "Kəlaməddin" yataqlarının birgə işlənməsi haqqında sazişin imzalanması ..... 133

"Zığ" və "Hövsan" yataqlarının birgə işlənməsi haqqında sazişin imzalanması ..... 141

**Xəzərdə neft hasilatının yeni dövrü başlanır**

"Dədə Qorqud" qazma qurğusunun işə salınması ..... 145

İlkin neftin çıxarılması ..... 155

Səngəçal terminalının açılışı ..... 183

"İstiqlal" qazma qurğusunun işə salınması ..... 185

"Qurtuluş" qazma qurğusunun işə salınması ..... 199

"Azəri", "Çıraq" və "Günəşli" yataqlarının tammiqyaslı işlənməsinin 1-ci mərhələsinin qətnaməsinin imzalanması ..... 213

"Azəri", "Çıraq" və "Günəşli" yataqlarının tammiqyaslı işlənməsinin 2-ci mərhələsinin qətnaməsinin imzalanması ..... 221

Heydər Əliyev adına yarımdalma üzən qazma qurğusunun təqdimatı ..... 223

Heydər Əliyev adına Bakı dərin dəniz özülləri zavodunda yeni platformaların təqdimatı ..... 227

"Azəri", "Çıraq" və "Günəşli yataqlarının tammiqyaslı işlənməsinin 3-cü mərhələsinin qətnaməsinin imzalanması ..... 231

Heydər Əliyev adına Bakı dərin dəniz özülləri zavodunda "Mərkəzi Azəri" platformasının üst modullarının təqdimatı ..... 241

"Mərkəzi Azəri" platformasından ilk neftin çıxarılması ..... 249

Kompressor və suvurma platformasının təqdimatı ..... 261

**BTC neft kəməri əfsanədən gerçəkliyə çevrilir**

Türkiyə Böyük Millət Məclisində Ankara bəyannaməsinin imzalanması ..... 271

"Çırağan sarayı"nda tarixi sənədlərin imzalanması ..... 275

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsi barədə sazişlərin imzalanması ..... 283

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması ..... 291

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin tikintisində ..... 319

Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlərin imzalanması ..... 327

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin nasos stansiyasının tikintisində ..... 353

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin Azərbaycan və Gürcüstan ərazilərindən keçən hissəsinin birləşdirilməsi ..... 359

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi ..... 379

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Gürcüstan hissəsinin istifadəyə verilməsi ..... 407

"Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəməri regionda sülhün, təhlükəsizliyin, sabitliyin və inkişafın qarantıdır" devizi ilə keçirilən beynəlxalq sülhməramlı aksiyanın iştirakçılarına ..... 412

Azərbaycan neftinin Ceyhan terminalına çatması münasibətilə Azərbaycan xalqına müraciət ..... 413

Qazaxıstanın BTC-yə qoşulması haqqmda müqavilənin imzalanması ..... 417

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin istifadəyə verilməsi ..... 421

Ceyhanda "Türkiyə-Azərbaycan qardaşlığı parkı"nın təntənəli açılışı ..... 445

**Əlavələr** ..... 454

Kitab Azərbaycan Respublikası Prezidentinin
Katibliyi tərəfindən hazırlanmışdır

Kitabın hazırlanmasında AzərTAc-ın
materiallarından istifadə olunmuşdur